AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

tabeliyində

AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU

və

MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDUNUN

birgə təşkilatçılığı ilə

“Müasir dini təhsil modelləri ənənələr və qlobal çağırışlar kontekstində”

mövzusunda

RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ MATERİALLARI

BAKI – 2024

Baş redaktor:
Dos. Aqil Şirinov

Redaksiya heyəti:
Dos. Mirniyaz Mürsəlov
Elnarə Ağaoğlu
Şahin Ələsgərov
Rəna Həsrətova
Rəhilə Misirxanova

Texniki redaktor:
Hilal Ağamoğlanov

“Müasir dini təhsil modelləri ənənələr və qlobal çağırışlar kontekstində” mövzusunda respublika elmi-praktik konfransının materialları. Bakı,“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC, 352 səh.

ISBN: 978-9952-545-49-4

MÜNDƏRİCAT

Ön söz 5

İslamda elmə verilən dəyər və Azərbaycanda XX əsrin əvvəllərində dini maarifçilik
f.e.d. Zəkiyyə Əbilova..... 8

Müasir dövrdə İlahiyyat fakültələrində “Qurani-Kərim” fənninin tədrisi: Azərbaycan və Türkiyə nümunəsində
f.f.d., dos. Mirniyaz Mürsəlov 23

Konstitusiyadan kurikuluma: qanunvericiliyin tələbləri qarşısında Azərbaycanın ümumtəhsil məktəblərinin dərsliklərindəki dini biliklərin məzmun təhlili
i.f.d., dos. Elnurə Əzizova 38

Azərbaycanın təhsil tarixində elm təsəvvürü: XIX əsr Şimal–Qərb bölgəsi nümunəsində
f.f.d., dos. Əhməd Niyazov..... 68

Dinlərarası dialoq kontekstində dini təhsil: reallıqlar və perspektivlər
i.f.d., dos. Məmmədəli Babaşlı 83

Azərbaycanda dini təhsilin formalaşması: reallıqlar və perspektivlər
f.f.d. Elnur Mustafayev 108

XIX əsrdə Şuşa şəhərində mədrəsə təhsilinin inkişaf tarixi
t.f.d. Əlizadə Nəcəfov; t.f.d. Anar Kərimli 119

Din tədrisində məzhəbüstü yanaşmanın zəruriliyi
f.f.d. Anar Qurbanov..... 135

Din tədrisinin əhəmiyyəti: hədəflər və problemlər
f.f.d. Faiq Əhmədzadə 153

Türkiyədə ilahiyyat fakültələrinin qısa tarixçəsi
i.f.d., dos. Aslan Həbibov..... 172

Dini xurafat və mövhumatla mübarizədə mətbuatın rolu
("Azərbaycan" qəzetinin (1947-1949) materialları əsasında)
t.f.d., dos. Əli Fərhadov..... 192

Multikultural və tolerant mühitin formalaşmasında dini təhsilin rolu
sənət.f.d. Aynur İsrafilova..... 215

Din tədrisində nümunəvilik prinsipi (Həzrət Peyğəmbərin timsalında)
f.f.d. Rüfət Şirinov 235

Azərbaycanda Ərəb dili tədrisinin dini təhsildəki yeri və mövcud problemlər
f.f.d. Ələddin Sultanov 253

"Dinlər tarixi" fənninin tədrisinin müasir təhsil sistemindəki yeri və prinsipləri
f.f.d. Aliyə Mürsəlova..... 264

İslamda köklü dini ənənələrdən bəhrələnən Quran hafizliyinin ölkəmizdəki bugünkü vəziyyəti və gələcəyi
f.f.d. Şahin Xancanov 283

Hədislərin ailə tərbiyəsində rolu
f.f.d. Səfa Muradov 303

Hacı Bektaş Vəli və Bəktaşi düşüncə sistemində təlim-tərbiyə
Emin Orucov..... 321

Prezident İlham Əliyev və Azərbaycanda dini təhsil modeli
Zeynəb Həcəmova..... 338

Ön söz

Din – cəmiyyətin və mədəniyyətin sakral fondunu təşkil edən transendental və mənəvi dəyərlər sistemidir. Fərdi, cəmiyyəti, xalqı və bütövlükdə milləti mənəvi böhrandan qoruyan immun sisteminin mühüm tərkib hissəsini təşkil edən dini dəyərlər bəşəriyyətin mövcudluq və rifahının ən etibarlı təminatçısıdır. Təsadüfi deyil ki, bir çox sosioloq dinin ictimai həyatdakı əhəmiyyətini inkar etməyib, onu ürəksiz dünyanın qəlbi, gündəlik həyatın kədərindən qaçıb, sığınılan bir liman olaraq görmüşlər.

Din insanların müştərək etiqad və dəyərlərini ifadə etmək üçün onların bir araya gəlmələrinə şərait yaradan, ictimai həyatda mənəvi rifahı təmin edəcək bir amildir. Dini belə dəyərləndirsək, mübaliğə etmiş olmarıq. Bu mənada, məşhur britaniyalı filosof, sosioloq və eyni zamanda, iqtisadçı Con Stüart Millin fikirləri diqqətəlayiqdir. Belə ki, filosofa görə, bir millətin mənəvi rifah və xoşbəxtliyi onun yaşadığı cəmiyyət üzvlərinin mənəviyyatında və dəyərlərində gizlənir.

Müşahidələr göstərir ki, tarix boyu yaşanmış ictimai-siyasi formasiyalarda məhz yüksək ali və mənəvi dəyərlər uğrunda tarixi məsuliyyəti üzərinə götürən cəmiyyətlər, xalqlar və millətlər azadlıq, müstəqillik və milli dövlətçilik kimi müqəddəs ideyaların gerçəkləşməsində həlledici rol oynayırlar. Dəyərlərinə sahib çıxmayanlar isə mövcudluq mübarizəsində öz mövqeyini itirib, tarix səhnəsindən silinmişlər. Bu mənada, Azərbaycanın tarixində milli özünəqayıdış istiqamətindəki siyasi strategiyanın ən mühüm mənəvi və dəyərli məqamlarından hesab edilən dil, ədəbiyyat, incəsənətlə yanaşı, həmçinin dinin də mühüm əhəmiyyət kəsb etməsi təsadüfi deyildir.

Dinin mənəvi-əxlaqi, humanist-dialoq potensialının və ümumbəşəri məzmununun dərk edilməsinin müstəqil ölkəmiz üçün əhəmiyyətli olduğunu vurğulamalıyıq. Dinin mənəvi dəyər kimi, ölkəmizin milli özünəqayıdış siyasətinin prioritet istiqamətlərindən biri olduğunu məntiqi kontekstdən anlamaq üçün qloballaşma prosesini sosial-mənəvi aspektdən təhlil etmək kifayətdir. Belə ki, müasir dövrdə dünyada dini zəmində baş verən problemlər göstərir ki, dinə yalnız inanc sistemi,

mənəvi dəyər, hüquqi məsələ, ya da keçmişin qalığı kimi baxılması doğru yanaşma deyildir. Tarixin müxtəlif dönəmlərində, təəssüf ki, dünyada bu gün də dinin siyasiləşdirildiyinin, dövlətlər tərəfindən bir-birlərinə qarşı silah aləti kimi istifadə edildiyinin şahidi oluruq. Bu mənada, din, bəzən, dövlət və cəmiyyətlərin dayaq nöqtəsi, onların müvəffəqiyyətini təmin edəcək amil rolunu oynayır. Bəzən də din siyasiləşdirilərək, bütün bəşəriyyətin kabusuna çevrilir. Buna görə də müasir dövrdə dövlətlər və cəmiyyətlər dinə daha çox həssas yanaşır, onu ictimai təhlükəsizlikdə mühüm amil kimi görürlər.

Qeyd edək ki, ümummillli lider Heydər Əliyev ölkəmizdə ictimai vəhdət və həmrəyliyi canlandıracaq əsas dəyər və prinsiplərin, o cümlədən din və din təhsili ilə bağlı məsələlərin təkrar təhlil süzgəcindən keçirilib dəyərləndirilərək müzakirə obyektinə çevrilməsini zəruri hesab etmişdir. Ulu Öndər bir çox nitq və çıxışlarında dinin əhəmiyyətinə və gənc nəslin bu istiqamətdə maarifləndirilməsinin vacibliyinə xüsusi diqqət çəkmişdir ki, bu da təsadüfi deyildir. Qeyd edilməlidir ki, Azərbaycan xalqının dəyərləri milli-mənəvi-dini amillərin kompleks şəkildə ifadəsidir.

Yuxarıda qeyd edilən vacib məqamlar mənəvi dəyərlərimizin sakral fondunu və metafizik mənbəyini təşkil edən dinin maarifçilik istiqamətində, həmçinin ümummilli maraqlar və düzgün prinsiplər yönündə təbliğ edilməsini gündəmə gətirir. Bu məsələ ilə bağlı elmi-praktiki konfransların keçirilməsi də mühüm amillərdən biridir. Bu mənada, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə “Müasir dini təhsil modelləri ənənələr və qlobal çağırışlar kontekstində” mövzusunda keçirilən respublika elmi-praktik konfransı böyük əhəmiyyət kəsb edir. Ümid edirik, konfransda “Müasir dövrdə İlahiyyat fakültələrində “Qurani-Kərim” fənninin tədrisi: Azərbaycan və Türkiyə nümunəsində”; “Konstitusiyadan kurikuluma: qanunvericiliyin tələbləri qarşısında Azərbaycanın ümumtəhsil məktəblərinin dərsliklərindəki dini biliklərin məzmun təhlili”; “Azərbaycan təhsil tarixində elm təsəvvürü: XIX əsr Şimal-Qərb bölgəsi nümunəsində”; “Dinlərarası dialoq kontekstində dini təhsil: reallıqlar və perspektivlər”; “Azərbaycanda dini təhsilin formalaşması: reallıqlar və perspektivlər”; “XIX əsrdə Şuşa şəhərində mədrəsə təhsilinin inkişaf tarixi”; “Din tədrisində məzhəbüstü yanaşmanın zəruriliyi”; “Din tədrisinin əhəmiyyəti: hədəflər və problemlər”; “Multikultural və tolerant mühitin

formalaşmasında dini təhsilin rolu”; “Dinlər tarixi fənninin tədrisinin müasir təhsil sistemindəki yeri və prinsipləri”; “Prezident İlham Əliyev və Azərbaycanda dini təhsil modeli” və digər aktual mövzuların müzakirə obyektinə çevrilməsi Azərbaycan Respublikasının din və din haqqında maarifləndirmə istiqamətindəki siyasi strategiyasına mühüm töhfələr verəcəkdir.

Dos. Aqil Şirinov,
Azərbaycan İlahiyyat İnstitutunun rektoru

İslamda elmə verilən dəyər və Azərbaycanda XX əsrin əvvəllərində dini maarifçilik

f.e.d. Zəkiyyə Əbilova,
Azərbaycan Milli Elmlər Akademiyası
Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun
baş elmi işçisi
Bakı, Azərbaycan
zekiyye.abilova@mail.ru
https://orcid.org/0000-0003-4395-4042

Xülasə

Müasir dünyada bir milyarddan çox insanın etiqad etdiyi İslam dininin təməl qaynağı olan Qurani-Kərimdə elmə və təhsilə yüksək dəyər verilir. Müqəddəs kitabımızda "bilmək" mənasını verən "علم – aləmə" kökündən yeddi yüz səksən kəlmə vardır. Quranda elmi və elm sahibini ucaldan, dəyər verib tərifləyən ayələr də mövcuddur. Bütün bu ayələr bizi elmə təşviq edir, həvəsləndirir. Quran ayələrində və hədislərdə, eləcə də buradan çıxış edən İslam alimləri tərəfindən qələmə alınmış əsərlərdə elm və bilik sahibi olmağın üstünlükləri aydın şəkildə göstərilir. Təqdim olunan məqalədə elm və dinin insan həyatındakı rolundan bəhs olunur. Burada Əbu Turab Axundzadə, Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə və Həsən Səbri Ayvazovun dini və dünyəvi elmlərlə bağlı bəzi fikirləri də nəzərdən keçirilir. Qurani-Kərimin hikmətindən və alimlərin araşdırmalarından belə nəticəyə gəlinir ki, yalnız dini və dünyəvi elmlərin vəhdəti insanı kamillik zirvəsinə çatdıra bilər.

Açar sözlər: *dini elmlər, dünyəvi elmlər, İslam şəriəti, Allahın izni, Bədr döyüşü*.

The Value of Science in Islam and Religious Enlightenment in Azerbaijan at the Beginning of the 20th Century

Dr.of Philosophy Zakiya Abilova
Chief Researcher,
ANAS Institute of Manuscripts named
after Mahammad Fizuli
Baku, Azerbaijan
zekiyye.abilova@mail.ru
https://orcid.org/0000-0003-4395-4042

Abstract

Science and education are highly valued in the Holy Quran, which is the foundational source of Islam, which is practiced by more than a billion people in the modern world. There are 780 words in our Holy Book from the root علم "alama" which means "to know".There are also verses in the Quran that praise knowledge and the possessor of knowledge. All these verses encourage us to science. Quranic verses and hadiths, as well as works written by Islamic scholars from here, clearly show the advantages of having science and knowledge. The presented article talks about the role of science and religion in human life. Some opinions of Abu Turab Akhundzadeh, Ali Bey Huseynzadeh, Omar Faig Nemanzadeh and Hasan Sabri Ayvazov regarding religious and secular sciences are also considered here. From the wisdom of the Holy Quran and the researches of scientists, we come to the conclusion that only the unity of religious and worldly sciences brings a person to the peak of perfection.

Keywords: *religious sciences, secular sciences, Islamic law, God's permission, Badr battle.*

Значение науки в исламе и религиозное просвещение в Азербайджане в начале XX века

д.ф.н. Закия Абилова
главный научный сотрудник
Института Рукописей
имени Мухаммада Физули НАНА
Баку, Азербайджан
zekiyye.abilova@mail.ru
https://orcid.org/0000-0003-4395-4042

Резюме

Наука и образование высоко ценятся в религии ислам, которую исповедуют более одного миллиарда человек в современном мире. Науке придается большое значение в Священном Коране, который является фундаментальным источником ислама. В нашей Священной Книге семьсот восемьдесять слов от корня علم «алама», что означает «знание». В Коране так же имеются аяты, восхваляющие знания и обладателя знаний. Все эти стихи побуждают нас к науке. Коранические аяты и хадисы, а также работы, написанные исламскими учеными, ясно показывают преимущества обладания наукой и знаниями. В представленной статье говорится о роли науки и религии в жизни человека. Здесь также рассмоткуны некоторые мнения Аьу Тураба Ахундзаде, Али бея Гусейнзаде, Омара Фаига Неманзаде и Хасана Сабри Айвазова относительно религиозных и светских наук. Из мудрости священного Корана и исследований ученых мы приходим к выводу, что только единство религиозных и светских наук приводит человека к вершине совершенства.

Ключевые слова: *религиозные науки, светские науки, исламский шариат, божье соизволение, битва при Бадре.*

Giriş

Din Allah tərəfindən müəyyən edilən və insanları ona ibadətə çağıran yoldur. Deməli, din insanın öz həyatını bütün səmimiyyəti ilə Allaha bağlayıb ona təslim etməsidir. Bu, sadəcə, sıxıntı və üzüntü anında Allaha sığınmaq deyil, hər zaman Onu xatırlamaq və qoyduğu qaydalara əməl etməkdir. Din xaliq və məbud olan Allaha nisbətdə hakim olmaq, itaət altına almaq, hesaba çəkmək, cəza-mükafat vermək, qula nisbətdə isə boyun əymək, əczini anlamaq, təslim olmaq, ibadət etməkdir. Nəhayət, din bu iki tərəf arasında münasibəti düzənləyən qanun, nizam və yoldur. O, könül və vicdan işidir (Harman, 1994, 312)

Quranda İslam Allah qatındakı haqq dinin qarşılığı və özəl adı kimi təqdim edilmiş, ondan başqa heç bir dinin Allah tərəfindən qəbul edilməyəcəyi vurğulanmışdır (“Ali-İmran”, 3/19, 85). Allahın başlanğıcdan etibarən, insanlığa təlqin etdiyi, insan təbiətinə ən uyğun olan tövhid dini Allah tərəfindən vəd edilmiş əsl din anlamındadır (Sinanoğlu, 2001, 1). Dinin müxtəlif tərifl ərindən belə bir ümumi nəticə çıxır ki, o, zehnən varlığı qəbul edilən, üstün gücə və ya güclərə qarşı duyulan, qəlbən bağlılıq və təslimlik duyğusu ilə bu qəbuldan irəli gələn ibadətlərin ifadəsidir (Sinanoğlu, 2001, 3). Hər bir müsəlman Allahın buyurduğu, Peyğəmbərimizin (s) ilkin olaraq təfsirini verdiyi haqq dinimizin etiqadi hökmlərinə əməl etməli, alimlərimiz geniş xalq kütlələrinə daha aydın çatdırılsın deyə, onun mübahisəli məsələlərini şərh edərək bu sahədə tədqiqatlar aparmalıdırlar (Sinanoğlu, 2001, 324). Odur ki, İslamın geniş şəkildə yayılmağa başladığı və bu dövlətlərin inkişaf etməyə rəvac verdiyi çağlardan günümüzədək İslam torpaqlarında bir çox elm adamı yetişmiş və elmi fəaliyyət vüsət almışdır. Elmi şərh və araşdırmalar yalnız İslamın fiqhi və etiqadi prinsiplərinin təhlilinə deyil, dünyəvi elmlərin tədqiqinə də köklü nailiyyətlər gətirmişdir. Təsadüfi deyildir ki, dünyada bir çox elmlərin inkşafına təkan verən kəşflərin əsasını məhz müsəlmanlar qoymuşlar.

1. İslam və elm

İslam dininin təməl qaynağı olan Qurani-Kərimdə və hədis ədəbiyyatında elm və təhsilin əhəmiyyətini izah edən, insanları elm öyrənməyə, öyrətməyə və təhsil almağa səsləyən yüzlərlə ayə və hədis mövcuddur.

Qurani-Kərimin ilk nazil olan surəsi “Oxu” sözü ilə başlayır (Ya Peyğəmbər! Qurani-Kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (Bismillah deyərək) oxu! O, insanı laxtalanmış qandan yaratdı. (Ya Peyğəmbər) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir. O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi (“əl-Ələq”, 96/1-5). Göründüyü kimi, İslamın qanun kodeksi olan Quran insanı hər şeydən əvvəl elmli olmağa çağırır.

Qurani-Kərim insanları Allahın yaratma sənətindəki detalları və dünyanı necə xəlq etdiyini bilmək üçün öyrənməyə və araşdırmağa təşviq edir. İnsanlar göylərin, yerin, dağların, ulduzların, bitkilərin, toxumların, heyvanların, gecə ilə gündüzün əmələ gəlməsi, özlərinin doğuluşunun, dillərinin və rənglərinin müxtəlif olmasının, yağışın və yaradılmış daha bir çox varlığın üzərində düşünməyə və bu varlıqları tədqiq etməyə dəvət olunur. Başqa sözlə, İslam dini elmi Allahın yaratma sənətindəki detallara yetişməkdə bir yol kimi qəbul edir.

Peyğəmbərimiz Məhəmməd *(s.ə.s.)* şəri elmlərlə yanaşı, dünyəvi sahələri də öyrənməyə, dövrünün tələblərinə cavab verən elmi vasitələrin öyrənilib, tətbiq edilməsinə böyük önəm vermişdir. Buna sadə bir misal olaraq, onun Bədr döyüşündən sonra əsir alınmış müşriklər qarşısında qoyduğu şərti göstərə bilərik. Belə ki, həmin dövrdə yazıb-oxumağı öyrənməyə çox böyük ehtiyac var idi. Ümmətinin savadlanması üçün çalışan Peyğəmbər (s.ə.s.) məqbul sayılan hər vasitəyə əl atırdı. O, Bədr döyüşü zamanı əsir düşən müşriklərin azad olunması üçün onların qarşısında hər birinin on müsəlmana yazıb-oxumağı öyrətməsini şərt qoyur. Həmçinin, Həzrət Peyğəmbər dövrün tələblərindən olan atıcılıq, üzgüçülük, güləşmək, at minmək və digər döyüş növlərini də öyrənməyi tövsiyə etmişdir (6) .

Dünya elmi, incəsənəti və mədəniyyətinin inkişafında İslam dünyasının alim və mütəfəkkirlərinin olduqca böyük rolu olmuşdur. Bu görkəmli alimlərin elmlərin təsnifatından bəhs edən əsərlərində fiqh, fəlsəfə, kəlam, kimya, nəhv, tibb, cəbr, həndəsə, coğrafiya, astronomiya, astrologiya və digər ərəb və əcəm elmlərinin mahiyyəti, terminologiyası, tətbiqi ilə bağlı yürütdükləri fikir və mülahizələri günümüzədək aktuallığını qoruyub-saxlamaqdadır.

İslam dini bizə dünya işlərinin, faydalı elmlərin öyrənilməsi niyyəti ilə birinci növbədə, insanın yaranışı ilə bağlı məlumat verir. Təbii ki, burada tibb elminin bir sahəsi olan anatomiya haqqında ilkin biliklər əldə edirik. Rəbbimizin əmri ilə Quran ətraf mühitə, canlı və cansız təbiətə, içində olduğumuz cəmiyyətə münasibətimizi tənzimləyir,

məsləhətlər verir, bilmədiklərimizi öyrədir.Tədqiqatçılar göstərir ki, İslam dinindəki həqiqətlərə əsaslanaraq istiqamətləndirilən elmi araşdırmalar çox sürətli və dəqiq nəticələr verir.

Allahın yaratdıqlarını düşünməyə, öyrənməyə və araşdırmağa cəhd edənlər haqqında Həzrət Peyğəmbər hədislərin birində buyurur: "Elm Çində olsa da dalınca get". Ola bilsin, bir ölkə kimi "Çin"in nümunə verilməsi məsafənin uzaqlığını göstərmək istəyindən irəli gəlmişdir. Müasir nəqliyyat vasitələrinin olmadığı həmin dövrdə Çin qədər uzaq hər hansı bir ölkədə olsa da, elm dalınca getmək, onu öyrənmək lazımdır. Yəni hər hansı bir uzaq ölkədə elminin artması üçün imkan olarsa, çətinlikdən qorxma, məqsədin uğrunda hər şeyə döz və irəlilə. Elə dörd əsr sonra elm dalınca piyada Təbrizdən Şama gedən Xətib Təbrizi də bu amalın yolçusu idi. Digər tərəfdən, əgər sırf Çin nəzərdə tutulsa idi, bilirik ki, bu gündoğar ölkənin etiqad göstərdiyi din İslam deyildir. Bəs onda "Çinə gedən" hansı dini əxz etməli idi? Belə ki, Peyğəmbərimiz və əshabi-kiramı müşriklərin və bütpərəstlərin etiqadlarına bələd idilər. Şübhəsiz, Həzrət Peyğəmbər "elm" dedikdə fərd kimi insanın özü, bütövlükdə isə bəşər övladına fayda verə biləcək dini və dünyəvi elmlərin hamısını nəzərdə tuturdu. Həzrət Peyğəmbər buyurmuşdur: "Elmi beşikdən qəbrə kimi öyrən". Bu hədisdə də İslam Peyğəmbəri "elm" söylədikdə elə insanın zəka, qabiliyyət və baçarığını artıran bütün sahələri nəzərdə tutulur. O, hər bir müsəlmanı etiqad etdiyi İslam dini ilə yanaşı, riyaziyyat, tibb, kimya, ədəbiyyat və digər elmləri də öyrənməyə çağırır. Elə bu baxımdan, Qurani-Kərimdə olduğu kimi, Peyğəmbərimiz (s) tərəfindən də dini və dünyəvi elmlər bir vəhdət halında "elm" şəklində ifadə olunur. Bu elmi beşikdən qəbrədək öyrənməyi tövsiyə edir. İslamı öyrənmək üçün Müqəddəs Kitabımız, hədislər olduğu bir halda, dünyəvi elmləri öyrənməyə ehtiyac duyulduğundan, İslamın ilk illərindən başlayaraq, elmi əsərlərin yunan və başqa dillərdən ərəb dilinə tərcüməsinə başlanılır.

İslam dinində elmlərin öyrədilməsinə – təhsilə də böyük əhəmiyyət və dəyər verilir. Quranda təhsilə və təlim-tərbiyəyə aid olan oxuma, yazma, qələm, əxlaq, insanın tərbiyəsi və yetişdirilməsi ilə əlaqədar ayələrin olması bunun sübutu sayıla bilər (4).

Quran ayələrində və hədislərdə, eləcə də buradan çıxış edən İslam alimləri tərəfindən qələmə alınmış əsərlərdə elm və bilik sahibi olmağın üstünlükləri aydın şəkildə göstərilir. Qurana görə, insanların bərabərliyi əsasdır. İrqin, dilin, sərvətin fərqli olması bir üstünlük deyildir. Yalnız elm insanları cəhalət əhlindən üstün ola bilər (Həsənov,

304, 32). Elmli insan həyati məsələləri daha zehin açıqlığı ilə sintez edə bildiyindən, digərlərinə verdiyi məsləhətlər də faydalı olur. Nəticədə, cəmiyyət arasında seçilir və ona xüsusi rəğbət bəslənilir.

Peyğəmbər (s) həyatda ikən insanlar hələ o vaxt çox şey öyrənmək üçün onun yanına gəlirdilər. Həmin dövrdə Rəsulullah Məscidi-Nəbəvidə "Suffə" (talvar) adlanan məktəb də açmışdı. Maraqlananlar bura toplaşır, Peyğəmbərin mülahizə və açıqlamalarına qulaq asırdılar. Zaman ötdükcə, belə məktəblərin sayı artdı, bütün müsəlman Şərqini bürüdü (6).

2. XX əsrin əvvəllərində Azərbaycanda dini maarifçilik

Azərbaycan xalqı öz milli ənənə və özəlliklərini yaşatmaqla yanaşı, təmsilçisi olduğu İslamın və İslam elmlərinin inkişafında böyük xidmət göstərmişdir. Qaynaqlara nəzər salsaq, azərbaycanlı müəlliflərin Quran, təfsir, kəlam, fiqh, irfan, əxlaq və başqa sahələr üzrə çoxlu əsərlər yazdığının şahidi olarıq. İslam ölkələrinin inkişaf dinamikliyi İslamın özünün cəmiyyətdə və onun əsas təsisatlarında tutduğu mövqedən asılıdır. Quran ayələrində və hədislərdə, eləcə də buradan çıxış edən İslam alimləri tərəfindən qələmə alınmış əsərlərdə elm və bilik sahibi olmağın üstünlükləri aydın şəkildə göstərilir (Əbilova, 2013, 29). Həmin dövrdə Ruhani İdarəsinin göstərişi ilə təyin edilmiş məktəb və mədrəsələr Zaqafqaziya diyarının hər yerini bürümüşdü. Bakıda 1873-cü ildə 55 tələbənin təhsil aldığı 5 mədrəsə, 10 müəllimin dərs dediyi və 120 tələbənin oxuduğu 9 məktəb fəaliyyət göstərirdi. Tiflis quberniyasında XX əsrin əvvəllərində 719 nəfərin təhsil aldığı, 60 müəllimin dərs dediyi 54 müsəlman məktəbi fəaliyyət göstərirdi. Yelizavetpol quberniyasında 67 960 nəfərin təhsil aldığı 93 ruhani məktəbində 5 315 müəllim dərs deyirdi. Bakı quberniyasında 2 365 müəllimin dərs dediyi 296 ruhani məktəbində 97 666 nəfər təhsil alırdı. Şuşa və Zəngəzur qəzasında 15 məktəbdə 343 şagird ərəb, fars və türk dillərini, eləcə də Qurani-Kərimi öyrənirdilər (Кулиева, 2003, 32). Onu da qeyd edək ki, artıq XIX əsrin sonlarına yaxın yenitipli məktəblər yaranması ilə Azərbaycanda, tədricən, ictimai-pedaqoji hərəkat formalaşmağa başladı. Tədrisdə "üsuli-cədid" (yeni üsul) ideyası ortaya çıxdı. Mollaxana və mədrəsələrlə yanaşı, yenitipli məktəblərin açılması, ərəb və fars dilləri ilə bərabər, Azərbaycan dilinin tədris olunması əlamətdar hadisələrdən idi. Rus dilinin müstəqil fənn kimi tədris olunduğu bu məktəblərdə dərs planına ümumtəhsil xarakterli fənlər, dünyəvi biliklər

də daxil edilirdi. Azərbaycanda ilk "Üsuli-cədid" məktəbi 1870-ci ildə S.Ə.Şirvani tərəfindən Şamaxıda açılmışdır. Zaman keçdikcə əlaqələr genişlənir, Rusiya və xaricdə oxuyub gələnlərin sayı çoxalır, dünya ədəbiyyatı klassiklərinin əsərləri tərcümə edilirdi. A.Bakıxanov, M.Kazımbəy, M.Topçubaşov kimi mütəfəkkir tarixçi, şərqşünas, coğrafiyaşünas və başqa alimlərin elmi fəaliyyətləri nəticəsində, Azərbaycan elminin bir çox sahələri inkişaf edirdi. Qərb-Şərq sintezinin böyük nümayəndəsi, İslam ənənələrinə sıx bağlı olan bir ailənin nümayəndəsi Əli bəy Hüseynzadə yazırdı: "Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşf və ixtiralarına müraciət etmək istəyirik, özlərinə yox! Biz istəyirik ki, İslam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istəyirik ki, ölkəmiz onların beyinlərini həzm etsin, mədələrində həzm olunmasın" (Hüseynzadə, 1996, 4).

Azərbaycanda İslam yayıldıqdan bəri bu torpağın çox sayda yetişdirmələri həmin zəngin xəzinənin dəyərlərini tədqiq etməklə məşğul olmuş, elm və təqva sahibi olan alimlər İslam elmlərini mənimsəyərək qiymətli əsərlər ərsəyə gətirmişlər. Həcmindən asılı olmayaraq, bu əsərlər gənc nəslin əxlaq və maariflənməsində böyük rol oynamışdır. İslam dininin mənəvi sərvətləri, o cümlədən insanların elm öyrənməyə və öyrətməyə olan maraqları ilə bağli ötən əsrin əvvəllərində dərc olunmuş əsərlərdən ikisini oxucuların nəzərinə çatdırmaq istərdim.

Onlardan biri Axund Mirzə Əbu Turab Axundzadənin "Bizə hansı elmlər lazımdır?" ünvanlı məqaləsidir. Məqalə 1907-ci ildə çap olunub. Əbu Turab Axundzadə Azərbaycan islamşünaslığında xüsusi nüfuza malik simalardan biridir. Mirzə Əbu Turab Axundzadə 1817-ci ildə Bakının Əmircan kəndində anadan olub. Əsl adı məlum deyil. "Əbu Turab" adını Ərəbistanda dini təhsil adığı illərdə ləqəb kimi götürüb. O, Bakıda, Mirzə Həsib Qüdsinin mədrəsəsində ibtidai, daha sonra isə Mədinədə və Bağdadda ali ruhani təhsili alıb. Ərəb, fars, türk və rus dillərini bilib. Hacı Zeynalabdin Tağıyevin 1901-ci ildə Qızlar məktəbi fəaliyyətə başlayanda, öz qızını həmin məktəbə qoyub. Axundun təşəbbüsü ilə Əmircan kəndində də ilk dəfə olaraq qızlar mədrəsəsi açılıb. Mirzə Əbu Turab Axundzadə mütərəqqi fikirli bir din xadimi kimi mövhumata, dini fanatizmə, baş yarmağa və zəncir vurmağa qarşı olub. Məhz buna görə də ölkədəki bəzi radikal dindarlar tərəfindən hədələnib, təqiblərə məruz qalıb (10).

Alim 1845-1846-cı illərdə iki dəfə Tiflis şəhərinə dəvət olunub, Qafqaz canişini və Zaqafqaziya Şeyxülislamı Məhəmmədəli Hüseynzadə tərəfindən ona Bakı vilayət qazısı vəzifəsini icra etmək təklif

olunub. O, bu vəzifədən imtina edib. Alim 1908-ci ildə dünyasını dəyişib, Mərdəkandakı Pir Həsən məzarlığında dəfn olunub.

Yuxarıda qeyd edildiyi kimi, Axund Əbu Turabın bir sıra mütərəqqi fikirləri olmuşdur. Onun adıçəkilən məqaləsində bəzi təzadlı fikirlərə rast gəlinir ki, bunlar da dövrünün bir sıra ziyalıları tərəfindən birmənalı qarşılanmamışdır. Məqalədə yazılır: "Məlumdur ki, məktəblər elmi-şəriətdən tamamilə xalidir və məktəbə gedən uşaqları əvvəlinci gündən müsəlmançiliqdan uzaqlaşdırmaqdadırlar. Bəzi kitablardan ki, dini-islamın heç bir mətalibi - mühümməsinə aid deyil, daha çox tədris olunur. Məktəblərdə təhsil alanların rəftar və davranışlarından məlum olur ki, İslam şəriətinin heç bir etiqad və əməllərindən xəbərdar deyildirlər... Təbiət hikmətini bilməklə insan olmaq olmaz. Hikməti-ilahi ilə kamil olmaq insanı insan edər. Vacib elm diyanət və şəriətdir. Bu elmi təkmil edib, başqa elmləri əldə etmək insan üçün bir artıq fəzilət olacaqdır. Lazımdır ki, insan əvvəl vacib və lazım olan diyanət elmini əldə etsin, sonra digər elm və maariflə məşğul olsun (Hüseynzadə, 1996, 7).

Axundun bu fikirləri dövrün ziyalıları tərəfindən birmənalı qarşılanmamışdır. Mütəfəkkir yazıçı, publisist və ədəbiyyat tənqidçisi XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri, uzun müddət alim, həkim, rəssam, şair, tərcüməçi, müəllim, jurnalist kimi fəaliyyət göstərmiş Əlibəy Hüseynzadə (Əli Hüseyn Turan) və Azərbaycan ədibi, ictimai-siyasi xadim, mollanəsrəddinçi, publisist, pedaqoq, "Qeyrət" mətbəəsinin sahibi, "Molla Nəsrəddin" jurnalının həmtəsisçisi, Gürcüstan SSR Müvəqqəti İnqilab Komitəsinin üzvü və Gürcüstan SSR Müsəlman İşləri Üzrə Şuranın 1-ci sədri olmuş Ömər Faiq Lömən oğlu Nemanzadə (1872–1937) cənablarının bu barədə fikirlərini bilmək maraqlı olardı.

Əli bəy Hüseynzadə Qafqaz müsəlmanları ruhani məclisinin Tiflisdəki altısinifli məktəbinin müəllimi Molla Hüseynin ailəsində dünyaya göz açmışdır. İlk təhsilini atasının dərs dediyi bu məktəbdə almışdır. Atasının çox erkən ölümündən sonra o, ana babası –Qafqaz şeyxülislamı Axund Əhməd Salyaninin himayəsində böyümüşdür. Tiflis gimnaziyasını bitirmiş (1875–1885), uşaqlıq və tələbəlik illərində türk, fars, ərəb, alman və rus dillərini öyrənmişdir. Əli bəy Hüseynzadə babası Şeyx Əhməd ilə onun dostu, Azərbaycan dramaturgiyasının banisi, ictimai xadim Mirzə Fətəli Axundzadənin (1812–1878) söhbətlərindən faydalanmış və onların tərbiyəsi altında zamanının ədəbi

çevrəsini tanımışdır. O, 1885-ci ildə Sankt-Peterburq Universitetinin Riyaziyyat fakültəsinə daxil olmuş, eyni zamanda, Şərq fakültəsində görkəmli professorların mühazirələrini dinləmişdir. Rusiyada inqilabi hərəkatlara qoşulan Əli bəy bir sıra inqilabçı tələbələr kimi, Sankt-Peterburqdan uzaqlaşmaq məcburiyyətində qalıb, Türkiyəyə – İstanbula gəlir. Burada İstanbul Darülfünunun Əsgəri-tibbiyyə fakültəsində təhsil alır, "Dermatoveneroloq" ixtisası və yüzbaşı hərbi rütbəsi qazanır. Əli bəy 1897-ci ildə "Qırmızı Aypara" Cəmiyyəti heyətinin tərkibində İtaliyaya gedir. Üç ildən sonra geri qayıdıb, müsabiqə yolu ilə İstanbul Darülfünunda Əsgəri-tibb fakültəsində professor köməkçisi vəzifəsinə təyin edilir. Əli bəy 1940-cı ildə İstanbulda vəfat etmiş və Üskidarın Qaracaəhməd qəbiristanlığında dəfn edilmişdir (11).

Əli bəy Hüseynzadə Axund Əbu Turabın fikirlərinə münasibətini belə bildirir: "Nə haqq və mubin olan din elmdən qorxar, nə də elm həqiqi din və məzhəbə düşməndir. İxtilaf bunlar arasında deyil, ixtilaf özlərini haris və hamil din bilən mollalarla ülumi-diniyyədən xəbərdar olmayan ərbabi-elm və məarif arasındadır" (Axundzadə, Hüseynzadə və Nemanzadə,1907, 11). "Axund həzrətləri, bizə ülumun hamısı eyni dərəcədə lazımdır: həm ülumi-diniyyə, şəriyyə və ruhaniyyə, həm riyaziyyat və təbiiyyat və ədəbiyyat kimi ülumi mücərrədə və cismaniyyə! Elmin şəhəri olan Həzrət Peyğəmbərimizin (s) də fikri belədir. Elmin qapısı olan, riyaziyyat, təbiiyyat və ədəbiyyat kimi üluma tam vaqif olan cənab Əli (ə) də bir aləmi-külldür. Ayrı-ayrı yollarla bir eyni məqsədə vasil edən, bu yollardan birinin banisi olan və övliya içində hikməti-Quranı mükəmmələn dərk edən Həzrət Mövlanənin də" (Axundzadə, Hüseynzadə və Nemanzadə,1907, 12).

İslam dininin dəyərlərini dərindən dərk edən Ə. Hüseynzadə cəmiyyətin bu sahədəki naqisliklərini aradan qaldırmaq üçün ali təhsil verə biləcək bir universitetin açılmasını da arzulayırdı. Həmin universitetdə dünyəvi biliklərin tədrisini labüd sayırdı: "Bir darülfünuni-islamiyyəmiz olsa idi, ilahiyyat şöbəsində mollalara tarixi-ədyanı oxumaq lazım gəlməyəcəkmi? Ülumi-diniyyə və ruhaniyyəni, qanuni-ilahiyyəni, şəriəti, elmi-əqaidi, elmi-təsfiri, elmi-hədisi, elmi-fiqhi oxumaq bizə vacibdir. Aşkar şeydir. Bunu heç kəs inkar edə bilməz. Lakin ülumi-riyaziyyə, təbiiyyə, ülumi-iqtisadiyyə-ictimaiyyə və siyasiyyə də, kənd təsərrüfatı elmləri də, ticariyyə və sənaiyyəyi də əldə etmək eyni dərəcədə, bəlkə daha artıq vacibdir" (Axundzadə, Hüseynzadə və Nemanzadə,1907, 14).

Göründüyü kimi, islami elmləri gözəl bilən görkəmli alim Əli bəy Hüseynzadə xalqının cəhalət pərdəsini atması üçün dünyəvi elmlərdən də xəbərdar olmasını mühüm sayır. Nicat yolunu dini elmlərlə yanaşı, dünyəvi elmləri də həzm etməkdə görürdü.

Kitabda Axundun fikirlərinə münasibət bildirən ikinci görkəmli şəxsiyyət milliyyətcə Axıska türkü olan Ömər Faiq Nemanzadədir. Ömər Faiq 1894-cü ildə Şəkidə ilk üsuli-cədid məktəbində dünyəvi elmlərdən dərs demiş və İstanbuldan gətirdiyi açıqfikirli əsərləri xalqa paylayıb oxutmuşdur. O, burada M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" pyesini səhnə üçün hazırlamış, Müsyö Jordan rolunda özü çıxış etmişdir.

Ömər Faiqin publisistik fəaliyyətində əsas mənəvi-etik prinsiplərdən biri vətənpərvərlik, Vətənə, xalqa bağlılıq, xalqın mənəvi sərvətlərinə qayğılı münasibət idi. Ömər Faiq milləti sevməyin birinci əlamətini onun dilini sevməkdə görürdü, buna görə də milli dil problemi onun yaradıcılığında başlıca yer tuturdu. Ömər Faiq siyasi cəhətdən yetkin, mübariz bir publisist olmuşdur. O, bir çox siyasi toqquşmalarda şəxsən iştirak etmiş, siyasi təbliğat aparmışdır (13).

Axund Əbu Turabın “Bizə hansı elmlər lazımdır?” məqaləsinə Ömər Faiq Nemanzadə belə cavab verir: “Əgər sizin dediyiniz kimi elmdən murad yalnız “elmüş-şəriət” olsa idi, heç vaxt “ətlibu ilmə” (elmi tələb et, öyrən) deyilməzdi. Bəlkə “ətlibul-fiqhə” deyilərdi. Çünki şəriət istilahınca şəriət elminə mütləq “elmi - fiqh”, ümumiyyətlə, “bilmə”yə “elm” deyilibdir. Hər halda, “fiqh”dən məqsud elmi-şəriət, “elm”dən məqsud da məhz ülumi-əqliyyədir. Bir də əsri-səadətdə və xəlifələr zamanında şəriət elmi o qədər sadə, o dərəcədə aydın və bəsit idi ki, onu öyrənmək üçün uzun zaman əslən lazım deyildi” (Axundzadə, Hüseynzadə və Nemanzadə,1907, 28).

Mütəfəkkir burada “Elmi beşikdən qəbrədək öyrən” hədisini nəzərdə tutur. Müəllif “elm” ifadəsinin məhdud deyil, bütün sahələrini nəzərdə tutur. Qurani-Kərimdə “dini elm”, “dünyəvi elm” ifadələri yoxdur. Yalnız “elm” sözü var. “Elm” bütün sahələri əhatə edən ümumi məfhumdur. Elm dərin bir ümmandır. Bu ümmanın dərinliklərinə baş vurmağa bütöv bir insan ömrü bəs etməz. Bunun üçün də elmi beşikdən-qəbrədək öyrənmək lazımdır. Deməli, “elm” dedikdə Peyğəmbərimiz (s.ə.s.) dini, dünyəvi elmləri nəzərdə tuturdu. Yalnız hər iki sahədən xəbərdar olan şəxs kamil insan ola bilər. Məqalə Əli bəy Hüseynzadənin və Ömər Faiq Nemanzadənin cavabları ilə birlikdə 1907-ci ildə Tiflisdə “Qeyrət” mətbəəsində kitabça şəklində çap olunmuşdur.

Gənc nəslin təlim və tərbiyəsindən bəhs edən digər bir əsər Həsən Səbri Ayvazovun “Kaspi” və “Həyatın buxariyyə” mətbəəsində çap etdirdiyi “Üsuli-tədris və təlim- tərbiyə” əsəridir. Burada Həsən Səbrinin həyatı ilə bağlı bir qədər məlumat vermək yerinə düşərdi. Həsən Səbri Ayvazov 1878-ci ilin may ayının 6-da Krımın Alupka qəsəbəsində, kasıb tatar ailəsində doğulmuşdur. İlk təhsilini doğulduğu qəsəbədəki mədrəsədə aldıqdan sonra, orada müəllimlik edən H.Səbri dünyanı dərk etdikcə, xalqının əsarət altında inlədiyini görürdü. Təhsilinə davam etmək məqsədilə İstanbula, daha sonra Qahirəyə getmişdir. Azsavadlı insanlara təsir etmək istəyi ilə “Nədən bu hala qaldıq?” pyesini 1906-cı ildə Bakıdakı "Füyuzat" jurnalında çap etdirir. II Dövlət Dumasına deputat seçilən istedadlı publisist, islahatçı görüşləri ilə seçilən Rəşid Mehdiyev ana dilində bir qəzet nəşrinə icazə alır. H.S.Ayvazovun redaktoru olduğu “Vətən xadimi” qəzetinin ilk sayı 1906-cı ilin may ayının 1-də Qarasubazarda işıq üzü görür. Çox təəssüf ki, qəzet 1908-ci ildə hökumət tərəfindən bağlanır. Bir müddət Moskvadakı Lazarev İnstitutunun Şərqşünaslıq fakültəsində dərs deyən Həsən Səbri ictimai-siyasi xadim kimi şöhrət tapır. Özünü həmişə İsmayıl bəy Kaspıralının tələbəsi sayan Həsən Səbri həm də onun köməkçisi və məsləkdaşı olmuşdur. “Tərcüman” qəzetinin redaktorluğunu da İsmayıl bəy Qaspıralı məhz H.S.Ayvazova etibar etmişdi. Ölüm ayağında İsmayıl bəy Qaspıralının başı üzərində olan və onun son sözlərini türk dünyasına çatdıran da H.Səbri olmuşdur. Rusiyanı 1917-ci ilin fevralında sarsıdan inqilab Krımdan da yan keçmir. Krımda azadlıqsevərlər ayağa qalxırlar. Onlar müstəqil dövlətlərini də qura bilirlər.

Qara dəniz matrosları 1918-ci ilin yanvarın 26-da gənc Krım hökumətini qan içində boğurlar. Vətənini çətin durumdan qurtarmaq üçün H.S.Ayvazov Krım dövlətinin təmsilçisi kimi İstanbula gedir. Türkçülüyün ideoloqlarından biri kimi tanınan Həsən Səbri İstanbulda böyük hörmətlə qarşılanır. Məmmədəmin Rəsulzadənin “qələm və əqidə dostu” adlandırdığı H.S.Ayvazov İstanbulda diplomatik fəaliyyətə başlayır. O, Krımın müstəqilliyi ideyasına Osmanlı dövlətinin mənəvi-siyasi dəstək verməsinə nail olur. H.S.Ayvazovu 1932-ci ildə keçmiş-dəki ictimai-siyasi fəaliyyətinə, yazdığı əsərlərinə görə işdədiyi Peda-qoji İnstitutdan xaric edirlər. Vətənpərvər, 59 yaşlı ədibi 1937-ci ilin aprelin 4-də həbs edib, düz bir il sonra güllələyirlər (14).

H.S. Ayvazovun 1906-cı ildə “Üsüli-tədris və təlim-tərbiyə” adlanan metodik bir əsəri çap olunmuşdur. Müəllif bu əsərdə dərs üsulları və pedaqogika haqqında geniş məlumat vermiş, müəllimlərə on iki qayda ilə dərs verməyi məsləhət görmüşdür. Kitabın sonunda, hətta

“Məktəbin müəllimlərinə aid nizamnaməsi”, “Məktəbin şagirdlərə aid nizamnaməsi” adı ilə məktəb rejimi barədə təlimat verilmiş, kitaba təhsil müddəti 5 il olan məktəblər üçün proqram nümunəsi də əlavə etmişdir. Müəllif təlim-tərbiyə elmi haqqında yazır: “Üsuli-təlim və tərbiyeyi-ətfal” qədim bir elmdir. XIX əsrin əvvəlində bu elmi islah edərək ən mühüm və lazımlı bir elm sırasına qoymuşlar. Bu gün Avropada, Türkiyədə və Rusiyada belə məktəblər açılıb, “darülmüəllimin” adlandırmışlar. Adından da göründüyü kimi, müəllim, tərbiyəçi yetişdirən bir məktəbdir. Bu məktəblərdə öyrədilən ən əhəmiyyətli fənn Pedaqogikadır. Mənası “təlim və tərbiyeyi-ətfaldır”. Sonra yunanlar təlim və tərbiyə dərslərinə şeir, inşa, musiqi və fəlsəfə fənlərini də daxil etmişlər.

Kitaba təlimin üsul və qaydaları daxil edilmişdir. Təlimlə bağlı yuxarıda xatırlanan on iki qayda bunlardır: 1. Oxudulacaq dərslərin hamısında nə barədə danışılarsa, bir səbəbə söykənilməsi vacibdir. 2. Müəllimlər qaranlıq, mövhumatdan olan, tələbəyə anlaya bilməyəcəyi şeyləri söyləməməlidirlər. 3. Tədrisdə bildiriləcək, anladılacaq fikir qısa və açıq cümlələrlə söylənilməlidir. 4. Tələbəyə verilən hər dərs təhlil və tərkib ilə olmalıdır. 5. Oxudacaq və göstərəcək dərsləri müəllimlər az verməli, çox anlatmalıdırlar. 6. Müəllimlər oxudacaq dərslərin nəzəriyyəsini göstərdikdən sonra əməliyyat cəhətinə də artıq dərəcədə qeyrət və diqqət etməlidirlər. 7. Tədris ediləcək dərslərin mündəricatını müəllimlər hissələrə bölüb, tədris etməlidirlər. 8. Tədris ediləcək dərslər mümkün olduğu qədər açıq və sadə dildə anlatılmalıdır. 9. Müəllimlərin məktəbdə oxuduqları dərslər gündən-günə təkmilləşdirilməlidir. 10. Keçilən dərslərdə veriləcək suallar həm şifahi, həm də yazılı olmalıdır. Hər dərsdə sual və cavab olmalıdır. 11. Müəllimlərin tədris üsulları tələbənin istedad və qabiliyyətinə görə olmalıdır. 12. Tədris edilən dərslər, söylənilən hər şey şagirdlərə izah edilməlidir (Ayvazov, 1906,14).

Hərfləri keçərkən müəllim, ilk növbədə, düzgün tələffüzə fikir verməlidir. Dərsləri hissələrə bölüb, nümunələrlə, növbəli şəkildə tədris etməlidir.

Məktəbə yüksək dəyər verən müəllif onu “rəhbəri-səadət, islamiyyət və insaniyyətin əsası” kimi qəbul edir və məktəb qədər ülvi, məktəb qədər müqəddəs bir şey olmadığını qeyd edir. “Məktəb insaniyyətin mənbəyi, fəzilətin mənşəyidir. Bunun üçün məktəb olduqca müntəzəm, olduqca mükəmməl olmalıdır. Oturacaqlar tələbənin qamətinə görə düzəldilməlidir. Sinifdə tələbələrin üzü ya pəncərəyə tərəf baxmalı, ya da sol tərəfdə qalmalıdır. Əgər işıq arxalarında olarsa, sağlamlıq baxımından gözlərinə ziyan edər. Məktəb təmiz saxlanılmalı, döşəmə

nəm silginclə silinməlidir. Yay vaxtı pəncərələr açıq qalmalıdır. Pəncərələr qarşı-qarşıya olarsa, ikisini də açmağa ehtiyac yoxdur. Əks halda, havanın hərəkəti çox təhlükəli ola bilər. Hər dərsə aid əyani vəsait olmalıdır (Ayvazov, 1906, 26).

Əsərdə şagirdlərə aid nizamnamə də verilir: 1. Məktəbə qəbul ediləcək şagirdin yaşı səkkiz, ən azı, yeddidən az olmamalıdır. 2. Şagird qəbulu ildə bir dəfə, dərs ilinin başlanğıcında olmalıdır. 3. Müəllimlərdə şagirdlərin adı yazılmış siyahısı olmalıdır. 4. Müəllmlər sinfə girər-girməz hazırqayib etməlidirlər. 5. Hər gün saat səkkizdə dərsə başlamalı, üçdə bitirmək lazımdır. 6. Ciddi bir səbəb olmadıqda dərsdən qalmaq olmaz. 7. Dərsarası 5-10 dəqiqə fasilə olmalıdır və s.

Şagirdin məktəbə aid nizamnaməsi də verilir. Ciddi bir səbəb olmazsa, dərslərə davamlı şəkildə iştirak etmək, məktəbin içində boş-boşuna gəzməmək, müəllimin icazəsi olmadan bir yerə getməmək, şagirdlər bir-biri ilə vuruşmamalı, məktəbə gəldikdə və getdikdə ədəb, namus, tərbiyə dairəsindən çıxmamaq və s. (Ayvazov, 1906, 30).

Göründüyü kimi, bir qədər sovet təlimi sisteminə uyğun gələn davranış qaydaları müəllimi şagird üçün nümunə olaraq göstərirdi. Müəllimlər onlara etibar edilmiş fidanlara bəşəriyyəti nadanlıqlardan qoruyacaq elmi, təhsili üstün tutmağı, vətəni və məktəbi sevməyi, valideynin qədrini bilməyi, halalı haramdan fərqləndirməyi bacarmağı aşılayır.

Nəticə

Elm hələ ilkin dövrlərdən insanı ətrafda gördüyü və ona maraqlı, bir qədər də qorxulu təsir bağışlayan hadisələri öyrənmək istəyindən irəli gələn ibtidai araşdırmaların nəticələrindən başlayır. Bütün təbiət hadisələri, yaranışın dörd ünsürü, insanın yaranışı, insana tabe edilmiş canlı və cansız təbiət, bütün bunları nizamlayan ilahi qüvvənin varlığı və digər bu kimi təbii və fövqəltəbii olaylar həmişə insan təfəkkürünü məşğul etmişdir. Ətrafında baş verənləri öyrənmək istəyi insanı zaman-zaman araşdırmalar aparmağa sövq etmişdir ki, bütün bunların nəticəsində bir çox sirlər kəşf edilmiş və müxtəlif elmlər yaranmışdır. Elmlər iki qismdir: dini və dünyəvi. Göstərilən nümunələr də sübut edir ki, yalnız bu iki sahənin vəhdəti bütöv halda dərk edilən “elm” sözünün tam mənasını ifadə edir. Elmin əksi cəhalətdir. Elm bir nur, cəhalət isə zülmətdir.

Ədəbiyyat

Qurani-Kərim.

Ömər Faruk Harman. (1994). Din. TDV islam Ansiklopedisi. Cilt 9. İstanbul. 560 s.

Sinanoöllu Mustafa. İslam. TDV İslam Ansiklopedisi. Cilt 23. İstanbul 2001. 589 s.

http://anl.az/megale>may İslam dinində elmə və təhsilə təşviq.

Həsənov Ə.B. (2004). Müasir cəmiyyətdə islam.Bakı, "MBV". 304s.

Suffa.net/fiqh/103_islamin_dünyəvi_elmlere_verdiyi_önem.html İslamın dünyəvi elmlərə verdiyi önəm.

Axund Hacı Ağamirzə Əbdülkərim Ağa Badkubinin müasir Azərbaycan islamşünaslığında yeri. Bakı, "Elm və təhsil" -2013.

Кулиева В.А. (2003). Роль и позиция мусульманского духовенства в социально – политической и культурной жизни Азербайджанских политических отношений. Национальная Академия Наук Азербайджана Институт Археологии и Этнографии. Баку-«Нурлан» -, 369 стр.

Hüseynzadə Əli bəy. (1996). Qırmızı qaranlıqlar. Bakı, 256 s.

az.wikipedia.org/wiki/ Mirzə_Əbu_Turab_Axundzadə

az.wikipedia.org/wiki/Əli_bəy_Hüseynzadə

Axundzadə Əbu Turab, Hüseynzadə Əli bəy və Nemanzadə MollaNəsrəddin Ömər Faiq. Bizə hansı elmlər lazımdır. Tiflis. "Qeyrət" mətbəəsi, 1907.

az.wikipedia.org/wiki/Ömər_Faiq_Nemanzadə

az.wkipedia.org/wiki/Həsən_Səbri_Ayvazov

Ayvazov Həsən Səbri. (1906). Üsuli-tədris və təlim tərbiyə. Buxariyyə mətbəəsi, 10 aprel,.

Müasir dövrdə İlahiyyat fakültələrində “Qurani-Kərim” fənninin tədrisi: Azərbaycan və Türkiyə nümunəsində

f.f.d., dos. Mirniyaz Mürsəlov,
Azərbaycan İlahiyyat İnstitutunun
Elm və innovasiyalar üzrə prorektoru
Bakı, Azərbaycan
mirniyazmurselov@ait.edu.az
https://orcid.org/0000-0001-7806-8353

Xülasə

Azərbaycan İlahiyyat İnstitutu yeni yaranmış ali təhsil müəssisəsidir. Məhz yeni yaranması imkan verdi ki, İnstitut öz Təhsil proqramlarını müsəlman ölkələrindəki İlahiyyat, həmçinin Avropa və Amerikada fəaliyyət göstərən Teologiya fakültələrinin təcrübəsini öyrənərək beynəlxalq standartlara uyğun hazırlasın. Eyni zamanda, İnstitut dünyanın 30-dan çox universiteti ilə əməkdaşlıq müqaviləsi imzalamış, onlardan bəziləri ilə qarşılıqlı tələbə mübadilə proqramlarında iştirak edir. Bundan başqa, İnstitut Türkiyə Cümhuriyyətinin bir neçə universitetinin İlahiyyat fakültələri ilə ikili diplom müqaviləsi bağlamağa hazırlaşır. Belə olan halda, ortaq Ttədris planlarının və fənn proqramlarının yaradılması məsələsi gündəmə gəlir. Bu baxımdan, İnstitutun fənn proqramları ilə yuxarıda sözügedən həmin fakültələrin fənn proqramlarının müqayisəsini aparmaq zərurəti yaranır. Bu məqalədə Azərbaycan İlahiyyat İnstitutu ilə Türkiyə Cümhuriyyətindəki universitetlərin İlahiyyat fakültələrinin, xüsusilə Mərmərə Universitetinin İlahiyyat fakültəsi ilə Nəcməddin Ərbakan Universitetinin Əhməd Kələşoğlu adına İlahiyyat fakültəsinin “Qurani-Kərim" fənn proqramlarının müqayisəsi aparılır.

Məqalənin I bölümündə Azərbaycan İlahiyyat İnstitutunun Tədris planı əsasında hazırlanmış Qurani-Kərim fənn proqramı, həmçinin bu fənnin tədrisində tətbiq edilən ənənəvi və müasir metodlar təqdim olunur. Belə ki, proqrama əsasən, bu fənn Dinşünaslıq ixtisasında 18 kredit/210 saat olmaqla üç semestr, İslamşünaslıq ixtisasında isə 28 kredit/300 saat olmaqla dörd semestr tədris olunur. Tədris əsnasında səma, əzr və əda metodları tətbiq edilməklə yanaşı, müasir avadanlıqlardan istifadə edilməklə tələbələrə məhşur qarelərin Quran oxunuşlarının videogörüntüləri izlətdirilir.

Məqalənin II bölümündə Türkiyə Cümhuriyyətindəki universitetlərin İlahiyyat fakültələrinin, xüsusilə Mərmərə Universitetinin İlahiyyat fakültəsi ilə Nəcməddin Ərbakan Universitetinin Əhməd Kələşoğlu adına İlahiyyat fakültəsinin "Qurani-Kərim" fənn proqramları və tətbiq etdiyi tədris metodları təqdim olunur. Sözügedən universitetlərin İlahiyyat fakültələrinin "Qurani-Kərim" fənn proqramlarına əsasən bu fənnin kredit miqdarı və ümumi saat yükü fakültələrə görə dəyişir, lakin hamısında səkkiz semestr tədris olunur. Tədris zamanı səma, əzr və əda kimi ənənəvi metodlardan istifadə olunur.

Məqalənin III bölümündə Azərbaycan İlahiyyat İnstitutu ilə Türkiyə Cümhuriyyətindəki universitetlərin İlahiyyat fakültələrinin, xüsusilə Mərmərə Universitetinin İlahiyyat fakültəsi ilə Nəcməddin Ərbakan Universitetinin Əhməd Kələşoğlu adına İlahiyyat fakültəsinin "Qurani-Kərim" fənn proqramlarının müqayisəsi aparılır.

Açar sözlər: *Qurani-Kərim fənni, ilahiyyat, tədris planı, fənn proqramı, tədris metodları.*

Teaching the Subject "Holy Quran" in Theological Faculties Nowadays: The Example of Azerbaijan and Türkiye

Assoc. Prof. Mirniyaz Mursalov,
Azerbaijan Institute of Theology,
Vice-Rector for Science and Innovations
Baku, Azerbaijan
mirniyazmurselov@ait.edu.az
https://orcid.org/0000-0001-7806-8353

Abstract

The Azerbaijan Institute of Theology is a just-established higher education institution. This allowed the Institute to improve its educational programs in obedience with international requirements through assessing the experiences of theology faculties in Muslim nations, as well as universities across Europe and America. Simultaneously, the Institute has formed cooperation agreements with approximately thirty institutions worldwide and collaborates in bilateral student exchange programs with several of them. Furthermore, the Institute is preparing to sign a double degree agreement with theology

faculties from various universities of the Republic of Türkiye. In these instances, the issue of developing conventional study methods and topic curricula arises. In this regard, it is crucial to compare the institute's topic programs to those of the faculties. This article compares theology faculties at the Azerbaijan Institute of Theology to universities in Türkiye, emphasizing on the "Quran-Karim" subject programs at Marmara University's Theology Faculty and Nacmeddin Erbakan University's Theology Faculty named after Ahmet Kaleshoglu.

In the first part of the article discusses the "Holy Quran" subject program, which was developed based on the Azerbaijan Theological Institute's curriculum, as well as the traditional and modern approaches applied to teach it. So, according to the curriculum, this topic is taught three semesters with 18 credits/210 hours in the Religious Studies major and four semesters with 28 credits/300 hours in the Islamic studies major. In addition to sema, azr, and ada methods of instruction, students are shown videos of noteworthy Quran recitation persons implementing current technology.

The second part discusses the "Holy Quran" subject programs and teaching methods implemented by theology faculties at Turkish universities, particularly Marmara University and Nacmeddin Erbakan University named after Ahmet Kelashoglu. According to the "Holy Quran" the subject plans of theology faculties at the previously mentioned institutions, the number of credits and total hours of this subject differ per faculty, but eight semesters is taught in all of them. Traditional teaching methods include sema, ezr, and ada.

In the third part of the article, a comparison is made between theology faculties in the Azerbaijan Institute of Theology and universities in the Republic of Türkiye, especially the "Quran-Karim" subject programs in the Theology Faculty of Marmara University and the Theology Faculty of Nacmeddin Erbakan University named after Ahmet Kaleshoglu.

Keywords: *Quran-Karim subject, theology, curriculum, subject program, teaching methods.*

Преподавание предмета «Коран-Карим» на теологических факультетах в наше время: на примере Азербайджана и Турции

д.ф.ф., доц. Мирнияз Мурсалов,
Азербайджанский институт теологии,
Проректор по науке и инновациям
Баку, Азербайджан
mirniyazmurselov@ait.edu.az
https://orcid.org/0000-0001-7806-8353

Резюме

Азербайджанский институт теологии является недавно открытом высшим учебным заведением. Это позволило институту улучшить свои образовательные программы в соответствии с международными требованиями путем оценки опыта факультетов теологии в мусульманских странах, а также университетов по всей Европе и Америке. Одновременно институт заключил соглашения о сотрудничестве примерно с тридцатью институтами по всему миру и сотрудничает с несколькими из них в двусторонних программах обмена студентами. Кроме того, институт готовится подписать соглашение о двойном дипломе с факультетами теологии из различных университетов Турецкой Республики. В этих случаях возникает вопрос разработки традиционных методов обучения и учебных программ по темам. В связи с этим крайне важно сравнить программы по темам института с программами факультетов. В этой статье сравниваются факультеты теологии в Азербайджанском институте теологии с университетами Турции, подчеркивая предметные программы «Коран-Карим» на факультете теологии Университета Мармара и факультете теологии Университета Наджмеддина Эрбакана имени Ахмета Калешоглу.

В первой части статьи обсуждается предметная программа «Коран-Карим», разработанная на основе учебной программы Азербайджанского теологического института, а также традиционные и современные подходы, применяемые для ее преподавания. Так, согласно учебной программе, эта тема преподается три семестра с 18 кредитами/210 часами по специальности «Религиоведение» четыре семестра с 28 кредитами/300 часами по специальности «Исламоведение». В дополнение к методам обучения сема,

азр и ада студентам с использованием современных технологий показывают видеозаписи знаменитых гаре Корана.

Во второй части обсуждаются предметные программы «Коран-Карим» и методы обучения, применяемые теологическими факультетами в турецких университетах, в частности в Университете Мармара и Университете Наджмеддина Эрбакана имени Ахмета Келашоглу. Согласно программе «Коран-Карим» учебные планы факультетов теологии в ранее упомянутых учреждениях, количество кредитов и общее количество часов этого предмета различаются по факультетам, но во всех из них преподается восемь семестров. Традиционные методы обучения включают сему, эзр и ада.

В третьей части статьи проводится сравнение между факультетами теологии в Азербайджанском институте теологии и университетами Турецкой Республики, в частности, предметными программами «Коран-Карим» на факультете теологии Университета Мармара и факультете теологии Университета Наджмеддина Эрбакана имени Ахмета Калешоглу.

Ключевые слова: *предмет Коран-Карим, теология, учебный план, программа предмета, методы обучения*.

Giriş

“Qurani-Kərim” fənni İlahiyyat fakültələrində əsas ixtisas fənlərindən hesab edilir. Bu fənn özündə Qurani-Kərimin qiraətini və təcvid qaydalarını ehtiva edir. AKTS (Avropa Kredit Transfer Sistemi) sisteminə görə, “Qurani-Kərim” fənni müxtəlif ölkələrdə fərqli kredit və saatlarla tədris olunur. Eyni zamanda, müasir dövrdə bu fənnin ənənəvi, yoxsa müasir metodlarla tədris olunması müzakirə mövzusdur. Ona görə də, təcrübələrin öyrənilməsi və tədris proqramının təkmilləşdirilməsi baxımından bu fənnin müxtəlif ölkələrdəki tədrisinin müqayisəsini aparmaq olduqca aktualdır. Bu məqalədə əsas məqsəd Azərbaycan İlahiyyat İnstitutunun və Türkiyə Cümhuriyyətindəki İlahiyyat fakültələrinin “Qurani-Kərim” fənn proqramlarının müqayisəsini apararaqmaq, gələcəkdə daha təkmil tədris proqramının formalaşmasına töhfə verməkdir.

“Qurani-Kərim” fənninin tədrisində tətbiq edilən ənənəvi metod Peyğəmbərin tətbiqatına əsaslanır. Belə ki, Peyğəmbər Quranı səhabələrinə səma (eşitmə) və ərz (ərz etmə) yolu ilə təlim etmişdir. Səma üsulu müəllimin oxuması, tələbənin dinləməsi ilə həyata keçirilir. Peyğəmbər Quranı səma yolu ilə vəhy mələyindən almış, səhabələrinə də bu şəkildə təqdim etmişdir (Süyuti, 1973, I, 99). Bu üsul həm İslamın ilk dövrlərində, həm də səhabə, tabiun və ətbaut-tabiun dövrlərində də tətbiq edilmişdir. Ərz üsulu isə tələbənin oxuması, müəllimin dinləməsi ilə tətbiq edilir. Müsəlmanlar arasında qiraəti müəllimə dinlətmə adəti Peyğəmbərin hər il Ramazan ayında Quranı vəhy mələyinə ərz etməsinə əsaslanır (Zərqani, 1943, I, 48). Bu üsul da həm Peyğəmbər, həm səhabə, həm də tabiun və ətbaut-tabiun dövrlərində tətbiq edilmişdir. Əda (icra etmə) üsulu qiraət əsnasında müəllimin oxuduğu yeri ardınca tələbənin təkrar etməsi ilə icra edilir (Əli əl-Qari, 1947, 20). Əda üsulu, əslində, səma və ərz üsullarının bir yerdə icra edilməsidir. Bu üsulu da Peyğəmbərin Quranı təlim edərkən tətbiq etdiyi bildirilir. Peyğəmbərin Quranı vəhy mələyindən səma yolu ilə alması, daha sonra hər il nazil olan mövcud ayə və surələri ona ərz etməsi, bir növ, əda üsulu olaraq qəbul edilir, buna dəlil göstərilir (Tetik, 1990, 98).

Müasir dövrdə də İslam ölkələrində Qurani-Kərimi yuxarıda qeyd olunan ənənəvi metodlarla öyrətməyə davam edirlər. Bu ölkələr arasında həm AKTS kredit sisteminə qoşulan, həm də qoşulmayan ölkələr vardır. Sözügedən kredit sisteminə qoşulmayan ölkələrə baxdığımız zaman onların ali təhsil müəssisələrinin İlahiyyat fakültələrində tədrisin ali təhsilin bakalavriat pilləsi üzrə 5 il davam etdiyini və belə olan halda, həmin fakültələrə Qurani-Kərim fənninin tədrisində saat və semestr baxımından geniş sərbəstlik verildiyini müşahidə edirik. Bəzi ölkələr isə AKTS kredit sisteminə qoşulduğu halda, bakalavriat pilləsi üzrə bir il hazırlıq olmaqla, yenə 5 illik tədris proqramı həyata keçirdyi üçün bu ölkələrdəki İlahiyyat fakültələrində də “Qurani-Kərim” fənninin tədrisində saat və semestr baxımından sərbəstlik verilir. AKTS kredit sisteminə qoşulmayan ölkələrdən fərqli olaraq burada “Qurani-Kərim” fənninin tədrisi zamanı həm ənənəvi metodlardan, həm də müasir metodlardan istifadə olunur. Azərbaycan da AKTS kredit sisteminə qoşulan ölkələrdən olduğu üçün ölkəmizdə yeganə ali din təhsili verən Azərbaycan İlahiyyat İnstitutu tədris proqramını bu sistemə uyğunlaşdırmışdır. İnstitutda “Qurani-Kərim” fənninin tədrisi zamanı ənənəvi metodlarla yanaşı, müasir metodlardan da istifadə edilir. Lakin İnstitutda müqayisə aparılan ölkələrdən fərqli olaraq tədris proqramı ali

təhsilin bakalavriat pilləsi üzrə dörd il müddətində (30 ümumi fənlər, 120 ixtisasın peşə hazırlığı fənləri, 60 ixtisasın peşə hazırlığı üzrə ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər, 21 təcrübə, 9 Yekun Dövlət Attestasiyası olmaqla toplam 240 AKTS krediti) həyata keçirilir. Ölkədəki ali təhsil müəssisələrində (bəzi ixtisaslar istisna olmaqla), o cümlədən Azərbaycan İlahiyyat İnstitutunda tədris proqramlarının 4 il müddəti ilə məhdudlaşdırılması fakültələrə fənlərin saat və semestr baxımından tədrisinə geniş imkan vermir.

Azərbaycan İlahiyyat İnstitutunda "Qurani-Kərim" fənninin tədrisi

"Qurani-Kərim" fənni Azərbaycan İlahiyyat İnstitutunda həm Dinşünaslıq, həm də İslamşünaslıq ixtisaslarında tədris olunur. Dinşünaslıq ixtisasında peşə hazırlığı fənni olaraq 12 kredit/150 saat olmaqla iki semestr və ixtisasın peşə hazırlığı üzrə seçmə fənn olaraq 6 kredit/60 saat olmaqla bir semestr (yekunda 18 kredit/210 saat olmaqla III semestr), İslamşünaslıq ixtisasında isə yalnız peşə hazırlığı fənni olaraq 28 kredit/300 saat olmaqla dörd semestr tədris olunur (Tədris planı, 2020). İslamşünaslıq ixtisasında kredit və saat baxımından daha çox tədris olunduğuna görə müqayisə üçün məhz bu ixtisas əsas götürüləcək. Belə ki, İslamşünaslıq ixtisasında bu fənn I semestr "Qurani-Kərim əlifbası" adı ilə 8 kredit/90 saat keçilir. Tələbələr I semestrdə Qurani-Kərimin tarixi ilə tanış olur, ərəb dilindəki hərflərin məxrəclərini və xüsusiyyətlərini, yazılışlarını və tələffüzlərini, sükunlu, təşdidli və tənvinli şəkildə tələffüzlərini, məd hərflərini, məd hərfi "əlifi" əvəzləyən "vav" və "yə" hərflərini, yazıda görünməyən məd hərflərini, sözlərin sonunda yazılan "hə" hərfinin oxunuş qaydasını, "əlif-lam" birləşməsinin oxunuşunu, "Allah" sözünün oxunuş qaydasını, müqəttəə hərflərinin oxunuş qaydalarını öyrənir, "Azan" və "İqamə"ni, "Sübhanəkə", "ət-Təhiyyatu", "Təşəhhüd", "Salli" və "Barik", "Qunut", "Rəbbəna-atina" və "Rəbbənəğfirli", "Təsbihati-ərbəə" dualarını, salamları, həmçinin "əl-Fatihə", "əl-Fil", "əl-Qüreyş", "əl-Maun", "əl-Kövsər", "əl-Kafirun", "ən-Nəsr", "Təbbət", "əl-İxlas", "əl-Fələq", "ən-Nas" surələrini, Əlif-Lam-Mim – "əl-Bəqərə" surəsinin ilk beş ayəsini və "Ayətul-kürsi" – "əl-Bəqərə" surəsinin 255-ci ayəsini əzbərləyir, "əl-Bəqərə" surəsinin 1-5 səhifələrini üzündən oxumaq vərdişi qazanır.

"Qurani-Kərim" fənni II semestrdə "Qurani-Kərim təcvidi" adı ilə 8 kredit/90 saat olmaqla tədris edilir. Bu semestrdə tələbələr Təcvid

elminin tarixi, məqsədi və hökmünü, ləhn və onun növlərini, məd və onun növlərini, idğam və onun növlərini, sakin “nun” və tənvinə aid hökmləri, sakin “mim”ə aid hökmləri, idğami-şəmsiyyə və izhari-qəməriyyəni, səktə və onun əhəmiyyətini, vəslin və vəqfin hökmlərini, “ra” hərfinə aid hökmləri, işmam və onun növlərini, təshil və imalənin növlərini öyrənir, “əz-Zuha”, “əl-İnşirah”, “ət-Tin”, “əl-Ələq”, “əl-Qədr”, “əl-Bəyyinə”, “əz-Zilzal”, “əl-Adiyat”, “əl-Qariyə”, “ət-Təkasur”, “əl-Əsr”, “əl-Huməzə” surələrini və “Amənər-rəsulu” – əl-Bəqərə surəsinin 285-286-cı ayələrini əzbərləyir, “əl-Bəqərə” surəsini sona qədər oxuyaraq, təcvid qaydaları əsasında üzündənoxuma vərdişi qazanırlar.

“Qurani-Kərim” fənni III semestrdə “Qurani-Kərim qiraəti-1” adı ilə 6 kredit/60 saat olmaqla tədris edilir. Fənnin tədrisi zamanı tələbələrə “Qurani-Kərim təcvidi” fənnində öyrəndikləri təcvid qaydaları əsasında “Ali-İmran”, “ən-Nisa”, “əl-Maidə”, “əl-Əraf”, “əl-Ənfal”, “ət-Tövbə”, “Yunus”, “Hud” surələri üzündən oxutdurulur, “Yasin” və “ər-Rəhman” surələri isə əzbərlətdirilir.

“Qurani-Kərim” fənni IV semestrdə “Qurani-Kərim qiraəti-2” adı ilə 6 kredit/60 saat olmaqla tədris edilir. Bu zaman tələbələrə yenə “Qurani-Kərim təcvidi” fənnində öyrəndikləri təcvid qaydaları əsasında Quranın Yusuf, “ər-Rəd”, “İbrahim”, “əl-Hicr”, “ən-Nəhl”, “əl-İsra”, “əl-Kəhf”, “Məryəm”, “Taha”, “əl-Ənbiya”, “əl-Həcc”, “əl-Muminun”, “ən-Nur” surələri üzündən oxutdurulur, “əl-Mülk”, “əl-Fəth” surələri və “Xətm” duası isə əzbərlətdirilir.

Fənnin tədrisi əsnasında I və II semestrlərdə ənənəvi metodlardan əda üsulu tətbiq olunur. Qeyd edildiyi kimi, əda üsulu Quranın qiraəti zamanı müəllimin oxuduğu surə və ayəni ardınca tələbənin təkrar etməsi ilə baş verir. Bu da tələbə xətalı oxuduğu təqdirdə, müəllimin dərhal müdaxilə edib xətanı aradan qaldırmasına imkan verir; III və IV semestlərdə isə əsasən, ərz üsulu tətbiq edilir, yəni tələbə Qurani-Kərimin proqramda nəzərdə tutulan surələrini təcvid qaydaları əsasında üzündən oxuyur müəllim dinləyir. Bu üsul da imkan verir ki, tələbə hər hansı qiraət xətasına yol verərsə, müəllim yerindəcə həmin xətanı düzəltsin. Bundan əlavə, Azərbaycan İlahiyyat İnstitutunun sinif otaqları infrastruktur baxımından müasir avadanlıqlarla təchiz olunduğundan “Qurani-Kərim” fənninin tədrisi zamanı tələbələrin oxuyacaqları surələri əvvəlcə məşhur qarelərdən görüntülü olaraq dinləmələrinə şərait yaradılır.

Türkiyə Cümhuriyyətindəki İlahiyyat fakültələrində "Qurani-Kərim" fənninin tədrisi

Türkiyə Cümhuriyyətində də ali təhsilin bakalavriat və magistratura səviyyələrində tədris kredit sistemi ilə təşkil olunur. İlahiyyat fakültələrində tədris proqramı ali təhsilin bakalavriat pilləsi üzrə yekunda 240 AKTS krediti təşkil etməklə yanaşı, tədris ili bir il hazırlıq olmaqla, 5 il davam edir. Baxmayaraq ki, İlahiyyat fakültələrini seçən tələbələrin əksəriyyəti dini təmayüllü liseylərdən məzun olur, hazırlıq dövründə onlara ərəb dili ilə yanaşı, təməl İslam elmləri, xüsusilə də "Qurani-Kərim" fənni (Quran oxuma və təcvid adı ilə) tədris olunur. Bununla belə, "Qurani-Kərim" fənni tələbələrə ixtisasın peşə hazırlığı fənni olaraq 4 il, yəni VIII semestr tədris olunur. Fənnin kredit miqdarı və ümumi saat yükü fakültələrə görə dəyişsə də, tədris ili və semestr dəyişmir. Ona görə də məqalədə Mərmərə Universitetinin İlahiyyat fakültəsi ilə Nəcməddin Ərbakan Universitetinin Əhməd Kələşoğlu adına İlahiyyat fakültəsinin "Qurani-Kərim" fənn proqramı nümunə olaraq verilir. (https://meobs.marmara.edu.tr/ProgramTanitim/ilahiyat-fakultesi/ilahiyat-69-86-0, https://www.erbakan.edu.tr/ilahiyat/duyuru/18257/kuran-okuma-ve-tecvid-ders-mufredati)

Mərmərə Universitetinin İlahiyyat fakültəsində "Qurani-Kərim" fənni I semestrdə "Quran oxuma və təcvid I" adı ilə 2 kredit olmaqla tədris edilir. Fənnin tədris saatlarını müəyyən etməkdə fakültələr sərbəstirlər. I semestrdə tələbələr, əsasən, nəzəri biliklər əldə edirlər. Belə ki, I semestrdə tələbələr Təcvid elminin tarixini və mənbələrini, hərflərin məxrəclərini və xüsusiyyətlərini, ləhn və onun növlərini, sakin "nun" və tənvinin hökmlərini, sakin "mim"in hökmlərini, qəlqələni, "Allah" sözünün oxunuş qaydasını, zamirin oxunuşunu, məd və onun növlərini, idğam və onun növlərini, əlif-lam birləşməsinin oxunuş qaydalarını, "ra" hərfinin hökmlərini, səktəni, tilavət mərtəbələrini, tilavət səcdəsini, müshəflərin yazılışını və tətbiqini, həfs rəvayəti və onun xüsusiyyətlərini öyrənmiş olurlar.

"Qurani-Kərim" fənni II semestrdə "Quran oxuma və təcvid II" adı ilə 2 kredit olmaqla tədris edilir. Bu semesrdə tələbələr namaz dualarını, bəzi kiçik surələri əzbərləyir, "əl-Bəqərə" və "Ali-İmran" surələrini təcvid qaydaları əsasında üzündən oxumağı öyrənirlər.

"Qurani-Kərim" fənni III semestrdə "Quran oxuma və təcvid III" adı ilə 2 kredit olmaqla tədris edilir. Bu semestrdə tələbələr "ən-Nisa", "əl-Maidə", "əl-Ənam" surələrini təcvid qaydaları əsasında üzündən

oxumağı öyrənir, “əz-Zuha”, “əl-İnşirah”, “ət-Tin”, “əl-Ələq”, “əl-Qədr”, “əl-Bəyyinə” surələrini əzbərləyirlər.

“Qurani-Kərim” fənni IV semestrdə “Quran oxuma və təcvid IV” adı ilə 2 kredit olmaqla tədris edilir. Bu semestrdə isə tələbələr “əl-Əraf”, “əl-Ənfal”, “ət-Tövbə”, “Yunus”, “Hud”, “Yusuf” surələrini təcvid qaydaları əsasında üzündən oxumağı öyrənir və digər kiçik surələri əzbərləyirlər.

“Qurani-Kərim” fənni V semestrdə “Quran oxuma və təcvid V” adı ilə 3 kredit olmaqla tədris edilir. Tələbələr bu semestrdə “ər-Rəd”, “İbrahim”, “əl-Hicr”, “ən-Nəhl”, “əl-İsra”, “əl-Kəhf”, “Məryəm”, “Taha” surələrini təcvid qaydaları əsasında üzündən oxumağı öyrənir, “Yasin” və “ən-Nəbə” surələrini əzbərləyirlər.

“Qurani-Kərim” fənni VI semestrdə “Quran oxuma və təcvid VI” adı ilə 4 kredit olmaqla tədris edilir. Bu semestrdə isə tələbələr “ən-Nur”, “əl-Furqan”, “əş-Şüəra”, “ən-Nəml”, “əl-Qəsəs”, “əl-Ənkəbut” surələrini təcvid qaydaları əsasında üzündən oxumağı öyrənir, “ər-Rəhman” və “əl-Mülk” surələrini əzbərləyirlər.

“Qurani-Kərim” fənni VII semestrdə “Quran oxuma və təcvid VII” adı ilə 4 kredit olmaqla tədris edilir. Tələbələr bu semestrdə “Loğman”, “əs-Səcdə”, “əl-Əhzab”, “Səbə”, “Fatir”, “əs-Saffat”, “Sad”, “əz-Zümər”, “əl-Mumin”, “Fussilət”, “əş-Şura”, “əz-Zuxruf” surələrini təcvid qaydaları əsasında üzündən oxumağı öyrənir, “əl-Hucurat” və “əl-Qiyamə” surələrini isə əzbərləyirlər.

“Qurani-Kərim” fənni VIII semestrdə “Quran oxuma və təcvid VIII” adı ilə 4 kredit olmaqla tədris edilir. Sonuncu, yəni VIII semestrdə tələbələrə aşrlar (Qurani-Kərimin müəyyən mövzularını ehtiva edən hər hansı surəsinin 10 və ya daha az ayəsi) əzbərlətdirilir. Bu istiqamətdə tələbələr “Fussilət” surəsinin 30-36, “əl-Mumin” surəsinin 7-9, “Ali-İmran” surəsinin 26-29, “əl-Həcc” surəsinin 75-78, “əl-Hədid” surəsinin 20-24, “əl-Ənkəbut” surəsinin 41-45, “ən-Nəml” surəsinin 89-93 ayələrini əzbərləyirlər. Tələbələr qeyd olunan surələrin ayələrini əzbərləməklə yanaşı, “əl-Qəmər”, “əl-Vaqiə”, “əl-Hədid”, “əl-Mucadələ”, “əl-Həşr”, “əl-Mumtəhinə”, “əs-Saf”, “əl-Cumuə”, “əl-Munafiqun”, “ət-Təğabun”, “ət-Tələq”, “ət-Təhrim”, “Qələm”, “əl-Haqqə”, “əl-Məaric”, “Nuh”, “əl-Cin”, “əl-Muzzəmmil”, “əl-Muddəssir”, “əl-İnsan”, “əl-Mursəlat” surələrini təcvid qaydaları əsasında üzündən oxumağı öyrənirlər. Bundan əlavə, tələbələrdə müəllimlik bacarığını inkişaf etdirmək məqsədilə onlarla Qurani-Kərimin tədrisində əlifbanın

öyrədilməsi, həmçinin Qurani-Kərimin tədrisində metodlar və təcvidin öyrədilməsi kimi mövzular da işlənilir.

Nəcməddin Ərbakan Universitetinin Əhməd Kələşoğlu adına İlahiyyat fakültəsində də "Qurani-Kərim" fənni "Quran oxuma və təcvidi" adı ilə VIII semestr tədris edilir. Belə ki, sözügedən fakültədə tələbələr I semestrdə bu fənnin tədrisi zamanı hərflərin məxrəclərini və xüsusiyyətlərini, məd və onun növlərini öyrənir, namaz dualarını, "əz-Zilzal", "əl-Adiyat", "əl-Qariyə", "ət-Təkasur", "əl-Əsr", "əl-Huməzə", "əl-Fil", "əl-Qüreyş", "əl-Maun", "əl-Kövsər", "əl-Kafirun", "ən-Nəsr", "Təbbət", "əl-İxlas", "əl-Fələq", "ən-Nas" surələrini əzbərləyir, "əl-Bəqərə" surəsinin mənasını da öyrənməklə birlikdə, təcvid qaydaları əsasında üzündən oxumağı öyrənirlər.

II semestrdə tələbələr idğam və onun növlərini, sakin "nun" və tənvinə aid hökmləri öyrənir, "əl-Leyl", "əz-Zuha", "əl-İnşirah", "ət-Tin", "əl-Ələq", "əl-Qədr", "əl-Bəyyinə" surələrini, "əl-Bəqərə" surəsinin 255-ci ayəsini əzbərləyir, "Ali-İmran" və "ən-Nisa" surələrini mənasını da öyrənməklə birlikdə, təcvid qaydaları əsasında üzündən oxumağı öyrənirlər.

III semestrdə isə tələbələr vəqf və ibtida, ləhn və onun növlərini öyrənir, "Yasin", "əl-Mülk" surələrini və "ən-Nəcm" surəsinin 1-25 ayələrini əzbərləyir, Qurani-Kərimin 6-10-cu cüzlərini mənasını da öyrənməklə birlikdə, təcvid qaydaları əsasında üzündən oxumağı öyrənirlər.

IV semestrdə də Qurani-Kərimin müvafiq surələrinin əzbərlənməsi və ardıcıllıqla müəyyən surələrinin mənasını öyrənməklə birlikdə, təcvid qaydaları əsasında üzündən oxunması prosesi davam edir. Bu istiqamətdə tələbələr "ən-Nəbə", "ən-Naziat", "Əbəsə", "ət-Təkvir", "əl-İnfitar" surələrini əzbərləyir, 11-15-ci cüzlərini təcvid qaydaları əsasında üzündən oxumağı öyrənirlər.

V semestrdə isə tələbələr "əl-Fəth", "əl-Fəcr", "əl-Bələd", "əş-Şəms" surələrini əzbərləyir, 16-19-cu cüzlərini mənasını da öyrənməklə birlikdə, təcvid qaydaları əsasında üzündən oxumağı öyrənirlər.

VI semestrdə də tələbələr yenə Qurani-Kərimin müvafiq surələrini əzbərlənməyə və ardıcıllıqla müəyyən cüzlərini mənasını da öyrənməklə təcvid qaydaları əsasında üzündən oxumağa davam edirlər. Bu semestrdə onlar "Azan" və "İqamə"ni, "əl-Hucurat", "ər-Rəhman", "əl-Mutəffifin", "əl-İnşiqaq" surələrini əzbərləyir, həmçinin 20-23-cu cüzləri təcvid qaydaları əsasında üzündən oxumağı öyrənirlər.

VII semestrdə isə tələbələr Qurani-Kərimin “əl-Vaqiə”, “əs-Saf”, “əl-Cumuə”, “əl-Ğaşiyə” surələrini əzbərləyir və 24-26-cı cüzlərini mənasını öyrənməklə birlikdə, təcvid qaydaları əsasında üzündən oxumağı öyrənirlər.

Nəhayət, VIII semestrdə tələbələr Qurani-Kərimin “əl-Qiyamə”, “əl-İnsan”, “əl-Buruc”, “ət-Tariq”, “əl-Əla” surələrini əzbərləyir, 27-29-cu cüzlərin mənalarını öyrənməklə birlikdə, təcvid qaydaları əsasında üzündən oxumağı öyrənirlər. Bunlarla yanaşı, tələbələrlə Qiraət elminə aid bəzi məsələlər və Qurani-Kərimin tilavəti əsnasında rastlanan xətalar kimi mövzular da işlənilir.

Azərbaycan İlahiyyat İnstitutu ilə Türkiyə Cümhuriyyətindəki İlahiyyat fakültələrinin “Qurani-Kərim” fənn proqramlarının müqayisəsi

Hər şeydən əvvəl qeyd edilməlidir ki, Azərbaycan İlahiyyat İnstitutunun Tədris planlarını onu digər ölkələrin İlahiyyat fakültələrinin Tədris planlarından fərqləndirən əsas cəhət İnstitutun tətbiq etdiyi məzhəblərüstü təhsil modelidir. Təbii olaraq İnstitutun “Qurani-Kərim” fənn proqramı və bu proqram əsasında hazırlanmış dərslik tətbiq etdiyi təhsil modelinin prinsiplərinə görə yazılmışdır. Bunu proqramda Namaz duaları bəhsində həm şiə, həm də sünni məzhəblərinin dualarının öz əksini tapması deməyə əsas verir. Bundan əlavə, İnstitutun sözügedən tədris proqramı əsasında hazırlanmış Qurani-Kərim dərsliyində Qurani-Kərimin kitab halında toplanmasına dair bölümdə hər iki məzhəbin görüşlərinə yer verilmişdir. Qeyd olunan bu məqamlar nə Mərmərə Universitetinin İlahiyyat fakültəsinin, nə də Nəcməddin Ərbakan Universitetinin Kələşoğlu adına İlahiyyat fakültəsinin “Qurani-Kərim” fənn proqramında öz əksini tapmışdır.

Azərbaycan İlahiyyat İnstitutunun “Qurani-Kərim” fənn proqramını Türkiyə Cümhuriyyətinin müqayisə aparılan ali təhsil müəssisələrinin İlahiyyat fakültələrinin “Qurani-Kərim” fənn proqramı ilə qarşılaşdırdıqda, xüsusilə I və II semestlərlər daha çox diqqət çəkir. Azərbaycan İlahiyyat İnstitutunun “Qurani-Kərim” fənn proqramında tələbələrin Quran qiraəti və təcvidi ilə bağlı biliklərinin çox az olması nəzərə alınaraq, tədrisə hərflərin yazılışından və tələffüzündən başlanılır, daha sonra onlara oxuma vərdişi qazandırmaq üçün Qurandan götürülmüş kəlmələr oxutdurulur, paralel surətdə bəzi qaydalar öyrədildikdən sonra

isə namaz dualarına və kiçik surələrə keçilir. Halbuki müqayisə aparılan ali təhsil müəssisələrinin İlahiyyat fakültələrində tələbələr dini təmayüllü liseylərdən gəldikləri üçün onlar Quran qiraəti və təcvidi ilə bağlı müəyyən biliklərə malikdirlər və buna görə də onlara I semestrdə birbaşa təcvid qaydaları öyrədilir. Nəcməddin Ərbakan Universitetinin Kələşoğlu adına İlahiyyat fakültəsində təcvid qaydalarından əlavə namaz dualarının və kiçik surələr də əzbərlətdirilir. II semestrdə Azərbaycan İlahiyyat İnstitutunun "Qurani-Kərim" fənn proqramında əsas yeri təcvid qaydaları tutur. Qaydaların öyrədilməsi ilə yanaşı, yenə müəyyən kiçik surələrin əzbərlətdirilməsi və "əl-Bəqərə" surəsinin öyrədilən təcvid qaydaları əsasında üzündən oxutdurulması öz əksini tapır.

Mərmərə Universitetinin İlahiyyat fakültəsinin "Qurani-Kərim" fənn proqramında isə II semestrdə namaz dualarının və bəzi kiçik surələrin əzbərlətdirilməsi və "əl-Bəqərə" və "Ali-İmran" surələrinin təcvid qaydaları əsasında üzündən oxutdurulması, Nəcməddin Ərbakan Universitetinin Kələşoğlu adına İlahiyyat fakültəsinin "Qurani-Kərim" fənn proqramında da bəzi kiçik surələrin əzbərlətdirilməsi və "Ali-İmran" surəsi ilə "ən-Nisa" surəsinin təcvid qaydaları əsasında üzündən oxutdurulması nəzərdə tutulur. Dolayısilə, II semestrdə Mərmərə Universitetinin İlahiyyat fakültəsinin və Nəcməddin Ərbakan Universitetinin Kələşoğlu adına İlahiyyat fakültəsinin "Qurani-Kərim" fənn proqramına görə tələbələr Azərbaycan İlahiyyat İnstitutunun "Qurani-Kərim" fənn proqramı ilə müqayisədə üzündən bir surə daha çox oxumuş olurlar.

Ümumiyyətlə, müqayisə üçün demək olar ki, Mərmərə Universitetinin İlahiyyat fakültəsi ilə Nəcməddin Ərbakan Universitetinin Kələşoğlu adına İlahiyyat fakültəsinin "Qurani-Kərim" fənn proqramı sayca surələrin əzbərlətdirilməsi və üzündən oxutdurulması baxımından Azərbaycan İlahiyyat İnstitutunun "Qurani-Kərim" fənn proqramından daha genişdir. Bu da adı çəkilən İlahiyyat fakültələrində tədris ilinin Azərbaycan İlahiyyat İnstitutundan fərqli olaraq bir il hazırlıq olmaqla beş il davam etməsi ilə bağlıdır. Yuxarıda da qeyd edildiyi kimi, tədris ilinin beş il davam etməsi həmin fakültələrə fənn proqramlarının hazırlanmasında geniş sərbəstlik verir. Bunun nəticəsidir ki, Azərbaycan İlahiyyat İnstitutunda İslamşünaslıq ixtisası üzrə Qurani-Kərim fənni dörd semestr, Türkiyə Cümhuriyyəti İlahiyyat fakültələrində isə səkkiz semestr tədris olunur. Ona görə də Azərbaycan İlahiyyat İnstitutunda tələbələr Türkiyə Cümhuriyyətinin İlahiyyat fakültələrinin tələbələrindən daha az surə əzbərləyir və bütün Quranı müəllim nəzarətində başdansona xətm edə bilmirlər. Halbuki yuxarıda təsvir edildiyi kimi, müqayisə

aparılan İlahiyyat fakültələrinin “Qurani-Kərim” fənn proqramlarında tələbələr müəllim nəzarətində Qurani-Kərimi başdan-sona xətm edirlər. Lakin bütün bunlar Azərbaycan İlahiyyat İnstitutunda Qurani-Kərim fənninin tədrisinin keyfiyyətinə mənfi təsir etmir. Kəmiyyət baxımından üzündən oxunan surələrin miqdarı az olsa da, təcvid və təlim baxımından nəinki Türkiyə Cümhuriyyətinin İlahiyyat fakültələrindən, habelə bütün müsəlman ölkələrindən geri qalmır. Nəzərə alsaq ki, Azərbaycan İlahiyyat İnstitutunu seçən tələbələr müqayisə aparılan İlahiyyat fakültələrinin tələblərindən fərqli olaraq, dini təmayüllü lisey məzunu deyil, demək olar ki, onların Qurani-Kərim bilgiləri yox dərəcəsindədir, bütün bunlara baxmayaraq, dörd semestr ərzində və təşkil olunan əlavə məşğələlər nəticəsində onların təcvid qaydaları əsasında Qurani-Kərimi oxumağı öyrənmələri və müəyyən surələri əzbərləmələri İnstitut üçün böyük uğurdur. Bunu Azərbaycan İlahiyyat İnstitutu tələbələrinin Beynəlxalq Qurani-Kərim müsabiqələrində İnstitutu layiqincə təmsil etmələri deməyə əsas verir.

Nəticə

Qeyd edildiyi kimi Azərbaycan İlahiyyat İnstitutunun Tədris planları və fənn proqramları hazırlanarkən, həm də Türkiyə Cümhuriyyətinin ali təhsil müəssisələrinin lahiyyat fakültələrinin Tədris planları və fənn proqramları nəzərdən keçirilmişdir. Belə ki, sözügedən ölkənin İlahiyyat fakültələrinə qəbul olan tələbələr baza ilahiyyat təhsilinə malik olduqları üçün xüsusilə “Qurani-Kərim” fənn proqramları çətindən asana doğru prinsipi əsasında hazırlanmışdır. Tələbələin həm baza ilahiyyat təhsilinin, həm də sözügedən fənnin səkkiz semestr tədris olunması buna imkan verir. Azərbaycan İlahiyyat İnstitutuna qəbul olan tələbələrin ixtisasla bağlı baza təhsili olmadığı üçün “Qurani-Kərim” fənn proqramı asandan çətinə doğru prinsipi əsasında hazırlanmışdır. Görünən odur ki, tələbələrin ixtisasla bağlı baza təhsili olmadığı üçün və fənnin dörd semestr tədris olunması daha yığcam fənn proqramının hazırlanmasını şərtləndirmişdir. Bu özünü Türkiyə Cümhuriyyətinin müqayisə aparılan iki İlahiyyat fakültəsinin “Qurani-Kərim” fənn proqramında əzbərlənən və üzündən oxunan surələrin sayında göstərir. Təcvid qaydalarına isə müqayisə aparılan iki İlahiyyat fakültəsində olduğu kimi, Azərbaycan İlahiyyat İnstitutunun fənn proqramında da daha geniş yer verilir. Təbii ki, məqsəd fənn proqramının eyniliyi deyil, daha təkmil olmasıdır.

Bu gün Azərbaycan İlahiyyat İnstitutunda tətbiq edilən “Qurani-Kərim” fənn proqramı daha təkmil formada hazırlanmışdır. Arzu olunur ki, bu ildən fəaliyyətə başlayan Bakı İlahiyyat Kollecində baza ilahiyyat təhsili alan tələbələr Azərbaycan İlahiyyat İnstitutunda təhsillərini davam etdirsinlər. Belə olan halda, daha sürətli və daha geniş proqramın hazırlanması zərurəti yaranar.

Ədəbiyyat

Əli əl-Qari. (1947). *Əl-minəhül-fikriyyə şərhul-muqaddəmətil-cəzəriyyə*. Qahirə. (85 s.)

Necati, Tetik. (1990). *Kıraat elminin talimi*. İstanbul: İşaret, (224 s.).

Süyuti, Cəlaləddin. (1973). *Əl-itqan fi-ülumil-Quran*. Beyrut: Məktəbətus-Səqafiyyə, (2 cild).

Tədris planı. (2020). Azərbaycan İlahiyyat İnstitutu.

Zərqani. (1943). *Mənahilül-irfan fi ülumil-Quran*. Qahirə: Daru ihyail-kutubil-ərəbiyyə, (2 cild).

https://meobs.marmara.edu.tr/ProgramTanitim/ilahiyat-fakultesi/ilahiyat-69-86-0

https://www.erbakan.edu.tr/ilahiyat/duyuru/18257/kuran-okuma-ve-tecvid-ders-mufredati

Konstitusiyadan kurikuluma: qanunvericiliyin tələbləri qarşısında Azərbaycanın ümumtəhsil məktəblərinin dərsliklərindəki dini biliklərin məzmun təhlili

i.f.d., dos. Elnurə Əzizova,
Azərbaycan İlahiyyat İnstitutu
İlahiyyat fakültəsinin dekanı
Bakı, Azərbaycan
elnuraazizova@ait.edu.az
https://orcid.org/0000-0002-2505-1299

Xülasə

Müasir dövrdə din mənəvi dəyərlərdən sosial münasibətlərə, mədəni təsisatlardan beynəlxalq siyasi münasibətlərədək müxtəlif istiqamətlərdə mövcudiyyətini davam etdirən bir amildir. Bu reallıqdan çıxış edərək, hərtərəfli təhsil siyasəti yürüdən dünyəvi dövlətlərin böyük əksəriyyəti müəyyən dini biliklərin milli təhsil proqramlarına salınmasını zəruri hesab edir. Post-sosialist blokunun dağılmasının ardından müstəqilliyini qazanan dövlətlər də bu prosesə qoşulmuş, özlərinəməxsus din tədrisi modelinin formalaşdırılması istiqamətində müəyyən yol qət etmişlər. Azərbaycanda da ümumtəhsil məktəblərində din tədrisi mövzusu müvafiq qurumların və digər maraqlı tərəflərin nümayəndələrinin fərqli münasibət bildirdiyi siyasi-ictimai məsələ kimi müstəqilliyin ilk illərindən etibarən, din-məktəb münasibəti kontekstində müzakirə olunmuşdur. Kütləvi informasiya vasitələrində yer alan bəzi sərlövhələrdən istiqamətlənərək, din tədrisi ilə əlaqəli proseslərin hələ də qanunvericiliyin imkan və məhdudiyyətlərinin şərhinə dair nəzəri çərçivədə qaldığı düşünülə bilər. Bu isə Azərbaycan Respublikasının müstəqillik dövründə ümumtəhsil müəssisələrində təcrübə olunan din tədrisi prosesinin nəzərdən kənarda qalmasıdır. Müstəqil fənn vasitəsi olmamaqla yanaşı, Azərbaycanın ümumtəhsil məktəblərində inteqrativ metodla müxtəlif fənlərin tərkibində dinə dair biliklər tədris olunur. Bu tədqiqatda qanunvericiliyin din tədrisi ilə əlaqəli imkan və məhdudiyyətləri çərçivəsində Azərbaycanın ümumtəhsil məktəblərində dinə dair biliklərin məzmunu, həmçinin təhsil proqramlarındakı dəyişikliklərin dərsliklərə təsiri təhlil olunur.

Açar sözlər: *Azərbaycan, konstitusiya, dünyəvi dövlət, din tədrisi, dünyəvi təhsil, dini təhsil, kurikulum, dərslik.*

From the Constitution to the Curriculum: Content Analysis of Religious Knowledge in Textbooks of Azerbaijani Schools in Accordance with Legal Requirements

Assoc. Prof. Elnura Azizova
Azerbaijan Institute of Theology
Faculty of Theology, Department of Religious Studies
Baku, Azeirbaijan
elnuraazizova@ait.edu.az
https://orcid.org/0000-0002-2505-1299

Abstract

"Religion" is a factor continuing to exit in varios aspects in the contemporary period, from moral values to social relations, from cultural institutions to international political relations. Based on this reality, the vast majority of secular states wit h a comprehensive education policy consider it necessary to include some religious information in national education programs. After the collapse of the post-socialist bloc, states that gained independence also joined this process and made progress towards the formation of their unique models of religious education. In Azerbaijan, the topic of teaching religion in state schools has been discussed in the context of the religion-school relationship since the first years of independence as a political-social issue on which representatives of relevant institutions and other interested parties expressed different attitudes. From some headlines appearing in mass media, it can be thought that the process regarding religious education is still in the theoretical framework of interpreting the possibilities and limitations of the legislation. This is the neglect of the religious education precess implemented in schools during the independence period of the Republic of Azerbaijan. In Azerbaijani general education schools, religious education is not an independent course, but teaching about religions is carried out in an integrative method in various subjects. This paper analyzes the content of religious education in Azerbaijani public schools, as well as the impact of changes in educational programs on textbooks within the framework of the possibilities and limitations of the legislation related to religious education.

Keywords: *Azerbaijan, Constitution, Secular state, Teaching about religion, Secular education, religious education, curriculum, "Life science", textbooks*

От Конституции к учебной программе: анализ содержания религиозных знаний в учебниках азербайджанских школ в соответствии с требованиями законодательства

Доц. Эльнура Азизова
Азербайджанский институт теологии
Факультет Теологии, Кафедра Религиоведения
elnuraazizova@ait.edu.az
https://orcid.org/0000-0002-2505-1299

Резюме

“Религия” является фактором, продолжающим существовать в различных аспектах в современный период, от моральных ценностей до социальных отношений, от культурных институтов до международных политических отношений. Исходя из этой реальности, большинство светских государств с комплексной образовательной политикой считают необходимым включать некоторую религиозную информацию в национальные образовательные программы. После распада постсоциалистического блока государства, получившие независимость, также присоединились к этому процессу и добились прогресса в формировании своих моделей религиозного образования. В Азербайджане тема преподавания религии в государственных школах обсуждалась в контексте отношений религия-школа с первых лет независимости как политико-социальный вопрос, по которому представители соответствующих учреждений и другие заинтересованные стороны выражали различные позиции. Из некоторых заголовков, появляющихся в средствах массовой информации, можно подумать, что процесс в отношении религиозного образования все еще находится в теоретических рамках интерпретации возможностей и ограничений законодательства. Это игнорирование религиозного образовательного процесса, реализованного в школах в период независимости Азербайджанской Республики. В общеобразовательных школах Азербайджана религиозное образование не является самостоятельным курсом, а преподавание религий осуществляется интегративным методом по различным предметам. В данной статье анализируется содержание религиозного образования в государственных школах Азер-

байджана, а также влияние изменений в образовательных программах на учебники в рамках возможностей и ограничений законодательства, связанного с религиозным образованием.

Ключевые слова: *Азербайджан, Конституция, светское государство, преподавание религии, светское образование, религиозное образование, учебная программа, "Познание мира", учебники*

Giriş

Dövrün tələblərinə cavab vermək üçün ən çox islahat aparılan sahələrdən biri təhsil istiqamətidir. Ümumi təhsil pilləsində aparılan islahatların məqsədi, sadəcə, elmi-texnoloji inkişafa və bazar iqtisadiyyatının tələblərinə uyğun peşə və baza təhsilinə yiyələnəcək abituriyent yetişdirilməsi deyil, eyni zamanda, beynəlxalq və yerli müstəvidə siyasi-sosial dəyişikliklərin tələblərinə cavab verə bilən, bununla yanaşı, dövlətinə sadiq, xalqının milli ənənələrinə hörmət bəsləyən, milli-mənəvi dəyərləri qoruyub inkişaf etdirən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Təhsilin əsas məqsədlərindən birini təşkil edən və "vətəndaşlıq fəzilətləri"nin (civic virtues) (Audi, 2011, 134-136) əsasını meydana gətirən dəyərlərin öyrədilməsi görünməyən – gizli kurikulum vasitəsilə təhsil proqramlarına inteqrasiya olunmuş şəkildə həyata keçirildiyi kimi, müxtəlif ölkələrdə Xarakter tədrisi – tərbiyəsi (Character Education), Əxlaq tədrisi – tərbiyəsi (Moral Education), Vətəndaşlıq tədrisi – tərbiyəsi (Civic Education, Citizenship Education) kimi müstəqil fənlər vasitəsilə də tədris olunur (Althof – Berkowitz, 2006, 495-518). "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda da fərdin, dövlətin, cəmiyyətin dövrə uyğun sosial sifarişinin, maraq və tələbatlarının təmin edilməsi; təhsilalanların əqli, fiziki, mənəvi, estetik inkişafının təmin olunması; şəxsiyyətin formalaşması üçün zəruri nəzəri və praktik biliklərlə yanaşı, həyati bacarıq və dəyərlərə yiyələnməsinin təmin edilməsi ümumi təhsilin məzmununa dair tələblər arasında qeyd olunur (Ümumi təhsil haqqında Azərbaycan Respublikasının qanunu, 2019, Maddə 10.1.1.-10.1.3.).

Ümumi təhsilin məzmununa dair bu tələblər nəzərə alındıqda, XXI əsrin birinci rübündə hələ də siyasi, sosial və mədəni amil kimi aktual-

lığını qoruyan din amili vətəndaş yetişdirilməsi prosesində müxtəlif aspektlərdən əhəmiyyət kəsb edir. Din, ilk növbədə, xalqların milli-mənəvi dəyərləri və mədəniyyəti ilə əlaqəli ünsür olsa da, din əsaslı radikalizm və ekstremizm zəminində dövlətlərin təhlükəsizlik məsələsi olaraq vətəndaş hazırlığı prosesində vacib amil hesab edilir (Moulin, 2012, 158-173; Adebayo and Mansikka, 2018, 447-469). Buna görə dövlət ümumtəhsil müəssisələrində dinlə əlaqəli məlumatlılıq təmin edən din tədrisi beynəlxaq və milli səviyyədə təhsil mühitində müzakirə mövzusu kimi aktuallığını qoruyur. Demokratik ölkələrin dövlət ümumtəhsil müəssisələrində XXI əsrin birinci rübündə din tədrisinin inkişafı məqsədilə dinin məktəblə əlaqəsi mövzusu beynəlxalq layihələrdə tədqiqata cəlb edildiyi kimi (Religion in Education, 2009, 3-29; Guidelines on Prejudices and Stereotypes in Religions, 2016, 6; Schreiner, 2018), BMT, UNESCO, ATƏT və digər beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərdə də öz əksini tapmışdır.

Bu sənədlərdən 2007-ci ildə qəbul edilmiş "Dövlət məktəblərində din və inanclar haqqında tədris üzrə Toledo Rəhbər Prinsipləri" (Toledo Guiding Principles on Teaching about Religions and Beliefs in Public Schools) xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatlar göstərir ki, Toledo Rəhbər Prinsipləri tövsiyə xarakteri daşımaqla yanaşı, ATƏT-in üzv dövlətlərinin bir çoxunda ümumtəhsil müəssisələrində həyata keçirilən din tədrisinin dəyərləndirilməsi və təkmilləşdirilməsi prosesində müraciət olunan əsas beynəlxalq sənədlərdən biri olmuşdur (Durham, Ferrari and Santoro, 2008, 229-239; Shmonin, 2017, 72-88; Hendek, 2022, 243-267). Toledo Rəhbər Prinsipləri ATƏT-ə üzv dövlətlərin dövlət məktəblərində dinlər və inanclar haqqında tədris həyata keçirilərkən insan hüquqlarına, əsas azadlıqlara və vətəndaş dəyərlərinə hörmət edən bir tədris mühiti yaradılmasının zəruriliyini vurğulayır. Bu tədrisin əhəmiyyətini aşağıdakı şəkildə sıralayır:

1) dinlərin və inancların fərd və cəmiyyət həyatında mühüm qüvvə olduğu reallığından istiqamətlənərək, müxtəlif cəmiyyətlərdə insanların qarşılıqlı anlaşmasının və onları qoruyan hüquqların əhəmiyyətini dərk etmələrinin imkanlarının artırılması üçün bu inancların başa düşülməsinin zəruriliyi;

2) dinlər və inanclar haqqındaki biliklərin insanın öz dinini/inancını daha dərindən qiymətləndirməsinə, özünüdərkin formalaşmasına və inkişafına kömək etməsi, həmçinin şagirdlərin fikir dünyasının məna və məqsəd kimi mövzulara cəlb edilməsi ilə tarix boyu bəşəriyyəti maraqlandıran mühüm əxlaq mövzularına diqqətini çəkməsi;

3) tarix, ədəbiyyat və mədəniyyətin böyük hissəsinin dinlər və inanclar haqqında məlumat olmadan anlaşılmadığı reallığından hərəkətlə dinlərin və inancların hərtərəfli təhsilin vacib hissəsi olması;

4) dinlər və inanclar haqqında biliyin hörmətlə davranmağı təşviq etməsi və sosial birliyin gücləndirilməsinə kömək etməsi, beləliklə, öz əqidəsindən asılı olmayaraq, cəmiyyətin bütün üzvlərinin başqalarının dini və inanc sistemləri haqqında biliklərdən bəhrələnməsi (Toledo Guiding Principles, 2007, 19).

Ümumtəhsil müəssisələrində din tədrisinin əhəmiyyəti ilə əlaqəli Toledo Rəhbər Prinsiplərinin ön plana çıxardığı dörd istiqaməti 1) insan hüquqları; 2) özünüdərk və mənəviyyat; 3) mədəniyyət; 4) sosial birlik kimi xülasə etmək olar. Bu da yerli müstəvidə müəyyən fərqliliklər olmaqla yanaşı, müasir demokratik dövlətlərin böyük əksəriyyətinin vətəndaş yetişdirmə prosesinin tərkib hissəsi kimi ümumtəhsil müəssisələrində din tədrisinin oxşar səbəblərdən əhəmiyyət kəsb etdiyini göstərir.

Azərbaycan Respublikasının 33 illik müstəqillik dövründə ümumtəhsil müəssisələrində din tədrisinin təşkili istiqamətində müəyyən addımlar atılmışdır. Məktəblərdə din tədrisi ilə əlaqəli müzakirələr hələ 1980-ci illərin sonundan etibarən müstəqilliyə aparan prosesdə başlamışdır. Həmin dövrdə qurulma mərhələsində olan siyasi partiyalar millidini kimliyi ön plana çıxaran siyasi diskurslarında din tədrisi məsələsini də vurğulayırdılar (Hasanov, 2007, 194-195, 200). Bu mövzu müstəqilliyin elanından qısa müddət sonra, 1992-ci ildə qəbul edilən DEAHQ-ın da məzmununda öz əksini tapmış[1], 2021-ci ildəki dəyişikliyədək DEAHQ-nin "Dinin məktəblə əlaqəsi" adlı 6-cı maddəsi dövlət məktəblərində müstəqil din tədrisinin qanunvericiliyə zidd olmadığının ən böyük hüquqi əsaslarından biri kimi qiymətləndirilmişdir (Səmədov, 2009, 55-56; Tağıyev, 2013, 388; Qənbərov, 2019, 131-132; Azimli, 2019, 1217; Huseynov; 2020, 56; Üzümcü, 2022, 948).

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin ardından (1995) din azadlığı konstitusional hüquqa paralel olaraq inkişaf edən dini maariflənmə prosesi Azərbaycan məktəblərində din dərsinin oxudulması mövzusunun din-təhsil münasibətində dövlət rəsmiləri, dini quruluşlar, kütləvi informasiya vasitələri və s. tərəfindən müzakirəsinin aktuallığını şərtləndirmiş (Hasanov, 2007, 205; Səmədov, 2009, 57-59; Qənbərov, 2019, 157-158; Huseynov, 2020, 66), bu mövzuda müxtəlif

[1] Dini etiqad azadlığı haqqında qanun https://e-qanun.az/framework/7649#_edn16

pilot layihələr təqdim olunmuşdur. Nümunə olaraq 1998-ci ildə iki ictimai birliyin – Respublika Gənclər Təşkilatı Milli Şurası və Dini Araşdırmalar Mərkəzinin pilot layihəsi kimi Bakıda üç dövlət məktəbində "İslamı öyrənirik" adlı kitab çərçivəsində din dərsi tədris olunmuşdur. Layihənin təşkilatçıları şagirdlərin və valideynlərinin din dərsinə yüksək maraq və dəstəyini göstərən nəticələri nəşr etdirmişdilər (Səmədov, 2009, 144-145).

Müstəqilliyin ilk on ilində məktəblərdə din tədrisinin həyata keçirilməsi ilə əlaqəli müxtəlif fikirlər səsləndirilməyə davam edərkən, 2004-cü ildən etibarən, ümumtəhsil müəssisələrində dörd məzmun xəttindən biri Mənəviyyat olan Həyat bilgisi fənninin tədrisinə başlanılmışdır. Həyat bilgisi fənni müstəqil bir din fənni olmamaqla yanaşı, 2004–2022-ci illərdə I–IX siniflərdə bu fənn çərçivəsində inteqrativ din tədrisi həyata keçirilmişdir. Həyat bilgisi dərsliklərindəki dini biliklərin təqdimində pedaqoji və metodoloji cəhətdən təkmilləşdirilmə ehtiyacı olmaqla yanaşı (Əzizova, 2018, 23-24; Əzizova, 2023, 23-24), bu məcburi fənn çərçivəsində ümumi orta təhsil səviyyəsində şagirdlərə dinlərlə əlaqəli ümumi dünyagörüşü kimi müəyyən biliklər tədris edilirdi. İkinci yarımfəsildə müqayisəli təhlil olunacağı təqdirdə, Azərbaycan tarixi, Ümumi tarix, Ədəbiyyat, Azərbaycan dili kimi fənlərin 2013-cü ildə tərtib olunmuş təhsil proqramlarının məzmun standartları və alt-standartları ümumtəhsil müəssisələrində dinə dair biliklərin tədrisi üçün müəyyən imkanlar təqdim edir. Həyat bilgisi fənninin isə 2013-cü ildə nəşr olunmuş təhsil proqramı göstərir ki, bu fənn çərçivəsində Azərbaycanın ümumtəhsil müəssisələrində din tədrisinin həyata keçirilməsinin imkanları daha genişdir.

Burada nəzərdə tutulan "din tədrisi" dünyəvi dövlətdə dövlət büdcəsindən maliyyələşdirilən ümumtəhsil müəssisələrində tətbiq edilən təhsil proqramının bir hissəsi kimi "din haqqında öyrətmə" tədris modelidir. Müxtəlif dünyəvi dövlətlərin təcrübələrində ümumtəhsil müəssisələrində din tədrisinin (RE – Religious Education) din haqqında öyrətmə tədris modeli xaricində dindən öyrənmə, dini öyrənmə; inteqrativ, yaxud ayırıcı; konfessional, yaxud qeyri-konfessional din tədrisi modelləri mövcuddur (Grimmitt, 2000, 24-52; Hull, 2002, 5-10; Alberts, 2010, 275).

Dini mərkəzlərin nəzdində fəaliyyət göstərən dini təhsil müəssisələrinin təmin etdiyi dini təhsil (Dini etiqad azadlığı haqqında qanun, Maddə 6.3.-6.4) məqalənin tədqiqat obyektinə daxil deyil. Belə bir dini təhsil dünyəvi dövlətlərdə dinin müxtəlif formalarda öyrədilməsini ehtiva edə bilər:

1) müxtəlif dini qurumlara bağlı məktəblərdə icbari dünyəvi təhsilin alternativi kimi təşkil olunan formal təhsil kimi (Qərb dövlətlərinin əksəriyyətində dini demoqrafiyaya uyğun olaraq fəaliyyət göstərən protestant, katolik və digər dini qurumlara bağlı məktəbləri nümunə göstərmək olar: (Maussen, 2014, 1-21; Selderslagh, 2023, 3-19; Wodon, 2023, 20-33);

2) Vətəndaşların qanunvericilik çərçivəsində könüllü olaraq iştirak etdikləri müxtəlif dini kurslardan ibarət qeyri-formal təhsil kimi Quran, Bibliya və digər müqəddəs kitabları öyrənmə kursları nümunə göstərilə bilər. Bu dini təhsil növlərinin ortaq cəhətləri tədris olunan dinlə əlaqəli məlumatın, əsasən, normativ xarakterli olub, təhsilalanların dini kimliyinin müəyyən istiqamətdə formalaşdırılmasına xidmət etməsi; əksər hallarda proqram hazırlığından pedaqoqun seçiminədək təhsil prosesinin bütün mərhələlərinin dini qurumun nəzarəti və maliyyə dəstəyi ilə həyata keçirilməsidir.[2]

Bu tədqiqatda dünyəvi dövlət kimi Azərbaycan Respublikası qanunvericiliyinin tələbləri qarşısında ümumtəhsil məktəblərinin dərsliklərində dinlərlə əlaqəli biliklərin məzmunu təhlil olunur. Tədqiqatda qanunvericilik çərçivəsində din tədrisinin imkan və məhdudiyyətləri araşdırılır, ümumtəhsil məktəblərindəki dərsliklərdə inteqrativ üsulla tədris olunan dini biliklərin məzmunu təhlil edilir.

1. Azərbaycan Respublikasının qanunvericiliyində din tədrisinin imkanları və məhdudiyyətləri

Müasir dövrdə din tədrisi, sadəcə, yüksək dindarlıq statistikası ilə fərqlənən ölkələrdə və ya dini qurumların nəzdində dini təhsili təmin edən dini məktəblərdə deyil, ateizm göstəriciləri yüksək olan (WIN-Gallup International Global Index of Religiosity and Atheism, 2012, 4, 12). Yaponiya, Fransa, Almaniya, Hollandiya, Avstriya, İslandiya, İrlandiya kimi ölkələrdə də ümumtəhsil məktəblərində müxtəlif metodlarla həyata keçirilir (Inoue, 2009, 580-594; Estivalezes, 2003, 179-190; Rory, 2000, 433-523).

Milli kurikulumun tərkib hissəsi kimi, din tədrisində seçilən üsul və metod hər bir dövlətin dünyəvilik konsepti və dövlət–din siyasəti ilə

[2] Bir sıra dünyəvi dövlətdə formal təhsil verən dini məktəblərə dövlətin maliyyə dəstəyi göstərdiyinə dair təcrübə də mövcuddur. Baxın: De Jong and Snik, 2003, 573-587; Merry, 2007, 255-270.

yaxından əlaqəlidir (Hull, 2002, 4-5)[3]. Dünyəvilik, ilk növbədə, qanunvericilik və məhkəmə sisteminin dünyəvi səciyyə daşıması ilə əlaqəli olsa da, bu meyarlara cavab verən bütün dünyəvi dövlətlərin dinə rəsmi münasibəti birmənalı deyildir (Burchardt and Wohlrab-Sahr, 2013, 605-611; Schnabel, Behrens and Grötsch, 2017, 1-29; Modood and Sealy, 2021, 1-14). Nümunə olaraq qanunvericilik və məhkəmə sisteminin dünyəvi xüsusiyyət daşımasına baxmayaraq, Yunanıstan, Danimarka və İngiltərədə dövlətin rəsmi dini var, ABŞ və Fransada hər hansı bir din dövlət dini kimi rəsmiləşdirilməyib, Çin, Şimali Koreya və Kuba kimi dövlətlərdə isə rəsmi olaraq din əleyhdarlığı mövcuddur. Qanunvericiliklə tənzimlənən dövlət-din münasibətlərinin ilkin hüquqi çərçivəsi isə əksər dövlətlərdə ali sənəd rolu oynayan konstitusiyalar vasitəsilə müəyyənləşdirilir. Bu prosesdə, xüsusilə dövlətin dünyəviliyi anlayışının şərhindən asılı olaraq, dövlət institutları arasında əlaqələr; vətəndaşla dövlət arasındakı münasibətlər; vətəndaşların hüquq və azadlıqları kontekstində din mövzusu konstitusiyalarının məzmununda müxtəlif dərəcələrdə əks olunur (Schnabel, Behrens and Grötsch, 2017, 21).

Azərbaycan Respublikasında dövlət-din münasibətləri Azərbaycan Respublikasının Konstitusiyası, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu (1992), "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (2015) və dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir. Azərbaycan Respublikasının Konstitusiyasında dövlətin dünyəviliyi, dövlət-din münasibətərinin tənzimlənməsi, dini bərabərlik hüququ, dinə bağlı ayrıseçkiliyin qadağan edilməsi, dini inanc və ritualların yerinə yetirilməsi, ictimai yerlərdə ibadətlərin yerinə yetirilməsi kimi mövzular kontekstində dindən danışılır. Konstitusiyanın 7-ci maddəsində "Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır" ifadəsi ilə dövlətin dünyəvi xüsusiyyəti qeyd olunur (Maddə 7.1.).

"Din və dövlət" adlı 18-ci maddədə "Azərbaycan Respublikasında din dövlətdən ayrıdır" ifadəsi ilə din-dövlət ayrılığı qeyd olunur və bütün dini etiqadların qanun qarşısındakı bərabərliyi bildirilir (Maddə 18.1). Konstitusiyada vətəndaşların dini etiqad və əqidəsinin hüquq pozuntusuna bəraət qazandırmadığı qeyd olunur (Maddə 48.3), insan

[3] Bu perspektivdən baxıldıqda xüsusilə Avropa institutları qarşısında Azərbaycanın dünyəvi xarakterinə xələl gətirəcəyinə və beynəlxalq münasibətlərdə təhlükəli nəticələr verə biləcəyinə görə Azərbaycan ümumtəhsil məktəblərində müstəqil din tədrisi modelinin tətbiq olunmadığı iddiası (Jödicke, 2014, 106, 108) əsassızdır.

ləyaqətini alçaldan və insanpərvərlik prinsiplərinə zidd olan din, yaxud cərəyanların yayılmasının və təbliğinin qadağan olduğu bildirilir (Maddə 18.2). Qeyd olunan maddələr "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (DEQMHQ) Azərbaycan Respublikasının konstitusiya quruluşunun və dünyəvi xarakterinin qorunmasının, ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsinin, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə edilməsinin labüdlüyü zəminində, həmçinin dini ekstremizm, dini radikalizm və ya dini fanatizmə qarşı mübarizə kontekstində təfsilatlı şəkildə şərh edilir (DEQMHQ, Maddə 1; 3.)[4].

Konstitusiyada din kontekstində üzərində durulan digər istiqamət vətəndaşların hüquq və azadlıqlarıdır. Bu çərçivədə 25-ci maddədə dinindən asılı olmayaraq, dövlətin bütün vətəndaşlarının hüquq və azadlıqlarının bərabərliyinə təminat verdiyi, dini mənsubiyyətinə görə insan və vətəndaş hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasının qadağan olduğu bildirilir (Maddə 25.3). Həmçinin dini təşviqat və təbliğatın ədavət və düşmənçilik oyatmaq məqsədinin yolverilməzliyi qeyd olunur (Maddə 47.3). Vətəndaşların dinə münasibətini müstəqil müəyyənləşdirmək, hansısa dinə təkbaşına yaxud başqaları ilə birlikdə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, bundan əlavə, dinə münasibətini ifadə etməyin və yaymağın (Maddə 48.1-2), ictimai qaydanı pozmayan və ya ictimai əxlaqa zidd olmadığı təqdirdə dini mərasimləri yerinə yetirməyin sərbəst olduğu (Maddə 48.3), dini etiqadı və əqidəni ifadə etməyin yaxud nümayiş etdirməyin, həmçinin dini mərasimləri yerinə yetirməyin könüllülük əsasında olduğu bildirilir (Maddə 48.5).

Müasir dövrdə dünyəvilik səviyyəsindən asılı olmayaraq, din cəmiyyətlərdə mədəni və mənəvi irsin bir parçası kimi mövcudiyyətini davam etdirir. Konstitusiyanın "Mədəniyyət hüququ" adlı 40-cı maddəsində hər kəsin öz tarixi, mədəni və mənəvi irsinə hörmətlə yanaşmasının, ona qayğı göstərməsinin, tarixi və mədəniyyət abidələrini qorumasının zəruri olduğu bildirilir (Maddə 40.2). Bu da öz növbəsində, vətəndaşların tarixi, mədəni və mənəvi irs çərçivəsində ölkədə mövcud olmuş və mövcudiyyətini qoruyan dini inanclarla əlaqəli mədəniyyət perspektivindən məlumatlı olmasını tələb edir.

Milli təhsil siyasəti vətəndaşların əsas hüquqları, dövlətin sosial sferaya aid vacib elementlərindən biri çərçivəsində konstitusiyalara daxil edildiyi üçün bir çox ölkənin konstitusiyasında məktəb-din

[4] https://e-qanun.az/framework/31509

əlaqəsinə də münasibət bildirilir (Schnabel, 2017, 20-21; Willaime, 2007, 82). Azərbaycan Respublikasının Konstitusiyasında ümumtəhsil məktəblərinin dinlə əlaqəsi "Din və dövlət" maddəsində dövlət təhsil sisteminin dünyəvi xarakter daşıdığı bildirilməklə göstərilir (Maddə 18.3). Bu maddə dövlətin ümumtəhsil məktəblərinin dini təhsil vermədiyinin açıq ifadəsi kimi qəbul olunur. Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsində mühüm sənədlərdən biri "Dini etiqad azadlığı haqqında" Qanunun (DEAHQ) 1992-ci il redaksiyasının 6-cı maddəsində Azərbaycan Respublikasında dövlət təhsil sisteminin dindən ayrı olduğu bildirilir, "dinşünaslıq, dini-idraki, dini-fəlsəfi fənlər, müqəddəs dini kitabların əsasları ilə tanışlıq dövlət təhsil müəssisələrinin tədris proqramına daxil edilə biləcəyi" qeyd olunurdu (Dini etiqad azadlığı haqqında qanun, 1992, Maddə 6). 2021-ci ildəki dəyişikliklə DEAHQ-ın 6-cı maddəsi "Dini təhsil" adı ilə dəyişdirilmiş, dövlət təhsil müəssisələrinin tədris proqramlarına dinlə əlaqəli müxtəlif fənlərin daxil edilməsi hissəsi çıxarılmış, din tədrisinin formal təhsillə deyil, qeyri-formal təhsillə həyata keçirilməsi istiqamətində yeni məzmun əlavə olunmuşdur.[5] Bu çərçivədəki dəyişikliyin məktəb-din tədrisi mövzusuna dair müzakirələrin də istiqamətini dəyişdirəcəyini düşünmək olar.

Cədvəl 1. Konstitusiyanın dinlə əlaqəli maddələri əsasında altstandart nümunələri

Konstitusiya	**Qanunvericilik biliyi tələb edən altstandart nümunələri**
Maddə 7.1.; 18.1.; 18.3	• Dini qaydaların dövlət idarəetməsinə tətbiq olunmadığını izah edir; • Dövlət təhsil sisteminin dini təhsil təmin etmədiyini izah edir;
Maddə 25.3.	• Dövlətin dinindən asılı olmayaraq, hər kəsin hüquq və bərabərliyinə təminat verdiyi, insan və vətəndaş hüquqlarını və azadlıqlarını dini mənsubiyyətə görə məhdudlaşdırmağın qadağan olduğu barədə mühakimə yürüdür.
Maddə 48.2.	• Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirməyin, təkbaşına və ya başqaları ilə birlikdə bir dinə etiqad etməyin/etməməyin, dinə

[5] Dini etiqad azadlığı haqqında qanun https://e-qanun.az/framework/7649#_edn16

	münasibəti ilə bağlı əqidəsini ifadə etmək/yaymaq hüququnun çərçivəsini müəyyən edir.
Maddə 48.4.	• Dini mərasimlərin yerinə yetirilməsində ictimai qaydalara və ictimai əxlaq çərçivəsinə riayət etməyin vacibliyini izah edir.
Maddə 48.4.	• Dini etiqad və əqidənin hüquq pozuntusuna bəraət qazandırmadığını əlaqələndirir.
Maddə 48.5.	• Dini etiqadın və əqidənin ifadə/nümayiş etdirilməsinin, dini mərasimlərin yerinə yetirilməsinin könüllülük prinsipinə əsaslandığını izah edir.
Konstitusiya	**Dini bilik tələb edən alt-standart nümunələri**
Maddə 18.2.	• Dinin əsas məqsədinin insan ləyaqətinin yüksəldilməsinə və insanpərvərlik prinsiplərinə uyğun olduğunu izah edir. • İnsan ləyaqətinin yüksəldilməsinə və insanpərvərlik prinsiplərinə uyğun olub-olmadığına görə dini inancları/cərəyanları qarşılaşdırır/dəyərləndirir.
Maddə 47.3. Maddə 47.3; 48.5	• Din əsaslı ədavət və düşmənçilik oyadan təşviqat və təbliğat xarakterli davranışları izah edir/fərqləndirir. • Dini etiqadın və əqidənin nümayiş etdirilməsi ilə din əsaslı ədavət və düşmənçilik oyadan təşviqat və təbliğat xarakterli davranışları bir-birindən fərqləndirir.

Cədvəl 1-dən də göründüyü kimi, konstitusiyanın dinlə əlaqəli maddələri arasında həm qanunvericilik biliyi, həm də dini bilik tələb edən maddələr mövcuddur. Dövlətin dünyəviliyi, insan hüquqları və sosial birliyin təmin olunması mövzularını əhatə edən alt-standart nümunələri qanunvericilik biliyi tələb edir. Bu isə sosial-humanitar fənlər çərçivəsində sözügedən mövzularda qanunvericilik biliklərinin tədrisini zəruri edir.

Konstitusiyanın, xüsusilə 18.2., 47.3. və 48.5. maddələri əsasında verilmiş alt-standart nümunələri isə dinin mənəviyyat və sosial birliklə əlaqəli istiqamətlərində dini biliklər tələb edir. Ümumi təhsil pilləsi vətəndaş hazırlığının sistemli həyata keçirildiyi ən genişmiqyaslı dövlət proqramı sayıldığı üçün ümumtəhsil müəssisələrində tədris olunan fənlərin məzmununda dini biliklərin qanunvericiliyin bu tələblərinə cavab verməsi əhəmiyyət kəsb edir. Xüsusilə cəmiyyətdə sosial birliyin

təmin olunması məqsədilə şagirdlər hər hansı bir dinin mənsubları üçün dinin nə demək olduğunu anlamalı, bunun üçün də həmin dinin inancları, ibadətləri, dəyərləri haqqında məlumatlara sahib olmalıdırlar. Bu biliklər vasitəsilə şagirdlər multikultural bir mühitdə dinə dair öyrəndiklərinin din mənsublarının fərd və icma olaraq davranışlarında necə əks olunduğunu anlama imkanına sahib ola bilərlər.

Digər tərəfdən, din tədrisi şagirdlərə müxtəlif dinlərin mənəvi və əxlaqi mövzuları çərçivəsində mənəvi dəyərlər üzərində təhlili düşünmə imkanı verə bilər. Bu, şagirdlərin dini inancların insan ləyaqətinin yüksəldilməsinə (Maddə 18.2) xidmət edən müştərək tərəflərini öyrənmələrinə imkan yaradar. Bu biliklər bir tərəfdən, dini inanc nümayiş etdirilərkən (Maddə 48.5.) din əsaslı ədavətə səbəb olan davranışlara yol verilməsi (47.3) kimi təcrübədə tez-tez rast gəlinən halların ortadan qalxmasına xidmət edə bilər. Digər tərəfdən, şagirdin öz dini etiqadını və yaxud əqidəsini yenidən gözdən keçirərək dəyər əsaslı qərarlar verməsini stimullaşdıra bilər.

2. Ümumtəhsil müəssisələrinin dərsliklərindəki dini biliklərin məzmun təhlili

Azərbaycan Respublikasının ümumtəhsil müəssisələrində tədris olunan sosial elmlərin təhsil proqramlarının (kurikulum) tədqiqi göstərir ki, dinə dair biliklərin inteqrativ üsulla tədrisi üçün Həyat bilgisi, Azərbaycan tarixi və Ümumi tarix fənləri daha geniş imkanlar təqdim edir. Ədəbiyyat və Azərbaycan dili dərsliklərində də mədəniyyətin, milli-mənəvi dəyərlərin bir hissəsi kimi dinə dair məlumatlara rast gəlmək mümkündür. Bu məlumatlar fənnin məzmun xətləri, standartları və alt-standartlarının tələbi kimi deyil, proqramın ümumi məzmununa uyğun olaraq dərslik müəllifinin seçdiyi mətnin məzmunu ilə əlaqəlidir (Azərbaycan dili fənni üzrə Təhsil proqramı, 2013, 10).[6]

2.1. Azərbaycan dili və Ədəbiyyat dərsliklərində dini biliklər

Azərbaycan dili fənninin Təhsil proqramında din, mənəviyyat, milli-mənəvi dəyərlərə ayrılmış xüsusi məzmun xətti, standart və alt-

[6] "Ədəbiyyat" fənninin Təhsil proqramında məzmun xətləri: 1) ədəbiyyat və həyat həqiqətləri; 2) şifahi nitq; 3) yazılı nitq kimi qeyd olunur (Ədəbiyyat fənni üzrə Təhsil proqramı, 2013, 9); "Azərbaycan dili" təhsil proqramında isə məzmun xətləri: 1) dinləyib anlama və danışma; 2) oxu; 3) yazı; 4) dil qaydaları şəklindədir (Azərbaycan dili fənni üzrə Təhsil proqramı, 2013, 10).

standart yoxdur. Bununla birlikdə, fənnin ibtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə ümumi təlim nəticələri arasında şagirdin "Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim" etdiyinə dair bənd qeyd olunmuşdur ("Azərbaycan dili fənni üzrə Təhsil proqramı (Kurikulumu), 2013, 9). Bu da həmin təhsil proqramı əsasında hazırlanmış dərsliklərdə sözügedən təlim nəticəsinin reallaşdırılması tələbini yerinə yetirən məzmunun daxil edilməsi imkanı yaradır. Nümunə olaraq, "Azərbaycan dili – 3" dərsliyində "Milli bayramlar" mövzusu çərçivəsində Qurban bayramının ailəyə bağlılıq, böyüklərə hörmət, imkansızlara əl tutmaq kimi gözəl xüsusiyyətləri əks etdirdiyi" qeyd olunur (İsmayılov və digərləri, 2022, 46).

Mənəvi, əxlaqi-etik dəyərlər anlayışı Ədəbiyyat fənninin də Təhsil proqramında öz əksini tapmış, fənnin "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttinə milli-bəşəri dəyərlər və mənəvi-estetik problemlərin öyrənilməsi daxil edilmişdir (Ədəbiyyat fənni üzrə Təhsil proqramı (kurikulumu) (V-XI siniflər), 2013, 10). X sinfin 1.1.4. alt standartı üzrə şagirdin "müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməsi", XI sinfin 1.1.4. alt-standartı üzrə şagirdin "müxtəlif ədəbi növ və janrda olan əsərlərdə əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirməsi" tələb olunur. Ümumilikdə, Ədəbiyyat dərsliklərində dinə dair biliklər İslamın mədəniyyətə təsiri və müsəlmanların mədəni inkişafında İslam dəyərlərinin rolu ilə əlaqəlidir. Hər iki mövzuda dinə dair biliklərdən daha çox İslamın elm və mədəniyyətin inkişafını təşviq edən xüsusiyyətinə diqqət çəkilir. Məsələn, X sinif Ədəbiyyat dərsliyində Azərbaycan ədəbiyyatının inkişafında İslamın rolundan, azərbaycanlı şair və ədiblərin İslam mədəniyyətinin inkişafına töhfəsindən bəhs olunur (Əliyev və digərləri, 2022, 7, 38, 59, 163, 175, 183, 205). Digər bir nümunədə VIII sinif Ədəbiyyat dərsliyində Seyid Əzim Şirvaninin (1835–1888) "Qafqaz müsəlmanlarına xitab" şeirində İslamın elmə və əməyə yüksək dəyər verən bir din olmasına baxmayaraq, müsəlmanların elm və mədəniyyətdə geri qalmasının səbəbləri kimi elm öyrənməkdən və işləməkdən uzaqlaşmaları göstərilir. Peyğəmbərin öyrənmək və qazanmaq (kəsb) üçün çalışanları "həbibullah" (Allahın sevdiyi) adlandırmasına baxmayaraq, "milləti-İslamın" elmsizlik və əzmsizlik xəstəliyinə düçar olmasının səbəbləri üzərində düşünməyə dəvət edilir. Müsəlman cəmiyyətlərin sosial, iqtisadi və digər problemlərinin səbəbi kimi İslamın elm və əməyə verdiyi dəyərin nəzərə alınmaması göstərilir (Əliyev və digərləri, 2019, 85-89).

2.2. Azərbaycan tarixi və Ümumi tarix dərsliklərində dini biliklər

Azərbaycan tarixi fənnində dinlərlə əlaqəli biliklərin tədrisi, əsasən, "Mədəniyyət" məzmun xətti üzrə alt-standartların tələbi olaraq yerinə yetirilir. Nümunə olaraq, V sinif Azərbaycan tarixi fənninin Təhsil proqramında "5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir" alt-standartına uyğun olaraq, şagirdlərin "milli-mənəvi dəyərləri, dini dünyagörüşlərini, adət-ənənələri, bayramları fərqləndirməsi, onların insanın yaşayış tərzindəki yerini müəyyənləşdirməsi" tələb olunur (Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər), 2013, 104). Bu alt-standartın tələblərini qarşılamaq məqsədilə V sinif Azərbaycan tarixi dərsliyində Azərbaycanda dini inanclar mövzusunda ölkədə müxtəlif dövrlərdə mövcud olmuş dinlər haqqında, digər dinlərlə müqayisədə İslamla əlaqəli daha çox məlumat verilir, İslamın ortaya çıxması və yayılması, Məhəmməd peyğəmbərin şəxsiyyəti, İslamın elm və mədəniyyət dini olması qeyd edilir (Mahmudlu və digərləri, 2020, 37-39).

VII sinif Azərbaycan tarixi fənninin "5.1.2. Milli-mədəni dəyərlərin formalaşmasına dinlərin təsirini dəyərləndirir" alt-standartının tələbinə uyğun olaraq, şagirdlərin, ümumilikdə, İslam mədəniyyəti, müsəlman xalqlarının bir-birinə faydalı təsiri, mədrəsə və məktəblərdə dini və dünyəvi elmlərin öyrədilməsi, ümumilikdə müsəlman xalqların, xüsusilə Azərbaycan xalqının İslam mədəniyyətinin zənginləşməsinə təsirinin dəyərləndirilməsi istənilir (Azərbaycan tarixi fənni üzrə Təhsil proqramı (kurikulumu) (V-XI siniflər), 2013, 111). Sözügedən alt-standartın tələbinə uyğun olaraq VII sinif "Azərbaycan tarixi" dərsliyində "İslamın milli və mədəni inkişafa təsiri" mövzusunda İslam dininin Azərbaycan xalqının milli-mədəni dəyərlərinin inkişafındakı rolu vurğulanır (Mahmudlu və digərləri, 2018, 24-27).

Azərbaycan tarixi fənni üzrə X sinfin 5.1.2. və 5.1.3. alt standartlarında müvafiq olaraq, şagirdlərin Azərbaycan mədəniyyətini türk-İslam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirməsi və Azərbaycan mədəniyyətinin türk-islam mədəniyyətinin tərkib hissəsi kimi dünya mədəniyyətinə verdiyi töhfələri araşdırması tələbi qoyulur (Azərbaycan tarixi fənni üzrə Təhsil proqramı (kurikulumu) (V-XI siniflər), 2013, 124). Ümumilikdə, X sinif "Azərbaycan tarixi"ndə türk-İslam mədəniyyəti ilə yanaşı, Tanrıçılıq, Zərdüştilik, Xristianlıq, Yəhudilik kimi Azərbaycanda mövcud olmuş dinlərin inanc və əxlaq sisteminə, həmçinin onların tarixi inkişafı və mədəniyyətə təsirinə dair

deskriptiv məlumatlar verilir (Əliyev və digərləri, 2022, 43-44, 73-75 və s.).

Ümumi tarix fənni üzrə Təhsil proqramının "Tarixi zaman", "Şəxsiyyət", "Mədəniyyət" məzmun xətləri üzrə dinə dair biliklərə yer verməsi nəzərdə tutulur. Nümunə olaraq, VI sinifdə "1.1.1. Tarixdə il hesabından istifadə edir" (Ümumi tarix fənni üzrə Təhsil proqramı (kurikulumu) (VI-XI siniflər), 2013, 90) alt standartının tələblərinə uyğun olaraq miladi və hicri təqvimlər çərçivəsində İsa peyğəmbərin doğumu və Məhəmməd peyğəmbərin hicrətinə qısa şəkildə toxunulur (Əliyev və digərləri, 2021, 7).

VII sinifdə 4.1.1. alt-standartında dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin rolunun izahı tələbi qoyulur və Orta əsrlərin mühüm tarixi şəxsiyyətləri arasında Məhəmməd peyğəmbərin İslam dini ideyası altında bəşər tarixində kəskin dini-ideoloji dəyişiklik etməsinin izah edilməsi istənilir (Ümumi tarix fənni üzrə Təhsil proqramı (kurikulumu) (VI-XI siniflər), 2013, 96). Həmin standartın tələbinə uyğun olaraq, VII sinif Ümumi tarix dərsliyində "Ərəb xilafəti" mövzusunda İslamın yaranması, Məhəmməd peyğəmbərin həyatı və təbliğ fəaliyyəti, Raşidi xəlifələr, Əməvilər və Abbasilər dövrləri ilə əlaqəli məlumat verilir, İslamın 5 şərti, Quranın əsas prinsipləri qeyd olunur, Erkən dövr İslam mədəniyyətində elmin inkişafından, məşhur İslam alimlərindən bəhs olunur (Ağalarov və digərləri, 2022, 34-37, 59-60). Həmçinin Ümumi tarix fənni üzrə VII sinfin "5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir" (Ümumi tarix fənni üzrə Təhsil proqramı (kurikulumu) (VI-XI siniflər), 2013, 97) alt-standartının tələblərinə uyğun olaraq, İslam dünyasında elm və mədəniyyət, Xristianlığın Avropa mədəniyyətinə təsirinə dair məlumat verilir (Ağalarov və digərləri, 2022, 59-61, 125-131, 136-138).

2.3. Həyat bilgisi dərsliklərində dini biliklər

Əvvəlki sətrlərdə qeyd olunduğu kimi, Həyat bilgisi dərsliklərində yuxarıda qeyd olunan fənlərlə müqayisədə dinə dair biliklərə daha geniş yer ayrılmışdır. Bu, xüsusilə 2013-cü il Həyat bilgisi Təhsil proqramı əsasında yazılmış dərsliklərlə əlaqəli səciyyəvidir. Bunun iki əsas səbəbi vardır: 1) 2013-cü il Təhsil proqramında Həyat bilgisi fənninin I–IX siniflər üçün nəzərdə tutulması, bununla yuxarıda qeyd olunan fənlərlə müqayisədə daha çox tədris ilini əhatə etməsi; 2) Dinlə əlaqəli məlumatların digər fənlərdən fərqli olaraq, alt-standart səviyyəsində deyil, "3.3. əsas standartı" səviyyəsində tədrisə cəlb olunması,

bunun da öz növbəsində, mövzunun müxtəlif alt-standartlarla daha təfsilatlı şəkildə təqdim edilməsi imkanının yaranması. Həyat bilgisi fənninin dörd məzmun xəttindən birinin – "Mənəviyyat" məzmunu sahəsinin əsas istiqamətlərindən birini təşkil edən bu standart aşağıdakı tələbləri qoyurdu:

1) I-IV siniflərdə şagirdlərin mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirməsi;

2) V-IX siniflərdə isə mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirməsi. Alt-standartlar çərçivəsində I-IV sinif şagirdlərinin dinlərin müxtəlifliyi, ortaq cəhətləri, dinin mahiyyəti və təbliğ etdiyi dəyərlər, peyğəmbərlər və səmavi kitablar, İslamın böyük şəxsiyyətləri, Məhəmməd peyğəmbərin həyat və fəaliyyəti, dini dəyərlərlə xurafatın fərqi kimi mövzular haqqında məlumatlı olmaları hədəf qoyulurdu (baxın: cədvəl 2). V-IX sinif şagirdləri üçün alt-standartların tələbi dini inamların, həmçinin dini ibadət və mərasimlərin ümumi və fərqli cəhətlərinin müqayisəsi, dini əxlaqi dəyərlərin mədəniyyətlərin və cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasına təsiri, müxtəlif dinlərə tolerant münasibətin vacibliyini bilmələrini əhatə edirdi (baxın: cədvəl 3).

Cədvəl 2. I-IV siniflərdə Həyat bilgisi fənninin məzmun xətləri üzrə əsas və alt-standartlarının cədvəli (2013-cü ilin Təhsil proqramına əsasən)

Sinif	I sinif	II sinif	III sinif	IV sinif
Məzmun xətti- 3	**Mənəviyyat**			
Əsas standart - 3.3.	**Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir**			
Alt-standart 3.3.1.	Təsvirlərdə dini rəmzləri (ibadətgahlar, nişanlar, dini kitablar, əşyalar) fərqləndirir.	Nümunələr əsasında müxtəlif dinlərin mövcudluğunu izah edir.	Dinin mahiyyətini sadə formada şərh edir.	İslam dininin böyük şəxsiyyətlərini tanıyır.

Alt-standart 3.3.2.	Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir.	Dinlərin ümumi cəhətlərini izah edir.	Dinlərin təbliğ etdiyi dəyərləri şərh edir.	İslam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir.
Alt-standart 3.3.3.			Peyğəm-bərləri və səmavi kitabları tanıyır.	Dini dəyərlərlə xurafatı fərqləndirir.

Cədvəl 3. V-IX siniflərdə "Həyat bilgisi" fənninin məzmun xətləri üzrə əsas və alt-standartlarının cədvəli (2013-cü ilin Təhsil proqramına əsasən)

Sinif	V sinif	VI sinif	VII sinif	VIII sinif	IX sinif
Məzmun xətti 3	**Mənəviyyat**				
Əsas standart 3.3.	**Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir**				
Alt-standart 3.3.1.	Dini inamların ümumi və fərqli cəhətlərini müqayisə edir.	Dini ibadət və mərasim-ləri müqayisə edir.	Dini əxlaqi dəyərlərin mədəniyyət-lərin formalaşma-sına təsirini şərh edir.	Cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşma-sında dini əxlaqi dəyərlərin rolunu qiymətləndirir.	Müxtəlif dinlərə müna-sibətdə tolerantlıq nümayiş etdirir.

2013-cü il Həyat bilgisi Təhsil proqramı əsasında yazılmış dərsliklərdəki dinə dair biliklərin statistikasından da göründüyü kimi (baxın: cədvəl 4), Mənəviyyat məzmun xətti və "3.3. əsas standartı" I-IX siniflərin dərsliklərində dinlərlə əlaqəli müstəqil mövzuların daxil edilməsi üçün daha əlverişlidir.

Cədvəl 4. 2013-cü ilin Təhsil proqramına əsasən yazılmış Həyat bilgisi dərsliklərində dinlə əlaqəli statistika

Sinif	Dərslik müəllifi	Nəşr ili	Ümumi səhifə sayı	Dinlə əlaqəli məlumatların daxil edildiyi mövzular		
				Mövzunun adı	Səhifə sayı	Kitabdakı faizi
1.	Gülər Mehdiyeva Aygün Haşimova	2020	71	Ölkəmizdə dinlər	2	2.8 %
2.	Gülər Mehdiyeva Aybəniz İbrahimova	2021	79	Sonanın sualı	2	2.5 %
3.	Nərgiz Cabbarlı Könül Mahmudova Fidan Əzizova	2022	104	Dinləri tanıyaq	4	3.8 %
4.	Gülər Mehdiyeva	2019	103	İslamın ortaya çıxması Azərbaycanda din	6	5.8 %
7.	Nüşabə Məmmədova Könül Mahmudova Sevil Bəhrəmova	2022	80	Din və mədəniyyət	3	3.8 %
8.	Nüşabə Məmmədova Könül Mahmudova Sevil Bəhrəmova Pərviz Ağalarov	2019	80	Dini-əxlaqi dəyərlər	5	6.2 %
9.	Nüşabə Məmmədova Könül Mahmudova Sevil Bəhrəmova	2020	136	Tolerantlıq Mədəniyyətlərarası tolerantlıq Azərbaycanda dini tolerantlıq Dünyada müxtəlif dinlərə yanaşma Çoxmədəniyyətlilik Dünyanı dərk etmə	37	27.2 %

“Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları”na (2020) əsasən, Həyat bilgisi fənni ümumi orta təhsil səviyyəsindən (V-IX) çıxarılaraq ibtidai təhsil səviyyəsində (I-IV) saxlanıldığı üçün (Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları, 2020, maddə 9.2) 2022/2023-cü tədris ilindən etibarən mərhələli şəkildə V-IX siniflərdə Həyat bilgisi fənninin tədrisi dayandırılmışdır. Digər tərəfdən, 2023-cü ildə I-IV siniflər üçün nəşr olunmuş yeni Həyat bilgisi Təhsil proqramında məzmun xətlərində dəyişiklik edilmiş, yeni redaksiyada “Mənəviyyat” məzmun xətti “Canlılarda struktur və proseslər” məzmun xətti ilə əvəz edilmiş, dinə dair biliklərin tədrisi isə “İnsan və cəmiyyət” məzmun xəttinin tərkibinə daxil edilmişdir (Həyat bilgisi təhsil proqramı, 2023, 15).

2023-cü il redaksiyasında dinə dair biliklərin “4.6. Mədəni müxtəlifliyə hörmət edir” əsas standartı çərçivəsində şagirdlərin dini simvolları fərqləndirmə, multikultural dəyərlərə hörmətlə yanaşma, dinlər haqqında sadə təsəvvürləri izah etmə, dini bayramlar haqqında ümumi məlumat vermə, peyğəmbərləri və səmavi kitabları tanıma, dinlərin təbliğ etdiyi ortaq dəyərləri şərhetmə alt standartlarının tələblərinə cavab verməsi nəzərdə tutulur (baxın: cədvəl 5).

Cədvəl 5. I-IV siniflərdə Həyat bilgisi fənninin məzmun xətləri üzrə əsas və alt-standartlar (fənn üzrə 2023-cü ilin Təhsil proqramına əsasən)

Sinif	**I sinif**	**II sinif**	**III sinif**	**IV sinif**
Məzmun xətti- 4	**İnsan və cəmiyyət**			
Əsas standart 4.6.	**Mədəni müxtəlifliyə hörmət edir**			
Alt-standart 4.6.1.	İnsanları fərqləndirir.	Multikultural dəyərlərə hörmətlə yanaşır.	Milli bayramlar haqqında ümumi məlumat verir.	Peyğəmbərləri və səmavi kitabları tanıyır.
Alt-standart 4.6.2.	Təsvirlərdə dini simvolları fərqləndirir.	Dinlər haqqında sadə təsəvvürləri izah edir.	Dini bayramlar haqqında ümumi məlumat verir.	Dinlərin təbliğ etdiyi ortaq dəyərləri şərh edir.

Cari tədris ilində (2024/2025) ümumtəhsil məktəblərində 2013-cü il Təhsil proqramı əsasında tərtib olunmuş VIII-IX siniflərin və 2023-cü il Təhsil proqramı əsasında tərtib olunmuş I-II siniflərin "Həyat bilgisi" dərslikləri tədris olunur. VIII sinif dərsliyində əxlaqi dəyərlərin formalaşmasında dinin rolundan bəhs olunur, müxtəlif dinlərin müqəddəs kitablarından əsas əxlaqi dəyərlərə nümunələr gətirilir. Sözügedən dərslikdə şagirdlərdən Xristianlıqda və İslamda əxlaq normalarının araşdırılması, ailəyə və yaxınlara hörmət və qayğıkeşliyin dini-əxlaqi dəyərlərlə əlaqəsinin izah edilməsi, qadına, anaya hörmətin dində əxlaqın bir hissəsi sayılmasının əsaslandırılması, İslam dinində əxlaqi dəyərlər mövzusunun araşdırılması kimi mövzularda tapşırıqlar verilərək din-əxlaq münasibətinə dair biliklər möhkəmləndirilir (Məmmədova və digərləri, 2019, 58-62). Dinin dünyagörüşünün formalaşmasındakı rolu və sosial funksiyası kimi mövzuların, elm-din münasibəti kontekstində dünyanın dərk edilməsi haqqında müqayisəli məlumatın verildiyi IX sinif dərsliyi (Məmmədova və digərləri, 2020, 130-134), hər iki təhsil proqramı əsasında yazılmış Həyat bilgisi dərslikləri arasında səhifə həcmi və mövzuların çoxluğuna görə xüsusilə seçilir (baxın: cədvəl 4).

IX sinif dərsliyində dinlə əlaqəli məlumatlar demokratik cəmiyyətdə insan hüquqları kontekstində, inanc azadlığı ilə əlaqəli izah edilir, müvafiq qanunvericiliyə dair məlumatlar verilir, din azadlığının məhdudlaşdırıldığı və yaxud dini plüralizmə tolerantlıq göstərilməyən cəmiyyətlərdə tarix boyunca radikal dini qruplar kimi sosial nizamı təhdid edən problemlər yaşandığı vurğulanır, dini müxtəlifliyin çoxmədəniyyətliliyin tərkib hissəsi olduğu, Azərbaycanda tolerantlığın tarixi kökləri və müasir dövrdəki vəziyyəti haqqında məlumat verilir (Məmmədova və digərləri, 2020, 86-115). Dərslikdə, həmçinin dünyanın dərk olunması kontekstində dini, materialist və ateist dünyagörüşlərinin mövcudiyyəti insanların inam və əqidə müxtəliflikləri zəminində izah edilir (Məmmədova və digərləri, 2020, 129-134).

2023-cü il Təhsil proqramı əsasında tərtib olunmuş I-II sinif Həyat bilgisi dərsliklərində şagirdlərin yaş səviyyəsi və alt-standartın tələbləri diqqətə alınaraq daha qısa məlumat verilmişdir.

I sinif Həyat bilgisi dərsliyinə müstəqil "Dinlər" mövzusu daxil edilmiş, mövzu çərçivəsində İslam, Xristianlıq və Yəhudiliyin məbəd və simvollarının təsvirləri verilmişdir. Mövzu ilə əlaqəli oxu mətni kimi "İnsanlar müxtəlif dinlərə inanırlar. İslam, Xristianlıq və Yəhudilik insanları xeyirxah olmağa səsləyir. Fərqli dinlərə inanan insanlar bir məktəbdə təhsil alır, birlikdə işləyirlər. Onlar mehriban yaşayır və bir-birinə hörmətlə yanaşırlar" cümlələri verilmişdir. Tapşırıq olaraq məscid, kilsə və

sinaqoq təsvirinin aid olduqları dinlərin adı ilə uyğunlaşdırılması istənilmiş, şagirdlərdən hansı dinləri tanıdıqları və fərqli dinlərə inanan insanların bir-birinə necə yanaşmalı olduqları soruşulmuşdur (Yunusov və digərləri, 2023, 38-39).

II sinif Həyat bilgisi dərsliyində dinlərlə əlaqəli müstəqil bir mövzu nəzərdə tutulmamış, "Müxtəliflik" mövzusu çərçivəsində "mədəni müxtəliflik"dən danışılaraq, dinlərin də onun tərkib hissəsi olduğu bu ifadələrlə qeyd olunmuşdur: "Dərisinin rəngindən, geyimindən və dilindən asılı olmayaraq insanlar bir-birinə hörmətlə yanaşmalıdırlar. Fərqli dinləri də birləşdirən dəyərlər var. Bunlar ətrafdakılara qarşı mehriban olmaq və bir-birinə kömək etməkdir" (Yunusov və digərləri, 2024, 26). Mövzunun sonunda "özünüzü yoxlayın" qismində şagirdlərə "Mədəni müxtəliflik nə deməkdir" və "Dinləri birləşdirən əsas dəyərlər nələrdir" tipli suallar verilmişdir (Yunusov və digərləri, 2024, 27).

2023-cü il Təhsil proqramı əsasında hazırlanmış Həyat bilgisi dərsliklərindəki dini biliklərin məzmun təhlili göstərir ki, I sinif dərsliyindəki məlumat qısa olmaqla yanaşı, müstəqil mövzu çərçivəsində izah edilir, şagirdin yaş səviyyəsinə uyğundur, eyni zamanda, I sinif üçün "4.6.2 Təsvirlərlə dini simvolları fərqləndirir" alt-standartının tələblərinə cavab verir.

II sinif dərsliyindəki məlumat isə həm ümumi müxtəliflik mövzusu çərçivəsində verilir, həm həcm olaraq qısa məlumatdan ibarətdir, həm də dinlərin insanları xeyirxahlığa və yardımlaşmağa səslədiyinin qeyd edilməsi ilə əsasən, I sinif dərsliyindəki məlumatın təkrarı mahiyyətindədir. II sinif dərsliyindəki bu məlumatın 2023-cü ilin Təhsil proqramındakı "4.6.2. Dinlər haqqında sadə təsəvvürləri izah edir" alt-standartının tələblərini tam qarşıladığını irəli sürmək çətindir.

Hər iki proqram əsasında hazırlanmış Həyat bilgisi dərsliklərinin müqayisəli təhlili göstərir ki, "Mənəviyyat" məzmun xəttinin proqramdan çıxarılması sözügedən dərsliklərdə ümumilikdə mənəvi dəyərlərin, xüsusilə dinin əxlaqi-mənəvi dəyərlərin formalaşmasındakı roluna dair biliklərin tədris edilməsinin imkanlarını məhdudlaşdırmışdır. 2013-cü il Təhsil proqramındakı "mənəviyyat" və "mənəvi dəyər"ın yerini 2023-cü ilin Təhsil proqramındakı "sosial dəyər" məfhumunun əvəz etməsi (baxın: cədvəl 6) bu dəyişikliyin əsasını təşkil edir (Həyat bilgisi Təhsil proqramı, 2023, 3).

Cədvəl 6. Həyat bilgisi fənninin (2023-cü ilin Təhsil proqramına əsasən)

	Həyat bilgisi fənninin sosial məzmun üzrə məqsəd və vəzifələri
1.	Fəndə fərd, ailə, cəmiyyət və dövlət münasibətləri, cəmiyyətin sosial-iqtisadi həyatı, insan hüquqları və vətəndaşlıq məsələləri öz əksini tapır. Bu istiqamətdə yer alan standartların reallaşdırılması nəticəsində şagirdlər insanı sosial varlıq kimi səciyyələndirməyi, yaşadığı mühiti bilik, bacarıq və əmək əsasında dəyişdirməyi öyrənirlər. Həmçinin uşaqların ailəsini, xalqını və Vətənini sevən demokratik düşüncəli şəxsiyyət kimi formalaşması üçün zəruri bilik, bacarıq və dəyərlərə yiyələnmələri təmin edilir.
2.	Şagirdlərin mədəniyyətlərin ümumi və fərqli cəhətləri, multikulturalizm haqqında təsəvvürlərinin formalaşması, həmçinin demokratik dəyərləri (tolerantlıq, plüralizm, həssaslıq) mənimsəməsi hədəflənir.
3.	Şagirdlərin milli və bəşəri dəyərləri mənimsəməklə ailədə, məktəbdə və cəmiyyətdə qəbul edilən normalara uyğun ədəb, davranış və ünsiyyət bacarıqları nümayiş etdirən emosional cəhətdən sağlam şəxsiyyətlər kimi yetişməsi nəzərdə tutulur.

Nəticə

Azərbaycan Respublikasının Konstitusiyası, DEAHQ, DEQMHQ kimi sənədlər çərçivəsində qanunvericiliyin tələbləri perspektivindən Azərbaycan ümumtəhsil məktəblərində tədris olunan dinə dair biliklərin məzmun təhlili aşağıdakı fikirləri irəli sürməyə imkan verir:

Din mövzusundan Azərbaycan Respublikasının qanunvericiliyində dövlətin dünyəviliyi, dövlət-din münasibətərinin tənzimlənməsi, dini bərabərlik hüququ, dinə bağlı ayrı-seçkiliyin qadağan edilməsi, dini inanc və ritualların yerinə yetirilməsi, ictimai yerlərdə ibadətlərin yerinə yetirilməsi qaydaları kimi mövzular kontekstində bəhs olunur. Ümumtəhsil pilləsi vətəndaş hazırlığının ən genişmiqyaslı dövlət proqramı sayıldığı üçün yuxarıda qeyd olunan mövzular şagirdlərin bu istiqamətlərdə məlumatlılığının məqsədəuyğun olduğunu deməyə əsas verir:

1) dövlət-din münasibətlərinin dövlətin dünyəviliyinin, insan hüquqlarının, sosial birliyin və təhlükəsizliyin təmini şəklində təşkil olunduğuna dair qanunvericilik bilikləri;

2) dinlərin insanpərvərlik prinsiplərinə və insan ləyaqətini yüksəldən əsas məqsədlərinə dair dövrün tələblərinə cavab verən dini biliklər;

3) din əsaslı ədavət və düşmənçilik oyadan təbliğat və təşviqatı fərqləndirə biləcək qədər dinlərin əsasları və tarixi inkişaf prosesi haqqında qərəzsiz deskriptiv biliklər.

Azərbaycan Respublikasında ümumi orta təhsil üzrə Həyat bilgisi, Azərbaycan tarixi, Ümumi tarix, Ədəbiyyat kimi fənlərin təhsil proqramlarının təhlili göstərir ki, dinlərin müxtəlif aspektləri ilə əlaqəli müəyyən məlumatlar tədrisə daxil edilmişdir. Sözügedən təhsil proqramları əsasında yazılmış dərsliklərin təhlili göstərir ki, xüsusilə tarix dərsliklərində "Mədəniyyət" məzmun xətti üzrə alt-standartların tələbi olaraq dinlərin maddi-mənəvi dəyərlərin formalaşmasındakı yerinə dair müəyyən biliklər verilir, şagirdlərin mədəniyyətin formalaşmasında dinlərin yerini dəyərləndirməsi tələbi qoyulur. Bu isə öz növbəsində, konstitusiyanın "Mədəniyyət hüququ" adlı 40-cı maddəsinin də tələbi olan mədəni və mənəvi irsə hörmətlə yanaşmaq tələbinin qarşılanması cəhətdən zəruri olan biliklər çərçivəsində əhəmiyyət kəsb edir.

Tədqiqatda qeyd olunduğu kimi, dövlət-din münasibətləri, inanc azadlığı, milli-mənəvi dəyərlərin qorunması, sosial birlik və təhlükəsizliyin təmini kimi bir sıra məsələlər vətəndaşların din sahəsində qanunvericilik biliklərinə və dini biliklərə sahib olması zərurəti doğurur. Bu mövzular, əsasən, ümumtəhsil məktəblərində tədris olunan Həyat bilgisi fənni çərçivəsində tədris edilir, bu fənnin 2013-cü il Təhsil proqramında "Mənəviyyat" məzmun xətti üzrə standartlarına uyğun olaraq şagirdlərin mənəviyyatın formalaşmasında dinin rolunu anlaması və dəyərləndirməsi istənilirdi.

2013-cü il Həyat bilgisi Təhsil proqramının əsas və alt standartlarının tələblərinə uyğun olaraq I-VIII sinif dərsliklərində dinlərin inanc, ibadət, ictimai struktur və əxlaq kodekslərinə dair biliklər öz əksini tapır, xüsusilə IX sinif Həyat bilgisi dərsliyində demokratik və dünyəvi cəmiyyətdə din azadlığı, dini plüralizm, tolerantlıq, radikallığın sosial nizamı təhdid etməsi kimi mövzuları əhatə edən biliklər daha geniş yekun təşkil etdiyi üçün dini tolerantlığın aşılanması istiqamətində xüsusi əhəmiyyət kəsb edirdi. 2023-cü ilin Həyat bilgisi Təhsil proqramından "Mənəviyyat" məzmun xəttinin çıxarılması sözügedən dərsliklərdə ümumi-

likdə mənəvi dəyərlərin, xüsusilə dinin mənəvi dəyərlərin formalaşmasındakı roluna dair biliklərin tədris edilməsinin imkanlarını məhdudlaşdırmışdır.

Son olaraq qeyd etmək lazımdır ki, Azərbaycan dili, Ədəbiyyat, Azərbaycan tarixi, Ümumi tarix və Həyat bilgisi fənləri üzrə dərsliklərdə dini biliklər plüralist yanaşmadan hərəkətlə deskriptiv üsulla təqdim olunur. Dinlərin inanc və dünyagörüşünə dair biliklərlə əlaqəli mütləq doğruluq iddiası irəli sürülmür, məzhəblərüstü prizmadan baxılaraq hər hansı bir məzhəbin yanaşması din kimi təqdim olunmur. Qeyd etmək lazımdır ki, dinlərlə əlaqəli məlumatlar əksər halda Azərbaycanda mövcud olan dinləri əhatə edir, həmin dinlərlə əlaqəli biliklərin böyük hissəsi isə onların tarixi və mədəniyyətə təsiri ilə əlaqəlidir. Dinlərin əxlaq kodeksləri, dünyagörüşləri, birgəyaşayışı təmin edən ortaq cəhətləri haqqında daha dolğun məlumatlar VIII-IX sinif Həyat bilgisi dərsliklərində daha təfsilatlı şəkildə verilirdi. Bu da şagirdlərin multikultural cəmiyyətə hazırlığı üçün əhəmiyyət kəsb edir, həmçinin yuxarıda qeyd olunan qanunvericiliyin tələblərinin ödənilməsinə xidmət edirdi. Sözügedən fənnin tədrisi 2022-ci tədris ilindən V-IX siniflərdən tədrici olaraq çıxarıldığı üçün növbəti iki il ərzində VIII-IX sinif Həyat bilgisi dərsliklərinin tədris prosesindən ayrılacağı nəzərə alınmalıdır. Belə olduqda, mövcud din tədrisi modelinin təkmilləşdirilməsi, yaxud beynəlxalq təcrübədən də istifadə etməklə milli ehtiyaclara cavab verən yeni din tədrisi modelinin yaradılması aktuallıq qazana bilər.

Ədəbiyyat

Adebayo, G. O., & Mansikka, J.E. (2018). Human Security and Citizenship in Finnish Religious Education: Rethinking Security Within the Human Rights Horizon. Hum Rights Rev 19, pp. 447–469. https://doi.org/10.1007/s12142-018-0502-x

Ağalarov, P., Quliyev, N., Məmmədov, K., Cabbarov, H., Talıblı, T., Qasımov, E., Tanrıverdi, R. və Hüseynov, E. (2022). Ümumi tarix – 7. Bakı: Şərq-Qərb.

Alberts, W. (2010). 'The Academic Study of Religions and Integrative Religious Education in Europe', British Journal of Religious Education, 32 (3), pp. 275-290. DOI: 10.1080/01416200.2010.498621.

Althof, W. – Berkowitz, M. (2006). Moral education and character education: their relationship and roles in citizenship education.

Journal of Moral Education, 35 (4), pp. 495-518. DOI: 10.1080/03057240601012204

Audi, R. (2011). Democratic Authority and the Seperation of Church and State, Oxford: Oxford University Press.

Azərbaycan dili fənni üzrə Təhsil proqramı (Kurikulumu), Bakı, 2013.

Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları, 2020.

Azərbaycan Respublikasının Ümumtəhsil Məktəbləri Üçün Həyat Bilgisi Fənni Üzrə Təhsil Proqramı). (2013) https://www.arti.edu.az/noduplоad/ed-itor/ files/18_%20H%C9%99yat%20bilgisi-kurikulum.pdfb

Azərbaycan tarixi fənni üzrə təhsil qroqramı (kurikulumu) (V-XI siniflər), Bakı: 2013..

Azimli, E. (2019). 'Azerbaycan'da Devlet ve Din İlişkileri'. Uluslararası Sosyal Araştırmalar Dergisi 12(63), pp. 1213-1221. https://doi.org/10.33429/marife.1181527

Burchardt, M. and Wohlrab-Sahr, M. (2013). 'Multiple Secularities: Religion and Modernity in the Global Age' – Introduction. International Sociology, 28 (6), pp. 605-611. https://doi.org/10.1177/0268580913510540;

Cabbarlı, N., Muhmudova, K. və Əzizova, F. (2022). Həyat Bilgisi – 3. Bakı: Şərq-Qərb.

De Jong, J. and Snik, G. (2003). Why Should States Fund Denominational Schools? Journal of Philosophy of Education, 36 (4), pp. 573-587. https://doi.org/10.1111/1467-9752.00296.

Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının qanun, 1992. https://e-qanun.az/framework/7649#_edn16

Durham, C., Ferrari, S. and Santoro, S. (2008). The Toledo Guiding Principles on Teaching about Religion and Beliefs in Public Schools. Security and Human Rights, 19 (3), pp. 229-239. https://doi.org/10.1163/187502308785851778

Ədəbiyyat fənni üzrə təhsil proqramı (Kurikulumu) (V-XI siniflər), Bakı, 2013.

Əliyev, S., Həsənov, B., Mustafayeva, A., Verdiyeva, N. və Məmmədova, S. (2019) Ədəbiyyat – 8. Şərq-Qərb.

Əliyev, S., Həsənov, B., və Mustafayeva, A. (2022). Ədəbiyyat – 10. Bakı: Bakı Nəşr.

Əliyev, T., Ağalarov, P., Quleyv, N., Qasımov, E., Babayev, F., Hüseynov, E., Əsədov, K., və Məmmədov R. (2022). Azərbaycan tarixi -10. Bakı: "Şərq-Qərb" ASC.

Əliyev, T., Ağalarov, P., Quliyev, N., Qasımov, E., Babayev, F., Hüseynov, E., Əsədov, K., və Məmmədov, R. (2022). Azərbaycan tarixi 10, Bakı: “Şərq-Qərb” ASC.

Əliyev, V., Babayev, İ. və Məmmədova, A. (2021). Ümumi tarix – 6. Bakı: “Şərq-Şərb” ASC.

Estivalezes, M. (2003). “Teaching about religion in the French education system”, Prospects, 33 (2), pp. 179-190.

Əzizova, E. (2018). ‘Azərbaycanın Orta Ümumtəhsil Məktəblərinin “Həyat bilgisi” dərsliklərində dinə baxış: Kvantitativ və kvalitativ təhlil’. Din Araşdırmaları Jurnalı, 1, pp. 7-30.

Grimmitt, M. (2000). Pedagogies of Religious Education. United Kingdom: McCRIMMON PUBLISHING CO LTD.

Guidelines on Prejudices and Stereotypes in Religions. (2016). https://soraps.unive.it/files/2019/04/PROFREAD-IO1-Stereotypes-and-prejudices-Guidelines_V4-05_01_19-2.pdf

Hasanov, B. (2007). Sovyet Kuşağından Sovyet Sonrası Kuşağına Azerbaycan’da Din. Doktora Tezi, Marmara Üniversitesi.

Hendek, A. (2022). European Religious Education Policy. Değerler Eğitimi Dergisi, 20(43), 243-267. https://doi.org/10.34234/ded.1102688

Hull, J. (2002). ‘The Contribution of Religious Education to Religious Freedom: A Global Perspective’, Religious Education in Schools: School Education in Religion with Freedom of Religion and Belief, Tolerance and Non-Discrimination. International Association for Religious Freedom (IARF), pp. 4-11.

Hüseynov Vəli, Babayev İlyas, Məmmədova Aidə. 2021. Ümumi tarix 6, Bakı: “Şərq-Qərb” ASC.

Huseynov, R. (2020). Religious Education at Schools in Azerbaijan. İçində M. Rothgangel (Ed.), Religious Education at Schools in Europe: Part 4: Eastern Europe Vienna University Press, pp. 53-69.

Inoue, N. (2009). Religious Education in Contemporary Japan. Religion Compass. 3 (4), pp. 580-594. https://doi.org/10.1111/j.1749-8171.2009.00159.x

İsmayılov R., Nurullayeva, Ü., Zahidova, Ş., Bayramova, İ., Xanalıyeva, A., və Cəlilova, K. (2022). Azərbaycan dili-3, Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutu: “Radius” MMC.

Jödicke, A. (2013). Religious Eduction in State Schools in Azerbaijan, Georgia, and Armenia: Democratic Politics of Religion

and the Plurality of Religious Representations, the Caucasus and Globalization, 7 (1-2), pp. 102-110.

Jödicke, A. 2013. Religious Education in State Schools in Azerbaijan, Georgia, and Armenia: Democratic Politics of Religion and the Plurality of Religious Representations. The Caucasus and Globalization, 7 (1-2), 102-110.

Mahmudlu, Y., Cabbarov, H. və Hüseynova L. (2020). Azərbaycan Tarixi – 5. Bakı: Təhsil.

Mahmudlu, Y., Əliyev, Q., Hüseynova, L., Ağayev, S., Bəhrəmova, S., Əlişova, H. və Xubyarov, B. (2018), Azərbaycan Tarixi – 7. Bakı: Təhsil.

Maussen, M. (2014). Non-governmental religious schools in Europe: institutional opportunities, associational freedoms, and contemporary challenges. Comparative Education. 51 (1), pp. 1-21. https://doi.org/10.1080/03050068.2014.935581

Mehdiyeva, G. & Haşimova, A. (2020), Həyat bilgisi -1. Aspoliqraf. Mehdiyeva, G. və İbrahimova, A. (2021). Həyat Bilgisi – 2. BAkı: Aspoliqraf.

Mehdiyeva, G. (2019). Həyat Bilgisi – 4. Bakı: Aspoliqraf.

Məmmədova, N., Mahmudova, K., Bəhrəmova, S. və Ağalarov, P. (2019). Həyat Bilgisi – 8. Bakı: Şərq-Qərb.

Məmmədova, N., Mahmudova, K., və Bəhrəmova S. (2020). Həyat Bilgisi – 9. Bakı: Şərq-Qərb.

Məmmədova, N., Mahmudova, K., və Bəhrəmova, S. (2022). Həyat Bilgisi – 7. Bakı: Şərq-Qərb.

Merry, M. S. (2007). Shoud the State Fund Religious Schools? Journal of Applied Philosophy, 24 (3), pp. 255-270. https://doi.org/10.1111/j.1468-5930.2007.00380.x

Modood, T. and Sealy, T. (2021). Freedom of Religion and the Accommodation of Religious Diversity: Multiculturalising Secularism. Religions 12: 868, pp. 1-14 https://doi.org/10.3390/rel12100868;

Moulin, D. (2012). Religious Education in England After 9/11. Religious Education, 107 (2), pp. 158–173. doi:10.1080/00344087.2012.660418

Qənbərov, A. (2019). Azərbaycanda Dövlət -Din Münasibətləri: Dünyəviliyin nəzəri və hüquqi əsasları. Bakı: Nurlar.

Religion in Education: A contribution to Dialogue or a factor of Conflict in transforming societies of European countries (Final activity report), Hamburg: Universitat Hamburg, 2009.

Rory. O. (2000). Theories of Religious Education in Ireland. Journal of Law and Religion. 14 (2), pp. 433-523. doi:10.2307/3556578

Schnabel, A., Behrens, K. and Grötsch, F. (2017): Religion in European constitutions – cases of different secularities, European Societies. pp. 1-29. doi:10.1080/14616696.2017.1334946

Schreiner, P. (2018). Are you READY? Diversity and Religious Education across Europe, Munster: Waxmann.

Selderslagh, G. (2023). Catholic Education in Europe: Variations in its Establishment, Vitality and Some Challenges for the Future. International Studies in Catholic Education. 15 (1), pp. 3-19. https://doi.org/10.1080/19422539.2023.2184535

Səmədov, E. (2009). Azərbaycanda Din-Dövlət Münasibətləri və Dini Təhsilin Formalaşması. Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu.

Shmonin, D. 2017. "Toledskie printsipy", Gosudarstvo, Religiia, Tserkov v Rosii i za Rubezhom, 35 (4), 72-88. DOI:10.22394/2073-7203-2017-35-4-72-88;

Tağıyev, K. (2013). 'Siyasi Tarihi Bağlamında Azerbaycan'da Din Eğitiminin Gelişimi'. Uluslararası Sosyal Araştırmalar Dergisi, 6 (28), pp. 380-389.

Toledo Guiding Principles on Teaching about Religions and Beliefs in Public Schools, 2007.

Ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) (VI-XI siniflər), Bakı: 2013.

Ümumi təhsil haqqında Azərbaycan Respublikasının qanunu, 2019.

Üzümcü, M. (2022). 'Hukuki Temelleriyle Azerbaycan'da Din Eğitimi'. Marife Dini Araştırmalar Dergisi. 22 (2), pp. 937-959. https://doi.org/10.33429/marife.1181527

Willaime, J.P. (2007). 'Different Models for Religion and Education in Europe', Religion and Education in Europe: Developments, Contexts and Debate (ed. Cok Bakker etc.). Münster: Waxmann, pp. 81-92.

WIN-Gallup International Global Index of Religiosity and Atheism, Dublin: 2012.

Wodon, Q. (2023). Catholic Education in Europe, education pluralism, and public funding. International Studies in Catholic Education. 15 (1). pp. 20-33. https://doi.org/10.1080/19422539.2023.2190245

Yunusov E., Mehdiyeva G., Kazımzadə E., İslamzadə Y., İmanov E., Ələkbərov F., və Tağıyeva İ. (2024). Həyat bilgisi-2, Bakı: Çaşıoğlu

Yunusov E., Mehdiyeva G., Kazımzadə E., İslamzadə Y., İmanov, E. və Ələkbərov F., 2023, Həyat bilgisi-1, Bakı: CN Poliqraf.

Azərbaycanın təhsil tarixində elm təsəvvürü: XIX əsr Şimal–Qərb bölgəsi nümunəsində

f.f.d., dos. Əhməd Niyazov,
Azərbaycan İlahiyyat İnstitutu
İslamşünaslıq kafedrasının müdiri
Bakı, Azərbaycan
ahmetniyazov@ait.edu.az
https://orcid.org/0000-0001-8164-2184

Xülasə

Azərbaycan Qafqazda İslam mədəniyyəti mərkəzlərindən biridir. Coğrafi baxımdan kiçik olsa da, ölkəmizin İslam mədəniyyətinə töhfələri böyükdür. Postsovet məkanında gün işığına çıxmış arxivlərimiz tədqiq edildikcə, bunu daha yaxından görmək mümkündür. Bu ənənə müsəlmançılığın tarixi ilə başlanmışdır. İslamın digər sahələrində olduğu kimi, bu coğrafiyada elmi tədrisatın, mədrəsələrin və təlim ocaqlarının özünəxas forması keçmişdən bugünədək inkişaf edərək gəlmiş, tarixdə formalaşan ənənə müasir ruhda davam etdirilmış, hazırda da tolerant və ümumbəşəri dəyərlərə söykənən ruhu ilə varlığını sürməkdədir.

Qafqaza XIX əsrin əvvəllərindən etibarən yayılan irfan mədəniyyəti məhz həmin tarixi ənənənin davamçısı kimi keçmiş və müasirlik arasında körpü rolu oynamış, İslam elmlərinin müasir formada tədrisi işində dinin ruhunu təzahür etdirən prinsiplər təqdim etmişdir. Belə ki, XIX əsrdə mədrəsə zəminində yayılan maarifçilik hərəkatı elmin inkişafına təkan verməklə yanaşı, toplumun ehtiyacları üçün yeganə çıxış yolu kimi elmə sahib olmağın vacibliyini müxtəlif aspektlərdən izah etməyə çalışmışdır. Eyni zamanda, dövrün alimləri elmlə məşğul olmağı ibadətin bir növü kimi təqdim etməyə səy göstərmiş, elm əxz etməyin yollarını göstərən tövsiyələrini isə bəlağətli tərkibli cümlələrlə, nəsihətvari ifadələrlə diqqətə çatdırmışlar. Dini, sosial-mədəni, ictima-siyasi hadisələrin Qafqaz kimi bir bölgədə mürəkkəb olmasına baxmayaraq, bu ərazidə elmin üstünlüyü və alimin dəyəri həmişə uca tutulmuşdur. Bölgənin aydın insanları maariflənmə istiqamətinin müqəddəs yol olduğunu vurğulamaqla yanaşı, elmin hər bir sahədə, eyni zamanda, dövrün sosial problemlərinin həllində, siyasi həyatın müşkülləri hesab edilən bölgəsəl hadisələrin nizama salınmasında fəzilətli olacağını qəbul və

təlqin edirdilər. Bu insanlar elmi maariflənmənin gerçəkləşəcəyinə, həyata keçəcəyinə inanırdılar. Bu da elmin həm dünyagörüşü, həm də qurumsallıq funksiyasının təzahürlərindəndir.

Açar sözlər: *Azərbaycan, elm, funksiya, irfan, mədrəsə, islahat, tədris, təlim.*

Concept of Science in the History of Education in Azerbaijan: In the Example of the North-West Region of the 19th Century

Assoc. Prof. Ahmad Niyazov
Head of the Department of Islamic Studies,
Azerbaijan Institute of Theology
Baku, Azerbaijan
ahniyazov@hotmail.com
https://orcid.org/0000-0001-8164-2184

Abstract

Azerbaijan is one of the centers of Islamic culture in the Caucasus. Although it is small from a geographical point of view, Azerbaijan's contributions to Islamic culture are great. This can be seen more closely as our archives that come to light in the post-Soviet space are studied. This historical tradition began with the history of Islamism. As in other areas of Islam, this geography has its own form of science, teaching, madrasahs and training centers. This form has evolved from the past to the present. This tradition formed in history continues in the modern spirit. Also today, it continues to exist with its spirit based on tolerant and universal values. Since the beginning of the 19th century, the gnostic culture that spread throughout the Caucasus is the successor of that historical tradition. That tradition acts as a bridge between the past and modernity. It also presents the principles that manifest the spirit of Islam in the teaching of Islamic sciences in a modern form. Thus, in the 19th century, the enlightenment movement spread on the grounds of the madrasa gave impetus to the development of science. At the same time, he saw science as the only way out for the needs of society. Scientists of that time also tried to explain the importance of having knowledge from different aspects. At

the same time, scientists of the time considered doing science as worship. Also, they presented their recommendations showing the ways to acquire knowledge in eloquent sentences with admonitional phrases. Despite the fact that religious, socio-cultural, socio-political events are difficult in a place like the Caucasus, they have always held the superiority of science and the value of the scientist high. They emphasized that this road is a holy road. However, they have accepted that science will be a virtue in every field of life, at the same time, in solving the social problems of the time, as well as in regulating the regional events that are considered to be the problems of political life. That is why they always believed that enlightenment would come true. This is the manifestation of both the worldview and institutional function of science.

Keywords: *Azerbaijan, Science, Function, Lore, Madrasah, Reform, Teaching, Training.*

Концепция науки в истории образования Азербайджана: на примере Северо-Западного региона XIX века

д.ф.ф., доц. Ахмад Ниязов
Заведующий кафедрой исламоведения
Азербайджанского института теологии
Баку, Азербайджан
ahniyazov@hotmail.com
https://orcid.org/0000-0001-8164-2184

Резюме

Азербайджан является одним из центров исламской культуры на Кавказе. Хотя Азербайджан и небольшой с географической точки зрения, вклад Азербайджана в исламскую культуру огромен. В этом можно убедиться повнимательнее при изучении наших архивов, которые всплывают на постсоветском пространстве. Эта историческая традиция началась с истории исламизма. Как и в других областях ислама, в этой географии есть своя форма науки, обучения, медресе и учебных центров. Эта форма эволюциониро-

вала из прошлого в настоящее. Эта традиция, сложившаяся в истории, продолжается и в современном духе. И сегодня он продолжает существовать, руководствуясь своим духом, основанным на толерантных и универсальных ценностях. С начала XIX века гностическая культура, распространившаяся по всему Кавказу, является продолжателем этой исторической традиции. Эта традиция действует как мост между прошлым и современностью. Также представлены принципы, проявляющие дух ислама в преподавании исламских наук в современной форме. Таким образом, в XIX веке просветительское движение, распространившееся на территории медресе, дало толчок развитию науки. В то же время он видел в науке единственный выход для нужд общества. Ученые того времени также пытались объяснить важность наличия знаний с разных сторон. В то же время ученые того времени считали занятие наукой поклонением. Также они представили свои рекомендации, показывающие способы получения знаний в красноречивых предложениях с назидательными фразами. Несмотря на то, что религиозные, социокультурные, общественно-политические мероприятия проходят сложно в таком месте, как Кавказ, они всегда поддерживали превосходство науки и ценность ученого. Они подчеркнули, что эта дорога является святой дорогой. Однако они признали, что наука будет добродетелью во всех сферах жизни, в то же время при решении социальных проблем времени, а также в регулировании региональных событий, которые считаются проблемами политической жизни. Вот почему они всегда верили, что просветление сбудется. В этом проявляется как мировоззренческая, так и институциональная функция науки.

Ключевые слова: *Азербайджан, наука, функция, знания, медресе, реформа, преподавание, обучение.*

Giriş

Azərbaycanda təhsil tarixi tədqiqat obyekti olaraq, ənənəvilik aspektlərindən araşdırılır ki, bu da İslam mədəniyyəti qaynaqlarını əhatə edir. Bu baxımdan, təhsil və maarifçilik bölgənin tarixi keçmişində mədrəsələrin fəaliyyəti ilə gerçəkləşmiş, elmin və maarifin təkanverici ünsürü kimi əsas amil mədrəsə təhsili olmuşdur. Coğrafi baxımdan kiçik olmasına baxmayaraq, Azərbaycan tarixən sivilizasiyalar gerçəkləşdirmiş, xüsusilə də Orta əsrlər tarixində dünya elminə böyük əhəmiyyətə malik əsərlər bəxş etmiş, dahiyanə alimlər yetişdirmişdir.

Bütün müsəlman aləmində olduğu kimi, Azərbaycanda da elm mərkəzləri mədrəsələrlə təmsil olunmuşlar. Respublikamızda tarixən ixtisaslaşmış mədrəsələr fəaliyyət göstərmişdir. Hər biri müəyyən sahədə fəaliyyət göstərən bu mədrəsələr müasir təhsil ocaqları hesab edilən universitetlərdən daha yüksək səviyyədə təhsil gücünə malik olublar. Bu təhsil məkanları ölkə daxilində, xaricdə də tanınmış, elm adamlarının diqqətini cəlb etmiş, dünyanın müxəlif ölkələrindən çox sayda alimlərə öz qapılarını açmışdır.

Bu mədrəsələrdə elmin və təhsilin bir dəyər olaraq özünəxas funksiyası mövcud idi. Digər mədrəsələrdən fərqli olaraq, burada təhsil alanlar bölgəyə xas olan sosial faydalılıq əmsalı nümayiş etdirmişlər. Belə ki, əgər ümumi olaraq fəlsəfi aspektdən çıxış etsək, elmin üç əsas funksiyasından bəhs etmək olar. Bunlar aşağıdakılardan ibarətdir:

a) bilik qaynağı kimi elmin mədəni, dünyagörüşü funksiyası;

b) struktur bir gücü ifadə etməsi baxımından mücərrəd bir fəaliyyət funksiyası;

c) elmin sosial qüvvə olması baxımından irəli gələn quruculuq funksiyası.

Bu aspektlərdən baxdığımız zaman Azərbaycanda ənənəvi mədrəsə təhsilinin hər üç funksiyasına dair nümunələrini görə bilərik. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, sözügedən ənənəvilik müsəlman Şərqinə aid xüsusiyyətləri özündə cəmləşdirir. Məlumdur ki, Şərq fəlsəfəsində "insani-kamil" məfhumu fəlsəfi problemlərin mərkəzində durur. Bu məfhum, demək olar ki, Şərqin idealı, yəni insanın mənəvi kamilliyə yönündə köklənmişdir.[7]

[7] Elm biliyə söykənir, obyektiv həqiqəti axtarmağa, mahiyyəti dərk etməyə, yeni bilik əldə etməyə yönələrək, adi təcrübə obyektləri çərçivəsindən çıxıb reallıq obyektləri ilə məşğul olur. Müasir elm mədəni-ideoloji; metodik; tənzimləyici təhsil; proqnoz; akseoloji; idarəetmə kimi funksiyaları yerinə yetirir (https://www.anl.az/down/meqale/525/2019/noyabr/682525. htm).

Sistemli bir təhsil ənənəsi ilə kökləşmiş XIX əsr mədrəsə mədəniyyəti, eyni zamanda, bölgəyə xas bəzi nümunələr də meydana gətirmişdir. Bunlar – sosial həyatda harmoniya meydana gətirən humanizm dəyərləri, tolerantlıq prinsipləri zəminində təhsildə məzhəblərüstü təlim prinsipləri, ictimaiyyətlərarası ünsiyyətin qurulması və dözümlülük əsası olmuşdur. Ümumilikdə, XIX əsr mədrəsə ənənəsini aşağıdakı iki başlıq altında xülasə edə bilərik:

1. XIX əsr mədrəsə maarifçiliyinə ümumi baxış

Azərbaycanda VII əsrdən başlayaraq, elmi fəaliyyət İslam coğrafiyasının digər yerlərində olduğu kimi, mədrəsə üsul-idarəsi şəklində olmuşdur. "Mədrəsə" (مدرسة) ərəb dilindən alınma söz olub, lüğəti mənası *"dərs üçün təlim yeri"* deməkdir. Geniş mənada isə bugünkü orta məktəb və universitet səviyyəsində təlim və tədrislə məşğul olan təhsil ocaqları anlamındadır. Bu məktəblərdə tədris ərəb dilində aparılır, dini biliklərlə yanaşı, təbabət (tibb), dil, fəlsəfə, hüquq, məntiq, riyaziyyat və digər dünyəvi elmlər öyrədilirdi.

Öncədən qeyd edək ki, maarif və mədəniyyət irsimizin böyük şəxsiyyətləri, dahiləri bu təhsil ocaqlarında yetişmiş və yetişdirmişlər. Təəssüf ki, sovet ideologiyası tərəfindən əhali arasında mədrəsə xofu və keçmişə düşmənçilik zəminində elə bir qərəz toxumu səpilmişdi ki, hələ indi də onun fəsadlarına rast gəlmək mümkündür. Halbuki hər bir xalq kimi, biz də tarixdə özünəməxsus elm yolu keçmiş, həyatın eniş və yoxuşlarına baxmayaraq, mədəni-maarifçilik irsini qoruyanlardan biri olmuşuq.

Azərbaycanda XVI-XVII əsrlərdə siyasi ab-havanın dəyişməsi ilə maarifçiliyin gerilədiyi və tənəzzülə məruz qaldığı məlum həqiqətdir. Bu dövrdə maarif müəssisələrinin maliyyə mənbəyi olan vəqf ərazilərinin zəbt edilməsi təhsil fəaliyyətinə ağır zərbə vurdu, bu, mədrəsələrin böyük hissəsinin bağlanmasına gətirdi. Bu geriləmənin ölkə ərazisinin hər yerinə şamil olunduğunu söyləyə bilmərik. Azərbaycanın şimal-qərb ərazilərində, xüsusilə də Alazan–Həftəran dərəsi boyu gedişatın əksinə olaraq, elm-irfan fəaliyyəti öz inkişafını davam etdirirdi. Bu bölgədə fəaliyyət göstərən mədrəsələrdə elm və təhsil xeyli inkişaf etmiş, XIX əsrdə ən yüksək mərhələsinə qədəm qoymuşdu. İslam ölkələri ilə müqayisədə həmin dövr təhsil və maarifçilik burada kifayət qədər yüksək səviyyədə olmuş, elmin, təhsilin, maarifin – bütövlükdə mədəniyyətin inkişafında əsl intibah mərhələsi yaranmışdır. Elm mərkəzlərində

mütaliblər təhsil alır, irfan yolunun prinsiplərini nümayiş etdirən ziyalı təbəqəsi kimi yetişirdilər. Onlar, əsasən, ziyalı ordusu kimi maarifçilik fəaliyyətləri ilə öz missiyalarını davam etdirirdirlər. Mədrəsələr elə bir güclü təlim yolu keçmişdir ki, məşhur qafqazşünas, dilçi alim Pyotr Karloviç Uslar o dövr üçün yazırdı: "*Əgər xalqın savadlılıq dərəcəsi dini məktəb nisbətində götürülərsə, onda Qafqazın bu hissəsi avropanın maariflənmiş xalqlarını çoxdan arxada qoymuş olar*" (Габунuа, 1992, c. 24).

Təkcə Tala mədrəsəsində Ömər Əfəndinin məzun etdiyi tələbə sayı dörd yüz nəfərdən çox idi.[8]

Bu və ya digər tədris fəaliyyəti əhali arasında maarifçiliyin inkişafına təkan verir, həmin xüsusiyyəti ilə də xalq ətraf qonşu xalqlar arasında seçilirdi. Məlumdur ki, bölgədəki müsəlmanların qonşu qeyri-müsəlman əhali ilə sıx əlaqələri olmuşdur. Həmin qeyri-müsəlman əhalinin özünəməxsus inam, etiqad və düşüncə tərzi var idi. Bölgənin müsəlman əhalisi qonşu toplumlar arasında öz həyat tərzi və təfəkkürü ilə seçilirdi. Fonn Plotto yazırdı ki, müsəlmanlar Kaxetiya kəndlilərindən daha yüksək mənəvi-əqli səviyyəyə malik idilər (Плотто, 1869, c 67). Bölgə mədrəsələrində yetişən alimlərdən Həsən Əfəndinin[9] "*Divanül-*

[8]Talalı Ömər Əfəndinin şəxsi kitabxanasından məlum olur ki, mütaliblər elmi səviyyəsi yüksək olan kitablardan istifadə edirdilər. Həmin əsərləri belə sadalamaq olar: 1) "*İsaqoci*" – məntiq əsəridir. Giriş hissəsindən də məlum olur ki, əsər geniş izahlarla asan başa düşülməsi üçün şərh edilmiş, mütaliələr zamanı da haşiyələrlə zənginləşdirilmişdir; 2) "*Şərhu-izharil-əsrar*"; 3) "*Şerhul-mantıq li talebetil-mübtədəin*"; 3) "*Elmi-münazara*"; 4) "*Elmi-adab*"; 5) "Elmu-əvzaniş-şi`r"; 6) "*Vafiyə fi şərhi-şafiyyə*" . Qeyd edək ki, bu əlyazma kitabların əksəriyyəti talalı Molla Məhəmməd ibn Səfər ibn Abbas tərəfindən bölgəyə xas nəsx xətti ilə köçürülmüşdür.

[9] Hasan Əfəndi əslən balakənli bir alimdir. Onun atası Hacı Abdullah Əfəndi ibn Qurbanəli Aslan xanın dəftərdarı vəzifəsində ikən 1831-ci ildə Balakənə gəlmiş və burada balakənli Şeyx Nuvar Əfəndinin qızı Hafisət xanımla evlənmişdir. İki il sonra (11 cəmadiyəlaxir 1250-ci hicri) 15 sentyabr 1834-cü ildə Hasan Əfəndi dünyaya gəlmişdir. Hasan Əfəndinin dədəsi zahir elmlərin tədrisi ilə ətraf aləmdə məşhur alim olmuşdur. Onun tələbələri arasında Xas Məhəmməd Şirvani (q.s.) belə olmuşdur ki, o, zahir elmlərini burada tamamladıqdan sonra, İsmayıl Şirvani Kürdəmiri Nəqşbəndinin mənəvi təlimindən keçmişdir. Hasan Əfəndi atasının yanında yeddi yaşından Quranı öyrənməyə başlamış, on beş il ərzində ondan nəhv elmlərini təlim almışdır. Bu müddət ərzində digər alimlərdən məntiq, bəlağət, münzarə, hesab, fiqh, təfsir, hədis, üsul və bəyan elmlərini, eyni zamanda, türk və fars dillərini mükəmməl öyrənmişdir. Böyük alim çar çinovniklərinin təqibləri və haqqında olan həbs qərarı ilə əvvəlcə Tabasana getmiş, bir müddət sonra oradan

Məmnun” əsəri bu baxımdan dövrün maarifçilik mədəniyyətini əks etdirən qiymətli nümunədir. Ərəb, türk və fars dillərində qələmə alınmış bu nəzm əsəri tarixi sənəddir – bölgədə müsəlman əhali arasında mənəviyyatın, əxlaqın, elmin keşiyində duran alimlərin və çətin mübarizə əzmi göstərən ziyalı təbəqənin ictimai təfəkküründün formalaşmasındakı rolundan kifayət qədər bəhs edir (ЗКМ КП-6568).

Diqqəti cəlb edən xüsusiyyətlərdən biri də budur ki, dövrün istər idarəçiləri, istərsə də din adamları, həmçinin ictimaiyyətin əksər təbəqəsi üstün intellektual səviyyəyə malik idilər. Onlar ölkə xaricində olan müsəlman ədəbiyyatından xəbərdar idilər, eləcə də yaşadıqları dövrdə şöhrət tapmış digər ədəbi nümunələr ilə də tanış idilər. Nümunə olaraq göstərə bilərik ki, XIX əsrin əvvəllərində divan şairi kimi tanınmış məşhur Mərakeş ədib və fəqihi Həmdun ibn Abdurrahman bin əl-Hac əs-Suləmi əl-Malikinin (v.1817) divanından əhli-beytlə bağlı misralar həmin tarixdə bu bölgədə dillər əzbəri idi.[10] Belə ki, həmin misralar həm Danyal Sultanın (v. 1871) möhründə həkk olunmuş şəkildə, həm Şeyx Şüeyb Əfəndinin (v. 1909) “*Tabaqat*”[11] kitabının müqəddiməsində, həm də bir sıra digər məktublarda qarşımıza çıxır. Bunun kimi bir çox nümunə vardır ki, üləma öz dövrünün məşhur ədəbiyyatı və qabaqcıl mətbuatından xəbərdar olur, bundan çox asanlıqla istifadə edirdi.

Bölgədəki maarifçilik XIX əsrdə bura səfər edən Qərb mütəfəkkirlərinin belə təəccübünə səbəb olacaq bir keyfiyyətdə idi (Бартолд, Сочинения, 417-418.) Məlumdur ki, qafqazşünas alim Pyotr Karloviç Uslar bu barədə təəssüratlarını diqqəti cəlb edəcək ifadələrlə izhar etmişdir (Габуниа, e.a.ə, s 24.) Bütün bunlar belə bir sualın meydana çıxmasına səbəb olur: sözügedən elmi fəaliyyətin təməli nə ilə bağlı idi? Ona təkanverici ünsürlər hansılardır? Bir cümlə ilə ifadə etsək, elmə hərislik və bilik həvəsi həmin dövrün bu bölgəsi üçün ən mühüm xüsusiyyət idi.

---

da Balakənə gəlmiş, 1838-ci ildə vəfat etmişdir (bax: Hasan Əfəndi Kurəvi əd-Dağıstani, “*Divanul-Məmnun*” s 4-5.).

[10] Həmdun əs-Suləminin “*Divan*”ında “Allaha təvəkkül” şeirinin misraları belədir:
عَلَى اللهِ فِي كُلِّ الأُمُورِ تَوَكُّلِي - Bütün işlərdə təvəkkülüm yalnız Allahadır,
وَبِالخَمْسِ أَصْحَابِ العِبَادِ تَوَسُّلِي - Bəndə əhlinin beşi də, təvəssülümdür. (Daha geniş bax: Ə. Niyazov, “*Danyal Sultanın əhli-beyt sevgisi*”, s. 22).

[11] Şüeyb ibn İdris əl-Baqini, “*ət-Tabaqatul-Xacəqan ən-Nəqşibəndiyyə və Sadatul-Məşayixil-Xalidiyyəl-Mahmudiyyə”*, Dəməşq 1996, s. 13.

2. Dövrün alimlərinin elmi təsəvvürü

İslam düşüncəsində elm müsəlmanın itmiş malı hesab edilir. Bu və ya digər hədislər əsasında elmin üstünlüyü və alimin dəyəri həmişə uca tutulmuşdur. Məhz həmin hədislərdən biri olan Həzrət Peyğəmbərin (s.ə.s.) "*Elm əxz etmək kişi və qadın, hər bir müsəlmana fərzdir*" hədisi (İbn Macə, Müqəddimə 17) bölgədə tədris olunan dərsliklərin giriş hissələrində qeyd edilmiş, elmin fəziləti məhz bu hədis ətrafında müqəddimə mövzusu olmuşdur. Hədis mədrəsə müdavimlərinə təqdim edilərək, təzəcə başladıqları bu yolun müqəddəs bir istiqamət olduğu onların diqqətinə çatdırılmışdır.

"Müxtəsər"[12] adı ilə dinin üsul və füruunu[13] öyrədən Elmihal əsərinin oxudulması ənənəyə çevrilmiş bir adət halını almışdı (Niyazov, 2016, s. 142). Yuxarıda qeyd olunan dəyərlər kitabın müqəddiməsində geniş şəkildə izah olunur, ədəbiyyatda elmin fəziləti, bilik əldəetmə yolları, şairlərin hikmətli sözləri onların ədəbi və mənzum misraları ilə təhlil edilir. Elmə verilən tərif – "*davranış elmi*", "*yaşanan elm*" mənasını verən cümlələrlə təqdim olunur. Müvafiq cümlə aşağıdakı şəkildədir:

أفضل العلم علم الحال وأفضل الحال حفظ الحال; yəni – elmin ən xeyirlisi onu davranışda həyat tərzi kimi yaşamaqdır. Davranışın ən xeyirlisi isə onu qorumaqdır.

---

[12] Mədrəsə ənənəsində tədris olunan ilk nümunələrdən biri Elmihal kitabıdır. Qafqazda elmihal əsərlərinin bir neçə nümunəsi mövcuddur. Bu əsərlərin müəllifləri bölgədə yetişmiş alimlərdir. Bunlardan ən məşhuru XVII əsrdə yaşamış Əbdüssalam əl-Müskürinin "Zübdətul-İslam" əsəridir. Bəzi nüsxələri Misir arxivlərində olan bu əsər son dövrlər mədrəsələrdə ən çox öyrədilən elmihal əsərlərindən biridir (bax: Ə.Niyazov, "Zübdetül-İslam", 2023). Digərlərinə gəlincə, "Müxtəsər" adlı üç elmihal var ki, bunlar daha çox əlyazma ilə öyrədilən, müxtəlif nüsxələri olan əsərlərdir. Həmin dövrün əsərlərinin ümumi xüsusiyyətlərindən biri də elmihalların iman, ibadət, evlilik, boşanma və əxlaq mövzularını əhatə etməsidir. Sovetlərin dağılmasından, qadağan olunmuş dövrün başa çatmasından, müstəqilliyin əldə edilməsindən sonra üzə çıxan əsərlər tozlu rəflərdən götürülərək yeni nəslə təqdim edilir, elmi dairələrə tanıtdırılması istiqamətində işlər hələ də davam etdirilir. Mədrəsə ənənəsi ilə bağlı əsərlərin tədqiqi də bu tədqiqatlar sırasındadır. Bunlardan biri də əlyazma nüsxələrində bu günə qədər əlimizdə olan və əsərlərdə tez-tez adı çəkilən məşhur "Müxtəsər" əsəridir.

[13] Azərbaycanın Şimal-Qərb bölgəsində XIX əsrin sonlarında yaşamış məşhur alimlərdən Şüeyb Əfəndinin nəql etdiyinə görə, elm əldə edənlərin Quran öyrənimindən sonra müraciət etdikləri ikinci önəmli addım "Müxtəsər" elmihal əsərini oxumaqdır (Baqini, 1996, s. 513-514).

Digər tərəfdən, məktublarla yanaşı, bir sıra materiallar da göstərir ki, bölgə insanı kitab əldə etmək üçün ən çətin məqamlarda belə geri çəkilməmiş, dəyərindən asılı olmayaraq, əlində nə varsa, kitab əldə etmək üçün xərcləmişdir. Qeyd ediləsi dəyərli bir məlumat da mövcuddur: alimlərə aid məktublar arasında bir çoxunun məzmunu kitablarla bağlıdır. Belə ki, alimə göndərilən məktubda oxuyub-qaytarmaq şərtilə kitab tələb olunan yazılarla rastlaşırıq. Bəzi məktublar da var ki, vaxtı çatdığı halda, qaytarılmamış kitabları tələb edən xatırlatma yazılarıdır. Alimlərin ən qiymətli sərmayəsi onların kitabları idi. Onları canından əziz bilir, göz bəbəyi kimi qoruyurdular. Başına bir iş gəldikdə isə müsibət baş vermiş kimi narahat olurdular. Bala Əfəndinin Məhəmməd Balakəniyə yazdığı tələb məktubu belə bir məqamı əks etdirən yazıdır. Orada deyilir:

من كاتب الحروف بلا أفندي بن ملا مرتضي علي إلي أخيه الكريم محمد بن شعبان البلكاني السلام عليكم و رحمة الله تعالي و بركاته آمين.

أما بعد، فاعلم بأني لقد وكلتك و أقمتك مقامي في استفسار و استخبار كتبي التي اغارها القچاقيون من بيتي في دوران و زمان شامويل فعليك بايجادها و اخذها ممن وجدتَها عنده باي وجه من شرعي و عادي و باي طريق و عمل و لكن اسماء الكتب ابن حجر من البيع و ابن حجر من النكاح علي هيئة الكاغذ و حصن الحصين مع حاشيته علي هيئة النصف و چارپاردي علي هيئة النصف اما الجلدين من ابن حجر فشروحهما علي حواشهما و تهيئتهما بخط جدنا القديم ملا مرتضي علي و خطه ممتلئ غليظ مخطلة شديد السواد لا يشبه خط احد و هو معلوم و مشهور لكل احد و حصن الحصين خطه خط المذكور المرحوم ملا مرتضي علي و خط چارپاردي كذلك خطه

حاصل المراد اني ألتمس و أتوقع عن جنابك بان توجدها و تستفسرها إن كان بيننا مودة ما و لو مثقال ذرة و إني لا – yəni ;–نسي احسانك و الله تعالي لا يضيع أجر من أحسن عملا و ***السلام*** *باق الدعاء*

Yazan: Bala Əfəndi ibn Molla Murtazaali əl-Cari tərəfindən səxavətli qardaşı Məhəmməd ibn Şaban əl-Balakəniyə

Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun, amin!

Mətləbə gəlincə, bildirirəm ki, mən səni mənim öz mövqeyimdən təhqiqat aparmaq (araşdırmaq) və xəbər vermək üçün vəkil təyin etdim. Belə ki, Şamilin dövrü və zamanında qaçaqçılar evimdən kitablarımı qarət etdilər. Sən gərək onları tapasan və kimin əlində olur-olsun, istər şəriət, istər adətlər qaydasında, hansı yolla, hansı əməllə olur-olsun, onları qaytarasan.

Kitabların adlarına gəlincə; İbn Həcərin[14] ***"bey`"***[15]*, "**nikah**"*[16] *və onların kağız şəklində haşiyələri ilə yanaşı şərhləri. Haşiyəsi ilə birlikdə yarı şəkildə "**Hısnul-hasin**"*[17]*, yarı şəkildə "**Çarpardi**"*[18]*. İbn Həcərin iki cildinə gəlincə, onların haşiyələri üzərinə şərhlərdir. Onların köçürülməsi babamız Molla Murtazaalinin xətti ilədir. Onun xətti dolğun, qalın, qarışıq, qapqara, heç kəsin xəttinə bənzəməyən və hər kəsə məlum olan məşhur xətdir. "**Husnul-hasin**" qeyd edilən mərhum Molla Murtazaalinin xəttidir. "**Çarpardi**"*[19] *xətti də həmçinin.*

İstəyim odur ki, səndən xahiş edirəm və təvəqqe edirəm ki, əgər aramızda bir-birimizə qarşı zərrə qədər hörmət varsa, onları axtarasan və tapasan. Sənin bu yaxşılığını unutmaram. Allah-Taala yaxşı əməl sahibinin yaxşılığını itirməz. Vəssalam, dua ilə..." (ƷKM KП – 6037).

Bölgə irfan hərəkatı ilə də məşhur olmuşdur. Almalılı Mahmud Əfəndinin irşad fəaliyyəti əsasında həm bölgəyə axın-axın alimlər gəlir, həm də irfan hərəkatı mədrəsə zəminində genişlənirdi. Bu da xalq arasında elmin və maarifçiliyin yayılmasına təkan verirdi. Elmin fəziləti və üstünlüyünə olan inam hədsiz idi. Dünyada olduğu kimi, axirətdə də insana fayda verəcək yeganə vasitə – elm öyrənmək və öyrətmək əsas meyar kimi qəbul edilirdi. Bu məqamı üləma mənzumə yazıların birində şeir dili ilə belə qeyd edir:

كُلُّ امْرِءٍ يَحْصُدُ مَا يَزْرَعُ * فَلْيَزْرَعِ الْإِنْسَانُ مَا يَنْفَعُ،**
وَ إِنَّمَا أَعْمَالُنَا مِنْ زَرْعِنَا * وَهذِهِ الدُّنْيَا لَنَا مَزْرَعٌ. ; yəni –**

Hər kəs əkdiyini biçər. Elə isə **insan** faydalı olanı əksin!

Hərçənd əməllərimiz əkdiklərimizdir. Bu dünya bizə bir əkin yeridir (ƷKM KП –3463).

Bu baxımdan bir alimin, ustadın irşadı və tərbiyəsində olmaq elmə yetişmənin şərti hesab edilirdi. Bu səbəbdən də mədrəsə təlimində qayə – yüksək elm, dərin irfan sahibi olan şəxsiyyətlər yetişdirmək idi. Onun qapıları könlü Allah eşqi ilə döyünən və pak etiqada malik hər kəsə açıq idi. Dövrün bu anlayış və düşüncəsini əks etdirən qeyd nümunələri həddindən çoxdur. Əlyazma əsərlərin əksəriyyətində bu

[14]XV əsrin məşhur hədis alimi.
[15]İslamda alqı-satğı ilə bağlı İbn Həcərin əsərindən bir fəsil.
[16]İslamda nikah münasibətləri ilə bağlı İbn Həcərin əsərindən bir fəsil.
[17]XV əsrin hədis alimi Məhəmməd Cəzrinin dualardan ibarət hədis kitabıdır.
[18]XIII əsrin məşhur təfsir alimi Beyzavinin "Minhac" əsərinə şərh yazan müəllif.
[19]Çarpardi həm müəllifin, həm də onun kitabının adıdır.

çərçivədə ifadələrə rast gəlmək mümkündür. Mədrəsə alimlərindən talalı Ömər Əfəndiyə aid əlyazmalarda isə qeyd edilən nəsihətvari bir cümlə diqqəti daha çox cəlb edir. Cümlədə deyilir:

أَلا لَا تَنَالَ الْعِلْمَ إِلا بِسِتَّـةٍ * سَأُنْبِيكَ عَنْ مَجْمُوعِهَـا بِبَيَـانِ**
ذَكَاءٌ وَحِـرْصٌ وَاصْطِبَارٌ وَبُلْغَـةٌ * وَإِرْشَادُ أُسْتَادٍ وَطُـولِ زَمَـانِ .**[20] **yəni –;**

Diqqət et! Elmə ancaq bu altı şeylə nail ola bilərsən. Onların hamısını açıqca sənə xəbər verəcəyəm: 1) Zəka; 2) Həvəs; 3) Səbir; 4) Elmi səviyyə; 5) Ustadın irşadı; 6) Geniş vaxt.

Zikirizm hərəkatında mənəvi cəhətdən kamilləşmə yolunun ilkin mərhələsi elm əldə etmək hesab olunurdu. Kifayət qədər elmə sahib olmadan bəzi pillələri aşmaq, mənəvi arzulara çatmaq təsəvvür edilə bilməzdi. Hər məqamın bir üsulu, ərkanı olduğu kimi, bu yolun da bir ardıcıllıq əsasına bağlı qayda-qanunu var idi. Car qazısı Molla Herov ibn Rəcəb özünə aid qeydlərində bunu belə ifadə etmişdir:

أَصْلُ الْعِلْمِ الْاَدَبُ وَ أَصْلُ الْاَدَبِ حُبُّ اللهِ وَ أَصْلُ حُبِّ اللهِ ذِكْرُ الله. yəni –;

Elmin əsli ədəbdir. Ədəbin əsli Allah sevgisidir. Allah sevgisinin əsli isə Allahı zikr etməkdir (ƏKM KP –720).

XIX əsrdə bir maarifçilik dövrü yaşanır, ideallarını həyat meyarı kimi qəbul edən insanlar işin başında gedirdilər. Onlar nəinki özlərini düşünür, həmçinin hamının təhsilə qovuşmasını, elm-savad sahibi olmasını arzu edirdilər. Sultan Danyal məhz belə bir ruhda olan dahi şəxsiyyət idi. Məlumdur ki, o, həm də müharibənin tüğyan etdiyi dövrdə Osmanlıya məktub yazaraq, siyahısındakı kitablarının göndərilməsini xahiş edən elm hərisi bir alim olmuşdur. Digər bir nümunə isə Sultanın siyasi baxımdan bölgənin başıbəlalı günlərində belə, elm-irfan tədrisini davam etdirməsi, elm sahibi olan üləmadan gəncləri oxutdurmalarını tələb etməsidir.[21]

---

[20] Şeirin əsli İmam Şafeiyə (v. 204) aiddir. Talalı Ömər Əfəndi onu yuxarıda qeyd olunan fərqli ləfizlərlə ifadə edərək, elm talibinin bir ustadın irşadına ehtiyacı olduğunu vurğulamışdır. Halbuki İmam Şafeinin şeirində məna bu dərəcədə qabarıq verilmir. Şeirin əslinə gəlincə, o, belədir:

أَخِـي لَـنْ تَنَالَ الْعِلْـمَ إِلا بِسِتَّـةٍ * سَأُنْبِيكَ عَنْ تَفْصِيلِهَـا بِبَيَـانِ**
ذَكَاءٌ وَحِرْصٌ وَاجْتِهَادٌ وَبُلْغَةٌ * وَصُحْبَـةُ أُسْتَاذٍ وَطُـولِ زَمَـانِ**

[21] Danyal Sultanın dövrün irfan ustadı Hacyov Əfəndiyə yazdığı məktub haqqında bax: ƏKM KP – 5846

Məlum dövrdə ucqar (dağ) yaşayış yerləri elm və təhsil səviyyəsi baxımından, demək olar ki, mərkəzlərdən heç də qeri qalmırdı. Mamrux, Suvagil, Qas, Qımır, Katex və digər kənd mədrəsələri, onların elm-irfan fəaliyyətləri buna əyani misalıdır. Məsələn, Qas kəndi Zaqatala ərazisinin ən ucqar dağ kəndlərindən biri olmuşdur.[22] Mərkəzdən uzaq, ucqar yaşayış massivi olmasına baxmayaraq, Mamrux mədrəsəsində fəaliyyət göstərən alim və müəllimlər məhz belə bir missiyanın fəalları olmuşlar. Başda Hüseyin Əfəndi ibn Ramazan Mamruxi, Əhməd Əfəndi əl-Muslağı, Şeyx Məhəmməd Mamruxi və onun oğlu Molla Şərif Əfəndi Mamruxi, İsmail ibn Camal əl-Katruxi olmaqla, bölgə elmi xidmətləri ilə seçilirdi. Bu elm əhli yazılı materiallarda o dövr üçün ən yüksək hörmət ifadə edən "*əhli-təhqiq*" və ya "*mühəqqiq*"[23], "*müdəqqiq*"[24] və sair fəzilət ifadə edən sözlərlə vəsfləndirilirdilər. Mamrux mədrəsəsinin digər maraqlı xüsusiyyəti bundan ibarət idi ki, Car bölgəsinin ən məşhur alimləri həmişə bu tədris ocağı ilə sıx münasibətlər qurmuşlar. Məktublardan da məlum olur ki, Osman Əfəndi Saxuri və Qurban Əfəndi Meşleşi istər mədrəsədə üləma məclislərində, istərsə də xalq arasında zikr, söhbət, salavat məclislərində və müxtəlif mərasimlərdə həmişə yaxından iştirak etmişlər.

Nəticə

Azərbaycanda mədrəsə ənənəsinin ən yüksək inkişaf səviyyəsi olaraq bir neçə dövrü misal çəkmək mümkündür. XIX əsr mədrəsə həyatının özünəməxsus inkişaf dövrü olmaqla, bu müəssisələrin fəaliyyəti birəsrlik son mərhələdir. Məlumdur ki, İsmayıl Siracəddin Şirvani Kürdəmiri məşhur sufi Şeyx Xalid Bağdadidən (v.1827) icazət alaraq Kürdəmirə gəlmiş və Şirvanda ilk nəqşbəndiyyə məktəbini qurmuş, öz təlimlərinə başlamışdır. Bir ideya cərəyanı olaraq, bu sufi düşüncə öz həyat tərzi və əxlaq prinsipləri ilə yayıldığı hər yerdə bütün təbəqələrə dərin təsir göstərmişdir. Onlar öz təlimlərini mədrəsə zəminində qurmuşlar. Bu da özlüyündə bir maarifçilik hərəkatına çevrilmişdir.

---

[22]Kəndin sakinləri müxtəlif səbəblərə görə ətraf kəndlərlə birlikdə 1969-cu ilin sentyabrından başlayaraq indiki Əli Bayramlı kəndinə köçürülmüşdür. Sovet dövründə məscid bir müddət anbar kimi istifadə edilmiş sonra da istifadəsiz halda, tavanı çökmüş vəziyyətdə qalmışdır.

[23]Təhqiq edən,doğrulayan və gerçəkləri məlum edən, doğru, gerçək, həqiqi və səhih elm sahibi.

[24] İncədən incəyə diqqətlə tədqiq edən.

Özünəməxsus maarifçilik prinsipləri olan XIX əsr Qafqazın bu bölgəsinin elm ənənəsi Qərb mütəfəkkirlərinin də diqqətini cəlb edəcək qədər inkişaf mərhələsi keçmişdir. Mədrəsələr zəminində genişlənən bu ənənə tədris fəaliyyətini ərəb dili əsas götürülməklə, fars və türk dillərində qururdu. Nəticədə, yüksək səviyyədə elmi biliklərə malik alimlər yetişir, hər biri özlüyündə fərqli maarifçilik hərəkatına qoşulur, bəzən mədrəsələrdə, bəzən də buna imkan verən hər yerdə elmi fəaliyyət göstərirdilər. Bu, həm də təhsilin hər fürsətdə və hər yerdə gerçəkləşdirilməsinə xidmət edirdi.

Dövrün insanı İslam düşüncəsinə uyğun olaraq, maariflənməni müsəlmanın itmiş malı hesab edir, bilikli olmağı, elm əxz etməyi və onun ardınca getməyi kişi və qadın olmaqla, hər müsəlmana fərz bilirdi. Dini, sosial-mədəni, ictima-siyasi hədislər göstərir ki, Qafqaz kimi mürəkkəb bir bölgədə dövrün həyat şərtlərinin mürəkkəbliyindən asılı olmayaraq, elmin üstünlüyü və alimin dəyəri həmişə uca tutulmuşdur. Onlar bu yolun müqəddəs bir istiqamət olduğunu vurğulamaqla, elmin dəyərli fəzilət olduğunu bildirmişlər. Məhz elmi maariflənmənin gerçəkləşməsi ilə həmin dövrün müşkül hadisələrinin həll yolunun tapılacağına inanmışlar.

Ədəbiyyat

Alkadari Hasan Əfəndi Kurəvi əd-Dağıstani, "*Divanul-Məmnun*" Timurxan Şura 1913.

Atalay, Xaqan, *İslahatçılıq hərəkatları və sələfilik*, (Nəşredilməmiş dissertasiya) Ankara 2016.

Baqini Şueyb ibn İdris, *ət-Tabaqatul-Xacəqan ən-Nəqşibəndiyyə və Sadatul-Məşayixil-Xalidiyyəl-Mahmudiyyə*, Dəməşq 1996.

Kayayev Ali, *Təracimi-Uləmayi-Dağıstan*, (Tərcümə Həsən Orazayem/Tuba Durmuş) Ankara 2012.

Kölə, Bəkir, *Təsəvvüfə görə İlahi həqiqətlərin idrakında ağlın yeri*, İğdır universiteti sosial bilimlər dərgisi, sayı 3, Nisan/2013.

Mehdiyev, Ramiz, "*Maneviyatın Öncelliği*" "Özne" -Xüsusi buraxılış sayı-2012: Selahəddin Xəlilova Armağan.

Mehmet Rıhtım – Fariz Xəlilli, *Mövlanə İsmayıl Siracəddin Şirvani*, Bakı 2011.

Niyazov, Əhməd, *XIX Əsr Azərbaycanın Şimal-Qərbində dini həyat elm və mədrəsələr*, Bakı 2016.

Niyazov, Əhməd, “*Kafkasya mədrəsələrinə gənəl bir baxış (Car-Balakən örnəyi*)”, Karadəniz Texni Universiteti İlahiyyat Fakultəsi dərgisi Sayı 2/2, Trabzon 2015.

Niyazov, Əhməd, **“***Azərbaycanın şimal-gərb bölgəsi -Alazan-Həftəran- sufi həyatında Əhli-Beyt sevgisi***”** “Azərbaycan və Əhli-Beyt İrsi” xüsusi buraxılış, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi Nəşriyyatı 2013.

Niyazov Əhməd, Qafqazda Elmihal ənənəsi: İlk Elmihal nümunəsi “Zübdetül-İslam”, Bakı 2023.

Niyazov Əhməd, “*Danyal Sultanın Əhli-Beyt sevgisi*”, İrfan ictimai fikir jurnalı, Noyabr 2013, No: 84.

Osman, Saxuri, *Tuhfətul-əhbabil-Xalidiyyə fi şərhil-qasidətil-Mahmudiyyə*, Timurxanşura 1914.

Vəli Xuluflu, *Car Döyüşləri salnaməsi*, (Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu) Bakı 1934.

(ЗКМ КП) Zaqatala Tarix və Diyarşünaslıq Muzeyi

Бартолд, *Василий Владимирович, Дагестан,* Сочинения, t. 3. М. 1963;

Габуниа, *Генерал Услар и Кавказские языки*, с. 24, Эхо Кавказа, No 1. 1992.

Глиноецкий, Николай Павлович, *Поездка в Дагестан. Военный сборник*, с 23-24, 1862.

Фадеев, Ростислав Андреевич, "*Кавказ и Российская империя: проекты и реальность. Начало XIX - начало XX вв. О Закатальском восстании*, 1861 - 1863 гг. Санкт-Петербург 2005 г. №28.

Магомедов, Абдулвахид, *История распространения Суфизма в Дагестане*, (Суфизм как фактор сохронения мира и стабильности, Махачкала 2005.

Плотто, А. И. Фонн, *Природа и люди Закатльского округа*, Сборник сведений о кавказских горцах (ССКГ). Тифлис, 1869. Вып. IV

Крачковский**,** Игна́тий Юлиа́нович, *Сочинения*, t. 6, М. Л. 1960.

Dinlərarası dialoq kontekstində dini təhsil: reallıqlar və perspektivlər

i.f.d., dos. Məmmədəli Babaşlı,
Azərbaycan Milli Elmlər Akademiyası
akademik Ziya Bünyadov adına
Şərqşünaslıq İnstitutu Şərq-Qərb şöbəsinin müdiri
Bakı, Azərbaycan
mammadalibabasli@ait.edu.az
https://orcid.org/0000-0001-5594-0997

Xülasə

Məqalə konfessiyalararası dialoq kontekstində dini təhsilin zəruriliyinə həsr olunub. Yazıda qeyd edilir ki, ötən əsrin sonlarına doğru istər dünya miqyasında, istərsə də ölkələr daxilində cəmiyyətdəki münaqişələrin qlobal əsasları dəyişmişdir. Hal-hazırda təkcə qlobal məkanda deyil, çoxmillətli və çoxkonfessiyalı ölkələr daxilində də sosial-mədəni amillər ön plana çıxır.

Bu gün qloballaşma dövründə, yeni problem və təhlükələrin olduğu bir şəraitdə dinlərarası dialoq son dərəcə vacibdir. Dialoqun rolu mümkün istiqamətləri müəyyənləşdirmək və dinlərarası əməkdaşlığın konseptual əsaslarını dərk etməkdən ibarətdir. Dialoq prosesi qarşılıqlı hörmətə, razılaşmaya və birliyə aparan yolları axtarıb-tapmağa köməklik göstərir.

Təhsil və cəmiyyət bir-birindən ayrılmazdır. Belə olduğu üçün hər bir cəmiyyətdə baş verən proseslər bu və ya digər şəkildə təhsil sahəsinə də təsir göstərir. Sözügedən kontekstdə bu nəticəyə gəlmək olar ki, təhsilin məzmununun ehtiva etdiyi prinsiplər və dəyərlər əhəmiyyət kəsb edir. Bu mənada, müasir təhsilin üzərinə dünyəvi-dini təhsilin inteqrasiyasını təmin etmək vəzifəsi düşür.

Azərbaycan xalqının tarixi ənənələrinə əsaslanan dini-mənəvi mühitin qorunub-saxlanılması və inkişafının təmin olunması zərurəti nəzərə alınaraq, Azərbaycan İlahiyyat İnstitutu təsis edilmişdir. Əminliklə demək olar ki, İnstitutun yüksək təhsil səviyyəsi və elmi-pedaqoji potensialı İslamı və digər dünya dinlərini dərindən mənimsəmiş islamşünas və dinşünas kadrlar hazırlamağa imkan verəcəkdir.

Açar sözlər: *qloballaşma, planetar şüur, dini şüur, mədəni müxtəliflik, dinlərarası dialoq, dini təhsil.*

Religious Education in the Context of Interfaith Dialogue: Realities and Prospects

Assoc. Prof. Mammadali Babashli
ANAS Institute of Oriental Studies named after
Academican Ziya Bunyadov
Baku, Azerbaijan
mammadalibabasli@ait.edu.az
https://orcid.org/0000-0001-5594-0997

Abstract

The article addresses the need to elevate the level of religious education in the context of interfaith dialogue on the fundamental principles of various religions. It highlights that, by the end of the last century, significant changes occurred on the global stage, affecting the core causes of social conflicts. Socio-cultural factors have become increasingly prominent, exerting a profound influence on the religious climate within multi-ethnic and multi-religious countries.

In this regard, interfaith dialogue has acquired special importance. The role of dialogue lies in a deep understanding and identification of possible directions, as well as the conceptual foundations for inter-religious cooperation. Moreover, such dialogue implies mutual respect and the search for consensus, which leads to unity and consolidation of efforts.

For a productive dialogue, the principles and values embedded in religious education are of immense importance, as are the issues of integrating secular and religious perspectives on societal processes and the role of the human factor. In this context, modern education faces the important task of ensuring a high level of teaching of religious foundations and doctrines at all levels of education. Considering the need to preserve and develop the religious and spiritual environment, rooted in the historical traditions of the Azerbaijani people, the Azerbaijan Institute of Theology was established. It is safe to assume that the quality of education and the scientific-pedagogical potential of the institute will allow it to train theologians with deep knowledge of Islam and other world religions.

Keywords: *globalization, planetary consciousness, religious consciousness, cultural diversity, interfaith dialogue, religious education.*

Религиозное образование в контексте межконфессионального диалога: реалии и перспективы

д.ф. по теологии, доц. Мамедали Бабашлы
Институт востоковедения имени
академика Зии Буниятова НАНА
Баку, Азербайджан
mammadalibabasli@ait.edu.az
https://orcid.org/0000-0001-5594-0997

Резюме

Статья посвящена необходимости повышения уровня религиозного образования в контексте межконфессионального диалога по основополагающим принципам различных религий. Подчеркивается, что к концу прошлого столетия на мировой арене произошли кардинальные изменения, затрагивающие глобальные основы и причины общественных конфликтов. На первый план стали выдвигаться социокультурные факторы, оказывающие огромное влияние на религиозный климат внутри многонациональных и многоконфессиональных стран.

В связи с этим, межконфессиональный диалог приобретает особое значение. Роль диалога состоит в глубоком осмыслении и выявлении возможных направлений, а также концептуальных оснований для межрелигиозного сотрудничества. Кроме того, диалоговое общение предполагает взаимное уважение, поиск согласия, ведущее к единению и консолидации усилий.

Для плодотворного диалога огромное значение имеют принципы и ценности, заложенные в содержание религиозного образования, вопросы интеграции светских и религиозных взглядов на общественные процессы и роли человеческого фактора. В этом контексте, перед современным образованием стоит важная задача обеспечения высокого уровня преподавания религиозных основ и учений на всех возможных образовательных уровнях. Учитывая необходимость обеспечения сохранения и развития религиозной и духовной среды, основанной на исторических традициях азербайджанского народа был создан Азербайджанский институт теологии. Можно с уверенностью полагать, что уровень качества

образования и научно-педагогический потенциал позволят институту подготовить специалистов-теологов, обладающих глубокими познаниями об исламе и других мировых религиях.

Ключевые слова: *глобализация, планетарное сознание, религиозное сознание, культурное разнообразие, межконфессиональный диалог, религиозное образование*

Giriş

Berlin divarlarının yıxılması ilə Şərqi Avropa ölkələrinin bir-birinin ardınca sosialist düşərgəsini tərk etməsi, SSRİ-nin dağılması dünyada tamamilə fərqli ictimai-siyasi şəraitin meydana gəlməsi ilə sona çatdı. "Soyuq müharibə"nin başa çatması ilə ikiqütblü dünya sisteminin birdəfəlik tarixə qovuşması nəticəsində, "sosializm və kapitalizm sistemlərinin ideoloji qarşıdurması öz aktuallığını itirdi"(Heydərov, Qənbərov və b., 2020, 31). Belə bir şərait-də dünya birliyi ölkələri sosializm üzərində tarixi qələbənin baş memarı ABŞ-nin rəhbərliyi altında birqütblü sistemin formalaşması reallığı ilə qarşı-qarşıya qaldı.Yeni beynəlxalq sistemdə onillərlə ideoloji mübarizə prinsipi ilə səciyyələnən Şərq-Qərb bölgüsünün yerini iqtisadi amillərin əsas götürüldüyü Şimal-Cənub bölgüsü tutdu. İraqın Küveyti işğal etməsinin ardından Amerikanın liderliyi ilə beynəlxalq koalisiya tərəfindən başladılan Birinci Körfəz savaşından sonra, enerji istehsalı, təchizatı mərkəzlərinin cəmləşdiyi və müsəlmanların çoxluqda yaşadıqları coğrafiya faciəli ssenarilərin dəyişməz ünvanına çevrildi. Samuel Hantiqtonun mədəniyyətlərin toqquşması və dünya sisteminin yenidən qurulması, Fransis Fukuyamanın tarixin sonu və son insan tezisləri həyata keçirilən siyasətin nəzəri əsasını təşkil etdi. Məşum 11 sentyabr 2001-ci il terror aktından sonra, ABŞ Prezidenti Buşun sərf etdiyi uğursuz "yeni səlib yürüşü" ifadəsi diplomatik dillə düzəldilməyə çalışılsa da, baş verən hadisələr bunun təsadüf olmadığını göstərdi. Sentyabr olayı Qərbdə islamofobiyanın, həm də müsəlman dünyasında Amerika əleyhdarlığının artmasına səbəb oldu (Esposito və Kalın, 2015, 20). Digər tərəfdən, kütləvi informasiya vasitələrinin qaralama kampaniyası nəticəsində ictimai rəydə İslam din zorakılıq və terrorun sinonimi halına gətirildi. İkili standartlara yol verilərək, digər din mənsublarının törətdikləri terror aktları fərdi məsələ kimi izah edilərkən, müsəlman olduğu təqdirdə isə məqsədyönlü şəkildə terroristin dini

kimliyi ön plana çıxarıldı. Strateji dəyişiklik nəticəsində, hətta sözügedən coğrafiyada məqsədyönlü şəkildə İslama qarşı İslamdan istifadəetmə siysətinə üstünlük verildi. Bununla da mədəniyyətdaxili toqquşmaların, vəkalət savaşlarının səhnəyə qoyulduğu bölgə getdikcə zorakılıq, terror, maddi-mənəvi anarxiya selinin girdabına yuvarlandı. Nəticədə, müsəlmanlar üçün belə zalım və zülmə məruz qalanların milli və dini kimliyi, hətta məzhəb mənsubiyyəti insan həyatından daha əhəmiyyətli sayılmağa başladı.

Təbii ki, sözügedən İslam əleyhdarlığı müsəlmanları yeni dünya sisteminin son məqsədi, gerçək mahiyyəti və ədalət anlayışı ilə bağlı haqlı tərəddüdə, gələcək üçün nara-hatlıq keçirməyə vadar etdi. Qərb ölkələrinin siyasətlərində, xüsusilə, müsəlman Şərqinə qarşı münasibətdə ayrı-seçkiliyə yol verilməsi bu prosesə "güclülərin zəiflər üzərində ağalığının, Qərb maliyyə oliqarxiyasının dünya iqtisadiyyatında hegemonluğunu bərpa etməyin" (Məmmədəliyev, 2005,14) yeni forması kimi baxılmasına əsas verdi. Həmçinin aparıcı Qərb ölkələrində yeni düşmən elan edilən müsəlmanların timsalında İslam dininə qarşı yönəldilən ekstremizm, radikalizm, fundamentalizm, İslam faşizmi qəbilindən ittihamların ardınca çox keçmədən sürətlə yayılan ksenofobiya, miqrantofobiya təzahürləri tərəddüdlərin əsassız olmadığını göstərdi. Məhz bu səbəbdən də insanlığın sülh və əmin-amanlıq şəraitində yaşaya bilməsi üçün çıxış yollarının axtarılması zərurəti hasil oldu.

I. Yenilənən dünya şəraitində dialoq zərurəti

Digər tərəfdən, təxminən, eyni zaman kəsiyinə təsadüf edən və informasiya-iqtisadi universallaşmanın güclənməsi prosesi kimi səciyyələnən qloballaşma həyatın bütün sahələrinə nüfuz etməyə başladı. Baş verən dəyişikliklərin bəşəriyyətin gələcəyi baxımından böyük əhəmiyyət kəsb etdiyini anlayan Şərq alimlərinin əksəriyyəti bu prosesdən kənarda qalmağın mümkün olmayacağı qənaətinə gəldilər (Məmmədəliyev, 2004,7). Qərbin elmi-texniki nailiyyətlərindən bəhrələnməyin zəruri olduğunu əsas götürərək onun faydalı tərəflərindən istifadə etməyin, zərərli təsirlərindən isə qorunmağın mümkün yollarını araşdırmağı təklif etdilər. Qloballaşmanın bilavasitə ilk insan və peyğəmbərlə başladığını, tədricən genişlənərək bütün qövm və qəbilələrin həyatına nüfuz etdiyini, nəhayət, həyatın siyasi, iqtisadi, sosial və mədəni sahələrini də əhatə edərək günümüzədək gəlib çatdığını ifadə etdilər. Bununla bərabər, qloballaşmanın mahiyyət etibarilə müsəlman ölkələri

də daxil olmaqla, inkişaf etməkdə olan ölkələr əleyhinə yönəldiyini və "başlanğıcda göründüyü kimi, təktərəfli proses olmadığını düşünənlər də vardı" (Kutub,2013,19). Qlobal mədəniyyətin əsl məqsədinin, hətta insanları düşünə bilməyəcək hala salmaq və düşüncələrini iflic etmək, xalqlar üçün tiryək olduğunu irəli sürənlər də tapıldı. Bu səbəbdən, bəzi İslam alimləri hər vəchlə onun qarşısını almağın zəruri olduğunu bildirdilər. Əvəzində də alternativ kimi, "İslam qloballaşması", "İslamın cahanşümulluğu", "İslamın universallığı" məfhumlarını ideal model olaraq göstərdilər. Habelə qloballaşmaya "qərbləşdirmə", "amerikanlaşdırma", "makdonaldlaşdırma" adlarını vermiş ərəb dünyasının bir sıra radikal İslam nəzəriyyəçiləri "mövcud şəraitdə terrorizmi qloballaşmaya yeganə mümkün və təsirli müqavimət vasitəsi hesab etdilər" (Məmmədov, 2005, 38).

Baş verən sürətli dəyişikliklər bir tərəfdən, topluluqların iqtisadi və mədəni qarşılıqlı asılılığının artması, digər tərəfdən, ölkələr arasında, hətta ayrıca bir ölkə daxilində kəskin təbəqələşmə ilə müşayiət olunmağa başlandı. Qloballaşma dünya birliyi ölkələrinin, cə-miyyətlərin əlaqəsinin genişlənməsi, intensivləşməsi və dərinləşməsi, müasir cəmiyyətin əsas transformasiyalarından biri kimi təzahür etdi. Həmçinin qloballaşma şəraitində etno-konfessional kimliyin tarixən formalaşmış bir çox növləri sıradan çıxmaq təhlükəsi ilə qar-şılaşdı. Bununla yanaşı, müasir dünyanın mədəni və sivilizasiya dinamikliyi, cəmiyyətlərin etnik müxtəlifliyi də ciddi dəyişikliyə məruz qaldı. Qlobal dinamika nəticəsində din getdikcə öz tarixi köklərindən qopmağa, daha çox transmilli, transetnik səciyyə qazanmağa başladı (Orlov, 2008, 91). Mübaliğəsiz deyə bilərik ki, gedən qlobal proseslər bilavasitə çoxlu sayda insanın mənafeyinə, ümumən, bəşəriyyətin gələcəyinə təsir göstərdi. Birmənalı şəkildə indiki nəslin şahid olduğu hadisələrin gələcək onilliklər üçün dünya proseslərinin əsas tendensiyalarının müəyyənləşdirilməsində həlledici əhəmiyyət qazanacağı anlaşıldı. Digər tərəfdən, müasir dünyanın müharibə və sülh, ərzaq, içməli su çatışmazlığı, qlobal istiləşmə, ətraf mühitin çirklənməsi, təbii fəlakətlər, misli görünməmiş ölümcül xəstəliklər, demoqrafik böhran, ailə institutunu təhdid edən irq, din və millət məsələlərində radikalizm kimi ciddi problemlər özünü büruzə verdi. Bütün bunlar əlaqələrin intensiv səciyyə qazandığı qloballaşan və kiçilən dünyada problemlərin milli miqyasda həll edilməsi ehtimalını azaltdı.

Belə bir zaman kəsiyində müharibə-sülh, dostluq-düşmənçilik kimi müsbət və yaxud mənfi təzahürlər, sadəcə, müəyyən bir regiona deyil, bütün dünyaya şamil edilməyə başlandı. Qloballaşmadan bəhs

edərkən iqtisadi proseslərlə yanaşı, qlobal mədəniyyət və din kimi dəyərlərin gələcəyi də müzakirə obyektinə çevrildi. Bu da bir daha İslam dünyasına imkan daxilində sözügedən proseslərdən qorunmaq üçün öz milli-mənəvi, əxlaqi dəyərlərinə sahib çıxaraq "elmə, texnologiyaya və daha çox istehsal etməyə" (Kutub, 2013, 91) yönəlmək zərurətini xatırlatdı. Qloballaşan dünyada dinin dinamikliyinin ənənəvi konfessional, siyasi, mədəni və sivilizasiya sərhədlərini aşması və getdikcə müəyyən ərazi ilə bağlılığının zəifləməsi tendensiyası özünü göstərdi (Orlov, 2008, 91). Habelə cəmiyyətin unifikasiyası proseslərin, ictimai əlaqələrin artmasına, planetar şüurun, həmrəylik və məsuliyyət anlayışlarının güclənməsinə təkan verdi. Eyni zamanda, ümumdünya mədəniyyəti ilə yanaşı, milli-mədəni varlığın dərk edilməsinə zəmin hazırladı. Beləliklə, bəşəriyyətin və cəmiyyətin mənəvi həyatının əsasını təşkil edən, həmçinin ictimai şüurun formalarından olan dini şüur da aktuallıq qazanmış oldu. Şübhəsiz, ümumbəşəri və əxlaqi dəyərlərin arxa plana keçdiyi və yaxud tənəzzülə uğradığı, hətta aşındığı şəraitdə cəmiyyətdə dini dünyagörüşün yerinin və rolunun əhəmiyyəti daha da artdı. Bunun da məntiqi nəticəsi olaraq, bir-birindən fərqli dünyagöruşünə, müxtəlif etnik və dini kimliyə malik mədəniyyətləri təmsil edən topluluqların bir yerdə yaşamaq zərurəti yarandı. Təbii ki, bu da fərddən-millətə, millətdən-bəşəriyyətə aparan yolların axtarılıb-tapılması ilə mümkün idi. Fərdiyyətçilikdən harmoniyaya aparan amillərə üstünlük verilməsi, fikir müxtəlifliyinin inkişafa təkan verən amil olaraq qəbul edilməsi əhəmiyyət kəsb etdi.

Qeyd olunan problemlərlə yanaşı, dünyanın bir çox yerində müharibələrin səbəb olduğu məcburi miqrasiya və humanitar fəlakət də müasir dövrün acı reallığına çevrildi. Yerli və regional silahlı münaqişələr, vətəndaş və vəkalət savaşları, sosial-iqtisadi böhranlar nəticəsində milyonlarla insan ölkəsini tərk etmək məcburiyyətində qaldı. Təəssüf ki, elm və texnika inkişaf etdikcə, mənəvi dəyərlərin itirilməsi və insani keyfiyyətlərin sıradan çıxması adi hal aldı. Üstəlik, süni intellektin gələcəkdə, sadəcə, iqtisadi sahədə deyil, sosial elmlər, təhsil və elm istiqamətində də mühüm rol oynayacağı təxmin edilir. Süni intellektin, hətta nəzarətdən çıxaraq bəşəriyyətə ciddi zərər verə biləcəyi də istisna olunmur. Buna da bilavasitə süni intellektin özü deyil, ondan şəxsi maraqları üçün istifadə edəcək insanların səbəb olacaqları düşünülür. Bütün bunlar bir daha bəşər tarixində, cəmiyyətlərin və mədəniyyətlərin inkişafında, ayrı-ayrı insanların həyatında dinin böyük rol oynadığını xatırlatmış oldu (Melnik, 2019, I/308).

Digər tərəfdən, ümumi qəbul edilmiş həyat tərzi, mənəvi dəyərlər, ənənəvi ailə və mədəni dəyərlər aşınılır. Cəmiyyətin həyati fəaliyyətinin əsasını təşkil edən dəyərlərin yenidən nəzərdən keçirilməsi zərurəti hasil olur. Müharibə və fəsadlardan yorulmuş dünyanı xilas etmək həyati əhəmiyyət daşıyır. Bu da üç başlıca kitabın – kainat kitabının, ilahi kitabın və insan kitabının oxunaraq düzgün anlaşılması, monoloq yerinə dialoqun seçilməsi ilə mümkün olacaq. İslami anlayışın tələqin etdiyi kimi, "yaradılmışı sevmək yaradandan ötrü" düsturunu mənimsəmək, fərqlilikləri ixtilaf səbəbi deyil, zənginlik olaraq görmək, qarşıdakının fərqli ifadə tərzinə hörmətlə yanaşmaq vərdişlərini mənimsəməklə gerçəkləşəcək; əlindən və dilindən başqalarının zərər görmədiyi, özünə arzulamadığı şeyləri başqalarına da rəva görməyən kimsələri yetişdirməklə həyata keçəcək.

II. Dinlərarası dialoqun nəzəri və təcrübi əsasları

Məlum olduğu kimi, yaradılış etibarilə ictimai varlıq olan insanların cəmiyyətdə yaşamaları və fərqli səciyyəvi cəhətlərə sahib olmaları təbiidir. Bu xüsusiyyətlərdən rəng, irq, cins yaradılışdan gəldiyi halda, din, mədəniyyət, fəlsəfi, peşəkar, siyasi kimlik qəbilindən olanlar daha sonra kəsb edilir. Bu səbəbdən də müxtəlif fikirlərin, baxış tərzlərinin, ideyaların, insanların milli və dini fərqliliklərinin olması anlaşılandır. Birgəyaşayış mədəniyyətinin bərqərar olması üçün "başqalarını" heç saymadan müxtəlifliyi zənginlik olaraq qəbul etmək başlıca şərtdir. İslam dinində insanlara dəyər verilməsi, haqq-hüquq, ədalət baxımından onlar arasında ayrı-seçkilik edilməməsi, üstünlüyün, ancaq təqvaya görə olması prinsipi əsas götürülür. "Xristianlıq və İslam dinlərinin təbliğ və dəvət dinləri" (Niyazi, 2015, 23) olması səbəbindən maraqların toqquşması qaçılmaz idi. Öz dinini başqalarına təbliğ etmək, tanıtmaq həm xristian, həm də müsəlmanlar üçün bir növ, vəzifə sayılırdı. Həmçinin İslam dininin qısa müddət ərzində geniş əraziyə yayılması, Bizans kimi nəhəng imperiyanı məğlub etməsi onu xristianların nəzərində potensial rəqib halına gətirdi. Qüdsün müsəlmanların nəzarətinə keçməsi, İslamın Avropaya nüfuz etməsi, Əndəlüs Əməvi Dövlətinin timsalında parlaq bir mədəniyyətin təşəkkülü, Konstantinopolun fəthi rəqabət anlayışını dərinləşdirdi. Səlib yürüşlərinin ardınca 1492-ci ildə İspaniyada "siyasi hakimiyyətləri zəiflədikdən sonra müsəlmanlar onları xristianlaşdırmaq istəyən insanların qanlı basqınlarına və zülmlərinə məruz qaldılar" (Həmidullah, 2022, 303). Rekonkista başa çatan kimi, müsəlmanlara və yəhudilərə qarşı törədilən soyqırımı, sonrakı

əsrlərdə müsəlman coğrafiyasının Qərb ölkələrinin işğalına məruz qalması qarşıdurmanı daha da gücləndirdi. Nəticədə, Quranın latın dilinə edilmiş ilk tərcüməsi beş əsr monastırda əlyazma şəklində qaldıqdan sonra ortaya çıxdı. Müstəmləkəçiliyə qarşı başlayan milli-azadlıq hərəkatları əsnasında islami şüarlardan və cihad amilindən istifadə edilməsi irqi, dini təəssübkeşlik münasibətlərini son dərəcə kəskinləşdirdi. Halbuki zamanında müsəlmanların İslamı olduğu kimi tanıtmaq imkanı, xristianların da tanımaq istəyi olsaydı, bəlkə də bir çox faciələrin qarşısı alına bilərdi. Bu səbəbdən də 1958–1964-cü illər arasında Vatikanda gerçəkləşən II böyük kilsə toplantısının digər din mənsublarına, xüsusilə yəhudilərə və müsəlmanlara dialoq təklifini irəli sürməsi müəyyən tərəddüdlərə səbəb olsa da, ümumilikdə təqdirəlayiq hal idi. Xüsusən katolik dünyasının lideri papa II İohan Pavelin səlib yürüşlərinə görə müsəlman-lardan üzr istəməsi, məscidi ziyarət etməsi və Qurani-Kərimi öpməsi dialoq üçün ümid doğurdu. Papa tərəfindən Xristian olmayan topluluqlar katibliyi təşkil edildi və İslam dünyası ilə əlaqələr büronun təşkilatçılığı ilə 40-a yaxın elmi toplantı keçirildi (Oymak, 2000, 174). Həmçinin Vatikan tərəfindən yaradılan Ərəb-İslam Araşdırmaları İnstitutu tərəfindən "İslamochristiana" adlanan jurnal nəşr olunmağa başlandı. BMT-nin nəzdində 1970-ci ildə "Dinlər sülh naminə" (Religions for Peace) adlanan dinlərarası təşkilat təsis edildi. Təəssüf ki, başlanğıcda müəyyən ümidverici addımlar atılmasına rəğmən, hər iki tərəfdə dinin siyasətə alət edilməsi və müharibə səbəbinə çevrilməsi ilə dialoq prosesi gözlənilən nəticəni vermədi.

Müasir dövrdə şahid olduğumuz qlobal problemlərin təhlili bəşəriyyətə firavanlıq, əmin-amanlıq, sabitlik gətirəcək səmərəli dialoqun təşkili və dinlərarası əməkdaşlığın təmin edilməsinin zəruri olduğunu göstərir. Əslində, Qurani-Kərim də mahiyyət etibarilə Uca Allahın bəzən birbaşa, bəzən də dolayı şəkildə bəndələrinə müraciəti prinsipinə əsaslanır. Habelə, dini, irqi, mədəni, ideoloji, siyasi daxil olmaqla mövcud fərqliliklərə rəğmən, bəşəriyyətin atası və ilk peyğəmbər Həzrət Adəmdən sonuncu peyğəmbər Həzrət Məhəmmədədək göndərilmiş bütün peyğəmbərlərin missiyasının əsasını dialoq təşkil etmişdir. Düzdür, İslam dininin ilkin mənbələrində müasir mənada "dialoq" terminin ərəb dilində qarşılığı olaraq işlədilən "hivar" kəlməsinə rast gəlinmirdi. Dialoq anlayışının isə mahiyyət etibarilə Quran və sünnədə ehtiva edildiyinə və xüsusilə, kitab əhli mənsubları ilə dialoq zərurətinə dair bir çox dəlil göstərmək mümkündür. Məsələn,"əl-Bəqərə" surəsində Quranın Allaha, mələklərə və axirət gününə inanan təqva sahibinin kimlərəsə doğru yol göstərdiyinə dair

ilahi bəyanı dialoq üçün ortaq zəminin mövcud olduğuna dəlalət edir. Digər tərəfdən, kitab əhlinə ünvanlanan *"Sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin!"* (Qurani-Kərim məalı, 2009, "Ali İmran", 3/64) çağırışı, üslubla bağlı müsəlmanlara xatırladılan *"Kitab əhlinin zülm edənləri (cizyə verməyənləri, sizinlə vuruşmaq istəyənləri) istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin!"* (Qurani-Kərim məalı, 2009, "Ənkəbut", 29/46) meyarı da bu qəbildən örnəklərdir. Bu da fəqrliliklərin mövcud olduğu şəraitdə birgəyaşayış mədəniyyətinin əvvəlcə zehinlərdə mənimsənilməsi, sonra həyatın içində birlikdə yaşamaq mədəniyyətinin formalaşması şəklində gerçəkləşir.

İlahi bəyanın həyatda tətbiqinə gəlincə, "dialoq" keçən əsrin 60-cı illərində termin olaraq elmi dövriyyəyə daxil edilsə də, əsri-səadətdən günümüzədək yaşanmış bir sıra parlaq nümunələri xatırlatmaq yerinə düşərdi. Qeyd etmək lazımdır ki, İslam peyğəmbərinin həyatı boyu müşriklərlə və əhli-kitabla dialoq qurmasına dair kifayət qədər örnəklər vardır. Allah Rəsulu onüçillik təbliğ fəaliyyətindən sonra, hicrət etdiyi zaman müsəlmanlarla birlikdə yəhudi, müşrik və az sayda da olsa, xristianların yaşadıqları Mədinə dini müxtəlifliyin hökm sürdüyü bir şəhər idi. Həzrət Peyğəmbər qardaşlaşdırma qurumu ilə müsəlmanlar arasında birliyi möhkəmləndirdikdən sonra, "müsəlmanlar arasında qan və ailə bağının yerini dini bağın almış olduğu" (Hasan İbrahim, 1987, I/137) mükəmməl bir sistem təsis etdi. Beləliklə, şəhərə müsəlmanları, qeyri-müsəlman ərəbləri və yəhudiləri əhatə edən, daha əvvəl Mədinə tarixində heç vaxt təsadüf edilməyən siyasi-ictimai quruluş gətirmiş oldu (Sarıçam, 2013,166). Bununla da irqi, dini və milli mənsubiyyətindən asılı olmayaraq, bütün şəhər əhalisinin həyat, səyahət və mülkiyyət hüquqlarının qorunması və toxunulmazlığı bəyan edildi. Fərqliliklərin birlikdə yaşamağa əngəl olmadığını göstərən konstitusiya mahiyyətində olan Mədinə anlaşması meydana çıxdı. Digər tərəfdən, Allah Rəsulunun məscidində ibadət etmələrinə şəxsən icazə verdiyi Nəcran xristianları, xristian İbn Haris bin Kəb və qəbiləsi ilə bağlanmış müqavilələr də dialoq naminə atılmış mühüm addımlar oldu.

Eyni zamanda, Yəmən və Bəhreyn əhalisi ilə əldə olunmuş razılaşmalarda xristianların dini azadlıqlarının təminat altına alınması, kilsələrin, rahib və yepiskopların toxunulmazlığına zəmanət verilməsi təcrübəsi mövcuddur. Bunun kimi müsəlmanların fütuhatının başlanğıcını qoyan, Kəbənin yerləşdiyi Məkkə şəhərinin, habelə bir çox başqa məmləkətlərin fəthinə yol açan Hüdeybiyyə anlaşması da

bilavasitə savaş yerinə dialoq alternativinin seçilməsi nəticəsində bağlandı. Xeybər və digər örnəklərdə də olduğu kimi, İslam peyğəmbəri bağladığı siyasi və hərbi müqavilələrdə ixtilaflı məqamları gündəmə gətirmək əvəzinə, daim dialoq tərəfdarı oldu və birlikdəyaşama zəmini üçün yollar aradı. Məkkənin fəthi əsnasında "müsəlmanlara təzyiq göstərmiş, işgəncə vermiş, əzab-əziyyətlərə düçar etmiş, hicrət edənlərin mallarını haqsız yerə mənimsəmiş müşriklərə" (Hasan İbrahim, 1987, I/184) qarşı münasibət bir daha yuxarıda deyilənlərin təzahürü oldu. Şəhər müsəlmanların nəzarəti altına keçdikdən sonra ümumi əfv elan edildi, heç kim əsir götürülmədi, sürgünə göndərilmədi, onlardan nəinki intiqam, hətta dinin icazə verdiyi qisas alınmadı. Habelə Məkkə əhalisinin daşınan-daşınmaz mal və mülklərinin qənimət olaraq paylanılmasına da imkan verilmədi, müşriklərin müsəlmanlardan qəsb etdikləri malların qaytarılması istənilmədi.

İslam Peyğəmbərinin gündəlik həyatda başqa din mənsublarına qarşı nümayiş etdirdiyi davranış örnəkləri də insan ləyaqətinə verdiyi dəyərə dəlalət edirdi. Ona xidmət edən yəhudi uşaq xəstələndikdə ziyarət etmək, yeməyə dəvət edən yəhudinin dəvətini tərəddüdsüz qəbul etmək, səhabələri ilə bir yerdə oturduqları əsnada bir yəhudinin cənazəsi keçərkən hörmət əlaməti olaraq ayağa qalxmaq ucalığını göstərmək məhz bu qəbildən idi. Axirətə köç edərkən kitab əhlinin haqq və hüququna riayət edilməsi, onlara qarşı münasibətdə zülmə, təhqirə yol verilməməsini təminat altına almaq məqsədilə "Sizə kitab əhli xristian və yəhudiləri əmanət edirəm" şəklində vəsiyyət etməsi də onun həm dini, həm də dünyəvi yöndən aləmlərə rəhmət olaraq göndərildiyini sübut edirdi.

Vida xütbəsində fərqli üslubda əksini tapan can və mal toxunulmazlığı öhdəliyi də İslam dininin yayılması baxımından müstəsna rol oynadı. Raşidi xəlifələri, Əməvi və Abbasi xilafətləri, Səlcuqlu, Osmanlı dövrlərində də qeyri-müsəlmanların inanc və mədəni dəyərlərinə hörmət, İslam coğrafiyasında əmin-amanlıq içində yaşamaları təmin edilirdi. Eləcə də Əndəlüsün fəthi əsnasında 713-cü ildə müsəlman ordularının sərkərdəsi Əbdüləziz ibn Musa ilə Levante hökmdarı Teodomiro arasında bağlanmış müqaviləyə əsasən, xristian əhalinin etiqad azadlığı, can, mal və dini məbədlərin toxunulmazlığı qorundu.Təsadüfi de-yildir ki,"Əndəlüs örnəyində fərqli etnik ünsürlərin, mədəniyyətlərin, dinlərin və dillərin olduğu plüralist quruluş uzun müddət mövcudluğunu uğurla davam etdirdi" (Anık, 2017, 51). İslam hakimiyyəti dövründə qeyri-müsəlmanlar siyasi, ictimai, dini və mədəni həyatda yaxından istirak edirdilər (Niyazi, 2015, 210). Osmanlı

dövlətində də çoxmədəniyyətlilik ənənəsi davam etdirilir, dini və milli mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüququ təmin olunurdu.

Bir sözlə, bəşəriyyət dəfələrlə İslamın lazımlı həyat düsturu olaraq gətirdiyi "güc haqdadır və haqlı olan güclüdür" prinsipinin şahidi olmuşdur. İlahi qaynağa sahib olan səmavi dinləri təmsil edən peyğəmbərlərin də təbliğində mühüm yer tutan əfv və mərhəmət duyğusu İslamın timsalında özünü bariz şəkildə göstərmişdir. Bu cahanşümul dinin insanların iradəsinə hörmətlə yanaşdığı, ardıcıllarından hər kəsə qarşı ədalətli davranmağı tələb etdiyi dəfələrlə subut olunmuşdur. İslam dininin zülmün və qəddarlığın hər növünə qarşı çıxması, bunun üçün bu dünyada və axirətdə müvafiq cəzaların tətbiqini əsas götürməsi bunu göstərmişdir. Həzrət Peyğəmbərin həyatı boyunca sülhün tərəfdarı olması, savaşa müstəsna hallarda və ən son çarə kimi müraciət etməsi də məlumdur. Məhz hər zaman düşməni yox etməyi deyil, onu qazanmağı, doğru yola gətirməyi əsas götürməsi səbəbindən onun dövründəki bütün döyüşlərdə öldürülən müşriklərin sayı 216 nəfər olmuşdur (Sarı-çam, 2013,175). Xüsusilə qeyd edilməlidir ki, bu savaş və hərbi yürüşlərin heç birində müsəlmanlar təcavüzkar rolunda çıxış etməmişlər. Fərdi və ictimai münasibətlərdə insan sevgisini əsas götürən İslamda fərqli dini inanc və düşüncə düşmənçilik səbəbi kimi olmamışdır. İslam hüququnda məqsədin qanuni, şəriətə müvafiq olması tələbi ilə bərabər, həmin məqsədə aparan yolların və istifadə edilən vasitələrin də qanuni və əxlaqi normaları çərçivəsində olmasına xüsusi əhəmiyyət verilmişdir.

Qeyd etdiyimiz nəzəri və təcrübi əsaslardan da gördüyümüz kimi, mədəni plüralizm və azad düşüncə şəraitində bugünümüz və gələcəyimiz naminə dinlərarası dialoqun aparılması vacibdir. Topluluqların bir-biri ilə ünsiyyət imkanları artdıqca, münasibətlərin səmərəliliyi daha çox qarşılıqlı anlaşmadan, dinlər və mədəniyyətlər arasında bərabərhüquqlu dialoqdan və tolerantlıqdan asılıdır. Təəssüf ki, "dünyada baş verən mürəkkəb siyasi kataklizmlər, etnik-dini münaqişələr, aqressiv separatçılıq və dini ekstremizm, terrorizm kimi təhdidlər beynəlxalq sülh və təhlükəsizlik, eləcə də tolerantlıq və dinlərarası dialoq üçün ciddi maneə olaraq qalmaqdadır" (İsmayılov, 2014,187). Müasir şəraitdə bəşəriyyətin getdikcə artan qlobal ksenofobiya və dini zəmində ciddi qarşıdurmalarla qarşılaşması istər ayrı-ayrı bölgələrdə, istərsə də bütövlükdə dünyada dinlərarası dialoqa aktuallıq qazandırır. Bu, qaçılmaz sosial reallıqdır, dinlərarası müxtəliflik şəraitində çətin də olsa, qarşılıqlı razılıq və dinc yanaşı yaşama düsturunun tapılması vacibdir. Bu da dini-mədəni müxtəlifliyin,

plüralizmin mövcudluğunu inkar etmədən qarşılıqlı maraq doğuran ortaq problemləri təsbit və həll etməklə mümkündür. Eyni zamanda, "birgə yaşamaq və dialoq prinsiplərini geniş təbliğ etmək, insanların gündəlik davranış normalarına çevirmək" (Qaralov, 2008, 442) lazımdır. Xüsusilə, dini duyğuların son dərəcə həssas məsələ olduğunu nəzərə alaraq, vicdan azadlığı bəhanəsi ilə digər dinlərin dəyərlərini təhqir etmək, qarşıdurmalara gətirə biləcək təxribatların qarşısını almaq istiqamətində zəruri tədbirlər görmək, ortaq mövqedən çıxış etmək üçün işlək mexanizm yaratmaq lazımdır. Bunun üçün müxtəlif səviyyəli konfransların keçirilməsi, "dəyirmi masa"ların təşkil edilməsi, həmçinin kütləvi informasiya vasitələrinin fəaliyyətlərinin bu istiqamətə yönəldilməsi zəruridir.

Digər tərəfdən, dinlərarası dialoqun motivi, məqsədi, prinsipləri və formaları haqqında aydın təsəvvür olmalıdır. Dinlərarası dialoqları sistem halına salmaq, müxtəliflik şə-raitində yaşamağa ehtiyac hissi tərbiyə etmək lazımdır (Qaralov, 2008, 443). Həmçinin dialoq tərəflərinin bir-birini bərabərhüquqlu tərəfdaş kimi qəbul etmələri, stereotiplərə, diskriminasiyaya, ayrı-seçkiliyə qarşı ardıcıl mübarizə aparmaq vacibdir. Dini mədəniyyətlərin təhqir edilməsi, sivilizasiyaların qarşı-qarşıya qoyulması hallarına son verilməlidir. "Bəşəriyyətin tənəzzülə sürüklənməsinin qarşısını almaq məqsədilə dünya insanları birləşməli, yollar axtarılmalı, əməli tədbirlər görülməlidir" (Qaralov, 2008, 454). Habelə dinlərarası dialoq fəaliyyətləri qətiyyən siyasiləşdirilməməli və tarixdə cərəyan edən şəkli ilə missionerliyə alət olmamalıdır. Tərəflər səmimi davranmalı, tərəf-müqabilinin dini dünyagörüşü ilə razılaşmasa belə, fikrini ifadə etməsinə hörmətlə yanaşmalıdırlar. Mənsubu olduğu dinin təməl prinsiplərinə xələl gətirmədən fərqləndirici deyil, birləşdirici amillərə istinad etməyi bacarmalıdırlar. "Bəşəriyyətin birgəyaşayışını təmin etmək, dini mötədilliyə şərait yaratmaq, xalqların dini yaşayış tərzini inkişaf etdirmək, sivilizasiyaların toqquşması və mübarizəsi qəbilindən olan nəzəriyyələrə qarşı vahid cəbhədən çıxış etmək" (Məhəmməd Xəlifə, 2011, 7) məsələsində ortaq mövqe nümayiş etdirməlidirlər.

Beləliklə, dialoqun kimlər tərəfindən aparılması, istirakçılarının mövcud müxtəlifliyi müasir sivilizasiyanın zənginliyi kimi qəbul etmələri və ya bunu təhlükə mənbəyi olaraq görməmələri qəbilindən amillər də vacibdir. Həmçinin İslam dininin mənsubu olaraq dialoqda iştirak edən kimsələrin dininin hökmlərinə yüksək səviyyədə əməl etmələri, təmsil etdikləri müsbət keyfiyyətləri sözdə deyil, davranışlarında göstərmək bacarıqları, modelinsan olmalarının böyük rolu vardır. Bu prinsiplərə

əməl olunduğu təqdirdə, dialoq iştirakçılarının ortaq dəyərləri təsbit etmək, onları ön plana çıxarmaq və problemlərinin həlli yolunu axtarmaq təşəbbüslərinin müsbət nəticə vermə ehtimalı artır. "Dinlərarası dialoqun və əməkdaşlığın reallaşmasında din xadimlərinin üzərinə daha böyük vəzifə və məsuliyyət" (İsmayılov, 2014, 43) düşdüyünə görə, dini təhsilin də əhəmiyyəti anlaşılır.

III. Təhsildə tərbiyə amilinin əhəmiyyəti və dini təhsilin rolu

Bəşər mədəniyyəti tarixində müstəsna yer tutan təhsil təşəkkül tapdığı ilk dövrdən etibarən, "cəmiyyətin bir tam halında mövcudluğunu və inkişafını təmin edən əsas sosial institut" (Xəlilov, 2005,5) kimi əhəmiyyətini qoruyub-saxlamışdır.Təsadüfi deyildir ki, tarixdə iz qoymuş sivilizasiyalar da adətən, fəaliyyət mənbəyini təhsildən götürmüş və onun dəstəyi ilə formalaşmışdır. "Təhsil-fərd-cəmiyyət münasibətlərinin düzgün təşkili milli tərəqqiyə aparan yeganə rasional yol" (Qaralov, 2003, I/108) olmuşdur. Cəmiyyətin və bütövlükdə bəşəriyyətin üzləşdiyi bu və ya digər problem ictimai həyatın sosial sahələrinə və ilk növbədə, təhsilə təsir göstərmişdir. Bu baxımdan, bir çox cəhətləri olmaqla bərabər, təhsil, ilk növbədə, insana peşə fəaliyyəti üçün tələb olunan bilik və bacarıqlar qazandırmaq, onun analitik düşüncə və problemi həlletmə qabiliyyətlərini inkişaf etdirmək məqsədini daşıyır. Bununla yanaşı, sosial, emosional və etik dəyərlərini inkişaf etdirməklə təhsilalanın cəmiyyətə inteqrasiyasına münbit şərait yaradır. Təhsil insana özünü qiymətləndirmək, zehni qabiliyyətini ən yüksək səviyyəyə çatdırmaq və mənəvi həssaslıqları inkişaf etdirmək kimi xüsusiyyətlər qazandırmaq və bacarıqlarını daha məhsuldar hala gətirmək vəzifəsini yerinə yetirir. Ona görə də ictimai inkişafın ən böyük resurslarının təhsil sistemində olması səbəbindən, hər bir ölkənin inkişaf səviyyəsi bir qayda olaraq, təhsilin keyfiyyəti və məzmunu ilə ölçülür.Təhsilin məzmunu da həyata keçirilən təlim prosesinin sonunda təhsilalanın əldə etməli olduğu biliklərə, bacarıqlara, vərdişlərə və formalaşdırılması planlaşdırılan şəxsi keyfiyyətlərə qoyulan tələblərlə müəyyənləşir.

Nümunəvi şəxsiyyət səviyyəsinə çatmaq üçün təkcə yüksək intellektin və biliyin olması kifayət etmir. Bilavasitə tərbiyə amili ilə səciyyələnən məzmun nəzərə alınmadığı təqdirdə, insan zəkasının qurmağa, yaşatmaq naminə yaşamağa deyil, dağıtmağa, ölümsaçan silahların kəşfinə, bəşəriyyətin məhvinə yönələcəyi ehtimalı var. Bu səbəbdən, təhsilin məzmunu baxımından millətin, cəmiyyətin həyat

tərzini, fəaliyyət və münasibətlər sistemini ehtiva edən əxlaqi göstəricilərin məcmusunu təşkil edən mənəvi mühitin də böyük əhəmiyyəti var. Başqa sözlə desək, "fərdə və ailəyə məxsus olan mənəvi mühitlə millətə, cəmiyyətə xas olan ictimai-mənəvi mühit bir-biri ilə üzvi surətdə bağlıdır" (Qaralov, 2003, I/25). Xüsusilə "həm fərdi, həm də ictimai həyatın strukturunda ümumbəşəri dəyərlərlə yanaşı, milli-mənəvi dəyərlər də mühüm yer tutur" (Xəlilov, 2005, 399). Sözügedən səbəbdən də yüksək mənəvi dəyərləri özündə cəmləşdirən mükəmməl tərbiyə sisteminə də ciddi ehtiyac var. Bu da "cəmiyyətin təhsilə sifarişi ilk növbədə böyüyən nəslin milli-mənəvi və ümumbəşəri dəyərlərlə silahlandırılması olmalıdır" (Qaralov, 2003, I/108)- fikrinin aktuallığına dəlalət edir. Bununla belə, dünyəvi və dini təhsilin əməkdaşlığı məsələsində pedaqoqların və ilahiyyatçıların hələ cavab verə bilmədikləri sualların olduğunu da etiraf etmək lazımdır (Demidov, 2016, 52).

Məlum olduğu kimi, həm ümumi, həm də dini təhsilin qarşısında insan davranışını təkmilləşdirmək vəzifəsinin durması səbəbindən məqsədləri arasında oxşarlıqlar var. Ümumi təhsilin dünyəvi biliklərə, dini təhsilin isə bilavasitə ilahiyyat elminə əsaslanması zaman-zaman onların əməkdaşlıq imkanını çətinləşdirir (Keyifli, 2013,108). Ümumi və dini təhsil arasında əməkdaşlığın qeyri-mümkün olması, adətən, təhsilin dünyəvi səciyyə daşıması ilə izah olunur. Həmçinin bənzər əməkdaşlığın ümumi təhsilin məqsədlərinə çatmasına mane olacağı ehtimalı da irəli sürülür. İnsan, sadəcə, maddi olan bədəndən deyil, həm də mənəvi olan ruhdan ibarət varlıqdır. İnsanda baş, dil, ağız, qulaq kimi bədən üzvləri ilə yanaşı, mənəvi səciyyə daşıyan ağıl, iradə, qəlb və nəfs də mövcuddur. Təbiət elmləri insanın maddi varlıq olaraq bioloji yönlərini öyrəndiyi kimi, onun mənəvi tərəfini də nəzərə alması təbiidir. İstedad və qabiliyyətləri baxımından güclü yaradılmasına, ağıl və şüur sahibi olmasına rəğmən insan xeyrə və şərə meyilli olduğu üçün tərbiyə edilməyə möhtac varlıqdır. Cismani mükəmməllik yaradılışdan verildiyi halda, mənəvi kamilliyi əldə etmək bilavasitə şüurlu varlıq olan insanın öz istəyinə və ixtiyarına buraxılmışdır. Bir sözlə, "insan həm yaxşı insan olmağa, həm də yaxşılaşmağa ehtiyacı olan varlıqdır" (Keyifli, 2013,108).

İnsanın fiziki, ədəbi, əqli, elmi, peşə, sənət baxımından tərbiyəyə ehtiyacı olduğu kimi, mənsubu olduğu cəmiyyətin qanun və tələblərinə riayət etmək üçün ictimai, vətəndaşlıq, ümumbəşəri, ilk növbədə, əxlaqi olaraq səciyyələnən dini tərbiyəyə də ehtiyacı var. Cəmiyyətin və insanın hər hansı bir məsələni dərk və həll etməklə elm və təlim,

təhsil və bilik tələb olunduğu kimi, din xüsusunda da elm və təhsil vacibdir (Atay,1983, 11). Bu baxımdan, müasir təhsil sisteminin qarşısında mövcud qanunvericiliyin imkan verdiyi nisbətdə dünyəvi və dini təhsilin inteqrasiyasını təmin etmək kimi mühüm vəzifə durur. Dünyəvi təhsil fərdin ictimailəşməsini, bu həyatda uğur qazanmağın yollarının öyrədilməsini, dini təhsil isə əbədiyyətin anlaşılmasını, gələcəyin müəyyənləşdirilməsini əsas götürür (Başirov, 2011, 237). Bunun üçün də təhsilin insan həyatında əsas vasitə olduğunu nəzərə aldıqda, dünyəvi və dini təhsilin bir-birini tamamlamalı olduğunu da qəbul etmək lazımdır. Albert Eynşteynin məşhur "dinsiz elm topal, elmsiz din kordur" aforizmi də dünyəvi və dini təhsilin qarşılıqlı əlaqəsini və bir-birindən asılılığını xatırladır. Məhz dövrün tələblərinə uyğun çağırışlara cavab verən təhsilin müasir dünyanın aktual problemlərini həll etməyə qadir olduğunu diqqətə alaraq, sosial inkişafda əhalinin müxtəlif qruplarının maraqlarının əlaqələndirilməsi təbiidir. Əks təqdirdə, düzgün və elmi əsaslara söykənən din təhsili imkanı əlindən alınan gənclik milli və tarixi mədəniyyətdən də məhrum edilər (Atay, 1983, 11).

Təsadüfi deyildir ki, təhsil və əxlaq mövzusu tarixboyu milli tərəqqini və gələcəyi düşünən hər bir dövləti yaxından maraqlandırmışdır. Bu və ya digər millətin ən vacib potensialı, sadəcə, sahib olduğu yeraltı və yerüstü təbii sərvətləri ilə ölçülmür. Həmin sərvətdən səmərəli şəkildə istifadə etməyi bacaran bilik və qabiliyyətə yiyələnmiş, dürüst, əxlaqlı, vətənpərvər və dövlətçilik mənafeyini üstün tutan insan gücünə də ehtiyac var. Bunun üçün dünyəvi qanunlarla yanaşı, dinin də təlqin etdiyi yüksək əxlaqi məziyyətlərdən doğan "insansevərlik prinsipi əsasında yaradılan tərbiyə nəzəriyyəsi sağlamruhlu nəsillər yetişdirməyə qadirdir" (Qaralov, 2003, I/55)-prinsipindən bəhrələnmək məqsədəuyğun olardı. Həmçinin ideal cəmiyyətin formalaşması prosesində əxlaqa əsaslanan sosial sistemi qurarkən din amilindən də istifadə edilməsinin faydalı olduğu unudulmamalıdır. "İnsanların fərdi və ictimai həyatına bir çox cəhətdən təsir edən din insanlarda müəyyən dini mədəniyyət formalaşdırmışdır" (Keyifli, 2013, 115).

Nəzərə almaq lazımdır ki, dini təhsil dünyəvi cəmiyyətdə din haqqında biliklərin ötürülməsi kimi ayrılmaz insan hüququdur. Dini təhsil din və təhsil anlayışlarının birləşməsi ilə meydana gəlsə də, yeni bir sahəyə çevrilmişdir (Keyifli, 2013, 117). Bəzi xarici ölkələrdə çoxkonfessiyalı cəmiyyətlərin təcrübəsinin göstərdiyi kimi, bununla bağlı müxtəlif yanaşmalar mövcuddur. Çox vaxt unudulur ki, üstünlük təşkil edən materialist dünyagörüşü təbiətlə insanlar arasındakı

tarazlığı pozur və bu harmoniya yalnız həyatın maddi və mənəvi sferalarının inteqrasiyası ilə əldə oluna bilər. Dünyəvi və dini bilikləri ehtiva edən təh-silin təşkil edilməsi bu sahədə savadlı və peşəkar milli kadr hazırlığını zəruri edir. Bu da cəmiyyətin birliyini və birgəyaşayış qaydalarına riayət edilməsini təmin etmək baxımından vacib amildir. Azərbaycan üçün dövlət-din münasibətlərininin ən düzgün modelinin bünövrəsini qoymuş ümummilli lider Heydər Əliyevin "Dinə, dinin mənəvi-əxlaqi dəyərlərinin təbliğinə, bu dəyərlərin yardımıyla insanlara vətənseverlik və dözüm duyğularının aşılanmasına dövlətin də ehtiyacı vardır" vəciz fikri də bilavasitə buna dəlalət edirdi. Tarixi təcrübə göstərir ki, mənəvi dəyərlər insanları bir-birinə bağlayan zaman, məkan, rəng və soy ünsüründən daha böyük təsirə malik ola bilir (Atay, 1983, 11).Təbii ki, mənəvi-əxlaqi dəyərlərin dirçəldilməsi zərurəti təhsilin milli adət-ənənələrə hörmət və çoxmillətli cəmiyyətdə əxlaqlı davranmağa hazırlığının formalaşmasına yönəlməsini aktuallaşdırır. Buna görə də din təhsili hər bir dünyəvi dövlətdə olduğu kimi, Azərbaycanda da hüquqi, tarixi, fəlsəfi, sosioloji və digər aspektlərdən ən çox müzakirə edilən mövzudur. Bu müzakirələrdə "Din təhsilinin vacib olub-olmaması qədər, tədris ediləcək fənnin metodologiyası və məzmunu da böyük əhəmiyyət kəsb edir (Heydərov, Qənbərov və b. 2020, 159).

IV. Azərbaycanda dini təhsil: reallıqlar və perspektivlər

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, ölkədə milli-mənəvi dəyərlərin dirçəldilməsi və inkişaf etdirilməsi zərurəti hasil oldu. Unutdurulmuş dini ənənələrin bərpası və möhkəmləndirilməsi dövlətin din siyasəti qarşısında duran əsas vəzifələrdən birinə çevrildi. Ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlığı təmin olundu, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı (Məmmədov, 2018, 61). Bu səbəbdən dini təhsilin təşkili və hərtərəfli dini biliklərə malik yüksəksəviyyəli kadr hazırlığı böyük əhəmiyyət kəsb edirdi. Sovet hakimiyyəti illərində milli-mənəvi dəyərlərini öyrənmək hüququndan məhrum edilmiş ölkə vətəndaşlarının mənəvi tələbatını təmin etmək lazım idi. İlkin mərhələdə dini təhsil sahəsində uzunsürən fasilədən sonra, 1989-cu ildə Qafqaz Müsəlmanları İdarəsi nəzdində Bakı İslam Mədrəsəsi tədris fəaliyyətinə başladı. Həmin mədrəsənin bazasında 1991-ci ildən yaradılan və Azərbaycanda ilk ali din müəssisəsi olan Bakı İslam İnstitutu 1996-cı ildən 2018-ci ilədək Bakı İslam Universiteti olaraq fəaliyyətini davam etdirdi. Ölkənin şimal bölgəsində dini vəziyyətin mürəkkəbliyini, ali təhsilli din xadiminə

olan ehtiyacı, gənclərin dini təhsil almaq üçün xarici ölkələrə axınının qarşısını almaq məqsədilə Bakı İslam Universitetinin Zaqatala şöbəsi yaradıldı. Eyni zamanda təsis edildikdən bir müddət sonra fəaliyyəti dayandırılmış "Sumqayıt, Lənkəran, Mingəçevir şöbələri şiə dindarlara yönəlik fəaliyyət göstərirdi" (Səmədov, 2009, 105).

Digər tərəfdən, 1990-cı illərin əvvəllərində Şəki, Ağdaş, Xaçmaz, Lənkəran, Cəlil-abad, Göyçay, Zaqatala başda olmaqla, ölkənin müxtəif bölgələrində və Bakı şəhərinin bəzi rayonlarında mədrəsələrin açılmasına icazə verildi. Məscidlərin nəzdində Quran kursları fəaliyyətə başladı. Həmçinin 1992-ci ildən etibarən, Azərbaycanda fəaliyyət göstərən Gəncliyə Yardım Fondunun maliyyə yardımı ilə bir sıra mədrəsələr dini təhsil verməyə başladı. Eyni zamanda, ölkənin müxtəlif bölgələrində Qafqaz Müsəlmanları İdarəsinin icazəsi olmadan qeyri-qanuni mədrəsələr də fəaliyyət göstərirdi.

Bundan başqa, dini təhsilin bilavasitə ölkədə həyata keçirilməsi məqsədilə 1992-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi, Türkiyə Dəyanət Vəqfi və Bakı Dövlət Uni-versiteti arasında imzalanmış üçtərəfli müqaviləyə əsasən, BDU-nun nəzdində İlahiyyat fakültəsi fəaliyyətə başladı (Səmədov, 2009, 90). Bu fakültə 1992-2016-cı illər arasında ilahiyyatçı və ərəb dili müəllimi ixtisası üzrə kadr hazırlığı aparıb, bu sahədəki mövcud boşluğu doldurmağa xidmət etdi. Bəzi özəl ali təhsil müəssisələrinin tərkibində ilahiyyat, pedaqoji texnikumların nəzdində fəaliyyət göstərən "Milli əxlaq və islamşünaslıq" ixtisasları üzrə kadr hazırlığına başlanılsa da, daha sonra bu, dayandırıldı.

Təbii ki, dini təhsilin uğurla həyata keçirilməsi üçün ixtisaslı kadrlara, Azərbaycan dilində dərsliklərə və dini ədəbiyyata ciddi ehtiyac var idi. Belə bir şəraitdə digər ixtisaslarda olduğu kimi, ilahiyyat sahəsində də gənclərin xarici ölkələrdə təhsilə yönəlmələri qaçılmaz idi. Dini ixtisas sahəsində daha çox "Türkiyə, İran, Pakistan, Malayziya, Misir, Liviya, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Suriya, Səudiyyə Ərəbistanı" (Səmədov, 2009, 49) kimi ölkələrə üstünlük verilirdi. Xaricdə ilahiyyat ixtisasına yiyələnən gənclərin müəyyən hissəsi Bakı İslam Universiteti tərəfindən göndərilsə də, ayrı-ayrı qurum, fondlar və yaxud şəxsi imkanları hesabına xaricdə dini təhsil alanlar da oldu. Xaricdə ödənişsiz təhsil və yaxud müəyyən xeyriyyə qurumlarının təqaüdü hesabına ilahiyyat ixtisasına yiyələnmək imkanı gənclər üçün cəlbedici olmaqla yanaşı, yad təsir altına düşmək ehtimalı da istisna edilmirdi. "Yeni formalaşan dindar kontingentin bir qisminin dini dünyagörüşünə və mənimsədiyi həyat tərzinə görə milli dövlətçilik şüurundan uzaqlaşması,

əvəzində şəriətə əsaslanan müxtəlif idarəçilik formalarını müdafiə etmələri bunun bariz nümunəsi" (İsmayılov, 2016, 248-249) idi.

Habelə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Liviya, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, İordaniya kimi müsəlman ölkələrindən humanitar yardım məqsədilə gələn xeyriyyə təşkilatları da Quran kursları açmaq, xalqı dini mövzularda maarifləndirmək üçün dini ədəbiyyat gətirmək qəbilindən fəaliyyət göstərirdilər. Bunun da məntiqi nəticəsi olaraq, dini maarifçilik adı altında aparılan təbliğat Azərbaycanda İslamın qeyri-ənənəvi təriqət və cərəyanlarının yaranmasına səbəb olurdu. Dövlətin və cəmiyyətin dini-ideoloji, milli, ictimai təhlükəsizliyi baxımından yanaşdıqda sözügedən fəaliyyətlər narahatlıq doğurmaya bilməzdi. Bəzi təşkilatlar açdıqları məktəb və kurslarda öz dövlətlərinin siyasi maraqlarına uyğun təbliğat apardıqlarından, Azərbaycanda belə təşkilatların fəaliyyətlərinə qadağalar qoyularaq ölkədən xaric edildilər. Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli 512 nömrəli Fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafının təmin edilməsi, dini təhsil ilə bağlı məsələlərin qaydaya salınması istiqamətində məqsədyönlü faəaliyyətlər həyata keçirilməyə başladı.

Dini təhsil sahəsində digər diqqətlayiq fəaliyyətlərdən biri də 1993-cü ildə AMEA Əlyazmalar İnstitutunun nəzdində 09.00.06 "Din tarixi və nəzəriyyəsi (islamşünaslıq)" ixtisası üzrə aspirantura proqramının təşkil edilməsi oldu. Çox keçmədən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının müvafiq qərarı ilə institutun nəzdində Dissertasiya şurası da fəaliyyət göstərməyə başladı. Əlyazmalar İnstitutu Mənbəşünaslıq və elm tarixi şöbəsinin nəzdində Orta əsr yazılı abidələri əsasında klassik İslam mənbələrinin araşdırılması məqsədilə təşkil edilmiş İslamşünaslıq qrupunun iki üzvü 1988-ci ildə həmin ixtisas üzrə ilahiyyat elmləri namizədi alimlik dərəcəsini almış ilk islamşünaslardan oldular.

Düzdür, həmin dövrdə Azərbaycan Respublikası Elmlər Akademiyası Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən Din və ictimai fikir tarixi şöbəsində də dini mövzularda müəyyən tədqiqat işləri yernə yetirilirdi. Həmin araşdırmalar mövcud ideologiyanın təsir dairəsindən kənara çıxmaq imkanından məhrum idi. Maraqlıdır ki, həmin dövrdə Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsinə və yaxud nəşrinə imkan verilməməklə yanaşı, hətta rus dilinə olunmuş tərcüməni belə tədqiqatçıların əldə etməsi mümkün deyildi. Sovetlər birliyində İslam dini sahəsində araşdırma aparan tədqiqatçıların böyük əksəriyyətinin qeyri-

millətlərin nümayəndələri olması səbəbindən, mövcud tədqiqatlarda dinin gerçək mahiyyəti əks etdirilmir və məqsədyönlü təhriflərə yol verilirdi. Nəşr olunan elmi ədəbiyyat, adətən, "tamamilə dini tənqid etmək, ateizm təlimini əsaslandırmaq məqsədini daşıyırdı" (Taştan, 2003, 33). İslam dini mənsublarının ümmət anlayışını, birlik şüurunu zəiflətmək məqsədilə məzhəb fərqliliyi, xüsusilə, ön plana çıxarılırdı.Yuxarıda qeyd olunan cəhətlər bir daha Azərbaycanda dini təhsilin və maarifçiliyin nə qədər böyük əhəmiyyət daşıdığını göstərirdi. Əsas dini təhsildən başqa, yetərli olmasa da, dini təhsilin xalqa ünvanlanmış kütləvi və dini mərasimlər vasitəsilə həyata keçirilən növləri də mövcud idi.

Azərbaycan Respublikasında dövlət təhsil sisteminin dindən ayrı olması və dünyəvi səciyyə daşıması səbəbindən, ümumtəhsil müəssisələrində dinin müstəqil fənn kimi tədrisi nəzərdə tutulmur. "Dinin təhsildən və məktəbdən ayrı olması konstitusional bir prinsip qəbul edilməklə yanaşı, məktəblərdə din haqqında maarifləndirməni qadağan etmir" (Qənbərov, 2019, 131). Belə ki, Azərbaycanın dövlət məktəblərində müstəqil din dərsi tədris edilməsə də, 2004-cü ildən ümumtəhsil məktəblərində tədris olunan Həyat bilgisi dərsliklərində dinlə əlaqəli əsas biliklər öyrədilir (Əzizova, 2018, 9-10). "Bu fənn çərçivəsində din təhsilinin məqsədi şagirdlərin dünya dinləri haqqında sistemli surətdə məlumatlandırılması, dini xurafatın və radikalizm meyillərinin aradan qaldırılması, dini dözümlülüyün inkişaf etdirilməsindən ibarətdir" (Heydərov, Qənbərov və b., 2020,166). Həmçinin təhsil proqramı (kurikulum) nəzərə alınaraq hazırlanan Həyat bilgisi fənninin təlim nəticələri olaraq şagirdlərin dünyanın yaranması ilə bağlı əsas elmi və dini dünyagörüşlərdən xəbərdar olma-ları, dinlərin təbliğ etdiyi mənəvi dəyərləri anlaya və onları xurafatlardan ayırd edə bilmələri gözlənilir (Əzizova, 2018,10). Həyat bilgisi dərslikləri dünyəvi dövlətlər üçün ən münasib din təhsili modeli hesab edilən din haqqında öyrənmə modelinə uyğun hazırlanmışdır.

Digər tərəfdən, 2019-2020-ci tədris ilindən başlayaraq, ali təhsil müəssisələrində tələbələrə Multikulturalizmə giriş fənni vasitəsilə dinlər haqqında müəyyən biliklər verilir. Dinin fərd və cəmiyyət üçün oynadığı rolların təhlili, o cümlədən, dini radikalizm, ekstre-mizm və mövhumatçılığın aradan qaldırılması, dinlərarası dözümlülük və tolerantlığın möhkəmləndirilməsi din təhsilinin əsas hədəflərini təşkil edir (Heydərov, Qənbərov və b., 2020, 167). Bu da müxtəlif sistem və münasibətlərə daxil olan sahə olması etibarilə təhsilin multikultural məkan sayılmasından irəli gəlir. Eyni zamanda, bunu müxtəlif sosial-mədəni həyat tərzinin tərəfdarlarının dinc yanaşı yaşaması zərurəti də

tələb edir. Ona görə ki, cəmiyyətin əmin-amanlıq şəraitində yaşaması və dünya birliyinə inteqrasiyasının mümkünlüyü onlardan asılıdır. Bu kontekstdə insanlararası münasibətlərdə müxtəlif dini, sosial, mədəni qurumlar, media, icmalar və konfessiyaların konkret nümayəndələri arasında çoxmillətli mühitdə tolerantlığın təşviqi konsepsiyası xüsusi əhəmiyyət kəsb edir. Toleranlıq təkcə irqi və milli fərqlərə neytral münasibəti deyil, həm də müxtəlifliyin dəyər kimi tanınmasını nəzərdə tutur. Aydındır ki, düzgün təhsil dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyətinin qurulmasına, milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına töhfə verir. Qeyd etmək lazımdır ki, multikultural cəmiyyətdə tolerant şəxsiyyətin tərbiyəsi prosesi əvvəlcə ailədə və məktəbəqədər uşaq müəssisələrində başlayır, daha sonra orta və ali məktəblərdə davam etdirilir. Məktəblilərin şəxsiyyət xüsusiyyəti kimi etno-mədəni tolerantlığın formalaşmasını nəzərdə tutan multikultural dünyada həyata hazırlanması da vacibdir.

Son illərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə orta məktəblərdə Həyat bilgisi fənni çərçivəsində din təhsilinin genişləndirilməsi, ali məktəblərdə isə bakalavr səviyyəsində dinlərin tarixini əhatə edən sistematik biliklərin verilməsi haqqında müzakirələr aparılırdı. Bəzi təhsil ekspertləri mövcud dərsliklərdə din barədə daha geniş məlumat verilməsini və bu fənlərin bilavasitə yetərincə dini bilikləri olan mütəxəssislər tərəfindən tədris olunmasını təklif edirdilər. Azərbaycanın beynəlxalq miqyaslı ən nüfuzlu və mötəbər dini toplantılara ev sahibliyi etdiyini əsas götürərək, dinlərarası dialoq prosesində gənclərin həm İslam dini, həm də digər dinlər haqqında daha çox məlumata sahib olmalarının vacibliyinə diqqəti cəlb edirdilər. Həmçinin ana dilini, ədəbiyyatını, tarixini öyrənən şagirdlərin din haqqında da ətraflı biliklərə sahib olmalarının onların mənəvi tərbiyəsi üçün də faydalı olacağı qənaətini açıqlayırdılar. Gənclərin dini təsadüfi adamlardan və yaxud sosial mediadan öyrənmələrinin qarşısını almaq üçün mükəmməl dini biliklərin verilməsini ən optimal variant hesab edirdilər. Yeniyetmə və gənclərin öz mənəvi irsini məktəbdə öyrənməsi radikal-ekstremist, yaxud destruktiv dini cərəyanların təsiri altına düşmə ehtimalının qarşısını alacağını ifadə edirdi.

Dini təhsilin və maariflənmənin vacibliyi barədə bu qəbildən ehtiyacın gündəmə gətirildiyi bir vaxtda, Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradıldı. Sərəncamda Azərbaycan Respublikasının Təhsil Nazirliyinə Bakı Dövlət Universitetinin İlahiyyat

fakültəsinin Azərbaycan İlahiyyat İnstitutunun strukturuna daxil edilməsinin təmin olunması tapşırığı verildi (Qənbərov, 2019, 154). Qısa müddət ərzində müvafiq hazırlıq işləri görüldü və 2018–2019-cu tədris ilindən etibarən, Azərbaycan İlahiyyat İnstitutu tədris prosesinə başladı. Dövlət hesabına, ödənişsiz əsaslarla, "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisasları üzrə təhsilin həyata keçirildiyi İnstitutda bir fakültə – İlahiyyat, üç kafedra – İslamşünaslıq, Dinşünaslıq, Dillər və ictimai fənlər kafedraları mövcuddur. Ali təhsilin bütün mövcud pillələri üzrə təhsil həyata keçirilən İnstitutda magistratura səviyyəsində "Dinşünaslıq" ixtisası üzrə – "Dinin psixologiyası", "Dinin sosiologiyası", "Dinlər tarixi", "İslamşünaslıq" ixtisaslaşmaları üzrə kadr hazırlığı aparılır. Nazirlər Kabinetinin Qərarına əsasən, 2019-cu ildən etibarən İnstitutda "Dinşünaslıq" və "Dinin tarixi və fəlsəfəsi" ixtisaslarında fəlsəfə doktorluğu üzrə doktorantura təhsili həyata keçirilir (Heydərov, Qənbərov və b., 2020, 167). İnstitutun mövcud elmi-pedaqoji potensialı, tədris sistemi, elmi və maarifçilik fəaliyyəti, qısa müddət ərzində beynəlxalq əlaqələri inkişaf etdirməsi, tələbə mübadiləsi həyata keçirməsi "artıq ölkəmizdə ən yüksək səviyyədə ilahiyyatçı alimlər və din xadimlərinin yetişdirilməsi üçün münbit şəraitin" (Heydərov, Qənbərov və b., 2020, 168) yaradıldığına dəlalət edir. "Dini təhsilin keyfiyyətcə yeni mərhələyə qaldırılması ölkəmizin həm daxilə, həm də xaricə yönəlik məqsədlərinin reallaşdırılmasına" (İsmayılov, 2016, 256) təminat verir. İnstitutun birmənalı şəkildə dinlərüstü və məzhəblərüstü prinsipə əsaslanan tədris prosesi ölkəmizdəki mövcud dini tolerantlığın davam etməsi, dini radikalizmin qarşısının alınması və ümumilikdə, ölkəmizdə dini təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynayacağına dəlalət edir.

Nəticə

Təhsil siyasətinin dövlətin inkişafında həlledici amil olması səbəbindən dövlətin dini təhsillə yaxından maraqlanması təbii və anlaşılandır. Proqnozlaşdırıla bilən və münaqişəsiz gələcək naminə mənəvi birliyə və harmoniyaya nail olmaq, eləcə də imanın universallığını qorumaq üçün yol və imkanların axtarışı davam etdirilməlidir. Müxtəlif dinlər arasında dialoqun qurulması üçün imkanların olması, eləcə də dini liderlər arasında belə dialoqun zəruriliyinin dərk edilməsi vacibdir. Bu baxımdan, dini təhsil mühitində dinlərarası və dindaxili dialoqun genişləndirilməsi böyük əhəmiyyət kəsb edir. Xüsusilə, teoloji təhsil etnokonfessional dialoqun təhsil modelinin formalaşmasına mühüm töhfə verə və ali təhsil sistemində belə dialoqun yeni formalarına zəmin

hazırlaya bilər. Bu planın uğurla həyata keçirilməsi üçün ilk növbədə, təhsil standartlarının təkmilləşdirilməsi istiqamətində ardıcıl işlərin aparılması vacibdir. Peşəkar kadrların, milli ilahiyyatçıların, lazımi tədris materiallarının, dərs vəsaitlərinin və dərsliklərin olması, onların keyfiyyəti, müasir elmi yanaşmaya və standartlara uyğunluğu da mühüm amildir. Əsas məqsəd Azərbaycanda milli kimliyi və mədəniyyətini uğurla təmsil edən, qloballaşan dünyanın çağırışlarına cavab verə bilən, mükəmməl ixtisas, xarici dil biliklərinə yiyələnmiş və informasiya-kommunikasiya texnologiyalarının incəliklərini mənimsəmiş savadlı, sərişteli milli kadrların hazırlanmasına nail olmaqdır.

Ədəbiyyat

Anık, M. (2017). Batı'daki Doğu: Barış İçinde Birarada Yaşama Kültürü Olarak Endülüs. "Uluslararası Savaş ve Kültür" Sempozyumu, 17-19 Kasım 2017, Amasya/Türkiye, (s.45-52).

Atay, H. (1983). Osmanlılarda Yüksek Din Eğitimi Medrese Programları- İcazetnâmeler İsla-hat Hareketleri. Dergah Yayınları. İstanbul. (355 s.).

Баширов Л.А. (2011) Исламо-православный диалог как фактор гармонизации меж-религиозных отношений в России. (с.231-244).

Демидов Г.В. (2016). Светскость и религия: трансформация понятия «религиозное образование» в современном мире // Вестник РГГУ, №4 (6). М., (с. 43-60).

Esposito J. & Kalın, İ. (2015). 21.Yüzyılda Çoğulçuluk Sorunu İslamofobi. İnsan Yayınları. İstanbul. (333 s.).

Əzizova, E. (2018). Azərbaycanın orta ümumtəhsil məktəblərinin "Həyat bilgisi" dərsliklərin-də dinə baxış kvantitativ və kvalitativ təhlil. Azərbaycan İlahiyyat İnstitut. "Din araşdırmala-rı" jurnalı, № 1, (s.7 - 29).

Hasan İbrahim, H. (1987). Siyasi Dini Kültürel Sosyal İslam Tarihi. Kayıhan Yayınları. 1-6 cilt, 1. Cilt, İstanbul. (460 s.).

Heydərov,S. Qənbərov, A. və Qafarov, A. (2020.) Din və ideoloji təhlükəsizlik. Bakı, Tuna. (277s.).

Həmidullah, M. (2022). İslama giriş. Tərc. Ed.Gündüz İsamayılov, Bakı.II nəşr, (392 s.).

Xəlilov, S. (2005). Təhsil, təlim, tərbiyə. Bakı, Azərbaycan Universiteti" nəşriyyatı. (648 s.).

Xəlifə Həsən, M. (2011). Dialoq mədəniyyəti və metodologiyası. Tərc. Ed. Elvüsal Məmmə-dov, Bakı, (228 s.).

İsmayılov, G. (2014). Tolerantlıq:bildiklərimiz və bilmədiklərimiz. Bakı:Nurlar NPM. (240 s.).

İsmayılov, G. (2016). Azərbaycanda dini məsələ: təhdidlər və hə-dəflər: ideoloji, milli, ictimai təhlükəsizlik müstəvisində. Bakı. (288 s.).

Keyifl, Ş. (2013) Eğitim ve Din Eğitimi, Çukurova Üniversitesi İlahiyat Fakültesi Dergisi 13 (2), (s.103-126).

Kutub, M. (2013) Müslümanlar ve Küreselleşme. Beka Yayıncılık. İstanbul.(91 s.).

Qaralov, Z. (2003). Tərbiyə (prinsiplər, məzmun, metodika). Üç cilddə. I cild. Bakı, "Peda-qogika", (264 s.).

Qaralov, Z. (2008). İdeologiya və mənəviyyat. "Hüquq ədəbiyyatı" nəşriyyatı, Bakı.(483 s.).

Qənbərov, A. (2019). Azərbaycanda dövlət-din münasibətləri: dünyəviliyin nəzəri və hüquqi əsasları. Bakı: Nurlar NPM, (214 s.).

Мельник, С.В. (2019).Теология и межрелигиозный диалог: от полемики к сотрудни-честву // Вопросы теологии. Т.1, № 3. (с.307–333).

Məmmədov, A. (2005). Qloballaşma, islam, terrorizm. "Qloballaşan dünyada islam" möv-zusunda Beynəlxalq elmi konfransın materialları. Bakı, 30-31 may, (s.36-39).

Məmmədov, C. (2018). Azərbaycanda dövlət-din münasibətləri: tarix və müsirlik. Mənəvi Dəyərlərin Təbliği Fondu. Bakı, Tuna. (123 s.).

Məmmədəliyev, V. (2004). Müsəlman alimlərinin qloballaşmaya münasibətinə dair bəzi qeydlər. Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi. say 2, Bakı, (s. 5-9).

Məmmədəliyev, V. (2005). Qloballama və islam. "Qloballaşan dünyada islam" mövzusunda Beynəlxalq elmi konfransın materialları. 30-31 may 2005, Bakı. (s.14-15).

Муртазин, М. (2019). О системе исламского образования на постсоветском мусуль-манском пространстве // Россия и новые государства Евразии. № 2 (43), (с. 88-102).

Niyazi, M. (2015). Türk Devlet Felsefesi, Ötüken Neşriyat, İstanbul.(285 s.)

Орлов, М. (2008). Место и роль религии в глобальных процессах современности // Власть. № 4. (с. 91-95).

Özkan, F. (2019). Kültürel Çeşitlilik ve Zorunlu Din Eğitimi Üzerine Düşünceler. İlâhiyât: akademik araştırmalar yıllığı, Sayı/No: 2, Ocak-Aralık, Araştırma Makalesi/Article:(p. 37-47).

Sarıçam, İ. (2013). Həzrət Muhammməd və ümumbəşəri dəvəti. Bakı, İpəkyolu Nəşriyyatı, (488 s.).

Səmədov, E. (2009) Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması. Bakı. (170 s.).

Taştan, A. (2003). Azerbaycan'da Sosyo-Kültürel Değişme, Din ve Dinsel Canlanma. Bilig: Türk Dünyası Sosyal Bilimler Dergisi, sayı: 25, (s.1-39).

Azərbaycanda dini təhsilin formalaşması: reallıqlar və perspektivlər

f.f.d. Elnur Mustafayev,
Azərbaycan Milli Elmlər Akademiyası
akademik Ziya Bünyadov adına
Şərqşünaslıq İnstitutu Din və
ictimai fikir şöbəsinin müdiri,
Bakı, Azərbaycan
elnur.mustafayev88@mail.ru
https://orcid.org/0000-0001-9784-3466

Xülasə

İnsanla başlayan təhsil fəaliyyəti zamana, şəraitə, o cümlədən cəmiyyətlərə, dövlətlərə və ideologiyalara uyğun olaraq fərqli istiqamətlərdə inkişaf etdirilir, bütöv bir şəkildə insan həyatını əhatə edir. Nəzərə almaq lazımdır ki, inkişafın təməli olan təhsil zaman-zaman təkmilləşərək, sistemli şəkildə dövlət siyasətinin əsasını təşkil etmişdir. Başqa ifadə ilə desək, təhsil dövlətin sosial-siyasi quruluşuna uyğun olaraq təşəkkül tapmış və ona uyğunlaşdırılmışdır. Təhsil sahəsindəki bu tendensiya Azərbaycanda da tarixən siyasi və ideoloji təsirlərə məruz qalmış, fərqli istiqamətlərdə inkişaf etmişdir.

Nəzərə almaq lazımdır ki, çoxeralıq tarixə malik olan din ictimai institutlardan biridir. Dini təhsil məsələsi və bu təhsilin düzgün təşkili isə bir neçə aspektdən böyük məna kəsb edir. İnsanlara dini bilgilərin verilməsi, onların bu mövzu ilə bağlı məlumatlandırılması zəruri vəzifələrdən biridir. Başqa ifadə ilə desək, cəmiyyəti zərərli hallardan və fikirlərdən, ələlxüsus, yad dini təsirlərdən qorumağın ən optimal yollarından biri maarifləndirmədir.

Azərbaycanda dini təhsilə gəlincə, qədim dövrlərdən etibarən, müxtəlif formalarda dini təhsil fəaliyyətinin mövcud olduğunu söyləyə bilərik. Bu təhsil fəaliyyəti tarixi proseslərin inkişafına paralel olaraq, bir çox dəyişikliyə məruz qalmış, bugünkü halını almışdır.

Açar sözlər: *Din, təhsil, ənənə, əxlaq, təhlükəsizlik*

Formatıon of Religious Education in Azerbaijan: Realities and Perspectives

Ph.D. Elnur Mustafayev
Head of the "Religion and Public Opinion"
Department of the Institute of Oriental Studies
named after Z.M.Bunyadov of ANAS
Baku, Azerbaijan
elnur.mustafayev88@mail.ru
https://orcid.org/0000-0001-9784-3466

Abstract

Educational activity, which begins with a person, is developed in different directions according to time and circumstances, including societies, states and ideologies, and encompasses human life in a holistic way. It should be taken into account that education, as the foundation of development, has been improved over time and systematically formed the basis of state policy. In other words, education is organized and adapted according to the socio-political structure of the state. This trend in the field of education has developed in different directions in Azerbaijan, being historically influenced by political and ideological influences.

It should be taken into account that religion, which has a long history, is one of the social institutions. The issue of religious education and the proper organization of this education is of great importance from several aspects. Providing religious information to people and informing them about this topic is one of the necessary tasks. In other words, one of the most optimal ways to protect society from harmful situations and ideas, especially foreign religious influences, is education.

As for religious education in Azerbaijan, we can note that religious education has existed in various forms since ancient times. This educational activity has undergone many changes in parallel with the development of historical processes and has reached its current state.

Keywords: *Religion, Education, Tradition, Morality, Security*

تكوين التعليم الديني في أذربيجان: الحقائق والآفاق

د. ايلنور كريم أوغلو مصطفاييف
مدير بقسم "الدين و الرأي العام" في معهد
الدراسات الشرقية لدى الأكاديمية الوطنية الأذربيجانية للعلوم

ملخص

يتطور النشاط التعليمي، الذي يبدأ بالإنسان، في اتجاهات مختلفة وفقًا للوقت والظروف، بما في ذلك المجتمعات والدول والأيديولوجيات، ويشمل الحياة البشرية بطريقة شاملة. يجب أن يؤخذ في الاعتبار أن التعليم، باعتباره أساس التنمية، قد تحسن بمرور الوقت وشكل بشكل منهجي أساس السياسة الحكومية. بعبارة أخرى، يتم تنظيم التعليم وتكييفه وفقًا للهيكل الاجتماعي والسياسي للدولة. تطور هذا الاتجاه في مجال التعليم في اتجاهات مختلفة في أذربيجان، متأثرًا تاريخيًا بالتأثيرات السياسية والأيديولوجية.

يجب أن يؤخذ في الاعتبار أن الدين، الذي له تاريخ طويل، هو أحد المؤسسات الاجتماعية. إن قضية التعليم الديني والتنظيم السليم لهذا التعليم له أهمية كبيرة من عدة جوانب. يعد تقديم المعلومات الدينية للناس وإعلامهم بهذا الموضوع أحد المهام الضرورية. وبعبارة أخرى، فإن إحدى أفضل الطرق لحماية المجتمع من المواقف والأفكار الضارة، وخاصة التأثيرات الدينية الأجنبية، هي التعليم.

أما فيما يتعلق بالتعليم الديني في أذربيجان، فيمكننا أن نلاحظ أن التعليم الديني كان موجودًا بأشكال مختلفة منذ العصور القديمة. وقد خضع هذا النشاط التعليمي للعديد من التغييرات بالتوازي مع تطور العمليات التاريخية ووصل إلى حالته الحالية.

الكلمات المفتاحية: الدين، التعليم، التقاليد، الأخلاق، الأمن

Giriş

İbtidai icma quruluşunun parçalanması və sinfi cəmiyyətin formalaşması prosesində fərqli xalqlar arasında müxtəlif inanc və kult sistemləri yaranmış, həmçinin, sosial-iqtisadi və siyasi proseslərə uyğun şəkildə inkişaf etmişdir. Bu mərhələdə tayfa baxışlarının və kultlarının bir-birinə qarışması nəticəsində mədəniyyət və inkişaf səviyyəsinə görə, fərqli xalqlar arasında geniş fikir və inanc mübadiləsi baş vermişdir. Məsələn, maldarlıqla məşğul olan köçəri tayfaların yerdəyişməsi onların oturaq həyat tərzi sürən, əkinçiliklə məşğul olan tayfalarla toqquşmasına səbəb olur. Bu proses isə öz-özlüyündə iki fərqli mədəniyyətin təması nəticəsində yeni dini inancların meydana çıxmasına zəmin yaradır.

Tarixçilərə görə, dinsiz cəmiyyət tapmaq mümkün deyildir. Qədim yunan mütəfəkkiri Plutarxın dediyi kimi, ***"Siz Tanrısız bir insan cəmiyyəti, qurbankəsmə, andiçmə və ibadət ənənəsi olmayan, məbədsiz şəhər tapa bilməzsiniz"*** (Orucov, 2007, 29). Belə qənaətə gəlmək olar ki, bəşəriyyət tarixboyu dinə ehtiyac duymuş, onda ruhi təskinlik və mənəvi qida tapmışdır. Heç şübhə yoxdur ki, hər bir cəmiyyətin, yaxud mədəniyyətin formalaşmasında dinlər əsas element kimi çıxış edir. Dini dəyərlər fərdi və ictimai müstəvidə ali ideallar hesab edildiyindən, ətraf aləmdə baş verənləri, insanların hadisələrə münasibətini müəyyənləşdirən normalar kimi qəbul olunur. Qeyd etmək mümkündür ki, dövrümüzdə dinlər və dini düşüncə tərzi öz aktuallığını itirməmişdir. Əksinə olaraq, qarşılıqlı ictimai münasibətlərin tənzimlənməsində dini düşüncə başlıca bünövrə rolunu oynayır.

Dini məfhum və inanclar həyatın bütün – iqtisadi, siyasi, sosial, ideoloji, fəlsəfi sahələrində əsas amil kimi özünü göstərir. Belə ki, bu və ya digər şəkildə inanclar sosial-mədəni, siyasi və dini, ideoloji qrup dəyərlərini özünə meyar seçən fərdlərin, qrup və ya cəmiyyətin, hətta xalqların düşüncə və davranışlarındakı məna və məzmun yükünə qiymət verir. Bundan əlavə, dini dəyərlər bir sıra xalqlar üçün stimul və motivasiya rolunu oynayır, fərdlərə və cəmiyyətlərə təsir vasitəsi kimi çıxış edir. Odur ki, fərdi və ictimai davranışlarda dini inanc və düşüncə tərzinin şüurlu və mexaniki təzahürlərini müşahidə etmək mümkündür.

Maraqlıdır ki, Azərbaycan tarixində dini inancların sadədən-mürəkkəbə doğru inkişafını ardıcıl və sistemli şəkildə müşahidə etmək mümkündür. İlk insan məskənlərindən biri olan Azərbaycan, eyni zamanda, ibtidai dini inancların yarandığı və İbrahimi dinlərin erkən yayıldığı ərazilərdən biridir. Tarixi mənbələrin verdiyi məlumatlara və arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi faktlara əsasən, Azərbaycan ərazisində yaşayan insanların həyatında dini ayin və mərasimlərin mühüm yerə malik olduğunu qeyd etmək mümkündür. Eramızdan əvvəlki dövrə aid Qobustan qayaüstü rəsmlərinin çoxunun ayin və dini mərasimlərlə bağlılığı bu fikrin əyani sübutudur.

Tarixən və müasir dövrdə Azərbaycan müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu məkan kimi əsrlərboyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiya nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Azərbaycan ərazisində üç mühüm din – Zərdüştilik, Xristianlıq (Qafqaz Albaniyasında) və İslam dinləri mövcud olmuş, bunlar xalqımızın fəlsəfi fikrinin təşəkkülündə mühüm rol oynamışlar.

Erkən və Orta əsrlərdə Azərbaycanda din, təhsil və dini təhsilin tarixinə qısa baxış

İslamdan əvvəl Azərbaycan sosial, mədəni və dini həyat müxtəlifliyi ilə seçilmişdir. Tarixi mənbələrdən, yazılı daş abidələrdən, şifahi xalq ədəbiyyatından, dastanlardan və folklorlardan da açıq görünür ki, İslamdan əvvəl bu regionda yaşayan xalqlar çox zəngin və dərin sosial, mədəni həyat səviyyəsinə sahib olmuşlar. Tarixi tədqiqatlar nəticəsində qayalar, daşlar, dəri və digər maddi-mədəniyyət nümunələri üzərində yazılar, rəsmlər aşkar edilmişdir. Qobustandakı b.e.ə. XII-VIII minilliyə – Mezolit dövrünə aid qaya üzərindəki yazılar, rəsmlər dediklərimizi sübut edir.

İslamdan əvvəl Azərbaycan ərazisində yaşayan toplumların dini yaşayışları və inancları təbii olaraq bir-birindən fərqlənmişdir. Bu torpaqlarda yaşayan insanlarda Bütpərəstlik, Zərdüştilik, Manilik, Xristianlıq kimi dini inancların izlərini görmək mümkündür.

Azərbaycanda təhsil müəssisələrinin tarixən ən qədim dövrlərdən etibarən, məbədlər ətrafinda yerləşdiyi, əvvəlcə dini təhsilə verilən əhəmiyyətin sonralar elmin bütün sahələrinə yönəldiyi görünür. Məsələn, zərdüştilərdə məbədlərə bitişik məktəblərin olduğunu, bu müəssisələrdə rahib və kahinlərin tədris apardıqlarını, tələbələrin üstü yazılı lövhələrdə oxuyub-yazdıqlarını, teoloji dərslərlə yanaşı, təbiət, riyazi elmlərin, tibbi biliklərin də keçildiyi məlumdur (Алиев, 1989, 42).

Digər misal kimi, Şumer mədəniyyətini qeyd etmək mümkündür. Şumer mədəniyyəti sami dilində inkişaf etmişdir. O, bir tərəfdən, Misirə, digər yandan isə Anadoludan Qafqazadək yayılıb öz təsirini göstərmişdir. Mədəniyyətlər arasındakı təsirlər Qafqaz xalqlarına nüfuz etmişdir. Bütün sahələrdəki təsirlər bu bölgələrdə təhsil sahəsində də öz əksini göstərmişdir. Şumer dilində Anadoluda tapılan yazılı tabletlər bu coğrafiyada təhsilin nə qədər geniş vüsət aldığını sübut edir.

Azərbaycanın Xristianlıq tarixində təhsil məsələsi xüsusi yerə malik olmuşdur. Xristianlığın burada yayılmasında böyük rolu olmuş apostol Faddey xristian təlimlərinin tədrisi ilə ibtidai formada məşğul olmuşdur (Алиев, 1992, 67). İlk dövrlərdə təhsil inşa edilmiş kilsələrin daxilində və yaxud dini ayinlərin həyata keçirilməsi üçün nəzərdə tutulmuş məbəd-komplekslərində verilirdi. Buna misal olaraq, Kəlbəcər rayonunun Vəng qəsəbəsində yerləşən Xudavəng monastırını qeyd etmək olar. Belə ki, adını çəkdiyimiz monastır bir neçə kilsədən və yaxınlığında yerləşən hücrələrdən ibarətdir. Bu dini məbəddə dini

ayinlərin icrası ilə yanaşı, xristian dini və təlimlərinin tədrisi də təşkil edilirdi.

Azərbaycanda dini təhsil sahəsində sistemli və ardıcıl fəaliyyət daha çox İslamın yayılmasından sonra genişlənmişdir. İslamın yayıldığı ilk illərdə məscidlər təhsil məscidləri kimi bu funksiyanı yerinə yetirirdi. Bəzi məscidlərin yanında VII-VIII əsrlərdə Quran təlimi ilə məşğul olan "küttab"ların açıldığı da məlumdur. Bu mərkəzlərin əsas məqsədi Quranın düzgün şəkildə oxunmasını və yeni dinlə bağlı ibtidai bilgiləri sürətli şəkildə öyrətməkdən ibarət idi.

Orta əsrlər sosial, mədəni və dini yaşayış baxımından Azərbaycan tarixində əhəmiyyətli yerə sahibdir. Tarixi qaynaqlarda Bakı, Şamaxı, Gəncə, Bərdə, Təbriz, Urmiya və digər şəhərlərin iqtisadi, siyasi, mədəni cəhətdən inkişaf etdiyi, öz dövrünün elm və təhsil mərkəzlərinə çevrildiyi haqqında kifayət qədər məlumatlar vardır.

Məşhur ərəb coğrafiyaşünas alimi İbn Hövqəl yazırdı: *"Bərdə şəhərinə gəldikdə bura aranın anası və bu yerlərin ən gözəlidir. Rey və İsfahandan sonra isə ən böyük şəhəridir" (*Bünyadov, 1994, 237). Bununla bərabər, Dərbənd, Şamaxı, Qəbələ, Şəki, Gəncə, Təbriz, Ərdəbil kimi ticarət, elm şəhərləri də mövcud idi. Əbu Duləf 952–953-cü illərdə Azərbaycanı gəzərək buradakı çaylar, göllər, dağlar, şəhərlər, Dinavərdə və Şiz yaxınlığında çıxarılan qızıl, gümüş və digər mədənlər barədə məlumat vermişdir.

Azərbaycanda, xüsusilə Atabəylər, Şirvanşahlar və Səfəvilər dövründə elm, sənət, ədəbiyyat çox yüksək inkişaf etmişdir. Məşhur Azərbaycan tarixçisi və ziyalısı Bakıxanov X–XVII əsrləri çiçəklənmə dövrü adlandırmışdır (Baklxanov, 2001, 64-65).

Orta əsrlərdə Azərbaycanda təhsil fəaliyyəti daha da genişlənmiş və İslam dünyasına böyük dahilər ərməğan etmişdir. Bunlardan Qətran Təbrizi (Nizamiyyə mədrəsəsinin rəhbərlərindən), Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Füzuli kimi dünya ədəbiyyatında tanınmış dahi şairləri, həmçinin fəlsəfə elminin Azərbaycanda yayılmasında Əbülhəsən Bəhmənyar ibn əl-Mərzban əl-Azərbaycanini, İbn Sina fəlsəfəsinin davamçılarından Nəsirəddin Tusi, Şəhabəddin Yəhya Sührəvərdini misal göstərə bilərik.

Səlcuqluların və onlardan meydana gələn dövlətlərin mədəniyyət tarixində ən böyük xidmətləri, şübhəsiz, İslam dünyasının hər tərəfinə məscid, mədrəsə, kitabxana, tibb məktəbləri, xəstəxana, imarət, zaviyə, karvansaralar inşa edərək bu yerləri təmənnasız vəqf etmələri olmuşdur. Bir elm ocağı olaraq mədrəsələrin dövlət əli ilə təşkilatlanması, təhsilin yüksək səviyyədə olması və İslam dünyasına

yayılması burada qurulan dövlətlərin əsas diqqət mərkəzində idi. Mədrəsələrdə slam elmlərlə yanaşı, fəlsəfə, riyaziyyat, tibb kimi dəqiq sahələr də tədris edilirdi.

Məşhur osmanlı səyyahı Övliya Çələbi "Səyahətnamə" əsərində qeyd edirdi ki, 1674-cü ildə Şamaxı şəhərinə səfər edərkən orada 7 mədrəsə, 47 məhəllə məktəbi fəaliyyət göstərirmiş. Həmin illərdə Təbriz şəhərində isə 600 məhəllə məktəbi, 47 mədrəsə mövcud imiş (Çələbi, 1985, 466-471). Digər mənbələrdə də Azərbaycanın müxtəlif şəhərlərində elm mərkəzləri və mədrəsələrin fəaliyyət göstərməsi haqqında məlumatlara rast gəlmək mümkündür.

Elm, təhsil və din təhsilinin təşkili tendensiyası Azərbaycan tarixinin sonrakı dövrlərində də inkişaf etmişdir. Xanlıqlar, daha sonra Cümhuriyyət (1918–1920) dövrlərində təhsil, təlim-tərbiyə işləri, xüsusilə dini təhsil diqqət mərkəzində olmuşdur (Hüseynov, 2023, 18-24).

Müstəqillik əldə edildikdən sonra dini təhsil məsələsi: reallıqlar və perspektivlər

Müstəqillikdən sonra Azərbaycanda dini təhsil məsələsinə toxunmamışdan əvvəl qısa şəkildə Cümhuriyyətin süquqtu və Sovet İttifaqının işğalından sonra din və dini təhsillə bağlı qəbul edilmiş qərarlar haqqında söhbət açmaq məqsədəmüvafiq olardı.

Sovet İttifaqında 1929-cu ildən etibarən, din əleyhinə təzyiqlər artdığından, Azərbaycanda yüzlərlə məscid bağlanır, dağıdılır, yaxud kino-klublara və anbarlara çevrilirdi. Sovet işğalından əvvəl Azərbaycanda 3000-dən artıq məscid fəaliyyət göstərdiyi halda, 1930-cu illərin axırlarında cəmi 17 məscidin fəaliyyətinə icazə verilmişdi.

Məktəblərdə və mədrəsələrdə 1920-ci ilin mayından başlayaraq, dini inancların öyrədilməsi, ibadətlərin və digər dini ayinlərin icrası qadağan edilir. Məktəblərdə, məscidlərin nəzdində fəaliyyət göstərən mədrəsələrdə, hətta şəxsi ev və mülklərdə belə, dini təlim-tədris yasaq olunmuşdu.

Ümumiləşdirsək, 70 illik sovet dövründə dini fəaliyyət, o cümlədən dini təhsil çox məhdud çərçivədə həyata keçirilmişdir. Bu mərhələdə dinlə bağlı bütün fənlər məktəb proqramlarından çıxarılır, təlim-tədris prosesi marksizm-leninizm ideologiyası üzərində həyata keçirilməyə başlayır. Sovet rejiminin sərt və dönməz siyasəti din xadimlərinin, mədrəsə müəllimlərinin repressiyaya məruz qalması ilə nəticələnir (Orucov, 2012, 166-170). Bütövlükdə, Sovet İttifaqı ərazisində İslam

dininin tədrisi üzrə yalnız Özbəkistanda “Mirərəb” mədrəsəsini və Daşkənd İslam İnstitutunu qeyd etmək olar. Azərbaycanın daxilində isə dini tədrislə məşğul olan mədrəsələr və ali məktəblər qanuni şəkildə mövcud deyildi. SSRİ-nin müsəlman əhalisi, o cümlədən azərbaycanlılar dini elmləri öyrənmək üçün yuxarıda qeyd etdiyimiz mərkəzlərə üz tuturdular.

SSRİ-nin dağılması ilə dövlət müstəqilliyinə qovuşmuş Azərbaycan Respublikasında demokratik cəmiyyətin formalaşdırılması istiqamətində meydana çıxmış bir sıra problemlər sosial-mədəni sahədə daha aydın hiss edilirdi. Belə ki, ölkə ziyalılarının, alim və tədqiqatçıların qarşısında keçmiş ideoloji məngənədən qurtularaq milli özünüdərk şüurunun formalaşması vəzifəsi dururdu. Əlbəttə, bu qısa dövr ərzində müəyyən uğurların əldə olunmasına baxmayaraq, cəmiyyətin davamlı inkişafı naminə müxtəlif sahələrin sistemli tədqiqi və təhlili özünü göstərməkdə idi.

Müasir Azərbaycan cəmiyyəti qarşısında duran vəzifələrdən biri də şübhəsiz, din sahəsidir. Müstəqilliyini qazanmış ölkəmiz qısa müddətdə milli-mənəvi dəyərlərinə sarılmış, bu sahələrdəki bütün boşluqları doldurmağa çalışmışdır.

Azərbaycan qloballaşan dünya ilə ayaqlaşmağa çalışaraq, bir çox sahədə uğurlar qazanmışdır. Heç şübhəsiz, din sahəsində də bir sıra mühüm addımlar atılmışdır. Ölkəmizin milli adətlərinə, dini yaşam tərzinə, əsrlərlə davam edən xalqın ruhuna hopmuş mənəvi dəyərlərinə yenidən müraciət etməsi təbii proses idi.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra dövlət-din münasibətlərinin qurulmasında yeni mərhələ başlayır. Məlum olduğu kimi, ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdığı dövrdə ölkəmizdə bir çox sahələrdə olduğu kimi, dini fəaliyyət istiqamətində də ciddi gərginlik müşahidə olunurdu. Ulu Öndər siyasi hakimiyyətə gəldikdən sonra, din sahəsində gərginliyin azaldılması, dini durumun sabitliyinin qorunması, dövlət-din münasibətlərinin tənzimlənməsi və radikal qruplaşmaların fəaliyyətinin qarşısının alınması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilirdi.

Məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, Azərbaycan Respublikasının Konstitusiyasına dini etiqad azadlığı ilə bağlı bir sıra mühüm müddəalar daxil edildi. Azərbaycan əhalisinin böyük əksəriyyətinin müsəlman olmasına baxmayaraq, qonşu dövlətlərdən fərqli surətdə, ölkə Konstitusiyasında bütün dinlərin bərabərhüquqlu, hər bir vətəndaşın vicdan və etiqad azadlığının təmin olunduğu xüsusi qeyd edilirdi. Bu müdrik və uzaqgörən münasibət “Dini

etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa 1996 və 1997-ci illərdə edilmiş mühüm dəyişikliklərdə də özünü açıq surətdə göstərirdi. Beləliklə, Azərbaycanda dövlət-din münasibətlərində yeni mərhələnin əsası qoyuldu, dövlətin din sahəsinə, icmalara qayğısı daha da artdı.

Qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyevin yürütdüyü bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, bir sıra istiqamətlərdə müasir çağırışlara uyğun daha da genişləndirilmişdir.

Müstəqillik illərində din sahəsində rəsmi şəkildə tədris olunan təhsilə gəlincə, Bakı İslam Universitetini və Bakı Dövlət Universitetinin (BDU) İlahiyyat fakültəsini qeyd etmək olar. Bakı İslam Universiteti 1989-cu ildə ölkədə ilk rəsmi dini tədris müəssisəsi kimi yaradılmış, iki il fəaliyyət göstərmiş Bakı İslam Mədrəsəsinin bazası əsasında yaradılmışdır.

BDU-nun İlahiyyat fakültəsi 1992-ci ildən fəaliyyətə başlamışdır. Beşillik təhsil verən fakültədə dini fənləri Türkiyə Cümhuriyyəti Dəyanət İşləri Vəqfinin göndərdiyi ixtisaslı müəllimlər, xarici dil və digər humanitar fənləri isə yerli mütəxəssislər tədris edirdilər. Son illərdə isə bütün fənləri yerli mütəxəssislər tədris etmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin bazası əsasında Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) yaradılmışdır. Sərəncamda da qeyd olunduğu kimi, İnstitutun yaradılmasının əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

Azərbaycan İlahiyyat İnstitutunda 1 fakültə (İlahiyyat), 3 kafedra (Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai elmlər) mövcuddur. Ali təhsil müəssisəsində tədris Azərbaycan dilində həyata keçirilir.

Yeni yaradılmış İnstitutda ali təhsilin hər üç pilləsi – bakalavr, magistratura və doktorantura mövcuddur. Aİİ-də magistratura səviyyəsi üzrə kadr hazırlığı "Dinşünaslıq" ixtisasının "İslamşünaslıq", "Dinin sosiologiyası", "Dinin psixologiyası", "Dinlərin tarixi", "Dinin fəlsəfəsi" ixtisaslaşmaları əsasında aparılır. İnstitutda, həmçinin "Dinşünaslıq" və "Dinin tarixi və fəlsəfəsi" ixtisasları üzrə doktorantura təhsili mövcuddur.

Dövlət tərəfindən həyata keçirilmiş bu əməli tədbirlər milli mövcudluğumuz, milli təhlükəsizliyimiz baxımından böyük əhəmiyyət kəsb edir. Dinin fərdin və cəmiyyətin həyatında mühüm yer tutduğunu nəzərə alsaq, dini təhsilin əhəmiyyəti bir daha aydın olur. Din bizim istəyimizdən asılı deyil, o, mövcud olan fenomendir. İradəmiz xaricində mövcud olan bu fenomeni mənalandırmaq üçün dini təhsil zəruridir. ABŞ, Almaniya, İngiltərədə başqa dinlər seçmə şəkildə öyrədilsə də, hesab edirəm, bu mənada Azərbaycanın özünəməxsusluğu olmalıdır. Azərbaycandakı ənənəvi dindarlıq multikultural anlayışa əsaslanır.

Din mənəviyyatla yanaşı, eyni zamanda, təhlükəsizlik məsələsidir. Cəmiyyətdə din haqqında təsəvvürü olmayan birini tez bir zamanda təsir altına salmaq, həmçinin başqa məqsədlər naminə istifadə etmək mümkündür. Bu baxımdan, doğru və zamanın reallıqları ilə çulğalaşan dini biliklərə sahib olan, əldə etdiyi savadla özünə və cəmiyyətə faydalı olan, tədqiqatları ilə elmə töhfə verən, din sahəsində ictimai şüurun formalaşmasında aktiv rol oynayan ilahiyyatçıların hazırlanması mühüm vəzifədir. Hər bir ölkənin fərqli dini mühiti və strukturu olduğundan, dini təhsil sahəsində metod və üslublar da müxtəlifdir. Azərbaycanın dini mühiti ilə başqa dövlətin dini ab-havasında müxtəlifliklərə rast gəlmək olar. Bu nöqteyi-nəzərdən dini kadr hazırlığında bu amil nəzərə alınmalıdır.

Nəticə

Müasir dünyada beynəlxalq münasibətlər çərçivəsində cərəyan edən hadisələr bir daha sübut edir ki, din və dəyərlər yalnız inanc və mənəviyyat məsələsi deyil, eyni zamanda, ictimai-siyasi hadisələrin tənzimlənməsində, ölkələrarası əlaqələrin qurulmasında müstəsna rol oynayır. Bununla yanaşı, sekulyar dövlətlərdə dinin və əxlaqi dəyərlərin funksiyası və yeri, həmçinin qloballaşmanın genişləndiyi bir dövrdə dövlət və din arasında münasibətlərin müəyyən edilməsi ən aktual problemlərdən birinə çevrilmişdir. Digər problem isə qloballaşma prosesində dövlətçiliyin və cəmiyyətin inkişafına xidmət edəcək formada milli adət-ənənələrin və dini dəyərlərin mühafizəsi məsələsidir.

Din təhsili və milli dini kadrların hazırlanması isə aktual problemlərdən biri kimi böyük əhəmiyyət kəsb edir. İnsanların dini düşüncəsinin sağlam müstəvidə və milli-mənəvi dəyərlərimizə uyğun şəkildə formalaşdırılması üçün milli kadrlarımızı yetişdirmək zəruridir. Həmin kadrlar din xadimi və ya mütəxəssis kimi fəaliyyət göstərərkən, Azərbaycanın milli dövlətçilik maraqlarını nəzərə almalı, vətənpərvərlik

ruhunu rəhbər tutmalı, milli-mənəvi dəyərlərimizin keşiyində durmalı, İslam dininin insanlara olduğu kimi çatdırılmasında aparıcı qüvvəyə çevrilməli, xurafat və dini radikalizmlə barışmaz mübarizə ortaya qoymalıdırlar.

Ədəbiyyat

İsgəndərov, A., Mövlayi, A. (2016). Şeyxülislamlığın tarixi. Bakı: Elm və təhsil. (447 s.).

Hüseynov, S. (2023). Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu. Bakı: Tuna. (265 s.).

Orucov, H. (2012). Azərbaycanda din ən qədim dövrdən bu günədək. Bakı: CBS. (388 s.).

Bakıxanov, A. (2001). Gülüstan-i İrəm". Bakı: Mömin. (170 s.).

Bünyadov, Z. (1994). Azərbaycan tarixi. Bakı: Dövlət nəşriyyatı, 1994. (495 s.).

Masse, A. (1992). İslam. – Bakı: AEBR. (256 s.).

Алиев, К. (1992). Античная Кавказская Албания. Баку: Азернешр, (238 s.).

Алиев, И. (1989). Очерк истории Атропатены. Баку: Азернешр, (160 s.).

Aydın, M. (2015). Dinler tarihine giriş. Konya: Din bilimleri yayınları, (320 s.).

Çelebi, E. (1985). Seyahetname. İstanbul: Üçdal, (529 s.).

XIX əsrdə Şuşa şəhərində mədrəsə təhsilinin inkişaf tarixi

t.f.d. Əlizadə Nəcəfov,
Azərbaycan Respublikası
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
Qarabağ və Şərqi Zəngəzur regional
bölməsinin müdiri
Ağcabədi, Azərbaycan
elizade.necefov@bk.ru
https://orcid.org/0009-0003-5078-4392

t.f.d. Anar Kərimli,
Azərbaycan Dövlət Pedoqoji Universiteti
Ağcabədi filialının baş müəllimi
Ağcabədi, Azərbaycan
kerimli _ anar@mail.ru
https://orcid.org/0000-0002-6118-5526

Xülasə

Məqalədə Azərbaycanın Şuşa şəhərində dini təhsil üzrə orta ixtisasın inkişaf tarixindən bəhs olunur. Şuşa şəhəri XIX əsrdə mədəniyyət mərkəzi olmaqla yanaşı, həm də əsas dini məkana çevrilmişdi. Burada inkişaf etmiş dini mühitin tərkibində təhsilin inkişafına xüsusi diqqət yetirilirdi ki, bunun da nəticəsində şəhərdə çoxsaylı mollaxanalar və mədrəsələr fəaliyyət göstərirdi. Məqalədə mədrəsələrin inkişafından, həmçinin vəqf mülklərinin təsirindən bəhs olunur, bu təhsil ocaqlarının fəaliyyətində Gövhər ağa vəqfinin əhəmiyyəti xüsusi qeyd edilir. Həmçinin mədrəsələrin maddi-mənəvi təminat bazasında Gövhər ağa vəqfinin rolu vurğulanır. Yazıda göstərilir ki, Şuşada təkcə mollaxana və mədrəsələrin deyil, həm də şəhərdəki mədəni-maarif işinin, elm, təhsil və ədəbiyyatın inkişafında Gövhər ağanın xüsusi xidmətləri olmuşdur. Onun himayəsində olan bütün tədris ocaqlarında oxuyanların və təhsil verənlərin xərclərinin tam olaraq Gövhər ağanın şəxsi vəsaiti vasitəsilə ödənilməsi də məqalədə qeyd edilir.

Yazıda, eləcə də qeyd olunur ki, Azərbaycan XX əsrin əvvəllərində Çar Rusiyası tərəfindən işğal olunduqdan sonra, mədrəsələrin fəaliyyəti məhdudlaşdırılmış, Sovet hakimiyyəti illərində isə Şuşada bütün dini məktəblər bağlanmışdır. Məqalədə yeri gəldikcə həmin dövrdə Qarabağda fəaliyyət göstərmiş digər təhsil məkanlarından – Veysəlli, Tumaslı, Beytülədəb, Mollabürhan və Bağırbəyli mədrəsələrindən, orada dini təhsilin təşkilindən, məzmunundan bəhs olunur. Sözügedən dövrdə şəhərdə mədrəsə şəbəkəsi ilə yanaşı, molla və ailə məktəblərinin fəaliyyətinə az da olsa, nəzər salınmışdır.

Məqalədə, həmçinin Qarabağ erməni işğalından azad olunduqdan sonra, yəni 2020-ci ildən indiyədək Şuşada vaxtilə dini təhsilin həyata keçirildiyi Yuxarı və Aşağı Gövhər ağa, o cümlədən, digər məhəllə məscidlərinin təmiri, bərpası və yenilərinin tikilməsi məsələlərinə də toxunulur.

Müəlliflər hesab edirlər ki, XIX əsrdə Şuşada fəaliyyət göstərmiş mədrəsələrin tarixinin öyrənilməsi Azərbaycan pedaqoji fikir tarixinin, xüsusilə onun məktəbşünaslıq sahəsinin ayrılmaz tərkib hissəsidir və bundan sonra da onun öyrənilməsinə daha geniş yer vermək məqsədəuyğundur.

Açar sözlər: *tarix, dini təhsil, mədrəsə, İslam, vəqf, Gövhər ağa.*

The History of the Development of Madrasah Education in Shusha in the 19th Century

Ph.D., Alizadeh Najafov
Head of the Karabakh and East Zangezur regional division,
State Committee on Religious Associations of
the Republic of Azerbaijan
Agjabadi, Azerbaijan
elizade.necefov@bk.ru
https://orcid.org/0009-0003-5078-4392

Ph.D., Anar Karimli
Head teacher of Agjabadi branch of ADPU
Agjabadi, Azerbaijan
kerimli _ anar@mail.ru
https://orcid.org/0000-0002-6118-5526

Abstract

The article talks about the history of the development of secondary religious education in the city of Shusha, Azerbaijan. In the 19th century, the city of Shusha became a cultural center as well as a religious center. As part of the developed religious environment here, special attention was paid to the development of religious education, and as a result, numerous mollakhanas and madrasahs functioned in the city. The influence of waqf properties in the development of madrasahs is also discussed. The importance of the Göhar Agha foundation in the activities of these madrasas was specially mentioned, and it was emphasized that it played the role of the material and moral support base of the madrasas. It has been shown that Govhar Agha made special contributions to the development of not only mollakhanas and madrasahs, but also cultural and educational work, science, education and literature in Shusha. It is also mentioned here that all the expenses of the students and teachers of all educational institutions under his care are paid through the personal funds of Govhar Agha.

From the beginning of the 20th century, after the occupation of Azerbaijan by Tsarist Russia, there is talk of limiting the activities of madrasas, and during the years of Soviet rule, all religious schools in

Shusha were closed. In the article, the organization of religious education and the content of education were mentioned in the article about other madrasas that operated in Karabakh during the mentioned period - Veysalli, Tumasli, Beytuladab, Mollaburhan and Bagirbeyli madrasas. In the mentioned period, the activities of mullah schools and family schools, along with madtasa network in the city, have been looked at a little.

The article also touched on the issues of repair, restoration and construction of the Upper and Lower Govhar Agha mosques, where religious education was carried out in Shusha, as well as other neighborhood mosques, after the liberation of Karabakh from the Armenian occupation, that is, from 2020 until now.

The authors believe that the study of the history of the madrasahs that operated in Shusha in the 19th century is an integral part of the history of Azerbaijani pedagogical thought, especially its field of school studies, and it is appropriate to give a wider place to its study in the future.

Keywords: *history, religious education, madrasah, Islam, foundation, Govhar Agha.*

История развития образования в медресе в Шуше в XIX веке

д.ф.и. Ализаде Наджафов,
руководитель Карабахского и Восточно-Зангезурского районного отдела Государственного комитета Азербайджанской Республики по работе с религиозными образованиями
Агджабеди, Азербайджан
elizade.necefo@bk.ru
https://orcid.org/0009-0003-5078-4392

д.ф.и. Анар Керимли,
Старший преподаватель Агджабединского филиала АДПУ
Агджабеди, Азербайджан
kerimli _ anar@mail.ru
https://orcid.org/0000-0002-6118-5526

Резюме

В статье рассказывается об истории развития среднего религиозного образования в городе Шуша, Азербайджан. В 19 веке город Шуша стал не только культурным, но и религиозным центром. В рамках развитой религиозной среды здесь особое внимание уделялось развитию религиозного образования, в результате чего в городе функционировали многочисленные моллаханы и медресе. Обсуждается также влияние свойств вакфа на развитие медресе. Особо было отмечено значение фонда «Гохар-ага» в деятельности этих медресе, подчеркнуто, что он сыграл роль материальной и моральной опорной базы медресе. Показано, что Говхар-ага внес особый вклад в развитие не только моллахан и медресе, но и культурно-просветительской работы, науки, образования и литературы в Шуше. Здесь также отмечается, что все расходы учащихся и преподавателей всех подведомственных ему учебных заведений оплачиваются за счет личных средств Говхар-аги.

Говорят, что с начала 20 века, после оккупации Азербайджана царской Россией, в годы советской власти медресе были закрыты,

а все религиозные школы в Шуше закрыты. В статье были упомянуты организация религиозного образования и содержание образования о других медресе, действовавших в Карабахе в указанный период - медресе Вейсаллы, Тумаслы, Бейтуладаб, Моллабурхан и Багирбейли. В указанный период мало изучена деятельность школ мулл и семейных школ, а также сети мадтаса в городе.

В статье также затронуты вопросы ремонта, реставрации и строительства мечетей Верхней и Нижней Говхар-аги, где осуществлялось религиозное образование в Шуше, а также других окрестных мечетей, после освобождения Карабаха от армянской оккупации, то есть , с 2020 года по настоящее время.

Авторы полагают, что изучение истории медресе, действовавших в Шуше в XIX веке, является неотъемлемой частью истории азербайджанской педагогической мысли, особенно ее школьной области, и уместно уделить более широкое место ее изучению. учиться в будущем.

Ключевые слова: *история, религиозное образование, медресе, ислам, фонд, Говхар-ага.*

Giriş

İslam dini Azərbaycan ərazisində yayıldıqdan sonra, bu sahədə görülən ilk işlərdən biri də dinin əhali arasında təbliği və təşviqi olmuşdur. Sonrakı dövrlərdə bu sahədə çoxəsrlik ənənələr yaranmağa başlanmışdır. Çar Rusiyası dövründə isə bu sahə də siyasiləşdirilmiş və çarizmin ucqarlardakı siyasətinə uyğunlaşdırılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövrü istisna olmaqla, sonrakı 70 illik sovet rejimi bu sahəyə qəti qadağalar qoymuş, mollaxanalar, mədrəsələr, məscidlər bağlanmış, din xadimləri repressiyalara məruz qalmışlar. Qeyd edək ki, həmin dövrdə Allahsızlar təşkilatı yaradıldı, ateizm isə bir fənn kimi ali və orta ixtisas təhsili müəssisələrində tədris olunmağa başlandı.

Müasir dövrdə Azərbaycanda sosial mühitin tərkib hissələrindən biri olan dini təhsil infrastrukturunda baş vermiş islahatlar, həm də onu

fasiləsiz olaraq tədqiq etməyi zəruri etmişdir. Modernləşdirmə müasir cəmiyyətin bütün sahələrində olduğu kimi, dini təhsilin də daha səmərəli qurulmasını şərtləndirən əsas amillərdəndir.

Müasir dövrdə isə mövcud dini təhsilin beşiyi başında duran mədrəsə təhsilinin araşdırılması varislik baxımından çox önəmlidir. Bu məqalədə, hesab edirik ki, regional dini tədqiqatların aktual istiqaməti olaraq dini təhsil tarixinin öyrənilməsi daha ciddi səciyyə daşımaqdadır. Respublikada mütərəqqi iqtisadi regionlaşdırma siyasəti ölkənin sosial-iqtisadi, elmi-mədəni və digər sahələrində inkişafın daha da yüksəldilməsinə xidmət edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən iqtisadi regionlaşdırma siyasəti strategiyasında elmin, təhsilin, mədəniyyətin tarixinin və mövcud vəziyyətinin öyrənilməsi də mühüm yer tutur (Əliyev, 2004, 4).

Azərbaycan təhsil tarixinin inkişafına tarixi ekskursiya etdikdə bəlli olur ki, tarixən onun tərkib hissəsi olan dini təhsil, dini ədəbiyyat nəşri, dini təhsilli kadr hazırlığı, adlandırılmaları müxtəlif olsa da (mollaxana, dini kurslar, mədrəsə və s.) bəhs olunan dövrdə Azərbaycanda öz spesifik ənənələri ilə mövcud olmuşdur.

Tədqiqatçı G.İsmayılov Azərbaycanda dini təhsilin inkişaf tarixindən bəhs edərkən doğru qeyd edir ki, “XX əsrin əvvəllərində Azərbaycan coğrafiyasında da dini bilgilər ilkin ibtidai təhsilin əsasını təşkil edib, dini ehkamların tədrisi dünyəvi fənlərlə bərabər aparılıb və İslam dininin mütərəqqi prinsipləri elmi biliklərin inkişafını təşviq edib. Müxtəlif bölgələrdən olan və ilk dini təhsilini öz vətənlərində alan çoxsaylı azərbaycanlı yüksək elmi dərəcələrə çatıb, dövrünün görkəmli din alimi kimi tanınıb” (İsmayılov, 2016, 98).

XIX əsr Şuşa mədrəsələri

Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Qarabağ ölkə elminin, təhsilinin, musiqisinin inkişaf etdiyi qədim bölgələrdən biri və bütövlükdə mədəniyyət mərkəzi olmuşdur. Hesab edirik ki, ölkəmizdə dini təhsilin müasir vəziyyətini araşdırarkən mütləq Qarabağ bölgəsində tarixən mövcud olmuş dini durumdan, təhsildən, onun tarixindən, inkişaf yollarından və gələcək perspektivlərindən bəhs etmək zərurətə çevrilmişdir. Azərbaycan ruhaniliyi Qarabağ xanlığı dövründə mədəni-mənəvi cəhətdən xüsusi rola malik olmuşdur. Müsəlman ruhaniliyinin dövlət idarəçiliyində iştirakı cəmiyyətin həyatındakı yeri və rolu ilə bağlı

idi. Ümumiyyətlə, xanlıqlar dövründə ruhanilər, əsasən, xanlıqlardan asılı vəziyyətdə olmuşlar.

İndiyədək bu sahədə aparılmış tədqiqatlardan məlum olur ki, dini mədrəsələrdə Quran və bəzi hallarda osmanlı dilində oxuyub-yazmaqdan savayı bir şey tədris edilməmişdir. 1875-ci il məlumatlarına görə məlum olur ki, xanlığın mərkəzi şəhəri olan Şuşada 3 sinifli məktəbdə 70 azərbaycanlı uşaq təhsil alırdı. Mollaxanalarda iisə işlər acınacaqlı bir vəziyyətdə idi. Şuşada isə ibtidai məktəblərdə cəmi 42 azərbaycanlı şagird təhsil alırdı (Tağıyev, 1993,77).

Azərbaycanın məktəb tarixində mollaxana və mədrəsələrin böyük rolu olmuşdur. Bəhs olunan dövrdə mərkəzi şəhərlərdə və bölgələrdə yaradılan xeyriyyə cəmiyyətlərinin nəzdində açılan məktəb və qiraətxanalar da təhsilin inkişafına müsbət təsir... etmişdir.

Azərbaycanda XIX əsrdə məktəb də mədrəsə təhsili ilə sıx bağlı olmuşdur. Mədrəsələrdəki təhsil isə ilk növbədə, ərəb və fars təhsil sistemi ilə bağlı idi. Azərbaycanda VII əsrdən başlayaraq yeganə təhsil ocaqları olmuş mollaxana və sonrakı dövrlərdə açılmış mədrəsələr XIX əsrdə ölkədə geniş yayılmış və onun şəbəkəsi formalaşmışdır. Bu dövrdə müsəlman məktəbləri tip etibarilə iki dərəcəyə bölünmüşdür. Onlardan biri "məktəb", digəri isə "mədrəsə" adlanırdı. Məktəb mahiyyətcə aşağı, mədrəsə isə yuxarı dərəcə hesab olunurdu. Məktəb, bir növ, mədrəsəyə hazırlıq rolu oynayırdı. Aşağıdərəcəli məktəblər, əsasən, Azərbaycanın bütün böyük və kiçik kəndlərində mövcud idi (Əhmədov,1986, 222).

Məlum olduğu kimi, "məktəb və mədrəsə" ərəb sözləridir, "yazmaq" sözündən olub, "yazı yazılan yer" deməkdir. Digəri isə "dərs" sözündən olub, "dərs keçilən yer" mənasını bildirir. Əksər hallarda xalq arasında hər ikisi "məktəb", yaxud "mollaxana və mədrəsə" adlanırdı. Elə mədrəsələr də var idi ki, dərs keçən mollalar oradakı digər otaqlarda yaşayırdılar. Şuşa mədrəsələrində və əsasən, onların nəzdində olan məktəb-mollaxanaların hər birində dərslərin təşkili, keçirilmə vaxtı və təhsil müddəti fərqli idi. Belə ki, məktəblərdə dərs ilinin başlanması və qurtarmasının dəqiq vaxtı yox idi. Məktəbə qəbul il ərzində davam edirdi, dərs cədvəli tərtib edilmirdi, dərslər, adətən, səhər saat 7-8-də başlayıb, gündüz 2-3-ə kimi davam edirdi. Məktəblərdə 7-8 yaşdan 16-ya qədər yaşı olanlar, mədrəsələrdə isə 16-17 yaşdan 30- a qədər və daha çox yaşı olanlar oxuyurdular (Əhmədov, 1986, 223).

Şuşada XIX əsrin birinci yarısında artıq dini təhsil mühiti formalaşırdı. Şəhərdə ruhanilərin sayı 1198, mollaların sayı 168, məscidlərin sayı isə 41-ə çatmışdı (Hüseyinli, 2002, 258-259).

Azərbaycanın hər yerində olduğu kimi, Şuşada da, mollaxanadan fərqli olaraq, mədrəsə binaları, adətən, xeyli böyük olub, iki və üçmərtəbəli daş binalarda yerləşirdi. Məktəblərdən fərqli olaraq mədrəsələr, əsasən, şəhərdəki böyük məscidlərin – Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı və digər məscidlərin binasında yerləşirdi. O dövrün hesabatlarından bəlli olur ki, mədrəsələr məscid məktəbləri ilə birlikdə hesaba alındığından, onların dəqiq sayını bir-birindən ayırmaq olmur. Məsələn, 1895-ci ildə Şuşa şəhərindəki ruhani məktəblərinin binası "məktəb-mədrəsə" kimi qeydə alınmışdır (Əhmədov, 1986, 245). Buna görə də bunları bir-birindən ayırd etmək çətinlik yaradır.

Şuşadakı məscidləri məktəblərdən (mollaxanalardan) ayıran cəhətlərdən biri də mədrəsələrdə yataqxananın olması idi. Mədrəsədə işləyən müəllimlərin hamısı ruhani şəxslər idi, təlim fərdi və kollektiv xarakter daşıyırdı. Məktəbdə dərs deyən müəllim "molla", "mirzə" və "axund" adlandırılırdı. Bu şəxslər əhali arasında savadlı adamlar hesab olunurdular. Ona görə də valideynlər "əti sənin, sümüyü mənim" prinsipinə əsaslanıb, övladlarının təlim-tərbiyəsini bütünlükdə mollanın öhdəsinə verirdilər. Məktəblərin tədris işinə "molla köməkçiləri" adlanan müəllimlər də təyin olunurdular. Əgər mollaxanada şagirdlərin sayı 30-a çatırdısa, müəllim özünə köməkçi tuturdu. Bu köməkçilər "xəlifə" adlanırdı. Xəlifə, adətən, həmin məktəbi bitirmiş, fərqlənən məzunlardan seçilirdi. Xəlifəyə müəllim tərəfindən həftədə 30 qəpik və ya 1 manat zəhməthaqqı verilirdi.

Şuşanın mədrəsə məktəblərində bütün mollaların, müdərris, dərs deyən axundların, xəlifələrin, xidmətçilərin, tədrisə bağlı olan bütün işçilərin zəhməthaqqı Gövhər ağanın şəxsi vəsaiti hesabına ödənilirdi.

Azərbaycanın hər yerində olduğu kimi, Şuşadakı mədrəsələrdə də bir qayda olaraq, ərəb və fars dilləri öyrədilirdi. Məktəb və mədrəsələrin vahid tədris planları və fənn proqramları yox idi. Məktəbdə tədris işinin təşkili məktəbi təsis edən şəxsin mülahizələrinə əsasən aparılırdı. Təlim hərf-heca prinsipi ilə tərtib edilmiş "Çərəkə" adlanan dərsliyin oxunuşu ilə başlayırdı. Quran oxumaq üçün müəyyən vərdişlərə əməl edilir və təhsilin bundansonrakı mərhələsi kitabların oxunması və məktubların yazılması mərhələsi ilə tamamlanırdı. Oxu və yazı təlimin-

dən sonra böyükyaşlı şagirdlər dəstəmaz, namaz qaydalarını mənimsəməyə başlayırdılar. Bir qayda olaraq, məktəbi bitirənlərin bir hissəsi mədrəsə təhsilinin yeni, daha yüksək pilləsinə daxil olurdu.

Haqqında söhbət açdığımız dövrdə Şuşada məscidlərin geniş şəbəkəsi mövcud idi. Təkcə şəhərin özündə 17 məscid fəaliyyət göstərirdi. Həmin dövrdə Yuxarı və Aşağı Gövhər ağa məscidləri dini ayinlərin icrası və mədrəsə təhsili verilməsi baxımından mərkəzi məscid rolunu oynayırdı (Nəcəfov, 2017, 37). Bundan başqa, məktəb və mədrəsə təhsilini Şuşanın digər şəhər və kənd məscidləri də verirdi. Şəhərdə Hacı Yusifli, Çölqala, Xoca Mərcanlı, Seyidli, Mərdinli, Culfalar, Köçərli, kəndlərdən isə Malıbəyli, Qayıbalı, Sırlan və digər kənd məscidlərində dini təhsil verən məktəblər fəaliyyət göstərmişdir.

Bir məsələni də qeyd etmək yerinə düşər: bəhs olunan dövrdə Şuşa məscidlərinin əksəriyyətində məscid kitabxanaları mövcud olmuşdur. Yuxarı və Aşağı Gövhər ağa məscidlərinin kitabxana fondu daha zəngin idi. Sovet rejimi dövründə şəhərdə bütün məscidlərin fəaliyyəti dayandırılmış, yalnız 1967-ci ildə Yuxarı Gövhər ağa məscidi şəhərin Tarix-diyarşünaslıq muzeyinə çevrilmişdi. Həmin muzeyin 1971–1991-ci illərdə direktoru vəzifəsində işləmiş Vaqif Əbilovun dediyinə görə, Şuşa erməni silahlıları tərəfindən işğal olunanadək muzeydə 5 mindən artıq dünya, respublika və yerli əhəmiyyətli eksponatlar, ərəb və fars dillərində yazılmış nəfis əlyazmalar, 600-ə yaxın diniməzmunlu kitablar mövcud olmuşdur ki, həmin ədəbiyyatın əksəriyyəti keçmiş mədrəsələrə məxsus olan dərsliklər idi.

Gövhər ağa vəqflərinin mədrəsə təhsilinin inkişafında rolu

Bəhs etdiyimiz dövrdə Şuşada mədrəsə və mollaxana təhsilindən danışarkən mütləq Gövhər ağa İbrahimxan qızının bu sahədə göstərdiyi xeyriyyəçilik işini vurğulamaq vacibdir. Gövhər xanımın şəxsiyyəti və fəaliyyəti nəinki Şuşada, küllü Qarabağ tarixində xüsusi yer tutur. Onun xeyriyyəçilik-maarifçilik fəaliyyətindən söhbət açarkən tədqiqatçı F.Şuşinski yazır: “Bu qadın Şuşa şəhərində 2 məscid, 2 məktəb, 2 xəstəxana, 2 körpü, 2 hamam və s. tikdirmiş və camaatın ixtiyarına vermişdir. Şəhər mədrəsələrində və digər məktəblərdə yoxsul uşaqlarının xərcləri, onların xəstəxanalarda müalicəsi və bu zümrədən olan insanlardan məscidə gələnlərə onun hesabına yeməklər verilmişdir (Şuşinski,1998,53).

Gövhər ağa (1792–1876) özünün vərəsələri hesab etdiyi məscidlərin daş kitabəsi üzərində belə bir vəsiyyət də yazdırmışdır: “Əsl daimi dünyaya bu müvəqqəti dünyadan köçməyimi hiss edərək sizə vəsiyyətim budur. Bildiyiniz kimi, mən bu dünyada sonsuzam və heç kəsin mənim vərəsəm olmaq haqqı yoxdur. Lakin mən bu dünyada iki oğul qoyub gedirəm ki, biri tikdirdiyim məscid, digəri də açdığım mədrəsə məktəbidir. Buna görə də məndən sonra bu vərəsələrimə başçılıq etməyə camaat arasında hörmət və səsləri olan müsəlmanlara bir daha vəsiyyətim budur ki, bu iki məscidin, bir də mədrəsənin qayğısına qalın” (Şuşinski, 1998,55).

Şuşadakı mədrəsə təhsilinin təşkilində və inkişafında Gövhər ağa vəqfnaməsinin xüsusi əhəmiyyəti olmuşdur. Vəqfə verilən kəndlərin ikisi Qarabağın Cavanşir mahalında Qaradağlı və Maqsudlu, üçüncüsü isə Kəbirli mahalındakı Evoğlu kəndi olmuşdur. Bu kəndlərlə yanaşı, Darğalı və Şelli kəndləri də, bəzi mülklər, üzüm və meyvə bağları istisna olmaqla, vəqf mülkünə aid edilmişdir. Bunlardan başqa, vəqfnaməyə 2 dükan və 1 karvansara da daxil olmuşdur (Hüseynzadə, 1959, 39).

Gövhər ağanın vəqfnaməsində toplanan vəsaiti məscid və mədrəsə xərclərinə yönəltmək üçün 6 mütəvəlli vəzifə göstərilir. Bu mütəvəllilərdən biri baş mütəvəlli idi ki, digər beş mütəvəlliyə nəzarət edirdi. Yəni digər mütəvəllilər bütün işlər üçün onun göstərişinə və məsləhətinə əməl edirdi. Bu vəzifəyə öz dövrünün tanınmış din xadimi Mirzə Məhəmmədqulu təyin olunur. Digər mütəvəllilərin və baş mühasibin fəaliyyətinə rəhbərlik, vəqf gəlirlərinin düzgün toplanması, pulların mühafizəsi, məscidlərin, mədrəsələrin yaxşı saxlanması, vaxtında təmirinə rəhbərlik və nəzarət ona tapşırılır. Birinci mütəvəlli kimi ona hər il 150 manat pul, bir cüt əkin yeri, bir bel də çəltik ərazisi verilirdi. İkinci mütəvəlli Nəcəfqulu bəy, üçüncü – Məhəmməd bəy, dördüncü – Əhməd bəy, beşinci isə Hüseyin bəy təyin olunur. Bu mütəvəllilərdən biri də vəzifələri içərisində toplanmış vəsaitin qorunması, mühafizəsi, məscid və mədrəsədə çalışan mollalara və tələbələrə tətbiq olunmuş qaydalara xidmət işi əsas yer tuturdu. Bu mütəvəllilərdən əlavə, məscid yanındakı hücrələrin və mədrəsələrin işini yaxşılaşdırmaq ona tapşırılırdı.

Bütövlükdə Gövhər ağa məscid vəqflərinin istifadə sahələri 30 istiqamətdən çox olmuşdur. Xərclənəcək vəsaitlər arasında məscid və mədrəsələrin təmiri, bunların işıq pulları, qızdırılmaq üçün kömür

haqqı, azan oxuyacaq 2 nədərin, 2 xidmətçinin, mədrəsələrdə dini elmlərdən dərs verən 2 müdərrisin məvacibi və digər məsələlər də nəzərdə tutulmuşdu.

İyirminci əsrin əvvəllərindən başlayaraq Gövhər ağanın vəqflərinin toplanması və aidiyyəti üzrə xərclənmələri, işçilər və xidmətçilər arasında ayrı-seçkilik, vəqf mülkünün talan edilməsi və nəhayət, sovetləşmənin ilk illərində fəaliyyətinin dayandırılması ilə başa çatdı. Mədrəsədə dərslərə gələnlərin sayı çox azaldı. Mollaların çoxu dərs deməkdən imtina etdi. Məsələn, 1908-ci ildə Şuşa şəhərində 10 molla, 1 rəsmi qazı fəaliyyət göstərmişdir. Həmin il Şuşada 285 nəfər mollaxana və mədrəsələrdə təhsil almışdı (Hüseyinli, 2002, 264).

Ondoqquzuncu əsrin sonlarına doğru, əvvəllər olduğu kimi, mədrəsələrdə təhsil fərdi xarakter daşımırdı. Şuşa şəhərində 1895-ci ildə fəaliyyət göstərən 12 mədrəsədə 500-dən artıq tələbə təhsil alırdı (Əhmədov, 2001,156).

Azərbaycanda XIX əsrin sonu–XX əsrin əvvəllərində maarif, məktəb və mədəniyyətdə yeni bir oyanış formalaşmağa başladı. Ölkədə müxtəlif tip məktəblərlə yanaşı, XX əsrin əvvəllərində mədrəsələr, provaslav, lüterant, katolik kilsə məktəbləri, Qarabağ ruhani seminariyası mövcud idi. Bu məktəblərin əksəriyyəti bir və ikisinifli idi.

Şuşada XIX əsrin 30-cu illərində 6 məktəb və 1 mədrəsə fəaliyyət göstərirdi ki, burada 143 nəfər təhsil almışdır. Əsrin ortalarında isə yəni, 1859-cu ildə təkcə Şuşa şəhərində məscid məktəblərinin sayı 10-a, burada təhsil alanların sayı isə 280 nəfərə çatmışdı. Bu məktəblərdə əsasən şəriət, Azərbaycan və fars dilləri öyrədilirdi. Həmin vaxt Şuşa qəzasının kəndlərində 18 məscid məktəbi fəaliyyət göstərirdi ki, burada da 474 şagird təhsil alırdı. Şuşa şəhərindəki mədrəsə məktəblərinin açılma tarixinə nəzər salsaq, görərik ki, mənbələrdə məktəblərin açılma tarixi 1801 və 1803-cü illər göstərilir. Şuşada 1859-cu ildə, artıq 14 mədrəsə məktəbi mövcud idi. Bunlardan ən “cavan” məktəbin 4, ortayaşlı Çuxur məhəllə məscid məktəbinin 11, Kürdlər məhəllə məscidi məktəbinin isə 60 yaşı var idi (Əhmədov, 1986,244).

Qeyd etmək vacibdir ki, tədqiq olunan dövrdə Qarabağda, xüsusilə Şuşada ailə məktəbləri də fəaliyyət göstərirdi. Bəzi sənədlərdə bunlar “şəxsi” məktəblər də adlandırılırdı. Şuşada ailə məktəbləri XVIII əsrdən, yəni Şuşa Qarabağ xanlığının mərkəzi şəhəri olduqdan başlayaraq, XX əsrin 20-ci illərinə qədər davam etmişdir. Bu məktəblər həmin dövrün digər tədris ocaqlarından fərqli, şərti olaraq belə adlandırılırdı.

Belə məktəblər, əsasən, ata-ana, ya da ailənin hər hansı bir savadlı üzvü tərəfindən təşkil olunurdu. Ailə məktəbləri molla məktəblərinə nisbətən digər dünyəvi fənlərin öyrənilməsi ilə bir qədər fərqli olsa da, orada yenə də Quran və şəriət dərsləri keçilirdi.

Şuşada Ağabəyim ağaya, Gövhər ağaya, X. B.Natəvana, Q.B.Zakirə, Həmidə xanım Cavanşirə və çoxsaylı digər xanzadələrə evdə savad öyrədilmişdir. Görkəmli şəxsiyyət və ensiklopedik biliyə malik olan ziyalılardan M.P.Vaqif (mədrəsəsi olmuşdur), Xarrat Qulu (məktəbi olmuşdur), eyni zamanda, M.M.Nəvvab (məktəbi, mətbəəsi olmuşdur), Molla Əli Xəlifə (məktəbi olmuşdur), M. M. Xəzani (məktəbi olmuşdur). M. M. Nəvvabın "Məclisi-fəsənusan", X.B.Natəvanın "Məclisi-üns" kimi poetik məclislərdə də dini məsələlərə, onun öyrənilməsinə və əhalinin maarifləndirilməsinə müəyyən köməkliklər göstərilmişdi.

Yuxarıda qeyd etdiyimiz kimi, vəqf əmlakları Şuşada mədrəsə və mollaxanaların maddi bazası idi. Şuşada öz əmlaklarını məscidlərə vəqf etmiş şəxslər arasında İbrahim xanın gürcü arvadından olan qızı Gövhər ağanın və Məşədi Hüseyin Mirsiyab oğlu Hüseynovun xüsusi xidmətləri olmuşdur. Sonrakı illərdə bu sahədə X.B.Natəvan və Əhməd bəy Cavanşirin qızı Həmidə xanım da xüsusi fərqlənmişlər (Nəcəfov,18).

Tədqiqatçı Ənvər Çingizoğlu yazır ki, Qarabağda mədrəsələr iki növə - ibtidai və ali dərəcələrə bölünmüşdür (Çingizoğlu, 2013, 14). Ali dərəcə təhsil almaq istəyən məzunlar bunun üçün Tehran, Nəcəf, Təbriz, Kərbəla və başqa yerlərə gedirdilər. Şuşa mədrəsələrinin vahid tədris planları olmasa da, əsasən, bunlar ümumtəhsil fənləri kimi tədris olunurdu: fiqh (hüquq), Kəlam (şəriət), sərf (morfologiya), nəhv (qrammatika), kətəbə (dəfdərdarlıq), şeir və əruz, əxbər (din tarixi), ali fənlər isə fəlsəfə, məntiq, tibb, elmi-ədəd (hesab), həndəsə, elmi-nücum (astronomiya), kimya, xiyal (mexanika) və musiqi.

Mədrəsənin yuxarı sinif şagirdlərinə dünyəvi və dini ədəbiyyatın nümunələri də tədris olunurdu. Uşaqlar Xəqani, Nizmai, Nəsimi, Həbibi, Xətai, Füzuli, Sahib, Qövsü, Vaqif və Vidadi kimi klassiklərin ən yaxşı əsərləri ilə də tanış olurdular. Bu əsərlərdə zəmanədən, zalım hökmdarlardan şikayət, azadlıq, bərabərlik, səadət həsrəti, cəhalət və xurafat əleyhinə mübarizə kimi müsbət xüsusiyyətlər öz əksini tapmış, humanizmin psrinsipləri əsas yer tutmuşdur.

Şuşada hələ XIX əsrin 30-cu illərindən başlayan kitab çapı və sonrakı illərdə M.M.Nəvvabın litoqrafiya üsulu ilə dini-dünyəvi kitablar

çap etməsi, mədrəsələrdə təhsil alan imkansız ailələrdən olan uşaqlara dərslik və risalələrin pulsuz verilməsi bu sahədəki maarifləndirici işin tərkib hissəsini təşkil edirdi. Məsələn, 1884-cü ildən başlayaraq, onun mətbəəsində nəşr edilmiş Həşimzadə Mir Mehdi Xəzaninin "Şəraitul-İslam", M.M.Nəvvabın öz əsərlərindən olan "Dibaçeyi-divani-farsi" (1898), "Mərsiyə və qəzəlləri" (1898), "Kitabi-kəşfül-həqiqeyi məsum" (1898), "Kitabi-türkü, əsari-Nəvvab" (1898), kitablarından mədrəsələrdə dərslik kimi müntəzəm surətdə istifadə olunmuşdur (Azərbaycan, 1963, 32).

Şuşa mədrəsələrindən əlavə, tədqiq olunan dövrdə Qarabağ bölgəsində digər məktəblər də fəaliyyət göstərmişdir. Bunlardan Veysəlli, Tumaslı, Beytülədəb, Mollabürhan və Bağırbəyli mədrəsələri uzun illər ortaixtisaslı dini kadrlar hazırlamışdır. Veysəlli mədrəsəsi Qarabağın ilk məktəblərindən biridir və XVIII əsrin əvvəllərindən fəaliyyətə başlamışdır. İmamverdi ağa Məhəmməd xan oğlu Veysəllinin şəxsi vəsaiti ilə açılmışdır. Dövrünün tanınmış simalarından olan M.P.Vaqif, Mirzə Məhəmməd, Əli bəy Münşi və digər məşhur şəxslər burada dərs demişlər. Bu mədrəsəyə XIX əsrin I yarısında Molla Əhməd Mustafa oğlu Veysəlli rəhbərlik etmişdir. Tumaslı mədrəsəsində, əsasən, sünni məzhəbindən olan uşaqlar dərs alırdılar. Tanınmış şair Molla Vəli Vidadi bu mədrəsədə dərs demişidr. Mədrəsəyə Mikayıl Həsənağa oğlu Tumaslı hamilik etmişdir.

Beytülədəb mədrəsəsi XIX yüzildə Şuşanın Merdinli məscidində fəaliyyət göstərmişdir. Mədrəsənin yaradıcısı Mirzə Məhəmməd Müşnizadə idi. Onun xərcini Merdinli məscidi ödəyirdi. Mollabirhan və Bağırbəyli mədrəsələri də öz ərazilərində XIX əsrdə əhalinin maarifçilərinə uzun illər xidmət göstərmişdir (Çingizoğlu,2013,17).

Otuz ildən artıq erməni işğalında qalmış, 2020-ci ildə Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmiş qədim Şuşa şəhərində 4 ildir ki, respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağda həyat işğaldanəvvəlki vəziyyətinə qaytarılır, hər tərəfdə geniş abadlıq-quruculuq-bərpa işləri gedir. Ermənilər tərəfindən Qarabağdakı 67 məsciddən tamamilə məhv edilmiş 65 məscid hissə-hissə bərpa olunur və yeniləri tikilir. Şuşadakı Yuxarı və Aşağı Gövhər ağa məscidləri, Saatlı, Mamayı, Çölqala və Təzə məhəllə məscidləri tam bərpa olunub, digərləri də yenidən qurulur. Şəhərin yuxarı hissəsində yeni və çox böyük Şuşa məscidi tikilir. Zəngilan və Ağdam Cümə məscidləri yenidən bərpa olunub istifadəyə verilib. Füzulidə,

Laçında, Qubadlıda, Xocavənddə və Suqovuşanda da təzə məscidlər tikilməkdədir.

Nəticə

Mövzunun aktuallığı ondan ibarətdir ki, bəhs olunan dövrdə Şuşa şəhərində mövcud olmuş mollaxana və mədrəsələrin formalaşması və inkişaf xüsusiyyətləri indiyədək ayrıca bir elmi-tədqiqat işinin xüsusi mövzusu olmamışdır. Şuşa ruhaniliyinin XIX əsr vəziyyəti heç vaxt müstəqil elmi-tədqiqat obyekti olmamış, yalnız bir sıra tarixi-xronoloji araşdırmalarda problemin bəzi aspektlərinə toxunulmuşdur. Məhz bu cəhətdən məqalədə Şuşada ruhanilik və mədrəsə şəbəkələrinin tarixinin, inkişaf ənənələrinin öyrənilməsi konkret olaraq əsas tədqiqat obyekti kimi seçilmişdir.

Qarabağ xanlığı Azərbaycanın dövlətçilik tarixində xüsusi yer tutur. Xanlıq dövründə Şuşa şəhəri təkcə xanlığın paytaxt şəhəri deyil, həm də Cənubi Qafqazın mədəniyyət mərkəzlərindən biri olmuşdur. Bu dövrdə şəhər ruhaniliyi dövlət işlərində yaxından iştirak edir, maarif və məhkəmə sistemində aparıcı rol oynayır, vergilərin toplanmasında, xüsusilə elmin, incəsənətin və ticarətin inkişafında yaxından iştirak edirdi. Məscidlər, məktəbxanalar və mədrəsələrin idarə olunması ilə yanaşı, ziyarətgahlarda da din xadimləri elm və təhsillə məşğul olurdular.

Araşdırdığımız dövrdə Şuşanın ruhani zümrəsi tərkibinə görə çox zəngin idi. Buraya müctəhidlər, müftilər, axundlar, qazılar, vaizlər, rövzəxanlar, pişnamazlar, seyidlər, mükəbbirlər, mollalar, dərvişlər və digərləri daxil idilər. Belə bir zəngin dindarlığı olan Şuşa şəhərində dini-mənəvi işlər, əsasən, iki istiqamətdə həyata keçirilmişdir: dini təhsil və İslam dininin əhali arasında təbliği.

Müəllif məqalədə, həmçinin məhz XIX əsrdə Şuşa şəhərinin dini mühiti, xüsusilə burada fəaliyyət göstəmiş mədrəsə məktəblərinin yaranması, formalaşması və inkişaf ənənələri, onun məzunlarının Azərbaycanın pedaqoji fikir tarixində və məktəbşünaslığında yerini göstərmişdir.

Yekunda demək olar ki, Şuşadakı mədrəsələr XX yüzilliyin əvvəlinədək bəzi ənənəvi cəhətlərini saxlaya bildi. AXC illərində din xadimlərinin sosial-iqtisadi durumu bir qədər yaxşılaşsa da, bolşevizmin iş-

ğalı nəticəsində, Azərbaycanın hər yerində olduğu kimi, Şuşa şəhərində də mövcud ruhani mühit tamamilə məhv edildi. Din xadimləri repressiyaya məruz qaldılar və beləliklə, zamanla formalaşmış dini təhsil şəbəkəsi, xüsusilə də mollaxana və mədrəsələrin fəaliyyəti, onlara maddi dəstək verən vəqf mülklərinin gəliri dayandırıldı.

Vaxtilə Şuşa şəhərində fəaliyyət göstərmiş mədrəsələrin yetirmələri sonrakı illərdə Azərbaycan xalqının maariflənməsində, elm və təhsil sahəsində böyük işlər həyata keçirdilər, xalqın mədəni inkişafına öz töhfələrini verə bildilər.

Ədəbiyyat

Əliyev, İ. (2004). Azərbaycan Respublikası Sosial İqtisadi inkişafı Dövlət Proqramı(2004-2008), Bakı: Nurlan.(24s)

İsmayılov, G. (2016). Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər. Bakı: Nəşriyyat XXI,(288s).

Tağıyev, Ə. (1993) Azərbaycanda Məktəb tarixindən. Bakı: Maarif. (113s).

Əhmədov, H. (1986). XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, (298s.)

Hüseynli, R. (2002). Azərbaycan ruhaniliyi. Bakı: Kür. (264s.)

Nəcəfov, Ə, Kərimli, Ş. (2017). Gövhər Ağa Cavanşirin maarifçilik fəaliyyəti. Bakı: Tuna Printinq.(95 s.)

Hüseynzadə, Ə. (1959). Gövhər Ağanın vəqfləri. Bakı: Azərbaycan SSR EA-nın xəbərləri, ictimai elmlər seryası.(48s.).

Şuşunski F. Şuşa, Bakı, Gənclik, (1998), 426s.

Əhmədov, H. (2001). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı:Təhsil.

(318s.).

Çingizoğlu, Ə. (2013). Qarabağda maarif (1750-1950). Bakı: Zərdabi LTD MMC. (287s.).

Nəcəfov, Ə. (2018). Həmidə Məmmədquluzadənin maarifçilik fəaliyyəti. Bakı:Tuna Printinq. (75 s.).

Azərbaycan kitabı,(219), bibloqrafiya 3 cilddə, c.1.(1780-1920). Azərbaycan kitab palatası. (219s.).

Din tədrisində məzhəbüstü yanaşmanın zəruriliyi

f.f.d. Anar Qurbanov,
Zaqatala İslam Kollecinin müəllimi
Zaqatala, Azərbaycan
anarqurban78@gmail.com
https://orcid.org/0009-0000-8914-813X

Xülasə

Dinlərin tarixinə nəzər saldıqda, bütün böyük dinlərdə məzhəbləşmə faktının mövcud olduğu açıq-aydın müşahidə edilir. Dini mətnlər başlanğıcdan etibarən fərqli yozumlara və təvillərə məruz qalmışdır. Bunun nəticəsində dini mətnlərə yönəlik müxtəlif növdə yanaşmalar olmuş və əməli cəhətdən sosial bir fakt kimi məzhəblər meydana gəlmişdir. Müəyyən bir sistemə və üsullara malik olan məzhəb anlayışı özünəməxsus metodlarla dini mətnləri izah etməyə çalışmış və zaman keçdikdə doktrinalar ortaya qoymuşdur. Müəyyən bir vaxtdan sonra onun ardıcılları sözügedən doktrinaları doqma halına gətirmiş, bunları tənqidolunmaz və dəyişdirilməsi qeyri-mümkün olan bir anlayış kimi mənimsəmişlər. Halbuki məzhəb dinin özü və yaxud müqəddəs vəhyin bir təzahürü hesab olunmur. Məzhəb – İlahidən nazil və peyğəmbərdən sadir olanın anlaşılması və həyata keçirilməsi məqsədilə ilahiyyatçılar və dinşünaslar tərəfindən müxtəlif formalarda izah edilərək bəşəri xüsusiyyətə bürünmüş etiqadi və əməli məsələlərlə bağlı fikirlər toplusudur. Təbii ki, sözügedən fərqliliklərin yaranmasında siyasi, sosial, etiqadi və bəzən də fiqhi məsələlər əsas rol oynamışdır. Beləliklə, məzhəblər dinin sosioloji cəhətdən bir hissəsi olmuş və sadəcə, teologiyanın obyekti yox, eyni zamanda, sosiologiyanın da obyektinə çevrilmişdir. Bu məqalədə din tədrisi, onun modelləri və din tədrisində məzhəbüstü yanaşmanın zəruriliyi, eləcə də məzhəbçi yanaşmanın, məzhəb təəssübkeşliyinin fəsadları, məzhəbüstü (qeyri-konfessional) din tədrisinin məqsədi və bu modelin sahib olmalı olduğu əsas xüsusiyyətlər, eləcə də bunun əksi olan məzhəbçi yanaşmanın din tədrisinin müxtəlif sahələrində doğurduğu fəsadlar barədə məlumat verilir. Nəticə etibarilə, məzhəbüstü din tədrisinin vacibliyi və zəruriliyi vurğulanır.

Açar sözlər: *din, məzhəb, din tədrisi, məzhəbüstü (qeyri-konfessional) yanaşma, təəssübkeşlik.*

Necessity of a Non-confessional Approach in Teaching Religion

PhD Anar Gurbanov
Islamic law teacher of Zagatala Islamic College
Zaqatala, Azerbaijan
anarqurban78@gmail.com
https://orcid.org/0009-0000-8914-813X

Abstract

When we look at the history of religions, it is obvious that the fact of sectarianism exists in all major religions. Because religious texts have been subjected to different interpretations since the beginning. As a result of this, there have been different approaches to religious texts and sects have emerged as a practical social fact. The concept of the sect, which has a certain system and methods, tried to explain the religious texts with its own methods and revealed its own doctrines over time. However, after a certain time, his followers turned the mentioned doctrines into dogma and adopted them as an uncritical and unchangeable concept. However, sect is not considered a religion itself or a manifestation of sacred revelation. It is a collection of ideas related to religious and practical issues, which are explained in various forms by theologians and religious scholars in order to understand and implement what has been revealed from God and what has been revealed from the prophet. Naturally, sometimes political, sometimes social, sometimes religious and sometimes jurisprudential issues have played a major role in the emergence of the aforementioned differences. Thus, sects have become a sociological part of religion and have become not only the object of theology, but also the object of sociology. This article provides information about religious education, its models and the necessity of a non-confessional approach, as well as the consequences of a sectarian approach and sectarian bigotry. The purpose of non-confessional religious education and the main features that this model should have; information is provided about the consequences of the sectarian approach, which is the opposite, in various fields of religious education. As a result, the importance and necessity of non-sectarian religious teaching is emphasized.

Keywords: *religion, sect, teaching of religion, non-confessional approach, bigotry*

Необходимость неконфессионального подхода в преподавании религии

д.ф.ф. Анар Гурбанов
Преподаватель Фикха Закатальского
Исламского Колледжа
Загатала, Азербайджан
anarqurban78@gmail.com
https://orcid.org/0009-0000-8914-813X

Резюме

Если мы посмотрим на историю религий, то станет очевидным, что факт сектантства существует во всех основных религиях. Потому что религиозные тексты с самого начала подвергались разным интерпретациям. В результате этого возникли разные подходы к религиозным текстам, и секты стали практическим социальным фактом. Концепция секты, имеющая определенную систему и методы, пыталась объяснить религиозные тексты своими методами и со временем раскрыла свои собственные доктрины. Однако через определенное время его последователи превратили упомянутые учения в догмы и приняли их как некритическую и неизменяемую концепцию. Однако секта не считается самой религией или проявлением святого откровения. Это собрание идей, связанных с верой и практическими вопросами, которые были объяснены в различных формах богословами и религиоведами, чтобы понять и реализовать то, что было открыто Богом и то, что пришло от пророка. Конечно, иногда политические, иногда социальные, иногда религиозные, а иногда и фикховые вопросы сыграли важную роль в возникновении вышеупомянутых различий. Таким образом, секты стали социологической частью религии и стали не только объектом богословия, но и объектом социологии. В данной статье представлена информация о религиозном образовании, его моделях и необходимости несектантского подхода, а также о последствиях сектантского подхода и сектантского фанатизма. Цель внеконфессионального религиозного образования и основные черты, которыми должна обладать эта модель; приводятся сведения о последствиях сектантского подхода, который является противоположным, в различных областях религиозного образования.

В результате подчеркивается важность и необходимость несектантского религиозного учения.

Ключевые слова: *религия, секта, преподавание религии, неконфессиональный подход, фанатизм*

Giriş

Din tədrisi dünyanın müxtəlif ölkələrində ən çox müzakirə olunan məsələlərdən biridir. Qloballaşan dünyada mədəni müxtəlifliyin artması, informasiya texnologiyalarının çoxalması və bunun nəticəsində müxtəlif mədəniyyət və dinlərlə bağlı məlumatların artması din tədrisində müxtəlif modellərin ortaya qoyulmasını və bunların inkişafını zəruri etmişdir. Sözügedən səbəblər nəticəsində ənənəvi din tədrisi, yəni bir dini, bir məzhəbi əsas götürən və yalnız onun mənbələrinə söykənən konfessional din tədrisi modeli sorğulanmağa başlanmışdır. Həmçinin, orta məktəblərdə Din dərsi fənninin tədrisindən tutmuş, onun məzmunu, çərçivəsi, müəllimi, proqramı, yaş həddi, məcburi olub-olmaması və digər məsələlər pedaqoqlar tərəfindən müzakirə edilməkdədir. Sözügedən müzakirələrin önündə duran məsələlərdən biri də məhz din tədrisinin məzhəbçi yanaşmadan uzaq olması, məzhəb təəssübkeşliyinə yol vermədən həyata keçirilməsidir. Beləliklə, din tədrisində məzhəbüstü yanaşamanın vacibliyi və zəruriliyi məsələsi müasir din təhsili anlayışında olduqca mühüm əhəmiyyət kəsb edən məsələlərdən hesab edilir.

Qeyd edək ki, zəmanəmizdə din tədrisinin təsirli ola bilməsi üçün onun dəyişən şərtlərə və ehtiyaclara cavab verəcək şəkildə özünü yeniləməsi labüddür. Sözügedən bu yeniliklərin gerçəkləşməsi tədris planının cəmiyyətin maraq və ehtiyaclarını qarşılaya biləcək xüsusiyyətdə hazırlanması ilə mümkündür. Təhsil sisteminin müvəffəq olması və uğur qazanması dəyişən şərtlərlə ayaqlaşmasına və lazımi tədbirlər görərək inkişafa paralel olaraq yenilənməsinə bağlıdır. Məhz bu səbəbdən, proqramlar bütün bunlara müvafiq şəkildə hazırlanaraq yeniliklərə cavab verəcək potensiala malik olmalıdır. Bu gün artıq təhsil, təlim-tərbiyə və pedaqoji anlayışlar tamamilə dəyişmiş və ənənəvi metodlar şagirdlərdə elmi bacarıqları formalaşdırmaqda yetərsiz qalmışdır. Ənənəvi din tədrisi ilə bağlı digər tənqidlər əzbərçilik, kitaba bağlılıq, tədris prosesinin demokratik bir mühitdə icra olunmaması və şagirdlərə

ensiklopedik məlumatların verilməsi kimi məsələləri əhatə edir. Həmçinin ənənəvi din tədrisi mədəni irsin olduğu kimi ötürülməsi və problemlərin həllində yeni anlayışların ortaya qoyulmadan, sadəcə, məlumat xarakterli tədris anlayışını mənimsəməsi baxımından da tənqidə məruz qalmışdır. Halbuki sürətlə dəyişən və bunun tələblərinə yiyələnən, lazımi keyfiyyətləri özündə cəmləşdirən insanlar istəyən bir dünyanın olduğu reallığını bütün sahələrdə olduğu kimi, din tədrisi istiqamətində də qəbul etmək zərurəti yaranmışdır. Məhz bu səbəbdən, Din tədrisi fənni keçirilən şagirdlərin məktəbdə əldə etdiyi biliklərdən istifadə edərək müxtəlif problemlərin həllində onlardan faydalanmağı bacarmalıdır (Arpacı, Cild: 12, Say: 3, 2012, 152-153).

Vurğulamaq lazımdır ki, din düşünməyi, təfəkkür etməyi, tənqidi yanaşmanı və sorğu-sual etməyi tövsiyə edir. Din tədrisinin də ən mühüm məqsədi yeni nəslə din haqqında düzgün məlumat vermək, onların cəmiyyətdə mövcud olan müxtəlif anlayışlar və dünyagörüşləri haqqında düşünmələrini təmin etmək, onları sorğulayan, geniş üfüqə və dünyagörüşünə sahib olan fərdlər kimi yetişdirməkdir. Beləlikə, din tədrisində şagirdlər kor-koranə inanan və tətbiq edən olmamalı, əksinə, onlar bilginin məqsədini, mahiyyətini, ondan necə istifadə edəcəyini araşdıran və bu kimi digər bacarıqlar aşılanan bir fərd kimi yetişdirilməlidirlər. Məhz buna görə də din pedaqoqları ənənəvi din tədrisi anlayışına alternativ olaraq müxtəlif din tədrisi modelləri ortaya qoymuş, bu modellərin inkişaf etdirilməsi üçün çoxlu sayda fikirlər və nəzəriyyələr irəli sürmüşlər. Məhz bu modellərin ən əhəmiyyətlisi və ən məqsədəuyğun olanı din tədrisində məzhəbüstü yanaşma ilə bağlı olan modellərdir.

I. Din

Ərəb dilində “itaət, cəza və mükafat, şəriət” (İsfahani, 1998, 181) kimi müxtəlif mənalara gələn “din” kəlməsi Qurani-Kərimdə 92 yerdə qeyd olunur. “Din” kəlməsi ayə və hədislərdə, əsasən, “idarə etmək və edilmək, itaət, hökm, sitayiş etmək, tövhid, İslam, şəriət, qanun, adət-ənənə, cəza, haqq-hesab, millət” kimi mənalarda istifadə edilmişdir. “Din” kəlməsinin terminoloji mənası isə belədir: “Din ağıl sahiblərini peyğəmbərin bildirdiyi həqiqətləri mənimsəməyə dəvət edən ilahi qanunlar toplusudur” (Tümer, 1994, IX, 312-313). Qeyd edilən bu klassik tərifdən başqa, “din” kəlməsinin dinlər tarixi sahəsində daha geniş

və müasir tərifi belədir: “İnsanın düşüncə və inanca söykənən mülahizələrini əhatə edən, zehni funksiyalarını, hər cür hərəkətini və insanın digər insanla olan münasibətlərini ifadə edən, eləcə də onun sosial mövqeyini müəyyən edən və beləliklə də, onu öz nəzarətinə götürən bir sistemdir” (Gündüz, 2017, 21). Bundan başqa, məşhur din pedaqoqu Beyza Bilgin “din” məfhumunu belə tərif etmişdir: “Din insanla Allah arasındakı münasibətdir. İnsanın qeyd-şərtsiz mütləq olan varlığa yönəlməsi və Onun tərəfindən əhatə olunmasıdır” (Bilgin, 1998, 4).

Odur ki, din Uca Varlıqdan insana doğru buyruq, insandan Uca Varlığa doğru yönəlmədir. İslam dini Allah ilə insan arasındakı münasibəti sistemləşdirən inanc, ibadət və həyatla bağlı qayda-qanunların hökm sahibi tərəfindən insanlara peyğəmbərlər və müqəddəs kitablar vasitəsilə bildirildiyi və insanların bu sistemə uyğun inanması və yaşaması tələb olunan ilahi dinin adıdır. Beləliklə, bu kimi tərif lərdən aydın olur ki, din insan həyatının hər sahəsində və hər mərhələsində – hələ dünyaya gəlməzdən əvvəl başlayıb, bu dünyadan köçənədək onu hərtərəfli əhatə edən məfhumdur.

Qeyd edək ki, Azərbaycanın dövlət məktəblərində müstəqil din dərsi tədris edilməsə də, 2004-cü ildən ümumtəhsil məktəblərində tədris olunan Həyat bilgisi dərsliklərində “din” məfhumunun müxtəlif tərifləri qeyd olunur, eyni zamanda, dinlə əlaqəli əsas biliklər haqqında ətraflı məlumat verilir. Belə ki, Həyat bilgisi dərsliklərində dinlə əlaqəli biliklərə 1, 2, 3, 6 və 7-ci sinif dərsliklərində az, 4, 5 və 8-ci sinif dərsliklərində orta, 9-cu sinif dərsliyində isə daha geniş yer verildiyi nəzərə çarpır. Həmçinin Həyat bilgisi dərsliklərində “din” mövzusu dinin tərifi, mənşəyi, məqsədi, dinlərin təsnifatı, tanrı, peyğəmbər, vəhy kimi fövqəltəbii anlayışlar, eləcə də dünyanın dərk olunması, insan hüquqları və tolerantlıq zəminində çoxlu sayda mövzulara təmas edilmiş və dinlə bağlı ümumi anlayışlar şagirdin nəzərinə çatdırılmışdır. Sözügedən dərslikdə qeyd edilən din tərif lərinə gəlincə, iman, ibadət, dünyanı dərketmə ehtiyacı, əxlaq və ictimai funksiya kimi amillər ön plana çıxarılmışdır (Əzizova, Say:1, 2018, 10-11).

II. Məzhəb

Ərəb dilində “gedilən yol, izlənilən və təqib edilən metod” (İbn Mənzur, I, 394) kimi mənalara gələn “məzhəb” kəlməsi İslam düşüncəsinə məxsus məktəblərin dini məsələlərlə bağlı meydana gələn problemlərinin həlli üçün ortaya qoyduqları metodları və üsulları ifadə edir. Məhz

bu səbəbdən, “məzhəb” kəlməsi bir termin kimi dini ədəbiyyatda “öz daxilində tutarlı bir düşüncə sisteminə sahib olan etiqadi və fiqhi doktrina” kimi tərif edilir (Kılavuz, 1997, III, 230). Məzhəblər dini mətnlərin təvili nəticəsində ortaya çıxan fərqli dini anlayışların zaman keçdikcə institutlaşdığı bir insan məhsuludur (Kutlu, II, 546). Məzhəblər İslam alimlərinin özlərinə məxsus metodları ilə ortaya qoyduqları ictihadlar nəticəsində formalaşan məktəblərdir. Ona görə də məzhəb dinin özü və yaxud müqəddəs vəhyin bir təzahürü hesab olunmur. Bu, İlahidən nazil və peyğəmbərdən sadir olanın anlaşılması və həyata keçirilməsi məqsədilə İslam alimləri, ilahiyyatçılar və dinşünaslar tərəfindən müxtəlif formalarda izah edilərək, bəşəri xüsusiyyətə bürünmüş etiqadi və əməli məsələlərlə bağlı fikirlər toplusudur. Təbii ki, sözügedən fərqliliklərin yaranmasında siyasi, sosial, etiqadi, bəzən də fiqhi məsələlər əsas rol oynamışdır. Məzhəblər dinin sosioloji cəhətdən bir hissəsi olmuş və sadəcə, teologiyanın obyekti deyil, eyni zamanda, sosiologiyanın da obyektinə çevrilmişdir. Odur ki, bir məzhəb dinin özü olmamaqla yanaşı, həmin dini o məzhəbdən tamamilə təcrid etmək də düzgün hesab olunmur. Bundan əlavə, vurğulamaq lazımdır ki, məzhəblərin düşüncə və hərəkətlərindən müsbət və yaxud mənfi mənada həmin din mütləq şəkildə təsirlənmişdir (Büyükkara, Say: 5, 2017, 2-3).

Məzhəblər tarixinə dair mənbələr bütün böyük dinlərdə məzhəbləşmə faktının mövcudluğunu və reallığını ortaya qoymuşdur. Məzhəb fərqli anlayış və tətbiqatları əhatə edən sosial xarakterə sahib olan dinin cəmiyyətdəki təzahürüdür. Sözügedən fərqliliklərdə siyasi, ictimai, iqtisadi, tarixi, mədəni və coğrafi amillər təsirli olmuş, eləcə də müxtəlif cəmiyyətlər arasında bəzi problemlərin yaranmasında mühüm rol oynamışdır. Bu işdə əsas problem insan məhsulu olan məzhəbin dinin yerinə qoyulması, dinlə eyniləşdirilməsi məsələsidir (Çakmak, Cild: 7, Say: 1, 2024, 2). Qeyd etmək lazımdır ki, məzhəblər bəzi hallarda başqa dini və fəlsəfi fikirlərin də təsiri altında qalmışdır. Bütün bunlara baxmayaraq, məzhəblər dini fərqlilik deyil, dini anlayışdakı fərqliliklərdən ibarətdir. Düşüncə zəngiliyinin ən gözəl ifadələrindən hesab olunan bu müxtəlifliklər həmişə müsbət qarşılanmamış, çox təəssüf ki, bəşəriyyət tarixində ikrah hissi doğuran hadisələrlə də nəticələnmişdir. Məhz bu səbəbdən, müasir təhsil sistemində din tədrisi məsələsi daim ən həssas və ən vacib məsələlərdən biri olmuşdur (Doğan, Say: III, İl: II, 2017, 134).

Bundan əlavə, qeyd edək ki, İslam dini çərçivəsində məzhəblərin meydana gəlməsinin səbəblərinə nəzər salsaq, onun insandan irəli

gələn səbəblər, müsəlman cəmiyyətindən irəli gələn səbəblər, xarici səbəblər və müsəlmanlar arasında ortaya çıxan ilkin ixtilaflar olmaqla, dörd əsas hissədən ibarət olduğunu qeyd etmək mümkündür. Belə ki, insandan irəli gələn səbəbləri psixoloji və sosioloji ünsürlər, zehniyyət tərzi, dünyagörüşü və dəyərlər sisteminin formalaşmasından ibarətdir. Müsəlman cəmiyyətindən irəli gələn səbəbləri Quranın anlaşılması, Həzrət Peyğəmbərin məzhəb təəssübkeşliyinə alət edilməsi, fanatizm və siyasi çəkişmələr kimi başlıqlarla müəyyən etmək olar. Xarici səbəblər başlığında isə başqa mədəniyyətlərlə tanışlıq, fəlsəfi əsərlərin tərcümə edilməsi, nifaq hərəkatı kimi məsələləri sadalamaq mümkündür. Müsəlmanlar arasında ortaya çıxan ilkin ixtilaflardan meydana çıxan səbəblərə gəlincə, xilafət məsələsi, riddə savaşları, üsyan, Cəməl hadisəsi, Siffin müharibəsi və əqidəvi məsələlərdən olan "qədər" məsələsində ortaya çıxan ilkin mübahisələri qeyd etmək mümkündür (Sarıkaya, 2005, 33-40).

III. Din tədrisi və onun modelləri

Din tədrisi dinin fərdi və sosial bir gerçəklik olduğunu qəbul edir. Bu əsnada din təhsilin predmetinə çevrilir, din anlayışının, dini kültürün və dünyagörüşün yeniyetmə və gənc nəsillərə ötürülməsi, onlara düzgün şəkildə təlqin olunması, cəmiyyətdə dini şəxsiyyətlərin yetişməsinə xidmət göstərir (Bilgin, 1998, 43). Din tədrisi dini biliklərin müəyyən tədris planı çərçivəsində vücud, zehin və duyğunun inkişafı nəzərə alınaraq, fərdlərə çatdırılması və cəmiyyətdə dini şüurun təmin edilməsi prosesidir. Məhz bu səbəbdən, din tədrisinin əsas məqsədi fərdin zehin, ruh, bədən və duyğu başda olmaqla, kompleks şəkildə inkişafını təmin edir, sahib olduğu öhdəliklərin şüurunda olan, daxili aləmi ilə barışıq, uğurlu bir insanın cəmiyyət üçün yetişdirilməsidir (Kesimoğlu, 2019, 51-52). Odur ki, müxtəlif ölkələrin dövlət-din siyasəti ilə bağlı münasibətləri müstəvisində din tədrisi üçün ortaya qoyulan əsas məqsədləri aşağıdakı kimi sadalamaq olar:

1. Şagirdlərin fərqli inanca və mədəniyyətə sahib olan insanları başa düşmələrinə və onlara hörmət etmələrinə köməklik göstərmək. Yəni şagirdlərin plüralist və multikultural cəmiyyətdə yaşamaqla bağlı davranışlarını inkişaf etdirmələrini təmin etmək.
2. Şagirdlərin dinlər haqqında maariflədirilməsi, onların üfüqlərinin və dünyagörüşlərinin genişlənməsini təmin etmək.

3. Şagirdlərin əxlaqi və mənəvi cəhətdən inkişafına dəstək vermək (Murati, 2023, 38).

Din tədrisinin modelləri ilə bağlı məşhur ingilis din pedaqoqu Mişel Qrimmittin irəli sürdüyü və müəyyən nəzəriyyələr ortaya qoyduğu üç metod var: dini öyrənmə, din haqqında öyrənmə və dindən öyrənmə. Sözügedən modellərdən – dini öyrənmə – klassik və ənənəvi olub, konfessional, yəni dinin, sözün əsl mənasında, təlimidir. Digər iki model isə qeyri-konfessional, yəni dinin təsviri və fenomenoloji cəhətdən tədris edilməsi kimi xarakterizə olunur. Dini öyrənmə modeli – müəyyən bir dinin ona inanan müəllim tərəfindən öyrədilən din tədrisidir. Bu modeldə müəyyən bir dinin həqiqət olduğu və bu dinin qayda-qanunlarına görə yaşamağın zəruriliyi öyrədilir. Digər dinlər haqqında verilən məlumatlara isə öyrədilən dinin prizmasından yanaşılır. Bu modeldə əsas məqsəd dindar yetişdirmək, dini fəaliyyətləri artırmaq, şagirdlərin dini qayda-qanunlara inanıb ona əməl etməsini təmin etməkdir. Konfessional din tədrisi, əsasən, din və dövlətin ayrılmadığı və dövlətin rəsmi statuslu dini olduğu ölkələrdə tətbiq edilir (Kızılabdullah-Yürük, 2010, 125). Qeyd edək ki, dini öyrənmə yanaşmasına yönəldilən ən böyük tənqid onun günümüzdəki dünyəvi, plüralist və multikultural cəmiyyətlərə xitab edə bilməməsi ilə əlaqədardır. Belə ki, mədəni müxtəlifliyin hakim olduğu və hər hansı bir dini inancı mənimsəməyən şagirdlərin sayının get-gedə çoxaldığı məktəblərdə dini öyrənmə yanaşmasının tətbiq edilməsi nəticəsində mənfi halların meydana gəlməsinə səbəbolma ehtimalı nəzərə alınmalıdır. Həmçinin şagirdlərin ehtiyaclarına yönəlik hazırlanmayan tədris planının səmərəsiz, eləcə də bunun din və etiqad azadlığına zidd olması və dünyəvilik prinsipini mənimsəyən ölkələrdə dövlətin bitərəfliyi prinsipinə xələl gətirməsi ilə əlaqədar tənqidlər mövcuddur. Bundan əlavə, bu yanaşmanın öyrədilən dinə azadlıq təmin etdiyi, lakin şagirdlərin azadlıqlarını məhdudlaşdırdığı, onların elmi üfüqünü genişləndirmədiyini və digər dinləri öz inancları nöqteyi-nəzərindən çıxış edərək dəyərləndirdiyi üçün ön mühakimə meydana gətirərək, başqa din mənsublarının dünyalarını dərk etmələrinə əngəl olduğu bildirilir (Aşlamacı, 2018, 723-724).

İkinci model – din haqqında öyrənmə – hər hansı bir dinə üstünlük vermək və hər hansı bir dinin əsaslarını öyrətmək məqsədi güdmədən din tədrisi prosesini həyata keçirir. Yəni, bu model müəyyən bir dini dünyagörüşün digərlərindən üstünlüyünü önə çəkmədən cəmiyyətdə mövcud olan dinlərin əsas mahiyyəti və tarixi haqqında təsviri bilikləri əhatə edir. Bu model dini öyrənmənin əksinə olaraq, dindaş olmayan

müəllimlər tərəfindən tədris edilir. Bu modelə görə, həmin fənni tədris edən müəllimin inanclı olması şərti əsas götürülmür. Bu modeldə şagirdin müəyyən bir dinə inanmasını təmin etmək kimi bir məqsəd də yoxdur. Əksinə, əsas məqsəd şagirdə din haqqında məlumat vermək, eləcə də məsələlərə obyektiv, tarixi və tənqidi kontekstdə yanaşmaqdır. Burada müəllim şagirdlərə müəyyən bir dinə mənsub olmanın və dini həyatın hansı mənaya gəldiyini izah etmək üçün səy göstərməlidir (Kızılabdullah-Yürük, 2010, 125). Bundan əlavə, qeyd edək ki, bu modeldə üç yanaşma mövcuddur: dinlərarası din tədrisi, fenomenoloji din tədrisi və interpretativ din tədrisi. Bir-birinə yaxın olan bu təhsil modelləri dinlərə qarşı tərəfsiz yanaşma prinsipinə uyğunluq baxımından dünyəvi dövlətlər üçün məqsədəuyğun modeldir. Qeyd edək ki, ölkəmizdə Həyat bilgisi dərsliklərində dini maarifləndirmə məhz bu metoda uyğun şəkildə həyata keçirilir. Bəzi tədqiqatçılara görə, din haqqında öyrənmə modelinin ən zəif cəhəti isə ondan ibarətdir ki, bu modeldə, sadəcə, maarifləndirici xarakter üstünlük təşkil etdiyinə görə şagirdlərin mənəvi aləminə hər hansı töhfə vermir (Qənbərov, 2022, 75).

Üçüncü model – dindən öyrənmə – tədris prosesində dinlərin insanlığa təlqin etdiyi universal mənəvi dəyərlərin mənimsənilməsinə xidmət göstərir. Bu modeldə şagirdlərin mənəvi-əxlaqi dünyagörüşlərinin zənginləşdirilməsi və humanizm prinsiplərinin mənimsənilməsi üçün dini dəyərlərin imkanlarından olduqca geniş istifadə olunur. Bu model din haqqında öyrənmənin əskikləri və nöqsanları nəzərə alınaraq ortaya qoyulmuş və pedaqoji cəhətdən inkişaf etdirilmişdir.

Müasir təhsil anlayışında, digər fənlərdə olduğu kimi, din tədrisi ilə bağlı fənlərdə də əsas məqsəd şagirdin hərtərəfli inkişaf etməsini təmin etməkdir. Bu modeldə əsas məqsəd şagirdin dinlər haqqında müxtəlif fikirlərin təqdim edildiyi tədris prosesində qazandığı bilikləri öz anlayışı çərçivəsində izah etməsi, ona məna yükləməsi nəticəsində dinlər haqqında öz düşüncəsini formalaşdırmasıdır. Din haqqında öyrənmə modeli dini-elmi tədqiqatlar tərəfindən yönləndirilir, lakin dindən öyrənmə modelində isə pedaqoji tədqiqatların ortaya qoyduğu məlumatlar əsas rol oynayır. Odur ki, bu modeldə həyata keçirilən din tədrisinin ilahiyyatdan daha çox təhsil və təlim-tərbiyə fəlsəfəsinə yaxın olduğu müşahidə edilir.

Qeyd edək ki, dindən öyrənmə modelində inanc və digər mənəvi dəyərlərin təzyiqlə qəbul etdirilməsi qəbuledilməzdir. Ona görə də bu yanaşmada əsas məqsəd şagirdlərin mənəvi və mədəni cəhətdən maarifləndirilməsi, onların sosial bütünləşməsini əsas götürərək, inanc

baxımından inkişafını təmin etməkdir. Burada din universal bir fenomen olaraq insan həyatının ən təməl ekzistensial problemlərinə cavab verir, bunların həlli ilə bağlı təkliflər təqdim edən bir vasitə kimi qəbul edilir. Dinlər, sadəcə, bir mövzunun məzmunu deyil, fərdin özünü dərk etmək və kəşf etmək prosesləri üçün bir vasitədir. Belə olan halda, din tədrisində əsas məqsəd şagirdlərin dini anlamaq gücünü inkişaf etdirmək bacarığını qazanmaqdır (Kızılabdullah-Yürük, 2010, 125-135). Şagirdlərlə dini fenomenləri əlaqələndirməyə çalışan bu model hər hansı bir dini mərkəz seçərək, yaxud, sadəcə, bir dinin dəyər və prinsipləri üzərində deyil, əksinə, insanlar üçün ortaq məna ifadə edən dəyərlər üzərində qurmağa çalışır. Sözügedən bu dəyərlər şagirdlərin sahib olduqları fərqli dini və dünyəvi ənənələrin inanc və tətbiqatlarına görə və şagirdlərin dini təcrübələrini və duyğularını ifadə etmələrinə, bunlar haqqında suallar verib cavablar ortaya qoymalarına, özlərinin və başqalarının fikirlərinə tənqidi yanaşmalarına, müqayisə və sintez aparmalarına, eləcə də irəli sürülən fikirləri dini mənbələri ilə aydınlaşdırmağa imkan verən, həmçinin öyrənmə strategiyası kimi konstruktiv anlayışı əsas götürən yanaşma ilə təlim həyata keçirilməlidir (Bahçekapılı, 2011, 107).

IV. Din tədrisində məzhəbüstü yanaşma, onun məqsədi və əsas xüsusiyyətləri

Qloballaşan dünyada mədəni müxtəlifliyin artması, informasiya texnologiyalarının çoxalması və bunun nəticəsində müxtəlif mədəniyyət və dinlərlə bağlı məlumatların artması din tədrisində modellərin ortaya qoyulmasını və bunların inkişaf etdirilməsini zəruri etmişdir. Sözügedən səbəblər nəticəsində ənənəvi din tədrisi, yəni bir dini, bir məzhəbi əsas götürən və yalnız onun mənbələrinə söykənən konfessional din tədrisi modeli sorğulanmağa başlanmışdır. Qeyd edək ki, 1970-ci illərə qədər din tədrisi kilsənin nəzarətində olmuş və ənənəvi formada aparılmışdır. Bu tarixdən sonra yuxarıda qeyd edilən səbəblərdən din tədrisində islahatlar aparılmağa başlanmış və dünya dinləri haqqında fenomenoloji dini maarifləndirmə ilə yanaşı, şagirdlərin dünyagörüşünü zənginləşdirmək, onlara dini kimlik qazandırmaq məqsədilə dini-əxlaqi dəyərlərin aşılanması din tədrisinin qarşısına qoyulan əsas vəzifələrdən olmuşdur. Bütün dünyada gedən bu sorğulama və arayışlar din pedaqoqlarını din tədrisi ilə bağlı yeni modellər ortaya qoymağa sövq etmişdir. Məhz bu modellərdən biri də qeyri-konfessional hesab edilən

məzhəbüstü din tədrisidir. Din tədrisində mədəni müxtəliflik olduqca mühüm əhəmiyyət kəsb edən bir məsələdir. Belə olan halda, din tədrisi prosesində şagirdlərə fərqli inanc və mədəniyyətlərə qarşı tolerant mövqe nümayiş etdirmələri və onlara hörmətlə yanaşmaları aşılanmalıdır. Şagirdlər dinlər haqqında maarifləndirilməli və bu sahədə onların analiz qabiliyyətləri ortaya çıxarılmalıdır. Həmçinin onların əxlaqi və mənəvi cəhətdən inkişaf etmələrinə təkan verilməlidir (Okumuşlar, 2007, İl: 7, Say: 2, 252-253).

Məzhəbüstü din tədrisi modeli – hər hansı bir dinə bağlı bütün şagirdlərin məzhəb ayrı-seçkiliyinə yol vermədən eyni mühitdə təhsil almalarının vacibliyini mənimsəyən bir yanaşmadır. Keçilən fənnin məqsədi və məzmunu dərsdə iştirak edən bütün şagirdləri əhatə edəcək şəkildə və tədris olunacaq dinin (dinlərin) əsasları diqqətə alınaraq müəyyən edilməlidir. Ona görə də məzhəblər arasındakı ixtilaflar dərsin mövzularına daxil edilməməlidir (Kesimoğlu, 2019, 64). Məzhəbüstü din tədrisi modeli inanc, ibadət və əxlaqi dəyərlərin hər hansı bir məzhəbin din anlayışı və yanaşmasına bağlı qalmadan təsviri üsulla aparılan modelidir. Bu modeldə hər hansı bir dinin məzhəb mərkəzli tədrisinin meydana gətirəcəyi mənfi halları aradan qaldırmaq üçün sosial bir elm sahəsi kimi və dini-elmi tədqiqatlara əsaslanaraq tədris edilməsi olduqca vacibdir. Belə olan təqdirdə, din tədrisi normativ və ideoloji xarakterdən uzaq olar və sırf din haqqında öyrənmə prosesinə çevrilər. Əks təqdirdə, tədris prosesinin ideoloji ünsürlərdən xilas olması qeyri-mümkündür. Məzhəbüstü din tədrisində məqsəd şagirdlərə din haqqında düzgün məlumat vermək, tənqidi düşüncə və analiz bacarığı qazandırmaq, cəmiyyətdəki müxtəlif din və anlayışlara tolerant yanaşmaq, dözümlü olmaq, düzgün davranışa istiqamətləndirmək və dini-əxlaqi dəyərlər aşılamaqdır. Vurğulamaq lazımdır ki, din tədrisində məzhəbüstü yanaşma modelində təlim-tərbiyə prosesində dini bir davranış nümayiş etdirməsi ilə əlaqədar olaraq heç bir şagirdə təzyiq göstərilə bilməz. Bu tədris fərdlərin və cəmiyyətlərin dini baxımdan istismar edilmələrinə əngəl olan sağlam və düzgün dini biliklər öyrətməyə çalışar. Məhz bütün bunlara nail olmaq üçün məzhəbüstü din tədrisinin təməlində insana hörmət, düşüncəyə sayğı, əxlaqi olana ehtiram, eləcə də azadlığa və mədəni irsə hörmət yer almalıdır (Kutlu, 2007).

Məzhəbüstü din tədrisi modelində iki əsas yanaşma mövcuddur. Belə ki, birinci yanaşma – birləşdirici, ikincisi – plüralist modeldir. Birləşdirici modelə görə, dövlət məktəbləri hər hansı bir dinin, məzhəbin təsiri

altında qalmamalı, din tədrisi proqramı bütün şagirdlərə xitab etmək xüsusiyyətinə malik olmalıdır. Bitərəfliyi gözləmək məqsədi daşıyan bu modelə uyğun hazırlanan tədris planında şagirdlərə dinin özü, onun əsas prinsipləri tədris edilməli, məzhəblər və din haqqında fərqli yanaşmalarla bağlı detallara yer verilməməlidir. Plüralist modelə görə isə din dərsində cəmiyyətdə mövcud olan hər bir din, məzhəb, dünyagörüşü və əxlaq anlayışı tədris edilməlidir (Bilgin, 1998, 83). Qeyd edək ki, məzhəbüstü anlayışa uyğun keçirilən dərslər, ümumiyyətlə, din kültürü, din və elm, etika, din və etika, dinlər tarixi şəklində adlandırılmışdır (Doğan, Say: III, İl: II, 2017, 139).

Məzhəbüstü din tədrisi modelində əsas məqsəd eyni dinə aid fərqli məzhəbləri və ya fikirləri mənimsəyən şagirdlərin dinin əsas mənbələrindəki vəhdəti, həmrəyliyi və birgəyaşayış anlayışını sinifdə düzgün şəkildə öyrənmələridir. Beləliklə, onlar bütün bu fərqliliklərin eyni mənbədən əmələ gələn anlayışlar olduğunu dərk edə biləcək, dindəki anlayışların və tətbiqatların bir zənginlik olduğunun fərqinə varacaq, fərqli düşünənlərə hörmət göstərəcəklər. Odur ki, bu model şagirdlərdə fərqli din və anlayışlarla bağlı sağlam yanaşma tərzinin inkişaf etməsini, şüurlu seçim və multikultural cəmiyyətdə vacib olan tolerantlıq anlayışı formalaşdırmaq məqsədilə irəli sürülmüşdür. Bundan əlavə, vurğulamaq lazımdır ki, dövlət-din münasibətləri baxımından da din tədrisinin bu modeli sayəsində dövlət dinlərə qarşı olan bitərəfliliyini qoruyub-saxlayır, vətəndaşlarının inanc azadlığı ilə bağlı hüquqlarını təminat altına alır (Kesimoğlu, 2019, 65).

Yuxarıda qeyd edilənlər əsasında aydın olur ki, məzhəbüstü din tədrisinin nəzərdə tutulan məqsədini tam şəkildə gerçəkləşdirə bilməsi üçün aşağıda sadalanan xüsusiyyətlərə malik olmalıdır:

- Müxtəlif din və dünyagörüşləri ilə bağlı maarifləndirici təsviri biliklər öyrədilməli, lakin mücərrəd məlumat verməklə qalmamalı, eyni zamanda, dinlərin insanın fərqli yönlərinə necə xitab edib onu dəyişdirdiyi və ona təsir etdiyi izah olunmalıdır.
- Hər hansı bir dinin həqiqət olub-olmaması ilə bağlı iddiası əsas götürülərək, tərəfkeşlik edilməməli, eləcə də dinin, yaxud məzhəbin müdafiəçisi mövqeyindən çıxış edilməməlidir.
- Hər hansı bir məzhəbin mətni əsas götürülməməli, mənbə və ana qaynağa söykənərək, mövcud olan məzhəblərin də ana mətnlərindən istifadə edilməlidir.

- Zərurət qarşısında hər hansı bir fərqli yanaşma, ya da məzhəb barəsində məlumat verildikdə həmin mövzu ilə bağlı fərqli fikirlərə və rəylərə də yer verilməlidir.
- Fərqli din, məzhəb və dünyagörüşləri tədris edilərkən bütün inanc sistemlərində mövcud olan müştərək mövzulardan istifadə edilməlidir.
- İbadət, dua və yaxud ayinlər bilgi və mədəniyyət baxımından tədrisin predmeti ola bilməklə yanaşı, bunların şagirdlər tərəfindən icra edilməsi ilə bağlı hər hansı bir tələb və yaxud gözləntiyə yol verilməməlidir.
- Din tədrisi keçirilən siniflər fərqli din və məzhəblərdən olan şagirdlərdən təşkil olunmalıdır.
- Bu fənni tədris edən müəllimin inanclı olub-olmaması əhəmiyyət kəsb etməməlidir. Müəllim dinlərə qarşı mənfi hərəkətlərə yol verməməli, mənimsədiyi dinin inancını ön plana çıxarmalı, bitərəflilik prinsipinə xələl gətirməməlidir. Eyni zamanda, heç bir şagird inancından ötrü nə məzəmmət edilməli, nə də təriflənməlidir.
- Şagirdin dinlərlə bağlı biliyi və anlayışı artırılmalı, eləcə də fərqli dinləri qavramasına və anlayışının inkişaf etdirilməsinə köməklik göstərilməlidir.
- Şagirdin insani baxımdan inkişaf etməsinə köməklik göstərilməlidir.
- Hər bir şagird dini mənimsətmə kimi bir məqsəd olmadan fərdi şəkildə qiymətləndirilməlidir.
- Şagirdin öz inanc və mənəvi dəyərlərini formalaşdırmasına köməklik göstərilməlidir.
- Şagirdlərin bir-birinin və ətrafdakıların fərqliliklərini qəbul edərək birgəyaşayış şüuru qazanmaları təmin edilməlidir.
- Şagirdlərin hörmət və tolerantlıq zəminində davranışlar formalaşdırmasına köməklik göstərilməlidir.
- Şagirdlərin dinlərlə bağlı müxtəlif seçimləri, insanların arayışları və sorğu-sualları nəticəsində əldə etdikləri fərqli cavablardan irəli gəldiyini dərk etmələri təmin olunmalıdır.
- Şagirdlərin dinin içərisindəki fərqli anlayışların söykəndiyi əsas qaynaqları qavramaları və beləliklə, dinə subyektiv yanaşmanı bir-birindən ayırd edə bilmələri təmin olunmalıdır.

Nəticə

İnsanların inandıqları dini öyrənmə və sonrakı nəsillərə ötürmə ehtiyacına görə ortaya çıxan din tədrisi ilə bağlı tarixdən günümüzədək dəyişən həyat şərtləri nəticəsində fərqli anlayışlar ortaya çıxmışdır. Qloballaşan dünyada mədəni müxtəlifliyin artması, informasiya texnologiyalarının çoxalması, bunun nəticəsində müxtəlif mədəniyyət və dinlərlə bağlı məlumatların artması din tədrisində müxtəlif modellərin ortaya qoyulmasını və bunların inkişaf etdirilməsini zəruri etmişdir. Sözügedən bu amillər nəticəsində ənənəvi din tədrisi, yəni bir dini, bir məzhəbi əsas götürən və yalnız onun mənbələrinə söykənən konfessional din tədrisi modeli sorğulanmağa başlanmışdır. Qeyd edək ki, 1970-ci illərdən sonra din tədrisində yeni modellər haqqında fikirlər səsləndirilməyə başlanmış və dünya dinləri haqqında fenomenoloji dini maarifləndirmə ilə yanaşı, şagirdlərin dünyagörüşünü zənginləşdirmək, onlara dini kimlik qazandırmaq məqsədilə dini-əxlaqi dəyərlərin aşılanması din tədrisinin qarşısında duran əsas məsələlər olmuşdur. Sözügedən modellərlə bağlı vurğulamaq lazımdır ki, məzhəbüstü din tədrisinin ümumi prinsiplərinin birmənalı olmasına baxmayaraq, dünyada aparıcı ölkələrdən tutmuş, digər ölkələrədək hər biri özünəməxsus din tədrisi siyasətini həyata keçirmiş və hazırda da bu proses davam etməkdədir. Bu fərqli yanaşmaları meydana gətirən əsas amillər arasında cəmiyyətin dinlə əlaqəsi, onun plüralist və multikultural bir cəmiyyət olub-olmaması, ölkələrin dünyəvilik prinsipindən çıxış edib-etməməsi, eləcə də onun tarixi irsi, ənənəsi və orta məktəblərdəki din tədrisnin əsas məqsədi kimi məsələlər xüsusi yer tutur.

Qeyri-konfessional xarakter daşıyan məzhəbüstü din tədrisi yanaşması din təhsilini pedaqogikanın bir hissəsi hesab edərək din tədrisinə pedaqoji bir baxış bucağı gətirmişdir. Məzhəbüstü din tədrisində məqsəd şagirdlərə din haqqında düzgün məlumat vermək, tənqidi düşüncə və analiz bacarığı qazandırmaq, cəmiyyətdəki müxtəlif din və anlayışlara tolerant yanaşmaq, dözümlü olmaq, düzgün davranışa istiqamətləndirmək, dini-əxlaqi dəyərlər aşılamaqdır. Qeyd edək ki, din tədrisində məzhəbüstü yanaşma modelində təlim-tərbiyə prosesində dini bir davranış nümayiş etdirməsi ilə əlaqədar olaraq heç bir şagirdə təzyiq göstərilə bilməz. Bu tədris fərdlərin və cəmiyyətlərin dini baxımdan istismar edilmələrinə əngəl olan sağlam və düzgün dini biliklər öyrətməyə çalışar. Məhz bütün bunlara nail olmaq üçün din tədrisinin

təməlində insana hörmət, düşüncəyə sayğı, əxlaqı olana ehtiram, eləcə də azadlığa və mədəni irsə hörmət anlayışları yer almalıdır.

Bundan əlavə, qeyd edək ki, dövlət-din münasibətləri baxımından dünyəvilik prinsipinə söykənən ölkəmizdə müstəqil din dərsi tədris edilməsə də, 2004-cü ildən ümumtəhsil məktəblərində tədris olunan Həyat bilgisi dərsliklərində 1-ci sinifdən 9-cu sinifə qədər dinlərlə əlaqəli əsas biliklər öyrədilir. Beləliklə, ölkəmizdə Həyat bilgisi fənni çərçivəsində məzhəbüstü yanaşmanın ümumi prinsipləri tətbiq edilməklə yanaşı, özünəməxsus bir şəkildə din tədrisi modeli həyata keçirilir. Ümumilikdə, Həyat bilgisi dərsliklərində plüralist mövqedən çıxış edilir və mövzular təsviri üsulla izah edilməklə maarifləndirici xarakter daşıyır. Sözügedən fənnin tədrisi əsasında şagirdlər dünya dinləri haqqında yığcam və təsviri üsulla maarifləndirilir, onlarda bütün dinlərə qarşı tolerant dünyagörüşü formalaşdırılır, beləcə, dini radikalizm meyillərinin qarşısının alınması üçün səy göstərilir. Vurğulamaq lazımdır ki, Həyat bilgisi dərsliklərindəki mövzuların metodologiya və məzmun cəhətdən dinşünaslıq və pedaqogika elmlərinin müştərək metodları çərçivəsində yenidən tərtib olunması və bu fənni tədris edənin "Dinşünas" ixtisasına sahib olub-olmamasının əhəmiyyəti ilə bağlı məsələlərin yenidən nəzərdən keçirilməsi məqsədəuyğun hesab olunur.

Ədəbiyyat

Arpacı, M. (2012). Din Kültürü ve Ahlak Bilgisi Derslerinde Yapılandırmacı Öğrenme Ortamları. Dinbilimleri Akademik Araşdırma Dergisi. Cild: 12. Say: 3. (151-174 s.).

Aşlamacı, İ. (2018). Öğretmenlerine Göre Din Kültürü ve Ahlak Bilgisi Dersinin Din Öğretimi Modelleri Çerçevesinde Konumlandırılması. Çukurova Üniversitesi İlahiyat Fakültesi Dergisi. 18 (2). (718-744 s.).

Bahçekapılı, M. (2011). Din Eğitiminde Pedagojik Yaklaşımlar; "Din Hakkında Öğrenme" ve "Dinden Öğrenme". Islamic University Europe. Journal of Islamic Research. (101-120 s.).

Bilgin, B. (1998). Eğitim Bilimi ve Din Eğitimi, Ankara. Gün Yayıncılık. (147 s.).

Büyükkara, M.A. (2017). Mezhep ve Mezhepçilik. İlahiyat Akademi Dergisi. Say: 5. (1-9 s.).

Çakmak, F. (2024). DKAB Öğretmenlerine Göre Din Öğretiminde İslâm Düşüncesinde Farklı Yorumlar (Mezhep) Öğretimi Üzerine Nitel Bir Araştırma. Kocatepe İslami İlimler Dergisi, Cild: 7. Say: 1. (1-36 s.).

Doğan, P.U. (2017). Mezhepler Üstü Bir Program Tasarımın Nitelikleri Üzerine Nitel Bir Çalışma, Kırıkkale İslami İlimler Fakültesi Dergisi, Say: III, İl: II, (127-154 s.).

Əzizova, E. (2018). Azərbaycanın orta ümumtəhsil məktəblərinin "Həyat bilgisi" dərsliklərində dinə baxış: kvantitativ və kvalitativ təhlil. Din araşdırmaları jurnalı. Say: 1. (7-29 s.).

Gündüz, Ş. (2017). Yaşayan Dünya Dinleri. Ankara. Diyanet İşleri Başkanlığı. (17-33 s.).

İbn Mənzur. Lisan əl-Ərəb. Dar Sadir. Beyrut. I-XV.

İfəhani, R. (1998). əl-Müfrədat fi qərib əl-Quran. Dar əl-Mərifə. Beyrut. (555 s.).

Kesimoğlu, M. (2019). Din Eğitimi Açısından Tolerans Kavram. Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü Felsefe ve Din Bilimleri Anabilim Dalı. Bursa. Çap edilməmiş migistr işi. (105 s.).

Kılavuz. A.S. (1997). İslamda İnanç, İbadet ve Günlük Yaşayış Ansiklopedisi. M.Ü. Fakültesi Vakfı Yayınları. III. (230-232).

Kızılabdullah-Yürük, Y.-T. (2010). Din Eğitimi Modelleri Çerçevesinde Türkiye`deki Din Eğitimi Üzerine Gelen Bir Değerlendirme. Kuram ve Eylem Yönüyle Din Eğitiminin Teolojik ve Felsefi Temelleri. Konya İlahiyat Yayınları. (124-144 s.).

Kutlu, S. (2013). İslamiyet-Hristiyanlık Kavramları Sözlüğü. Ankara Ünuversitesi Yayınevi. I-II. (935 s.).

Kutlu,S.(2007).DinÖğretimindeMezheplerÜstüYaklaşım.http://www.sonmezkutlu.net/?pnum=105&pt=Din+%C3%96%C4%9Fretiminde+Mezhepler+%C3%9Cst%C3%BC+Yakla%C5%9F%C4%B1m+ve+Alevili%C4%9Fin+%C3%96%C4%9Fretimi

Qənbərov, A. (2022). Dünyada din təhsili modellərinə dair bəzi nümunələr. "Müasir dünyada din təhsili" mövzusunda Respublika elmi konfransının materialları. Bakı "Ave Print" MMC. (73-88 s.).

Murati, Ü. (2023). Çokkürltürlü Bir Toplum Olarak Kuzey Makedonya`da Din Eğitimi. Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü Felsefe ve Din Bilimleri Anabilim Dalı. Bursa. Çap edilməmiş doktorantura işi. (174 s.).

Okumuşlar, M. (2007). Çok Kültürlü Toplumlarda “Din Hakkında Öğrenme” ve “Dinden Öğrenme” Modelleri. Marife. İl: 7. Say: 2. (251-264 s.).

Sarıkaya, M.S. (2005). İslam Düşünce Tarihinde Mezhepler. İstanbul. Rağbet Yayınları. (288 s.).

Tümer, G. (1994). Din. Diyanet İslam Ansiklopedisi. Cild: IX. İstanbul. (312-320 s.).

Din tədrisinin əhəmiyyəti: hədəflər və problemlər

f.f.d. Faiq Əhmədzadə,
Bakı İlahiyyat Kollecinin direktor müavini,
Azərbaycan İlahiyyat İnstitutu
İslamşünaslıq kafedrasının müəllimi
Bakı, Azərbaycan
faig1071@gmail.com
https://orcid.org/0000-0003-4921-2517

Xülasə

Din tədrisi dini yaşamaq qədər mühümdür. Dini doğru yaşamaq, düzgün tətbiq etmək üçün onu əvvəlcə öyrənməyə ehtiyac var. Din insanın həyatında ona hədəf təyin edir, ölümdənsonrakı həyat kimi şəxsi narahat edən suallara cavab verir, insana sevgi və doğruluq aşılayır. Din tədrisinin çərçivəsi, əsasən, üç istiqamətdə olmalıdır. Birincisi, inanc məsələsidir. İnsan nəyə və necə inanmalıdır? İnancın insana verdikləri nələrdir? Bu sualların cavabı tədris prosesində araşdırılır. İkincisi, cəmiyyətin sabitliyi və inkişafı üçün ən prioritet məsələ əxlaqdır. İnanc öz-özlüyündə əxlaqı ehtiva edir. Tədrisdə dinlər arasında fərq qoyulmadan əxlaqi keyfiyyətlərə yer verilməlidir. Üçüncüsü, dini gətirən və yaşadan şəxsiyyətlərin, peyğəmbərlərin hekayələrinin hikmətləri izah edilməlidir. Bu hekayələr insana mənəvi güc və inancı daha yaxından dərketmə imkanı yaradır.

Dinin tədrisi müəyyən metodologiya və proqram vasitəsilə, planlı şəkildə daha çox faydalı ola bilər. Din, əslində, doqmalardan ibarətdir. Bu doqmalar dəyişməzdir. Təlim səviyyəsində təhsildə özünü göstərərsə, problem meydana çıxacaq. Kiməsə nəyisə məcburən qəbul etdirmək fayda verməyəcək. Ona görə də din planlı şəkildə tədris olunmalıdır. Tədrislə dinin funksiyası bir-birinə çox yaxındır. Belə ki, hər ikisi cəmiyyətə faydalı şəxsiyyət yetişdirmək məqsədi daşıyır. Din tədrisinin bir sıra əhəmiyyətli tərəfləri mövcuddur: insana mənəvi güc qatır, hədəflər qazandırır, mükəmməl insan olmanın yollarını göstərir, onu narahat edən suallara cavab verir. Əxlaqi-mənəvi keyfiyyətlər qazandırır. Bu baxımdan, din tədrisi şəxsiyyətin yetişməsində mühüm rol oynayır.

Açar sözlər: *din təhsili, əxlaqi keyfiyyətlər, təlim və tədris, doqmatik təlim, formal və informal təhsil.*

The Importance of Religious Education: Goals and Challenges

Assist. Prof. Faig Ahmadzada
Deputy Director of Baku Theological College
Lecturer at the Department of Islamic Studies of the
Azerbaijan Institute of Theology
Baku, Azerbaijan
faig1071@gmail.com
https://orcid.org/0000-0003-4921-2517

Abstract

Teaching religion is as important as living religion. Because in order to live the religion correctly, it is necessary to learn it first. Religion gives a person a goal in his life. He finds answers to the questions that bother people, such as life after death. It instills love and truth in a person. The framework of religious education should be mainly in three directions. The first is a matter of faith. What should a person believe and how? What are the benefits of faith? The answer to these questions is investigated in the educational process. Secondly, the most priority issue for the stability and development of society is morality. Faith in itself includes morality. Moral qualities should be given place in education without making a distinction between religions. Thirdly, the wisdom of the personalities, prophets and stories that bring and keep the religion alive should be explained. These stories provide a person with spiritual strength and an opportunity to understand faith more closely.

Teaching religion can be more beneficial if it is planned through a certain methodology and program. Because religion actually consists of dogmas. These dogmas are immutable. If it manifests itself in education at the training level, it will be a problem. It will not help to force someone to accept something. Therefore, religion should be taught in a planned way. The function of education and religion are very close to each other. Thus, both of them aim to cultivate a useful personality for the society. There are several important aspects of religious education. It adds spiritual strength to a person. It gives him goals. It shows the ways to be a perfect person. He answers the questions that bother him. It gives moral and spiritual qualities. From this point of view, religious education plays an important role in personality development.

Keywords: *Religion study, Moral qualities, Training and teaching, Dogmatic training, Formal and informal education*

Важность религиозного образования: цели и задачи

д.ф.ф. Фаиг Ахмадзада
Заместитель директора Бакинского
Теологического Колледжа,
Преподаватель кафедры Исламоведения
Азербайджанского института теологии
Баку, Азербайджан
faig1071@gmail.com
https://orcid.org/0000-0003-4921-2517

Резюме

Преподавать религию так же важно, как и жить ею. Ведь для того, чтобы правильно жить по религии, необходимо сначала ее изучить. Религия дает человеку цель в его жизни. Он находит ответы на вопросы, которые волнуют людей, например, о жизни после смерти. Она прививает человеку любовь и истину. Религиозное образование должно строиться в основном по трем направлениям. Первое - это вопрос веры. Во что и как должен верить человек? Каковы преимущества веры? Ответ на эти вопросы исследуется в образовательном процессе. Во-вторых, наиболее приоритетным вопросом для стабильности и развития общества является нравственность. Вера сама по себе включает в себя нравственность. Нравственным качествам должно быть отведено место в образовании без различия между религиями. В-третьих, необходимо объяснять мудрость личностей, пророков и историй, благодаря которым религия живет и сохраняется. Эти истории дают человеку духовную силу и возможность глубже понять веру.

Преподавание религии может быть более полезным, если оно спланировано по определенной методике и программе. Ведь религия фактически состоит из догм. Эти догмы незыблемы. Если это проявится в образовании на уровне подготовки, это будет проблемой. Насильно заставить человека что-то принять не получится. Поэтому религия должна преподаваться планово. Функции образования и религии очень близки друг к другу. Обе они направлены на воспитание полезной для общества личности. Существует несколько важных аспектов религиозного образования. Оно придает человеку духовную силу. Оно ставит перед ним цели. Оно

показывает, как стать совершенным человеком. Оно отвечает на вопросы, которые его беспокоят. Прививает моральные и духовные качества. С этой точки зрения религиозное образование играет важную роль в развитии личности.

Ключевые слова: *религиоведения, моральные качества, обучение и преподавание, догматическое воспитание, формальное и неформальное образование.*

Giriş

Din anlayışı bəşəriyyətin varlığı ilə meydana gəlib. İstər dini rəvayətlər, istərsə də tarixi-arxeoloji tədqiqatlarda dinin ilkin mədəniyyətlərlə birlikdə mövcudluğu isbatlanıb. İnsanın mənəvi-ruhani yönünün inkişafı üçün inancın əhəmiyyəti danılmazdır. Təbii ki, tarixi seyr içərisində inanclar müsbət yöndən dəyərləndirildiyi kimi, onların mənfi məqsədlərə xidmət etməsinə şərait yaradılıb. Hakimiyyəti möhkəmləndirmək, iğtişaşlar yaratmaq, sərvət əldə etmək düşüncəsi ilə dinlər insanların idarəsi üçün uyğun hesab edilib. Bu isə müxtəlif dinlərdən və məzhəblərdən olan insanların hakimiyyət uğrunda canlarından keçməsinə gətirib çıxarıb.

Halbuki bir çox inanc və dinlərin mahiyyəti araşdırılsa, onların fundamental olaraq sevgi və məhəbbət anlayışını özündə ehtiva etdiyi görünəcəkdir. Düzgün təbliğat və tədris sayəsində insanlar dinin sevgi tərəfinə vaqif olsalar, mötədil şəkildə birgəyaşayışı təmin etmək mümkün görünə bilər. Üstəlik, dinin mənəvi zənginliklərə, insanların ruhani boşluqlarına əlac ola bilməsi də mümkün görünər.

Dinin sistematik şəkildə öyrədilməsi fərdi formada məlumat əldə etməkdən daha böyük məsuliyyətə gətirib çıxarır. Dini dünyagörüşün subyektiv şəkildə, müəyyən şəxs və məqsədlərə xidmət üçün təyin edilməsi bəşəri duyğuları, insanlararası münasibətləri zədələyə bilir. Buna görə də dinin müəyyən balans müstəvisində çatdırılması mühümdür.

Din tədrisinin əhəmiyyətinin tədqiq edilməsi üçün bəzi məsələlərə aydınlıq gətirməyə ehtiyac var. “Din tədrisi” deyərkən nə nəzərdə tutulur? Dinin tədrisi və təlimi arasında fərq nədir? Dinin tədrisinəmi, yaxud

təliminəmi üstünlük verilməlidir? Dinin tədrisinin faydaları nələrdir? Dinin tədrisi hansı metodlarla faydalı olar? Dini hansı yöndə tədris etməklə müsbət nəticələr qazanmaq olar? Din tədrisi insana nələr verə bilər? Məqalədə bu sualların cavabları məsələnin mahiyyətinə kifayət qədər aydınlıq gətirəcək.

1. Din tədrisinin mahiyyəti

Din tədrisi göründüyündən daha çox həssas bir mövzu kimi qarşımıza çıxır. Tarixən dünya təcrübəsində din tədrisinin daha çox siyasi məqsədlər üçün istifadə edildiyi məlumdur. Məsələn, Fatimilər dövlətində "əl-Əzhər" Universitetinin qurulması, Səlcuqlar dövlətində Nizamiyyə mədrəsələri, katolik məzhəbinə bağlı Cizvit məktəbləri, missionerliklə fəaliyyət göstərən təhsil və tədris mərkəzlərini buna nümunə olaraq göstərmək mümkündür. Buna görə də dini tədrisin hədəflərini müəyyən etmək üçün əvvəlcə din mövzusunda nələrin nəzərdə tutulduğunu öyrənmək daha doğru olar.

a) Dinin mahiyyəti

"Din" sözünün arami-ivrit dilindən gəldiyi təxmin edilir. Cəza, mükafat, hökm, hesab, boyunəymə, ibadət, adət, yol mənalarını verir. Avropa dillərinin kökü hesab edilən latın dilində isə "religio" sözü ilə ifadə olunur. Bu sözün mənası hörmət, etina, təzim edilən olaraq bilinir. Digər dillərdə də hərfi mənası, əsasən, Tanrı ilə əlaqə, yaxud Tanrının qoyduğu qanun, nizam şəklində açıqlanır (Aydın, 2008, 12).

Terminologiyada isə dinin müxtəlif tərifləri ilə qarşılaşmaq mümkündür. İslam ənənəsində din – ağıl sahibi olan insanları öz iradə və arzuları ilə onlar üçün xeyirli olan yola sövq edən ilahi qanun kimi qəbul edilir. Bu anlayışa görə, din, sadəcə, Allahdan gəlir və mənbəyi vəhydir. Avropalı psixoloq və sosioloqların dinin mənbəyi barədə müxtəlif fikirlərə sahib olması dinin tərifində də fərqli düşüncələrə yol açır. Rudolf Ottoya görə, din insanın müqəddəs hesab etdikləri ilə əlaqəsidir. Emil Durkeymə görə, din bir camaatın meydana gəlməsini təmin edən ayin və inanclar sistemidir. Mirça Elizadeyə görə, din müqəddəsin təcrübəsinə imandır. Ceyms Corc Freyzerə görə, din insan həyatı və təbiətin nizamına nəzarət etdiyinə inanılan fövqəltəbii güclərə müraciət və təzimdir (Mürsəlova, 2024, 16).

İstər islami, istərsə də digər nöqteyi-nəzərdən baxdıqda, “din” məfhumu fövqəltəbii güc, Tanrı, yaxud ayinlərlə əlaqəlidir. İnsan həm fiziki, həm də mənəvi cəhətdən zəif yaradıldığı üçün hər zaman özündən daha güclü və yardım edə biləcək varlığa ehtiyac duyur. Buna görə də din, yaxud inanc onun həyatında köklü dəyişikliklər yarada bilir; mənəvi olaraq gücləndirir, əxlaqi dəyərlər aşılayır, cəmiyyətdə varlığını hissetmə imkanı yaradır. Buna görə də ibtidai cəmiyyətlərdən günümüzə qədər inanc insanlar üçün xüsusi əhəmiyyət kəsb edib.

Dini inanc fitri anlayışdır. İnsan özünü dərk etməyə başladıqdan sonra suallar verib inancını araşdırır (Özbek, 1999, 118). İnsanın dünyaya gəlməsinin hikməti və səbəbi nədir? İnsan dünyada özünə necə bir hədəf seçməlidir? Həyatın mənası nədir? Kimə inanmalıdır və kimdən kömək istəməlidir? Əlacsız qalarkən onu həyata bağlayan, mübarizəyə təşviq edən nə olmalıdır? Ən ümdə suallardan biri – insan dünyasını dəyişdikdən sonra nə baş verir? Tamamilə yox olub torpağa qarışır, yoxsa ölümdən sonra yeni bir həyata qovuşur? İnsan sevdiklərini itirdikdən sonra, onları bir daha görməyəcəyini düşünərək canına qəsd edə bilər. Buna görə də ölümdənsonrakı həyat anlayışı insana güc-qüvvət verir, onu yenidən həyata bağlayır. Təsadüfi deyil ki, arxeoloji qazıntılar zamanı açılan qəbirlərdə ölünün yanında onun vardövləti və minik heyvanları aşkarlanıb. Qədim dövrlərdə insan öldükdən sonra həmin yanına basdırılanlarla yeni bir həyata başlaması inancı mövcud olub. Bu da onu göstərir ki, ölümdənsonrakı həyat anlayışı qədim sivilizasiyalardan bəri mövcud olub.

Din insanları xeyir işlər görməyə, yaxşı sayılan davranışlara sövq edir. Bu isə əxlaqın mənbəyi hesab edilir. Əxlaq da hüquq və nizam-intizama yönəldir (Özbek, 1999, 119). Deməli, dinin digər müsbət tərəfi insana mənəvi duyğuları aşılamasıdır. Beləcə, insan özünü din vasitəsilə nəzarətdə saxlaya bilir, əxlaqi dəyərlərini inkişaf etdirir. Doğru zənn etdiyi pis vərdişlərdən uzaqlaşmağı bacarır. Din, sadəcə, fərdi yaşayış deyil, həmçinin cəmiyyəti də özündə ehtiva edir. Onu cəmiyyətdən uzaq düşünmək doğru hesab edilməz. Əxlaqi dəyərlər, hüquqi normalar və vicdani məsələlər dini mənimsəmiş cəmiyyətlər tərəfindən tənzimlənir. Beləcə, dini-mənəvi dəyərlər insanı fərd olaraq cəmiyyət qarşısında məsuliyyət daşımağa sövq edir.

Dinlərin mahiyyəti tədqiq edilərsə, onların bir dəyər sistemi olduğu görünəcəkdir. Əgər din dəyərlər sistemi toplusudursa, o zaman insanın var olması ilə bağlı bəzi sualların cavablarını bu anlayış çərçivəsində axtarmaq lazımdır. Bu suallar üç istiqamətdə müəyyənləşdirilir:

- fərdi şəxsiyyət kontekstində; mən kiməm və bunu kəşfetmə prosesində hansı çətinliklərlə qarşılaşa bilərəm?

- sosial varlıq kontekstində; bir cəmiyyət olaraq biz kimik? Gözün görmədiyi məfhumları təcrübədən necə keçirib dərk edəcəyik?

- kainatdakı yerimiz kontekstində; inandığımız bu kainat nədir? Yaşamaq üçün yaxşıdır, yaxud pis bir yerdir? Ona hansı güclər təsir edir? Burada necə həyat sürmək lazımdır? (Bruno, 1978, 73/594).

Bu suallara cavab tapmağa çalışarkən insan istər-istəməz dini dünyagörüşünə sahiblənməyə məcburdur. Beləcə, din mahiyyət etibarilə insanı təkmilləşməyə sövq edir. Ona özünü, şəxsiyyətini dərk etməkdə köməklik göstərir. Buna görə də din doğru, dürüst və səmimi şəkildə yaşanarsa, bir çox yöndən insan üçün dəyər təşkil edə bilər:

- din – əxlaqa yönəldir, mənəvi duyğular aşılayır;
- din – təsəlli mənbəyidir;
- din – ölümdənsonrakı həyat haqqında suallara cavab verir;
- din – birliyə, cəmiyyət olmağa yönəldir;
- insanın hisslərini nəzarət altında saxlamasına yardım edir;
- pisi yaxşıdan, zərərli olanı faydalıdan ayırmaqda yol göstərir.

Din tədirisinin bu nöqteyi-nəzərdən mühümlüyü gözə çarpır. Cəmiyyətin əsla imtina edə bilmədiyi və bir çox narahat edən suallara cavab tapması, özünü dərk etməsi üçün dini tədrisin mühüm rolu danılmazdır.

b) Din tədrisinin nəzəri çərçivəsi

Din tədrisinin çərçivəsini müəyyən etmək həddən artıq çətindir. Dini hansı yönüylə ön plana çıxarmaq lazımdır? Din tədrisində dinləri hansı cəhətdən əlaqələndirmək lazımdır? Bu kimi suallar din tədrisinin sərhədlərini müəyyən etməkdə çətinlik törədir. Təbii olaraq bunun tədris metodikasına da müəyyən təsirləri olur. Xüsusilə müxtəlif dinlərin nümayəndələrinin mövcud olduğu bir ölkədə din tədrisinin predmetini təyin etmək diqqətliliyi tələb edir. Bu da məsələyə bir neçə aspektdən yanaşmağın uyğun olduğunu göstərir.

Hər bir dinin inanc sistemi mövcuddur. Buna görə də bu mövzu ilə bağlı tədrisdə əvvəlcə inanclar ön planda olmalıdır. Hər bir dinin inancı, mahiyyəti, bu inancın meydana çıxması və inkişaf tarixi, həmin inancın insanlar üzərindəki təsiri haqqında mütləq məlumat verilməlidir. İnanc əsasları olmadan dini öyrənməyin hər hansı bir mənası yoxdur. İnanc dinin formalaşması, insan şəxsiyyətindəki dəyişikliklərə təsirinin

göstəricisidir. Dini düşüncə tərzi də inancla formalaşır. Əgər bir din birliyə, sevgiyə, birgəyaşayışa sövq edirsə, bu, inanc sayəsində mümkün olur. Həmçinin inanc sayəsində bir çox sualın cavabını tapmaq mümkündür. Məsələn, kainatın və insanın yaradılışı bəzi dini kitablarda öz yerini tapır. Tövrat və Quranda yaradılışla bağlı xeyli açıqlama mövcuddur. Bu açıqlamaların nəzdində insanın kainatdakı roluna da aydınlıq gətirilir.[25]* Bununla yanaşı, ölümdənsonrakı həyat mövzusu inancın ən ümdə məsələlərindəndir. Bu anlayış da inanc kontekstində dəyərləndirilməlidir.

Dinlər mənəvi dəyərləri insanlara aşılamağa əhəmiyyət verir. Əxlaqi prinsiplər həmin mənəvi dəyərlərin arasında xüsusi yer tutur. Səmavi dinlər hesab edilən Yəhudilik, Xristianlıq və İslamda insan davranışları, əxlaqi prinsiplər çox vurğulanır. Bəzi əxlaqi davranışlar bəşəriyyətin təməl prinsipləridir. Məsələn, yalan danışmaq, böhtanatmanın doğru olmadığı, dürüstlüyün, mərhəmətin ali bir fəzilət olması din fərqi olmadan hər kəs tərəfindən qəbul edilir. İnsanların gözardı etdikləri və unutduqları bəzi dəyərlər dinlər vasitəsilə xatırlanmış olur.

Yəhudiliyin müqəddəs kitabı sayılan Tövratda Musa peyğəmbərin 10 əmri adlandırılan ümumi prinsiplər var. Həmin bu 10 əmrin içərisində 6-sı əxlaq anlayışına aiddir (Müqəddəs Kitab. Çıxış. 20). Orada ata-anaya hörmət, dürüst şahidlik, insanın malına və canına hörmətlə yanaşmaq, namusunu qorumaq, qonşuya hörmət etmək vurğulanır. Xristianlığın müqəddəs kitabı olan İncildə isə İsanın dağdakı bəzi ümumi əxlaqi prinsipləri, insanlararası hörmətlə yanaşmanı özündə əks etdirir (Müqəddəs Kitab. Matta. 13-16, 24-29). İslamın müqəddəs kitabı Quranda isə əsasən, "İsra" surəsinin (17) 22-39-cu ayələrində insana aid hərtərəfli davranış qaydaları, özünə və ətrafdakılara hörmətlə yanaşmaq, insani münasibətlərdə müəyyən sərhədlərə diqqət etmək barədə kifayət qədər nümunələr mövcuddur. Bununla yanaşı, "Hucurat" (49) və "Loğman" (31) surələrində də əxlaqi dəyərlər xüsusi yer tutur. Həmçinin yaxşılığı əmr etmək, pis işləri qadağan edib onlardan çəkindirmək üçün yollar və metodlar araşdırılmalı, tələbə və şagirdlərə izah edilməlidir. Bu nümunələr çərçivəsində günümüzdəki həyat tərzi ilə dini əxlaqi-mənəvi dəyərlər qarşılıqlı şəkildə tədris edilməlidir. Fərdlərin düşüncələrinə uyğun olan seçimlər üçün yeni üfüqlər açılmalı və yol göstərməlidir.

[25] Tövratın ilk fəsli Yaradılış olaraq başlayır. Quranda isə müxtəlif surələrdə yaradılışın mərhələləri qeyd olunur.

Quranda, həmçinin insan psixologiyasındakı zəif cəhətlər, ondan xilasolma yolları, müsbət və mənfi xüsusiyyətlər vurğulanmışdır. İnsanın ərköyün olması, tələskənliyi, nankorluğu, inkar edənlərin psixologiyası, ikiüzlü şəxslərin xarakterləri, lovğa, xudbin, xəsis, eqoist, rahatlığa meyil edən və başqa mənfi xüsusiyyətlər sadalanıb, bunlardan çıxış yolları göstərilib. Bununla yanaşı, insanın biliyinin onu doğru yola yönləndirməsi, azaddüşüncəli varlığı, iradəyə, şüura sahib olub məsuliyyət daşıması, məqsədləri olan, qurucu şəxsiyyəti onu digər canlılardan fərqləndirən fəzilətləri kimi qeyd edilib (Şanver, 2001, 142-152). İnsanın bu cür qarışıq psixologiyasının din vasitəsilə tədrisi onun həyat tərzində seçimləri düzgün etməsinə köməklik göstərə bilər.

Dinlərin bir çoxunda müəyyən şəxsiyyətlərin həyatları, onların keçdiyi yollar, mübarizələri haqqında müxtəlif hekayələr mövcuddur. Xüsusilə səmavi dinlərdə Musa, İsa və digər peyğəmbərlərin həyat tərzi şəxsiyyətin inkişafında böyük rol oynaya,həmçinin tədris prosesində şagirdlərə və tələbələrə ideallar bəxş edə bilər. Həyatda idealları olmayan şəxslərin yaşamaq üçün hər hansı ali məqsədlərinin olmaması isə psixoloji sarsıntılara daha tez məruz qalmalarına gətirib çıxara bilər. Buna görə də bəzi dini hekayələri nümunə gətirmək mübarizə ruhunu aşılamaq uyğun bir tədris metodu hesab edilə bilər. Məsələn, Nuh peyğəmbərin yorulmadan çıxış yolu axtarması, İbrahim peyğəmbərin hər kəsdən fərqli olan azad düşüncəsi, Əyyub peyğəmbərin səbri, Musa peyğəmbərin dözülməz çətinliklərə baxmayaraq mübarizəyə davam etməsi, İsa peyğəmbərin və anası Məryəmin təmizliyi nümunə göstərilə bilər. Bu mənada, peyğəmbərlərin əziyyətlərinin Allah nəzdində dəyərləndirilməsi, onlara verilən dəstək, ruh yüksəkliyi də həyatdakı mübarizə yolunda tədris edilən şəxslərə mənəvi güc qata bilər.

Din tədrisi praktiki anlayışdan daha çox nəzəri məlumatları ehtiva edərsə, daha yüksək nəticə əldə etmək olar. Birlik-bərabərlik anlayışı, inancın gücü, yaradılış və ölümdənsonrakı həyat barəsində suallara cavab axtarmaq, əxlaqi bir həyat qazanma çərçivəsində təqdim edilən tədris proqramı ilə daha çox fayda əldə etmək mükündür.

2. Din tədrisi və təlimi arasında fərq: metodoloji müqayisə

Dinin tədrisi və təlimi haqqında danışmazdan əvvəl bu iki sözün mənasına diqqət etmək yerinə düşər. Hər iki söz dilimizə ərəb dilindən keçmişdir. “Tədris” sözü dərs demək, öyrətmək, izini silmək, əzbərləməyə yönəltmək mənasına gəlir (İbn Mənzur, 1990, 6/79). Yəni bir

şeyin izi silinməsin deyə əzbərlədilməsidir. Təlim isə elm vermək, bir sənəti öyrətmək, işarə qoymaq, əlamət mənasında işlənir (İbn Mənzur, 1990, 12/419). Hərfi olaraq hər iki söz bir-birinə yaxın mənanı ifadə edir. Bu ifadələrlə sinonim təşkil edən "təhsil" sözü də var. Təhsil isə ərəb dilindən tərcümədə əldə etmək, qəbul etmək mənalarına gəlir. Pedaqoji terminologiyada hər üç anlayış fərqlidir.

Təhsil – şagirdlərin bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi, bunun əsasında dünyagörüşünün yaranması üçün planlı və məqsədyönlü bir prosesidir. Təlim isə – müəllimin rəhbərliyi altında bilik, bacarıq və vərdişlər sisteminə yiyələnmə prosesidir (Muxtarova, 1997, 5-6). Təhsilin məzmunu şagirdin idrak səviyyəsi, bilik və bacarıqlarını artırması, bu barədə aparılan tədqiqatların müsbət elmi nəticələrindən ibarətdir (Muxtarova, 1997, 20-21). Təlim prosesi çox vaxt üç istiqamətdə təzahür edir:

- doqmatik təlim; şagird hazır nəticələri, müddəaları inam əsasında mexaniki yadda saxlayır. Bu, uşaqları zehni inkişafdan geri saxlayır;

- izahlı, illüstrativ təlim; biliyin izahına, başa düşülməsinə əsaslanır. Bu təlim müşahidəçiliyə, hafizə və təfəkkürə üstünlük verir;

- müasir təlim; şagirdlərin idrak müstəqilliyinə, şüurlu və yaradıcı fəallığına əsaslanır (İsmixanov, 1998, 20).

Buradan aydın olur ki, təlim -öyrətmə prosesinin həm özüdür, həm də tətbiqidir. Tədris isə həmin prosesin planlaşdırılmasıdır. Verilən məlumatlar tədris sayəsində planlaşdırılır. Təhsil isə planlaşdırılan tədrislə, praktikada göstərilən təlimin ümumi şəkildə birləşməsidir. Yəni, təhsil tədrislə təlimin hər ikisini ehtiva edib özündə birləşdirir. Təlimdə praktika olduğu üçün təbliğ də özünü təlim içərisində göstərə bilər. Yəni bir fikri, sanki qarşı tərəfə qəbuletdirmə cəhdi, onu praktik olaraq yönəltmə prosesi mövcuddur. Tədrisdə isə deskriptiv anlayış daha çox üstünlük təşkil edir.

Dini təlim, əsasən, doqmatik hesab edilir. Orada xüsusi doqmalar, dəyişməyən özünəməxsus həqiqət hesab edilən məlumatlar var. Bəzi dinlərdə, hətta bu doqmaları sorğuya çəkmək heç də uyğun hesab edilmir. Buna görə də doqmalar üzərində fikir yürütmək çox çətindir. Bu, qarşı tərəfdə antipatik duyğuların yaranmasına səbəb ola bilər. Təhsildə təbliğ, yaxud doqmatik təlim dünyagörüşünü müəyyən sərhədlər içərisində saxlamağa məcbur edər və inkişafa səbəb olmaz. Dini təbliğat xarakterli deyil, təsviredici şəkildə anlatmaq, onu qəbul etdirmək deyil, mahiyyətini açıqlamaq daha çox faydalıdır. Din mövzusu həddən artıq həssas olduğu üçün qarşı tərəfin qəbul edib-etməməsi özünə

həvalə edilməlidir. Təlimdə isbat edilənləri, bilinənləri öyrətmək kimi bir anlayış olduğu üçün fikir yürütmək, yeni düşüncəyə, yaxud tənqidə sövq etmək mümkün görünmür. Halbuki dini düşüncə hər ənənədə, hər anlayış tərzində özünü fərqli təzahür etdirir. Bu, özünü məzhəblərarası müqayisədə də göstərir. Buna görə də dini təsəvvür, sadəcə, təsviredici formada qalmalıdır. Onunla bağlı, yəni doğruluğu, yaxud yanlışlığı barədə hər hansı bir fikri izhar etmək müsbət nəticəyə gətirib çıxarmaz. Ona görə də din anlayışı tədris səviyyəsində, planlı və proqramlı, sistematik anlayış çərçivəsində olmalıdır.

Tədrisin baş tutması üçün üç amilə ehtiyac var:

- öyrənmə nəticəsində mütləq şəkildə bir davranış dəyişikliyi olmalıdır;
- tədris praktika nəticəsində həyata keçməlidir;
- tədrisin qalıcı izləri olmalıdır (Erden, Fidan, 1998, 11).

Dinin tədris edilməsi, əsasən, şagird və tələbələrə ümumi dünyagörüşü qazandırır, onlara mənəvi baxış tərzi aşılayır. Dinin təlimi isə daha çox yeni yaşam tərzi qazandırmağa çalışır. Dini həyat tərzi isə insanın geyiminə, ailəsinə, yediklərinə, ibadətinə, mühitinə təsir göstərir. Bu, insanı müxtəlif meyillərə yönləndirə bilər. Müsbət duyğu və düşüncələr aşıladığı kimi, radikal və aqressiv nəticələrə də gətirib çıxara bilər. Dinin təlimi daha çox teokratik rejimlər üçün əlverişli ola bilər. Dünyəvi təhsil sistemində dini, sadəcə, tədris edərək kifayətlənmək daha uyğundur. Müxtəlif mədəniyyətlərin və inancların toplaşdığı coğrafiyada yalnız multikultural dəyərlərə üstünlük vermək, onları dini cəhətdən tədris etmək müsbət nəticələr qazandırar.

İnsan təhsilini iki yerdə ala bilər. Bunlardan birincisi ailədir. Dini məfhum və yaşantı ilə ilk dəfə ailədə tanış olan uşağın bu kimi mövzulara marağı daha tez oyanır. Din mövzusunda daha çox suallar verib öyrənməyə çalışır. Məsələn, namaz, oruc kimi ibadətlərin ailədə yerinə yetirildiyini görən uşaq bunun səbəbini öyrənmək istəyinə düşür. Dini? pedaqoji cəhətdən bu dövrdə verilən suallara daha dolğun və tutarlı cavablar verilməlidir. Sonrakı yaşlarda uşağın bu mövzulardakı düşüncələri, dini dərk etməsi bu anlayış içərisində formalaşır (Kızılabdullah, 2017, 44-45).

Dini anlayış ailədə əldə edilərsə, bunun müsbət tərəfi olduğu kimi, mənfi yönləri də ortaya çıxa bilər. Müsbət tərəfi budur ki, ailədə dini anlayış, sadəcə, nəzəri biliklərlə ehtiva edilmir, həmçinin praktikada özünü təzahür etdirir. Mənfi tərəfi odur ki, ailədə öyrənilən dini həyat elmi müstəvidən kənar ola bilər. Təəssüflər olsun, bəzən, bir çox dindar

ailənin verdiyi tərbiyə nəticəsində bəzən tərs reaksiya ilə qarşılaşmaq mümkündür. Belə ki, ailədə yaşanan dindarlıq nəticəsində uşağa din təşviq edilərkən o, cavabsız suallarla qarşılaşır,yaxud bəzən dini ayinləri yerinə yetirmək üçün məcbur edilir. Buna görə də ya dinin radikal yönünə üstünlük verir, yaxud dini-mənəvi mühitdən tamamilə uzaqlaşır. Buna görə də ailədə verilən dini anlayışı dini təlim kimi qiymətləndirmək mümkündür. Dini təlim isə qeyd edildiyi kimi, dərk edib araşdırmaqdan daha çox ideoloji xarakter daşıyır. Başqalarına hörmətlə yanaşmaqdan, onları doğru anlaya bilməkdən uzaqlaşdıra bilir.

İnsanın digər təhsil ala bildiyi yer məktəbdir. Məktəb (yaxud ali məktəb) fərdin sosiallaşaraq təhsil ala biləcəyi məkandır. Fərdin mühiti ona daha çox təsir göstərə bilir. Fərd bu mühitdə müsbət vərdişlər əldə edə bildiyi kimi, ətrafındakılardan təsirlənərək xarakterini mənfi yönə istiqamətləndirir. Bu cəhətdən məktəbdəki tədris iki şəkildə dəyərləndirilir: formal və informal. Formal tədris planlı, proqramlı, hədəfi olan, professional şəxslər tərəfindən icra edilən, faydalı vərdişlər qazandıran, müəyyən bir məkanda həyata keçirilən təhsil şəklidir. İnformal tədris isə plansız, proqramsız, təbii seyri olan, professional pedaqoqları, həmçinin hər hansı bir məkanı mövcud olmayan təhsil anlayışıdır. Bu cür təhsil adət-ənənədən də təsirlənir. Bunun müsbət yönləri olduğu kimi, mənfi tərəfləri də kifayət qədərdir (Erden, Fidan, 1998, 13). İnformal təhsillə müqayisədə formal təhsil planlı olması və hər hansı bir hədəfə aparması yönü ilə öz əhəmiyyətini qoruyur.

Bu nəzəri məlumatdan istiqamətlənərək, dinin formal tədrislə təhsilinin daha effektiv ola biləcəyi qənaətinə gəlmək mümkündür. Mövzular mərhələli şəkildə öyrənilməli, məqsədyönlü olmalıdır. Əks təqdirdə, din haqqında heç bir əsli olmayan, dinlə ziddiyyət təşkil edən, radikalizm nümunələrini aşılayan bir fərdin yetişməsi üçün münbit şərait yarana bilər.

3. Din tədrisinin faydaları və nəticəsi

Təhsilin iki əsas məqsədinin olduğu vurğulanır. Birincisi, insanı mövcud həyat tərzi ilə tanış edib, onun adaptasiya mərhələsinə dəstək verməkdir. İnsan yaşadığı təbii proseslər arasında özü ilə həyatın bir bütövlük təşkil etməsini başa düşməlidir. Bu mənada, realistik bir yaşama hazırlanmalıdır. Cəmiyyətin dəyərləri ilə tanış olmalı, hüquq sisteminə uyğunlaşaraq yetişməlidir. Təhsilin vəzifəsi, sadəcə, dəyişən

mədəni şəraitə uyğunlaşan gənclər yetişdirmək deyil, həmçinin yenilənməyə müsbət yön verə biləcək gənclər də yetişdirməkdir. Buna görə də təhsildə, sadəcə, reallıqla üz-üzə olan fərdin yetişməsindən daha çox ideallara sahib şəxsiyyətlər üçün şərait olmalıdır. Təhsil ideal bir hədəfə sahib olmalıdır. Yəni təhsil alan gənc yeni bir şəxsiyyət kimi formalaşarkən yeni dəyərlər sistemi qurmalı, cəmiyyəti daha üstün səviyyələrə çıxarmalıdır (Eğri, 2003, 44/273).

Dinin məqsədi də təhsilin hədəfi ilə eynilik təşkil edir. Din azad düşünə bilən, lakin müəyyən mənəvi dəyərlər arasında şəxsiyyət yetişdirmək məqsədi daşıyır. Sadəcə, ibadətlə inanc həyata keçmir. İnancın ruhunu anlamayan, mənəvi duyğuları, insani davranışları, ədalət və vicdan məfhumlarını ön planda görməyə çalışan bir nəsil yetişməlidir. Buna nümunə olaraq İslamın təməl prinsiplərindən birini göstərmək olar. Qurani-Kərimdə bir neçə yerdə yaxşı işi əmr etmək, pis işləri isə qadağan etmək prinsipi (əmr bil-məruf, nəhy anil-münkər), haqqı və səbri tövsiyə anlayışı vurğulanır:

"*(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış şəxslərdir*" (Qurani-Kərim məalı, 2004, "Ali-İmran", 3/104);

"*(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız.*" (Qurani-Kərim məalı, 2004, "Ali-İmran", 3/110);

"*İnsan ziyan içindədir. Yalnız iman gətirib yaxşı əməllər edən, birbirinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!*" (Qurani-Kərim məalı, 2004, "Əsr", 103/2-3).

Bu anlayışa əsasən, pis işlərdən çəkinmək, saleh əməllər görmək, haqqa riayət edib səbir etmək kifayət deyildir. Həmçinin bu mənəvi prisipləri həyata keçirmək, onları cəmiyyətdə bərqərar etmək çox mühümdür. Bu nöqteyi-nəzərdən təhsilin məqsədilə dinin insanı yetişdirmə yönü eynilik təşkil edə bilər. Təhsil, hətta bu anlayış çərçivəsində həyata keçirilərsə, effektiv nəticə əldə etmək olar.

Din təhsili insanı hansı cəhətdən yetişdirə bilir? İnsana hansı hədəfləri qazandırır? Bu mövzu daha çox dini hansı aspektdən dəyərləndirməyə bağlıdır. Dini tədris edərkən onun verdiyi hədəflərə də baxmaq lazımdır. Din insana nə verir və ondan nə istəyir? Birinci hissədə qeyd edildiyi kimi, din insanı həqiqətə çatdırmalı, doğru yola yönəltməlidir. Bunu edərkən könüllülük prinsipinə söykənməlidir, yəni

insanı təşviq etməlidir, məcbur etməli deyildir. Dinin insana nələr bəxş edəcəyini bildikdən sonra, tədrisinin də fərdləri hansı şəkildə yetişdirəcəyini öyrənmək mümkündür. Məsələn, İslam dininin hərəkət nöqtəsi həqiqət, məqsədi ideallardır. İslamın tədris prinsipləri həqiqətdən ideallara gedən həyat zəminində mənəvi yüksəlişi hazırlayan əhatəli bir sistem qurmaqdır. Onun təməli sevgi, şəfqət, mərhəmət, doğruluq, yaxşılıq və xoş düşüncədir (Ömer, 1994, 31). Eyni anlayışlar digər dinlərdə də özünü göstərir. İnsan hiss etdiyi bədən və dərk etdiyi ağıl ruhundan ibarətdir. Təhsil, yaxud din həmin ağıl və bədən arasındakı balansı qorumalıdır (Oruç, 2008, 263).

Dinin tədrisi insana ideallar verir, onu həyatda hədəfi olan şəxs kimi yetişdirir. Uşaqlıqdan etibarən yaxşı, inam sahibi və dürüst bir şəxsiyyətin formalaşması üçün bəzi qaydalar qoyulur. Uşaq böyüdükdə, bu qaydaları təhlil etməyə başlayır (Oruç, 2008, 266). Dinin tədrisi uşağın idealları olan şəxsiyyət kimi yetişməsində, cəmiyyət arasında yaxşılığa doğru hədəfləri müəyyən etməsində danılmaz mövqeyə malikdir.

Din tədrisi insana özünü, yaradılışını tanıdır, zəif tərəflərini, çətin idarə ediləcək yönlərini və həll yollarını göstərir. İnsan böyüməyə başlayınca özünü, qabiliyyətini, həyat tərzini tanımağa çalışır (Oruç, 2008, 265). Mən kiməm? Niyə bu dünyaya gəlmişəm? İnsan nədir? Niyə yaranıb? Dünya necə yaranıb və qurulub? Həyat niyə verilib? Bu və bu kimi digər suallara cavab axtaran insana din onun kim olduğunu tanıdır. Beləcə, insan ağlını, qüvvəsini, qabiliyyətini, potensialını görmüş olur və onu düzgün istiqamətdə istifadə edir.

Təhsilin məqsədi insanı araşdırmağa, kəşf etməyə, öyrənmə yollarını göstərməyə təşviq edən fəaliyyətləri yerinə yetirməkdir. Bu proses planlı və proqramlı şəkildə həyata keçirilməlidir. Bu nöqteyinəzərdən din də eyni məqsəd daşıyır. İnsanı ağlını işlətməyə, yaradılışı üzərində düşünməyə, cismani və ruhani olaraq, özünü tanımağa, mənəvi aləmini zənginləşdirməyə sövq edir. Dinin hədəfi – başa düşmədən olduğu kimi qəbul etməyi, dini bilikləri əzbərləməyi deyil, fərdlərə şüurlu şəkildə öyrənməyi təşviq etməkdir (Kızılabdullah, 2017, 53-54).

Din təhsili, həmçinin ölümdənsonrakı həyat haqqında da məlumat verir və bir çox şübhələrin, həyata pessimist yanaşma tərzinin qarşısını alır. Belə ki, insan ölümdən sonra sevdiklərinin onu görməsi, başqa bir aləmdə həyatına davam etməsi, vəfat etdikdən sonra onunla görüşə

bilmək ehtimalını dərk etdikdə, cənnət və cəhənnəm anlayışının fərqinə vardıqda özündə təskinlik tapa bilir. Həyatdan uzaqlaşıb canına qəsd etmir, yaxud özünü inkişaf etdirməyin yollarını axtarır, həyatı özözlüyündə mənalandırır.

Dinin əxlaqi vərdişlər üzərində durması, əxlaqi dəyərlərə əhəmiyyət verməsi insanın mənəvi aləmini zənginləşdirən amillərdəndir. Din əxlaqi sistem qurur. Hər bir cəmiyyətin əxlaq anlayışı mövcuddur. Din onu ya xatırladır, yaxud da bilinməyəni göstərir. Məsələn, Konfusizmdə idarəçilik əxlaqı, Buddizmdə insanın özünü dərk və saflaşdırma əxlaqı, Yəhudilikdə 10 əmr, Xristianlıqda zəngin nümunələrlə (duz və nur, ağıllı və ağılsız bənna) izah edilən İsanın dağdakı moizəsi, İslamda insanlararası münasibətin qorunması kimi dəyərlərin tədrisi mənəvi duyğulara sahib çıxan bir şəxsiyyət yetişdirə bilər (Oruç, 2010, 206). Həmin əxlaqi davranışların tədrisi və bu ənənəyə təşviq fərdin cəmiyyətdə öz yerini layiqli şəkildə tutmasına gətirib çıxarır. Doğrunu yanlışdan, ədəbi ədəbsizlikdən ayırdetmə yollarını bir çox dində görmək mümkündür. Dinin əxlaq haqqındakı açıqlamalarının tədrisi insanların doğru yolu tapmasına, cəmiyyətin də müsbət yöndə dəyişməsinə gətirib çıxara bilər. Beləcə, yüksək əxlaqi dəyərlərə sahib, mənəvi aləmi zəngin şəxsiyyətlərin yetişməsinə zəmin yaradır.

Din təhsili insanı sistemli bir həyat tərzinə sövq edir. İnsan inanca sahib olarsa, özünü psixoloji olaraq güclü hiss edər. Burada əsas iki amil rol oynayır: Tanrı inancı ilə fərd özünün gücsüz olduğunu bilsə də, daim yanında ona kömək edəcək bir gücün olduğuna inanacaq. Buna görə də yaşama gücü artacaq, öz zəifliklərinə nəzarət edəcək. Başına gələn hər müsibətdən dərs çıxaracaq, səbri və dözümü öyrənəcək (Oruç, 2008, 267). Həmçinin yaxşının pisə, doğrunun yanlışa olan qalibiyyəti insanı hər zaman xeyirxah əməllərə sahib olması üçün ruhlandıracaq. Onun şəxsiyyəti müəyyən əxlaqi dəyərlərə əsasən formalaşacaq. Səhvlə doğrunun dəyərini anlayacaq və davranışlarını ona görə formalaşdıracaq. Buna görə də mənəvi boşluğundakı böhranların qarşısını ala biləcək. Beləcə, yaxşılıq və xeyirxahlıq prinsipləri əxlaqi dəyərlər kontekstində öz davranışlarını, həmçinin həyatını şəkilləndirib sistemləşdirəcək.

Din, sadəcə, ritual və ibadətdən ibarət deyildir. Həmçinin Yaradan, cəmiyyət və fərd arasındakı münasibətləri də tənzimləyir. Buna görə də dinin tədrisi başqa dinlərə hörmət etməyi, mötədil yanaşmağı, ekstremizm və dini ayrı-seçkilikdən uzaq durmağı öyrədir. Həmçinin qlobal

məsələlərə aydınlıq gətirməyə kömək edir, zəngin dünyagörüşü qazandırır (Whitehouse, 2022). Bu dünyagörüşü içərisində dinin tədrisi tarixi dolğun başa düşməyə kömək edir; siyasi dəyişikliklərin, müharibələrin və qarşıdurmaların səbəblərini başa düşməyə yönləndirir. Məsələn, Roma imperiyasının Xristianlığı qəbul etməsi, sonradan siyasətini dəyişməsi, Ərəb xilafətinin qısa müddətdə yaranması və geniş ərazilərə sahib olması kimi tarixi hadisələrə münasibət bildirmək imkanı yaradır.

Qeyd etmək yerinə düşərdi ki, şagirdlər yeniyetmə yaşlarında özlərini kəşf etməyə yönəldiklərindən, din mövzusunda da xeyli sual verməyə başlayırlar. Bəzi missioner təşkilatlar bu fürsətdən istifadə edib, özünü axtaran gəncləri cəlb etməyə başlayırlar. Beləcə, tədqiqatlar göstərir ki, yeniyetmə dövründə diqqətdən kənarda qalan, sosial təminatı az olan, ailə bağları zəifləmiş yetkin uşaqlar dini ekstremizmə daha yatqın olur və ekstremist qruplara meyil edirlər ("Какая польза от религиоведения?", 2010). Buna görə də dinin məktəbdən başlayaraq tədris edilməsi onların baxış bucağına aydınlıq gətirir. Beləcə, din tədrisi sayəsində onlar qeyri-ənənəvi dini təşkilat, yaxud cəmiyyətlər arasında özlərinə yer axtarmaqdan imtina edə bilirlər.

Nəticə olaraq dinin qazandırdığı mənəvi-əxlaqi dəyərlər, sevgiyəyönləndirmə meyilləri insanları pis vərdişlərdən uzaqlaşdırır. İnsana xoşbəxtlik və təmkinlilik qazandırır, mənəvi boşluğa imkan vermir. Mənəvi dəyərlərin – sevgi, həqiqət, gözəllik, dürüstlük, doğruluq, dostluq, birlik-bərabərlik kimi duyğuların dini kökləri daha dərin olduğuna görə, təhsildə din tədrisinə xüsusi diqqət yetirməyə ehtiyac var.

Nəticə

Din – insanlara mənəvi rahatlıq gətirməlidir. Onları məcburi deyil, öz iradə və istəkləri ilə doğruya, həqiqətə çatdırmalıdır. Dinin müxtəlif tərifləri olsa da, əsasən, Uca Yaradana və ölümdənsonrakı həyata inamı əks etdirir. Əxlaqi dəyərlər də bu prinsiplər çərçivəsində tənzimlənir. Məsələn, Tanrı gözəldir, yaxşıdır və ancaq gözəl şeylər yaradır. O zaman biz də bu gözəlliyi qorumaq məqsədilə, sadəcə, yaxşılıq etməliyik.

Din tədrisi praktiki anlayışdan daha çox nəzəri müstəvidə qalarsa, məqsədəuyğun olar. Belə ki, ibadətin necə edilməsindən daha çox onun məqsədi, inancın üstünlüyü, əxlaqi keyfiyyətlərin insanın həyat

tərzinə müsbət təsiri haqqında bəhs edilməsi din tədrisinin əhəmiyyətini artıracaq. Həmçinin dini şəxsiyyətlərin, peyğəmbərlərin həyatından nümunələr uşaqlara ideallar qazandırmağa, onlarda mübarizə ruhunun artmasına gətirib çıxaracaq.

Din tədrisi ilə təlimi arasındakı məqam fərqini də bilmək mühümdür. Tədris etmək məlumat məqsədi daşıyır. Təlim təbliğ və dəyişikliyə gətirib çıxara bilir. Buna görə də din mövzusu izah edilərkən deskriptiv yanaşmaq lazımdır. Fərdin inancında dəyişiklik deyil, fərddə inancı gücləndirmək, möhkəmlətmək məqsədi daşımalıdır. Həmin inanc fərddə sevgi, mərhəmət, anlayış və hörmət duyğusunu artırmalıdır. Din tədrisi planlı və proqramlı olmalıdır. Din hər yaş dövründə fərqli başa düşülə bilər. Buna görə də hər yaş həddi üçün özünəməxsus yanaşması olan proqram hazırlanmalıdır.

Təhsillə dinin funksiyası bir-birinə çox yaxındır. Təhsil şəxsiyyətin formalaşmasına xidmət etməlidir. Din insanı mənəvi yöndən təkmilləşdirmək məqsədi daşıyır. Beləcə, din də təhsil kimi insanın özünü tanımasına, yaşam tərzində müsbət dəyişikliklərə sövq etməsinə, həyatda özünə yer tapmasına köməklik göstərir. Din də təhsil kimi yaxşılığa sövq edir, əxlaqi-mənəvi dəyərləri təlqin edir.

Din tədrisinin digər əhəmiyyəti ondan ibarətdir ki, insanı sistemli şəxsiyyət kimi cəmiyyətə qazandırmaq istəyir. Fərd həqiqət axtarışına çıxır və suallara cavab tapmağa çalışır. Bu axtarış çərçivəsində inancı öyrənməsi, yetişkən, səhvi düzdən ayıra bilən bir şəxs kimi formalaşması fərd üçün böyük mənəvi qazanc olaraq görünür.

Din tədrisinin siyasi cəhətdən də əhəmiyyəti var. Belə ki, gəncləri ekstremist, radikal qruplara qoşulmaqdan qoruyur. Onların bu kimi fəaliyyətlərlə məşğul olmasındakı zərərləri göstərir. Həmçinin digər dinlərə və inanclara hörmətlə yanaşmağı təşviq edir. Əslində, din tədrisini psixoloji, siyasi, sosioloji və hüquqi zəmində tədqiq etmək, onun mühüm tərəflərini aşkarlamaq multikultural dəyərlərin cəmiyyətdə yer almasına töhfələr verə bilər. Bu baxımdan, din və tədrisin hədəfi, dinin tədrisində diqqət edilən məqamlar, dinin müəyyən çərçivədə xüsusi proqrama uyğun tədrisinin təşkili haqqında daha genişmiqyaslı tədqiqat işinə ehtiyac duyula bilər.

Ədəbiyyat

Aydın, Mehmet. (2008). *Dinler tarihine giriş*. Konya. (306 s.)

Bibliya, *Müqəddəs yazılar kitabları* (2018). Bakı. Azərbaycan Bibliya Cəmiyyəti (380 s.)

Bruno, V. Manno, (1978), "*Defining religion: The Reflector of an American Catholic Religious Educator*", Religion Education, Vol. 73, No. 5 Sept, Oct

Qurani-Kərim Məalı. (2004). Tərc. Ed. Vasim Məmmədəliyev. Bakı: Qismət. (380 s.)

Çam, Ömer. (1994) "*Din, dil, kültür ve eğitim*". Din Eğitimi Araştırmalar Dergisi. İstanbul. № 1 (s. 21-32)

Eğri, Osman. (2003), "*Eğitimin genel amaçları açısından din kültürü ve ahlak bilgisi dersleri*". Ankara Üniversitesi İlahiyat fakültesi dergisi. c. 44. № 1 (s. 271-291)

Erden, Münire. Fidan, Nurəddin. (1998). *Eğitime giriş*. İstanbul: Alkım nəş. (200 s.)

İbn Mənzur. (1990). *Lisanül-ərəb*, 10 cilddə Beyrut: Darül-məarif

İsmixanov, M. (1998). *Pedaqogika*. (Təlim və təhsil nəzəriyyəsi-Didaktika). Bakı: Bakı Universiteti nəşriyyatı (228 s.)

Kızılabdullah, Yıldız. (2017). "*Kavramsal çerçeve: eğitim, öğretim ve din*". Din eğitimi el kitabı. Ankara: Ankara okulu nəş (s. 41-56)

Mürsəlova, Aliyə. (2024). *Dinlər tarixi*. Bakı: Elit Poligraf

Muxtarova, N.M və b. (1997). *Didaktika*. Bakı: N. Tusi adına ADPU mətbəəsi (128 s.)

Oruç, Cemil. (2008) "*Din eğitiminin hedefleri*". Fırat Üniversitesi İlahiyat Fakültesi dergisi, 13:1 (s. 259-269)

Oruç, Cemil. (2010). "*The impacts of religious education on individual and social life*". Dinbilimleri akademik araştırma dergisi. c. 10. № 1. (s. 195-211)

Özbek, Abdullah. (1999). "*Din eğitiminin problemleri*". Din eğitimi araştırmaları dergisi. № 6. (s. 113-130)

Şanver, Mehmet. (2001). "*Dini tebliğ ve eğitim açısından Kuranda insan psikolojisi, ve özüllikleri*". Uludağ Üniversitesi İlahiyat fakültesi. c. 10. № 1. (s.137-164)

Simone Whitehouse, “*The Importance of Religious Education (RE) in a School’s Curriculum*”, 10 Avqust, 2022, https://www.servicesforeducation.co.uk/blog/schools/why-is-re-important-in-schools/

“*Какая польза от религиоведения?*”, Костанайские новости qəzeti, 10 mart 2010, https://bureau.kz/%D0%B1%D0%B5%D0%B7-%D1%80%D1%83%D0%B1%D1%80%D0%B8%D0%BA%D0%B8/article_1407/

Türkiyədə ilahiyyat fakültələrinin qısa tarixçəsi

i.f.d., dos. Aslan Həbibov,
Azərbaycan Milli Elmlər Akademiyası
akademik Ziya Bünyadov adına
Şərqşünaslıq İnstitutu
Din və ictimai fikir şöbəsinin aparıcı elmi işçisi
Bakı, Azərbaycan
habibovaslan@yahoo.com
https://orcid.org/0000-0002-3016-3324

Xülasə

Altı əsr ömrü olan Osmanlı dövləti XX əsrin əvvəllərində süquta uğradı və parçalandı. Osmanlının yerində irili-xırdalı bir neçə dövlət meydana gəldi. Bunlardan biri də Osmanlının rəsmi varisi olan və 29 oktyabr 1923-cü il tarixində qurulan Türkiyə Cümhuriyyətidir.

Türkiyə Cümhuriyyəti qurulduqdan sonra, bir çox islahatlar aparıldı. Bunlardan biri də təhsil sahəsidir. Qəbul edilən yeni qanunla Osmanlı İmperatorluğundan qalmış mədrəsələr bağlandı. Osmanlı dövlətində din təhsili mədrəsələrdə tədris edildiyi üçün ölkədə din təhsili verən heç bir qurum qalmamışdı. Dünyəviliyi yenicə qəbul etməyə başlayan bir cəmiyyətdə din tədrisinin zəruri olduğuna inanan Atatürk İmam Xətib məktəbinin açılmasına qərar verdi. Bununla yanaşı, yeni qanunla ilk İlahiyyat fakültəsi açılsa da, çox keçmədən hər iki qurum bağlandı.

Məqalədə əvvəlcə Osmanlı təhsil sistemi və mədrəsələr haqqında qısa məlumat verilmişdir. Daha sonra cümhuriyyətin elanından sonra, qəbul olunan yeni qanunlarla təhsil sistemində aparılan islahatlardan, din təhsili verən ilk məktəb və fakültənin açılmasından bəhs edilmişdir. Həmçinin cümhuriyyətin ilk dini təhsil ocaqlarının bağlanma səbəbi barədə söhbət açılmış, yeni ilahiyyat fakültələrinin fəaliyyətini zəruri hala gətirən şərtlərdən bəhs olunmuşdur.

Yazıda, həmçinin Türkiyədə İlahiyyat fakültələrinin yaranması və təşəkkül prosesi 1924–1983, 1983–1998, 1998–2008 və 2008–2024-ci illər şəklində dörd mərhələdə araşdırılmışdır.

Araşdırmada o da qeyd edilir ki, Türkiyədə siyasi hakimiyyətlərin dinə və din təhsilinə münasibəti İlahiyyat fakültələrinin fəaliyyətinə təsir göstərmiş, yeri gəldikdə bu fakültələrə ayrılan yerlər azaldılmış, müfrədatlarına müdaxilə edilmişdir.

Açar sözlər: *Türkiyə Cümhuriyyəti, din təhsili, İlahiyyat fakültəsi, İslami elmlər fakültəsi, Yüksək İslam İnstitutu.*

A Brief History of Theology Faculties in Türkiye

Assoc. Prof. Aslan Habibov
Senior Researcher in the “Religion and Social Thought” Department at the Institute of Oriental Studies named after Academician Z.M. Bunyadov of ANAS
Baku, Azerbaijan
habibovaslan@yahoo.com
https://orcid.org/0000-0002-3016-3324

Abstract

The Ottoman Empire, which lasted for six centuries, collapsed and disintegrated at the beginning of the 20th century. Several states of varying sizes emerged in its place, one of which was the Republic of Türkiye, established on October 29, 1923, as the Ottoman Empire's official successor.

Following the establishment of the Republic of Türkiye, numerous reforms were implemented across various fields, including education. With the adoption of new legislation, the madrassas inherited from the Ottoman Empire were closed. Since religious education had traditionally been provided in these madrassas, their closure left no institutions for religious education in the country. However, Atatürk, recognizing the necessity of religious education in a society newly embracing secularism, decided to establish Imam Hatip schools. Alongside these, the first Faculty of Theology was also founded under the new law. However, both institutions were soon shut down.

This article begins with a brief overview of the Ottoman education system and madrassas. It then discusses the educational reforms implemented after the proclamation of the Republic, focusing on the establishment of the first schools and faculties offering religious education.

Additionally, the article explores the reasons behind the closure of the Republic’s initial religious educational institutions and the conditions that necessitated the establishment of theology faculties. The development and institutionalization of theology faculties in Türkiye are examined across four distinct periods: 1924–1983, 1983–1998, 1998–2008, and 2008–2024.

The article also notes that the attitudes of political authorities in Türkiye toward religion and religious education have influenced the functioning of theology faculties. At times, this influence has manifested in reduced enrollment capacities for these faculties and interventions in their curricula.

***Keywords**: Republic of Türkiye, Religious Education, Theology Faculty, Faculty of Islamic Sciences, Higher Islamic Institute*

Краткая история теологических факультетов в Турции

доц. Аслан Хабибов
Ведущий научный сотрудник отдела «Религия и общественное мнение» Института востоковедения имени академика Зии Буниятова НАНА
Баку, Азербайджан
habibovaslan@yahoo.com
https://orcid.org/0000-0002-3016-3324

Резюме

Османское государство, существовавшее шесть веков, рухнуло и распалось в начале XX века. На месте этого государства возникло несколько больших и малых государств. Одной из них является Турецкая Республика, которая была официальной правопреемницей Османской империи и была основана 29 октября 1923 года.

После создания Турецкой Республики реформы были проведены во многих областях. Одна из них – сфера образования.

После принятия нового закона медресе Османской империи были закрыты. Поскольку религиозное образование в Османском государстве давалось в медресе, в стране не осталось религиозных учреждений. Однако Ататюрк, считавший, что религиозное образование необходимо в обществе, которое только начало принимать секуляризм, решил открыть школу Имама Хатиба. В то же время новым законом был открыт первый богословский факультет. Вскоре оба учреждения были закрыты.

В этой статье сначала представлена краткая информация об османской системе образования и медресе. Позже обсуждались реформы системы образования с учетом новых законов, принятых после провозглашения республики, открытие первой школы и факультета религиозного образования.

В статье также предоставлена информация о причине закрытия первых религиозных учебных заведений республики, а также рассмотрены условия, вызвавшие необходимость открытия новых теологий.

В статье исследован процесс создания и организации богословских факультетов в Турции в четыре этапа в виде 1924-1983, 1983-1998, 1998-2008 и 2008-2024 годов.

В статье также упоминалось, что отношение политических властей к религии и религиозному образованию в Турции повлияло на деятельность теологических факультетов, при необходимости места, выделяемые на эти факультеты, были сокращены, а их учебные программы были нарушены.

***Ключевые слова**: Турецкая Республика, Религиозное образование, Факультет теологии, Факультет исламских наук, Высший исламский институт*

Giriş

Hər bir şəxsin maddi ehtiyacları ilə yanaşı, mənəvi tələbatı da vardır. Din insanın mənəvi ehtiyacıdır. Bu gün bütün dünyada dinəyönəlmə müşahidə olunur. Vətəndaşların dini təhsilə olan ehtiyacı buna paralel olaraq artmışdır. Bu da özü ilə bərabər, din tədrisi problemini gündəmə gətirir.

Din qanunları və ya bəşəri qaydalarla idarə edilməsindən asılı olmayaraq, dünya dövlətləri heç zaman dinə biganə qalmamışlar. İnsanın din ehtiyacının təbii olduğunu qəbul edən dövlət rəhbərləri bu və ya digər şəkildə dinin tədrisinə şərait yaratmışlar. Bu ölkələrdən biri də Türkiyə Cümhuriyyətidir. Üzünü Avropaya çevirmiş müsəlman Şərq ölkəsi olan bu ölkə idarə şəkli kimi Şərq dövlətlərinin çoxundan fərqlidir. Osmanlı İmperiyası kimi nəhəng bir dövlətin hər növ irsini özündə cəm edən bu cavan bölgə Şərq ilə Qərb arasında körpüolma vəzifəsini

öhdəsinə götürmüşdür. Əhalisinin 99 faizi müsəlman olan Türkiyə Avropaya interqrasiya olmağa çalışır.

Məlum olduğu kimi, Osmanlı teokratik bir dövlət idi və din təhsili mədrəsələrdə tədris olunurdu. Yeni – 1923-cü ildə qurulan cümhuriyyət sələfindən fərqli olaraq, dünyəvilik prinsipini əsas götürürdü. Türkiyə Cümhuriyyəti bir çox sahədə islahatlara başladı. Osmanlıdan qalma qurumlar ləğv edildi, yaxud yeniləri ilə əvəz olundu. Bu qurumlardan biri də təhsil işinə nəzarət edən Şəriət və Vəqflər Nazirliyi idi. Ləğv olunan bu nazirliyin əvəzində Təhsil Nazirliyi təsis olundu. Türkiyə Cümhuriyyəti dünyəvilik prinsipinə əsaslansa da, qurulduğu ilk gündən etibarən, din təhsili dövlətin nəzarətinə verildi; İlahiyyat fakültəsi və İmam Xətib məktəbləri açıldı. Açılan ilk dini təhsil qurumları tələb azlığı səbəbindən qısa müddət sonra bağlandı.

Əhalisinin əksəriyyəti müsəlman olan və dünyəvi dövlət modelini seçən Türkiyə Cümhuriyyətinin din təhsilini dövlətin nəzarətinə götürməsi mühüm əhəmiyyət kəsb edir. Türkiyə təcrübəsi əhalisinin əksəriyyətinin müsəlman olduğu və dünyəvilik prinsipi ilə idarə olunan doğma Azərbaycanımız üçün də önəmlidir. Bu baxımdan, mövzumuz son dərəcə aktualdır.

Türkiyədə siyasi hakimiyyətlərin din təhsilinə münasibəti nəzərə alınaraq, İlahiyyat fakültələrinin yaranması və təşəkkülü prosesi 1924–1983-cü, 1983–1998-ci, 1998–2008-ci və 2008–2024-cü illər şəklində dörd mərhələdə araşdırılmışdır. Bu çərçivədə İlahiyyat fakültələrinin qurulması, fəaliyyətlərinin dayandırılması, müfrədatının dəyişdirilməsi və digər məsələlər məqalədə öz əksini tapmışdır.

1. Osmanlı İmperatorluğu dövründə din təhsili

Yuxarıda qeyd etdiyimiz kimi, Türkiyə Cümhuriyyəti Osmanlı İmperatorluğunun irsini daşıyır. Müasir Türkiyədə elə qurumlar vardır ki, hələ Osmanlı dövründə qurulmuşdur. Bu da Türkiyənin keçmişi ilə olan rabitəsindən xəbər verir. Bu səbəbdən, Türkiyədə din təhsilindən bəhs edərkən bu ölkənin keçmişi ilə olan əlaqəsi mütləq nəzərə alınmalı və Osmanlı İmperiyası dövründə türk cəmiyyətində din təhsili haqqında məlumat verilməlidir.

Osmanlı dövləti özündənəvvəlki müsəlman dövlətlərində olduğu kimi, təlim-tərbiyəyə əhəmiyyət vermiş, hər sancaqlıq böyüklüyündəki şəhərlərdə universitet səviyyəsində təhsil verən müəssisələr təsis etmişdir. Bu müəssisələr istər inzibati-təşkilati baxımdan, istərsə də

təlim-tərbiyə istiqamətində dövrün şərtlərinə uyğun təlim-tərbiyə təşkilatları olaraq varlığını davam etdirmişdir.

Osmanlıda təhsil sistemi üç yerə ayrılırdı:

1. Saray təhsili.
2. Hərbi təhsil.
3. Orta və yüksək səviyyədə təhsil verən mədrəsə təhsili.

Osmanlı dövlətində din təhsili mədrəsələrdə tədris olunurdi. Bu səbəbdən, bölgədəki mədrəsələrdən qısaca bəhs etmək daha doğru olardı.

Mədrəsələr İslam dininin yaranması ilə yanaşı, məscidlərlə dini biliklərin öyrədildiyi mərkəz olaraq qurulmuşdur. Məscidlərdən müstəqil bir şəkildə ilk mədrəsə XI əsrdə İranın Nişapur şəhərində açılmışdır (Szyliwicz, 1973, 62). Sonrakı dövrlər üçün nümunə təşkil edən ən məşhur mədrəsə Böyük Səlcuqlu vəziri Nizamülmülk tərəfindən 1057-ci ildə Bağdadda qurulan Nizamiyə mədrəsələridir (Unat, 1964, 3).

Osmanlı İmperatorluğu zamanında ilk mədrəsə İznikin 1329-cu ildə fəth edilməsindən bir il sonra bir monastırın mədrəsəyə çevrilməsi ilə quruldu (Uzunçarşılı, 1988, 1). Orxan bəy tərəfindən qurulan bir vəqfin gəlirləri bu mədrəsəyə təsis edilmişdi (Bilge, 1984, 73). Bu metod daha sonrakı mədrəsə təşkilatının da əsasını meydana gətirmişdir. Dövlətin sərhədləri genişləndikcə mədrəsələrin sayı artmış, bir çox dövlət adamı, xanım sultanlar və alimlər mədrəsə inşa etdirərək, gəlirlərinin əhəmiyyətli hissəsini buralara köçürmüşlər (Baltacı, 1976, 18-19). Mədrəsələr Fatih Sultan Mehmet zamanında ən böyük təşkilata sahib olmuşlar. Fatih S. Mehmet öz adına tikdirdiyi məscidə məktəb, aşxana və kitabxana ilə yanaşı, 8 mədrəsə də əlavə etdirmişdir. Bu mədrəsələrə sayına görə "Mədarisi-səmaniyyə", daha sonralar isə "Səhni-səman" adı verilmişdir. Osmanlı İmperatorluğunda mədrəsələrin təşəkkülündə ən son mərhələ Qanuni Sultan Süleyman dövründə yaşanmışdır. Həmin dövrdə aşağıdan üst siniflərədək onikipilləli bir sistemdə qurulan "Süleymaniyyə mədrəsəsi" Osmanlı mədrəsəsinin zirvə nöqtəsi olmuşdur (Yaltkaya, 1940, 463).

Osmanlı mədrəsələrini Fatehdən əvvəl və sonra olmaqla iki hissəyə ayırmaq daha doğrudur. Fatehdən əvvəl mədrəsələr, ümumiyyətlə, orta səviyyədə təhsil verirdi, daha çox dini elmlərin öyrədildiyi müəssisələr idi. Fatehdən sonrakı mədrəsələrin ixtisas verdiyini və bugünün təbiri ilə desək, İlahiyyat fakültələri olduğunu görürük (Akgündüz, 1990, 463).

Osmanlı İmperatorluğunda mədrəsələr XVII əsrdən etibarən dağılmağa başlamışdır (Antel, 1940, 441). Dövlət tərəfindən mədrəsələrin islah edilməsi üçün bəzi tədbirlər görülmüşdür. Bu tədbirlər fayda verməmiş, adıkeçən təhsil qurumları getdikcə daha da bərbad vəziyyətə düşmüşdür. İslam dininin yayılmasını təmin edən və təbliğat vəzifəsini yerinə yetirə bilən vaizlər yetişdirmək məqsədilə 1912-ci ildə İstanbulda "Mədrəsətül-vaizin" adlanan bir mədrəsə açılmışdır. Bu şəhərdə 1913-cü ilin sonuna yaxın yenə İmam Xətib və müəzzin yetişdirmək məqsədilə "Mədrəsətul-əimməti vəl-xütəba" adlı bir mədrəsə açılmışdır (Ergün, 1996, 348). "Mədrəsətül-vaizin" müharibə illərində özünü doğrulda bilməmiş, "Mədrəsətül-əimməti vəl-xütəba" ilə birləşdirilərək, "Mədrəsətül-irşad" adlandırılmışdır (Taşdemirci, 1989, 539).

Osmanlı dövlətində mədrəsələr Şəriət və Vəqflər Nazirliyi (Şəriyyə və Evkaf Vəkaləti) ilə fərqli vəqflərə bağlı idi. Bu mədrəsələrdə fiqh, kəlam, təfsir, üsul, əqaid, təsəvvüf kimi dini, məntiq, bəlağət, lüğət, nəhv, astronomiya, fəlsəfə, həndəsə və hesab kimi əqli elmlər də tədris edilirdi. Əqli elmlər daha çox mədrəsə xaricində, nəqli elmlər isə məscidlərdə tədris olunurdu (Bilge, 1984, 42-43). Nəticədə, mədrəsələr Türkiyə Cümhuriyyəti elan olunduqdan sonra, 03.03.1924-cü il tarixli, 430 saylı Təhsilin Birliyi Qanununun (Tevhidi-Tədrisat Qanunun) birinci maddəsi ilə Təhsil Nazirliyinə tabe olmuş (Maarif Vekaleti Mecmuası, 1925, sy. 1, 74) və dövrün təhsil naziri Vasıf Bəyin 13.03.1924-cü il tarixli sərəncamı ilə mədrəsələrin fəaliyyətinə son verilmişdir (Şanal, http://yayim.meb.gov.tr/dergiler/143/17.htm.). Beləliklə, türk təhsili tarixində uzun müddət mövcud olan mədrəsə bu şəkildə tarixin səhnəsindən çəkilmişdir.

2. Türkiyə Cümhuriyyətində din təhsili və İlahiyyat fakültələri

Altı əsr ömrü olan Osmanlı dövləti XX əsrin əvvəllərində süquta uğradı və parçalandı. Osmanlının yerində irili-xırdalı bir neçə dövlət meydana gəldi. Bunlardan biri də Osmanlının rəsmi varisi Türkiyə Cümhuriyyətidir. Türkiyə Cümhuriyyəti 29 oktyabr 1923-cü il tarixində quruldu. Türkiyə Cümhuriyyəti elan olunduqdan sonra qəbul olunan yeni qanunlarla Osmanlı İmperatorluğundan qalma bir çox sahədə islahatlar aparıldı. Bu sahələrdən biri də təhsil sahəsidir.

Yuxarıda qeyd etdiyimiz kimi, Osmanlı İmperatorluğu dövründə mədrəsələr Şəriət və Vəqflər Nazirliyi ilə fərqli vəqflərə bağlı idi. Türkiyə Böyük Millət Məclisində 3 mart 1924-cü il tarixində qəbul olunan 429

saylı qanuna əsasən, Şəriət və Vəqflər Nazirliyi ləğv edildi. Bunun yerinə Dəyanət İşləri Başqanlığı təsis olundu. Eyni gündə qəbul olunan 430 saylı "Təhsilin Birliyi Qanunu" ilə bütün təhsil qurumları Təhsil Nazirliyinin nəzarətinə verildi. Beləliklə, fərqli qurumların nəzarətində olan təhsil tək bir qurumun əlində cəmləndi.

Yeni, 3 mart 1924-cü il tarixində qəbul olunan Təhsil Qanunu, eyni zamanda, Türkiyədə din təhsilini də əhatə edirdi. Bu qanunla din təhsili tədris edən mədrəsələr bağlanmış, İmam Xətib məktəbləri ilə yanaşı, Təhsil Nazirliyinə ali təhsilli din adamlarının yetişdirilməsi məqsədilə darülfununda (daha sonra adı İstanbul Universiteti olaraq dəyişdirilmişdir) İlahiyyat fakültəsinin açılması tapşırılmışdı (Resmi qazete, 6. 3. 13440, sayı 63). Beləliklə, dünyəvi dövlət kimi qurulan Türkiyə Cümhuriyyətində din təhsili dövlət nəzarətinə götürülmüşdür.

Türkiyədə İlahiyyat fakültələrini dörd mərhələdə incələmək lazımdır:

– 1924-cü ildən 1983-cü ilədək;
– 1983-cü ildən 1998-ci ilədək;
– 1998-ci ildən 2008-ci ilədək;
– 2008-ci ildən 2024-cü ilədək.

3. 1924-cü ildən 1983-cü ilədək

Yuxarıda da qeyd etdiyimiz kimi, 3 mart 1924-cü il tarixində Türkiyə Böyük Millət Məclisində qəbul edilən Təhsilin Birliyi Qanununun 4-cü maddəsində Təhsil Nazirliyinə ali təhsilli din adamlarının yetişdirilməsi məqsədilə İlahiyyat fakültəsinin açılması tapşırılmışdı (Maarif Vekaleti Mecmuası, 1925, sy 1, 74). Dövrün Təhsil Nazirliyi bu tapşırığı yerinə yetirmiş və 1924-cü ildə darülfünun tərkibində təhsil müddəti 3 il olan bir İlahiyyat fakültəsi açılmışdır (Öcal, 1998, 242-243). Darülfünun İlahiyyat fakültəsi 1924–1925-ci tədris ilində 284 tələbə ilə tədrisə başlamışdır. Bu say 1926–1927-ci tədris ilində 167-yə, 1927–1928-ci tədris ilində 53-ə, 1929–1930-cu tədris ilində 35-ə, 1932–1933-cü tədris ilində isə 20-yə düşmüşdür (Koç, 2000, 289).

Türkiyə Cümhuriyyətində ilk İlahiyyat fakültəsində Təfsir və təfsir tarixi, Hədis və hədis tarixi, Fiqh tarixi, Kəlam tarixi, Təsəvvüf tarixi, İslam fəlsəfəsi tarixi, Fəlsəfə tarixi, Dinlər tarixi, Türk din tarixi, İslam tarixi, Metafizika, Sosiologiya, Psixologiya, Sosial psixologiya, Əxlaq, İslam millətləri etnoqrafyası, Din fəlsəfəsi, İslam məzhəbləri tarixi, Ərəb dili və Fars dili dərsləri tədris edilirdi (Öcal, 1986, 114).

Darülfünun və ona bağlı olan bütün müəssisə, kadr və təşkilatlar 31.05.1933-cü il tarixində qəbul edilən 2252 sayılı qanunla ləğv edildi. Bunun yerinə İstanbul Universiteti təsis olundu. Yeni Universitetdə isə İlahiyyat fakültəsinə yer verilmədi. Beləliklə, 1924-cü ildə açılmış İlahiyyat fakültəsi 1933-cü ildə bağlandı. Bağlanan İlahiyyat fakültəsinin əvəzinə İstanbul Universitetinin Ədəbiyat fakültəsi nəzdində tədqiqat məqsədilə İslam Elmləri Tədqiqat İnstitutu təsis olundu. Bu qurum 1936-cı ildən sonra istifadəsiz hala gəlmiş və 1941-ci ildə bağlanmışdır (Ergin, 1977, c. III-IV, 1241).

Darülfününun İlahiyyat fakültəsinin bağlanmasına səbəb kimi, tələbə azlığı göstərilir. Əslində, dövrün şərtlərinə görə, bu fakültəyə kifayət qədər tələbə müraciət etmişdir. Qəbul edilən bəzi qanunlar zaman keçdikcə bu fakültəyə rəğbətin azalmasına səbəb olmuşdur. Məsələn, həmin dövrdə Hüquq, Ədəbiyyat və Fənn fakültələri məzunlarına doktorantura hüququ verildiyi halda, İlahiyyat fakültələrinə bu imkan yaradılmamışdır (Ayhan, 1999, 41). Həmçinin 15.12.1927-ci il tarixli, 846 saylı Dövlət Şurasının qərarı ilə din xadimliyi rəsmi olaraq dövlət məmurluğundan çıxarılmışdır. Bu tarixdən etibarən, İlahiyyat fakültəsinin məzunları iş imkanından məhrum olmuşlar (Öcal, 1992, 26 vd.). Bu və ya digər səbəblərdən İlahiyyat fakültəsi məzunlarının qarşısında kifayət qədər maneələr yaradılmışdır. Perspektivi olmayan bir fakültədə oxumağın faydasız olduğunu düşünən xalqın buraya rəğbəti azalmışdır. Bu səbəbdən İlahiyyat fakültəsinə ildən-ilə müraciət azalmış və Türkiyədə ali dini təhsil verən tək qurum da bağlanmışdır.

Yeri gəlmişkən qeyd edək ki, mədrəsələr bağlandıqdan sonra, yeni qurulmuş cümhuriyyətdə din tədrisi verən qurumlar qalmamışdı. Dünyəviliyi yeni qəbul etməyə başlayan bir cəmiyyətdə din tədrisinin zəruri olduğuna inanan Atatürk mədrəsələrin yerinə dördsinifli 29 İmam Xətib məktəbinin açılmasına qərar vermişdir (Soğukdere, İmam Hatip Liseleri'nin tarihsel gelişimi, http://www.cypriot.org.uk/Documents/Haber1/Imam-Hatip-Liseleri.htm).

İmam Xətib məktəblərinin sayı 1924–1925 tədris ilində 26-ya, 1925–1926-cı tədris ilində isə 20-yə düşmüşdür. Daha sonra 1926–1927-ci illərdən etibarən isə digər 18 İmam Xətib bağlanmış, Kütahya və İstanbuldakı iki məktəb isə tədrisə davam edə bilmişdir. Bu iki məktəb də 1930-cu ildə şagird azlığı səbəbindən bağlanmışdır (Yücel, 1994, 53). Ölkədə din təhsili verən nə orta, nə də ali məktəblərin olmaması cəmiyyətdə problemlərin yaranmasına gətirdi. Ölkənin hər yerində xalqın dini ehtiyaclarını qarşılayan din xadimlərinin olmadığına dair

şikayətlər TBMM və hökumətə ünvanlandı. Beləliklə, 2 dekabr 1947-ci il tarixində toplanan Cümhuriyyət Xalq Partiyasının VII qurultayında heyət hökumətə belə bir tövsiyə verdi: "İmam Xətib məktəbləri ilə yanaşı, ali din alimləri və fikir adamları yetişdirmək məqsədilə Universitetdə bir İslam İlahiyyat fakültəsinin qurulması lazım bilinmiş və qəbul olunmuşdur" (Selamet Mecmuası, 1948, c. 2, sayı 43, s. 5 vd).

Bu tövsiyə dövrün partiya rəhbərliyi, eləcə də hökumət tərəfindən qəbul olunmuş, 1948-ci ildə 10 rayon mərkəzində İmam Xətib kursları açılmışdır (Ünsür, 2004, 16-17). Qeyd edək ki, 13.10.1951-ci il tarixli və 601 saylı müdirlər heyətinin qərarı ilə ibtidai məktəb əsasında birinci mərhələsi 4, ikinci mərhələsi isə 3 il olan bütöv bir şəkildə 7 il müddətli İmam Xətib Məktəbi Ankara, İstanbul, Adana, Konya, İsparta, Kayseri və Maraş şəhərlərində açılmışdır. Daha sonra dövrün təhsil naziri Tahsin Banguoğlu tərəfindən İlahiyyat fakültəsinin qurulmasına dair 3 may 1949-cu il tarixində TBMM-yə bir təklif təqdim olunmuşdur. Bu təklif TBMM-də müzakirə olunmuş və 9 may 1949-cu il tarixində qəbul olunmuşdur. Bu fakültə *"Dini məsələlərin sağlam və elmi əsaslara görə tədqiq edilməsini mümkünləşdirmək, peşəsinə dair elmli, güclü və geniş düşüncəyə malik din adamlarının yetişə bilməsi üçün lazımi şəraiti hazırlamaq"* şəklində iki məqsədlə qurulmuşdur (Parmaksızoğlu, 1966, 25). TBMM tərəfindən qəbul olunan bu qərar 4 İyun 1949-cu il tarixində rəsmi qəzetdə nəşr edilmiş, 5424 saylı qanun şəklində qüvvəyə minmişdir. Beləliklə, 21 noyabr 1949-cu il tarixində Ankara Universiteti nəzdində İlahiyyat fakültəsi 85 tələbə ilə tədrisə başlamışdır (Öcal, 1998, 251).

Türkiyənin ikinci İlahiyyat fakültəsi olan Ankara Universiteti İlahiyyat fakültəsinin təhsil müddəti isə 4 il idi və ancaq orta məktəb məzunlarını qəbul edirdi. Bu səbəbdən peşə məktəblərindən, o cümlədən İmam Xətibdən məzun olanlar İlahiyyat fakültəsinə müraciət edə bilmirdilər. Qeyd edək ki, 1973-cü ildə qüvvəyə minən 1739 saylı "Milli Təhsilin Əsas Qanunu" ilə orta dərəcəli peşə məktəbləri liseylərə çevrildikdən sonra, bütün lisey məzunları, həmçinin peşə liseyi və İmam Xətib liseyinin məzunları bu fakültəyə daxil olmağa başladılar.onra *"daha yüksək keyfiyyətə sahib, daha dərin biliyə malik, daha çox tədqiqat imkanına qovuşdurulmuş mütəxəssislər yetişdirmək məqsədilə"* təhsil müddəti 5 ilə çatdırıldı (Bolay, 1973, 367).

İmam Xətib məktəbləri 1951-ci ildə açıldı, 1957–1958 tədris ilinin sonunda ilk məzunlarını yetişdirdi. Bu məzunlardan ali təhsil almaq istəyənlərin müraciət edə biləcəkləri ali təhsil müəssisəsi mövcud

deyildi. O dövrün universitet qanunlarına görə, İmam Xətib Məktəbi məzunlarının hər hansı bir fakültəyə daxil olmaları qeyri-mümkün idi. Yuxarıda da qeyd etdiyimiz kimi, Ankara Universitetinin İlahiyyat fakültəsi bu məktəbin məzunlarını qəbul etmirdi. Halbuki bir tərəfdən, Dəyanət İşləri Başqanlığında din xadimləri, digər tərəfdən, 1951-ci ildə açılmış İmam Xətib məktəblərində din dərslərini tədris edəcək müəllimlərə ehtiyac yaranmışdı. Həmçinin 1953–1954 tədris ilində müəllim məktəblərində, 1956-cı ildə isə orta məktəblərdə tədris olunan Din bilgisi dərslərini tədris edəcək müəllimlər lazım idi. Yaranan ehtiyacı məhdud sayda tələbə qəbul edən Ankara Universitetinin İlahiyyat fakültəsi qarşılaya bilməzdi. Bütün bunlar "Yüksək İslam İnstitutu" adlanan yeni bir ali təhsil qurumunun açılması fikrinin gündəmə gəlməsinə səbəb oldu (Öcal, 1998, 251-252). Beləliklə, Təhsil Nazirliyi Təlim və Tərbiyə Departamentinin 24.09.1959-cu tarixli və 240 saylı qərarına əsasən, 19.11.1959-cu il tarixində İstanbulda ilk Yüksək İslam İnstitutu açıldı. Təhsil müddəti 4 il olan bu qurum Təhsil Nazirliyinə bağlı idi və buraya ancaq İmam Xətib Liseyinin məzunları daxil ola bilirdilər. Sonrakı illərdə Konya (1962), Kayseri (1965), İzmir (1966), Ərzurum (1969), Bursa (1975), Samsun (1976) və Yozqatda (1980) da Yüksək İslam İnstitutu açıldı. Yüksək İslam institutlarından əlavə, bir də 1971-ci ildə Ərzurum Atatürk Universiteti nəzdində İslami elmlər fakültəsi açıldı (1971). Təhsil müddəti 5 il təyin edilən bu fakültəyə normal liseylərdən məzun olanlarla yanaşı, İmam Xətib liseylərindən məzun olanlar da müraciət edə bilirdilər (Öcal, 1998, 252-253).

Nəticə etibarilə Türkiyə Cümhuriyyətində 1924-cü ildən 1983-cü ilədək iki İlahiyyat fakültəsi, 8 Yüksək İslam İnstitutu və bir İslami elmlər fakültəsi fəaliyət göstərmişdir. Bunların ilki isə 1924-cü ildə qəbul olunan Təlimin Birliyi Qanunu ilə Darülfünun (indiki İstanbul Universiteti) nəzdində açılan və müxtəlif səbəblərdən 1933-cü ildə bağlanan İlahiyyat fakültəsidir.

4. 1983-cü ildən 1998-ci ilədək

Türkiyədə 12 sentyabr 1980-cı il tarixində baş verən hərbi çevrilişdən sonra təhsil sistemində mühüm dəyişikliklər meydana gəldi. Çevrilişdən sonra TBMM ləğv edildi, onun yerinə 150 nəfərlik Məşvərət Məclisi yaradıldı. Məşvərət Məclisi, Konstitusiya daxil olmaqla, bir çox qanunu yenidən tənzimlədi. Bunlardan biri də Ali Təhsil Qanunu (Yüksekögretim Kanunu) idi. Türkiyədə 1983-cü ildə çıxarılan Qərarnamə ilə 8

yeni universitet açıldı və beləcə, onların sayı 27-yə qalxdı. Bütün fakültə, akademiya və texnikumlar universitetlərə bağlandı. Beləliklə, daha əvvəl açılan Yüksək İslam institutları və Ərzurum İslami elmlər fakültəsi İlahiyyat fakültələrinə çevrildi, universitetlər bağlandı. Belə ki, 1982–1983 tədris ilindən etibarən, 8 İlahiyyat fakültəsi fəaliyətə başladı (Öcal, 1998, 253).

Türkiyədə sonrakı illərdə də İlahiyyat fakültələri açılmağa davam etdi. Harran Universiteti (Urfa, 1987), Akdeniz Universiteti (Antalya, 1992), Sakarya Universiteti (1993), Karadeniz Texniki Universiteti (Rize, 1993), Dicle Universiteti (Diyarbəkir, 1993), İnönü Universiteti (Darendə–Malatya, 1993), Yüzüncü Yıl Universiteti (Van, 1993), S. Demirel Universiteti (İsparta, 1993), Cumhuriyet Universiteti (Sivas, 1994), Gazi Universiteti (Çorum, 1994), Fırat Universiteti (Elazığ, 1994), Çukurova Universiteti (Adana, 1994), Onsekiz Mart Universiteti (Çanaqqala, 1995), İstanbul Universiteti (1996), Osmanqazi Universiteti (Əskişəhər, 1997) və Sütçü İmam Universiteti (Kahramanmaraş, 1997) İlahiyyat fakültələrinin açılması ilə bu fakültələrin sayı 24-ə yüksəldi. Bu fakültələrdən Osmanqazi Universiteti İlahiyyat fakültəsi, dekan təyin olunmasına baxmayaraq, tələbə qəbul etmədi. Yenə 1992-ci ildə qüvvəyə minən qanunda nəzərdə tutulduğu halda, Akdeniz Universiteti İlahiyyat fakültəsi (Antalya) bəzi səbəblərə görə açılmadı. Beləliklə, 1997-ci ilədək Türkiyədə aktiv olaraq 22 İlahiyat fakültəsi fəaliyət göstərirdi (http://www.tiyemder.org/ilahiyyattarih.asp).

Belə ki, 1983-cü ildə qəbul edilən yeni qanunla Ankara Universiteti, Ərzurum Atatürk Universiteti İslami elmlər fakültəsi və Yüksək İslam institutlarından İlahiyyat fakültələrinə çevrilən digər 6 fakültə ilə yanaşı, 8 İlahiyyat fakültəsinin təhsil müddətinin 1 ili hazırlıq, 4 ili isə fakültə olmaqla, cəmi 5 il idi. Bu fakültələrə tələbələr digər fakültələrdə olduğu kimi, mərkəzi imtahanla qəbul olunurdu. Tələbə seçmə imtahanı (Öğrenci Seçme Sınavı) və tələbə yerləşdirmə imtahanında (Öyrenci Yerleştirme Sınavı) lazımi balı toplayan tələbələr İlahiyyat fakültəsində oxumaq haqqı qazanırdılar.

İlahiyyat fakültələrində tədris müddəti 1 ili hazırlıq olmaqla, 5 il idi. Hazırlıq kurslarında həftədə 20 saat Ərəb dili, 6 saat Qurani-Kərim və 2 saat İslam dininin əsasları dərsləri tədris olunurdu. Beləliklə, həftədə 1 saat Din mədəniyyəti əxlaq bilgisindən başqa, din təhsili almayan orta məktəb məzunları hazırlıq sayəsində ilahiyyat elminin əsasını təşkil edən bu fənləri öyrənmə imkanını əldə edirdilər. İmam Xətib liseylərindən məzun olanlar öyrəndiklərini daha da inkişaf etdirmək fürsətini

qazanırdılar. Universitetə qəbul olunmuş bir tələbə hazırlıqda keçilən fənlərdən imtahanda uğur qazanardısa, birbaşa I kursa keçə bilirdi. Bu imtahandan uğur qazana bilməyənlər isə hazırlıq kursunu oxumaq məcburiyyətində idilər. Bakalavr təhsili müddətində fakültədə keçirilən dərsləri 3 qrupda toplamaq mümkündür. Bunlar aşağıda verilib:

– I qrup: Türkiyənin bütün ali məktəblərində ortaq tədris olunan dərslər. Atatürk ideya və inqilabları tarixi, Türk dili və Xarici dil məcburi, Bədən tərbiyəsi və Gözəl sənətlərdən biri seçilərək keçilirdi;

– II qrup: Fakültənin əsas peşə dərsləri;

– III qrup: Pedaqogika dərsləri. Bu, hər biri üçsaatlıq və birsemestrlik olan 9 dərsdir. Həmin dərsləri hər bir tələbənin mənimsəməsi məcburi idi.

İlahiyyat fakültələrindən məzun olanlar Təhsil Nazirliyi və Dəyanət İşləri Başqanlığına bağlı qurumlarda iş imkanı əldə edirdilər. İmam Xətib liseylərinin peşə dərsləri ilə digər liseylərdəki Din mədəniyyəti və əxlaq bilgisi fənni bu fakültələrdən məzun olanlar tərəfindən tədris olunurdu. Həmçinin məcsidlərdə axund və müəzzin kimi vəzifələrdə işləyə bilirdilər. Buna əlavə olaraq, Vəqflər Müdirliyi ilə kitabxanalar kimi xalqa xidmət edən qurumlarda da İlahiyyat fakültələrindən məzun olanlar iş imkanı əldə edə bilirdilər (Öcal, 1986, 120-121).

5. 1998-ci ildən 2008-ci ilədək

Türkiyədə İlahiyyat fakültələrində 1983-cü ildən etibarən tətbiq olunan proqram 1998-ci ilədək davam etdi. Türkiyədə 1997-ci ildə baş verən Postmodern çevrilişindən sonra, bütün ölkədə din və din tədrisi əleyhinə böyük təbliğat aparılmağa başlandı. Bunun nəticəsində din təhsili verən liseylər və fakültələrin proqramlarında yeni dəyişikliklər baş tutdu.

Türkiyədə 1998-ci ildə 23 İlahiyyat fakültəsi mövcud idi. Bunlardan, sadəcə, Əskişəhər Osmanqazi Universitetinin İlahiyyat fakültəsinə dekan təyin olunmasına baxmayaraq, ora açılmamışdı. Qalan 22 fakültə fəal surətdə fəaliyət göstərirdi. Ali Təhsil Şurası (Yüksek Ögretim Kurulu) 1998-ci ildə doqquznəfərlik İlahiyyat Milli Komitəsi təşkil etdi. Bu komitə 1998-1999-cu tədris ilindən etibarən tətbiq ediləcək çox önəmli qərarlara imza atdı. Yeni tənzimləməyə görə İlahiyat fakültələrinin hazırlıq kursları ləğv edildi. Bu kursda tədris edilən Ərəb dili və Quran dərsləri digər kurslar arasında bölüşdürüldü. Buna əlavə olaraq komitə İlahiyat fakültələrini 2 qrupa ayırdı. Birinci qrupa daxil olan 11 İlahiyat

fakültəsində (Ankara, Mərmərə, Səlcuk, Ərciyəs, Doqquz Eylül, Atatürk, Uludağ, Ondoqquz Mayıs, İstanbul, Diclə və Çukurova universitetlərinin İlahiyyat fakültələri) İlahiyyat bakalavr proqramı ilə birlikdə "Orta məktəb din mədəniyyəti və əxlaq bilgisi müəllimliyi" proqramı da açıldı. İstanbul və Dicle universitetlərinin İlahiyat fakültəsindən başqa, 9 fakültə "Orta məktəb din mədəniyyəti və əxlaq bilgisi müəllimliyi" proqramına 1998–1999 tədris ilindən etibarən tələbə qəbul etdi.

İkinci qrupa daxil olan (Harran, K.T.Ü. Rize, Sakarya, Gazi, İnönü, Yüzüncü Yıl, S. Demirel, Cümhuriyyət, Onsəkkiz Mart, Osmanqazi, Sütçü İmam ve Fırat Üniversitetləri İlahiyat fakültələri) ilahyyatlarda isə sadəcə, İlahiyyat proqramları açıldı. Bu fakültələrdən məzun olanlardan orta məktəblərdə müəllim kimi işləmək istəyənlər Ankara Universitetinin İlahiyyat fakültəsi nəzdində açılan magistraturadan məzun olmaq məcburiyyətində idilər. Magistratura pedaqogika dərslərini ehtiva edən üç semestrdən ibarət idi və magistratura işi tələb edilmirdi. Bu proqramda iştirak edənlərdən İmam Xətib liseylərində müəllim olaraq işləmək istəyənlərə pedaqogika dərslərinə əlavə olaraq peşə təhsili də verilirdi. Din mədəniyyəti və əxlaq bilgisi dərsi müəllimi olmaq istəyənlər isə yalnız pedaqogika dərslərini alırdılar (http://www.tiyemder.org/ilahiyyattarih.asp).

Ali Təhsil Şurasının 2006-cı ildə qəbul etdiyi qərarla "Orta məktəb Din mədəniyyəti və əxlaq bilgisi müəllimliyi" proqramı İlahiyyat fakültələrindən alınaraq, Pedaqoji fakültələrə verildi. Həmçinin bölümün adındakı "ilkögretim" sözü ləğv edilərək, "Din mədəniyyəti və əxlaq bilgisi müəllimliyi" şəklində dəyişdirildi (Öcal, 2016, 432; Ev, 1999, 262). Digər tərəfdən, İlahiyyat fakültələrinə qəbul ediləcək tələbə sayı da azaldıldı. Əvvəllər İlahiyyat fakültələri üçün 2000-dən çox yer ayrıldığı halda, 1998–1999-cu illərdən etibarən, mərhələli olaraq bu say azaldıldı. Buna əlavə olaraq, Van Yüzüncü Yıl Universiteti ilə Malatya İnönü universitetlərinə bağlı İlahiyyat fakültələrinə tələbə qəbulu dayandırıldı. Açıldığı gündən etibarən tələbə qəbul etməyən Əskişəhər Osmanqazi Universitetinin İlahiyyat fakültəsinə tələbə qəbuluna başlanmasına da icazə verilmədi (http://yenisafak.com.tr/arsiv/2005/subat/27/g01.html). Bütün bunlara əlavə olaraq İlahiyyat fakültələrindən məzun olanların təyinat məsələsində problemlər yarandı. Qeyd edək ki, 1998-ci ildən etibarən təyin olunan müəllim sayı azaldıldı. İldə, təqribən, 100 ilahiyyat məzunu müəllim kimi təyin olunurdu. Beləliklə, İlahiyyat fakültələrinin və bu fakültəyə daxil olan tələbələrin sayında azalma baş verdi.

6. 2008-ci ildən 2024-cü ilədək

Türkiyədə 3 noyabr 2002-ci il tarixindəki seçkilər yeni dövrün başlanğıcı olmuşdur. Nəcməddin Ərbakandan ayrılan Rəcəb Tayyib Ərdoğan və məsləkdaşlarının qurduğu Ədalət və İnkişaf Partiyası (ƏİP) seçicilərin 34,43 faizinin səsini toplayaraq, 365 millət vəkili ilə təkbaşına hökumət qurdu. ƏİP özündən əvvəlki bir neçə hökumətdən fərqli olaraq, din təhsili verən qurumlara qarşı daha tolerant münasibət göstərdi.

Daha əvvəl də qeyd etdiyimiz kimi, İlahiyyat fakültələrindən məzun olanların işlədikləri yerlərdən biri də Dəyanət İşləri Başqanlığına (DİB) bağlı qurumlar idi. YÖK tərəfindən İlahiyyat fakültələrinə ayrılan yerlərin azlığı səbəbindən, bu fakültələrdən məzun olanların sayı da azalmışdı. Digər tərəfdən, YÖK-ün qərarları sayəsində İmam Xətib liseyləri və bu liseylərdən məzun olanların sayı azalmışdı. Kadr ehtiyacını İmam Xətib liseyləri və İlahiyyat fakültələri məzunlarından qarşılayan DİB problemlə qarşı-qarşıya qalmışdı. Türkiyənin hər tərəfində imamsız məscidlərin sayı çoxalmağa başlamışdı. Bir tərəfdən, xalqın tələbi, digər yandan, boş qalan yerlərin bəzi qruplar tərəfindən doldurulması DİB-i hərəkətə keçirdi. Dəyanət işləri başqanı professor, doktor Əli Bardakoğlu 13 fevral 2008-ci il tarixində Ali Təhsil Şurasına bir məktub göndərdi. Bu məktubda vəfat və istefa səbəbindən boş qalan məscidlərə imam təyin oluna bilməsi üçün İlahiyyat fakültələrinə ayrılan yerlərin çoxaldılması tələb edilirdi (http://www.tumgazeteler.com/?a=3904148). Dəyanət İşləri Başqanlığının bu tələbinə Ali Təhsil Şurası müsbət cavab verdi, İlahiyyat fakültələrinə qəbul olunacaq tələbə sayını, təqribən, 235 faiz artıraraq, 785-dən 2550-yə yüksəltdi (http://www.tumgazeteler.com/?a=3901850).

Az sonra – 2008-ci ildə qəbul olunan qərara əsasən, 1997-ci ildə rəsmi olaraq açılmasına baxmayaraq, tələbə qəbul etməyən Əskişəhər Osmanqazi Universitetinin İlahiyyat fakültəsi ilə tələbə qəbulu dayandırılan Yüzüncü Yıl Universitetinin İlahiyyat fakültəsinə tələbə qəbuluna başlanıldı (http://www.haber50.com/33413_Kapali-ilahiyyat-fakulteleri-acildi.html). Türkiyədə 22.05.2008-ci il tarixində qəbul olunan 2809 saylı qanunla yeni universitetlər açıldı. Bunlardan İqdır Universiteti ilə Şırnak Universiteti nəzdində İlahiyyat fakültələrinin açılmasına qərar verildi (http://www.prs.yildiz.edu.tr/getfile.php?dosyano=1143). Yeni açılan ali təhsil müəssisəsindən olan Gümüşhane Universiteti senatının müraciəti Ali Təhsil Şurası tərəfindən incələnərək, 29 dekabr 2009-cu il tarixindəki iclasında İlahiyyat fakültəsinin fəaliyyətinə rəvac verilməsi

qərara alındı (http://www.showhaber.com/241082/egitim/yokten-gumushane-universitesinde-ilahiyyat-fakultesi-kurulmasina-onay.html). Beləliklə, Türkiyədə İlahiyyat fakültələrinin sayı 26-ya yüksəldi. Həmçinin yeni ali məktəblərdən Ərzincan Universitetinin rektorluğu da müəssisəyə bağlı İlahiyyat fakültəsinin açılması üçün Ali Təhsil Şurasına müraciət etdi (http://m.yeniasya.com.tr/2009/12/21/guncel/h23.htm).

Digər tərəfdən, Ali Təhsil Şurası İlahiyyat fakültələrinin proqramlarında dəyişikliklər də etdi. Daha əvvəl olduğu kimi, bu fakültələrin tədris müddəti yenə 5 ilə çatdırıldı. Hazırlıq kursu olan birinci ildə, əsasən, Ərəb dili və Quran dərslərinə yer verilmişdi. Daha sonra – 2013–2014-cü tədris ilindən etibarən, DKAB bölümünün yenidən İlahiyyat fakültəsi nəzdinə verilməsi qərara alındı. Tələbə Seçmə və Yerlədirmə Mərkəzinin (Ögrenci Seçme ve Yerleştirme Merkezi) kitabçasında 2014–2015 tədris ilindən etibarən, İDKAB bölümünə yer verilmədi. Bu da bölümdə təhsil alan tələbələrin məzun olmasından sonra, həmin bölümün faktiki surətdə bağlanacağı demək idi (Turan, 2017, 70).

Bir tərəfdən, yeni universitetlərə bağlı İlahiyyat fakültələri açılır, digər tərəfdən, "İslami elmlər fakültəsi" adı altında ali din təhsili verən fakültələr fəaliyyətə başladı. Yuxarıda da qeyd etdiyimiz kimi, 1971-ci ildə Ərzurumda açılan və 1983-cü ildə adı "ilahiyyat" olaraq dəyişdirilən İslami elmlər fakültəsindən sonra, ilk dəfə olaraq, 2011-ci ildə Fatih Sultan Mehmet Vakf Universiteti və İstanbul Şəhər Universitetinə bağlı İslami elmlər fakültəsi fəaliyyə başladı. Ali Təhsil Şurası 2013-cü ildə ilahiyyatların adının İslami elmlər fakültəsi olaraq dəyişdirilməsinə və bəzi fənlərin birləşdirilib, digərlərinin ləğv edilməsinə qərar verdi (Günay, 2013, 3). Bu qərar cəmiyyətdə birmənalı qarşılanmadı və "Fəlsəfəsiz ilahiyyat" etiraz şüarları yüksəldi. İlahiyyatların adının "İEF" olaraq dəyişdirilməsi qərarına etiraz edənlərlə yanaşı, bunu qəbul edənlər də var idi. Bir qrupa görə, 1982-ci ildə dinin öyrədildiyi fakültələrin adlarındakı "İslam" sözünün çıxarılması səhv qərar idi. Belə ki, həmin səhv qərar düzəldilirdi (Toktaş vd., 2016, 152). Cəmiyyətdən və elm adamlarından səslənən etirazlar nəticəsində, Ali Təhsil Şurası qərarı ləğv etdi. Bununla yanaşı, bəzi universitetlərə bağlı İslami elmlər fakültəsi açıldı. Beləliklə, Türkiyədə ali din təhsili tədris edən fakültələrin sayı 70-i İlahiyyat, 28-i İslami elmlər fakültəsi olmaqla, 98-ə yüksəldi (https://istatistik.yok.gov.tr/). Bu da özü ilə yeni bir mübahisəyə səbəb oldu. İlahiyyat fakültələrinin kəmiyyətinin artması onun keyfiyyətinə necə təsir göstərəcəkdir? Qeyd edək ki, son zamanlarda bir çox İEF-in adı dəyişdirilərək, İlahiyyat fakültəsinə çevrilib. Bu tendensiya davam edir.

Nəticə

Osmanlı İmperatorluğu süqut etdi, yerinə Türkiyə Cümhuriyyəti quruldu. Qurulan yeni cümhuriyyətin bir çox sahəsində islahatlar aparıldı. Bu sahələrdən biri də din təhsili və xidmətləri istiqamətidir. Qəbul edilən yeni qanunla, ümumilikdə, mədrəsələr bağlanmış, müasir tipli yeni məktəblər açılmışdır. Dünyəviliyi qəbul edən Türkiyədə din təhsilinin də dövlətin nəzarətinə verilməsi qərara alınmışdır. Bu baxımdan, İmam Xətib məktəbləri ilə yanaşı, İlahiyyat fakültəsi açılmışdır. Yaradılan bəzi süni maneələr bu məktəblərə olan tələbi azaltmış, nəticədə, onun bağlanmasına səbəb olmuşdur.

Türkiyədə ilk açılan İmam Xətib məktəbləri ilə İlahiyyat fakültəsinin bağlanmasından sonra, bir müddət din təhsili tədris edən hər hansı bir qurum qalmamışdır. Bu da ölkədə din xadimi problemini yaratmışdır. Mənbələr həmin dövrdə bölgələrdə vəfat edən şəxslərin dəfni ilə məşğul olacaq din xadimlərinin olmaması, vəfat edənlərin günlərlə dəfn edilmədən qalmasından xəbər verir. Bu durum xalqın narahatlığına səbəb olmuş, müraciətlər qarşısında dövrün siyasi hakimiyyəti İmam Xətib kursları və İlahiyyat fakültəsinin açılmasına qərar vermişdir. Həyata keçirilən tədbirlər tam olaraq ehtiyacı qarşılamamışdır. Türkiyə çoxpartiyalı demokratik sistemə keçdikdən sonra, dinə və din təhsilinə münasibət dəyişmişdir. Yeni hökumətlər din təhsili məsələsinə daha obyektiv yanaşmış, yeni təhsil ocaqlarının, o cümlədən Yüksək İslam institutlarının açılması qərara alınmışdır.

Türkiyədə baş verən 1980-ci il hərbi çevrilişi, ümumilikdə, təhsil sistemində bəzi islahatların qəbul olunmasına gətirdi. Bu məqam İlahiyyat fakültələrindən də yan keçməmiş, ali məktəb səviyyəsində din təhsili tədris edən qurumlar "ilahiyyat" adı altında birləşdirilərək, universitetlərin nəzdinə verilmişdir. Eyni zamanda, ilahiyyatların müfrədatında da bəzi dəyişikliklər edilmişdir.

Türkiyədə din təhsilinə növbəti müdaxilə 28 fevral 1997-ci il tarixindəki postmodern çevrilişdən sonra baş vermişdir. Həmin dövrdə İlahiyyat fakültələri ən çətin dövrünü yaşamışdır. Bu fakültələrə qəbul olunacaq tələbə sayı azaldılmış, hazırlıq kursları ləğv edilmiş, müfrədatı dəyişdirilmiş, məzunlarının işlə təmini məsələsi çətinləşmişdir. Bu və digər maneələr İlahiyyat fakültələrinə rəğbətin azalmasına səbəb olmuşdur. Ədalət və İnkişaf Partiyası hakimiyyətə gəldikdən bir müddət sonra, haqqında danışılan problemlər ortadan qaldırılmış, ilahiyyat fakültələrini keçmiş möhtəşəm günlərinə qaytarmışdır. Yeni İlahiyyat və

İslami elmlər fakültələri sayəsində ali məktəb səviyyəsində din təhsili tədris edən qurumların və bunlarda oxuyan tələbələrin sayı kəskin şəkildə artımışdır.

Bütün bunları xülasə edərək söyləyə bilərik ki, 101 yaşlı Türkiyə Cümhuriyyəti quruluşundan bugünədək, ümumilikdə, təhsil sistemində-ki problemləri həll edə bilməmişdir. Hakimiyyətə gələn hər bir hökumətin müdaxilə etdiyi sahələrdən biri də təhsil sistemidir. Bu müzakirə hələ də davam edir. İlahiyyat məsələsi təhsil sisteminin tərkib hissəsi kimi müzakirə edilən məsələlərdəndir. Siyasi və ideoloji müdaxilələr səbəbindən, İlahiyyat fakültələri açılmış, bağlanmış, yaxud yeni bölümlərə ayrılmış, bəzən də müfrədatda dəyişikliklər edilərək yenidən dizayn olunmağa məruz qalmışdır. Hakimiyyətlər dəyişildikcə, ilahiyyata və din təhsilinə münasibət də fərqli olmuşdur. İndiyədək – 2024-cü ilin axırlarına gəldiyimiz bir zamanda İlahiyyat fakültələri və burada tətbiq edilən müfrədat hələ də müzakirə obyekti olmaqda davam edir.

Ədəbiyyat

Akgündüz, Ahmet. (1990). Osmanlı Kanunnameleri, İstanbul. (712 s.)

Antel, Sadrettin Celal. (1940). “Tanzimat Maarifi”//Tanzimat I, İstanbul. (460 s.)

Ayhan, Halis. (1999). Türkiye`de Din Eğitimi, İstanbul. (600 s.)

Baltacı, Cahit. (1976).15-16. Asırlarda Osmanlı Medreseleri, İstanbul. (713 s.)

Bilge, Mustafa. (1984). İlk Osmanlı Medreseleri, İstanbul. (326 s.)

Bolay: Süleyman Hayri, “Fakültəmiz ve Faaliyetleri,” *A. Ü. İlahiyat Fakültesi Dergisi, “50. Yıl Özel Sayısı”*, Ankara 1973.

Ergin, Osman. (1977). Türk Maarif Tarihi, İstanbul. c. III-IV. (ss. 839-1597)

Ergün, Mustafa. (1996). II. Meşrutiyet Devrinde Eğitim Hareketleri (1908-1914), Ocak Yayınları, Ankara. (578 s.)

Ev, Halit. (1999).Türkiye’deki Yüksek Din Ögretimi Kurumları Programlarının Öğretmen Yetiştirme Bakımından Değerlendirilmesi, Fəlsəfə doktorluğu dissertasiyası, Dokuz Eylül Üniversitesi Felsefe ve Din Bilimleri Anabilim Dalı Din Eğitimi Bilim Dalı, İzmir. (283 s.)

Günay, Durmuş. (2013). Karşı Oy Yazısı//Süleyman Demirel Üniversitesi İlahiyat Fakültəsi Dergisi.Isparta. (ss.3-29)

http://m.yeniasya.com.tr/2009/12/21/guncel/h23.htm

http://www.haber50.com/33413_Kapali-ilahiyyat-fakulteleri-acildi.html
http://www.prs.yildiz.edu.tr/getfile.php?dosyano=1143
http://www.showhaber.com/241082/egitim/yokten-gumushane-universitesinde-ilahiyyat-fakultesi-kurulmasina-onay.html
http://www.tiyemder.org/ilahiyyattarih.asp
http://www.tiyemder.org/ilahiyyattarih.asp
http://www.tumgazeteler.com/?a=3901850
http://www.tumgazeteler.com/?a=3904148
http://yenisafak.com.tr/arsiv/2005/subat/27/g01.html
Koç, Ahmet. (2000). Türkiye`de Din Eğitimi ve Ögretimi Üzerine Genel Bir Değerlendirme//Din Eğitimi Araştırmaları Dergisi. Sayı 7. (ss. 277-334)
Maarif Vekaleti Mecmuası, Mart 1925, sayı 1.
Öcal, Mustafa. "İlahiyat Fakültelerinin Tarihçesi"//*Uludağ Universiteti İlahiyat Fakultesi Dergisi*, il 1, cilt 1, sayı 1. (ss.111-123).
Öcal, Mustafa. (2016). Osmanlı'dan Günümüze Türkiye'de Din Eğitimi, Dergah Yayınları. (560 s.)
Öcal, Mustafa. (1992). Türkiye Cumhuriyeti'nde Din Eğitimi ve Dini Hayat, Uludağ Üniversitesi İlahiyat Fakültəsi Ders Notları, Bursa.
Öcal, *Mustafa. (1998). Cumhuriyet Döneminde Türkiye'de Din Eğitimi Ve Ögretimi//*Uludağ Üniversitesi İlahiyat Fakültesi Dergisi, 7/1. (ss. 241-268)
Parmaksızoğlu, İsmet. (196). Türkiye'de Din ve Eğitimi, Ankara. (82 s.)
Resmi Qazete, 6. 3. 13440, sayı 63. Yayınlandığı düstür, tərtip 3, c. 5.
Selamet Mecmuası, c. 2, sayı 43, s. 5 vd, 12 Mart 1948.
Soğukdere, Özlem, İmamHatipLiseleri'nintarihselgelişimi, http://www.cypriot.org.uk/Documents/Haber1/Imam-Hatip-Liseleri.htm
Szyliwicz, Joseph S. (1973). *Education and Modernization in the Middle East*, London. (477 ps)
Şanal, Mustafa. Kuruluşundan Ortadan Kaldırılışlarına Kadar Olan Süre İçerisinde Medreseler, http://yayim.meb.gov.tr/dergiler/143/17.htm.
Taşdemirci, Ersoy. (1989). Medreselerin Doğuş Kaynakları ve İlk Zamanları// E.Ü.Sos.Bil.Dergisi, Sayı:2, Kayseri. (ss. 269-271)
Toktaş, Fatih, Keyifli Şükrü, Yıldırım Fatih, Esen, Beki. (2016). Felsefe'li İlahiyat Vs. Felsefe'siz İslami İlimler: Türkiye Geneli Öğrenci Anketi// DEUİFD, XLIII. (ss. 143-181).

Turan, İbrahim. (2017). Türkiye'de İlahiyat Eğitimi: İstihdam Alani-Program İlişkisi Üzerine Bir Değerlendirme// İÜİFD 37 (Aralık). (ss. 59-77).

Unat, Faik Reşit. (1964). Türkiye Eğitim Sisteminin Gelişmesine Tarihi Bir Bakış, Ankara. (200 s.)

Uzunçarşılı, İ. Haqqı. (1988). Osmanlı Devletinin İlmiye Teşkilatı, Ankara. (349 s.)

Ünsür, Ahmet. (2004). Türkiye'de Din Egitimi (Sorunlar ve Çözüm Önerileri)//İnsan Vakfı Eğitim Yazıları, Yıl 5, sayı 9, May.

Yaltkaya, M. Şerafettin. (1940). Tanzimattan Evvel ve Sonra Medreseler//Tanzimat I, İstanbul 1940.

Yücel, H. Ali. (1994). Türkiye'de Orta Ögretim, Ankara. (652 s.)

Dini xurafat və mövhumatla mübarizədə mətbuatın rolu (“Azərbaycan” qəzetinin (1947–1949) materialları əsasında)

t.f.d., dos. Əli Fərhadov,
Milli Azərbaycan Tarixi Muzeyinin aparıcı elmi işçisi
Bakı, Azərbaycan
ali_farhadov@yahoo.com
https://orcid.org/0000-0002-9322-3670

Xülasə

Məqalədə S.C.Pişəvərinin ilk rəhbəri olduğu Azərbaycan Demokrat Firqəsinin (ADF) orqanı olan “Azərbaycan” qəzetinin 1947–1949-cu il buraxılışları əsasında dini məsələlərə, dini problemlərə, dini savadsızlığa və cəhalətə qarşı mübarizədə mətbu baxışı təqdim edilib. Qəzet 1945–1946-cı illərdə Təbrizdə və ADF-nin məğlubiyyətindən sonra – 1947–1949-cu illərdə Bakıda əski əlifba ilə Azərbaycan dilində nəşr olunmuşdur. Məqalədə qəzetin təsisçisi S.C.Pişəvərinin, ADF xadimlərinin – C.Müciri, Ə.Şəmidə, Q.Kəndli və başqa yazarların əsərlərindən, dövrün sovet mətbuatından və digər ədəbiyyatlardan da istifadə edilmişdir. “Azərbaycan” qəzetinin materialları əsasında yazılan məqalədə XIX–XX əsrlər Azərbaycan mütəfəkkirləri – M.F.Axundzadə, M.Ə.Sabir, “Molla Nəsrəddin” jurnalı, M.Xiyabani kimi məşrutə inqilabçıları, M.Ə.Möcüz Şəbüstəri kimi şairlər, M.Biriya kimi ADP-nin aparıcı simaları və başqaları haqqında məlumat verilir, onların dini baxışlarından, cəhalət və xurafata qarşı mübarizələrindən bəhs edilir.Yazıda, həmçinin dövrün iqtidar sahibi olan Pəhləvi hakimiyyətinə “Azərbaycan” qəzetinin münasibəti, hakimiyyətin xalqı itaətdə saxlamaq üçün istifadə etdiyi qeyri-demokratik metodlara, xurafat və mövhumata, mürtəce dini baxışlara qarşı mütərəqqi ziyalıların tənqidi münasibəti, bu ziyalıların xalqı demokratik, dünyəvi bir rejimə necə səsləməsi göstərilib. O cümlədən araşdırmada ADF-li yazarların vətənpərvərlik, millətsevərlik, dini-əxlaqi dəyərlər haqqındakı fikirləri ilə insan haqları və azadlığına dair baxışları arasındakı qarşılıqlı əlaqə, xristian missionerliyinə, İslam məzhəblərinə baxış müqayisəli şəkildə təqdim və təhlil edilmişdir. Məqalədə dini maarifçiliyin milli şüurun formalaşmasında və milli-dini hərəkatın təşəkkülündə yeri və rolu müəyyənləşdirilmiş, onun bugünümüzlə ahəngdar olan ideyaları qabarıq verilmişdir. Bu yazı “Azərbaycan” qəzetinin və ümumilikdə, Cənubi Azərbaycan

ziyalılarının dini xurafatla, cəhalətlə mübarizəsini tədqiq və təbliğ etmək baxımından da əhəmiyyətlidir.

***Açar sözlər**: "Azərbaycan" qəzeti, din, xurafat, dini savadsızlıq, cəhalət.*

The Role of the Press in the Fight against Religious Superstition and Prejudices (based on Materials from the Newspaper" Azerbaijan " (1947-1949))

Assoc. Prof. Ali Farhadov,
Leading Researcher of the National
Museum of History of Azerbaijan
Baku, Azerbaijan
ali_farhadov@yahoo.com
https://orcid.org/0000-0002-9322-3670

Abstract

In the article, based on the 1947-1949 issues of "Azerbaijan" newspaper, the organ of the Azerbaijan Democratic Party (ADP) headed by S.J.Pishevari, the newspaper's view of the fight against religious issues, religious problems, religious illiteracy and ignorance was presented. The newspaper was published in Tabriz in 1945-1946 and in Baku in 1947-1949 after the defeat of ADP in the old alphabet. In the article, the founder of the newspaper S.J.Pishevari, ADP members - J. Mujiri, A. Shamida, G. Kandli, etc. from the works of writers, the Soviet press of the time, etc. literature was also used. In the article based on the materials of "Azerbaijan" newspaper, Information is given about 19th-20th century Azerbaijani thinkers - M.F.Akhundzade, M.A. Sabir, "Molla Nasreddin" magazine, constitutional revolutionaries like M. Khiyabani, poets like M. A. Mojuz Shabustari, leading figures of ADP like S.J.Pishevari, M. Biriya and others, their religious views, struggles with ignorance and superstition, is discussed. In the article, the attitude of "Azerbaijan" newspaper towards the ruling Pahlavi government of the time, the critical attitude of the progressive intellectuals towards the non-democratic methods used by the government to keep the people in obedience, superstition and superstition, reactionary religious views, and how these

intellectuals invited the people to a democratic, secular regime. shown. Including the interaction between the views of ADP writers on patriotism, nationalism, religious and moral values and their views on human rights and freedom, the view of Christian missionaries and Islamic sects was presented and analyzed in a comparative manner, the role of religious enlightenment in the formation of national consciousness and the national-religious movement. its place and role in its formation are defined, and its ideas that are in harmony with today are highlighted. The article is important in terms of researching and promoting the struggle of "Azerbaijan" newspaper and intellectuals of South Azerbaijan in general with religious superstition and ignorance.

Keywords: *"Azerbaijan" newspaper, religion, superstition, religious illiteracy, ignorance*

Роль прессы в борьбе с религиозными суевериями и предрассудками (по материалам газеты“Азербайджан” (1947-1949))

д.ф.по истории, доц. Али Фархадов,
Ведущий научный сотрудник
Национального музея истории Азербайджана
Баку, Азербайджан
ali_farhadov@yahoo.com
https://orcid.org/0000-0002-9322-3670

Резюме

В статье, основанной на номерах газеты "Азербайджан" за 1947-1949 годы - органа Демократической партии Азербайджана (АДП) во главе с С.Дж. Пишевари, изложен взгляд газеты на борьбу с религиозными вопросами, религиозными проблемами, религиозной безграмотностью и невежеством. представлено. Газета издавалась в Тебризе в 1945-1946 годах и в Баку в 1947-1949 годах после разгрома АДП на арабском алфавите. В статье учредитель газеты С.Дж. Пишевари, члены АДФ - Дж. Муджири, А.Шамида, Г.Кандли и др. из произведений писателей, советской прессы того времени и т. д. также использовалась литература. В

статье, основанной на материалах газеты "Азербайджан", представлены азербайджанские мыслители XIX и XX веков - М.Ф. Ахундзаде, М.А. Сабир, журнал "Молла Насреддин", такие конституционные революционеры, как М. Хиябани, такие поэты, как М.А. Моджуз Шабустари, лидеры АДП, таким как С.Дж. Пишевари, М. Бирия и другие, дается обширная информация, обсуждаются их религиозные взгляды, борьба с невежеством и суевериями. В статье рассмотрено отношение газеты «Азербайджан» к правящему в то время правительству Пехлеви, критическое отношение прогрессивной интеллигенции к недемократическим методам, используемым правительством для удержания народа в повиновении, суевериям и суевериям, реакционным религиозным взгляды, и как эти интеллектуалы призывали людей к демократическому, светскому режиму. Включая взаимодействие взглядов писателей АДП на патриотизм, национализм, религиозно-нравственные ценности и их взгляды на права и свободы человека, взгляды христианских миссионеров и исламских сект были представлены и проанализированы в сравнительной манере, роль религиозных просвещения в формировании национального сознания и национально-религиозного движения определяются его место и роль в его формировании, а также выделяются его идеи, созвучные современности. Статья важна с точки зрения исследования и пропаганды борьбы газеты «Азербайджан» и интеллигенции Южного Азербайджана в целом против религиозных предрассудков и невежества.

***Ключевые слова**: газета «Азербайджан», религия, суеверия, религиозная безграмотность, невежество*

Giriş

“Azərbaycan” qəzeti Azərbaycan Demokrat Firqəsinin orqanı idi. Öz səhifələrində, əsasən, şah rejimini tənqid etmiş, milli maarifçilik, demokratik hüquqlar və bu istiqamətdə mübarizə kimi məsələləri geniş işıqlandırmışdır. Qəzetdə dövrün dini məsələləri, savadsızlıq, xurafat və mövhumat, şahpərəst mürtəce ruhanilərlə mücadilə, İranı idarə edən Pəhləvilərin dini siyasətini tənqid etmək geniş yer tutur. Bu

məqsədlə M.F.Axundzadə, M.Ə.Sabir, C.Məmmədquluzadə kimi mütəfəkkirlərin yaradıcılığına, "Molla Nəsrəddin" jurnalı və digər mətbu orqanlarından nümunələrə qəzetdə geniş yer verilmişdir. Qəzetdə, həmçinin S.C.Pişəvəri, C.Müciri, Q.Kəndli, Ə.Şəmidənin və başqa yazarların dini maarifçilik, xurafatla mübarizə, Pəhləvilərin dini siyasətini tənqid edən məqalələrə də yer verilmişdir. Cənubi Azərbaycan şairləri – M.Ə.Möcüz, B.Abbaszadə (Hammal) və digərlərinin həyat hekayəsi və "Molla Nəsrəddin" jurnalının təsiri ilə öz dövrünün eybəcərliklərini ifşa edən şeirlərinə "Azərbaycan" qəzetində yer verilmişdir.

"Azərbaycan" qəzetində dini maarifçilik və xurafatla mübarizə

"Azərbaycan" qəzetində XIX əsrin görkəmli ziyalısı M.F.Axundzadənin milli maarifçilik uğrunda, dini mövhumat və xurafata qarşı mübarizəsi geniş təqdim edilmişdir. Qəzet yazırdı ki, Azərbaycan xalqının böyük oğlu, müsəlman Şərqində birinci materialist filosof M.F.Axundzadə özünün məşhur fəlsəfi "Kəmalüddövlə məktubları" əsərində riyakar, satqın ruhanilərin, molla və şeyxlərin maskalarını yırtmışdır. O yazırdı ki, ey vaizlər və alimlər, ey şarlatanlar, nə üçün siz yazıq camaatı cəhənnəm əzabı ilə qorxudaraq ona başqa xalqlarla əlaqə yaratmaq, elm və sənətin müvəffəqiyyətlərindən istifadə etmək imkanı vermirsiniz? Qəzet yazırdı ki, M.F.Axundzadənin zamanında olduğu kimi, indi də mömin şeyx əbası altında gizlənənləri tənqid və ifşa etmək lazımdır (Dünya mədəniyyət.., 1948, 25 sentyabr, 4).

"Azərbaycan" qəzetində XX əsrin əvvəlində mühüm milli maarifçilik rolu olmuş "Molla Nəsrəddin" jurnalı təbliğ edilir, onun Azərbaycan ədəbiyyatında oynadığı rol, qadın azadlığına, maarifçiliyə verdiyi töhfələr və təsir yüksək qiymətləndirilirdi (Təbatəbai, 1946, 22 yanvar, 4). Qəzetdə jurnalın nəşrinə böyük töhfə vermiş C.Məmmədquluzadə, M.Ə.Sabir haqqında məlumatlar çap olunur, onları "Şərq aləmində tanımayan yoxdur" yazılırdı (Müciri, 1948, 21 iyul, 4). "Azərbaycan" qəzeti yazırdı ki, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir kimi ziyalılar Ana dilimizin təmizliyi uğrunda çalışmışlar ("Azərbaycan" qəzeti.., 2022, 484).

"Azərbaycan" qəzeti C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri haqqında yazırdı ki, bu pyesdə övladlarının biri Peterburqda, digəri İstanbulda, üçüncüsü isə Nəcəfdə təhsil almış bir azərbaycanlı ailənin sərgüzəşti şərh edilir. Əsərdə iştirak edən üç qardaş arasında daim fərqli ideologiyalar üstündə mübahisə gedir, hər biri öz əqidəsini və

yaşadığı mühitin ona buraxdığı təsiri digərlərinə yaymaq istəyir. Pyesdən açıq-aydın görünür ki, təcavüzkar dövlətlər bir xalqı daim əsarət altında saxlamaq üçün əsas tədbir olaraq həmin millətin ana dilini və milli mədəniyyətini yox etməyə çalışırlar. C.Məmmədquluzadənin bu əsəri Təbriz teatrında səhnəyə qoyulmuşdu (Nikpur. Anamın...; "Azərbaycan" qəzetinin.., 2020, 8 oktyabr, 14).

M.Ə.Sabirin əsərlərinin maarifləndirici xüsusiyyətlərini qeyd edən "Azərbaycan" qəzeti yazırdı ki, mərhum Sabirin xan, bəy, mülkədar, ruhani, tacir, hakim, xülasə, istismarçıları ifşaedici, məntiqli, acı tənqidləri böyük təsir oyadır (Qurbani, 1948, 25 dekabr, 3). Qəzet yazırdı ki, Sabirin şeirləri Səttarxan fədailərinin səngərlərində həvəslə oxunurdu. Həmin şeirlər məşrutə hərəkatını əks etdirir, fədailərə qüvvət verirdi (Həbibi, 1948, 9 iyun, 4). "Azərbaycan" qəzetində M.Ə.Sabirin "Hophopnamə" əsəri təbliğ olunur, həmçinin güneyli oxuculara göstərilirdi ki, "Hophopnamə" Təbriz kitabxanalarında mövcuddur (Müsəvvər.., 1946, 10 yanvar, 2).

"Azərbaycan" qəzetində M.Ə.Möcüzün, "Hammal" təxəllüsü ilə yazan məşrutəçi şair Bayraməli Abbaszadənin (Bayraməli.., 1948, 3 aprel, 3) və "21 Azər" hərəkatının görkəmli nümayəndəsi şair M.H.Bürhaninin Sabirin təsiri ilə satira tərzində şeirlər yazdıqları qeyd edilib (Qurbani, 1948, 25 dekabr, 3).

Mətbu nəşrdə, həmçinin "Molla Nəsrəddin" jurnalının inqilabi əhəmiyyəti, cənublu soydaşlarımız üzərindəki təsiri vurğulanırdı. Eləcə də göstərilirdi ki, "Molla Nəsrəddin" jurnalının nəşr olunmağa başlanması Azərbaycan ədəbiyyatında yeni cərəyan yaratdı. Qəzəl, qəsidə və nohə (mərsiyə) söyləməklə zamanını keçirən bir çox müasir şair və ədib də bu cərəyana qoşuldu. Bütün maneələrə baxmayaraq, sərhədləri aşıb Təbriz, Xoy, Ərdəbil və digər şəhərlərə gətirilən "Molla Nəsrəddin" Cənubi Azərbaycanda çox sayda oxucu və yazıçını özünə cəlb edə bilmişdi. "Molla Nəsrəddin"in təsirində yazan inqilabçı şairlərə M.H.Bürhani və B.Abbaszadə ilə yanaşı, məşrutəçi şair Mirzə Qafar Natiq Siyəhpuşu nümunə göstərə bilərik (Həbibi, 1948, 16 iyun, 3).

"Azərbaycan" qəzetində məşrutə şairi şəbüstərli Mirzə Əli Möcüzdən geniş bəhs olunub. Qəzetdə vurğulanırdı ki, Yaxın Şərqdə imperialist siyasəti həyata keçirən dövlətlər və onların əlaltıları M.Ə.Möcüzün şeirlərində ifşa olunmuşlar. Şairə görə, müsəlman əhali arasında dini təfriqə salmaq, xurafat və mövhumatı yaymaq, bir tayfanın əli ilə digər icmanın müqəddəs məbəd və məkanlarını təhqir etmək ingilis kəşfiyyatçılarının peşəsidir. Qəzet M.Ə.Möcüzü "Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri" adlandırmışdır. Şair müsəlmanlar arasında

təfriqə salan təriqətlərin ingilis məhsulu olduğunu şeirlərində dilə gətirmişdir (Həbibi, 1947, 9 dekabr, 3). M.Ə.Möcüz şeirlərində xalqı ingilis imperializminə qarşı fəal mübarizəyə səsləmişdir. Qəzetdə M.Ə.Sabir tərzində yazan M.Ə.Möcüzün şeirlərinin çap edilməsinə Pəhləvi hökumətinin icazə vermədiyi, lakin xalqın bu şeirləri tapıb oxuduğu və öz həyatlarını onda gördüyü göstərilmişdir (Həbibi, 1948, 9 iyun, 4).

Cəfər Xəndanın M.Ə.Möcüz Şəbüstərinin vəfatının 20 illiyi ilə əlaqədar "Kommunist" qəzetində yazdığı "Cənubi Azərbaycanın xalq şairi" məqaləsində şairin yaradıcılığından və üzləşdiyi təzyiq və təqiblərdən danışılır. Yoxsul bir ailədə anadan olmuş şair dövrünün eybəcərliklərini, xalqın düçar olduğu mərhumiyyətləri ortaya qoymuşdur. Möcüz yalnız inqilab yolu ilə azadlıq əldə oluna biləcəyi və istiqlala qovuşmağın mümkünlüyünü var səsi ilə bəyan edirdi. Onun satiraları ilan oynadan, fala baxan, cadugərlik edən "xırda" adamlardan tutmuş, Amerika, İngiltərə, Almaniya imperialistlərinin siyasi diplomatları və şah hökumətinə qədər bütün mürtəce qüvvələri amansız surətdə ifşa edirdi. Şair belə yazırdı:

Əbəs yerə əl açıb göydən istədik imdad,
Bizi bu qədər bəlayə düçar edən odur!
Əlac yoxdur bizə şeyxdən, nə də şahdan,
Vəkildən üz əlini, çünki mülkədar odur!

(Əliyev, 2020, 112).

Məşrutə dövrünün digər böyük şairi sərablı Bayraməli Abbaszadədir. "Azərbaycan" qəzeti yazırdı ki, B. Abbaszadə yoxsulluq səbəbindən məktəbi yarımçıq qoymuş, fəhləliklə məşğul olmuşdu. Təbrizdə Məhəmmədəli şah əleyhinə məşrutə hərəkatı başlandığı zaman o, silah götürüb Səttarxanın fədailər dəstəsinə qoşulmuşdu. B.Abbaszadənin ədəbiyyatla ilk tanışlığı fədailər dəstəsində olmuşdur. "Azərbaycan" qəzeti yazırdı ki, öz inqilabi yazıları ilə məşrutə hərəkatına böyük yardım göstərən "Molla Nəsrəddin" jurnalı B.Abbaszadənin diqqətini cəlb etmiş, Sabirin inqilabi şeirləri ona böyük təsir göstərmişdir. Xanların və mülkədarların zülmündən bezmiş şair ilk şeirlərini inqilab düşmənlərinin ifşasına həsr etmişdir. Məşrutənin məğlubiyyətindən sonra o, ailəsi ilə birlikdə Cənubi Qafqaza köçmüş, Bakıda hamballıq etməklə ailəsini dolandırmışdır.

B.Abbaszadə şeirlərini "Molla Nəsrəddin"də çap etdirmiş və M.Ə.Sabirlə görüşmüşdür. B.Abbaszadə "Gülzar", "Hambal" təxəllüsləri ilə irticaya, mövhumata və cəhalətə qarşı kəskinməzmunlu məzhəkəli

şeirlər yazmışdır (Bayraməli.., 1948, 3 aprel, 3). Şair 1926-cı ildə Bakıda vəfat etmişdir.

"Kommunist" qəzetində B.Abbaszadənin inqilabi fəaliyyəti, yaradıcılığı təbliğ edilmiş, əsərlərindən nümunələr verilmişdir. Onun Pəhləvilərə nifrəti və xalqı mübarizəyə çağırması şeirlərində belə əks olunmuşdur:

Qoyma mehtər başında tac olsun,
Füqəralar həmişə ac olsun,
Parçala təxti, qoy tarac olsun
(Sadıq, 1946, 26 iyun, 2; Əliyev, 2020, 108-109).

ADF fəallarından biri də mərəndli Məhəmmədhüseyn Bürhanidir ki, o, XX əsrin I yarısında aktiv inqilabi fəaliyyətlə məşğul olmuşdur. O, Mərənddə ibtidai təhsil, Təbrizdə orta dini təhsil almış, ərəb, fars dillərini mükəmməl öyrənmişdir. Dini ideologiya ilə qane olmayan M.Bürhani fəlsəfi düşüncəyə meyil göstərmiş, "Molla Nəsrəddin" jurnalı və M.Ə.Sabirin yaradıcılığı onda böyük təəssürat oyatmışdır. "Azərbaycan" qəzeti yazırdı ki, mərhum Sabirin xan, bəy, mülkədar, ruhani, tacir, hakimləri, xülasə istismarçıları ifşaedici, məntiqli, acı tənqidləri Bürhanda böyük təsir buraxmışdır (Qurbani, 1948, 25 dekabr, 3). M.Bürhani "Molla Nəsrəddin" jurnalının səhifələrində və M.Ə.Sabirin yaradıcılığında istismar və zülm altında əzilən Azərbaycan xalqının acı taleyinin əks olunduğunu görmüşdü. Bütün bunlar onda inqilabi mübarizəyə həvəs yaratmışdı. O, yoxsul kütlə içərisində, xüsusilə kəndlilər arasında hökumətin, mülkədarların pozğun əxlaqını, onların xalqa olan zülmünü ifşa etməyə rəvac verdi. Öz inqilabçı təbliğatına görə M.Bürhani Rza şahın hakimiyyəti dövründə uzun müddət həbsdə olmuşdu. Rza şah 1941-ci ildə hakimiyyətdən qovulduqdan sonra M.Bürhani həbsdən azad olunsa belə, yenə də inqilabi fəaliyyətini davam etdirmişdir. M.Bürhani ADF-nin fəal üzvü olmuş, Məhəmmədrza şah hökuməti tərəfindən edam edilmişdir.

"Azərbaycan" qəzetində Azərbaycan Demokrat Firqəsinin və "Azadistan" hökumətinin qurucusu Şeyx Məhəmməd Xiyabani "Azərbaycanın görkəmli seyidlərindən biri və böyük mütəfəkkir" adlandırılmışdır. Onun Təbrizdə ilahiyyat elmlərini tədris etdiyi, dini çərçivədə geniş məlumat sahibi olduğu, Kərimxan məscidində xidmət etdiyi qeyd olunmuşdur (Novruz, 1945, 1 noyabr, 2; Pişəvəri, 2016, 155). Qəzetdə,

həmçinin Şeyx Xiyabaninin xalqın azadlığı üçün şaha və xarici imperializmə qarşı mübarizəsindən də bəhs olunur (Novruz, 1945, 5 noyabr, 2) və onun nəşr etdirdiyi "Təcəddüd" qəzeti haqqında məlumat verilir (Novruz, 1945, 11 dekabr, 2). "Azərbaycan" qəzetində "Novruz" imzası ilə M.Xiyabaniyə həsr olunan silsilə məqalələr yazan S.C.Pişəvəri ADF-nin "Təcəddüd" qəzetini M.Xiyabaninin "ölməz əsəri" adlandırmışdır (Novruz, 1945, 11 dekabr, 2).

ADF rəhbərlərindən olan M.Biriya görkəmli şair, maarifçi, demokrat ziyalı idi. O, ADF-nin rəhbər xadimlərindən olsa da, dini ibadətə meyil etdiyindən Sovetlər tərəfindən təzyiqlərə məruz qalmış, işdən çıxarılmaqla təhdid edilmişdi (Balayev. Cənubi Azərbaycanda.., 318). ADF-nin süqutundan sonra M.Biriyanın SSRİ-yə mühacirət dövründəki dinimillətçi mövqeyi, Təbrizə geri qayıtmaq istəməsi, Sovet hökumətinə ünvanladığı məktublarda kiril əlifbasından imtina edib əski əlifbaya dönməyi tələb etməsi, ermənіləri türklərin düşməni adlandırması sürgünə məhkum olunmuş bütün müsəlmanları vətənlərinə qaytarmağı və s. tələb etməsi M.Biriyanın uzun illər həbs həyatı yaşamasına səbəb oldu (Balayev. Cənublu şair.., 59-60). Sovet Azərbaycanında təqiblərə məruz qalan şair mollalıq etməyə məcbur olur, ancaq Pəhləvilərin süqutundan sonra, ahıl yaşlarında Təbrizə qayıda bilir. Orada da kommunistlik ittihamı ilə günahlandırılır və 1985-ci ildə işgəncə ilə öldürülür (Çeşmazər. Məşəqqətli.., 10). Şairin məzar daşında onun Nəsimi tərzində yazdığı aşağıdakı beytləri həkk olunub:

Vurma əl türbətimə, türbəti-Adəm də mənəm,
Nə o dünya, nə bu dünya, iki aləm də mənəm.
Arama qəbrimi, axtarma mənim başdaşımı
Rəsmdə Həzrəti Nuh, isimdə Xatəm də mənəm

(Turan. Təbriz).

"Azərbaycan" qəzetinin fəal yazarlarından Ə.Şəmidə din və məzhəbdən siyasi alət kimi istifadə edənləri və onlara bilib-bilmədən tabe olanları qınayırdı. O, "Məzhəbi təbliğatdır, ya siyasi fəaliyyət!" məqaləsində xalqların azadlıq mübarizəsinə dindən silah kimi istifadə edib mane olanları tənqid atəşinə tutmuşdur. Ə.Şəmidə göstərirdi ki, imperialistlər və onların xidmətçiləri xalqların milli-dini təəssüblərindən istifadə edib ədavət və düşmənçilik yaradır, xalqların müstəqil və dinc həyat qurmalarına maneçilik törədirlər. Habelə məzhəbçilik təbliğatı aparıb mürtəce fikirləri ilə xalqların məfkurəsini zəhərləyir, kütlələri azadlıq

mübarizəsindən çəkindirmək istəyirlər (Şəmidə, 1949, 22 yanvar, 4). Ə.Şəmidə xarici imperialist dövlətlərin istismar etdikləri xalqları zəiflətmək üçün işğalçı ordudan və ya mütəxəssislərdən, o cümlədən mürtəce din xadimlərindən istifadə etdiyini yazır, İranda fəaliyyət göstərən xarici missionerlərin imperialistlərin agenti olduğunu göstərirdi (Şəmidə, 1949, 22 yanvar, 4).

Ə.Şəmidə Məhəmmədrza şahın Vatikanda Roma papası ilə görüşdüyünü, medal aldığını, 1948-ci ildə Vatikan konfransında İranda Xristianlığın təbliği üçün qərarlar qəbul olunduğunu, papanın nümayəndələrinin Tehrana gələrək şahla görüşdüyünü, nəticədə Urmiyada, Təbrizdə, Həmədanda, Tehranda və İranın müxtəlif bölgələrində xristian missionerlərin sayının artdığını yazır. Müəllif qeyd edirdi ki, onların qurduğu kilsə və məktəblərdə missionerlərin sayı müəllim və həkimlərin sayından artıqdır, xalqın şüurunu zəhərləməklə məşğuldurlar. Bu məktəb və kilsələrdə yetişənlər Amerika və ingilis imperialistlərinin xidmətçisinə çevrilib, onların xeyrinə təbliğat və casusluq edirlər. Onlar xalqın istiqlalı əleyhinə çalışıb öz dini kitab və çıxışlarında imperialistləri mədh edirlər (Şəmidə, 1949, 22 yanvar, 4). Ə.Şəmidə xristian missionerlərinin, əsasən, İran Azərbaycanında SSRİ əleyhinə fəaliyyət göstərdiyini, eyni zamanda, İranı imperialistlərin müstəmləkəsinə çevirməyə çalışdıqlarını göstərmişdi.

“Azərbaycan” qəzetinin fəal yazarlarından C.Müciri “Qoy İran mürtəceləri bir daha rüsvay olsunlar!” adlanan məqaləsində ölkədə din pərdəsi altında aparılan yanlış dini siyasəti qınamışdır. Müəllif dindən siyasi məqsədlərlə istifadə edən Pəhləvi hökumətini və onun xarici havadarlarını tənqid edərək yazırdı ki, şahpərəst mürtəcelərə istiqamət verən ingilis imperialistləri və onların panislamizm pərdəsi dalında gizlətdikləri fırıldaqların da üstü açılmışdır. Panislamizm pərdəsi altında İran xalqlarının düşüncəsini zəhərləyirlər (Müciri, 1949, 15 yanvar, 3). Müəllif insanları bu dünyada zülmə məruz qoyub, axirət ümidi ilə yaşatmağa çalışanları, “aclığa, yoxsulluğa dözməyin aqibəti yaxşıdır” deyənləri tənqid etmişdir (Müciri, 1948, 24 iyul, 1).

C.Müciri yazırdı ki, Həcc ziyarətləri zamanı İrandan Məkkə və Mədinəyə gedənlər arasında yoluxucu xəstəliklər yayılır, bir çoxu dərmansızlıqdan ölür və ya kasıbçılıqdan orada dilənçiliklə məşğul olur, İran və Səudiyyə hökumətləri isə iranlı hacıları ağır vergilərlə soyur, onları təhqir edirlər. Məqalədə öz ölkəsindəki acları, yoxsulları görməyən varlı iranlı hacıların pullarını Ərəbistanda və digər ölkələrdə su kimi xərcləməsi tənqid edilir (Müciri, 1949, 15 yanvar, 1, 3).

“Azərbaycan” qəzetində Pəhləvilərin dini siyasətinin tənqidi

“Azərbaycan” qəzetinin əsas tənqid hədəfi Pəhləvi sülaləsi olmuşdur. Sülalənin ilk hökmdarı Rza xan Pəhləvinin 1924-cü ildə şah seçilməsində mürtəce ruhanilər xüsusi rol oynamışdılar. Əslində, Atatürk Türkiyəsindən nümunə götürərək, ölkədə cümhuriyyət quruluşunu bərqərar etmək istəyən Rza xanın bu arzusu mürtəce din xadimləri tərəfindən qəbul edilməmişdi. Cümhuriyyət quruluşunu İslama zidd sayan bu ruhanilər ölkədə şah rejimini davam etdirməsi üçün Rza xanı razı salmışdılar (Kurtuluş, 2008, 67).

Rza şah dünyəvi Qərb millətçi dəyərlərinin fəal dəstəkçisi və şəriət əleyhdarı idi. “Azərbaycan” qəzetinin yazdığına görə, Rza xan hakimiyyəti ələ keçirməzdən əvvəl və şahlığının ilk dövrlərində özünü İslam dininin dəstəkçisi kimi göstərmək üçün Aşura günləri qara paltar geyinib, əzadarlara qoşulub, başına palçıq yaxıb zəncir vurardı (Məzhəb.., 1325 (1946), 10 azər (1 dekabr), 4), özünü din və məzhəb təəssübkeşi kimi göstərərdi. Şah olub öz mövqeyini möhkəmləndirdikdən sonra Rza xan İmam Rza məbədinin həyətində Aşura mərasiminin keçirilməsini yasaqladı, etiraz edən günahsız adamları həbs və qətl etdirdi (Yusifi, 1948, 19 iyun, 4). Rza şahın bu siyasəti İranda bir çox üsyanlara səbəb olsa da, şah tərəfindən zorla yatırılmışdı. “Azərbaycan” qəzeti yazırdı ki, müasir dünyanın heç bir yerində görünməmişdir ki, ordu dini işlərə müdaxilə etsin və insanların öz hisslərini nümayiş etdirmələrinə mane olsun, silahsız və müdafiəsiz şəxsləri güllələsinlər (“Azərbaycan” qəzeti.., 2022, 694).

Din xadimi olmayanların dini libas geyinmələri 1928-ci ildə yasaq olundu və 1935-ci ildə qadınların çadra geyinməsi qadağan edildi, onlar papaq və şlyapa taxmağa məcbur olundular. Təhsil dünyəviləşdirildi, məktəblərdə qız və oğlanların birlikdə təhsil aldığı məktəblər açıldı (Иванов, 1977, с.343). “Azərbaycan” qəzeti yazırdı ki, şahın çadranı zorla açdırmasının qadın azadlığına heç bir dəxli yoxdur. Qadınlara ictimai-siyasi hüquqlar verilmədi və jandarmların bu bəhanə ilə rüşvət almasına şərait yaradıldı (İran qadınları.., 1949, 8 yanvar, 1). Şahın bu radikal dünyəvilik siyasətinə etiraz edənlər şiddətlə cəzalandırıldılar. Rza şahın 1934-cü ildə Türkiyəyə səyahəti və Atatürklə görüşü onun dünyəvilik istiqamətindəki siyasətini daha da şiddətləndirdi (Kurtuluş, 2008, 67).

Xalqın etirazlarını yatırtmaq üçün şah özünə tabe olan ruhaniləri dəstəkləməyə başladı. Rza şah Qum, Nəcəf, Məşhəd kimi müstəqilliyə meyil edən bölgə mədrəsələrinin müəllim və ruhanilərinə qarşı öz

nəzarətindəki Tehranın ali dini mərkəzlərinin üstünlük qazanmasına çalışdı. O, bu haqda deyirdi ki, "Tehran dini təlimin ən mühüm mərkəzlərindən biri olmalıdır". Özünün, guya islampərəst olduğunu göstərmək istəyən şah Tehranda İslam Universiteti açdırmış və onu dəstəkləmişdi. "Azərbaycan" qəzeti yazırdı ki, xalqın mal və namusuna göz dikən şah və hakim təbəqə özlərini guya dinə tərəfdar göstərməyə çalışırlar (Şəkibxan, 1948, 23 oktyabr, 1). "Azərbaycan" qəzeti yazırdı ki, amerikalılar və ingilislər şah hökumətinin köməyi ilə universitetlərdə və digər məktəblərdə öz müttəfiqləri olan Pəhləvilərin dövlət siyasətini və şahpərəstliyi təbliğ etmək üçün zəmin yaratmağa səy göstərirlər (Şəkibxan, 1948, 13 noyabr, 4).

Rza şahın dünyəvilik siyasəti İranda əvvəllər mövqeyi qismən zəif olan zərdüşti icmasını daha da gücləndirdi, onlara parlamentdə yer ayrıldı. Yəhudilərdən və ermənilərdən fərqli olaraq zərdüştilər müsəlman xalqlar tərəfindən iranlı kimi qəbul edilirdi (Cottam, 1979, p.86-87).

Qacarlar dövründə olduğu kimi, Pəhləvilər zamanında da bəhailərin vəziyyəti ağır idi. R.V.Kottam yazır ki, ümumbəşəriliyə, sülhə və qardaşlığa çağıran bəhailər İranda ən pis rəftar edilən dini azlıq idi. Müsəlmanlara görə, Həzrət Məhəmməddən əvvəl formalaşmış əhli-kitabdan (İslamöncəsi səmavi dinlər - Ə.F.) fərqli olaraq, bəhailər "bidətçi" (batilə inanan - Ə.F.) sayılırdılar və onların hüquqları tanınmırdı (Cottam, 1979, p.87-88).

Pza şah Pəhləvi dövründə "Dövlət qulluğu haqqında qanun" qəbul olundu, bununla da bəhailər təqaüddən məhrum edildilər. Ölkənin bir sıra şəhərlərində 1924-cü ildə ruhanilərin fətvası ilə bəhai talanları törədildi. Bəhai mərkəzləri talan edilib dağıdıldı. Şahın göstərişi ilə 1925-ci ildə dövlət idarələrinə bəhailərin işə götürülməsinə qadağa tətbiq olundu. Bəhai zabitlər 1932–1933-cü illərdə ordudan qovuldular. Şah hökuməti bəhai ədəbiyyatının çapına qadağa qoyub, bəhai məktəblərini bağladı.

"Azərbaycan" qəzeti yazırdı ki, Rza şahın istibdadı Hitlerin faşist ideyalarını və amalını Vətənimizə gətirərək zülm və əsarəti gücləndirdi. Özünün legitimliyini dini əsaslarla möhkəmlətmək istəyən Rza şah hökuməti öz "alçaq" siyasətini və diktatorluğunu zor ilə qəbul etdirmək üçün məktəblərdə tələbələrə və millətə "şah sayeye-xodast" ("şah Allahın kölgəsidir") kimi sözləri təbliğ edərək xalqın düşüncəsini zəhərləyirdi ("Azərbaycan" qəzeti.., 2022, 60, 200, 488).

Rza şahın Hitlerlə müttəfiqliyi onun sovetlər və ingilislər tərəfindən hakimiyyətdən qovulması ilə nəticələndi, oğlu Məhəmmədrza şah elan edildi. Məhəmmədrza şahın dövründə bəhailərin vəziyyəti daha da

ağırlaşdı. Bəhai icmasının başçıları həbs olundu. Bəhailərin öldürülməsi halları artdı. Hökümət tərəfindən "bəhailər kommustlərlə əlbirdir" qarayaxma kompaniyasına başlandı. Şah hökümməti xalqa müraciət edərək "bəhai təriqətinin kökünü kəsmək" haqqında göstəriş vermiş və bəhailərə qarşı kütləvi həbslərə və qətllərə start verilmişdi (Cəfərov. 178 il...).

Məhəmmədrza şah atasından fərqli surətdə alman faşizmindən uzaq olsa da, ölkədə diktatura rejimini davam etdirdi, alman faşizmi ingilis və amerikan imperializmi ilə əvəz edildi. Məhəmmədrza şahın diktatura siyasəti mürtəce ruhanilər tərəfindən dəstəklənir, şahı "Zillullah", yəni Allahın kölgəsi (Zakir, 1948, 22 dekabr, 3) adlandıran nadan din xadimləri xalqı talamağa davam edərək bu mənfur siyasətə İslam dinini alət edirdilər. Məktəblərdə, hətta şah zillullahdır, şaha itaət etmək müqəddəs vəzifədir istiqamətində təbliğat aparılırdı (Bəhrami, 1949, 26 yanvar, 1). S.C.Pişəvəri şah hökumətini və məmurları dindən öz müstəbid məqsədləri üçün istifadə etdiyinə görə tənqid edir və yazırdı ki, onlar müsəlmanların malını talayırlar, lakin öz mallarına bir zərər gələndə fəryad edirlər ki, din əldən gedir. ADF məhz şah hökumətinin talançılığına, rüşvətxorluğuna görə qiyam etməyə məcbur oldu (Əliyev, 2023, 229).

Şah hakimiyyətdə qalmaq üçün dini şüarlardan istifadə edir, lakin Şeyx Məhəmmədəli Ali-İshaq Xoyi kimi vətənpərvər, mütərəqqi demokrat ruhaniləri qətl etdirirdi. "Azərbaycan" qəzeti bu görkəmli ruhaninin qətli ilə bağlı qəzetdə başsağlığı vermiş və Ə.Qəvamın əsl simasının üzə çıxdığını və onun din və məzhəbdən siyasi məqsədlərlə istifadə etdiyini bildirmişdi (Tərhim.., 1946, 25 noyabr, 1; Məzhəb.., 1325 (1946), 10 azər (1 dekabr), 1).

Şah hökuməti millət vəkili olan təbrizli müctəhid Əbülhəsən Siqətülislamidən istifadə edərək, ADF-ni demokratiya uğrunda mübarizədən yayındırmağa, şahla dil tapmağa çağırırdı (Rəhimli, 2009, 74). ADF şah rejiminə qarşı mübarizə apardığı kimi, şahpərəst mürtəce ruhanilərə, xurafatçı, mövhumatçı din xadimlərinə qarşı da çıxırdı. S.C.Pişəvəri öz çıxışlarında deyirdi ki, biz razı olmarıq, Siqətülislami kimi nümayəndələr Azərbaycan naminə Məclisdə danışsınlar (Qızıl səhifələr.., 57). Ə.Siqətülislami zahirən ADF-yə dəstək sözü versə də (Həsənli, 1998, 99), əslində, ADF-ni sovet tərəfdarı saydığı üçün əhalini onlara qarşı silahlı mübarizəyə çağırmışdı. Ə.Siqətülislaminin təşviqi ilə Mirzə Hüseyn Vaiz kimi azərbaycanlı ruhanilər Tehranda parlamentdə çıxış edərək xalqı sovet işğalına və ADF-yə qarşı mübarizəyə dəvət etmişdilər. Şahpərəst ruhanilər azərbaycanlı demokratları islam ideyalarına

xəyanətdə və ADF qərarlarını dinə zidd olmaqda ittiham etmişdilər (Гасанлы, 2006, с.142, 148, 215, 354). Əslində, iri mülkədar olan bu ruhanilər xalq hakimiyyətindən qorxuya düşüb vaxtilə yığdıqları haqsız var-dövlətin əllərindən çıxmasından narahat idilər. İran Azərbaycanından qaçıb Tehrana sığınan mürtəce, şahpərəst ruhanilər burada şah hökumətinin təşviqi ilə "Azərbaycanın nicatı" adlı cəmiyyət qurub ADF-yə, demokratik dəyərlərə qarşı təbliğat aparırdılar. Pəhləvi hökumətinin, əslində, dinə qarşı olmasına baxmayaraq, guya İslamı qorumaq adı altında ADF əleyhdarı olan Mir Xas Ərdəbili, Mirzə Hüseyn Vaiz kimi mürtəce ruhaniləri dəstəkləyir, onlardan istifadə edirdi. Bu mürtəce ruhanilər ADF üzvlərini "din və məzhəb düşməni, kafir və dinsiz" adlandırır, müsəlman xalqı ADF-yə qarşı üsyana çağırırdılar (Əlizadə, 2017, 18, 20, 31). Mürtəce ruhanilərdən biri də Seyid Əbülqasim Kaşani idi. "Azərbaycan" qəzeti yazırdı ki, o, "axund və molla maskası altında gizlənən tiryaki" ("21 Azər"in 3-cü ildönümü münasibətilə təşkil olunmuş yığıncaqda.., 1948, 18 dekabr, 4), "mürtəce ünsür"dür (Həbs.., 1949, 12 fevral, 4), onun və M.H.Vaizin Rza şahın zamanında Hitlerin və faşizmin təbliğatı ilə məşğul olduqları qəzetdə göstərilmişdi (Haşimi, 1948, 26 iyun, 4). "Azərbaycan" qəzetində hitlerpərəstlər tənqid edilir, Sovet İttifaqının alman faşizmi üzərindəki qələbəsini mədh edən yazılar təqdim edilirdi (Alman.., 1948, 23 iyun, 1, 4).

S.C.Pişəvəri yazırdı ki, mürtəcelər XIX əsrdə və XX əsrin əvvəlində, məşrutə dövründə babi ittihamı ilə istədikləri şəxsə zülm edib, bir parça çörəyini də əlindən aldıqları kimi eyni siyasəti ADF-yə qarşı icra edib, demokratları babi adı ilə şərləyirdilər (Qızıl səhifələr.., 106). 1946-cı ilin dekabrında ADF-nin süqutu dövründə bu mürtəce ruhanilərin verdiyi fətvalarla ADF tərəfdarı olan on minlərlə kişi və qadın şahpərəst quldurlar tərəfindən qətl edildi, təcavüzə məruz qaldı (Əlizadə, 2017, 64-65). Şahpərəst "Demokrat-e İran" qəzeti bu dövrdə yazırdı ki, Pişəvəri tərəfdarları demokrat pərdəsi altında gizlənən allahsız və vətənsiz faşistlərdir. "Azərbaycan" qəzeti bu cür şahpərəst, mürtəce ünsürlərin dindən danışmasını "dinə və müsəlman aləminə tövhin" (təhqir-Ə.F.) saymış (Haşimi, 1948, 26 iyun, 4), şah və şahpərəstləri – "nə dinləri, nə məzhəbləri, nə də Allahdan qorxuları vardır", deyə ittiham etmişdi ("Azərbaycan" qəzeti.., 2022, 700). Təzyiq və təqiblərdən, qətliamlardan qaça bilən beş mindən çox azərbaycanlı bu dövrdə Sovet Azərbaycanına mühacirət etməyə məcbur oldu (Abışov, 2023, 98).

S.C.Pişəvərinin rəhbərlik etdiyi ADF mütərəqqi ruhanilər ilə əlaqələri normallaşdırmağa çalışırdı. Bu məqsədlə S.C.Pişəvəri İran

Azərbaycanı şiələrinin ruhani lideri Mirzə Xəlil ağa Müctəhidi ilə, qazi Hacı Mirzə Bağır ağa ilə və müctəhid Seyid Məhəmmədhüseyn Təbatəbai ilə görüşmüş, onlardan dəstək istəmişdi (Гасанлы, 2006, c.215). Müctəhid Təbatəbai sovetlərə müttəfiq olan ADF-yə dəstək olmaqdan imtina etmiş, Təbrizi tərk edərək Quma köçmüşdü. Sonralar o, Qurana ərəb dilində yazdığı çoxcildli "əl-Mizan" təfsirinin müəllifi kimi məşhur oldu (Mertoğlu, 2010, 306-308).

Pəhləvilər dövrünün görkəmli azərbaycanlı alimlərindən biri olan təbrizli S.M.Təbatəbai 20 cildlik "əl-Mizan fi təfsiril-Qur`an", "Quran dər İslam" ("İslamda Quran"), "Üsuli-fəlsəfə və revişirealizm" ("Fəlsəfə üsulu və realizm metodu"), "Bidayətül-hikmə" ("Hikmətin başlanğıcı"), "Nihayətül-hikmə" ("Hikmətin sonu") və digər dini-fəlsəfi əsərlərin müəllifi kimi məşhurdur. Onun əsərlərində klassik İslam fəlsəfəsinin bir çox məsələsi tədqiq edilmiş, Şərq və Qərb fəlsəfələrinin müqayisəli tədqiqi, psixolologiya, sosiologiya və tarix kimi mövzular müzakirə edilmişdir. S.M.Təbatəbai Quranın təfsiri və ənənəvi hikmətin dirçəldilməsi ilə bağlı fəlsəfi araşdırmaları və bu iki sahəni ustalıqla birləşdirməsi ilə tanınan bir alimdir. S.M.Təbatəbainin öz əsərlərində klassik islam fəlsəfi düşüncəsinə, sufiliyə yer verməsi, fəlsəfə ilə dini elmləri sintezə çalışması mühafizəkarlar tərəfindən xor görülən sufizmin və fəlsəfi düşüncənin islam dünyasında zəifləmiş mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdur. S.M.Təbatəbainin öz Quran təfsirində şiəliklə yanaşı, sünni qaynaqlara da istinad etməsi islam dünyasında məzhəblərarası yaxınlaşmanın güclənməsinə töhfə vermişdir. H.Korbin kimi Qərb mütəfəkkirləri də Təbatəbai irsinə böyük əhəmiyyət vermiş və onu təbliğ etmişdilər (Fərhadov. Pəhləvilər dövründə.., 2023, 141-143).

S.C.Pişəvəriyə etiraz olaraq Azərbaycanı tərk edən təkcə M.H.Təbatəbai deyildi. "Kommunist" qəzeti yazırdı ki, ADF ilə əməkdaşlıq etmək istəməyən şahpərəst məmurlar Tehrana getdilər (İran Azərbaycanındakı.., 1945, 21 dekabr, 1). R.V.Kottam yazır ki, Pişəvəri hökuməti dövründə, təxminən, 100 min adam yeni qayda-qanunlara etiraz olaraq Azərbaycanı tərk edib İranın digər vilayətlərində məskunlaşdı (Cottam, 1979, p.127). Qeyd etmək lazımdır ki, həmin dövrün bəzi şahidlərinin xatirələrində sovet ordusunun İran Azərbaycanına gəlməsi Çar Rusiyası ordusunun məşrutə inqilabı dövründə və I Dünya müharibəsi zamanı Şimali İranı işğal etməsi ilə eyniləşdirilirdi və müsəlman xalqda ruslara qarşı bir etibarsızlıq və şübhə hiss olunurdu. SSRİ ilə müttəfiq olan ADF-yə qarşı xalqın bəzi təbəqələrinin etimadsızlığı buradan qaynaqlanırdı (Cənubi Azərbaycanda...).

Dövrün əsas azərbaycanlı ruhanilərinə, mütəfəkkirlərinə nümunə

olaraq ayətullah M.Şəriətmədarini, Mirzə Cavad Məliki ət-Təbrizini, Əllamə Əbdülhüseyn əl-Əminini də nümunə göstərmək olar. Təbrizli M.Şəriətmədari Qumda və Nəcəfdə ali dini təhsil almış, 1927-ci ildə, 19 yaşında Ayətullah olaraq Təbrizə qayıtmışdır. O, müəllimi olan ayətullahi-uzma (böyük ayətullah) Hüseyn Burucerdi kimi, dinin siyasətə qarışmasına qarşı idi.

Hüseyn Burucerdinin 1961-ci ildə vəfatından sonra M.Şəriətmədari şiə aləminin ən nüfuzlu dini xadimi kimi qəbul olunmuşdur. İslam inqilabı zamanı o, Müsəlman Xalq Partiyasını qurmuşdur. M.Şəriətmədari dini dövlət qurulmasının əleyhinə çıxmış, demokratik dövlət quruculuğunu, İran Azərbaycanının demokratik hüquqlarını tələb etmiş, bu səbəbdən həbs olunmuş, müəmmalı şəkildə ölmüşdür (Ələkbərli, 2021, 630-633). Dövrün digər ruhani mütəfəkkiri Mirzə Cavad Təbrizdə, daha sonra Qumda və Nəcəfdə ali dini təhsil almışdır. O, "İrşadüttalib" ("Tələbələrin irşadı"), "Üsəsül-qəza vəş-şəhadət" ("Qəza və şəhadətin əsasları") və digər dini, fəlsəfi əsərlərin müəllifidir. Təbrizli Əbdülhüseyn əl-Əmini də Təbrizdə və Nəcəfdə ali dini təhsil almış, müctəhid adını qazanmış, daha sonra Təbrizdə dinin və İslam fəlsəfəsinin tədrisi lə məşğul olmuşdur. Onun "Qurani-Kərim" haqqında yazdığı "Fatihətül-kitab" əsəri məşhurdur (Ələkbərli, 2021, 586-587).

ADF şahpərəst ruhanilərə qarşı çıxsa da, demokratik düşüncəli ruhaniləri dəstəkləyir, onların xalqa qələbə ümidi və inam təlqin etdiklərini göstərirdi (Qızıl səhifələr.., 19). S.C.Pişəvəri məşrutə inqilabı dövründə şah rejiminə qarşı xalqa dəstək olmuş müctəhidlər – A.Bihbehani, S.M.Təbatəbai, M.K.Xorasani kimi böyük ruhani alimləri daim hörmətlə yad etmiş, onların xatirəsinə hörmətlə yanaşmışdı (Pişəvəri, 1984, 404). S.C.Pişəvəri öz dövrünün mütərəqqi ruhanilərinə də böyük ümid bəsləyir və yazırdı ki, bizim hökumətimiz demokratik hökumətdir. Qoy ruhanilər və bütün təbəqələr əl-ələ versinlər və muxtariyyətimizi qorusunlar (Şəhrivərin on ikisi.., 71) S.C.Pişəvəri, həmçinin, mədrəsələrdə türkcə danışmaq guya şəriətə ziddir, deyən ruhanilərin dini elmləri ərəb-fars dillərində tədris etmələrini tənqid edir, onları məscidlərdə ana dilində moizə deməyə, mədrəsələrdə ana dilində dini dərs keçməyə dəvət edirdi (Qızıl səhifələr.., 34, 97).

ADF proqramında milli-dini dəyərlərə hörmətlə yanaşılmış, din azadlığı qəbul edilmiş (Balayev. Cənubi Azərbaycanda.., 318), milli, dini bayramların qeyd olunmasının əhəmiyyəti vurğulanmışdı (Qızıl səhifələr.., 65). "Azərbaycan" qəzeti Quranın Hücurat surəsi 10-cu ayəsindən hərəkətlə "möminlər qardaşdır" deyib, Azərbaycan müsəlmanlarını ADF ətrafında birləşməyə dəvət edir, demokratlara düşmən

münasibətdə olan şah hökumətini isə “namaz qılmayan adam”a bənzədirdi (“Azərbaycan” qəzeti.., 2022, 188, 632).

Mütərəqqi ruhanilər ADF-nin fəaliyyətini dəstəkləyib, milli dövlət quruculuğunda yaxından iştirak etmişlər. “Azərbaycan” qəzeti yazırdı ki, mütərəqqi ruhanilər minbərlərdə xalqı bu müqəddəs təşkilata yazılmağa təşviq edirlər. Məsələn, Ərdəbil, Maku, Xoy və s. bölgələrin ruhaniləri ADF-yə, Müəssislər Məclisinə təbrik teleqramları göndərmişdilər. Xoydan nümayəndə olan Şeyx Musa Keyvani ADF-yə xidmət etmişdi. Müctəhid Mirzə Məhəmməd ağa Siqətülislam ADF-ni İranın torpaq bütünlüyünə zərər verməməyə çağırsa da (“Azərbaycan” qəzeti.., 2022, 21, 26, 93, 562, 608, 632), ADF ilə əməkdaşlıq etmişdi (Ruhanilərimizin.., 1946, 4 yanvar, 1, 4).

ADF-li M.Ə.Şəbüstəri parlamentdə bəzi din xadimləri – Mirzə Məhəmməd ağa Siqətülislam, Mirzə Rəfi ağa Siqətülislami və Mirzə Mahmud ağa Sədrlə görüşmüş, onların ADF-yə dəstəyini yüksək qiymətləndirmiş, dövlətin onların hüquqlarını qoruyacağını bildirmişdi. O, şahpərəst ruhaniləri tənqid edərək mütərəqqi din alimlərinin roluna yüksək qiymət vermiş və demişdi ki, müstəbid şah hökuməti İran Azərbaycanı xalqını, o cümlədən, mütərəqqi ruhaniləri əzib ölkəni xarabalığa çevirmişdir. Bu gün mütərəqqi ruhanilər Azərbaycanın milli vəhdəti üçün çalışıb, xalqı şahın törətdiyi fəlakətdən xilas etməlidirlər (Ruhanilərimizin.., 1946, 4 yanvar, 1, 4).

Pəhləvi hakimiyyəti ADF-nin siyasətini müsəlman xalqa düşmənçilik kimi təqdim edib, dindarları ADF-yə qarşı mübarizəyə çağırırdı. “Azərbaycan” qəzeti Pəhləvilərin yanlış din siyasəti nəticəsində cahil mərsiyəxanların minbərləri işğal etdiyini (Ağayi Pişəvərinin.., 1324 (1945), 27 şəhrivər (18 sentyabr), 1), lakin azərbaycanlıların “mürtəce, xain mətbuatın cəfəngiyyatları”na inanmadığını, onların arxasınca getməyəcəyini yazır, Pişəvəri hökumətinin qələbəsini “Allahın köməyi və fəthi”ni müjdələyən Quranın “ən-Nəsr” surəsindəki ayələrinə bənzədirdi (Pişəvəri, 1324 (1945), 29 şəhrivər (20 sentyabr), 1; Pişəvəri, 2016, 118-120).

Şahın və onun mürtəce məmurlarının, şahpərəst ruhanilərin dindən xalqı istismar etmək üçün sui-istifadə etməsi “Azərbaycan” qəzetində tənqid edilir, onların iç üzü, saxta dindarlığı, xalqa zidd əməlləri ifşa edilirdi. Qəzetdə şahın özünü “islam-pənah” adlandırdığı, şahpərəst millət vəkillərinin şaha “şahənşahi-islam-pənah” deyə xitab etdikləri qeyd olunurdu (Yusifi, 1948, 19 iyun, 1). Qəzetdə yaltaq məmurların “zillullah” adlandırdığı şahın, Allahın yox, “ingilislərin İrandakı kölgəsi” (Azəroğlu, 1948, 24 iyul, 3) olduğu göstərilirdi. “Azərbaycan” qəzeti

yazırdı ki, şahın Azərbaycanda törətdiyi cinayətlər və tökdüyü qanlar tarixdən və ürəklərdən silinməyəcəkdir. Məhəmmədrzanı "şahənşahi-islampənah" adlandıranlar islam dininin ən qəddar düşmənləridirlər. Xalqı aldatmaq mümkün olmayacaq (Yusifi, 1948, 19 iyun, 4).

Pəhləvilər öz hakimiyyətlərini möhkəmləndirmək üçün məscidlərdə şah üçün "dua mərasimləri" təşkil edib (Rəzmara.., 1949, 19 fevral, 3), özləri isə müsəlmanların zalım şaha üsyan etməsindən qorxaraq, ölkədə xalqlar və məzhəblər arasında ziddiyyət salır, toqquşmalar törədirdilər. "Azərbaycan" qəzeti bu haqda yazırdı ki, şahpərəst mürtəcelər ingilis müstəmləkəçilərinin şüarı olan – "Nifaq sal, hökumət et!" şüarına əsaslanaraq İranda yaşayan xalqların arasında milli qırğın salmaq istəyirlər və bu məqsədə çatmaq üçün onların əlində olan birinci silah məzhəbdir. Onlar bir gün sünni-şiə, o biri gün müsəlman-erməni adı ilə xalqlar arasında toqquşmalar düzəltmək istəyirlər (Kəndli, 1948, 9 oktyabr, 1). Qəzetdə Azərbaycan şairi Mirzə Əli Möcüzün ingilis hökumətini və onun dəstəklədiyi şah rejiminin mənfur siyasətini tənqid edən şeirlərindən nümunələr verilib:

Söylər hər kəs küçədə və bazarda:

İngilis barmağı var bu karda (işdə-Ə.F.) (Həbibi, 1947, 9 dekabr, 3).

"Azərbaycan" qəzeti şah hökumətinin siyasətinin məzhəbə zidd olduğunu qeyd edir, onların din və məzhəbdən avam xalqı aldatmaq və öz hakimiyyətlərini qorumaq üçün dindən istifadə etdiklərini, şahpərəst ruhanilər yetişdirən dini məktəblər açdıqlarını yazır. Buna baxmayaraq qəzet xalqın şaha inanmadığını, şahın elm və savad yaymaq əvəzinə, xurafat və mövhumatı qüvvətləndirmək, əhalini cəhalətdə saxlamaqla öz hakimiyyət əsaslarını möhkəmlədib onu davam etdirmək istədiyini yazırdı (Şəkibxan, 1948, 23 oktyabr, 3).

"Azərbaycan" qəzeti yazırdı ki, imperialist dövlətlər məzhəb təbliğatı pərdəsi altında mürtəce fikirlər yayıb, xalqların düşüncəsini zəhərləməklə kütlələri azadlıq mübarizəsindən çəkindirmək istəyirlər. İmperialistlər məzhəbçiliyi, xurafatı və mövhumatı yayan və xalqları imperializm zülmünə, soyğunçuluğa səbir etməyə çağıran təşkilatlar yaradırlar. Qəzet inanırdı ki, Iran xalqları yerli müstəbidlərlə, xarici imperialistlərlə və onların dəstəklədiyi mürtəce ruhanilərlə apardıqları mübarizədə qalib gələcəkdir (Şəmidə, 1949, 22 yanvar, 4). "Azərbaycan" qəzeti yazırdı ki, M.F.Axundzadənin dövründə olduğu kimi, indi də mömin şeyx əbası altında gizlənən cahil yalançılar Yaxın Şərqdə at oynadır (Dünya mədəniyyət.., 1948, 25 sentyabr, 4).

“Azərbaycan” qəzeti yazırdı ki, iqtidar yönümlü qəzetlər, dövlət radiosu, iqtidar təbliğatçıları yoxsul işçiləri dini şüarlarla aldadıb, “alın yazısı, müqəddərat və qismət”lə onları sakitləşdirməyə çalışırdı (Məhəmmədzadə, 1949, 19 yanvar, 1). Onlar – “hökumət xalqa qayğı göstərir, səbir və dözüm yaxşı sifətlərdəndir, gərək dözümlü olaq, şahpərəst olaq” kimi boş, mənasız sözlərlə xalqı mübarizədən çəkindirməyə çalışır, sinfi mübarizəni yox etmək istəyirdilər. Lakin qəzetə görə halhazırda ölkədə hansı bir kəndliyə və ya fəhləyə - yaşayışın necədir - sualı versən, o, sənə - acam, yoxsulam, sabah üçün təminatım yoxdur, deyəcək. Şah ilə yoxsul xalq arasında barışmaz düşmənlik vardır (İran zəhmətkeşlərinin.., 1948, 7 avqust, 1).

“Azərbaycan” qəzetində əslən təbrizli olan Qacar şahzadəsi, qadın hüquqlarının müdafiəçisi Məryəm Firuzun Budapeştdə yeni təşkil olunan Beynəlxalq Qadınlar Konqresindəki nitqi oxuculara təqdim edilir və göstərilirdi ki, Məryəm xanımın bu tədbirə gedə bilməməsi üçün hökumət süni əngəllər yaratmışdı (Şəmidə, 1948, 4 dekabr, 1). Məryəm xanım bu tədbirə gedərək, müsəlman qadınlarının acınacaqlı vəziyyətini konqres iştirakçılarına çatdırmış və demişdi ki, şah hakimiyyəti öz xalqını yadlara satmışdır. O, konqres iştirakçılarına müraciət edərək, onları şah hökumətinin və onu dəstəkləyən Qərb imperializminin siyasəti əleyhinə etiraz etməyə dəvət etmişdir (Beynəlxalq.., 1948, 22 dekabr, 1). Qadınlara qarşı məhdudiyyətlər təkcə şah hökumətinin sərt tədbirlərilə məhdudlaşmır, mürtəce şəxslər qadınların dünyəvi təhsil almasını günah sayaraq onlara təzyiq edir, mətbuatda qadınların azadlığı əleyhinə məqalə, nitq və çıxışlar təşkil edirdilər. Mürtəce qüvvələr qadınları cəhalət içərisində saxlamağa çalışırdılar (8 Mart.., 1948, 10 mart, 1).

Nəticə

Son olaraq deyə bilərik ki, şah rejiminin mürtəce dini ideyalardan, məzhəbçilikdən istifadə edərək öz hakimiyyətini möhkəmləndirməsi, xalqı istismar etməsi ADF və “Azərbaycan” qəzeti tərəfindən daim tənqid olunmuş, qəzetdə İslam vəhdəti, dini maarifçilik və mütərəqqi dini ideyalar təbliğ edilmiş, mütərəqqi ruhanilərin xalqa xidmət göstərməsinin vacibliyi vurğulanmışdır. Həmçinin, dövrün dini-siyasi məsələləri, Pəhləvilərin dini alət edərək öz siyasi məqsədləri üçün ondan yararlanması, ölkədə qadın hüquqlarının pozulması, Məryəm Firuz kimi azərbaycanlı hüquq müdafiəçilərinin bu sahədə mücadiləsi təqdim edilmişdir. Məqalə Cənubi Azərbaycanda baş verən demokratik oyanış ,

dini radikallaşmaya, xurafat və mövhumata, cəhalətə qarşı mübarizə, "Azərbaycan" qəzeti yazarlarının dindən qeyri-demokratik məqsədlər üçün sui-istifadə edən mürtəce və müstəbid hakimiyyətlərə, onları dəstəkləyən şahpərəst ruhanilərə qarşı mücadilə tarixinin öyrənilməsi və təbliği baxımından da faydalıdır.

Ədəbiyyat

"21 Azər"in 3-cü ildönümü münasibətilə təşkil olunmuş yığıncaqda yoldaş Rəhim Qazinin məruzəsi. (1948). // Azərbaycan, 18 dekabr. (s.4).

"Azərbaycan" qəzeti. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin orqanı

(1945-1946-cı illər, Təbriz). (2022). I hissə. Azərbaycan dilinə transliterasiya və tərcüməsi. Məsul redaktor: S.Bayramzadə. Bakı: Elm. (928 s.).

"Azərbaycan" qəzetinin səhifələrində. 49-cu yazı. (2020). // Xalq Cəbhəsi, 8 oktyabr. (s.14).

8 Mart dünya qadınlarının beynəlxalq bayramı (1948). // Azərbaycan, 10 mart. (s.1.).

Abışov, V. (2023). *Güney Azərbaycanlıların milli-azadlıq hərəkatı (1941-1946-cı illər) tarixinin tarixşünaslığı*. Bakı: Elm və təhsil. (192 s.).

Ağayi Pişəvərinin nitqinin müxtəsəri (1945). // Azərbaycan, 18 sentyabr. (s.1-2).

Alman faşistlərinin Sovet İttifaqına hücumunun 7 illiyi münasibətilə (1948). // Azərbaycan, 23 iyun. (s.1, 4).

Azəroğlu. (1948). *Zindan* // Azərbaycan, 24 iyul. (s.3).

Balayev, X. *Cənubi Azərbaycanda demokratik hərəkatın (1941-1946-cı illər) məğlubiyyəti: siyasi və geosiyasi səbəblər*. (s.312-331). // https://jhss-khazar.org/wp- content/uploads/2010/06/24-1.pdf

Balayev, X. (2011). *Cənublu şair və yazıçıların Azərbaycan ədəbi mühitinə inteqrasiyası* // Xəzər Xəbər. № 297. (s.56-60).

Bayraməli Abbaszadə "Hamal" (1948). // Azərbaycan, 3 aprel. (s.3).

Beynəlxalq Qadınlar Təşkilatının ikinci konqresində İran qadınlar nümayəndəsi xanım Məryəm Firuzun nitqi. (1948). // Azərbaycan, 22 dekabr. (s.1).

Bəhrami, M. (1949). *İranda istiqlal vardırmı?* (1949). // Azərbaycan, 26 yanvar. (s.1).

Cəfərov, A. *178 il zülm altında* // https://multikultural.az/az/tolerantliq/1194/178- il-zulm-altinda-azer-ceferov-yazir/

Cənubi Azərbaycanda 21 Azər hərəkatı haqqında xatirələr // https://www.azadliq.info/208657.html

Cottam, R.W. (1979). *Nationalism in Iran*. Pittsburgh: University of Pittsburgh Press, (358 p.).

Çeşmazər, M. Məşəqqətli ömür. (9 s.). // https://www.achiq.info/m.hukumet/biriya%20dL.pdf

Dünya mədəniyyət xadimlərinin yığıncağında Azərbaycan millətinin böyük şairi Səməd Vurğunun çıxışı (1948). // Azərbaycan, 25 sentyabr. (s.1, 4).

Ələkbərli, F. (2021). *Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər)*. III hissə. Bakı: Elm və təhsil. (684 s.).

Əliyev, Q. *Cənubi Azərbaycan mövzusu "Kommunist" qəzetində (1945-1959)*. (2020). // Risalə. Elmi araşdırmalar jurnalı. № 2 (19). (s.101-117).

Əliyev, R. (2023). *Mir Cəfər Pişəvəri. "Azərbaycan" qəzetində gizli imzalı məqalələri (1945-1946).* Bakı: Qanun. (272 s.).

Əlizadə, H. (2017). *"21 Azər" soyqırımı (1946-1947-ci illərdə Cənubi Azərbaycanda kütləvi qırğınlar)*. Bakı: Elm və təhsil. (376 s.).

Fərhadov, Ə. (2023). *Pəhləvilər dövründə dini-fəlsəfi məsələlərə dair (S.M.Təbatəbai nümunəsi)*. // 17. Uluslararası Türk Kültürü, Sanatı ve Kültürel Mirası Koruma Çevrimiçi Sempozyumu/Sanat Etkinlikleri. Aydın: ADÜ yayınları. (s.141-143).

Haşimi, İ. (1948). *İran heyəti-hakiməsi xaricilərin dəsturuyla islamçılıq şüarı altında* // Azərbaycan, 26 iyun. (s.4).

Həbibi, Q.M. (1947). *Mirzə Əli Möcüz imperialistlər əleyhinə* // Azərbaycan, 9 dekabr. (s.3).

Həbibi, Q.M. (1948). *Mirzə Qafar Siyəhpuş* // Azərbaycan, 16 iyun. (s.3).

Həbibi, Q.M. (1948). *Böyük tənqidçi Belinskinin 100 illik xatirəsi* // Azərbaycan, 9 iyun. (s.1, 4).

Həbs olunanlardan (1949). // Azərbaycan, 12 fevral. (s.4).

İran Azərbaycanındakı vəziyyətə dair (1945). // Kommunist, 21 dekabr. (s.1).

İran qadınları öz azadlıqları uğrunda mübarizəni davam etdirirlər (1949). // Azərbaycan, 8 yanvar. (s.1).

İran zəhmətkeşlərinin tələbatı (1948). // Azərbaycan, 7 avqust. (s.1).

Kəndli, Q. (1948). *Azərbaycan milli hökuməti xalqların azadlığını təmin etmişdi* // Azərbaycan, 9 oktyabr. (s.1).

Kurtuluş, R. (2008). *Rıza şah Pehlevi* // TDV İslam Ansiklopedisi, 35-ci cild. İstanbul: TDV yayınları. (s.67).

Qızıl səhifələr (kitabdan seçilmiş yazılar). (163 s.). // http://www.achiq.info/m.hukumet/q%20dL%20butun.pdf

Qurbani. (1948). *Şəhid yoldaş Məhəmmədhüseyn Bürhani* // Azərbaycan, 25 dekabr. (s.3).

Mertoğlu, M.S. (2010). *Muhammed Hüseyin Tabatabai* // TDV İslam Ansiklopedisi, 39-cu cild. İstanbul: TDV yayınları. (s.306-308).

Məhəmmədzadə, H. (1949). Tehran hökumətinin xəyanəti bir daha ifşa oldu // Azərbaycan, 19 yanvar. (s.1).

Məzhəb iddiasında olub məzhəbdən siyasi istifadə edənlər. (1946). // Azərbaycan, 1 dekabr. (s.1, 4).

Müciri. (1948). *Azərbaycan millətinin Şərq dünyasında təsiri* // Azərbaycan, 21 iyul. (s.1, 3-4).

Müciri. (1948). *Mürtəcelər heç bir cinayətdən çəkinmirlər* // Azərbaycan, 24 iyul. (s.1, 4).

Müciri. (1949). *Qoy İran mürtəceləri bir daha rüsvay olsunlar!* // Azərbaycan, 15 yanvar. (s.1, 3).

Müsəvvər "Hophopnamə". (1946). // Azərbaycan, 10 yanvar. (s.2).

Nikpur, H. *"Anamın kitabı" Təbriz səhnəsində* // https://azerbaycan-ruznamesi.org/wp-content/uploads/2023/12/Anamin-kitabi.pdf

Novruz. (1945). *Şeyx Məhəmməd Xiyabani* // Azərbaycan, 1 noyabr. (s.2).

Novruz. (1945). *Şeyx Məhəmməd Xiyabani-3* // Azərbaycan, 5 noyabr. (s.2).

Novruz. (1945). *Şeyx Məhəmməd Xiyabani. "Təcəddüd" ruznaməsinin tarixçəsi* // Azərbaycan, 11 dekabr. (s.2).

Pişəvəri, S.C. (1945). *Səndən yaxşılıq ummuram, zərər də yetirmə* // Azərbaycan, 20 sentyabr. (s.1).

Pişəvəri, M.C. (1984). *Seçilmiş əsərləri*. Bakı: Azərnəşr. (430 s.).

Pişəvəri, S.C. (2016). *Məqalə və çıxışlarından seçmələr (Təbriz 1945-1946-cı illər).* Bakı: Nurlan. (432 s.).

Rəhimli (Bije), Ə. (2009). *Mübarizə burulğanlarında keçən ömür. Seyid Cəfər Pişəvəri*. Bakı: Nurlar. (400 s.).

Rəzmara yaltaqlıq edir. (1949). // Azərbaycan, 19 fevral. (s.1, 3-4).

Ruhanilərimizin ehsasatı (1946). // Azərbaycan, 4 yanvar. (s.1, 4).

Sadıq, Ə. (1946). *Füqəra şairi (Şair Hammalın vəfatının 20 illiyi)* // Kommunist, 26 iyun. (s.2).

Şəhrivərin on ikisi. 1324-1325. (158 s.) // https://achiq.info/m.hukumet/12shL.pdf

Şəkibxan, F. (1948). *Cavanları boğmaq istəyirlər* // Azərbaycan, 13 noyabr. (s.1, 4).

Şəkibxan, F. (1948). *Xalq yalançı təşəbbüslərə aldanmayacaq* // Azərbaycan, 23 oktyabr. (s.1, 3).

Şəmidə. (1948). *Taziyanə* // Azərbaycan, 4 dekabr. (s.1).

Şəmidə, Ə. (1949). *Məzhəbi təbliğatdır, ya siyasi fəaliyyət!* // Azərbaycan, 22 yanvar. (s.4).

Təbatəbai, H. (1946). *"Molla Nəsrəddin" cərəyanı* // Azərbaycan, 22 yanvar. (s.4).

Tərhim və təziyə məclisi (1946). // Azərbaycan, 25 noyabr. 1.

Turan, A. *Təbrizin qarğınmış şairi* // https://edebiyyatqazeti.az/news/diger/3236- tebrizin-qarginmis-sairi-biriya?fbclid=IwAR3xYTCBZo2pia6pCQ58aQsyj2-phjd06SmCPSEjXxwar_CFYb_6I2BpAt4

Yusifi. (1948). *Şahın əvamfiribliyi* // Azərbaycan, 19 iyun. (s.1, 4).

Zakir, İ. (1948). *Azərbaycanlıların dili bağlanmaz* // Azərbaycan, 22 dekabr. (s.3).

Гасанлы, Дж.П. (2006). *СССР-Иран: Азербайджанский кризис и начало холодной войны (1941 – 1946 гг.)*. Москва: Герои Отечества. (560 с.).

Иванов, М.С. (1977). *История Ирана*. Москва: Издательство Московского Университета. (488 с.).

Multikultural və tolerant mühitin formalaşmasında dini təhsilin rolu

sənət.f.d. Aynur İsrafilova,
Azərbaycan Respublikası
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
baş məsləhətçisi
Bakı, Azərbaycan
aynurisr@gmail.com
https://orcid.org/0009-0001-4093-0494

Xülasə

Məqalədə multikultural və tolerant mühitin formalaşmasında dini təhsilin rolu geniş şəkildə təhlil edilmişdir. Dini təhsil insanların müxtəlif dinlər və mədəniyyətlər haqqında məlumat əldə olunmasını təmin edir, fərdlərin dünyagörüşünü genişləndirir, qarşılıqlı anlaşma mühiti yaradır. Dini təhsil proqramları müxtəlif inancların və mədəniyyətlərin prinsiplərini əhatə etməlidir ki, bu da fərqli dini-mədəni qruplar arasında daha yaxşı əlaqələr qurmağa köməklik göstərir. Bu proqramların düzgün tərtib olunması və tətbiqi cəmiyyətlər arasında harmoniya və sülhün təmin edilməsində əsas rol oynayır.

Məqalədə dini təhsil proqramlarının yalnız bir dinə və ya mədəniyyətə aid edilməməklə yanaşı, digər inanclara və mədəniyyətlərə də hörmətlə yanaşılmalı olduğu vurğulanır. Bu yanaşma mədəni müxtəlifliyin qorunmasını və inkişafını təmin edir. Eyni zamanda, proqramların balanslı şəkildə hazırlanması, tətbiqi mədəni təcrid və dini münaqişələrin qarşısını alır. Yazıda dini təhsil proqramlarının cəmiyyətlərdə müsbət təsirini artırmaq, multikulturalizmi təşviq etmək məqsədilə əhatəli tədqiqatların və layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanır.

Dini təhsil fərdlərin qarşılıqlı anlaşmasını artırmaqla yanaşı, multikultural və tolerant mühitlərin formalaşmasına da kömək edir. Müxtəlif dinlərin və mədəniyyətlərin prinsipləri barədə biliklər fərqli qruplar arasında qarşılıqlı hörmətin inkişafını dəstəkləyir. Məqalədə dini təhsil proqramlarının inkişaf etməsi, həmçinin tətbiqolunacağı məsələlərinə də toxunulmuşdur. Bu proqramların düzgün şəkildə həyata keçirilməsi cəmiyyətlər arasında harmoniya və sülhün təmin olunmasına köməklik göstərir. Nəticədə, dini təhsil multikultural və tolerant mühitin yaradılmasında əhəmiyyətli rol oynayır.

***Açar sözlər**: dini təhsil, multikulturalizm, tolerantlıq, mədəni müxtəliflik, dini təhsil proqramları, mədəni inteqrasiya.*

The Role of Religions Education in Creating a Multicultural and Tolerant Environment

Ph.D. in Art Studies Aynur Israfilova,
Chief adviser,
State Committee on Religious Associations of
the Republic of Azerbaijan
Baku, Azerbaijan
aynurisr@gmail.com
https://orcid.org/0009-0001-4093-0494

Abstract

In the article, the role of religious education in the formation of a multicultural and tolerant environment is widely analyzed. Religious education provides individuals with information about different religions and cultures, broadens their worldview and creates an environment of mutual understanding. Religious education programs should include the principles of different religions and cultures, which helps to build better relations between different religious and cultural groups. Proper design and implementation of these programs play a key role in ensuring harmony and peace among societies.

The article emphasizes that religious education programs should not be limited to one religion or culture, but should be respectful of other religions and cultures. This approach ensures the preservation and development of cultural diversity. At the same time, the balanced development and implementation of programs prevents cultural isolation and religious conflicts. The article highlights the importance of conducting comprehensive research and projects in order to increase the positive impact of religious education programs in societies and promote multiculturalism.

Religious education contributes to the formation of multicultural and tolerant environments, in addition to increasing the mutual understanding of individuals. Knowledge of the principles of different religions and cultures supports the development of mutual respect between different groups. The article addresses how religious education programs should be developed and implemented. Proper implementation of these programs helps to ensure harmony and peace among societies. Consequently, religious education plays an important role in creating multicultural and tolerant environments.

Keywords: *Religious education, multiculturalism, tolerance, cultural diversity, religious education programs, cultural integration.*

Роль религиозного образования в создании мультикультуральной и толерантной среды

д.ф. по искусствоведению Айнур Исрафилова,
главный советник Государственного комитета
Азербайджанской Республики по работе
с религиозными образованиями
Баку, Азербайджан
aynurisr@gmail.com
https://orcid.org/0009-0001-4093-0494

Резюме

В статье широко анализируется роль религиозного образования в формировании поликультурной и толерантной среды. Религиозное образование предоставляет людям информацию о различных религиях и культурах, расширяет их мировоззрение и создает среду взаимопонимания. Программы религиозного образования должны включать принципы различных религий и культур, что помогает строить лучшие отношения между различными религиозными и культурными группами. Правильная разработка и реализация этих программ играют ключевую роль в обеспечении гармонии и мира между обществами.

В статье подчеркивается, что программы религиозного образования не должны ограничиваться одной религией или культурой, а должны уважительно относиться к другим религиям и культурам. Такой подход обеспечивает сохранение и развитие культурного разнообразия. В то же время сбалансированная разработка и реализация программ предотвращает культурную изоляцию и религиозные конфликты. В статье подчеркивается важность проведения комплексных исследований и проектов с целью повышения положительного влияния программ религиозного образования в обществах и продвижения мультикультурализма.

Религиозное образование способствует формированию мультикультурной и толерантной среды, а также повышению взаимопонимания между людьми. Знание принципов различных религий и культур способствует развитию взаимного уважения между различными группами. В статье рассматривается вопрос о том, как следует разрабатывать и реализовывать программы религиозного образования. Надлежащая реализация этих программ помогает

обеспечить гармонию и мир между обществами. Следовательно, религиозное образование играет важную роль в создании мультикультурной и толерантной среды.

Ключевые слова: *Религиозное образование, мультикультурализм, толерантность, культурное разнообразие, программы религиозного образования, культурная интеграция*.

Giriş

“Multikulturalizm və tolerantlıq” cəmiyyətlərin müxtəlif dinlər, dillər, etnik qruplar və mədəniyyətlərlə bir arada yaşamaq bacarığını nəzərdə tutan sosial və mədəni anlayışlardır. Bu anlayışlar müasir dövrdə qlobal miqyasda aktuallıq kəsb edir, çünki cəmiyyətlər müxtəlifləşdikcə harmoniya və birgəyaşayışın təşviqi zərurəti də artır. Dini təhsil bu prosesdə mühüm rol oynayır, çünki o, dinlərarası dialoq və qarşılıqlı anlaşma üçün bir təməl təşkil edir.

Məqaləni qələmə almaqda məqsəd dini təhsilin multikultural və tolerant mühitlərin formalaşmasındakı rolunu araşdırmaqdır. Yazıboyu müxtəlif tarixi nümunələr, müasir təcrübələr və elmi araşdırmalar əsasında dini təhsilin cəmiyyətlərdəki təsiri qiymətləndiriləcəkdir (Məmmədli, 2019, 15-25).

I. Multikultural mühitin əsasları

Multikulturalizm cəmiyyətdə fərqli etnik-dini, mədəni və sosial qrupların bir arada yaşamasını dəstəkləyən zəruri ideyadır. Bu anlayış fərqli mədəniyyətlərin mövcudluğunun və inkişafının cəmiyyət həyatına zənginlik gətirdiyini qəbul edir. Multikulturalizm hər bir qrupun öz mədəni kimliyini qorumasına, cəmiyyətin bir parçası olmasına şərait yaradır. Müasir cəmiyyətlərdə multikulturalizm sosial ədalət və bərabər hüquqların təmin edilməsini əsas götürür. Bu yanaşma mədəni müxtəlifliyi qorumaqla yanaşı, harmoniya və sülhü də təşviq edir. Multikulturalizm siyasəti fərqli qruplar arasında mədəni mübadilə və anlaşmanı artırmağı hədəf seçir. Bu konsepsiya irqçilik, ksenofobiya və ayrıseçkiliklə mübarizə vasitəsi kimi də qəbul edilir. Multikulturalizmin tətbiqi cəmiyyətdə daha çox qarşılıqlı hörmət və tolerantlıq yaradır. Çoxmillətli ölkələrdə bu siyasət milli kimliyi qoruyarkən müxtəlif mədəni

qrupların haqlarını tanımağa yönəlmişdir. Kanada, Avstraliya kimi ölkələr multikulturalizmi rəsmi dövlət siyasəti kimi qəbul etmişdir. Avropa və Şimali Amerikada multikulturalizm miqrantların inteqrasiyasını asanlaşdırmaq üçün istifadə olunur. Bu yanaşma qloballaşan dünyada mədəni müxtəlifliyin təbii nəticəsi kimi də istifadə edilir.

Multikulturallığın hökm sürdüyü cəmiyyətlərdə təhsil, iş, səhiyyə və digər sahələrdə bərabər imkanların yaradılması məqsəd seçilir. Fərqli mədəniyyətlərin bir arada yaşaması cəmiyyətin yaradıcılıq və iqtisadi potensialını artırmağa kömək edir. Multikulturalizm təkcə hüquqların qorunması deyil, həm də mədəni dəyərlərin mübadiləsinə imkan yaradır. Bu siyasət fərqli qrupların həm öz mədəniyyətini ifadə etməsinə, həm də ortaq dəyərlərə töhfə verməsinə imkan yaradır. Multikulturalizm mədəniyyətlər arasında dialoqu və qarşılıqlı anlaşmanı gücləndirir. Bu yanaşma bəzən tənqid olunur, çünki düzgün aparılmayan siyasət nəticəsində fərqli qrupların təcrid edilməsinə və assimilyasiya problemlərinə səbəb ola bilər. Düzgün tətbiq edildikdə isə multikulturalizm fərqli qrupların harmoniya mühitində yaşamasını təmin edir. Bu siyasət sülh və sosial ədalətə əsaslanan cəmiyyətlərin qurulması üçün mühüm vasitədir (İsmayılov, 2021, 32-45).

Multikulturalizmin tətbiqi, ölkənin tarixi, mədəniyyəti və sosial quruluşundan asılı olaraq, müxtəlif formalarda həyata keçirilir. Kanada multikulturalizmi rəsmi dövlət siyasəti kimi qəbul edən ilk ölkələrdən biridir. Bu bölgədə multikulturalizm qanunlar və təhsil proqramları vasitəsilə dəstəklənir və təşviq edilir. Kanadada miqrantlar öz mədəniyyətlərini qorumaqla yanaşı, cəmiyyətə inteqrasiya olunmaq üçün şərait də əldə edirlər. Bunun əksinə olaraq, Fransa kimi bəzi Avropa ölkələri assimilyasiya siyasətini üstün tutur, fərdi mədəniyyətlərin birbaşa cəmiyyətə qarışmasını hədəfləyir. Multikulturalizm siyasəti Böyük Britaniya və Avstraliya kimi ölkələrdə də müxtəlif miqrant qruplarının hüquqlarını qorumaq üçün qəbul olunmuşdur. Həmin ölkələrdə mədəni müxtəliflik təşviq edilir, bu, həmçinin milli kimliyin bir hissəsi sa yılır. Almaniyada isə multikulturalizm siyasəti, xüsusilə, İkinci dünya müharibəsindən sonra miqrant axını nəticəsində formalaşmağa başlamışdır. Almaniya müəyyən dövrlərdə assimilyasiya siyasətini də tətbiq etməyə çalışmışdır. İsveç və Norveç kimi Skandinaviya ölkələri də multikulturalizmi sosial rifah və bərabər hüquqlar çərçivəsində qəbul etmişdir (İsmayılov, 2021, 32-45). Bu ölkələr miqrantların cəmiyyətə inteqrasiyasını təmin edərkən onların mədəni hüquqlarını da tanımağa çalışırlar. Avstraliya rəsmi multikulturalizm siyasətini qəbul etmiş ölkələrdən biridir və bu si-

yasət miqrantların milli kimliyə töhfə verməsini nəzərdə tutur. Avstraliyada fərqli mədəniyyətlərin harmoniya içində yaşaması üçün proqramlar və tədbirlər həyata keçirilir. ABŞ-də multikulturalizm daha çox qeyri-rəsmi olaraq qəbul edilmişdir. Müxtəlif etnik qrupların cəmiyyətin tərkib hissəsi olması bu ölkədə əsas hədəfdir. Bəzi ölkələrdə multikulturalizmin tətbiqi müəyyən çətinliklərlə də üzləşir. Məsələn, bir sıra Avropa ölkələrində multikulturalizmin artan sosial bərabərsizlik və dini gərginliklə nəticələndiyi diqqət çəkir. Bəzi siyasətçilər multikulturalizmin milli kimlikləri zəiflətdiyini düşünüb, bu siyasəti tənqid edirlər. Buna baxmayaraq, multikulturalizm bir çox cəmiyyətdə sülh və harmoniya yaratmaq üçün vacib vasitə olaraq qalır. Bu siyasət mədəni müxtəlifliyin qorunması və sosial birgəyaşayışın inkişaf etdirilməsi üçün vacibdir (Həsənova, 2020, 48-59).

II. Tolerantlıq və cəmiyyətlərarası münasibətlər

Tolerantlıq – fərqli inanclara, mədəniyyətlərə, fikirlərə və həyat tərzlərinə qarşı dözümlü, hörmətli münasibət göstərməkdir. Bu anlayış insanlara tələqin edir ki, müxtəlif fərqlilikləri qəbul etsinlər, onlarla dinc yanaşı yaşasınlar. Tolerantlıq – sosial harmoniya və cəmiyyətlərarası əlaqələrin güclənməsi üçün vacib olan prinsipdir. Bu, yalnız dözümlülük deyil, eyni zamanda, fərqli baxışları, dəyərləri anlamaq və hörmət etmək deməkdir. Tolerant cəmiyyətlərdə insanlar fərqli dinlərə, dillərə və mədəniyyətlərə sahib olsalar da, sülh və qarşılıqlı hörmət mühitində yaşayırlar. Tolerantlıq, həmçinin şəxsi azadlıqların və hüquqların qorunmasına da xidmət edir. Fərqli düşüncələrin və həyat tərzlərinin mövcudluğunu qəbul etmək cəmiyyətin daha ədalətli və bərabər olmasına köməklik göstərir. Tolerantlıq dini-siyasi və sosial baxışlardan asılı olmayaraq, hər bir fərdin öz mövqeyini sərbəst şəkildə ifadə edə bilməsinə imkan yaradır. Bu anlayış tarixboyu sülh və anlaşmanın təmin olunmasında mühüm rol oynamışdır. Tolerant olmayan cəmiyyətlərdə münaqişə və gərginliklər artmağa meyillənir. Tolerantlıq fərdi və kollektiv səviyyədə inkişaf etdirilə bilən bir bacarıqdır. Bu keyfiyyət insanlara qarşılıqlı hörmət, empatiya və anlayışla yanaşmağı öyrədir. Tolerantlıq sosial ədalətin və bərabərliyin təmin edilməsində əsas rol oynayır. Müasir dünyada qloballaşma və miqrasiya proseslərinin artması tolerantlığın əhəmiyyətini daha da çoxaldır. Nəticə etibarilə, tolerantlıq cəmiyyətlərin sülh içində yaşaması üçün zəruri bir dəyərə çevrilir (Hüseynov, 2018, 78-88).

Tarixdə tolerantlıq və dini münaqişələr arasında sıx əlaqə olmuşdur. Bir çox dövrlərdə tolerantlıq cəmiyyətlər arasında harmoniya yaratsa da, bəzi hallarda dini münaqişələr ciddi qarşıdurmalara səbəb olmuşdur. Osmanlı İmperiyası tolerantlığın nümunəsi kimi göstərilə bilər. Osmanlı dövlətində müxtəlif dini icmalara müəyyən muxtariyyət verilmiş, bu da fərqli dinlərin və mədəniyyətlərin birgə yaşamasına şərait yaratmışdır. Bu imperiyada müsəlmanlar, xristianlar və yəhudilər öz dinlərini sərbəst şəkildə yaşada bilmişlər. Əndəlüs (müsəlman İspaniyası) dövründə də müsəlmanlar, xristianlar və yəhudilər arasında dini tolerantlıq uzun müddət mövcud olmuşdur. Bu sülh dövrləri uzun müddət davam etməmişdir; məsələn, 1492-ci ildə İspaniyanın Rekonkista dövrü başa çatdıqda, tolerantlıq sona yetmiş və yəhudilərlə müsəlmanlar təzyiq altında qalmışlar (Kymlicka, 2010).

Avropada isə dini tolerantlıq zaman-zaman ciddi münaqişələrlə əvəz olunmuşdur. Orta əsr Avropasında xristian kilsəsi dinlərarası tolerantlığa az yer vermiş və katoliklərlə protestantlar arasında ciddi gərginliklər yaşanmışdır. Məsələn, 30 illik müharibə (1618–1648) dini münaqişə kimi başlanmış, Avropada milyonlarla insanın həyatına son qoymuşdur. İngiltərədə isə Kral VIII Henrinin kilsədən ayrılması və Anqlikan kilsəsinin qurulması dini-siyasi qarşıdurmalar yaratmışdır. Bu münaqişələr dövründə dini dözümsüzlük geniş yayılmış, bu, çoxsaylı qətllərlə nəticələnmişdir.

Eyni zamanda, Yaxın Şərqdə dini münaqişələr uzun müddət davam etmişdir. Səlib yürüşləri (XI–XIII əsrlər) xristian və müsəlmanlar arasında davam edən uzunmüddətli müharibələr olmuşdur. Bu yürüşlər zamanı dini motivlərlə qızışdırılan zorakılıq və münaqişələr regionda böyük dağıntılara gətirmişdir. Bəzi məqamlarda sülh və tolerantlıq da mövcud olmuşdur; məsələn, Səlahəddin Əyyubinin dövründə müsəlmanlarla xristianlar arasında nisbi sülh təmin edilmişdir (Banks, 2009).

Müasir dövrdə də dini münaqişələr davam edir, lakin beynəlxalq təşkilatlar və insan hüquqları müdafiəçiləri tolerantlıq və dinlərarası dialoqun gücləndirilməsi üçün fəal şəkildə çalışırlar. Hindistan kimi ölkələrdə fərqli dinlərin bir arada yaşaması həm sülh, həm də gərginlik yarada bilər. Hindistanın 1947-ci ildə bölünməsi zamanı milyonlarla müsəlman və hindu arasında dini qarşıdurmalar baş vermişdir.

Tolerantlığın artırılması, dini münaqişələrin azaldılması üçün təhsil və qarşılıqlı anlaşma əsas vasitələr hesab edilir.

III. Dini təhsil: məqsəd və mahiyyət

Dini təhsil fərdlərə yalnız dini biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda, onların mənəvi-əxlaqi dəyərlərini formalaşdırmağa xidmət edir. Bu təhsil növü insanın mənəvi inkişafını təmin etməklə yanaşı, cəmiyyətə də müsbət təsir göstərir. Dini təhsilin əsas məqsədi insanları bu sahədə bilgilərlə zənginləşdirmək, onların etik davranışlarını və mənəvi məsuliyyətlərini dərk etdirməkdir. Eyni zamanda, fərqli dinlərə qarşı hörmət və anlayış yaratmaq dini təhsilin vacib bir komponentidir. Bu yanaşma insanların birgə yaşamağı öyrənməsinə, mədəni müxtəlifliyi və dinlərarası dialoqu qəbul etməsinə köməklik göstərir (Ильин, 2017, 44-58).

Dini təhsilin digər vacib məqsədi cəmiyyətdə tolerantlıgı təşviq etməkdir. Dinlərarası anlayış və qarşılıqlı hörmət sayəsində insanlar fərqli dünyagörüşlərinə malik olsalar da, dinc yanaşı yaşamağı bacarırlar. Dini təhsil, eyni zamanda, əxlaqın inkişaf etdirilməsi, fərdin daxili harmoniyasını təmin etməyi hədəfləyir. Fərdlər dini təhsil alaraq mənəvi dəyərlərə əsaslanan qərarlar qəbul etməyi öyrənirlər. Bu da cəmiyyətdə daha məsuliyyətli və vicdanlı fərdlərin formalaşmasına köməklik göstərir.

Bundan əlavə, dini təhsil insanların dindarlığını artırmaqla yanaşı, dinlərarası barış və anlaşmanın güclənməsinə də səbəb ola bilir. Müasir dünyada dini münaqişələrin qarşısını almaq və harmoniya yaratmaq üçün dini təhsilin rolu daha önəmli hala gəlib. Fərqli dinlər haqqında bilik sahibi olan fərdlər mədəni-dini müxtəlifliyə qarşı daha dözümlü davranırlar. Bu təhsil forması həm fərdi, həm də ictimai səviyyədə dərin nüfuza malikdir.

Dini təhsil, eyni zamanda, dini liderlərin hazırlanmasına da xidmət edir. Bu liderlər cəmiyyətdə dindən qaynaqlanan problemlərin həllinə töhfə verə bilərlər. Onlar dini mövzularda insanlara rəhbərlik edir, sülh və ədalətə əsaslanan qərarların qəbul olunmasına köməklik göstərirlər. Dini liderlər vasitəsilə cəmiyyətin mənəvi dəyərləri qorunur və inkişaf etdirilir (Новикова, 2019, 12-23).

Dini təhsilin digər məqsədi fərdləri mənəvi böhrandan qorumaq və həyatın müxtəlif çətinlikləri ilə üzləşməyə hazırlamaqdır. Bu təhsil növü insanların mənəvi dayanıqlığını artırır, həyatın çətin anlarında onlara dəstək olur. Eyni zamanda, dini təhsil insanları sevgi, mərhəmət, ədalət və sülh kimi ali dəyərlərə yönəltməyi hədəfləyir.

Dini təhsil vasitəsilə insanlar daha geniş perspektiv əldə edir, dinin cəmiyyətdəki rolunu daha yaxşı başa düşürlər. Dini biliklərin tədrisi insanların dünyaya daha obyektiv baxmasına və dərin mənəvi əqidəyə malik olmasına gətirib çıxarır. Bu isə cəmiyyətin daha sülhpərvər və əxlaqlı olmasına vəsilə yaradır.

Son olaraq, bildirək ki, dini təhsil cəmiyyətin mənəvi inkişafını təmin edir, daha ədalətli və harmonik bir dünya qurmağa xidmət göstərir. Dini-əxlaqi dəyərlərə əsaslanan fərdlər cəmiyyətin inkişafına daha müsbət töhfələr verirlər. Dini təhsilin düzgün tətbiqi cəmiyyətin birliyini və mədəni müxtəlifliyini qorumaga kömək edir.

Dinlərarası dialoqun inkişafı cəmiyyətlər arasında sülh və harmoniya yaratmaq üçün vacib bir vasitədir. Dini təhsilin mühüm məqsədlərindən biri də fərqli dinlərə malik insanları ortaq dəyərlər əsasında anlaşmaya və əməkdaşlıq etməyə yönəltməkdir. Bu dialoq dinlər arasında fərqliliklərdən çox, oxşarlıqları ön plana çıxarır, daha dinc və tolerant bir cəmiyyətin qurulmasına şərait yaradır. Dinlərarası dialoq təkcə dini məsələlərə deyil, eyni zamanda, sosial, mədəni və siyasi problemlərin həllinə də töhfə verir.

Bu dialoqun inkişafı üçün dini təhsilin rolunu vurğulamaq vacibdir, çünki dini təhsil insanlara fərqli inanclar haqqında obyektiv və dolğun məlumat verir. Məsələn, Avropa Birliyi ölkələrində dinlərarası dialoqun təşviqi, bu prosesin əsasını təşkil edən tədris proqramları vasitəsilə həyata keçirilir. Bu ölkələrdə dini təhsilin bir hissəsi kimi fərqli dinlər haqqında məlumatlar verilir, gənc nəsillər müxtəlif dini qruplara qarşı hörmətlə yanaşmağa alışdırılır. İsveçrə, Norveç və Almaniya kimi ölkələrdə bu yanaşma dini gərginliklərin azaldılmasında mühüm rol oynayır.

Dinlərarası dialoq, xüsusilə, Yaxın Şərq kimi münaqişə bölgələrində sülhün təmin edilməsi üçün əhəmiyyətli vasitələrdən biridir. İslam, Xristianlıq və Yəhudilik kimi böyük dinlər arasında ortaq dəyərlər və inanclar üzərində dialoq aparılması bu bölgədəki gərginliklərin azaldılmasına və sülhün bərqərar olmasına köməklik göstərə bilər. Məsələn, Beynəlxalq Dinlərarası Dialoq Mərkəzi kimi qurumlar müxtəlif dinlərdən olan insanların bir araya gəlməsini, onların ortaq dəyərlər üzərində müzakirələr aparmasını təşkil edirlər. Bu cür təşəbbüslər mədəniyyətlərarası anlaşmanı və dini gərginliklərin azaldılmasını hədəf seçir.

Dinlərarası dialoq prosesində qarşılıqlı hörmət, anlayış və empatiya mühüm rol oynayır. Bu dialoq yalnız fərqli dinlərin mövcudluğunu qəbul etməklə kifayətlənmir, həm də onların dəyərlərinə və inanclarına

dərin hörmət göstərməyi məqbul sayır. Dini təhsil bu hörmətin inkişaf etdirilməsində vacib rol oynayır, çünki məhz təhsil vasitəsilə insanlar müxtəlif dinlərin mahiyyəti haqqında daha dərindən məlumat əldə edirlər.

Dinlərarası dialoqun təşkili, həm də qloballaşan dünyada sosial-mədəni problemlərin həllinə yeni yanaşmalar gətirir. Qloballaşma dövründə müxtəlif dini-mədəni qrupların bir yerdə yaşaması daha intensivləşir, bu şəraitdə dinlərarası dialoq qarşılıqlı anlaşmanın və sülhün təmin edilməsində əsas amil olur. Hindistan kimi çoxdinli ölkələrdə bu cür dialoqların təşkili dini gərginlikləri azaltmağa, cəmiyyətin harmonik şəkildə bir arada yaşamasına töhfə verir.

Dini təhsil fərqli dini inanclara sahib insanların bir-birlərini daha yaxşı anlamasına və qəbul etməsinə köməklik göstərir. Bu, dinlərarası anlaşmanın təməli olmaqla yanaşı, bir çox sosial problemlərin həllində də vacib rol oynayır. Dini təhsil proqramlarının tərkibində fərqli dinlər haqqında biliklərin təqdim edilməsi, bu dinlər arasında mövcud olan ortaq dəyərlərin vurğulanması cəmiyyətin daha da tolerantlaşmasına gətirir.

Dinlərarası dialoqun inkişafı, həmçinin ekstremizmin və radikalizmin qarşısının alınmasında mühüm rol oynayır. Radikal qruplar dini fərqliliklərdən sui-istifadə edərək cəmiyyətlər arasında gərginlik yarada bilirlər. Dinlərarası dialoq belə təxribatların qarşısını alır, insanların bir-birini daha yaxşı anlamasına kömək edir. Bu dialoq dini manipulyasiyanın qarşısını almaq üçün güclü bir vasitədir. Dini liderlər bu prosesdə mühüm rol oynayırlar, çünki onların vasitəsilə geniş kütlələrə sülh və barış mesajları ötürülə bilər.

Dinlərarası dialoqun inkişafı yalnız münaqişələrin qarşısını almaqla kifayətlənmir, həm də cəmiyyətlər arasında uzunmüddətli sülhün bərqərar olmasına töhfə verir. Vatikan və "əl-Əzhər" Universiteti kimi böyük dini mərkəzlər bu sahədə müntəzəm olaraq dialoq və əməkdaşlıq təşəbbüsləri həyata keçirirlər. Bu təşəbbüslər müxtəlif dinlər arasında qarşılıqlı anlaşma və sülhün təmin edilməsi üçün zəruridir.

Dinlərarası dialoq mədəni-dini müxtəlifliklərin qorunması, bir arada sülh içində yaşaması üçün güclü vasitədir. Bu dialoq fərqli mədəniyyətləri və dinləri qəbul etməyi, onlara hörmətlə yanaşmağı irəli sürür. UNESCO kimi beynəlxalq təşkilatlar dinlərarası dialoqun təşviqi ilə mədəniyyətlərarası anlaşmanın güclənməsinə çalışırlar. Bu proses qloballaşan dünyada sülh və harmoniya yaratmaq üçün vacibdir.

Dini təhsil proqramlarının məzmunu cəmiyyətlərarası tolerantlığı təşviq etmək məqsədi daşımalıdır. Bu proqramların təməlində yalnız

müəyyən bir dinin təlimlərini öyrətmək deyil, həm də fərqli dinlərə qarşı hörmət və anlayışın artırılması durmalıdır. Müasir dini təhsil proqramları müxtəlif dinlər arasındakı oxşarlıqları və ortaq dəyərləri vurğulamalıdır. Bu yanaşma tələbələrin dini münaqişələrdən çəkinmək, mədəni müxtəlifliyi qəbul etmək bacarığının inkişafına gətirir.

Dini təhsil proqramları əsas dini mövzuları əhatə etməklə yanaşı, dinlərarası dialoqun təşviqinə yönəlmiş mühazirələri də daxil etməlidir. Tələbələrə fərqli dinlərin ibadət formaları, əsas prinsipləri və tarixi barədə məlumat verilməlidir. Eyni zamanda, bu proqramlar dini müxtəlifliyi təhlil etməyə və müsbət yanaşmalar inkişaf etdirməyə yönəlmiş müzakirə və seminarlar təşkil etməlidir.

İnancların və mədəniyyətlərin qarşılıqlı təsirini öyrənmək tələbələrin tolerantlıq və dözümlülük anlayışını artırmağa kömək edir. Dinlərarası münasibətlərin tarixi və müasir kontekstdəki vəziyyəti haqqında məlumat verilməsi də vacibdir. Belə proqramlarda dinlərin qarşılıqlı hörmətini artıran tədris materialları və real həyat nümunələrindən istifadə olunmalıdır.

Dini təhsilin məzmunu, həmçinin, müasir dünyada ekstremizm və radikalizmin qarşısını almaq üçün strategiyaları əhatə etməlidir. Tələbələrə ekstremist düşüncələrin necə yayılmasını və bunlara qarşı hansı üsullarla mübarizə aparılacağını öyrətmək dini təhsilin vacib hissəsidir. Eyni zamanda, dini liderlər və ictimai xadimlərin rolu cəmiyyətin mənəvi inkişafına müsbət təsir göstərə bilər.

Dini təhsil proqramlarının tərkibində fərqli dinlərin fəlsəfəsi və dəyərləri haqqında dərslər təşkil edilməli, müxtəlif dinlərin dünyagörüşü və həyat tərzi ilə tanışlıq təmin olunmalıdır. Dinlərin oxşar məsələlərə yanaşmasında fərqli baxış bucaqları təqdim olunaraq, tələbələrə müxtəlif dini təcrübələri anlamaqda kömək göstərilir.

Dinlərarası dialoq və əməkdaşlığın təşviqi tədris proqramlarının bir hissəsi olmalı, tələbələrə müxtəlif dinlərin nümayəndələri ilə ünsiyyət yaratmaq, ortaq layihələr həyata keçirmək imkanı verilməlidir. Bu yanaşma müxtəlif dini qruplar arasında əlaqələri gücləndirmək və qarşılıqlı anlaşmanı artırmaq məqsədi güdür.

Dini təhsilin mövzu dairəsi, həmçinin etika və əxlaq mövzularını da əhatə etməlidir. Fərqli dinlərin etik prinsipləri və əxlaqi davranış qaydaları öyrədilməli, bu mövzuda müzakirələr və praktiki məşğələlər keçirilməlidir. Beləliklə, tələbələr həm öz dini dəyərlərini, həm də digər dinlərin əxlaqi prinsiplərini qavraya bilərlər.

Praktik təcrübə və dinlərarası fəaliyyət proqramlara daxil edilməli, tələbələr müxtəlif dini icmalarla bir araya gəlməli və birgə layihələr

həyata keçirməlidirlər. Bu təcrübələr dini müxtəlifliyi birbaşa yaşamaq və dərinləşdirmək üçün effektiv vasitədir.

Eyni zamanda, dini təhsil proqramları tələbələrə cəmiyyətlərarası münaqişələrin sülh yolu ilə həlli strategiyalarını öyrətməlidir. Dinlərarası münaqişələrin aradan qaldırılması üçün müzakirələr, mediasiya və dialoq metodları öyrədilməlidir.

Proqramların məzmununda dini müxtəlifliyi təşviq edən ədəbiyyat və media materiallarına da yer verilməlidir. Fərqli dinlər haqqında müsbət və obyektiv məlumatların təqdim olunması tələbələrin geniş baxış bucağının inkişafına kömək edir.

Son olaraq qeyd edək ki, dini təhsil proqramları tələbələrin dini-mənəvi suallarına cavab tapmaq və şəxsi inkişaflarını dəstəkləmək məqsədi güdməlidir. Bu, yalnız dini biliklərin artırılması deyil, eyni zamanda, fərdi mənəvi inkişafın təşviqini də əhatə edir. Proqramların effektivliyi cəmiyyətlərarası münaqişələrin azaldılması və daha harmonik bir dünya yaratmaq məqsədinə xidmət göstərir.

Dini təhsil multikultural mühitin inkişafında əhəmiyyətli rol oynayır. Bu təhsil forması fərdlərə müxtəlif mədəniyyətlərin və dinlərin dəyərlərini başa düşmək və qəbul etmək imkanı verir. Dini təhsil fərqli dini və mədəni qruplar arasında qarşılıqlı anlaşma və hörmətin inkişafına köməklik göstərir. Bu yanaşma müxtəlif mədəniyyətlərin birgəyaşayışını və harmonik əlaqələrini təşviq edir. Müxtəlif dinlərin və mədəniyyətlərin bir arada yaşamasını təmin etmək üçün dini təhsil fərdlərə həmin mədəni fərqlilikləri anlamağı və qəbul etməyi öyrədir (Сидоров, 2018, 23-34).

Dini təhsil proqramları fərqli dinlərin prinsipləri və təcrübələri haqqında obyektiv və ətraflı məlumat təqdim edir. Bu məlumatlar fərdlərin müxtəlif dini baxış açılarını anlamaq və onların müxtəlifliyini qəbul etmək bacarığını artırır. Dinlərarası dialoqun təşviqi, bu proqramların mühüm bir hissəsidir və fərqli dinlərin nümayəndələri arasında sülh və əməkdaşlıq mühitinin yaradılmasına köməklik göstərir.

Dini təhsil müxtəlif mədəniyyətlərin və dinlərin bir-birinə yaxınlaşmasına şərait yaradır. Bu proses insanları mədəni müxtəlifliyi anlamağa və fərqli inanclara qarşı tolerantlığa yönəldir. Təhsil vasitəsilə fərdlərə müxtəlif dinlərin tarixi, mədəniyyəti və dəyərləri haqqında biliklər verilir ki, bu da mədəniyyətlərarası münasibətlərin inkişafına səbəb olur.

Dini təhsil, eyni zamanda, mədəniyyətlərarası münaqişələrin həlli üçün effektiv strategiyalar təqdim edir. Müxtəlif dini-mədəni qrupların

qarşılıqlı anlaşmasını təmin etmək üçün müzakirələr və tədris metodları irəli sürülür. Beləliklə, dini təhsil proqramları cəmiyyətlərarası gərginliklərin azaldılmasına, daha barışcıl mühitin yaradılmasına köməklik göstərir.

Dini təhsilin məzmunu fərqli dinlər arasında oxşarlıqları vurğulayır, müsbət dialoq atmosferi yaradır. Bu yanaşma dini müxtəlifliyin qəbulunu və hörmətini artırır. Dini təhsil vasitəsilə təqdim olunan məlumatlar insanların fərqli mədəniyyətlərə və inanclara qarşı daha açıqfikirli olmalarına köməklik göstərir.

Fərdlərin müxtəlif dinlər haqqında geniş biliklərə malik olması onların digər mədəniyyətlərə və inanclara qarşı daha empatik və dözümlü olmalarını təmin edir. Bu, müxtəlif dinlərdən olan insanların birlikdə dinc şəraitdə yaşamasına, qarşılıqlı hörmətin artırılmasına töhfə verir.

Dini təhsil proqramlarına mədəni müxtəlifliyi qəbul və təşviq etmək məqsədilə müasir dünyada daha çox diqqət yetirilməlidir. Bu proqramlar fərdlərin dini-mədəni fərqliliklərə qarşı yanaşmalarını dəyişdirməyə, onları daha çox qəbul etməyə yönəldir.

Müxtəlif dinlərin və mədəniyyətlərin bir-birini tanıması və hörmət etməsi multikultural mühitin əsasını təşkil edir. Dini təhsil bu mühitin inkişafında mühüm vasitədir, çünki fərdlərə dini-mədəni müxtəlifliyi anlamaq imkanı verir.

Dini təhsil proqramları dini ekstremizmin qarşısının alınmasında da əhəmiyyətli rol oynayır. Fərdlərə müxtəlif dini baxışların dəyərini öyrətmək, ekstremist və radikal fikirlərin yayılmasının qarşısını almağa kömək edir.

Dini təhsil sosial bərabərliyi və ədaləti təşviq edir, fərdlərə müxtəlif dinlərin və mədəniyyətlərin birgə yaşaması üçün vacib olan anlayış və hörmət hissini aşılayır. Bu yanaşma multikultural cəmiyyətlərin daha ədalətli və harmonik olmasına gətirib çıxarır.

Fərdlərin müxtəlif dinlərə və mədəniyyətlərə tolerant yanaşmaları cəmiyyətlər arasında dinc və harmonik münasibətlərin inkişafını təmin edir. Bu, müasir dünyada sosial sabitlik və inkişafın əsas faktorlarından biridir.

Son olaraq bildirək ki, dini təhsil proqramları multikultural mühitlərin inkişafını dəstəkləmək üçün genişləndirilmiş və təkmilləşdirilmiş şəkildə təqdim olunmalıdır. Bu proqramlar fərdlərin dini-mədəni müxtəlifliyi anlamaq, qəbul və təşviq etmək bacarığını artırır, cəmiyyətdə daha böyük harmoniya yaratmağa köməklik göstərir.

Müxtəlif ölkələrdə dini təhsilin multikulturalizmə təsirini daha geniş şəkildə nəzərdən keçirmək üçün aşağıdakı nümunələri təqdim edə bilərik:

- İndoneziya. Bu ölkədə dini təhsil proqramları müxtəlif dinlərin nümayəndələrinin bir arada yaşamasını təşviq edir. Məsələn, məktəblərdə həm İslam, həm də digər dini qrupların ibadətləri və mədəniyyətləri haqqında dərslər tədris olunur. Bu yanaşma fərqli dinlərin nümayəndələri arasında qarşılıqlı anlaşma və hörmətin artırılmasına kömək göstərir.
- ABŞ. Ölkədə müxtəlif dini icmaların birgəyaşayışını təşviq etmək məqsədilə məktəblərdə dinlərarası təhsil proqramları mövcuddur. Bu proqramlar müxtəlif dinlərin tarixini, əsas prinsiplərini və təcrübələrini öyrənməyə yönəldilir. Beləliklə, fərqli dini qruplar arasında anlayış və hörmət artırılır.
- Kanada. Ərazidə multikulturalizmi təşviq edən dövlət siyasəti çərçivəsində dini təhsil proqramları müxtəlif dinlərdən olan tələbələr üçün hazırlanan xüsusi dərsləri əhatə edir. Bu proqramlar dinlərarası dialoqu və qarşılıqlı anlaşmanı təşviq etmək məqsədi daşıyır.
- Almaniya. Bölgədə dini təhsil müxtəlif dinlərin və mədəniyyətlərin bir arada yaşamasını təşviq edən dərsləri əhatələyir. Məktəblərdə müxtəlif dinlər haqqında məlumatlar təqdim edilir, bu da dini müxtəlifliyi anlamaq və qəbul etməkdə təsirli olur.
- Hindistan. Ölkədə dini təhsil proqramları müxtəlif dinlərin nümayəndələrini bir araya gətirir və mədəniyyətlərarası anlayışa töhfə verir. Dinlərarası müzakirələr və qarşılıqlı öyrənmə sessiyaları təşkil olunur, bu da ölkənin çoxşaxəli dini mənzərəsinin harmonik inkişafına kömək edir.
- İsveç. Ərazidə dini təhsil proqramları müasir çoxkültürlü cəmiyyətlərin ehtiyaclarına uyğun olaraq, müxtəlif dinlərin əsaslarını öyrətmək məqsədi güdür. Bu proqramlar müxtəlif dini qrupların bir arada yaşamasını dəstəkləyir və fərqli mədəniyyətlər arasında qarşılıqlı hörməti artırır (Новикова, 2019, 12-23).

Bu nümunələr dini təhsilin müxtəlif ölkələrdə multikulturalizmin təşviqində hansı müsbət rol oynadığını göstərir, fərqli dinlərin nümayəndələri arasında harmoniya yaradılmasına köməklik göstərir.

Dini təhsil proqramları cəmiyyətlərarası tolerantlığı artırmaq məqsədilə dövlət səviyyəsində dəstəklənir və bu yanaşma bir çox ölkənin təhsil siyasətində əhəmiyyətli rol oynayır. Dövlətlər tolerantlıq siyasətini təşviq etmək üçün dini təhsil proqramlarını öz təhsil sistemlərinə daxil

edərək, müxtəlif dini qrupların bir arada yaşamasını və qarşılıqlı hörməti artırmağı hədəfləyirlər. Bu proqramlar dinlərarası dialoqu və anlaşmanı gücləndirmək üçün hazırlanmışdır, həmçinin fərqli dinlərin prinsipləri, tarixləri və mədəniyyətləri haqqında dərslər təqdim edir.

Müxtəlif ölkələrdə dövlətlər dini təhsilin cəmiyyətlərarası münasibətlərin inkişafında necə əhəmiyyətli olduğunu qəbul edir və bu məqsədlə xüsusi proqramlar və siyasətlər tətbiq edirlər. Məsələn, Kanada bu yanaşmanı rəsmi dövlət siyasəti kimi açıqlayır, dini təhsil proqramlarını təhsil sisteminin ayrılmaz bir hissəsi kimi təqdim edir. Bu proqramlar müxtəlif dinlərin və mədəniyyətlərin bir arada yaşamasını təşviq edir və tolerantlığı artırır.

İsveçdə də dini təhsil müxtəlif dinlərin prinsipləri və dəyərləri haqqında biliklərin artırılması məqsədilə tətbiq olunur. Bu ölkədə dini təhsil proqramları, müxtəlif dini-mədəni qrupların bir arada yaşamasına kömək edir, tolerantlıq siyasətinin təbliğini aşılayır. İsveç hökuməti bu proqramlar vasitəsilə cəmiyyətlərarası anlaşmanın inkişafını təşviq edir.

Almaniyada dini təhsil proqramları müxtəlif dinlərin və mədəniyyətlərin tədrisini əhatə edir, tolerantlıq siyasətinin təşviqinə köməklik göstərir. Almaniyada dövlət tərəfindən dəstəklənən bu proqramlar dinlərarası dialoqu və qarşılıqlı hörməti gücləndirmək məqsədi güdür. Məktəblərdə dinlərarası müzakirələr və seminarlar təşkil olunur, bu da müxtəlif dini qruplar arasında anlaşmanı artırır.

Hindistanda da dövlət dini təhsil proqramlarına xüsusi önəm verir və müxtəlif dinlərin nümayəndələrini bir araya gətirən tədbirlər təşkil edir. Bu proqramlar ölkənin geniş dini müxtəlifliyini əhatə edir və cəmiyyətlərarası münasibətlərin inkişafını dəstəkləyir. Dinlərarası müzakirələr və öyrənmə sessiyaları ölkədəki müxtəlif dinlər arasında sülh və harmoniya yaratmağa kömək edir.

İndoneziyada dini təhsil proqramları müxtəlif dinlərin və mədəniyyətlərin bir arada yaşamasını təşviq edir. Bu proqramlar fərqli dini qrupların nümayəndələrini bir araya gətirir və qarşılıqlı anlayışın inkişafına kömək edir. İndoneziya hökuməti, dini təhsil vasitəsilə cəmiyyətlərarası gərginliklərin azaldılmasını və multikultural mühitin təşviqini hədəfləyir.

ABŞ-də dini təhsil proqramları müxtəlif dini icmaların bir arada yaşamasını təşviq edən bir vasitə kimi istifadə olunur. ABŞ-də məktəblərdə dinlərarası müzakirələr və tədris proqramları mövcuddur, bu da müxtəlif dinlərin prinsipləri və mədəniyyətləri arasında qarşılıqlı hör-

mətin artırılmasına köməklik göstərir. Dövlət dini təhsil vasitəsilə tolerantlıq siyasətini gücləndirir və fərqli dini qruplar arasında harmoniyanı təmin edir.

Dini təhsil bəzi cəmiyyətlərdə düzgün tətbiq edilmədiyi halda, müxtəlif problemlərə səbəb ola bilər. Bu problemlərin başında radikal dini qrupların təbliğatı gəlir. Radikalizmin yayılması dini təhsilin neqativ tərəfi olaraq görünə bilər, çünki bəzi təhsil proqramları ekstremist fikirləri aşılayan və ya bu fikirləri qəbul edən qrupları möhkəmləndirən vasitələrə çevrilə bilər. Bu vəziyyət dini- mədəni müxtəlifliyə qarşı dözümsüzlük və ayrı-seçkilik hallarını artırır, cəmiyyətdə sosial ziddiyyətlər meydana gətirir.

Dini təhsilin bəzi formaları ayrı-seçkiliyi təşviq edən və ya təbligatını həyata keçirməklə fərqli dini baxışları, mədəniyyətləri və inanclara qarşı mənfi yanaşmaları formalaşdıra bilər. Belə yanaşmalar dinlərarası anlaşmanı və sülhü təşviq etmək əvəzinə, dini münaqişələri artırıb cəmiyyətdə qarşıdurmalara səbəb olur.

Mədəni müxtəlifliyə qarşı dözümsüzlük bəzi dini təhsil proqramlarının tətbiq edildiyi yerlərdə ortaya çıxa bilər. Bu vəziyyət dini təhsil proqramlarının yalnız bir dinin prinsiplərinə və təcrübələrinə fokuslanması, digər dinlərin və mədəniyyətlərin nəzərə alınmaması nəticəsində yaranır. Bu cür yanaşmalar fərqli dinlər və mədəniyyətlər arasında gərginliyə səbəb ola bilər.

Təcrid olunmuş dini təhsil proqramları ciddi çətinliklər yaradıb, cəmiyyətin daha geniş müzakirə və inteqrasiya imkanlarını məhdudlaşdıra bilər. Bu vəziyyət dini təhsilin qapalı və ayrılmış bir mühitdə tətbiq edilməsinə gətirib çıxarmaqla, fərqli dinlər və mədəniyyətlər arasında müsbət əlaqələrin inkişafını məhdudlaşdırır.

Digər bir problem isə dini təhsilin bərabər şəkildə təqdim edilməməsi ilə əlaqədardır. Bəzi ölkələrdə və bölgələrdə dini təhsil yalnız müəyyən bir dinin prinsiplərini və dəyərlərini təbliğ edir, digər dinlərin və mədəniyyətlərin nəzərə alınmaması nəticəsində müxtəliflik və tolerantlıq anlayışlarını zəiflədir. Bu vəziyyət fərqli dini qrupların birgəyaşayışını və onların qarşılıqlı hörmət mühitində formalaşmasını çətinləşdirir.

Dini təhsilin keyfiyyəti də bir problem olaraq ortaya çıxa bilər. Bəzi hallarda dini təhsil proqramlarının məzmunu kifayət qədər elmi və obyektiv olmur. Belə hallarda təhsil proqramları daha çox subyektiv və radikal fikirləri təqdim edir, bu da tələbələrin daha geniş və balanslı biliklər əldə etməsinə maneçilik törədir.

Dini təhsil proqramlarının yerli və qlobal kontekstdəki uyğunsuzluğu da çətinliklər yarada bilər. Yerli mədəniyyətlərə və dini ənənələrə uyğun olmayan proqramlar cəmiyyətin ehtiyaclarına cavab vermir və müxtəlif dini qruplar arasında anlaşmazlıqlara səbəb ola bilər. Bu uyğunsuzluq dini təhsilin effektivliyini və müxtəliflik anlayışını zəiflədir.

Son olaraq bildirim ki, dini təhsil proqramlarının siyasi və sosial təsirlərdən müstəqil olmaması da problem yarada bilər. Bəzi hallarda, dini təhsil proqramları siyasi və sosial məqsədlərlə manipulyasiya olunur, bu da proqramların obyektivliyinə və müstəqilliyinə təsir göstərir. Bu vəziyyət dini təhsilin effektivliyini azaldır və cəmiyyətdəki sosial gərginliyi artırır.

Bu problemlər dini təhsilin tətbiqindəki çətinlikləri göstərir, bu problemlərin aradan qaldırılması üçün daha balanslı və əhatəli yanaşmaların tətbiqini tələb edir. Dini təhsilin müsbət təsirini artırmaq üçün proqramların obyektiv, geniş və inklüziv olması vacibdir (Сидоров, 2018, 23-34).

Multikulturalizmin tətbiqi bəzi çətinliklər doğura bilər və bu yanaşmaya dair müxtəlif tənqidlər mövcuddur. Bəzi tənqidçilər multikulturalizmin mədəni inteqrasiyadan çox, mədəni qrupların təcrid olunmasına gətirdiyini irəli sürürlər. Onların fikrincə, multikulturalizm fərqli mədəni qrupların bir arada yaşamasını təşviq etmək əvəzinə, bu qrupların öz mədəniyyətlərini qapalı şəkildə qorumasına və digər hissələrdən ayrılmasına səbəb ola bilər.

Bu halda, dini təhsil proqramları da müsbət məqsədlərə xidmət etmədikdə, mədəni fərqlilikləri daha da dərinləşdirə bilər. Əgər dini təhsil yalnız müəyyən bir dini və ya mədəni qrupu əhatə edir və digər dinlər və mədəniyyətlər nəzərə alınmırsa, bu yanaşma qarşılıqlı anlayış və hörməti artırmaq əvəzinə, dini və mədəni təcridi gücləndirə bilər (Сидоров, 2018, 23-34).

Bəzi tənqidçilər multikulturalizmin mədəni qruplar arasında geniş və inklüziv münasibətlər yaratmaq əvəzinə, bu qrupların müstəqil və ayrılmış vəziyyətinə gətirib çıxara biləcəyini bildirirlər. Bu cür yanaşma, mədəni inteqrasiyaya və birgəyaşayışa deyil, daha çox mədəni izolyasiyaya və qarşılıqlı əlaqəsizliyə aparır.

Dini təhsil proqramları əgər balanslı və obyektiv şəkildə hazırlanmasa, mövcüd problemləri daha da dərinləşdirə bilər. Proqramlar müxtəlif dinlərin və mədəniyyətlərin prinsiplərini əhatə etməli, qarşılıqlı hörmət və anlayış yaratmağa yönəlməlidir. Əks halda, təcrid olunmuş təhsil yanaşmaları mədəni müxtəlifliyi təşviq etmək əvəzinə, bu müxtəlifliyi daha da qabarıq hala gətirə bilər.

Multikulturalizmin effektiv tətbiqi üçün dini təhsil proqramlarının və siyasətlərin balanslı və inklüziv olması vacibdir. Bu proqramlar müxtəlif dinlərin və mədəniyyətlərin prinsiplərini əhatə etməli və tədris metodları mədəni inteqrasiyaya yönəldilməlidir. Belə yanaşmalar fərqli qrupların bir arada yaşamasını təşviq etməyə və qarşılıqlı hörmətin artırılmasına kömək göstərəcəkdir.

Nəticədə, multikulturalizmin tənqidi və onun tətbiqi ilə bağlı çətinliklər daha balanslı və əhatəli yanaşmaların hazırlanmasını tələb edir. Dini təhsil proqramları bu yanaşmanın müsbət təsirini artırmaq və mədəni təcridi azaltmaq üçün diqqətlə hazırlanmalı və tətbiq edilməlidir. Bu, multikultural cəmiyyətlərin daha dinc və harmonik şəkildə inkişafına kömək göstərəcəkdir (Петров, 2020, 67-79).

Nəticə

Dini təhsil multikultural və tolerant cəmiyyətlərin formalaşmasında həlledici rol oynayır. Bu təhsil forması fərdlərə müxtəlif dinlər və mədəniyyətlər haqqında bilik verir, onların dünyagörüşünü genişləndirir, qarşılıqlı anlaşma mühitini formalaşdırır. Dini təhsil fərqli dini və mədəni qruplar arasında daha yaxşı anlaşma və hörmətin inkişafına köməklik göstərir, beləliklə də cəmiyyətlər arasında harmoniya və sülhün təmin edilməsinə dəstək olur.

Dini təhsil proqramlarının düzgün tərtib edilməsi və tətbiqi bu məqsədləri həyata keçirmək üçün əsas rol oynayır. Proqramlar müxtəlif dinlərin və mədəniyyətlərin prinsiplərini əhatə etməli və balanslı yanaşmalar irəli sürməlidir. Bu yanaşmalar fərqli qrupların bir arada yaşamasını təşviq edir və qarşılıqlı anlaşmanı artırır. Əgər dini təhsil proqramları diqqətlə hazırlanmasa, mədəni təcrid və dini münaqişələrin artmasına səbəb ola bilər.

Gələcəkdə dini təhsil proqramlarının daha da inkişaf etdirilməsi vacibdir. Bu məqsədlə multikulturalizmin təşviqi və tolerantlığın artırılması üçün daha əhatəli tədqiqatlar və layihələr həyata keçirilməlidir. Belə tədqiqatlar dini təhsil proqramlarının effektivliyini qiymətləndirməyə və onların cəmiyyətə müsbət təsirini artırmağa kömək edəcəkdir.

Multikultural və tolerant cəmiyyətlərin formalaşmasında dini təhsil proqramlarının inkişafı daha harmonik və dinc cəmiyyətlərin yaradılmasına kömək edə bilər. Dini təhsil fərdlərə müxtəlif dinlər və mədəniyyətlər haqqında geniş məlumatlar təqdim etməklə, mədəni anlaşma və

sülhün inkişafını dəstəkləyir. Beləliklə, dini təhsil proqramlarının düzgün tərtib edilməsi və davamlı inkişafı cəmiyyətlər arasında müsbət münasibətlərin qurulmasına əsaslı xidmət göstərəcək.

Ədəbiyyat

Məmmədli, Əhməd. (2019). “Azərbaycan Cəmiyyətində Multikulturalizm və Dini Tolerantlıq.” Bakı Universiteti Elmi Məcmuəsi, 47(3), 15-25.

İsmayılov, Ramiz. (2021). “Dini Təhsil və Cəmiyyətlərarası Tolerantlığın İnkişafı.” Qafqaz Araşdırmaları Jurnalı, 12(1), 32-45.

Həsənova, Leyla. (2020). “Azərbaycanın Multikulturalizm Təcrübəsi və Dini Təhsilin Rolu.” Multikulturalizm İnstitutu Nəşrləri, 5(2), 48-59.

Hüseynov, Fərid. (2018). “Tolerantlıq Siyasəti və Azərbaycan Dini Təhsil Modeli.” Bakı Tədqiqatlar Jurnalı, 23(4), 78-88.

Kymlicka, Will. (2010). “Multicultural Citizenship: A Liberal Theory of Minority Rights.” Oxford University Press.

Banks, James A. (2009). “Diversity and Citizenship Education: Global Perspectives.” John Wiley & Sons.

Modood, Tariq. (2013). “Multiculturalism: A Civic Idea.” Polity Press, 2nd edition.

Parekh, Bhikhu. (2006). “Rethinking Multiculturalism: Cultural Diversity and Political Theory.” Palgrave Macmillan.

Ильин, Михаил. (2017). “Межкультурный диалог и религиозное образование.” Журнал Вопросы образования, 24(2), 44-58.

Новикова, Елена. (2019). “Роль религиозного образования в формировании толерантности.” Вестник социологических исследований, 5(1), 12-23.

Петров, Алексей. (2020). “Мультикультурализм и религиозное образование в современной России.” Российская академия наук, 33(3), 67-79.

Сидоров, Владимир. (2018). “Религиозное образование и межкультурное понимание.” Вопросы религиоведения, 11(2), 23-34.

Иванов, Алексей. (2020). “Влияние религиозного образования на формирование толерантности в многонациональном обществе.” Социология религии, 15(3), 45-56.

Петров, Сергей. (2019). “Роль религиозного образования в укреплении межкультурного диалога.” Вестник гуманитарных наук, 7(1), 112-123.

Кузнецов, Дмитрий. (2021). “Религиозное образование и его вклад в развитие толерантности.” Образование и общество, 8(4), 67-78.

Лебедев, Николай. (2020). “Духовное образование как инструмент формирования мультикультурного общества.” Исследования религии, 9(2), 98-109.

Морозов, Виктор. (2018). “Религиозное образование и его роль в гармонизации межнациональных отношений.” Вопросы социальной теологии, 6(3), 55-66.

Смирнова, Анна. (2022). “Образование и религия: основы толерантного мировоззрения.” Наука и религия, 12(5), 29-42.

Din tədrisində nümunəvilik prinsipi (Həzrət Peyğəmbərin timsalında)

f.f.d. Rüfət Şirinov,
Gəncliyə Yardım Fondunun təhsil koordinatoru
Bakı,Azərbaycan
rufetsirin@gmail.com
https://orcid.org/0000-0002-3223-1546

Xülasə

Bəşər övladı öyrənməyə və öyrətməyə meyilli olaraq xəlq edilmişdir. Bu baxımdan, hər bir insan gündəlik həyatında nəsə öyrənir və başqalarına da bunu təlqin etməyə çalışır. Bu proses formal və yaxud qeyri-formal şəkildə öz əksini tapır. Yəni müəyyən bir metod, üslub çərçivəsində və yaxud hər hansı plan, proqram olmadan icra edilir.

Müasir dövrdə insanların daha qısa vaxtda keyfiyyətli şəkildə maarifləndirilməsi üçün müxtəlif metodlar, pedaqoji qayda və üslublar təyin edilmişdir. Hər dövrdə bu metodlar dövrün ehtiyaclarına və şərtlərinə görə, həmçinin bölgənin mədəni səviyyəsinə görə fərqlənir.

İstənilən sivilizasiyanın özünəməxsus bəzi metodları olduğu kimi, İslam dinində də təlim-tədrisə aid bir sıra qaydalar mövcuddur. Şübhəsiz, bu metodların ən ali məqsədi dini tələbləri insanlara daha səmərəli şəkildə çatdırmaqdan ibarətdir. Həzrət Peyğəmbərdən başlayan bu üslub sonrakı dövrlərdə zamana uyğunlaşdırılmış, yaxud yeniləri əlavə edilib təkmilləşdirilmişdir. Müasir pedaqoji üslublarla böyük əksəriyyətdə eynilik təşkil edən dini tədris metodlarından bəziləri özünəməxsusluğu ilə digərlərindən fərqlənir. Bu metodlardan biri də dini təlim edən, öyrənən və təlqin edənlərin nümunə təşkil etməsidir. Yəni tədris edilən məlumatların əyani şəkildə icraatı və tətbiq olunmasıdır. Din tədrisi təkcə məlumat əldə etməkdən ibarət deyil, eyni zamanda, insan şəxsiyyətini formalaşdıran əsas amillərdən biridir. Din – həyat tərzidir.

Məqalənin əsas məqsədi dinin tədrisində nümunəvilik prinsipinin əhəmiyyətinə və icrasında diqqət ediləcək cəhətlərə nəzər yetirmək, həmçinin əldə edilən bilginin tədrisdə çox təsirli olduğunu meydana çıxarmaqdır.

Açar sözlər: *Həzrət Peyğəmbər, tədris metodları, dinin tədrisi, nümunəvilik, rol, model.*

Principle of Exemplarity in Religious Education in the Example of Prophet Muhammad

Ph.D. Rufat Shirinov
Education Coordinator for the Fund of Aid For Youth
Baku, Azerbaijan
rufetsirin@gmail.com
https://orcid.org/0000-0002-3223-1546

Abstract

Human beings are created with an inclination to learn and teach. In this respect, every person learns something every day and tries to teach something to others. This process manifests itself in a formal or informal way, that is, it is carried out either within the framework of a certain method, style, or without any specific plan or program.

In the modern era, various methods, pedagogical rules, and styles have been designated to educate people effectively in a short time. These methods differ according to the needs and conditions of the time and the cultural level of the region.

Just as each civilization has its own methods, there are also unique methods in the teaching of Islam. Of course, the main goal of these methods is to convey religious needs to people in a more efficient way. These styles, which started with Prophet Muhammad, have been adapted to the era and refined with new additions over time. Some of these religious education methods, which mostly coincide with modern pedagogical styles, stand out with their uniqueness. One such method is for religious educators to be role models for learners, that is, the practical application and implementation of the information being taught.

Because religious education is not only about obtaining information but also one of the main factors that shape human personality. Religion is a way of life.

The main purpose of this article is to touch on the importance of the principle of exemplarity in religious education, the points to pay attention to in its implementation, and to demonstrate that knowledge reflected in practice is very effective in teaching.

Keywords: *Prophet Muhammad, Teaching methods, Religious education, Exemplarity, Role model*

Принцип примерности в преподавании религии на примере Пророка Мухаммеда

д.ф.ф. Руфат Ширинов
Координатор по образованию Фонда Помощи Молодежи
Баку, Азербайджан
rufetsirin@gmail.com
https://orcid.org/0000-0002-3223-1546

Резюме

Человечество создано с врожденной склонностью к обучению и преподаванию. В этом смысле каждый человек ежедневно чему-то учится и старается передать свои знания другим. Этот процесс происходит как в формальной, так и в неформальной форме. То есть, он выполняется в рамках определенной методологии или стиля, либо без какого-либо плана или программы.

В современном мире для качественного образования за короткое время были разработаны различные методы, педагогические правила и стили. Эти методы различаются в зависимости от эпохи, потребностей времени, а также культурного уровня региона.

Каждая цивилизация имеет свои собственные методы преподавания, и в исламе также есть свои уникальные подходы к обучению. Конечно, высшей целью этих методов является передача религиозных знаний наиболее эффективным способом. Эти методы, начавшиеся с Пророка Мухаммеда, совершенствовались с учетом современных реалий и новых условий. Некоторые методы религиозного обучения, которые имеют много общего с современными педагогическими подходами, отличаются своей уникальностью. Одним из этих методов является личный пример учителей религии для своих учеников. То есть, преподаватели должны наглядно демонстрировать то, что они обучают. Потому что религиозное образование – это не только получение информации, но и один из основных факторов, формирующих личность человека. Религия — это образ жизни.

Основная цель данной статьи – обратить внимание на важность принципа примерности в преподавании религии, а также на особенности его применения. В частности, статья подчеркивает значимость преподавания знаний через практическое применение.

Ключевые слова: *Пророк Мухаммед, методы преподавания, религиозное образование, примерность, ролевые модели.*

Giriş

Cəmiyyətlərin əsas məqsədi keyfiyyətli, milli şüur və dəyərləri ilə formalaşmış insan yetişdirməkdir. Hər keçən gün bu, daha da çətinləşir. İnsanların dəyər anlayışı dəyişməkdə, fərdilik, mənfəət, İslam coğrafiyası da daxil, sekulyarlaşma, dünya hərisliyi daha da artmaqdadır. Gözəl, nümunəvi insan modelləri yox olmağa doğru getməkdədir. Bu təhlükəli gedişata, ancaq təhsillə mane olmaq mümkündür.

Təhsilin ən önəmli amili, heç şübhəsiz ki, müəllimdir. Bu baxımdan təhsildə təyin edilən hədəf və keyfiyyətə nailolmada, həmçinin tələbələrin motivasiyalarını canlıtutmada müəllimlərin rolu əvəzsizdir.. Başqa ifadə ilə desək, təhsilin keyfiyyətində və xarakterin formalaşmasında müəllimin birbaşa təsiri böyükdür.

Ölkənin təhsil sistemində qoyulan hədəfə çatmaq üçün hazırlanan dərslik, avadanlıq, şərait nə qədər mükəmməl olsa belə, heç biri müəllimi əvəz edə bilməz. Türk dünyasının tanınmış pedaqoqu Nurəddin Topçu müəllimin əhəmiyyətini necə də gözəl ifadə etmişdir: “Müəllim nə tələbələrə təkcə məlumatları ötürən, nə dövlətin təyin etdiyi məmur, nə tacir, nə də maaş üçün işləyən məmurdur. Müəllim ruhların sənətkarı, könüllərin fatehidir. Bir insanı beşikdən alıb məzara təslim edən dünyanın ən məsuliyyətli şəxsiyyətidir. Həmçinin bilən, öyrədən, yol göstərən, valideyn və tərbiyəçi vəsfinə sahib bir insandır. Biz bilsək də, bilməsək də müəllimin hər birimizin həyatında mütləq izləri vardır” (Topçu, 2021, 65-70). Müəllimlik ruh və könül sənətidir. Bilmək və öyrətmək bir-birindən fərqli məqamlardır. Hər bilən öyrədə bilmir. “Könlünə toxunduğun sənindir”, – demişlər.

Müəllim tərbiyəsi və xarakteri ilə tələbəsinə müsbət təsir göstərməlidir. Müasir ifadə ilə desək, tələbələr üçün model olmalıdır. Ələlxüsus, metodlarını Allahın tələbəsi olan Həzrət Peyğəmbərdən öyrənən din təhsili ilə məşğul olan müəllimlər nümunəvi xarakter sərgiləmək üçün əllərindən gələni əsirgəməməli, özlərini ali hədəf kimi təyin etməlidirlər.

Texnologiyanın inkişaf etdiyi günümüzdə bilgi əldə etmək, artıq çətin bir məsələ deyil. Bu baxımdan, din təhsilində təkcə bilgi vermək dini öyrənmək istəyənlər üçün maraqlı və cazibədar gəlmir. Bu məsələdə, hətta akademik ünvan da birinci dərəcəli təsiredici amil kimi görünmür. Deməli, bilgiyə səmimiyyət və icra dəstək verməlidir. Din tədrisi ilə məşğul olanlar özlərini bu sahəyə həsr etməli, fədakarlıqlarını əsirgəməməlidirlər. Din təhsili insanın xarakterində müsbət mənada

dəyişiklik yaratmalıdır. Bu baxımdan, texniki fənlərin tədrisi və təhsili ilə məşğul olanlardan ötrü nümunəvi olmaq əsas şərt olmaya bilər. Burada əsas məsələ müəyyən texniki məlumatları öyrənməkdir. Müəllimin bilgisi və öyrətmə qabiliyyəti birinci dərəcəlidir. Fəqət, ideologiya, xarakter, şəxsiyyət və dəyər aşılayan sahələrdə onun tədrisi ilə məşğul olanların xarakterləri birinci dərəcəli təsir gücünə malikdir. Məsələn, ibtidai sinif müəlliminin şəxsiyyət və xarakterinin keyfiyyəti vacib amildir. Odur ki, bu sahədə tədrisi icra edənlərin də nümunəvi xarakterə sahib olmaları əhəmiyyətlidir. O cümlədən, dini tərbiyə və təhsillə məşğul olanların yüksək xarakterə və mənliyə malik olmaları önəmli məsələlərdəndir. Yalançı birinin "yalan danışmağın pis əməl olduğunu" deməsi ilə dürüst insanın bunu ifadə etməsi və təsir gücü, əlbəttə, müqayisəedilməzdir.

İslam – bilgi və elmin dostu olan bir dindir. İslam daim oxumağı, öyrənməyi, bu sahədə tərəqqi etməyi buyurmuşdur. Bu tövsiyələr icra olunduğu dövrlərdə dünyada qabaqcıl mədəniyyətikən, bu xüsusiyyətlərdən uzaqlaşınca geridə qalmağa məhkum bir cəmiyyətə çevrilmişdir. İslam dini tərəqqi və inkişafın, güclü olmağın ən əsas prioritetinin elm və oxumaq olduğunu açıq şəkildə ifadə etmişdir. İlk enən – "Yaradan Rəbbinin adı ilə oxu" (Qurani-Kərim, 96/1) ayəsi elmə və öyrənməyə birbaşa vurğu və təşviqdir. Fəqət, əsas məsələ faydalı olanı öyrənməkdir. Faydalı elmi öyrənməyəni Qurani-Kərim "Kitab daşıyan uzunqulaq" (Qurani-Kərim, 62/5) kimi tərif etmişdir.

Müsəlmanların Allaha qarşı vəzifələrindən biri də bildiklərini, öyrəndiklərini insanlara çatdırmaq, onları xeyirli işlərə cəlb etmək və məkrli işlərdən çəkindirməkdir. Bunu edərkən də müxtəlif metodlar təklif edir. Bu qaydalar İslam ədəbiyyatında "təbliğ metodları" adı ilə qeyd olunsa da, müasir dövrümüzdə dini təhsil və tədris metodları kimi ifadə edilir. Dini təhsilin əsas məqsədi Allahın insanlara göndərdiyini münasib dillə və metodlarla onlara çatdırmaqdır. Bunu ən gözəl şəkildə icra edən, əlbəttə ki, Allahın birbaşa nəzarətində olan Həzrət Peyğəmbər idi. Rəvayətlərin birində Həzrət Peyğəmbər özünün müəllim olaraq göndərildiyini bildirmişdir (İbn Macə, 1998,I, 219 (hədis no: 229)). Onun bacarıqlı müəllim olduğunu göstərən ən önəmli göstəricilərdən biri məhz yetişdirdiyi səhabəsi və formalaşdırdığı cəmiyyətidir. Həzrət Peyğəmbər Cahiliyyə dövrünü yaşayan, sözün əsl mənasında, vəhşi bir cəmiyyəti dini maarifləndirmə ilə əsri-səadətə çevirmişdir. İslam fiqhi mütəxəssislərindən Qərafinin bu sözü dediyimizi dəstəkləyir:

“Əgər peyğəmbərin nübüvvətini isbat edən heç bir möcüzəsi olmasaydı, yetişdirdiyi səhabəsi onun peyğəmbər olduğuna isbat kimi kifayət edərdi”(Qərafi, 1928, IV, 170).

Heç kim əyri xətkeş ilə düzgün xətt çəkə bilmədiyi kimi, səhv nümunə ilə doğru nəticə (şəxsiyyət) əldə edə bilməz (Comenius, 1964, 191). Məhz buna görə də mütəxəssislər, xüsusilə din təhsili və tədrisi ilə məşğul olanların müvəffəqiyyət qazanması üçün mütləq elmi bilgisi ilə yanaşı, nümunəvi xarakterə də sahib olmasının əhəmiyyətini ifadə edirlər. İnsanlar nə dediyimizə yox, nə etdiyimizə baxır və təsirlənirlər. Şair Əşrəfoğlu Rumi belə demişdir: “Revişi pak gərək daviyi İslam edənin”. Yəni islam dinini tədris edənin, onu anlatmağa çalışanların hər hərəkəti Qurana və Həzrət Peyğəmbərin həyat tərzinə müvafiq olmalıdır. Həm işi, həm bilgisi, həm əməli pak və qüsursuz olmalıdır (https://www.kuranvemeali.com/fussilet-suresi/33-ayeti-tefsiri.)

I. Nümunəvilik prinsipi və onun əsasları

Dinin təlim və tədrisində təsirli amil bu işi icra edənlərin nümunəvi şəxsiyyət və xarakterə malik olmalarıdır. Müasir ifadə ilə desək, rol model olmalarıdır. İnsanlar deyilənə deyil, edilənə baxırlar. Odur ki, insanlarda doğulduğu gündən etibarən başqalarından nümunəgötürmə və təqlidetmə qabiliyyəti vardır. Təqlidetmə və yaxud nümunəgötürmə təkcə uşaqlara məxsus deyil. Yeniyetmələr də özlərinə kimi isə nümunə götürür və onlardan təsirlənirlər. Uşaqlar və gənclər, əsasən, özlərindən üstün gördükləri şəxsləri təqlid edir, onlara bənzəməyə çalışırlar. Məktəbdə müəllimlərinin, kənarda isə məşhur idmançı, aktyor və ya sənətkarın təsirinə düşür, imkan tapdıqca da onları təqlid edirlər (Öcal. 1991, 231). Bu baxımdan, sevdiyi şəxsi təqlid etmək, onun kimi olmaq arzusu fitri bir xüsusiyyətdir. İslam ənənəsi insandakı məhz bu xüsusiyyəti müsbət şəxsiyyətlərə yönləndirməyi əsas götürür. Cəmiyyətdə insanların özlərinə nümunə seçəcəyi şəxslərin başında din tədrisi ilə məşğul olan təhsil işçiləri, pedaqoqlar gəlməlidirlər. Bu vəzifəni icra edənlər bunun fərqində və şüurunda olmalıdırlar. Həzrət Peyğəmbərin “üsveyi-həsənə” (Qurani-kərim, 33/21) kimi göstərilməsinin əsas məqsədi də məhz budur.

Pedaqoqlar təqlidetmə xüsusiyyətinin təlim-tərbiyəyə müvafiq istifadə edilməsinə çalışırlar. Təlim-tərbiyə bir insanın başqa bir insanla bərabər böyüməsi və özünü bir bütövün parçası kimi görməsi ilə başlayır (Adler, 1983, 62).

Təhsildə tələbələrə təqdim edilən nümunə modeli kamil şəxsiyyət olmalıdır. Belə olduğu təqdirdə, nümunə götürən tələbədə müsbət xarakter formalaşar. Nümunə alınan şəxs daim təqlid edildiyinə görə, ondakı xüsusiyyətlər birbaşa nümunə alana keçəcəkdir (Gözütok, 2016, 73.).

İslam dini baxımından ən mükəmməl insan Həzrət Peyğəmbərdir (Aydın, XXII, 331). Bu mükəmməllik bütün sahələrlə əlaqəlidir. O cümlədən, müəllim kimi də hər bir insana nümunə təşkil edəcək qabiliyyətə malik idi. Onun tərbiyə edəni Allah-Taala idi. Necə ki, özü də "Məni Rəbbim tərbiyə etdi və tərbiyəmi nə gözəl etdi", - söyləmişdir. (Münavi, 1938, I, 224). Əslində, hər bir pedaqoq və yaxud təhsil işçisi Həzrət Peyğəmbərin müəllimliyinin məğzini tam dəqiqliklə araşdırıb tətbiq edərsə, ən qabaqcıl müəllim olacaqdır. Odur ki, hər bir din təlim və tədris edən şəxs onun metodlarını mənimsəyərsə, dini maarifləndirmə məsələsində çox səmərəli nəticələr əldə ediləcəkdir.

1. Nümunəviliyin şərtləri və hədəfi

Din insan şəxsiyyətini, yəni onun bütün həyatını əhatə edir. Buna görə də dini tədrislə məşğul olanların bilgisi qədər əməli tərəfləri də əhəmiyyət kəsb edir.

Nümunə olacaq təhsil mütəxəssisləri həm öz şəxslərində, həm də həyata keçirmək istədikləri hədəflərində müəyyən şərtlərə riayət etməli və özlərini düstur kimi görməlidirlər.

a) Bilgi

Təhsildə əsas məqsədlərdən biri, şübhəsiz, bilgi və məlumat öyrətməkdir. Bu baxımdan, hər bir müəllim həm öz sahəsində, həm də yardımçı istiqamətlərlə əlaqəli, kifayət qədər bilgiyə malik olmaq məcburiyyətindədir. O cümlədən, din təlimçisi istər dini, istərsə də dünyəvi məsələlərdə kifayət qədər məlumatlı olmalıdır. Əlbəttə, bu məlumatları vaxtaşırı yeniləməli, intellektual səviyyəsini hər gün artırmalıdır. Bilgisi ilə nümunə olmaq tələbələrin ona olan baxış və heyranlığının artmasına təkan verəcəkdir. Heç kim qəbul etdiyi və mənimsədiyi düşüncə, anlayış və həyat tərzini dəyişmək istəmir. Bu baxımdan, həyatına yeni cığır açmaq istəyən kimsə sözlərinə etibar edilən, inanılan mütəxəssis və səlahiyyətli biri olmalıdır (Cebeci, 2003, 172).

Dini təhsillə məşğul olanlar onun əsas mənbələrini, din-əxlaq, din-fərd, din-cəmiyyət münasibətlərini yaxşı bilməlidirlər.

b) Xarakter

Din təlimçisinin söylədikləri əməlləri ilə səsləşməlidir. Bir növ, fikirləri xarakterə çevrilməlidir. Rahatlıqla söyləyə bilərik ki, din təhsilində fikirdən əmələ keçməyən heç bir məsələ tam təsirli ola bilməz. Bu baxımdan Qurani-Kərimin "Etməyəcəyiniz şeyləri niyə deyirsiniz? Bu, Allah dərgahında nifrətlə qarşılanır" (Qurani-Kərim, 61/2-3) ayəsi dini mövzularda əldə olunan məlumatların həyata keçirilməsini tələb edir. Tətbiq oluna bilməyən məlumat təsirsizdir. Dediyi ilə etdiyi bir-birinə uyğun gəlməyən heç bir şəxs insanları inandıra bilməz. Həzrət Peyğəmbərin müvəffəq olduğu ən önəmli amil məhz budur.

c) Səmimiyyət

Təhsildə kəlmələrdən, səsimizdən və bədənimizdən istifadə edirik. Yəni bilgimiz, ifadələrimiz və bunları çatdırma üslubumuz, müasir ifadə ilə desək, bədən dilimiz əsasdır. Tədqiqatlar nəticəsində müəyyən olmuşdur ki, qarşımızdakı insana təsiretmədə sözlərimizin təsir gücü 7 faiz, səsimizin, danışığımızın təsir gücü 38 faiz, bədən dilimizin təsir gücü 55 faizdir (Çağlayan, 2022, 16). Deməli, bildiklərimizin üzərimizə yansıması nəticəsində ortaya çıxan bədən dilimiz xarakter və səmimiyyətimizin göstəricisidir. Bu, eyni zamanda, sözümüzlə özümüzün bir olduğunu göstərir. İnsan yaşamadığı və inanmadığı məsələlərdə tərəfmüqabilinə çox təsir göstərə bilməz. Nəticədə deyə bilərik ki, bədən dilimiz səmimiliyimizin tərəzisidir. Səmimiyyət ilə təsir gücü düz mütənasibdir. Nümunəvi din təlimçisi əqli-səlim, zövqi-səlim və qəlbi-səlim olmalıdır.

ç) Əxlaq

Xarakterin, şəxsiyyətin əslini əxlaq qaydaları təşkil edir. Şəxsiyyət formalaşdırmağı hədəf seçən hər bir rol-model mütləq əxlaq prinsipinə və intizama sahib olmalı, bu cəhəti ilə nümunə təşkil etməlidir. Həzrət Peyğəmbərin "Sizin ən xeyirliniz gözəl əxlaqa sahib olanınızdır" Buxari, 1987, VIII,15 (hədis no: 6029) hədisini də bu çərçivədə mütaliə etmək lazımdır.

İnsanlar həmişə xüsusi məlumat və tədrislə tərbiyə edilmir, əksəriyyətlə fərqində olmadan öyrənirlər. Bu proses müşahidə, yaxud təqlid edərək gerçəkləşir. Bu baxımdan, başqalarını müşahidə edərək və nümunə götürərək öyrənmək həyatımızda əhəmiyyətli yer tutur. Müşahidə yolu ilə təkcə davranış əldə etmirik, eyni zamanda, qarşılaşdığımız bir problemdə fərqli davranışların necə nəticələnəcəyini də öyrənirik (Fidan, 1986, 60). Odur ki, rol model olacaq müəllim tələbələrinin həm himayəçisi, həm əxlaq nümunəsi, həm də həyat məsləhətçisi olmalıdır. Həzrət Peyğəmbər buyurmuşdur: "Mən sizə bir ata kimi öyrədirəm" (Hənbəl, 1985, II, 494). Hər bir müəllim tələbəsini öz övladı kimi görməli və himayə etməlidir.

d) Problemi həll etmək

Rol model kimi müəllimin bir məqsədi də nümunə olduğu tələbələrinə qarşılaşdığı məsələlərə həll yolu öyrətməkdir. Nümunəvi xarakter sərgiləyən Həzrət Peyğəmbərin bəşəri münasibətlərindəki xüsusiyyətlərindən biri də insanların qarşılaşdıqları problemə həll yolu göstərməsi idi. Məsələn, o, Ramazan ayında xanımı ilə yaxın münasibət quran bir şəxsin nə edəcəyinə belə yol göstərmişdir. Həmin şəxsə "Sən kölə azad edə bilərsən?" – söyləmiş, o da "Xeyr" cavabını vermişdir. Daha sonra "İki ay arxa-arxaya oruc tuta bilərsən?" sualına da eyni cavabı alır. Altmış nəfər imkansıza yemək yedirtmək təklifinə də "xeyr" cavabını alınca, özünə hədiyyə edilən bir zənbil xurmanı həmin adama verib, "Bunları kasıblara dağıt", – söyləyir. Adam bu dəfə də "Səni haqq olaraq göndərən Allaha and olsun, məndən və ailəmdən möhtac heç kim yoxdur", – deyir. Həzrət Peyğəmbər "Elə isə götür ailənə yedirt", – cavabını verir. Beləliklə, fağır bir ailənin problemini özünə hədiyyə verilən sovqatla həll edir (Buxari, 1987, III, 210 (hədis no: 2600)). Din tədrisi ilə məşğul olan müəllim heç vaxt tələbəsinin problemlərinə biganə qalmamalı, onun tədris prosesi xaricindəki məsələsini də həll etməyə çalışmalıdır.

e) Tolerantlıq

Xoşbəxt cəmiyyət formalaşdırmaq üçün tolerant mühit əhəmiyyət kəsb edir. Təhsilin məqsədlərindən biri də məhz bacarıqlı fərdlər yetişdirməkdir. Yeni yetişən nəsillərə nümunə ola biləcək təməl dəyərlər qazandırılmasa, onlar özlərinə nümunə kimi başqa cəmiyyət axtararlar.

Beləliklə, öz cəmiyyətinə yad bir nəsil yetişmiş olacaq. Həzrət Peyğəmbər öz nümunəviliyi ilə münaqişə etməyən cəmiyyət formalaşdırmağa çalışmışdır. Məsələn, üç dəfə arxa-arxaya "İman etmiş sayılmaz", – dedi. "Kim, ya Rəsulallah", – soruşduqda, "Qonşusunun şərindən və zərərindən əmin olmayan kimsə", – söylədi (Buxari, 1987, VIII, 17 (hədis no: 6016)). Sağlam cəmiyyət sağlam ünsiyyətlə mümkündür. Bu da ilk ünsiyyətin qurulduğu qonşularla olan münasibətlərlə başlayır. Nümunəvi təhsil işçisi öz həyatında bu münasibətləri tənzimləməli və ətrafına nümunə olmalıdır.

Həzrət Peyğəmbərin müəllimliyini özünə nümunə götürüb, nümunəvi bir müəllim olmaq istəyən təhsil işçisi bu vəsflərə də sahib olmağa çalışmalıdır: ağıl, fəzilət, elm, hikmət, uzaqgörənlik, ətraflı analiz edə bilmək, ləyaqət, həyəcan, vüqarlı olmaq, səlis və gözəl xitabət, gülərüzlü olmaq, səliqəli geyinmək, düzgün idarə etmək.

2. Quranda nümunəvilik

Allah tərəfindən Həzrət Peyğəmbərə nazil olan vəhy təkcə zehnində məlumat kimi qalmır, eyni zamanda, onun davranışlarını da şəkilləndirirdi (Yazır, (1962), V, 3644). O, birbaşa Allah tərəfindən tərbiyə edilmişdir. Bu mənada özü də "Məni Rəbbim tərbiyə etdi və tərbiyəmi nə gözəl etdi"(Münavi, 1938, I, 224), – söyləmişdir. Həzrət Aişəyə də onun əxlaqının necəliyi soruşulduqda, "Siz heç Qurani-Kərim oxumursunuz? Onun əxlaqı Qurandan ibarətdir" (Müslim, (1956) I, 512 (hədis no:139)), söyləyərək, Həzrət Peyğəmbərin əxlaqının Quranəsaslı olduğunu bildirmişdir.

Rol-model, yəni nümunəviliyin Qurani-Kərimdəki qarşılığı "üsveyi-həsənə" (Qurani-Kərim, 33/21) ifadəsi ilə qeyd edilir. Həzrət Peyğəmbərin nümunəviliyi təkcə ibadətləri ilə məhdudlaşmır. O, insanlar üçün həyatın hər sahəsində nümunə təşkil edir. Çünki o, həm müəllim, həm ata, həm baba, həm idarəçi, həm komandir, həm də ailə başçısı və s. idi.

Qurani-Kərimdə özünün etmədiklərini söyləyənlər qınanmışdır: "Ey iman gətirənlər! Etməyəcəyiniz şeyləri nə üçün deyirsiniz? Etməyəcəyiniz şeyləri deməyiniz Allah dərgahında nifrətlə qarşılanar" (Qurani-Kərim, 61/2-3), – deyilərək əməllərin puç olmasına səbəb təşkil edəcəyi xəbərdarlığı olunmuşdur. Yəni Qurani-Kərim hər bir din təmsilçisi və təlimçisinin rol model olmasını tələb edir. Qurani-Kərimdəki bu ayə də rol model olmaq istəyən təlimçilər üçün əsasdır:

“İnsanlara yaxşılığı əmr edib özünüzü unudursunuz? Hələ üstəlik, kitabı da oxuyursunuz. Heç düşünmürsünüzmü? (Qurani-Kərim, 2/44).

Qurani-Kərimdə bütün peyğəmbərlər rol-model kimi təqdim edilirlər. Hər bir peyğəmbər yaşadığı cəmiyyətdə insanlar üçün nümunə olmuş və onların həyat tərzini Allahın istədiyi şəkildə nizamlamışdır. Bunu təkcə ifadələri ilə deyil, həyat tərzləri ilə də etmişlər. Məsələn, Şüeyb peyğəmbər öz qövmünə belə söyləmişdir: “...Mən sizə yasaq buyurduğum şeyin əksini gedib özüm etmək istəmirəm... (Qurani-Kərim, 11/88). Beləliklə, peyğəmbərlərin ümməti üçün gözəl nümunə olduğu açıq şəkildə ortaya çıxır.

3. Həzrət Peyğəmbərin təlim-tədris metodları

Qurani-Kərim Həzrət Peyğəmbəri kitabı və hikməti öyrədən müəllim kimi təqdim edir. Onun bu vəzifəni necə icra etdiyi, hansı metodları mənimsədiyi pedaqoqlar üçün hər dövrdə maraqlı olmuşdur.

Tarixdə müəllimlik vəzifəsini məharətlə icra edən şəxslərin başında, heç şübhəsiz, Həzrət Peyğəmbər gəlir. Yetişdirdiyi tələbələrin keyfiyyəti və şəxsi əxlaq səviyyəsi bunu deməyə əsas verir. Onun bir müəllim kimi icra etdiyi təlim-tədris metodlarının bəzilərini belə sıralamaq mümkündür: həyat tərzi və əxlaqı ilə öyrətməsidir ki, buna nümunəvilik deyə bilərik. Tədrici (mərhələli) öyrətməsi, bezdirməməsi, fərdi keyfiyyətləri və şəxsi fərqlilikləri diqqətə alması, sual-cavab metodundan istifadə etməsi, məntiqi qaydalardan yararlanaraq izah etməsi, dialoq qurması, təmsil və müqayisə ilə öyrətməsi, torpaq üzərinə şəkil və sxemlər çəkərək öyrətməsi, bədən dilindən, jest və mimikalardan istifadə etməsi, soruşulan sualı zamanın nümunələri ilə aydınlaşdırması, təqdir etməsi, münasib vaxtı güdməsi, zarafat və lətifələrdən istifadə etməsi, əhəmiyyətli gördüyü məsələləri üç dəfə təkrarlaması, həmsöhbətinin əlini və yaxud çiynini tutması, öncə xülasəni, sonra isə təfərrüatı anlatması, təşviq edərək və yaxud çəkindirərək öyrətməsi, hekayələrdən istifadə etməsi, utanılacaq mövzulara mülayim girişlə başlaması, yeri gəldikdə ciddiləşməsi (ətraflı məlumat üçün bax: Əbu Ğuddə 2017, 63-184). Əlbəttə, bu metodların hər biri geniş izah ediləcək keyfiyyətdədir. Fəqət, mövzumuzun məzmununu nəzərə alaraq bunların izahına təmas etməyəcəyik.

a. Həzrət Peyğəmbərin istifadə etdiyi nümunəvilik metodu

Həzrət Peyğəmbərin ən mühüm və əsas təlim metodu – əmr etdiyini əvvəlcə özünün həyata keçirməsi idi. Bu xüsusiyyət, eyni zamanda, onun gətirdiyi dində doğru olduğunun ən böyük dəlilidir.

Din təhsilində təsirli söz söyləyib, gözəl nəticə əldə edə bilmək üçün hər şeydən əvvəl, nümunəvi xarakterə və şəxsiyyətə malik olmaq lazımdır. Yaşanmayan və nümunəvi davranışlarla göstərilməyən həqiqətlər düşüncədən əmələ keçmək imkanı qazana bilməz. Həyata keçirilməyən fikirlər kitab sətirləri arasında qalmağa məhkumdur (Topbaş, 2009, 37). Odur ki, din tədrisi ilə məşğul olan kəs öyrəndiklərini əvvəlcə öz həyatına tam şəkildə tətbiq etməlidir. Dediyi ilə etdikləri bir-birini tamamlamayan şəxsin insanları inandıra bilməsi mümkün görünmür. Həyatında təzad təşkil edənləri Həzrət Peyğəmbər bir hədisində belə izah edir: "Qiyamət günündə bir adam gətirilib cəhənnəmə atılacaqdır. Bağırsaqları qarnından bayıra çıxdığı halda dəyirman daşını fırladan uzunqulaq kimi fırlana-fırlana duracaqdır. Cəhənnəm əhli ona belə sual edəcəklər: "Ey filankəs, bu nə haldır? Sən bizə pis əməllərdən çəkindirib yaxşılıqları əmr etmirdin?!". O da "Bəli, sizə yaxşılığı əmr edir, lakin özüm etmirdim. Sizi pis əməllərdən çəkindirir, lakin özüm edirdim", – deyə cavab verəcəkdir (Buxari, 1987, IV, 147 (hədis no: 3267)).

Din təhsilində Həzrət Peyğəmbərin nümunə olması mübahisəsizdir. Rol-modelin nümunəviliyinin təsirli olması üçün rol-modelə, onun prinsiplərinə sədaqət əhəmiyyət kəsb edir (Yaşaroğlu, 2016, 100). O, bütün insanlar üçün rol-modeldir. Məsələn, Əmman məliyi əl-Cündi onun haqqında məlumat aldıqdan sonra təsirlənərək İslamı seçmişdir. O, müsəlman olduqdan sonra belə demişdir: "Allah mənə ümmi (oxuyub-yaza bilməyən) bir peyğəmbəri tanımağı nəsib etdi. O, heç bir yaxşılığı ilk dəfə özü tətbiq etmədən başqasına əmr etmir, hər pislikdən uzaq durur və insanlara nümunə olaraq həmin pisliklərdən çəkindirir. O, mütləq qalib gələcək, ona mane ola bilməyəcəklər. Mütləq qalib gələcək, ona mane oluna bilinməyəcək. Mütləq qalib gələcəkdir. O, əhdə vəfa göstərir, vədini yerinə yetirir. Mən qəti şəkildə qəbul edirəm ki, o, peyğəmbərdir" (İbn Həcər, 1328/1910, I, 262.) Deməli, Həzrət Peyğəmbər əmr etdikdə əvvəlcə özü onu yaşayıb nümunə olur, sonra isə möminlər də ondan gördüklərini tətbiq etməyə çalışırdılar. Misal üçün, bir məsciddə gördüyü pisliyi şəxsən özü təmizləmiş, sonra da

səhabəsinə bu məsələdə xəbərdarlıq etmişdir. Beləliklə, öyrətmək istədiyini əvvəlcə özü icra etmişdir.

Onun tələbələri qəbul edilən səhabələri hər bir hərəkətlərini və davranışlarını özlərinə nümunə götürmüşlər. Peyğəmbər kimi oturur, yeyir, yeriyir və s. Hər hərəkətini incəlikləri ilə izləyir və həyatlarına tətbiq edirdilər. Bu, həm səhabənin tələb olaraq diqqətli olduğunu göstərir, həm də müəllim kimi Həzrət Peyğəmbərin onlara necə bir rol-model olduğunu ortaya qoyur. Rəvayət edildiyinə görə, bir gün Rəsulullah səhabəsinə ayaqqabıları ilə namaz qıldırır. Sonra ayaqqabısını soyunub sol tərəfinə qoyur. Bunu görən səhabəsi də ayaqqabılarını soyunub, sol tərəfinə qoyur. Həzrət Peyğəmbər namazdan sonra onlardan niyə belə etdiklərini soruşur: Onlar da "Ey Allahın Elçisi! Sənin ayaqqabılarını çıxardığını gördüyümüzə görə biz də çıxartdıq". Həzrət Peyğəmbər onlara belə dedi: "Namaz əsnasında Cəbrayıl (ə) gəldi və mənə ayaqqabımın natəmiz olduğunu bildirdi. Mən də buna görə onları çıxartdım... (Əbu Davud, t.y. I, 175 (hədis no: 650)). Həzrət Peyğəmbərin səhabələri onu özlərinə o qədər nümunə götürüb həyatlarında təqlid etmişdilər ki, Allahın elçisi onları ulduzlara bənzətmiş, hər birinin hidayət yolunun bələdçisi olduğunu bildirmişdir.

Həzrət Peyğəmbərin vəzifələrindən biri də insanın xəlqedilmə məqsədi olan Allaha qulluğu (Qurani-Kərim, 51/56) müvafiq olaraq öyrətməkdir. Buna görə də qulluğun ən mükəmməl şəklini əvvəlcə özü icra etmiş, insanlara bu mənada əmsalsız nümunə olmuşdur. "Mən necə namaz qılıramsa, siz də elə namaz qılın" (Buxari, 1998, II, 43, (hədis no: 631)) təlimatı Həzrət Peyğəmbərin özünü nümunə götürməsini bildirən rəvayətdir. Gördüyümüz kimi, Həzrət Peyğəmbər namazı şifahi şəkildə öyrətməmişdir. Özü qılmış, tələbələrinə də nümunə olmuş, sonra da "Mənim kimi davranın", – söyləmişdir.

Din tədrisi ilə məşğul olan hər bir müəllim tələbələrinə dinin əmr və qadağalarını öyrədərkən mütləq özünün onu icra etməsi lazımdır. Əgər oruc tutmayan bir şəxs orucun əhəmiyyətini ən gözəl şəkildə izah edərsə, fəqət, özü Ramazan ayında yeyib-içərsə, onun dediklərinin təsiri sıfıra bərabər olar. Əxlaqi dəyərlər də eynilə bunun kimidir. Zərərli vərdişi olan bir müəllimin həmin adətlərdən çəkindirmə ilə əlaqəli tövsiyələri icra olunmayan nəsihətdən başqa bir şey deyildir.

Həzrət Peyğəmbərin nümunəviliyinin əhəmiyyətinə səhabənin onun həyat tərzini örnək götürməsi və davranışlarının kəlmələrdən daha təsirli olduğu ilə əlaqəli bir misal kimi, Hüdeybiyyə sülh müqaviləsi əsnasında yaşanan hadisəni göstərə bilərik. Belə ki, Məkkə fəth

edilməzdən əvvəl Həzrət Peyğəmbər Ümrə ziyarəti üçün səhabəsi ilə Mədinədən Məkkəyə yola çıxmışdı. Qərara görə, əgər qüreyşlilər mane olsalar, onlara savaş elan ediləcəkdi. Müşriklərlə aparılan uzun müzakirələrdən sonra sülh müqaviləsi bağlandı və Ümrə ziyarəti edilmədən Mədinəyə dönmə qərarı verildi. Fəqət bu, səhabələrə çox ağır gəldi. Həzrət Peyğəmbər ehramdan çıxılmasını, saçların və qurbanların kəsilməsini nə qədər əmr etsə də, heç kim buna əməl etmədi. Nəticədə, Həzrət Peyğəmbərin xanımı Ümmüsələmə dedi: "Ya Rəsulallah! Siz çıxın, saçınızı və qurbanınızı kəsin. Onlar da sizə tabe olacaqlar". Səhabə Peyğəmbərin saçını və qurbanını kəsdiyini görüncə dərhal ona tabe oldu, saçlarını və qurbanlarını kəsdilər" (Buxari, Ebvabul hisar 2). Bu, onların Həzrət Peyğəmbərin davranışlarına nə qədər bağlı olduqlarını göstərir. Deməli, bir işi edərək göstərmənin təsiri çox böyükdür. Həzrət Peyğəmbərin nümunəviliyi o qədər təsirli idi ki, bəzi müstəhəb fərdi şəkildə icra edirdi. Yəni əməlləri yerinə yetirərkən insanlar əziyyət çəkməsinlər, yaxud fərz olduğunu zənn etsinlər.

Həzrət Peyğəmbər bəzən pis nümunə olacaq mövzulara və şəxslərə diqqət çəkmiş, insanları pis nümunələrdən uzaqlaşdırmağa çalışmışdır. Mənfi nümunələr bəzən daha cazibədar olur. Ələlxüsus, dini məsələlərdə bu, daha da ön plana çıxır. Məsələn, Abdullah ibn Əmr ibn Əsə belə tövsiyə vermişdir: "Filankəs kimi olma. O gecə namazlarını nizamlı şəkildə qılırdı, fəqət sonra bunu tərgitdi" (Buxari, 1987, I, 387 (hədis no:1101)). Gördüyümüz kimi, Həzrət Peyğəmbər hər zaman müsbət nümunə olmağa çalışmış, mənfi nümunələrdən də insanları çəkindirmişdir. O, rol-model olmaq üçün müsbət keyfiyyətlərə malik olmağın əhəmiyyətinə diqqət çəkmişdir.

b. İslam mədəniyyətində nümunəvilik

Həzrət Peyğəmbər yanına gəlib İslamı qəbul edən şəxsləri öz vətənlərinə müəllim kimi geri göndərir və onların xalq arasında örnək həyat tərzləri ilə rol model olmasını istəyirdi. İslam tarixində fəth edilən bölgələrdə müsəlmanların göstərmiş olduqları nümunəvi davranışa görə İslamı seçən insanların sayı da diqqətçəkicidir.

Bədr döyüşündə əsir alınan və mədinəli uşaqlara oxuyub-yazmaq öyrətmələrinə hökm verilən qüreyşli əsirlərə uşaqları bir yerə toplayıb dərs demək əvəzinə, səhabələrin evlərinə göndərdilər. Beləliklə, həmin şəxslər müsəlmanların həyat tərzlərini görüb, onların nümunəvi həyatlarından təsirlənərək müsəlman oldular. Mədinənin ilk müəllimi sayılan

Musab ibn Ümeyrin qardaşı Əbu Əziz başına gələnləri belə rəvayət edir: “Bədr döyüşündə mən də əsir düşmüş, mədinəli bir qrupa təslim edilmişdim. Həzrət Peyğəmbər “Əsirlərlə gözəl rəftar edin”, – deyə əmr vermişdi. Onun bu əmrini yerinə yetirmək üçün yanlarında olduğum mədinəlilər səhər-axşam öz paylarına düşən yeməyi mənə verir, özləri xurma ilə kifayətlənirdilər. Mən isə həya edir və yeməyi onlardan birinə verirdim. O da heç toxunmadan yeməyi təkrar mənə qaytarırdı” (İbn Hişam, 1992, II,288). Bu davranışlar Əbu Əzizin imanına təsir etmiş və İslamla şərəflənməsinə təkan vermişdi. Həzrət Peyğəmbər belə edərək İslamın həyat tərzinin nümayiş olunmasını təmin etməyə çalışırdı. O bilirdi ki, İslam nə qədər gözəl və təsirli dillə anladılsa da, yaşananın, müşahidə edilənin yerini verməz. Günümüzdə də din tədrisi ilə məşğul olanlar tövsiyələri, ibadətləri tələbələrlə bərabər icra etməyə, onlara bu mövzularda nümunə olmağa çalışmalı, şəxsən tətbiq edərək başa salmalıdır. Əsl zehində qalacaq təhsil də, təsirli olacaq tədris də budur.

Nümunəviliyin əhəmiyyəti ilə əlaqəli ətbau-tabein nəslindən olan görkəmli alim Abdullah ibn Mübarəkin davranışı düşündürücüdür. O, pis xasiyyətli biri ilə səfərə çıxmışdı. Səyahət bitib ayrıldıqdan sonra Abdullah ibn Mübarək hönkürüb ağlamağa başlayır. Bu halına çaşıb-qalan dostları “Niyə ağlayırsan? Səni bu qədər kədərləndirən nədir?” – deyə soruşurlar. O da dərin bir ah çəkib, “Bu qədər yolçuluğa baxmayaraq, yanımdakı yoldaşımın mənfi davranışlarını düzəldə bilmədim. O biçarənin əxlaqını gözəlləşdirə bilmədim. Fikirləşirəm, görəsən, mənim hansı nöqsanıma görə ona faydalı ola bilməmişəm? Əgər o, məndə gördüyü xətaya əsasən, doğru yola gəlməyibsə, mənim halım necə olacaq?” – deyərək ağlamağa davam etdi (Arslan, 2021, 108). Deməli, insanlar bizdəki mənfi və müsbət xüsusiyyətlərdən birbaşa təsirlənirlər. İnsanlar görməklə öyrənməyə daha çox meyil edirlər. Hər bir din təlimçisi müsbət xüsusiyyətləri ilə təsirli olmağa çalışmalıdır. Müəllim elə bir əxlaq sahibi olmalıdır ki, hər bir tələbə onun dərsini gözləməli, onunla ünsiyyət qurmaq üçün fürsət axtarmalıdır. Onun geyimi, danışığı, hərəkətləri onun üçün nümunə olmalıdır. Xülasə, hal əhli, yəni danışığı ilə yaşantısı eyni olan insanlar daha çox təsirli olurlar.[26] İslam mütəfəkkiri Ziya Paşa “Aynası işdir kişinin lafa baxılmaz” ifadəsi ilə insanların davranışlarının kəlmələrindən daha təsirli olduğunu bildirmişdir.

[26] Burada nümunəvilik nöqteyi-nəzərdən səhv başa düşülən bir zərbi-məsəli də düzəltməyin doğru olacağını düşünürük. Belə ki, “Din adamının elədiyini yox, dediyini eyləyin” məsəli sanki din təlimçilərinin özü sözü bir olmayan biri imiş kimi başa

Nəticə

İnsan xilqət baxımından özündən hər hansı xüsusiyyətinə görə üstün, güclü, qabiliyyətli və nüfuzlu kimi qəbul etdiyi birini nümunə götürməyə meyillidir. Bu baxımdan uşaqların tərbiyəsində və təhsilində nümunə götürüləcək kimsələrin düzgün seçilməsi və tövsiyə edilməsi əhəmiyyət daşıyır. Bir mütəfəkkirdən "Uşaqlarımızı necə tərbiyə edək?" – deyə soruşurlar. O da: "Uşaqlarınızı tərbiyə etməyə ehtiyac yoxdur. Onsuz da onlar sizin kimi olacaqlar. Siz özünüzü tərbiyə etməyə çalışın", – deyə cavab vermişdir. Deməli, bizi təqlid edənlər bir müddət sonra bizim kimi olacaqlar. Odur ki, istər təhsil müəssisələrində, istərsə də müxtəlif dini mərkəzlərdə din tədrisi ilə məşğul olanlar müsbət və yaxud mənfi cəhətdən digər insanlara nümunədirlər. Özünün nümunə götürüldüyünün fərqində olan hər bir din təlimçisi bunun şüurunda olmalı, davranışlarını bu anlayışla şəkilləndirməli və sərgiləməlidir. Şəxsiyyət və xarakterlərini dini əxlaq və normalara uyğunlaşdırmağa səy göstərməlidirlər. Onların hər bir hərəkəti və davranışı insanları dinə cəlb etdiyi kimi, uzaqlaşdıra da bilər. Din təhsili təkcə bilgi deyil, eyni zamanda, dəyərlərin də aşılandığı sahədir. Bu baxımdan, tədris ilə məşğul olan müəllimlər rol-model olmasa, tələbələr başqa, yad mədəniyyətdə yetişmiş fikir adamlarını özlərinə nümunə seçəcəklər. Heç bir cəmiyyət özünün yad mədəniyyət təsirində qalmasını istəməz. Odur ki, milli-mənəvi dəyərləri aşılamada din təhsili əhəmiyyət kəsb etdiyi qədər, onu tədris edənlərin də xarakter baxımından sevilən və nümunə götürülən olması əhəmiyyətlidir.

Müasir dövrümüzdə gənclərin rol-model götürəcəkləri nüfuzlu şəxsiyyətlər olmasa, yad mədəniyyətin seçilmiş və yaxud təqdim edilmiş şəxsləri təqlid olunacaq, nümunə götürüləcək. Beləliklə, millilikdən kənarlaşmış, mədəniyyətimizə yad nəsil yetişmiş olacaqdır.

İslam dini nöqteyi-nəzərindən Həzrət Peyğəmbər ona inananlar üçün hərtərəfli nümunədir. O, bir əmr gətirmişdir. Buna, əvvəla, özü əməl etmişdir; bir şeydən çəkindirmişdirsə, bundan birinci olaraq özü

---

düşülür. Fəqət buradakı məqsəd din adamının həyat tərzi o qədər dini incəliklərlə yaşanır ki, sıravi bir dindar onun bu həyat tərzini nümunə götürüb mənimsəmədə çətinlik çəkər. Lakin həmin din təlimçisi insanların anlaya və yaşaya biləcəyi səviyyədə məlumatlar paylaşır. Onun kimi dini yaşamağa cəhd edilsə din çox çətin gələ bilər.

uzaq durmuşdur; nəsihət etmişdirsə, özü də bundan hissədar olmuşdur; qorxutmuşdursa, özü də ilk qorxan olmuşdur; ümidləndirmişdirsə, ümid edənlərin öndəri olmuşdur. Qurani-Kərim Peyğəmbərin bu xüsusiyyətini "üsveyi-həsənə" adlandırmışdır. Buna görə də din təhsili ilə məşğul olanlar üçün Həzrət Peyğəmbərin istifadə etdiyi tədris metodları örnəkdir. Həmçinin onun səhabəsinə nümunə olaraq müəllimlik etməsi də hər bir müəllim üçün prioritetdir. Din təhsili ilə məşğul olanlar ibadət, əxlaq və müamilə ilə əlaqəli cəhətlərdə həmişə Həzrət Peyğəmbəri özlərinə nümunə götürməyə çalışmışlar. Onun tədris metodlarından ən əhəmiyyətlisi və təsirlisi davranışları ilə nümunə olması, yaşayaraq öyrətməsi idi. O, öz tədris metodlarını sevgi kökü üzərində qurmuşdur. Odur ki, pedaqogika sahəsində Həzrət Peyğəmbərin tədris metodları hər dövrdə və cəmiyyətdə nümunə olacaq keyfiyyətə və müasirliyə malikdir. Bu metodların öyrənilməsinin, müasirləşdirilərək öyrədilməsinin təlim-tədrisdə keyfiyyəti artıracaq özəllik daşıdığını düşünürük.

Yaşayaraq və nümunə olaraq tədrisetmənin ən böyük faydası öyrədilən cəhətlərin nəzəriyyədə, sətirlərdə, dodaqlarda qalmamasıdır. Ələlxüsus, din tədrisində öyrədən qətiyyətlə nəzəriyyə ilə kifayətlənməməlidir. İslamın gözəlliyini əməli surətdə göstərməlidir. Bu baxımdan, din tədrisi ilə məşğul olanların şəxsiyyət və xarakterlərinin nümunəviləşdirilməsi üçün vaxtaşırı müəyyən təlim, seminar və proqramların keçilməsinə xüsusi diqqət və qayğı göstərilməlidir.

Ədəbiyyat

Adler. A. (1983). *Kişilik Bozuklulkarı ve Toplumsal Bütünleşme.* tərcümə edən Belkis Çorakçı. (422 s.)

Arslan. M.L. (2021), *Mərifət məclisləri*. Bakı İpəkyolu nəşriyyat. (423 s.)

Aydın. M. (2000), *İnsanı-kamil*, İstanbul, DİA. XXII.

Buxari. (1987), *Səhih əl-Buxari*, Qahirə (I-IX).

Cebeci. S. (2003), *Öğrenme ve Öğretme Süreclerinde Dini İletişim,* İz yayıncılık İstanbul.(318 s.)

Comenius. J. (1964), *Büyük Didaktika,* Ankara Milli Eğitim Basımevi. (304 s.)

Çağlayan. B. (2022), *Öğretmenler için Beden Dili,* Ankara Elma yayınları, (s.176)

Çelik. Ö. (2013), *Hakk'ın daveti Kur'an-ı Kerim -meali ve tefsiri*. İstanbul Erkam yayınları (I-V).

Əbu Davud. (tarixsiz) *Sünəni-Əbi Davud*, Beyrut Məktəbə əl-əsriyyə. (I-IV).

Əbu Ğuddə. (2017) *Bir Eğitimici Olarak Hz. Muhammed (sas) ve öğretim metodları.* (tərcümə edən, Enbiya Yıldırım) OTTO yayınları.(193 s).

Fidan, Nurəddin, (1986), *Okulda Öğrenme ve Öğretme,* Alkım yayınevi. (224 s.)

Gözütok, Ş, (2016), *İslamda Karakter Eğitiminde Rol Model,* Uluslararası Kişilik ve Karakter İnşasında Dinin Yeri Sempozyumu II, Ordu. (s. 71-79)

İbn Həcər, (tarixsiz), *əl-İsabə fi təmyiz əs-Səhabə,* Dəru İhyait-turasil-Ərəbi, Beyrut. (589 s.)

İbn Hişam, (1992), *"əs-Sirə ən-Nəbəviyyə"* Beyrut. (I-IV)

İbn Macə, (1998), *Sünəni-İbn Macə,* (I-V).

Qərafi. Ş. (1928), *əl-Furuq*, Qahirə (I-IV).

Müslim, (1956), *Səhihi-Müslim*, Beyrut (I-V).

Münavi, (1938), *Feyz əl-Qadir*, Beyrut (I-VI).

Öcal. M. (1991), *Din Eğitimi ve Öğretiminde Metodlar*. Ankara Türkiye Diyanet Vakfı yayınları. (404 s.)

Süyuti, C, (t.y.), *əl-Cami əs-Səğir min əhadis əl-bəşir ən-nəzir.* (I-II)

Topçu, N. (2021). *Türkiyenin Maarif Davası.* İstanbul, Dergah yayınları. (212 s.).

Topbaş. O. (2009). *Fəzilətlər Mədəniyyəti,* Bakı ipəkyolu nərşiyyatı (I-II).

Yaşaroğlu, Hasan, (2016), *Rol model ve rol modele sadakat bağlamında bir Ebu Zer el-Gifari portiresi,* Uluslararası Kişilik ve Karakter İnşasında Dinin Yeri Sempozyumu II. Ordu, (s.99-107)

Yazır. E. (1962) *Hak Dini Kuran Dili.* İstanbul Nebioğlu yayınları, (I-IX)

https://www.kuranvemeali.com/fussilet-suresi/33-ayeti-tefsiri.(19.09.2024)

Azərbaycanda Ərəb dili tədrisinin dini təhsildəki yeri və mövcud problemlər

f.f.d. Ələddin Sultanov,
AMEA Şəki Regional Elmi Mərkəzi
Tarix, arxeologiya və epiqrafika şöbəsinin böyük elmi işçisi
Şəki, Azərbaycan
aladdin_sultanov@yahoo.com
https://orcid.org/0000-0002-2267-7640

Xülasə

Müsəlman aləminin müqəddəs kitabı Qurani-Kərimin nazil olduğu ərəb dili müsəlman dünyasında dini təhsil və İslam elmlərinin tədrisində mühüm yer tutur. Dini elmlərin tədqiqi və İslam mədəniyyətinə məxsus mənbələrə müraciət etmək üçün ərəb dilini dərindən bilmək zəruridir. Qiraət, hədis, təfsir, fiqh və kəlam kimi dini elmlərə aid mənbələrin əksəriyyəti məhz ərəb dilindədir. Buna görə də tarixboyu dini təhsil verən müəssisələrdə bu dilin öyrədilməsi əsas məsələlərdən biri olmuşdur. Azərbaycanda ərəb dilinin tədrisi uzun tarixə malikdir. Həmçinin günümüzdə də bir çox təhsil müəssisələrində bu dil tədris olunmaqdadır. Tədqiqatımızın əsas məqsədi Azərbaycanda, xüsusilə dini təhsil verən müəssisələrdə ərəb dili tədrisinin metodologiyasına nəzər salmaq, qarşıya çıxan problemlərin həll yollarını tapmaqdır.

Orta əsrlərdə Azərbaycanda ərəb dili, xüsusilə islami mədrəsələrdə ənənəvi şəkildə tədris olunmuşdur. Sovet hakimiyyətinin qurulmasından sonra bu tədris dayandırılmış, hakimiyyətin istədiyi konseptdə şərqşünaslıq fəaliyyətinə xidmət edəcək müstəvidə orta və ali məktəblərdə ərəb dili tədrisi onun yerini almışdır. Müstəqillikdən sonra isə ali məktəblərlə yanaşı, yenicə fəaliyyətə başlayan dini tədris müəssisələrində ərəb dili tədrisi başlanmışdır. Bununla yanaşı, həmin müəssisələrdə "Ərəb dilinin tədrisi hansı formada aparılsa, daha effektiv olar?" sualı qarşımıza çıxır. Xüsusilə İslam kolleclərində ərəb dilinin tədrisində qarşıya çıxan problemləri öyrənmək üçün həmin müəssisələrin tələbələri arasında anket keçirilmiş, bunun nəticələri məqalədə öz əksinin tapmışdır. Qənaətimizcə, bu tipli müəssisələrdə ərəb dilinin tədrisində, ərəb ədəbiyyatı və müasir ərəb dilinin tədrisinin əksinə olaraq, islami mənbələrin öyrənilməsini və anlaşılmasını prioritetləşdirən tədris metodları tətbiq olunmalıdır.

Açar sözlər: *Azərbaycan, İslam, dini təhsil, ərəb dili, İslam Kolleci.*

The Place of Arabic Language Teaching in Religious Education and Current Problems in Azerbaijan

Assist. Prof. Aladdin Sultanov
ANAS Sheki Regional Scientific Center
Senior researcher of the Department of History,
Archeology and Epigraphy
Sheki, Azerbaijan
aladdin_sultanov@yahoo.com
https://orcid.org/0000-0002-2267-7640

Abstract

Arabic, the language of the holy book of the Muslim world, the Holy Quran, occupies an important place in the teaching of religious education and Islamic sciences in the Islamic world. In order to study religious sciences and refer to the sources of Islamic culture, it is necessary to have a deep knowledge of the Arabic language. Most of the sources related to religious sciences such as recitation, hadith, tafsir, fiqh and kalam are in Arabic. Therefore, throughout history, teaching this language has been one of the most important issues in institutions providing religious education. Arabic language teaching in Azerbaijan has a long history. Also, this language is taught in many educational institutions today. The main goal of our research is to look at the methodology of Arabic language teaching in Azerbaijan, especially in institutions providing religious education, and to find solutions to the encountered problems.

In the Middle Ages, the Arabic language was taught traditionally in Azerbaijan, especially in Islamic madrasas. After the establishment of Soviet power in Azerbaijan, this teaching was stopped, and Arabic language teaching in secondary and higher schools took its place at the level that would serve the activity of oriental studies in the concept desired by the Soviet power. After independence, teaching of Arabic language was started in newly established religious educational institutions along with higher schools in Azerbaijan. At the same time, the question arises as to which form of Arabic language teaching will be more effective in those institutions. In order to find out the problems encountered in the teaching of the Arabic language, especially in Islamic colleges, a questionnaire was conducted among the students of those colleges, and the results of this were reflected in the article. In

our opinion, teaching methods that prioritize the study and understanding of Islamic sources should be applied in the teaching of the Arabic language in such institutions, as opposed to the teaching of Arabic literature and the modern Arabic language.

Keywords: *Azerbaijan, Islam, religious education, Arabic language, Islamic college.*

Место преподавания арабского языка в религиозном образовании и текущие проблемы в Азербайджане

д.ф.ф. Аладдин Султанов
Шекинский региональный научный центр НАНА
Старший научный сотрудник отдела истории,
археологии и эпиграфики
Шеки, Азербайджан
aladdin_sultanov@yahoo.com
https://orcid.org/0000-0002-2267-7640

Резюме

Арабский язык, язык священной книги мусульманского мира, Священного Корана, занимает важное место в преподавании религиозного образования и исламских наук в исламском мире. Для изучения религиозных наук и обращения к истокам исламской культуры необходимо глубокое знание арабского языка. Большинство источников, связанных с религиозными науками, такими как декламация, хадисы, тафсир, фикх и калам, написаны на арабском языке. Поэтому на протяжении всей истории преподавание этого языка было одним из важнейших вопросов в учреждениях, предоставляющих религиозное образование. Преподавание арабского языка в Азербайджане имеет давнюю историю. Также этот язык сегодня преподается во многих учебных заведениях. Основная цель нашего исследования – рассмотреть методику преподавания арабского языка в Азербайджане, особенно в учреждениях религиозного образования, и найти решения возникших проблем.

В средние века в Азербайджане традиционно преподавали арабский язык, особенно в исламских медресе. После установления Советской власти в Азербайджане это преподавание было

прекращено, а преподавание арабского языка в средних и высших школах заняло место на том уровне, который бы служил деятельности востоковедения в желаемой Советской властью концепции. После обретения независимости в Азербайджане наряду с высшими школами началось преподавание арабского языка во вновь созданных религиозных учебных заведениях. В то же время возникает вопрос, какая форма преподавания арабского языка будет более эффективной в этих учреждениях. С целью выяснения проблем, возникающих при преподавании арабского языка, особенно в исламских колледжах, среди студентов этих колледжей был проведен опрос, результаты которого отражены в статье. По нашему мнению, при преподавании арабского языка в таких учреждениях следует применять методы обучения, которые отдают приоритет изучению и пониманию исламских источников, а не преподаванию арабской литературы и современного арабского языка.

Ключевые слова: *Азербайджан, ислам, религиозное образование, арабский язык, исламский колледж.*

Giriş

İslam dininin müqəddəs kitabı Qurani-Kərim, *“Allahdan qorxsunlar deyə, ərəb dilində qüsursuz bir Quran nazil etdik”* (Quran 39:28), – ayəsində də ifadə edildiyi kimi, ərəb dilində nazil olmuşdur. Quranın ilk müxatəbi olan Məhəmməd peyğəmbər və onun yaşadığı ərəb cəmiyyəti bunun ən önəmli səbəbi olaraq görülə bilər Digər tərəfdən, İslamın ikinci əsas mənbəyi olan hədislər, təbii ki, ərəb dilindədir və onların yer aldığı bütün mənbələr də həmin dildədir. İslami elmlərin inkişafı mərhələsində də ərəb dili yenə öz sözünü demişdir. Belə ki, İslamın yayılmasında və İslam elmlərinin təkmilləşməsində ərəbəsilli müsəlmanlarla yanaşı, mühüm rol oynayan məvalilər belə, əsərlərini məhz ərəb dilində qələmə almışlar. Belə ki, qiraət, hədis, təfsir, fiqh kimi təməl islami elmlərdə yazılmış əsərlər ərəbcədir. Ərəb dilini bilmək dini mənbələrə müraciət etmək üçün şərtdir. Bu səbəbdən, ərəb dili İslam mədəniyyətinin və dini elmlərin ayrılmaz bir parçası halına gəlmişdir. İslamda ibadətlərin əksəriyyəti də bu dildə əda edilir. Müsəlmanların din və ibadəti də ərəb dilindədir. Nəticə etibarilə, ərəb dilinin bəlağətini və fəsahətini özündə ehtiva edən Qurani-Kərim ərəb dilinin inkişafına

təkan vermiş, İslam dininin rəsmi dili olmasına vəsilə olmuşdur. Bu təsbitlərin nəticəsi olaraq deyə bilərik ki, ərəb dili islami elmlərin tədrisində mühüm yer tutur.

1. Dini tədrisdə ərəb dilinin yeri

Ərəb dili təkcə bu dili ana dili kimi istifadə edən insanların dili deyil, eyni zamanda, dünyada yaşayan milyonlarla müsəlmanın maddi-mənəvi cəhətdən əlaqədə olduğu bir vasitədir. Zaman keçdikcə, Qurani-Kərimin və hədislərin daha yaxşı başa düşülməsi kontekstində ərəb dilinin öyrənilməsi müsəlman coğrafiyasının ümumi qayğısına çevrilmiş, bu məqsədlə müxtəlif tədqiqatlar aparılmışdır. İslam coğrafiyasında bu gün də ərəb dilinin tədrisinə əhəmiyyət verilir, bu dilin daha asan və sürətli öyrənilməsi üçün xüsusi tədris metodları tətbiq edilir, təkmilləşdirilir. Əslində, tarixə nəzər saldıqda görərik ki, ərəb dilinin inkişafında əməyi olan alimlər ərəb olmasalar da, ərəbmənşəli dilçilərdən heç də az rol oynamayıblar. Bunun səbəblərindən biri də Qurani-Kərim və hədis topluları kimi dini mənbələrin əksəriyyətinin ərəb dilində olmasıdır (Öncü 2020, 56-57). İraqlı filoloq Məhəmməd Rauf əl-Qulami (v. 1968) qeyd edir ki, əgər Allahın Məhəmməd peyğəmbərə göndərdiyi ərəb ədəbi dilində yazılmış Qurani-Kərim olmasaydı, bu dil məhv olub gedər və yalnız kitablarda qalardı (Eyvazova 2019, 35). İslam sivilizasiyasını formalaşdıran ictimai-mədəni ünsürlərin və dini mənbələrin ərəb dilində yazılması İslam sivilizasiyasını anlamaq və yaşatmaq üçün bu dili öyrənməyi zəruri edir. Unudulmamalıdır ki, İslam elmlərinin tədqiqatçısı üçün ərəb dilini öyrənmədən dini mənbələrə müraciət etmək çətin olacaqdır. Böyük İslam mütəfəkkiri İbn Xəlduna (v. 1406) görə, şəriət əhlinin ərəb dilini bilməsi vacibdir. Dini hökmlərin mənbəyi Kitab və sünnədir. Onlar da ərəb dilində yazılmışdır. Bunları rəvayət edən səhabələr, əlbəttə ki, ərəblərdir. Fəqih olmaq istəyən hər kəs ərəb dilinin fiqhlə bağlı hissələrini bilməlidir (Fettahoğlu 2014, 59). Bu baxımdan, ərəb dilinin tədrisi dini təhsilin əvəzolunmaz hissəsidir (Öncü 2020, 59).

Məlum olduğu kimi, hələ İslamın ilk əsrində fəth edilən Azərbaycanda ərəb dili bu fəthlərdən və ərəb qəbilələrinin Vətənimizin ərazilərinə köçürülməsindən sonra yayılmağa və tədris edilməyə başlanmışdır. Azərbaycan VIII əsrin 30-cu illərində başdan-başa Ərəb xilafətinin tərkibinə qatılmışdı. Beləcə, ərəb dili Azərbaycanın əqli-mədəni həyatına tədricən daxil olmuşdur. Azərbaycanda anadan olan və ilk təhsillərini burada alan ilk ərəbdilli alimlərə IX əsrdə təsadüf olunur. Bu

əsrdən etibarən, Ərdəbil, Marağa, Şamaxı və digər şəhərlər təhsil ocaqları, kitabxanaları, məscidləri olan mədəniyyət mərkəzlərinə çevrilmişdi (Eyvazova 2019, 22). Orta əsrlərdə bütün müsəlman Şərqində elm və mədəniyyət sahəsində qiymətli elmi və ədəbi əsərlərin əksəriyyəti ərəb dilində yazılırdı. Azərbaycana köç etmiş ərəb qəbilələrinin nümayəndələri yerli əhali arasında ərəb dilinin və bəzi hallarda isə ərəb kitab mədəniyyətinin yayılmasına kömək edirdilər (Eyvazova 2019, 23). Bundansonrakı dövrlərdə də Azərbaycanda ərəb dilinin Qurani-Kərim dili kimi yaşamaqda və öyrənilməkdə davam etdiyinin şahidi oluruq (Eyvazova 2019, 27). Azərbaycanda orta əsrlərdə mədrəsələrdə tədrisin dili, ümumiyyətlə, ərəb dilində olmuşdur. Dərslik və ədəbiyyatın əksəriyyəti bu dildə idi. Bu dil hər şeydən əvvəl müqəddəs kəlamın – Qurani-Kərimin dili olduğu üçün bölgədə onun öyrənilməsinə xüsusi diqqət yetirilirdi (Niyazov 2016, 151). Müsəlman aləmində olduğu kimi, burada da ərəb dili, demək olar, tədrisin və bütün elmlərin başlanğıcı hesab edilmiş, qrammatikasının iki sahəsi – morfologiya (sərf) və sintaksis (nəhv) dərindən tədris olunmuşdur. Belə ki, mədrəsələrdə ən çox istifadə edilən, üzü köçürülən və oxunan kitablar sərf və nəhv əsərləri olmuşdur. Bu sahədə oxudulan müxtəlif kitablarla yanaşı, Səiduddin Sədullah əl-Bərdəi kimi ölkə daxilində tanınmış üləmanın qələmə aldığı kitablar da tədris edilmişdir (Niyazov 2016, 151). Ərəb dilinə aşinalıq xalqın əksər təbəqəsində yüksək olmuşdur və hətta məktublaşmalarda belə yazışmalar bu dildə aparılır, onları təsdiqləyən möhürlərə ərəbcə ifadələr həkk edilirdi (Niyazov 2016, 153).

Sovet Azərbaycanında XX əsrdə ərəb dilinin tədirisi ilə bağlı böyük işlər görülmüşdür. Bu sahədə çox işlər görmüş və bir çox dərslik hazırlamış Ələsgər Məmmədovun (v. 2000) əməyi əvəzolunmazdır. Onu da qeyd etməliyik ki, Ələsgər Məmmədovun hazırladığı orta və ali məktəb dərslikləri daha çox danışıq ərəbcəsi və şərqşünaslıq sahələrinə yönəlik olmuşdur. Ələsgər Məmmədov təkbaşına böyük dilçilik institutunun gördüyü işi yerinə yetirmiş, Azərbaycanda ərəb dili tədrisinin müəssisi və fədakar bayraqdarı olmuşdur (Məmmədov 2014, VIII). Bütün həyatını bu fənnin, bu elm sahəsinin inkişafına yönəltmiş Ələsgər Məmmədov 30-dan artıq dərsliyin müəllifi olmaqla yanaşı, ayrı-ayrı danışıq kitabçaları, dərs vəsaitləri də hazırlamışdır.

Digər tərəfdən, ölkəmizdə müstəqilliyin bərpasından sonra, bir çox dini təhsil verən müəssisələr fəaliyyətə başlamış, islami elmlərin tədrisində ərəb dili də mühim yer tutmuşdur. Bu müəssisələrdə ərəb dilinin

öyrədilməsi üçün Ə. Məmmədovun dərslikləri ilə yanaşı, bir sıra ərəb ölkələrində hazırlanmış vəsaitlərdən də istifadə edilmişdir.

2. Ərəb dili tədrisində mövcud problemlər

Dil tədrisində mövcud problemlərin müəyyənləşdirilməsi və həlli yolları üçün icra edilən tədqiqatların nəticələrini lazımi şəkildə dəyərləndirən, bu yöndə tədbirlər görən təhsil müəssisələri bu problemləri aradan qaldırmağa nail olublar (Altıntaş 2024, 410). Tələbələrin dil səviyyələrini müəyyən etmədən dərslərin keçirilməsi müəllimlərlə bağlı əsas problemlərdən biridir. Dil tədrisində müvəffəqiyyət tələbəni kifayət qədər yaxşı tanımaqdan keçir. Din təhsili verən müəssisələrə gələn tələbələrin təhsil səviyyələri fərqli-fərqli ola bilər. Bu səbəbdən, ilk növbədə, tələbələrin ərəb dili səviyyələri müəyyən edilməli, daha sonra tədris prosesi planlaşdırılmalıdır. Bunun təcrübəli müəllimlər tərəfindən aparılması isə son dərəcə vacibdir (Altıntaş 2024, 415). Ərəb dilini sırf qrammatik məsələlərə əsaslanaraq əzbər və klassik qiraətlə öyrətməyə çalışmaq tələbələrdə ərəb dilinə qarşı qərəzli yanaşmanın formalaşmasına, onların ərəb dili dərslərindən uzaqlaşmasına, sıxılmasına və nifrət etməsinə səbəb ola bilər (Altıntaş 2024, 417). Bu vəziyyətin qarşısını almaq üçün tələbələrin səviyyələri nəzərə alınmalı, onların dil dərsinə qarşı mənfi münasibətlərinin aradan qaldırılması üçün tədbirlər görülməlidir, infrastruktur çatışmazlıqları öyrənilmiş çarəsizliyə səbəb olmamalıdır (Altıntaş 2024, 421).

Tələbələrin ərəb dilini öyrənmək həvəslərini artıran mühüm amillərdən biri də tədris prosesində istifadə olunan fərqli metodlardır. Buna nümunə olaraq, əlavə danışıq dərsləri keçirilməsi, ərəb dili laboratoriyasının təşkili və buradan səmərəli istifadə olunması göstərilə bilər. Öyrəndiyi dildə danışmağa başladığını görən tələbə həmin dili öyrənmək üçün daha çox motivasiyalı olur.

Təhsil müəssisələrindən qaynaqlanan problemlərdən biri isə sinifdəki tələbələrin say çoxluğudur. Ərəb dili dərslərində sinifdəki tələbələrin sayının həddindən çox olması bu dili öyrənməyi çətinləşdirə bilər. Bu səbəbdən, ərəb dili dərslərində hər sinifdə 10-15 tələbənin olması daha məqsədəuyğundur. Eyni zamanda, ərəb dili dərslərində sinfin dil səviyyəsindən asılı olaraq iki hissəyə bölünməsi də faydalı hesab edilər. Daha əvvəl Quran kurslarında, məscid və mədrəsə kimi dini təhsil verən müəssisələrdə ərəb dilini müəyyən səviyyədə öyrənmiş tələbələrlə digər tələbələr arasında səviyyə fərqi ortaya çıxır, bu da öz növbəsində, ərəb dili dərslərində çətinlik yarada bilər.

Ərəb dilinin tədrisində qarşılaşdığımız problemlərdən biri də bəzi tələbələrin Azərbaycan dili qrammatikasını yaxşı bilməməsindən qaynaqlanır. Belə ki, öz ana dilindəki qrammatika qaydalarını mənimsəməmiş bir tələbə müqayisəli şəkildə ərəb dilinin müəyyən qaydalarını öyrənməkdə çətinlik çəkir. Buna görə tədris prosesində, ilk növbədə, Azərbaycan dilinin qrammatikasındakı müvafiq qaydaların izah olunması və bunun üçün tədbir görülməsi lazımdır. Digər tərəfdən, hər bir dil qaydası tədris olunarkən həmin mövzu ilə əlaqəli ayə və ya hədislərin nümunə kimi verilməsi tələbələr üçün daha çox həvəsləndirici və maarifləndirici rol oynaya bilər. Ərəb dili dərslərində tələbələrin Quran ayələrinin və hədislərin yer aldığı mətnləri tərcümə edə bildiklərini görmələri onların motivasiyasını daha çox artırar.

3. İslam kolleclərində ərəb dilinin tədris vəziyyəti

Qeyd edək ki, hazırda Respublikamızda Azərbaycan İlahiyyat İnstitutu, Bakı İlahiyyat Kolleci, Şəki İslam Kolleci, Zaqatala İslam Kolleci, Əliabad İslam Kolleci və "Şəbnəm" İslam Kollecində dini təhsillə yanaşı, Ərəb dili fənni də tədris edilir. Məqaləmizdə tədris proqramlarının paralelliyi nəzərə alınaraq, xüsusilə Şəki İslam Kolleci, Zaqatala İslam Kolleci və Əliabad İslam Kolleci tədqiqata cəlb olunmuşdur. Üçillik təhsil verən bu kolleclərdə hər semestrdə 90 saatlıq kredit olmaqla, 6 semestr müddətində Ərəb dili fənni tədris olunur. Kolleclərdə ərəb dili dərslərində əsas dərslik kimi Əbdürrəhim Vaniyambadinin "Dürusüllüğətil-ərəbiyyə liğeyrin-natiqinə biha (1-2-3)" kitabından istifadə olunur. Bu dərsliyin əsas xüsusiyyəti odur ki, sərf və nəhv qaydaları ayrı-ayrılıqda deyil, mətn və tapşırıqlarla birlikdə məzc edilərək təqdim olunur. Eyni zamanda, kitabın bəzi mətn və tapşırıqlarında Quran ayələri və hədislərə də yer verilir ki (Vaniyambadi h.1418, III, 30), bu da tələbələrin ərəb dili dərslərinə qarşı rəğbətlərinin artmasına, dini mətnləri anlamaq vərdişləri qazanmalarına səbəb ola bilər. Dini təhsilin bir hissəsi kimi, ərəb dilinin tədrisi ilə bağlı problemləri müəyyənləşdirmək məqsədilə tədqiqatımızın bir hissəsi kimi, lokal səviyyədə bir anket keçirilmiş və burada Zaqatala İslam Kolleci,

Əliabad İslam Kolleci və Şəki İslam Kollecinin III kurs tələbələri olmaqla, ümumilikdə, 70 nəfər iştirak etmişdir. Həmin anketin nəticələri aşağıdakı cədvəldə əks olunmuşdur:

№	Respondentlərə verilən suallar	Bəli	Xeyr
1.	Ərəb dilini sevirsinizmi?	90%	10%
2.	Bütün kurslarda Ərəb dili dərsi tədris olunmalıdırmı?	82%	18%
3.	Oxuduğunuz tədris müəssisəsində kifayət dərəcədə ərəb dilinin öyrədildiyi fikrindəsinizmi?	72%	28%
4.	Ərəb dili dərslərində mətn tərcümələrinin daha çox olmasını istərdinizmi?	81%	19
5.	Ərəb dili dərslərində ayə və hədis tərcümələrinə daha çox yer verilməsini istərdinizmi?	84%	16%
6.	Öyrəndiyiniz ərəb dili sayəsində Qurani-Kərimi başa düşürsünüzmü?	55%	45%
7.	Öyrəndiyiniz ərəb dili sayəsində hədisləri başa düşürsünüzmü?	51%	49%
8.	Ərəb dilini bilməyiniz digər islami elmləri öyrənməkdə sizə köməklik edirmi?	74%	26%
9.	Ərəb dili dərs saatlarının miqdarı sizə görə kifayətdirmi?	68%	32
10.	Sinifdə tələbələrin say çoxluğunun ərəb dilini öyrənməyinizə mənfi təsiri varmı?	24%	76%
11.	Sizə görə ərəb dilini öyrənmək çətindirmi?	37%	63%
12.	Sizə görə din təhsili alan bir şəxs ərəb dilini bilməlidirmi?	87%	13%
13.	Dərsdənkənar ərəb dili məşğələlərinin olmasını istəyirsinizmi?	65%	35%
14.	Ərəb dili öyrənmək üçün sosial mediadan (internet və s.) istifadə edirsinizmi?	51%	49%
15.	Sizə görə, ərəb dilində danışıq dərsləri olmalıdırmı?	87%	13%
16.	Ərəb dili müəlliminin dərskeçmə metodu sizi qane edirmi?	97%	3%
17.	Ərəb dilinə aid dərs kitabları sizi qane edirmi?	78%	22%

Anket iştirakçılarından, ərəb dili dərsləri ilə bağlı təklifləri varsa, bunları qeyd etmələri istənildi. Ərəb dilinin tədrisi ilə bağlı ən çox qeyd olunan təkliflər bunlardır:

- ərəb dilində danışıq qabiliyyətinin inkişafı üçün əlavə məşğələlər təşkil olunsun;
- dərsliklərdə ərəbcə mətnlərin tərcümələrinə yer verilsin;
- ərəb dili dərs saatlarının miqdarı artırılsın;
- əlavə məşğələ dərslərində əvvəlki dərslərin təkrarlanması təşkil olunsun;
- ərəb dili üzrə tələbələrarası müsabiqələr təşkil olunsun.

Nəticə

Nəticə etibarilə qeyd olunmalıdır ki, ərəb dilinin tədrisi dini tədrisin ayrılmaz hissəsidir və bu fənnin tədrisi xüsusi diqqət və qayğı tələb edir. Ərəb dili dərsliklərində Quran ayələri və hədislərin yer alması, yaxud dərs prosesində dini mətnlərin işlənməsi tələbələrin ərəb dilini, dini bilikləri mənimsəmələrinə müsbət təsir edə bilər. Bu yanaşma tələbələrin qrammatik qaydaları öyrənmələrinə, praktiki şəkildə dildən istifadə etmələrinə, mənəvi dəyərləri mənimsəmələrinə və dini mətnlərdəki dərin mənaları anlamalarına kömək edər. Ərəbcə danışıq dərsləri, əlavə məşğələlər və internet resurslarından səmərəli istifadə üçün şəraitin yaradılması, dil kabinetlərinin təşkil olunması kimi fəaliyyətlər ərəb dilinin tələbələr tərəfindən daha yaxşı mənimsənilməsinə köməklik göstərə bilər.

Ərəb dilinin tədrisindəki problemləri aşkarlamaq məqsədilə İslam kolleclərində keçirilən anketi cavablandıran respondentlərin 87 faizi "ərəb dilində danışıq" mahiyyətində bir fənnin tədris edilməsini istəyir və bir çoxları anketin "təkliflər" qismində bu istəyini təkidlə vurğulayırlar. Bunun səbəblərindən biri bu ola bilər ki, dini müəssisələrdən məzun olanlar üçün öz ixtisasları üzrə kifayət qədər vakant iş yeri mövcud deyildir. Bu səbəbdən, həmin tələbələr digər sahələrə yönəlmək niyyətində olurlar. Ölkəmizdə, xüsusilə ərəb ölkələri ilə turizm sahəsində sıx əlaqələrin mövcud olması səbəbindən tələbələrin bir qisminin turizm sektorunu potensial iş sahəsi olaraq görmələri mümkündür. Buna görə də onlar arasında "ərəb dilində danışıq" dərslərinə rəğbət daha çoxdur.

Ədəbiyyat

Altıntaş, M.E. (2024). İlahiyat fakültelerında arapça öğretiminde karşılaşılan sorunlar: Bir meta-sentez çalışması. Ankara: Eskiyeni, sayı: 52. (29 s.).

Eyvazova, K. (2019). XX əsrdə azərbaycanda ərəb dilçiliyi. Bakı: Papirus np. (204 s.)

Fettahoğlu, S. (2014). Din eğitimi'nde ve dini ilimlerin tahsilinde arapça'nın rolü ve yeri: Uluslararası islami ilimlerin teşekkülü ve islami ilimler arası ilişkiler" sempozyumu bildiriler kitabı. Gümüşhane Üniversitesi yayınları. Gümüşhane. (11 s.)

Məmmədov, Ə. Ə. (2014). Ərəb dili. Bakı: Zərdabi LTD MMC. (692 s.)

Niyazov, Ə. (2016). XIX əsr Azərbaycanın şimal-qərbində (Qanıx-Həftəran vadisi) dini həyat, elm və mədrəsələr. Bakı: Nurlar NPM. (328 s.)

Öncü, M. (2020). Yüksek din öğretiminde arapça öğretimi sorunsalı: Dicle üniversitesi ilahiyat fakültesi örneği. Dicle: İlahiyat fakültesi dergisi 25:2 (27 s.).

Vaniyambadi, Ə. (h. 1418). Dürusül-lüğətil-ərəbiyyə liğeyrin-natiqinə biha III. Mədinə: Məktəbətül-məlik Fəhd əl-vətəniyyə. (149 s.)

“Dinlər tarixi” fənninin tədrisinin müasir təhsil sistemindəki yeri və prinsipləri

f.f.d. Aliyə Mürsəlova,
Azərbaycan İlahiyyat İnstitutu,
Dinşünaslıq kafedrasının müəllimi
Bakı, Azərbaycan
aliyatagiyeva@yahoo.com
https://orcid.org/0000-0001-7806-8353

Xülasə

Mövzunun aktuallığı bundan ibarətdir ki, məqalədə haqqında söhbət açılan məqamlar müxtəlif konfessiyalı ölkələrdə mədəniyyətlərarası dialoq problemindən və dövlət-din strukturlarının təhsil sferasında qarşılıqlı münasibətlər zəminində prioritet məsələ kimi çıxış yollarının tapılmasından qaynaqlanır. Qloballaşan dünyanın sekulyar ölkələrində din dövlətdən ayrı olsa da, cəmiyyətdən ayrı deyildir. Məhz bu səbəbdən, habelə dini təhlükəsizlik baxımından, cəmiyyətin dinə marağını və tələbatını düzgün şəkildə təmin etmək əhəmiyyət kəsb edir. Dinlər tarixi fənni müasir cəmiyyətdə dərin bir anlayış, tolerantlıq, etik düşüncə və sosial harmoniya yaratmaq üçün vacib komponentdir. Bu fənn təhsilalanları daha tolerant və təhlükəsiz bir cəmiyyətdə yaşamağa hazırlayır. Bu mənada ümumi olaraq təhsil, xüsusilə din təhsili çox vacib məsələlərdəndir. Araşdırmada təhsilin və dinin (din elmlərinin) birgə əməkdaşlığından bəhs olunur. Tədqiqat zamanı ölkəmizdə ali təhsil müəssisələrinin bu günə qədər fəaliyyət göstərən ilahiyyat fakültələrində tədris edilən Dinlər tarixi fənninin tədris yükü ilə yanaşı, ABŞ, Avropa və Asiyanın bir sıra ali təhsil ocaqlarında ilahiyyat və dinşünaslıq sahələrində Dinlər tarixi fənninin və ona aid fənlərin tədris yüklərinin müqayisəsi aparılmışdır.

Bundan əlavə, yazıda Dinlər tarixi fənninin tədris prinsipləri və metodik göstərişləri də tədqiq olunmuşdur. Həmçinin, məqalədə Dinlər tarixi fənninin tədrisində yaranmış problemlərə aydınlıq gətirilmiş, onları həll etmək üçün bəzi təkliflər irəli sürülmüşdür. Araşdırmanın sonunda tədqiqatdan çıxarılan nəticələr öz əksini tapmışdır. Məqalənin əsas araşdırma üsulu tarixi müqayisəli metoddur.

Ümumiyyətlə, Dinlər tarixi fənninin müasir təhsil sistemində yalnız akademik biliklər deyil, eyni zamanda, sosial, mədəni və etik anlayışların inkişafı üçün də mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, təqdim olunan materialların sekulyar dini təhsilin inkişafında ölkədaxili, ölkələrarası münasibətlərin güclənməsində faydalı ola biləcəyinə ümid edilir.

Açar sözlər: *dinlər tarixi, din təhsili, sekulyar təhsil, tolerantlıq, dinlərarası dialoq, dini maarifləndirmə.*

The Principles and Position of Teaching the Discipline "History of Religions" in the Modern Education System

Assist. Prof. Aliya Mursalova
Azərbaijan Institute of Theology
Baku, Azerbaijan
aliyatagiyeva@yahoo.com
https://orcid.org/0000-0001-7806-8353

Abstract

The relevance of the topic arises from the issue of intercultural dialogue in a country with multiple confessions, as well as the need to find solutions in the collaborative interactions state-religious entities in the educational sphere. Religion is separated from the state but not from society in the secularized countries around the world. This is why, in addition to religious security, it is critical to adequately satisfy society's interest and demand for religion. History or religions is a vital component in fostering deep knowledge, tolerance, ethical thinking, and social harmony in modern society. This discipline prepares students for life in a better and safer society. From this perspective, education in general, and religious education in particular, play a significant role. The study discusses the collaboration between education and religion (religious studies). In the course of the research, in addition to the academic load of the discipline "History of Religions," taught from the past to the future at the Theology faculties of higher educational institutions operating in our country, the course "History of Religions" and related disciplines taught in the field of theology and religious studies at several higher educational institutions in the USA,

Europe, and Asia were also studied. As an example, the credits and the study hours of the academic workload for the subjects are presented.

In addition, teaching ideas and methodological guidelines for the discipline "History of Religions" were investigated. Also, throughout the research, the issues occurring in the teaching of the "History of Religions" field were discussed, and some solutions were proposed. Finally, the conclusions gained and contributions made to the future development of this discipline are presented. The article's major research method is comparative-historical.

In general, considering that the discipline of the history of religions is important for the development of not only academic knowledge but also social, cultural, and ethical concepts in the modern education system, the materials presented should be useful for the development of secular religious education, as well as for strengthening both internal and international relations. We believe that this will contribute to broader discussions about the development of our modern society.

Keywords: *history of religions, religious education, secular education, tolerance, interreligious dialogue, religious enlightenment.*

Место и принципы предмета «История религий» в современной системе образования

д.ф.ф. Алия Мурсалова,
Азербайджанский институт теологии,
Баку, Азербайджан
aliyatagiyeva@yahoo.com
https://orcid.org/0000-0001-7806-8353

Резюме

Актуальность темы обусловлена проблемой межкультурного диалога в стране с множеством конфессий, а также поиска путей его решения как приоритетного вопроса в сфере взаимоотношений государственно-религиозных структур в области образования. Религия отделена от государства, но не от общества в секуляризованных странах мира. Вот почему, помимо религиозной безопасности, крайне важно должным образом удовлетворять интересы и

желания общества в отношении религии. История религии является важным компонентом в формировании глубоких знаний, толерантности, этического мышления и социальной гармонии в современном обществе. Эта дисциплина готовит студентов к жизни в более толерантном и безопасном обществе. С этой точки зрения образование в целом, и религиозное образование в частности, играют значительную роль. В исследовании говорится о совместном сотрудничестве образования и религии (религиоведческих наук). В ходе исследования, помимо учебной нагрузки по дисциплине «История религий», преподаваемой на теологических факультетах высших учебных заведений нашей страны до сегодняшнего дня, преподавание дисциплины «История религий» и смежных с ней предметов в области теологии и религиоведения в ряде вузов США, Европы и Азии. В качестве примера представлены учебные нагрузки по предметам.

Кроме того, были изучены принципы преподавания и методические указания дисциплины "История религий". Также в ходе исследования были выяснены проблемы, возникающие при преподавании области "История религий", и были предложены некоторые решения. Наконец, представлены выводы и вклад, сделанный в будущее развитие этой дисциплины. Основным методом исследования статьи является сравнительно-исторический метод.

В целом, учитывая, что дисциплина история религий важна для развития не только академических знаний, но и социальных, культурных и этических концепций в современной системе образования, можно надеяться, что представленные материалы могут быть полезны в развитии светского религиозного образования в укреплении как внутренних, так и международных связей.

Ключевые слова: *история религий, религиозное образование, светское образование, толерантность, межрелигиозный диалог, религиозное просвещение.*

Giriş

Dinlərarası və mədəniyyətlərarası kommunikasiya problemlərinin müzakirəsi və analizi bu problemin həllində sekulyar, milli-dini formada təhsil sisteminin inkişafı ilə bağlı hipotez irəli sürməyə imkan verir. Tədqiqatın əsasını nümunə üçün götürdüyümüz fərqli ölkələrin müasir ali təhsil müəssisələrinin tədris planları və yükləri təşkil edir. Müstəqilliyini qazanan Azərbaycan keçmiş dəyərlərinə bağlı olaraq dini həyatı yenidən inşa etməyi bacarmışdır. Araşdırma göstərir ki, ölkəmizin indiyədək sekulyar təhsildə dini elmlərin tədrisində həyata keçirdiyi yenidənqurma işləri indiyədək müsbət nəticələr vermiş, daha da təkmilləşmişdir. Başlıca olaraq qeyd etmək lazımdır ki, din təhsili istər dinin əsas prinsiplərinin doğru şəkildə cəmiyyətə çatdırılması, istərsə də dövlət təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb edir. Vətəndaşların istədikləri dini seçə bilmələri, inancları ilə həyatlarını yaşamaları, cahil şəkildə təqlid və təəssübdən asılı olmamaq üçün sağlam dini təhsil və tədrisi ehtiva edən müəssisələrin fəaliyyət göstərməsi dövlətin prioritet məsələsi olmalıdır.

Müxtəlif dinlərin yaranma və inkişaf tarixinin Avropada bir elm kimi öyrənilməyə başlanması XIX əsrdə alimlərin yad dinlərə olan maraqlarının artmasından irəli gəlmişdir (Swidler-Moizes, 2000, 57). Dinlərin obyektiv şəkildə öyrənilməsi onların müqəddəs kitabların tərcümələri ilə başlanmalı idi, bu səbəbdən alimlər latın, sanskrit, yunan, ibri, ərəb, Çin və yapon dillərini öyrənməyə başlamışlar. Nəticədə, yeni təfsirlər və hermenevtika elmi ortaya çıxmışdır. Daha sonra arxeologiya elmi dinlərin daha dərindən öyrənilməsinə xeyli təkan vermişdir.

Təhsil, keçmişi gələcəyə çatdırmaq vəzifəsini daşıdığı kimi, gələcəyin inkişafı üçün də keçmişi dərindən öyrənən bir sahə olaraq düşünülə bilər.[27] Bu mənada ölkəmizin dinlərarası və mədəniyyətlərarası dialoqda zəngin təcrübəsini izləyə bilirik. Hazırda cəmiyyətimizdə ali dini təhsil sahəsində ən aktual məsələ tədrisin dinlərarası və məzhəblərüstü formada aparılmasıdır.

İyirminci əsrin əvvəllərində baş vermiş dini dirçəlişdən sonra dini elmlərin tədrisini bu üsulla aparmaq apriori vacibdir. Konstitusiyada din dövlətdən ayrılsa da, cəmiyyətdən ayrı deyildir. Demək, müxtəlif kon-

[27] John Dewey. Demokrasi ve Tahsil. Salih Orhan (terc.), İstanbul: Başarı yayınları, 1996, s. 78

fessiyalı ölkənin sekulyar hakimiyyətinin dini icmalarla dialoq və əməkdaşlıq yolunu seçməsi daha məqsədəuyğundur. Ali təhsil müəssisələrində Dinlər tarixi fənninin tədrisi özünəməxsus kompromis kimi qəbul edilməlidir. Dinlər tarixi fənninin tədrisi nəinki təhsilalanların dünyagörüşünün artırılmasını təmin edir, eyni zamanda, ölkəmizin zəngin tarixi keçmişini əks etdirir, habelə əsrlərboyu bu torpaqlarda yaşamış millətlərə və digər din nümayəndələrinə qarşı tolerant münasibət göstərilməsinə zəmin yaradır. Hazırda ölkəmizdə Dinlər tarixi fənni ali təhsil müəssisələrinin yalnız humanitar elmlər sahəsində təhsilalanlara tədris olunur, lakin bunun, ümumiyyətlə, bütün ixtisaslarda təhsilalanlara tədrisi nəinki dünyagörüşü problemlərinin həllində, hətta onların milli-mənəvi ruhda tərbiyə edilməsində böyük rol oynaya bilər.

Dinlər tarixi fənninin tədris tarixi

Avropada ilk dəfə Dinlər tarixi fənnini İngiltərənin Oksford Universitesində almanəsilli Maks Müller (1823–1900) tədris etməyə başlamışdır. Eyni zamanda, Cenevrədə 1873-cü ildə ilk Dinlər tarixi kafedrası fəaliyyətə başlamışdır. Sonra isə Danimarkada (Kopenhagen), Fransada – Sorbon Universitetində "Din elmləri" adı altında Dinlər tarixi dərsləri keçirilirdi. Belçikada (Brüssel Dövlət Universitetində)1884-cü ildə, Almaniyada (Berlin, Leybnits və Bonn Universitetlərində) 1910-cu ildə Dinlər tarixi fənni təsis edilmişdir. İtaliyada isə ilk inlər tarixi kafedrası 1886-cı ildə açılsa da, Vatikanın təzyiqi ilə Xristianlıq tarixi fənni ilə əvəzlənmişdir (Alıcı, 2009, 154) ki, bu da sekulyar dövlətin din-dövlət siyasətinə zidd idi.

ABŞ-ni XIX əsrin 50-60-cı illərində bürümüş məhkəmə prosesləri dalğası dünyəvilik prinsipinə əsaslanan dini təhsil tipologiyalarının inkişafı üçün mühüm tarixi təkan oldu. Bu dalğa, öz növbəsində, 1957-ci ildə ABŞ Federal Təhsil Şurası tərəfindən "dinin təhsil sistemi ilə düzgün əlaqəsi" məsələsini həll etmək və müvafiq tövsiyələr hazırlamaq üçün çağırılan xüsusi konfransın qərarları ilə başlandı. Eyni zamanda, məhkəmə hakim Tomas Klarkın dili ilə etiraf etdi ki, "Təhsil dinlərin və ya dinin tarixinin müqayisəli öyrənilməsi və onun sivilizasiyanın inkişafına töhfəsi olmadan tam ola bilməz". Bundan sonra ABŞ-də "Dinlər tarixi" fənni 1881-ci ildə Konuel Universitetində və eyni ildə Harvardda – Dinlər tarixi kafedrasında tədris olunmuşdur. Sekulyar məktəblər üçün

dinin tədrisi ilə bağlı həmin qanun tezliklə bütün Avropaya transformasiya olundu, fərqli dinlərin tədrisi praktikası dinlərarası təhsil (interreligious education) və ya dinlərüstü təhsil (non-confessional) formasında geniş yayıldı (Козырев, 2013, 226).[28]

Türkiyə Cümhuriyyətinə gəlincə, Dinlər tarixi dərsləri günümüzün qarışıq vəziyyətinin tələbatına əsasən, orta məktəblərin səkkizinci və onbirinci siniflərində tədris olunur (Ören, 2011, 99). Osmanlı dövlətinin mədrəsələrində hələ XIX əsrdə Dinlər tarixi dərsləri ilə digər millətlərin inancları, dinlərin keçmişi haqqında məlumat əldə edilməyə və beləliklə, insanların şüurunda boşluqların doldurulmasına çalışılmışdır (Erkul, 2005, 10). Məsələn, bu fənn 1874-cü ildə İstanbul darülfünunun Ədəbiyyat fakültəsinin dərs proqramına daxil edilmiş və cümhuriyyət dövründə də tədrisi davam etdirilmişdir.

Ölkəmizdə dini təhsil hələ Orta əsrlərdən bəri bir sıra şəhərlərdə məktəb və mədrəsələrdə tədris olunurdu. Xanlıqlar dövründə, hətta təlim-tədris fəaliyyətlərini din adamları idarə edirdilər (Səmədov, 2009, 23-25). Çar Rusiyası Qafqazı idarə edə bilmək üçün fərqli siyasət yürütdü, müsəlmanları sünni və şiələrə ayırdı, ayrı-ayrı idarələrə həvalə etdi, ruhanilərin özlərinə xidmət etmələrinə nail oldu və dini mətbuatı nəzarətdə saxladı. Nəticədə, dini təhsil müddəti 6-8 ildən 10-15 ilədək uzadıldı, mədrəsələr ibtidai və ali olmaqla iki hissəyə ayrıldı (Bünyadov, 2014, 616-617). Burada Qurani-Kərim fənni ilə yanaşı, ərəb və fars dilləri, elmihal, ədəbiyyat, fəlsəfə, məntiq, psixologiya və İslam tarixi tədris olunurdu.

Cümhuriyyət dövründə cədidçilik fəaliyyətləri nəticəsində yeni üsullara uyğun məktəblərin sayı artmış, dünyəvi təhsillə bərabər dini təhsil verən mədrəsələr də fəaliyyət göstərmişdir (Səmədov, 2009, 33). Sovet hakimiyyətinin qurulması ilə əvvəllər dinin tədris olunmasına baxmayaraq, bu sahənin alimləri ya sürgünə göndərilmiş, ya da həyatları ilə vidalaşmışdılar (Səmədov, 2009, 37). Tarixi sənədlərə əsasən, vətənimizdə qiraət və təfsir, əqidə və şəriət elmləri ilə bərabər "Dinlər tarixi" fənninə uyğun olan dinlər və peyğəmbərlər tarixi ilə bağlı dərslər də keçirilirdi (Mürsəlova, 2024, 25).

Buna baxmayaraq, Azərbaycan Respublikasında postsovet ölkələri arasında unikal eksperiment olaraq ilahiyyat tədrisi dövlət

[28] https://cyberleninka.ru/article/n/religiya-v-sovremennom-obrazovanii-osnovnye-ponyatiya-i-tipologii/viewer

müəssisəsinə daxil edilmişdir. Azərbaycan Respublikasında dövlət təhsil sisteminin dindən ayrı olmasına baxmayaraq, dinşünaslıq, dini idrak, dini fəlsəfə, müqəddəs kitabların əsasları ilə tanışlıq dövlət təhsil müəssisələrinin tədris proqramlarına daxil edilə bilər (Səmədov, 2009, 56). Ölkəmizdə din elmlərini tədris edən ali təhsil müəssisələri arasında 1991-ci ildə Bakı İslam Mədrəsəsinin bazası əsasında formalaşmış Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdində fəaliyyət göstərən Bakı İslam Universiteti, 1992-2018-ci illərdə Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi, Naxçıvan Dövlət Universitetində "Dinşünaslıq" ixtisası (magistr səviyyəsi üçün) və 1996-2017-ci illərdə Qafqaz Universitetinin İlahiyyat və 2000-2010-cu illərdə Azərbaycan Beynəlxalq Universitetinin İslamşünaslıq fakültələri mövcud idi. Qeyd edək ki, adıkeçən son iki ali təhsil müəssisəsində dinlər tarixi istiqaməti tədris olunmurdu (Səmədov, 2009, 93). Təhsil Nazirliyi 2009-cu ildə 5 il müddətinə fəaliyyətin xüsusi razılığına əsasən, Dinlərin tarixi fənni Bakı İslam Universitetinin yalnız Zaqatala şöbəsində III və IV kurslarda 16 saat olmaqla (Səmədov, 2009, 105-106, 108) və Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində isə III kursun I semestrində 60 saat (45 saat mühazirə, 15 saat məşğələ) olaraq 4 kreditlə tədris olunmuşdur (Səmədov, 2009, 91).

Dinlər tarixi fənninin müasir Azərbaycanın təhsil sistemindəki yeri

Hazırda Bakı Dövlət Universiteti Tarix fakültəsinin Qədim və Orta əsrlər dünya tarixi kafedrasının bakalavriat səviyyəsidə Din tarixi dərsləri 2 kreditlə 40 mühazirə və 20 məşğələ olmaqla, cəmi 60 saat, magistr səviyyəsinin I kursu üçün 20 mühazirə və 10 məşğələ olmaqla, cəmi 30 saat, II kurs üçün isə 30 mühazirə və 15 məşğələ olmaqla, 45 saat təşkil edir. Həmin fakültənin "Tarix müəllimliyi" ixtisasında Dinlər tarixi fənni 30 saat tədris olunur. Bununla bərabər, Naxçıvan Dövlət Universitetinin tarix və muzey, arxiv işi və abidələrin qorunması fakültələrində Dinlər tarixi sahəsinə yaxın olan Multikulturalizm fənni 3 kreditlə 18 saat mühazirə və 16 saat məşğələ olmaqla, cəmi 34 saat tədris edilir.[29]

Ölkəmizdə ali din tədrisini 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə yaradılmış Azərbaycan İlahiyyat

[29] https://ndu.edu.az/tedplanitarx

İnstitutu həyata keçirir. Azərbaycan İlahiyyat İnstitutunun 2018-ci ilin təsdiq olunmuş tədris yükünə əsasən bakalavriat səviyyəsi üçün Dinlər tarixi fənni "İslamşünaslıq" ixtisası üçün 6 kreditlə II kursda bir semestr, yəni 45 saat mühazirə, 15 saat məşğələ olmaqla cəmi 60 saat, "Dinşünaslıq" ixtisası üçün 4 kreditlə II kursun payız semestrində Xristianlıq və Yəhudilik və yaz semestrində 5 kreditlə Hind-Çin dinləri fənlərinin hər biri 60 saat olmaqla (45 saat mühazirə və 15 saat məşğələ), tədris edildiyini vurğulaya bilərik. Bu fənlərdən əlavə, dinlər tarixi sahəsinə aid olan 4 kredit və 45 saat Multikulturalizmə giriş, 4 kredit və 60 saat Müqəddəs kitabların müqayisəsi, 4 kredit və 45 saatla Yeni dini hərəkatlar, habelə magistr səviyyəsi üçün 4 kredit 30 saat olmaqla, Yəhudilik tarixi və Xristian məzhəbləri fənnləri də tədris olunur. Beləliklə, qeyd etmək olar ki, Aİİ-də tədris olunan Dinlər tarixi fənni və ona aid bütün fənnlər zamanla BİU və BDU-nun İlahiyyat fakültəsində 1992-2018-ci illər arasında, hətta hazırda BDU-nun Tarix fakültəsində tədris olunan Dinlər tarixi fənnindən daha geniş və əhatəli formada təqdim edilir.

Dinlər tarixi fənninin müasir dünya təhsil sistemindəki yeri

Məqalədə ölkəmizdə tədris edilən ilahiyyat elmlərinin bir parçası sayılan Dinlər tarixi fənninin və ona aid digər fənlərin müxtəlif ölkələrin tədrisi ilə qarşılıqlı müqayisəsi və onun cəmiyyətimizə verdiyi töhfələri haqqında da araşdırma aparılmışdır. Belə ki, ölkəmizdə bakalavriat səviyyəsində tədris olunan Dinlər tarixi fənni və ona aid Yəhudilik tarixi, Xristianlıq dininin tarixi, Hind-Çin dinləri, Hermenevtika, Müqəddəs mətnlərin müqayisəsi, Yeni dini cərəyanlar və digər fənlər xarici ölkələrlə müqayisədə daha genişdir. Məsələn, Multikulturalizm fənninin tolerantlığı təbliğ edən bir fənn kimi ölkəmizdəki ali təhsil müəssisələrində tədris olunması dünyada bir ilkə çevrildi. Belə ki, bu il imzalanan memoranduma əsasən, Moskva İslam İnstitutunda Azərbaycan multikulturalizmi fənni tədris ediləcək. Müasir ölkələrin dini dözümsüzlük və təhlükəsizlik məsələlərinə baxdığımız zaman bu fənnin tədrisinin vacib yeri və rolu vardır. Təqdiredici haldır ki, Aİİ-nin "Dinşünaslıq" ixtisası üzrə magistr səviyyəsində bütün ixtisaslaşmalara daxil edilən Gender tədqiqatları və İslam fənninin 30 saat (15 saat mühazirə, 15 saat məşğələ) tədris olunması nəzərdə tutulub. Bu fənnə həm də dinlər tarixi sahəsini ehtiva edən mövzular da salınmışdır.

Qeyd etmək lazımdır ki, Qərb və Şərq ölkələrində tədris olunan Kilsə tarixi, Qədim dünya dinlərinin tarixi, Arxeologiya, Gender və din, Bioetika və din, Ekologiya və din, Əhdi-ətiqə giriş, Əhdi-cədidə giriş, Yerli dinlər və spirituallıq, Dinlərdə incəsənət, Din musiqisi, Dini məbədlərin arxitekturası, Dinlərarası əlaqələr və digər fənlər isə bizdə tədris olunmur.

Qərb ölkələri

Tədqiqat işimizdə müqayisə apardığımız zaman müasir Qərb ölkələrinin ali təhsil müəssisələrində Dinlər tarixi fənni bir neçə fənni özündə birləşdirir. Məsələn, Oksford Universitetinin İlahiyyat və din fakültəsində 1 semestr ərzində hər fənn 16 mühazirə və 6-8 məşğələ olmaqla, İncilə giriş, Əsrlərboyu İsanın şəxsiyyəti, Din və dinlər fənləri, habelə hər biri 60 saat olmaqla, Əhdi-cədidin yunan dili, İncilin ibri dili, Latın kilsəsi, Quranın ərəb dili, pali və sanskrit dilləri tədris olunur.[30]

San-Fransisko Universiteti İlahiyyat və dinşünaslıq fakültəsinin bakalavriat səviyyəsində əsas fənn bloku mühazirə, məşğələ və kurs işi olmaqla, 40 dərsdən ("Xristianlıq tarix", "Dünya dinləri və ilahiyyatları", "Asiya dinləri", "Din, etika və sosial ədalət" və s.), seçmə fənn bloku isə 12 dərsdən ibarətdir.[31]

Latviya Universitetinin İlahiyyat və dinşünaslıq fakültəsinin bakalavr səviyyəsinin I semestrində Dinlər tarixi fənninə aid edilən 6 kreditlə Dünya dinləri, Əhdi-cədidə giriş,[32] III semestrində Əhdi-ətiqə giriş,[33] V semestrində isə 2 kreditlə Yəhudiliyin əsasları və 6 kreditlə Xristian dininin tarixi[34] fənləri tədris olunur.

---

[30] https://www.theology.ox.ac.uk/course-options-for-the-preliminary-examination#collapse4361986

[31] https://www.usfca.edu/arts-sciences/programs/undergraduate/theology-religious-studies/program-overview

[32]https://luis.lu.lv/pls/pub/pub_nod.main?l=2&p_au=2&p_mg=FO0060&p_atsk=visi_sem&p_prog=20117&p_nod=B40101&p_sem=C50034&p_semi=C50034,C50036,C50038&p_virz=&p_grup=&p_sar=nod&p_var=dat

[33]https://luis.lu.lv/pls/pub/pub_nod.main?l=2&p_au=2&p_mg=FO0060&p_atsk=visi_sem&p_prog=20117&p_nod=B40101&p_sem=C50036&p_semi=C50034,C50036,C50038&p_var=dat&p_sar=nod

[34] https://luis.lu.lv/pls/pub/pub_nod.main?l=2&p_au=2&p_mg=FO0060&p_atsk=visi_sem&p_prog=20117&p_nod=B40101&p_sem=C50038&p_semi=C50034,C50036,C50038&p_var=dat&p_sar=nod

Edinburq Universitetinin İlahiyyat fakültəsində 33 saat mühazirə, 10 saat məşğələ olmaqla, II semestrdə yalnız Dünya dini kimi Xristianlıq fənni tədris olunur.[35] Zürix Universitetinin Dinşünaslıq və ilahiyyat fakültəsində təhsilalanlara Antik din tarixi 12 saat, Çin dinlərinin tarixi 3 saat, Xristianlıq 9 saat, Buddizm 6 saat, Qədim Misir dininin tarixi 6 saat, İslam 6 saat, Yapon dini 3 saat keçilməklə, ümumilikdə, 120 kredit təşkil edir.[36]

Amsterdam Vrije Universitetinin İlahiyyat və dinşünaslıq fakültəsində Dünya dinləri, Xristianlıq tarixi, Yəhudilik, Dinlərdə ritual və miflər, Hinduizm, İslam kimi fənlərə 6 kredit olmaqla, 44 saat ayrılır.[37]

İslandiya UGLA Universitetinin İlahiyyat və dinşünaslıq fakültəsində Əhdi-ətiq fənninə 40 kredit, Əhdi-cədid fənninə 45 kredit, Kilsə tarixi fənninə 30 kredit, Dinşünaslıq fənninə (İslam, Yaxın və Orta Şərq dinləri öyrədilir) 20 kredit, Sistematik ilahiyyat (Xristianlıq) fənninə 30 kredit və Təcrübi ilahiyyat (postoral, liturgik, ibadət) fənninə 45 kredit ayrılır.[38]

Şərq ölkələri

Türkiyə Cümhuriyyətinin bir sıra universitetlərinin ilahiyyat fakültələrində Dinlər tarixi fənni hazırda tədris olunur. Məsələn, Marmara Universitetinin İlahiyyat fakültəsində Dinlər tarixi fənni yalnız IV kursun II semestrində 7 kreditlə, Dinlər və mədəniyyətlərarası əlaqələr və Yaşayan dünya dinləri fənləri isə 2 kreditlə tədris olunur.

Qazaxıstanda yerləşən Ahmet Yesevi Universiteti İlahiyyat fakültəsinin Din bilimləri kafedrasının I və II kurslarında Dinlər tarixi fənni 4 kreditlə 120 saat tədris edilir.[39]

Hindistanın Quru Nanak Dev Universitetinin Humanitar və dinşünaslıq fakültəsinin "Dinşünaslıq" ixtisasının I-IV semestrləri üçün 48 saat müddətində ibtidai inanclardan tutmuş, qədim dinlər, Şərq dinlərinin ədəbiyyatı, hind-Çin dinləri, ibrahimi dinlər, sufizm, Siqhizmin tarixi, sosiologiyası, qurucuları, fəlsəfəsi və kitabı, XIX-XX əsrlərdə

[35] http://www.drps.ed.ac.uk/16-17/dpt/cxechs08004.htm

[36] https://www.religionswissenschaft.uzh.ch/de/studium/bachelor/religiousstudies.html

[37] https://vu.nl/en/education/bachelor/programmes

[38] https://ugla.hi.is/kennsluskra/index.php?tab=nam&kennsluar=2024&flaturlisti=1&id deild=32

[39] https://bologna.ayu.edu.kz/tr/bologna-bilgi-sistemi/program/6b02228/34

Pəncabın yeni dini təriqətləri öyrənilir. Nyu-Dehlidə yerləşən Milli İslam Universitetinin (Jamia Millia Islamia) Müqayisəli dinlər fənni 2 il ərzində (Hinduizm, Buddizm, Caynizm və Siqhizm olmaqla, Hind dinləri kursu, həmçinin Yəhudilik, Xristianlıq və İslam dini olmaqla, Semit dinləri kursu) tədris olunur.[40] Bunlardan əlavə, Aliqarh Musəlman Universitetinin (Aligarh Muslim University) İlahiyyat fakültəsinin şiə kafedralarında Dünya dinləri və onların müqəddəs kitabları fənni 4 kredit və 60 saatla,[41] sünni kafedrasında isə 2 kredit və 30 saatla Hind dinləri və mədəniyyəti fənni tədris edilir. [42]

Çinin Honkonq Universitetinin Asiya və beynəlxalq elmlər fakültəsində Dünya dinləri fənni 3 kreditlə yalnız bir semestr tədris olunur.[43]

Rusiya Federasiyasının Təhsil Nazirliyi tərəfindən nümunə olaraq, Kazan Federal Universitetinin Fəlsəfə və dinşünaslıq kafedrasının I kurs (1 və 2-ci semestr) bakalavriat səviyyəsində tədris olunan Dinlər tarixi fənni 36 saat mühazirə və 72 saat məşğələ olmaqla, cəmi 108 saatdan ibarətdir. M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Fəlsəfə fakültəsinin Dinin fəlsəfəsi və Dinşünaslıq kafedrasında Dinlər tarixi, Rusiyanın dinlər tarixi, Qədim yunan və Roma dinləri, "Ezoterik təlimlər, Yeni dini hərəkatlar kimi fənlər, Mədəniyyətşünaslıq kafedrasında yalnız Dinlər tarixi fənni tədris olunur. Magistr pilləsində Müqayisəli dinşünaslıq və Asiyanın dini landşaftı kimi ixtisaslar mövcuddur.[44] Məsələn, I və II kurslarda (1-4 semestr) Dinlər tarixi fənni 140 saat mühazirə, 140 saat məşğələ və 296 saatı sərbəst iş olmaqla, 576 akademik saat təşkil edir.[45] Rusiyanın dinlər tarixi fənni isə 36 saat məşğələ və 36 saat sərbəst iş olmaqla, 72 akademik saat, habelə Qədim yunan və Roma dinləri fənni 17 saat məşğələ, 19 saat sərbəst iş olmaqla, 36 akademik saat[46] tədris olunur.[47] Vyat Dövlət Humanitar Universiteti Tarix fakültəsinin II kurs (3 və 4-cü semestr) bakalavriat səviyyəsində Dünya dinlərinin tarixi fənni 72 saat mühazirə və 36 saat məşğələ olmaqla, cəmi 108 saatdan ibarətdir. Həmçinin dini-mənəvi tədrisin ali təhsil təşkilatı Aqin Buddist Akademiyasında (ənənəvi rus

[40] https://jmi.ac.in/upload/jamiadocs/JAMIA/syllabus_mphil.pdf
[41] https://api.amu.ac.in/storage//file/85/useful-download/1639202692.pdf
[42] https://api.amu.ac.in/storage//file/86/useful-download/1667542549.pdf
[43] https://www.cityu.edu.hk/catalogue/ug/202122/course/GE2135.pdf
[44] https://philos.msu.ru/about
[45] https://drive.google.com/file/d/1yMaq8Sq11R1H-yIFDUsXVa9Yxcwgp0G2/view
[46] https://drive.google.com/file/d/1CvgxxLool0jw8Vc3UVPuGSYxiK5UTnws/view
[47] https://drive.google.com/file/d/14_dhjYuoEHVNkiJ8x1Rko67q0-BnCh1x/view

buddist sanqxası) bakalavriat səviyyəsinin 2-ci semestrində keçirilən Dinlər tarixi fənni 36 saat məşğələ, 72 saat mühazirə olmaqla, 108 saatdan ibarətdir.[48] Bunlardan əlavə, bakalavriat təhsil pilləsi üçün Çelyabinsk Dövlət Universitetində və Ufa Elm və Texnologiyalar Universitetində "Dünya dinlərinin tarixi və nəzəriyyəsi", Rusiya Dövlət Humanitar Universitetində isə "Dinlər tarixi" ixtisasları tədris olunur. Son universitet peşəkar fənnlər arasında Dinlər tarixi, Tolerantlığın əsasları, Qədim dinlərin tarixi, Yeni dini hərəkatlar, variativ hissədə Müqəddəs mətnlər (Tanax, Əhdi-cədid, Quran), Dünya dinlərinin təcrübələri, Dini ekspertiza, seçmə fənlər blokunda isə Subbotniklər, II Məbəd dövrü yəhudiləri, İbrahimi dinlərdə gender problemi, Yəhudilik və Xristianlıq arasında: apostat, yeretik və sektantlar, Erkən yəhudi mistikası, Keçmişdə və gələcəkdə etnokonfessional diasporalar, Dinlər tarixi üzrə arxiv mənbələr, İncil arxeologiyası və digər fənlər təqdim edir.[49] Ümumiyyətlə, Rusiya Federasiyası prezidentinin imzaladığı "Ənənəvi rus milli-mənəvi və dəyərlərinin saxlanılması və möhkəmləndirilməsi məqsədilə dövlət siyasətinin əsaslarının təsdiqi" əmri nəticəsində 27 ali təhsil müəssisəsində Rusiyanın dinlər tarixi fənni pilot layihə kimi 72 saat (yarımühazirə, yarıməşğələ) olmaqla təsdiq edilmişdir.[50]

Dinlər tarixi fənninin tədris prinsipləri

Dinlər tarixi fənninin tədrisi zamanı vacib yer nəzəriyyə ilə təcrübənin qarşılıqlı şəkildə öyrənilməsinə verilməlidir. Azərbaycanda bu mövzuda problem yaşanmır, çünki hər bir dinin özünün ibadət yerləri mövcuddur və dini icmalar heç bir maneə yaratmadan, rahatlıqla əməkdaşlığa gedərək təhsilalanların rahat şəkildə onların dini ibadətlərini və məbədlərini seyr etməsinə şərait yaradırlar. Yeganə istisnanı Uzaq Şərq ölkələrinin məbədləri (Buddizm, Siqhizm, Caynizm, Sintoizm, Konfusizm, Daoizm) təşkil edir, bunun da səbəbi ondadır ki, tarixən həmin dinlər Vətənimizin sərhədlərinə qədər gəlib-çıxmamışdır və burada məbədləri tikilməmişdir. Bunun da çıxış yolunu tapmaq olar, həmin dinlərin Vətənimizin bir sıra müəssisələrində mərkəzləri mövcuddur. Məsələn, Yaponiya Səfirliyində təşkil olunan mərasimlərdə, Azərbay-

[48] https://ababuddha.ru/uchebnyj-plan/
[49] https://msk.postupi.online/vuz/rggu/programma/6125/varianti/
[50] https://minobrnauki.gov.ru/press-center/news/novosti-ministerstva/80086/

can Dillər Universitetində Konfutsi İnstitutunun Çin mədəniyyətinin tədbirlərində, Hindistan səfirliyində keçirilən yoqa günlərində iştirak etmək mümkündür.

Nümunə üçün Rus Dövlət Humanitar Universitetində bu sahədə təhsilalanlar xristian pravoslav kilsələrinə, yəhudi sinaqoqlarına, müsəlman məscidlərinə və buddist monastırlarına gedirlər. Azərbaycan İlahiyyat İnstitutunun təhsilverənləri də təhsilalanlar üçün mütəmadi olaraq zərdüştlərin Atəşgahına, udilərin Apostol kilsəsinə, dağ və gürcü yəhudilərinin sinaqoquna (hətta yəhudilərin kompakt yaşadıqları Qırmızı qəsəbəyə), pravoslav və katolik kilsələrə, məscidlərə, hinduist Krişna Şüuru cəmiyyətinə, Bəhai icmasına da ziyarətlər təşkil edirlər. Gələcəkdə Azərbaycanda əsrlərboyu mövcud olmuş qədim dinlərlə yaxından tanış olmaq üçün Vətənimizin müxtəlif bölgələrinə arxeoloji qazıntılar aparılan zonaların, kurqanların, qayaüstü petroqliflərin və kromlexlərin öyrənilməsi üçün xüsusi dini ekskursiyalar da təşkil etmək mümkündür. Təhsilalanları Vətənimizin fərqli rayonlarında aparılan arxeologiya, etnoqrafiya və diyarşünaslıq muzeylərinə, sufi ziyarətgahlarına və türbələrə, qədim dini ayinlərin keçirildiyi məkanlara ziyarətə aparmaq olar. Məsələn, Vətən müharibəsi nəticəsində geri qaytardığımız torpaqlarda Azıx mağarasından tutmuş, müxtəlif kurqanlara, dağıdılmış və təhrif olunmuş irsimizə aid olan Alban həvari kilsələri və qədim məscidlərə ziyarətlər təşkil edilə bilər. Bundan əlavə, Dinlər tarixi fənninin prinsipləri, bu fənnin daha təsirli və məhsuldar şəkildə öyrənilməsini təmin edən yanaşmalardır. Bunlara obyektivlik, tarixi kontekstualizasiya, müxtəliflik və zənginlik, fəlsəfi və etik müzakirələr və interaktiv yanaşma aid edilə bilər. Dinlər tarixi fənninin digər vacib və aktual prinsipi, zənnimizcə, təhsilverənin şəxsi nümunə təşkil etməsi olmalıdır. Təhsilalanlar onun nümunəsində fərqli dinlərə tolerant, qərəzsiz və xoşməramlı münasibət bəsləməyi öyrənməlidirlər. Nümunə sayılan təhsilverənin şəxsiyyəti onun pedaqoji fəaliyyətinin missiyası bir insanın dini-mənəvi bünövrəsinin formalaşmasını təmin etməkdən ibarətdir. Məsələn, sekulyar xarakterli “Dinlər tarixi” elminin tədrisi bəzi kriteriyaları özündə ehtiva etməlidir (Козырев, 2013, 227):

1. Tədris təhsilalanın və tədrisverənin dini özünüidentifikasiaya şərtini tələb edə bilməz;

2. Tədris dini icmanın nümayəndəsi tərəfindən verilə bilməz, təhsilverən heç bir dini icma ilə bağlı olmamalıdır;

3. Tədris apologetik və ya qanunqoyucu olmamalıdır. Kritik düşüncə, araşdırma təfəkkürü həvəsləndirici, bir dinin tək həqiqət kimi təqdim olunması isə qəbulolunmazdır;

4. Tədris təhsilalanları hər hansı bir dinə cəlb edilməsi məqsədini daşımamalıdır;

5. Tədris prosesi hər hansı bir ibadət şəkillərini və ya ümumi dua oxumalarını ehtiva etməməlidir.

Nəticə

Dinlər tarixi fənninin tədrisi zamanı yaranan problemlərə gəlincə, ilk növbədə, sekulyar dövlət üçün etibarlı yüksəkixtisaslı kadrlar hazırlanmasının təşkili, tədris metodikasının və metodoloji əsasların formalaşması gəlir. Dinlər tarixi elmi digər ölkələrdə ya deskriptiv (müqayisəli), ya fəlsəfi analiz, ya da tarixi metodlar vasitəsilə tədris olunur. Belə ki, Dinlər tarixi fənninin ali təhsil müəssisələrində tədrisinə nəzər saldıqda, ümumi teoretik əsaslar, ümumi didaktik mövzular, vahidlər, metodoloji-normativ əsaslar, məqsədlər, problemlər həmin fənnin tədris metodikası kursuna uyğun olaraq Azərbaycan İlahiyyat İnstitutunda təşkil olunan kimi dinlərarası və məzhəblərüstü formada, yəni obyektiv və deskriptiv metodlarla keçirilir. Apardığımız araşdırmalar göstərir ki, yuxarıda qeyd olunan bütün qeydlər Dinlər tarixi fənninin hansı ölkədə tədris olunmasından asılı olaraq dəyişik göstəriciləri olur. Məsələn, Avropa ölkələrində digər dinlərlə müqayisədə daha çox Xristianlığa yer verildiyi zaman, müsəlman ölkələrində İslama, Şərq ölkələrində isə Buddizmə və ya Hinduizmə yer verilir. Buna əlavə olaraq nəinki müəyyən dinə, hətta həmin dinin məzhəbinə də üstünlük verilə bilir. Əslində, bunun tədris olunan mühitin tələbatından qaynaqlanmasını nəzərə alsaq, normal hal olduğunu qəbul edə bilərik. Qloballaşan dünyamızda elmi yanaşma baxımından qəbulolunmaz fakt olması ilə də razılaşmalıyıq. Tədqiqatımızın sonunda belə nəticəyə gəlmək olar ki, Qərb ölkələrinin çoxunda ilahiyyat və dinşünaslıq fakültələrinin olması ilə yanaşı, özəl məktəblərdə, universitet və kolleclərdə də din təhsili tədris edilir. Bu tədris məzhəbə əsasən, yaxud məzhəb fərqi olmadan dinlərinə görə verilməkdədir.

Beləliklə, Qərb və Şərq ölkələrində tədrisolunma tərzi, kredit sistemləri və saatlar ölkədən-ölkəyə, universitetdən-universitetə dəyişir.

Ümumi tendensiyanı qısa təqdim etsək, deyə bilərik ki, ABŞ-də,[51] adətən, 3 kreditlə həftədə 3 saat (semestr ərzində), Avropa ölkələrində[52] (Böyük Britaniya nümunəsində) 15-30 kreditlə həftədə 1-2 saat, Asiya ölkələrində (Türkiyə və İranın nümunəsində[53]) 2-4 kreditlə həftədə 2-3 saat, Yaxın Şərq ölkələrində[54] 3-4 kreditlə həftədə 2-3 saat, Uzaq Şərq ölkələrində[55] 2-6 kreditlə həftədə 2-4 saat tədris olunur. "Dinlər tarixi" fənni ilə bağlı proqramlar və kredit sistemləri, təhsilalanların öyrənmək istədiyi dərinlik və kontekstdən asılı olaraq dəyişir və hər bir ali təhsil müəssisəsinin özünəməxsus planı və tədris yükü mövcuddur.

Azərbaycan müstəqillik qazandığı dövrdən indiyədək mövcud dini təhsilin necə inkişaf etdiyinin şahidiyik. Bu vaxtadək din elmlərinin ali məktəblərdə tədris edilməsinə baxmayaraq, təəssüflər olsun, dövlət məktəblərinə hələ də bu sahəyə inteqrasiya olunmayıbdır. Bu baxımdan, xarici ölkələrin nümunəsindən istifadə edərək, İlahiyyat Kollecinin yaradılması təqdiredici addımdır. Dövlət məktəblərinə gəlincə isə, orada keçirilə bilən fənlər sırasına, obyektivlik baxımından, Dinlər tarixi fənninin (Multikulturalizm, Tolerantlıq ənənəsi, Milli-mənəvi dəyərlər adları altında) məqsədəuyğun olduğunu nəzərə alaraq, gələcəkdə dövlət məktəblərinin tədris planına salınacağına ümid edirik.

Bundan əlavə, milli-mənəvi dəyərlərimizin və irsimizin daha dərindən tədqiq edilməsi məqsədilə Azərbaycanın dinlər tarixi və Həvari Alban kilsəsinin tarixi qəbildən olan fənləri ali təhsil müəssisələrinin tədris yüklərinə daxil edilə bilər.

Ölkəmizdə dinlər tarixi elminin daha yaxşı mənimsənilməsi üçün arxeologiya və ya etnoqrafiya elmləri ilə əməkdaşlıq öz töhfəsini gələcəkdə verə bilər. Məsələn, 44 günlük Vətən müharibəsindən sonra azad olunmuş torpaqlarımızda mövcud olan müxtəlif dinlərə məxsus məbədləri, abidələri və kurqanları araşdırmağa başlamağın əsl vaxtıdır.

Ümumi marağın artması üçün konfranslar, müsabiqələr, layihələr və seminarlar təşkil oluna bilər. Bundan əlavə, müxtəlif dinlərin tədqiqat

---

[51] Harvard University, Yale University

[52] University of London, University of Oxford

[53] Istanbul University, Hacettepe University, University of Tehran, Shahid Beheshti University

[54] Hebrew University of Jerusalem, Tel Aviv University, University of Jordan, Cairo University, University of Damascus

[55] University of Tokyo, Kinki University, Peking University, Shanghai Jiao Tong University, University of Delhi, Banaras Hindu University

qrantlarının maliyyələşdirilməsi və dəstəklənməsi, fərqli dini və mədəni təşkilatlarla əməkdaşlıq edərək, dinlər tarixi sahəsindəki praktiki təcrübələrin paylaşılması, kitab, onlayn kurslar və multimedia materiallarının yaradılması da faydalı addımlardan ola bilər.

Digər tərəfdən, 2018-ci ilədək fəaliyyət göstərmiş və 4000 eksponatı olan Dövlət Din Tarixi Muzeyini (Azərbaycan SSR Nazirlər Sovetinin 1967-ci il tarixli 130 saylı Sərəncamına əsasən, yaradılmış Ateizm tarixi muzeyi Nazirlər Kabinetinin 17 sentyabr 1990-cı il tarixli 414 saylı qərarına müvafiq adı dəyişdirilərək Dövlət Din Tarixi Muzeyinə çevrilmişdir. 1993-cü ilin iyun ayından etibarən muzey müvəqqəti olaraq Muzey Mərkəzində yerləşdirilib. 2 oktyabr 2018-ci ildə Nazirlər Kabineti tərəfindən Mədəniyyət Nazirliyinin təklifi nəzərə alınaraq, Azərbaycan Dövlət Din Tarixi Muzeyi Azərbaycan İstiqlal Muzeyinə birləşdirilib) yenidən bərpa etmək ölkəmizdə bu elmin inkişafı üçün məqsədəuyğun ola bilər.

Azərbaycanda dinlər tarixi elminin təkmilləşdirilməsi üçün atılacaq addımlardan biri də köklü bir ənənəyə və missiyaya sahib olan dinlər tarixçilərini bir araya gətirərək Dinlər tarixi dərnəyinin qurulmasıdır. Dərnəyin məqsədi Azərbaycanda Dinlər tarixi elmi sahəsində araşdıma aparanlar arasında əməkdaşlıq və məlumat mübadiləsini təmin etmək, konfrans və seminarlar keçirtmək, bu elmin problemləri ilə məşğul olmaq və Azərbaycanda əzəldən mövcud olmuş dinlərin tarixini dünyaya tanıtmaqdır.

Bütün bu tədbirlər Dinlər tarixi fənninin inkişafını dəstəkləmək və müasir cəmiyyətin ehtiyaclarına uyğun şəkildə öyrənilməsini təmin etmək üçün vacibdir.

Beləliklə, yuxarıda qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, dini təhsil dünyəvilik prinsipinə zidd deyil, əksinə, dünyəviliyin zəruri şərtlərindən biridir. Məhz bu fənnin predmeti olan müxtəlif dinlərin dərindən və qərəzsiz şəkildə tədqiq edilməsi nəticəsində qloballaşan dünyada onlar arasında tolerant münasibətlərin qurulmasının və təhlükəsiz şəraitdə birgəyaşayışın təmin edilməsinin mümkün olacağı ümid edilir. Dinlər tarixi fənninin müasir təhsil sistemindəki rolu təhsilalanlar arasında mədəni anlayışların artması, sosial harmoniyanı təmin edən tolerantlıq və empati hissinin inkişafı, bir sıra tarixi hadisələrin (müharibə və sülh sazişlərinin bağlanması) və siyasi məsələlərin öyrənilməsi, kritik analiz bacarıqlarının formalaşması, etik məsələlərin və dəyərlərin müzakirəsi üçün bir platformanın yaranmasıdır.

Ədəbiyyat

Alıcı, Mustafa. (2009). *Dünyanın yerel bilimi: Dinler tarihi*. Rize Üniversitesi İlahiyat Fakültesi, Türk Bilimsel Derlemeler dergisi, sayı 2(1), (s. 153-179).

Bünyadov, Ziya. (2014). *Azərbaycan tarixi*. Bakı: Apastrof, (720 s.).

Dewey, John. (1996). *Demokrasi ve Tahsil*. Salih Orhan (tercm.). İstanbul: Başarı yayınları, (426 s.).

Erkul, Nilufer. (2005). *Osmanlı medreselerinde dinler tarihi dersler ve Mahmut Esad b. Emin Seyidşehri.* Yüksek lisans tezi, İstanbul, Marmara Üniversitesi Sosyal bilimler Enstitüsü İlahiyat Anabilim Dalı Felsefe ve Din bilimleri bilim dalı, (95 s.).

Козырев, Ф.Н. (2013). *Религия в современном образовании: основные понятия и типологии.* Философия образования, педагогика и психология, том 14, выпуск 1, (стр. 222-237).

Mürsəlova, Aliyə. (2023). *Dinlər tarixi*. Bakı: Elit Poliqraf MMC, (392 s.).

Ören, Savaş. (2011). *Türkiye`de din (İslam) eğitimi – öğretimi ve gerçekler.* Kurani Hayat dergisi, İstanbul Matbaacılık, sayı 20, (s. 97-101).

Səmədov, Elsevər. (2009). *Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması*. Bakı: AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, (170 s.).

Swidler, Leonard. Paul, Moizes. (2000). *The study of religion in an age of global dialog.* USA, Philadelphia: Temple University Press, (86 p.).

İnternet resursları

https://ndu.edu.az/tedplanitarx

https://cyberleninka.ru/article/n/religiya-v-sovremennom-obrazovanii-osnovnye-ponyatiya-i-tipologii/viewer

https://ilahiyat.marmara.edu.tr/dosya/ilh/Bultendergi/2017%20mufredat.pdf

https://www.theology.ox.ac.uk/course-options-for-the-preliminary-examination#collapse4361986

https://www.usfca.edu/arts-sciences/programs/undergraduate/theology-religious-studies/program-overview

https://luis.lu.lv/pls/pub/pub_nod.main?l=2&p_au=2&p_mg=FO0060&p_atsk=visi_sem&p_prog=20117&p_nod=B40101&p_sem=C50034&p_semi=C50034,C50036,C50038&p_virz=&p_grup=&p_sar=nod&p_var=dat

https://luis.lu.lv/pls/pub/pub_nod.main?l=2&p_au=2&p_mg=FO0060&p_atsk=visi_sem&p_prog=20117&p_nod=B40101&p_sem=C50036&p_semi=C50034,C50036,C50038&p_var=dat&p_sar=nod

https://luis.lu.lv/pls/pub/pub_nod.main?l=2&p_au=2&p_mg=FO0060&p_atsk=visi_sem&p_prog=20117&p_nod=B40101&p_sem=C50038&p_semi=C50034,C50036,C50038&p_var=dat&p_sar=nod

http://www.drps.ed.ac.uk/16-17/dpt/cxechs08004.htm

https://www.religionswissenschaft.uzh.ch/de/studium/bachelor/religiousstudies.html

https://vu.nl/en/education/bachelor/programmes

https://ugla.hi.is/kennsluskra/index.php?tab=nam&kennsluar=2024&flaturlisti=1&id_deild=32

https://www.cityu.edu.hk/catalogue/ug/202122/course/GE2135.pdf

https://jmi.ac.in/upload/jamiadocs/JAMIA/syllabus_mphil.pdf

https://ababuddha.ru/uchebnyj-plan/

https://msk.postupi.online/vuz/rggu/programma/6125/varianti/

https://minobrnauki.gov.ru/press-center/news/novosti-ministerstva/80086/

http://results.amucontrollerexams.com/papers/photos/SHMTA134163syl.pdf (s.10)

https://philos.msu.ru/node/509

İslamda köklü dini ənənələrdən bəhrələnən Quran hafizliyinin ölkəmizdəki bugünkü vəziyyəti və gələcəyi

f.f.d. Şahin Xancanov,
Şəki İslam Kollecinin direktor müavini
Şəki, Azərbaycan
sahin_xancanov@hotmail.com
https://orcid.org/0000-0001-7858-928X

Xülasə

Məqaləmizdə Quran hafizliyinin mahiyyəti, əhəmiyyəti və Azərbaycandakı vəziyyətindən bəhs edəcəyik.. Hafizlik Qurani-Kərimi əzbərləmək mənasında İslam tarixində köklü ənənələrdən biridir. Qurani-Kərim qədər yaşı olan bu ənənəyə tarixboyu bütün müsəlman cəmiyyətləri xüsusi diqqət göstərmiş, hər dövrdə də çoxlu sayda Quran hafizi yetişmişdir. Bu gün də müsəlman ölkələrində həmin ənənə güclü şəkildə yaşamaqda, hər il dünya üzrə onminlərlə Quran hafizi yetişməkdə, çox sayda beynəlxalq hafizlik müsabiqələri təşkil edilməkdədir. Ölkəmizdə də İslam tarixi qədər qədim olan bu ənənədə sovet dövründə bir qopuqluq yaşansa da, müstəqillik sonrasında hafizlik təkrar bərpa edilmiş, Azərbaycanda Quran hafizləri az da olsa, yetişmişdir. Fəqət, digər aparıcı müsəlman ölkələrinə nəzərən, Azərbaycanda bu işə diqqətin istənilən səviyyədə olmadığı görünür. Dini təhsil işinə dövlət səviyyəsində diqqət və qayğının artması sevindirici hal olmaqla yanaşı, qənaətimizcə, dini təhsil işinin ayrılmaz bir parçası olan hafizlik ənənəsi bu diqqət və qayğıdan kənar qalmamalıdır. Məqalədə Quran hafizliyinin əhəmiyyəti və ölkəmizdəki vəziyyəti üzərində dayanacaq, bu ənənənin dövlət səviyyəsində dəstəklənməsi və yaşadılması yönündə bəzi təkliflər verəcəyik.

Açar sözlər*: Azərbaycan, dini təhsil, Qurani-Kərim, hafizlik, hifzül-Quran.*

The Current Status and Future of Quran Memorization in Our Country, Which Benefits from Deep-rooted Religious Traditions in Islam

PhD Shahin Khanjanov
Assistant Director,
Sheki Islamic College
Sheki, Azerbaijan
sahin_xancanov@hotmail.com
https://orcid.org/0000-0001-7858-928X

Abstract

My article will focus on the essence, importance and status of memorizing the Qur'an in Azerbaijan. Memorization of the Holy Quran is one of the deep-rooted traditions in Islamic history. Throughout history, all Muslim societies have paid special attention to this tradition, which is as old as the Holy Quran, and a large number of Quran memorizers have grown up in every era. Even today, this tradition is strongly maintained in Muslim countries, tens of thousands of Quran memorizers are trained every year, and many international memorization competitions are organized every year. Although this tradition, which is as old as the history of Islam in our country, was interrupted during the Soviet era, it was restored after independence, and Quran memorization has matured in Azerbaijan. However, it is seen that the attention to this work in our country is still not at the desired level compared to other leading Muslim countries. Today, the increase in attention and care at the state level to the work of religious education is a gratifying thing, and in our opinion, the tradition of memorization, which is an integral part of the work of religious education, should not be left out of this attention and care. The article will focus on the essence, importance and historical roots of Quran memorization in our country, and some suggestions will be made for the support and preservation of this tradition at the state level.

Keywords: *Azerbaijan, religious education, The Holy Quran, Quran memorization, Hifz al-Qoran.*

Современное состояние и будущее запоминания Корана в нашей стране, которое опирается на глубоко укоренившиеся религиозные традиции ислама

д.ф.ф. Шахин Ханджанов
Шекинский исламский колледж,
Заместитель Директора
Шеки, Азербайджан
sahin_xancanov@hotmail.com
https://orcid.org/0000-0001-7858-928X

Резюме

Моя статья будет посвящена сути, важности и статусу запоминания Корана в Азербайджане. Запоминание Священного Корана является одной из глубоко укоренившихся традиций в истории ислама. На протяжении всей истории все мусульманские общества уделяли особое внимание этой традиции, которая так же стара, как Священный Коран, и в каждую эпоху росло большое количество запоминающих Коран. Даже сегодня эта традиция прочно поддерживается в мусульманских странах, ежегодно обучаются десятки тысяч запоминающих Коран, ежегодно организуется множество международных соревнований по запоминанию. Хотя эта традиция, столь же старая, как история ислама в нашей стране, была прервана в советское время, после обретения независимости она была частично восстановлена, и в Азербайджане заучивание Корана достигло зрелости. Однако видно, что внимание к этой работе в нашей стране все еще находится не на должном уровне по сравнению с другими ведущими мусульманскими странами. Сегодня отрадно видеть возросшее внимание и заботу на государственном уровне к делу религиозного просвещения, и, по нашему мнению, традиция заучивания, являющаяся неотъемлемой частью дела религиозного просвещения, не должна оставаться вне этого внимания и заботы. В статье будут рассмотрены суть, значение и исторические корни заучивания Корана в нашей стране, а также даны некоторые предложения по поддержке и сохранению этой традиции на государственном уровне.

Ключевые слова: *Азербайджан, религиозное образование, Священный Коран, заучивание Корана, Хифз аль-Коран.*

Giriş

Hafizlik İslam tarixi qədər qədimdir. Məhəmməd Peyğəmbərin (s) özü ilk hafiz idi. Cəbrayıl mələyin endirdiyi Quran ayələrini vəhy katiblərinə yazdırırdı. Eyni zamanda, Quran ayələri onun hafizəsinə Allah tərəfindən həkk olunurdu. İlk müsəlmanlar da, eyni zamanda, Quranı öyrənməyə və əzbərləməyə əhəmiyyət verir, hafizliyi dini vəzifə, böyük şərəf sayırdılar. Quranın qorunub-saxlanması məqsədinə xidmət edən hafizlik, beləcə, müsəlmanlar arasında köklü ənənə halını almış, İslamın ilk dövrlərindən günümüzədək güclü şəkildə mühafizə olunmuşdur. Bir çox müsəlman hazırda övladının hafiz olmasına önəm verməkdə, bunu dini vəzifə, şərəf və etibar mənbəyi saymaqdadır. Müsəlman cəmiyyətlərində də hafizlərə hörmət və qayğı güclü şəkildə davam edir. İslam dünyasında bu ənənəni davam etdirən çox sayda məktəbdən minlərlə Quran hafizi yetişməkdə və hər il beynəlxalq hafizlik müsabiqələri təşkil edilməkdədir. Hafizlik, eyni zamanda, dini təhsilin mühüm parçası olmağa davam edir. Belə ki, ilahiyyat sahəsində təhsil alanların və dini ayinlərin icraçılarının hafiz olmaları arzu edilməkdədir. Hafizlik isə belə şəxslərin önə çıxmalarına kömək göstərir.

Qeyd edək ki, ölkəmizdə köklü dini ənənələrdən bəhrələnən Quran hafizliyi İslamın Azərbaycanda yayılması illərinə qədər gedib-çıxan tarixi köklərə sahibdir. Sovet dövründə bu ənənə kəsintiyə məruz qalsa da, müstəqilliyin bərpasından sonra ölkəmizdə təkrar Quran hafizləri yetişməyə başladı. Məqaləmizdə hafizliyin mahiyyətindən bəhs edilmiş, onun tarixi köklərinə nəzər salınmışdır. Həmçinin yazıda hafizliyin müsəlman ölkələrindəki bugünkü durumuna da diqqət yetirilmişdir.

Araşdırmadahafizliyin ölkəmizdəki vəziyyəti barədə məlumat verilib. Məqalədə hafizlik məktəbi kimi tanınan Şəki İslam Kollecində hafizlik proqramının fəaliyyəti, sözügedən təhsil müəssisəsində yetişən hafizlər barədə statistik məlumatlara yer verilib, hafizlik işi ilə bağlı qarşıya çıxan çətinliklərə toxunulub.

Yazının sonunda hafizlik ənənəsinin qorunub-saxlanması və dəstəklənməsi yönündə bəzi təkliflərə yer verilib.

1. Hafizliyin mahiyyəti və tarixi kökləri

Ərəb dilində “qoruyan, əzbərləyən, sirr saxlayan” kimi mənalara gələn “hafiz” kəlməsi dini terminologiyada “Qurani-Kərimi başdan-sona əzbərləyən şəxs” mənasında işlədilir. Hədis əzbərləyənlərə “hafiz”

deyilsə də, əsasən, “hafiz” deyildikdə Quranı əzbərləyən başa düşülür. “Hafiz” kəlməsinin yerinə “qurra, hamilul-Quran, sahibul-Quran, əhlül-Quran, camiul-Quran” ifadələri işlədilsə də, “hafiz” termini bunlar içərisində ən çox istifadə edilən olmuşdur (Bozkurt, 1997, 74-75; Kurt, 2012, 230-232; Çimen, 2011, 307-308).

Məhəmməd peyğəmbər (s) nazil olan Quran ayələrini vəhy katiblərinə yazdırdığı kimi, onları həm özü əzbərləyər, həm də səhabələrinə təlim edərək əzbərlədərdi. Əzbərləmək – o dövrdə əsas öyrənmə vasitəsi kimi qəbul edilirdi. Cəmiyyətdə oxumaq və yazmaq yayılmadığı dövrlərdə öyrənmək və məlumatları qoruyaraq nəsildən-nəslə ötürmək işi daha çox əzbərləmək vasitəsilə həyata keçirilirdi (Kurt, 2012, 230). Beləliklə, Quranın əzbərlənməsi onun qorunması işinə xidmət edirdi. Qurani-Kərimdə də buyurulduğu kimi, Allah-Taala Quranı qoruyacağını vəd etmişdi (“əl-Hicr”, 9). Təbii ki, bu iş insanların əli ilə olacaqdı və belə də oldu. İlk müsəlmanlar bu şərəfli missiyada yer almaq üçün Quranı əzbərləyir, yazır və ehkama əməl edib onu qorumaq işində canla-başla iştirak etməyə çalışırdılar (Özbek, 2015, 185). Quranı əzbərləyən hafizlərin sayı nə qədər çox olardısa, Kitab daha güclü qorunar və onun təhrifi daha imkansız olardı. Beləliklə, Quranı əzbərləmək İslamın ilk dövrlərindən etibarən güclü ənənə halını almışdı. Yazının məşhurlaşdığı və Quranın qorunması baxımından təhlükənin qalmadığı sonrakı dövrlərdə də əzbərləmək işi əhəmiyyətini itirməyib, günümüzə qədər ənənə olaraq qorundu. İslam alimləri Qurani-Kərimi əzbərləyərək, hafiz olmağın hökmünün fərzi-kifayə olduğu qənaətinə gəlmişlər (Xadimi, 2007, 33, Kurt, 2012, 10). Yəni hər dövrdə müsəlmanların bir qismi Quranı əzbərləməli, hafizlik ənənəsi hər mərhələdə və hər bölgədə mütləq davam etməlidir. Əks halda, müsəlmanlar Qurani-Kərimi qorumaq işində nöqsana yer verdiklərinə görə Allah qarşısında məsuliyyət daşıyacaqlar (Zərkəşi, 1391 h, 456). İslam alimlərindən Cüveyniyə (v. 1085) görə, Qurani-Kərimi əzbərləmək fərzi-kifayə olduğuna görə, hər dövrdə çoxlu hafiz yetişməlidir. Bununla da Quranda hər hansı təhrif və dəyişiklik iddiası gündəmə gələrsə, onun qarşısını almaq mümkün olsun. Bu, yerinə gələrsə, hər kəs məsuliyyətdən azad olar. Əks təqdirdə, bütün müsəlmanlar günahkar olarlar (Zərkəşi, 1391 h, 456). Quran həm əzbərlənir, həm də qorunması üçün yazılıb mühafizə edilirdi. Qurani-Kərimi yazan çoxlu sayda vəhy katibi mövcud idi. Bəzi qaynaqlarda vəhy katiblərinin sayının 65-ə qədər yüksəldiyi ifadə edilir. Məhəmməd peyğəmbər (s) Qurandan

bir ayə nazil olunca vəhy katiblərindən birini və ya bir neçəsini çağırır, onlara Quran ayələrini yazdırır və beləcə, Kitab dəqiqliklə mühafizə edilirdi (Mertoğlu, 2012, 447-449).

İlk müsəlmanları Quranı əzbərləməyə sövq edən başqa bir amil isə onların Kitaba verdikləri dəyər və Ona yüklədikləri məna idi. Qurani-Kərim ilk müsəlmanların həyatlarının mərkəzində yer alırdı. Səhabələr nazil olan Quran ayələrini vaxt itirmədən öyrənməyə və tətbiq etməyə səy göstərirdilər. Onlar bir ayəni mənimsəyib həyatlarında tətbiq etmədən başqa ayələrə keçməzdilər (Kurt, 2012, 235, Cebeci, 7). Peyğəmbərimizin bu mövzudakı təşviqedici hədisləri müsəlmanları bu işə daha böyük həvəslə yanaşmağa sövq edirdi. Belə ki, Peyğəmbərimiz Quran hafizlərini ümmətinin ən şərəfliləri, Allahın xas qulları kimi vəsf etmiş, Kitabı öyrənmək və öyrətməyin ən xeyirli iş olduğunu buyurmuş, müqəddəs mətnləri oxumağın ən fəzilətli ibadət olduğunu bildirmişdir. O, Qurandan bir ayə öyrənməyin yüz rükət namaz qılmaqdan üstün olduğunu və Kitabdan oxunan hər hərfə qarşılıq on savab veriləcəyini ifadə etmişdir (Çakır, 2018, 121-136). Peyğəmbərimiz əshabından Quranı əzbərləyənləri digərlərindən üstün tutur, savaşlarda çox vaxt bayrağı hafizlərə verir, bir qrupu bir yerə göndərdiyi zaman onlara imam olaraq Quranı ən yaxşı oxuyanı təyin edirdi. Başqa bir çox işdə də Quran hafizlərini önə çıxarırdı. Bu və bənzər hədislər, həmçinin Peyğəmbərin hafizlərə qarşı münasibəti müsəlmanları hərəkətə gətirmiş, gənc, yaşlı, qadın, kişi bütün müsəlmanlar Quranı oxumaq, əzbərləmək və anlamaq üçün sanki bir-birləri ilə yarışmışlar (Öztürk, 2005, 216, Kurt, 2012, 236).

Quranın əzbərlənməsini asanlaşdıran digər cəhət onun hissə-hissə nazil olması idi. İyirmi üç il davam edən Quranın nazilolma prosesi müsəlmanlara Kitabı əzbərləmək işini asanlaşdırırdı. Hər dəfə bir və ya bir neçə ayə nazil olur, müsəlmanlar həmin ayələri rahat əzbərləyib mənimsəyir, növbəti ayələrin nazil olmasını gözləyirdilər. Ayələr çox vaxt gündəlik həyatda baş verən hadisələr zəminində nazil olurdu. Bu da onların daha yaxşı anlaşılması və asan yadda saxlanılmasına kömək edirdi. Namazda ayrıca Quran oxumaq bir məcburiyyət idi. Namaz qılmaq hər müsəlmana fərz olunduğundan, onlar mütləq şəkildə Qurandan bəzi hissələri əzbərləməli idilər. Peyğəmbər namazlarda Qurandan o vaxta qədər nazil olan bütün yerləri oxuyur və bunu əshabına da tələqin edirdi (Özbek, 2015, 185).

Nəticədə, Peyğəmbər dövründə və sonrakı mərhələdə çoxlu sayda Quran hafizi yetişmiş və həmin hafizlər Qurani-Kərimin təlimi, tədrisi, əzbərlənməsi və sonrakı nəsillərə ötürülməsi işində böyük xidmətlərə imza atmışlar. Səhabə dövründə Qurani-Kərimi əzbərləyənlər arasında ən məşhurları bunlardır: ilk dörd xəlifə, Əbu Dərda, Zeyd ibn Sabit, Übey ibn Kəb, Übadə ibn Samit, Xalid ibn Zeyd, Abdullah ibn Məsud, Talha ibn Übeydullah, Hüzeyfə, Əbu Hüreyrə, Abdullah ibn Abbas, Abdullah ibn Əmr, Muaz ibn Əvs, Abdullah ibn Ömər, Abdullah ibn Zübeyr, Muaz ibn Cəbəl, Aişə və Ümmu Sələmə (Öztürk, 2005, 215).

Peyğəmbərimiz ətraf qəbilələrə Quran müəllimləri kimi hafizləri göndərirdi. Peyğəmbərin vəfatından bir il sonra baş vermiş Yəmamə müharibəsində 70 və hicrətin 63-cü ilində Harrə müharibəsində 700 hafiz şəhid olmuşdur. Bu da o dövrlərdə hafizlərin sayının nə qədər çox olduğu barədə bizə bir bilgi verməkdədir (Çakır, 2018, 120, Kurt, 2012, 239). Öndə gələn səhabələrdən Əbu Musa əl-Əşəri Bəsrə valisi ikən Xəlifə Ömərə yazdığı məktubda Bəsrədə çoxlu sayda hafiz yetişdiyini bildirmişdir. Əbu Musa əl-Əşəri həmin hafizlərə maaş verilməsini təklif etmiş, Həzrət Ömər də bu fikri qəbul etmişdir. Peyğəmbər dövründə hafizliyini bitirmiş səhabələrdən Əbu Dərda Rəsulullahın vəfatından sonra yeni fəth olunmuş Suriya bölgəsinə getmiş, burada məscidlərdə Quran tədrisi və hifzi ilə məşğul olmuşdur. Onun dərslərində iştirak edən Quran hafizlərinin sayının 1600-ə çatdığı nəql olunur (Şahin, 2016, 596).

İlk dövr hafizlikdə əzbərlənən ayələrin mənasını anlamaq və onlara əməl edib bu yöndə istiqamət almaq ön planda idisə, daha sonrakı mərhələdə ərəb olmayan digər millətlərin də müsəlman olması meydana çıxdı. Bu mərhələdə Quranın təkcə mətninin əzbərlənməsi və mənasının sonradan öyrənilməsi yayılmışdır. Belə ki, Həzrət Ömər "Bəqərə" surəsini 12 ilə əzbərləmiş və tam olaraq həyatında tətbiq etdikdən sonra, digər surələri əzbərləməyə keçmişdir (Çimen, 2011, 304). Digər səhabələrdə də vəziyyət buna oxşar idi. Onlar Quran ayələrini tək-tək əzbərləyir, onları tam mənimsəyir və əməl edir, daha sonra digər ayələri əzbərləməyə keçirdilər. Beləliklə, Məhəmmədin (s) dövründə Quranı əzbərləyənlərin sayı çox olsa da, onlardan hafizliyini bitirənlərin sayı elə də çox deyildi (Kurt, 2012, 239). Bunun bir səbəbi də həmin dövrdə Quranın nazil olmaqda davam etməsi, hələ yekun-

laşmaması idi. Digər səbəb də var idi – səhabələr Quranı təkcə əzbərləməklə kifayətlənmirdilər. Onlar Quran ayələrini tək-tək mənimsəyib tətbiq etdikdən sonra, digərlərini əzbərləməyə keçirdilər.

Hafizlik işi ilk vaxtlar, əsasən, məscidlərdə aparılırdı. Mədinədə Peyğəmbər məscidində "suffə" adlanan məkanlarda 700-ə yaxın səhabənin Quran öyrəndiyi və əzbərlədiyi bildirilir. Bundan başqa, Mədinədə daha doqquz məsciddə Quran hafizliyi işi aparılırdı. Bəziləri evlərdə də hafizlik dərsləri təşkil edirdilər. Məkkədə Ərkam, Mədinədə isə Məhrəmə ibn Növfəl və Səd ibn Heysəmə öz evlərini hafizlik tədrisi üçün ayırmışdılar (Çimen, 2011, 315). Məscidlərdə hafizlik təhsili uzun illər davam etsə də, sonrakı dövrlərdə, artıq Quran tədrisi və əzbərlənməsi üçün müstəqil məkanlar təsis edilməyə başlandı. "Darul-qurra", "Darul-huffaz", "Darul-Quran" adları ilə çağırılan bu müəssisələr, mədrəsələrlə yanaşı, İslam tarixi boyunca Quran təhsili və hafizlik məktəbləri kimi xidmət göstərmişlər. Orta əsrlər boyu İslam ölkələrində hafizliyə verilən dəyər artmış, onlar üçün mədrəsələr qurulmuş, yardımlar və təqaüdlər təsis edilmişdir. Hafizliyi bitirənlər üçün təntənəli mərasimlər təşkil edilirdi. Osmanlıda mərasimlərdə hafizlər at üstündə "Fəth" surəsini oxuyaraq, alay köşkünün önündən keçirdilər. 1600-cü illərdə yaşamış məşhur tarixçi səyyah Övliya Çələbi İstanbulda 3000-i qadın olmaqla, 9 000 hafizin mövcud olduğundan bəhs edir. Səyahətnaməsində Şamaxı haqqında da məlumat verən Çələbi Şamaxıda 7 mədrəsənin və 42 məscid məktəbinin varlığını ifadə edir (Çələbi, 1971, 530).

Azərbaycanda 1850-ci illərdəki statistikaya görə, 713 mədrəsə və məscidlərə bağlı məktəb fəaliyyət göstərirdi (Tağıyeva, 2019, 76). Bütün bu mədrəsə və dini məktəblərin Quran təhsilinə xüsusi yer ayırdıqlarını nəzərə aldıqda, o dövrlərdə çoxlu sayda hafizin bu mədrəsə və məktəblərdə yetişdiyini rahatlıqla söyləyə bilərik. Hafizlik Orta əsrlər boyu din təhsili sahəsində əhəmiyyətli bir sahə kimi qəbul edilirdi. Bir çox İslam alimi ilahiyyat təhsili almaq istəyənlərin hafiz olmalarına böyük əhəmiyyət verir, Quran qiraəti sahəsində ixtisasa yiyələnəcək tələbələrə hafizliyi şərt kimi irəli sürürdülər. Əslində, o dövrlərdə əksər uşaqlar ilk təhsillərinə mədrəsələrdə Qurani-Kərimi öyrənməklə başlayır, sonra isə bir çox tələbə dini təhsilə davam edirdi (Çinar, 2016, 190). Dini təhsil üçün də adətən, hafizlik lazımlı sahə kimi qəbul olunduğuna görə, o dövrdə hafizlərin sayının çox böyük rəqəmlərə çatdığını təxmin etmək mümkündür. Uşaqların kiçik

yaşlarından hafizliyə başlamalarına əhəmiyyət verilirdi. Bununla birlikdə mədrəsələrdə, adətən, uşaqlar 10 yaşlarında hafizliyə başlayrdılar. Bundan əvvəl ilk təhsili tamamlamaq, hafizliyə hazırlıq mərhələsini bitirmək lazım gəlirdi. Evlərdə özəl müəllimlərin nəzarətində hafizlik edən uşaqlar isə daha kiçik yaşlarında hafizliyə başlamaq imkanına malik olurdular (Cebeci, 12).

2. Günümüzdə İslam dünyasında hafizlik və bu istiqamətdə tətbiq edilən metodlar

Hafizlik tarixən olduğu kimi, günümüzdə də güclü bir ənənə kimi yaşamaqda və minlərlə hafiz yetişməklə davam etməkdədir. Hər il dünya üzrə hafizlik müsabiqələri təşkil edilir, müsabiqələrdə qalib gələnlərə böyük mükafatlar verilir. Quran təhsilinin ayrılmaz hissələrindən biri olan hafizliyin Müqəddəs Kitab mövcud olduqca, yaşamağa davam edəcəyini söyləyə bilərik. Dünya üzrə hafizlərin tam statistikası və sayı barədə dəqiq məlumatımız olmasa da, günümüzdə milyonlarla hafizin mövcud olduğunu demək mümkündür. Müsəlman əhalisinin çoxluğu ilə önə çıxan İndoneziya, Pakistan, Banqladeş, Nigeriya, Misir, Hindistan, İran və Türkiyə hafiz sayında öndə gələn ölkələrdir. Həmin ölkələrdə hafizlərin sayı barədə tam statistik məlumata sahib olmasaq da, əlimizdə olan bəzi məlumatlar həmin ərazilərdə hafiz sayının böyük rəqəmlərə çatdığını deməyə əsas verir. Məsələn, Pakistanda təkcə 2019-cu ildə 78 000 nəfər hafizliyini bitirmişdir; İndoneziyada 2014-cü ildə böyük bir futbol stadionunda təşkil edilmiş hafizlik mərasiminə 120 000 təzə hafiz qatılmışdır. Bu ölkədə hafiz sayının, təxminən, 2 milyon olduğu bildirilir; Liviyada hafiz sayının keçənilki rəqəmlərinə görə, 2 milyon 300 minə çatdığı haqqında məlumat var; Mərakeşdə hafiz sayı 1 milyon yarımı keçib; İordaniyada 1 000 hafizlik məktəbində Quran hafizliyi tədrisi davam edir; Səudiyyə Ərəbistanındakı hafizlik məktəblərində 2015-ci ildə 245 min tələbə Quranı əzbərləməkdə idi (Gündoğdu, 2017, 125, Şahin, 2016, 602). Türkiyədə hafizlik Dəyanət İşləri Başqanlığına bağlı Quran kurslarında, İmam-Xətib liseylərində, ilahiyyat fakültələrində güclü şəkildə davam edir. Keçənilki məlumata görə, Türkiyədə 200 mindən çox hafiz imtahandan keçib hafizlik diplomu almışdır. Diplom almayan daha 400 minə yaxın hafiz var. Təkcə 2023-cü ildə 13 334 nəfər hafizlik diplomu almışdır (https://diyanet.gov.tr).

Türkiyədə 1997-ci ildən 2012-ci ilədək tətbiq edilən səkkizillik məcburi əyani orta məktəb təhsili sistemində hafizliyin zəiflədiyi və bir çox Quran kurslarının hafizlik üçün tələbə tapa bilməməsi səbəbindən bağlandığı deyilir. Bu sistem 2012-ci ildə ləğv edilmiş, dördillik ibtidai təhsildən sonra IX sinfə qədər məktəbi "dışarıdan oxumaq" tətbiq edilmişdir. Qiyabi təhsilə icazə verildikdən sonra hafiz tələbə sayında ciddi artım baş vermiş, hafiz sayları sürətlə çoxalmışdır (Algur, 2021, 184, Vahapoğlu, 2016, 2, 148). Hazırkı sistemlə şagirdlər V sinifdən IX sinfədək məktəbi qiyabi oxuya və bu müddət ərzində Quran kursuna yazılıb hafiz ola bilərlər. Bu sistem üzrə hafizliklə məşğul olan şagirdlər hafizliklərini daha qısa müddət ərzində bitirə bilirlər. Şagirdlər IX sinifdən etibarən, əyani təhsillərini davam etdirirlər.

Türkiyədə hafizlik tədrisinə yer verən Dəyanət İşləri Başqanlığına bağlı Quran kurslarında əgər tələbə hafizlik edəcəksə, tədris 3 il nəzərdə tutulur. Dərs saatları həftədə 24 saatdır. Bunun 20 saatı Qurani-Kərim, 4 saatı isə dini biliklər dərslərinə ayrılmışdır. Hafizliyini bitirənlər Dəyanət İşlərinin hər il keçirdiyi hafizlik imtahanına qatılır və uğurla keçərlərsə, hafizlik diplomu alırlar (Cebeci, 7). Hafizlər sonradan Qurana dair biliklərini daha da təkmilləşdirmək və Quranın fərqli qiraətlərini öyrənmək üçün Dəyanət İşləri Başqanlığına bağlı Aşərə Təqrib və Tayyibə kurslarında tədrislərini davam etdirmək imkanına malikdirlər. Bu kurslarda 3 il müddətində Quranın 10 qiraətinə görə oxunuş üsulları öyrədilir (Çimen, 2011, 318). Türkiyədə Quran kurslarından əlavə, İmam-Xətib liseylərində və ilahiyyat fakültələrində oxuyan tələbələr də hafizlik etmək imkanına malikdirlər (Algur, 2021, 185).

Dünyada hafizlik tədrisi ilə bağlı bir neçə metod ön plana çıxır. Məqaləmizdə bu metodlardan bəzilərinə yer verəcəyik. Bunlar aşağıdakılardır:

– ənənəvi Osmanlı metodu;
– Misirdə tətbiq edilən metod;
– Mavritaniya metodu;
– Malayziyada tətbiq edilən metod;
– Sudan və digər Afrika ölkələrində məşhur olan metod;
– ərəb ölkələrində tətbiq edilən metod;
– Avropada İGMG (İslam Toplumu Milli Görüş) təşkilatına bağlı hafizlik kurslarında tətbiq edilən metod.

Türkiyədə və ölkəmizdə – Şəki İslam Kollecində tətbiq olunan ənənəvi Osmanlı metodunda hafizlik hər cüzün son səhifəsini, yəni sırası ilə 20, 40, 60, 80... əzbərləməklə başlayır. Tələbə səhifəni üzündən bir neçə dəfə oxuyur, ardından onu əzbərləməyə keçir. Əzbər daha rahat olsun deyə, səhifə hissələrə bölünüb əzbərlənir. Növbəti gün səhifə dərsdə hafizlik müəlliminə əzbərdən oxunur. Tələbə əzbərini güclü şəkildə təhvil verərsə, o, səhifəni keçmiş sayılır və növbəti səhifəyə keçir. Beləliklə, hər gün bir səhifə əzbərləməklə Qurani-Kərimdəki 30 cüzün hər birinin son səhifəsinin əzbəri 30 gündə tamamlanır.

İkinci dövrədə tələbələr hər cüzün 19-cu səhifələrini əzbərləyir, ondan əvvəl əzbərlədiyi 20-ci səhifəni təkrar edib, gündəlik iki səhifə dərs oxuyur. Beləcə, hər dövrədə səhifələr artır, davam edir və 20-ci dövrədə Qurani-Kərimin tamamı əzbərlənmiş olur. Əzbər bitdikdən sonra ara vermədən təkrara başlanır. Hafizliyin güclü hala gəlməsi üçün əzbərlənən bütün səhifələrin bir neçə dəfə başdan-sona təkrar edilməsi lazımdır. Bu sistemdə hafizliyini təzə bitirmiş tələbə gündə bir cüz, yəni 20 səhifəni əzbərdən müəllimə oxuyur. Təkrarlar artdıqca, cüzlər də çoxalır və gündə 3, 5, 6, 10, hətta 15 cüzə qədər çıxılır, sonda Qurani-Kərimin tamamı bir gündə müəllimə əzbərdən oxunur, hafizlik əla səviyyəyə gətirilir. Bundan sonra, artıq hafizin ara-ara təkrar etməsi hafizliyini qoruması üçün kifayət edəcəkdir. Osmanlıda əsrlərdir, tətbiq edilən bu metod hazırda Türkiyədə və ölkəmizdə geniş yayılıb. Bu metodu digər üsullar arasında hafizlik üçün ən əlverişli qayda saymaq mümkündür (Özbek, 2015, 187).

Misirin paytaxtı Qahirədə tətbiq olunan metodda isə hafizliyə kiçik yaşlarda başlamaq əsasdır, kursda tələbə sayı 50-ni keçməməlidir. Bu, müəllimlərin onlara daha çox vaxt ayıra bilməsi baxımından mühüm hesab edilir. Dərslər səhər tezdən başlayır, hafizlərin, eyni zamanda, Quranı gözəl oxuyan (qari) kimi yetişdirilməsinə önəm verilir. Bunun üçün tələbələrə səs və gözəl oxuma təlimləri verilir və onların Quranı gözəl oxuyan qarilərin oxumalarına qulaq asmaları əhəmiyyət kəsb edir. Misir metodunda dinləyərək əzbərləmə metoduna xüsusi önəm verilir. Əzbər sırasına gəlincə, öncə Quranın son 5 cüzünü əzbərləmək və sonra başdan başlanaraq sona doğru bitincəyədək əzbərə davam etmək şəklində bir yol izlənilir. Hər yeni səhifə ilə birlikdə əvvəlcədən əzbərlənən səhifələr də təkrarlanır, cəm halında müəllimə oxunur. Səhifə sayı 20-yə çatdıqda, əvvəldən əzbərlənən səhifələr buraxılır və yenidən 20 səhifəyə qədər eyni metod tətbiq olunur (Özbek, 2015, 192).

Mavritaniya metodu isə çoxlu oxuma və təkrara söykənir. Çətin metod kimi tanınır. İlk gün səhifə zəif də olsa, əzbərlənir və 500 dəfə təkrar edilir. Növbəti gün digər səhifəyə eyni metod tətbiq edilir və bir gün öncəki səhifə 150 dəfə təkrar olunur. Üçüncü gün yeni səhifə 500, əvvəlki səhifə 150, ən birinci səhifə 50 dəfə təkrarlanır. Dördüncü gün 500, əvvəlki səhifə 150, ən birinci səhifə 50 dəfə və birinci səhifə 10 dəfə təkrar olunur. Sonrakı günlər eyni qaydada davam edir. Təkrara həddindən artıq yer verən bu metod çətin bir qayda kimi qəbul edilir (Özbek, 2015, 191).

Sudan və bəzi Afrika ölkələrində məşhur olan metoda gəlincə, bu, Quranı yazaraq əzbərləmək metodudur. “Elmin ancaq yazaraq əldə ediləcəyi” anlayışından qaynaqlanan bu metodda tələbə hafizlik müəllimindən əzbərləyəcəyi səhifəni dinləyir və onu əlində tutduğu lövhəyə yazır. Hər bir tələbəyə verilən taxta lövhənin uzunluğu 50 sm, eni 25 sm.-dır. Tələbələr müəllimin ətrafında halqa şəklində oturur, müəllim ayələri əzbərdən oxuyur, tələbələr də eşitdiklərini yazıya alırlar. Əzbər yarım səhifə şəklində müəllimə oxunur və 3 səhifə bitdikdən sonra, təkrara bir gün vaxt ayrılır. Əzbər üçün ən əlverişli vaxt səhər vaxtı qəbul edildiyindən, tələbələr səhifələrini sübh namazı vaxtında əzbərləyirlər. “Halva” adı verilən hafizlik məktəblərinə tələbələr 7 yaşından etibarən qəbul edilirlər (Şahin, 2016, 601). Bəzi Afrika ölkələrində də bunabənzər hafizlik metodları tətbiq edilir (Marega, 2020, 78-90).

Səudiyyə Ərəbistanında tətbiq edilən metod isə hafizliyi uzun illərə bölüb bitirməyi məqsəd güdür. Ölkədə 2000-dən çox hafizlik məktəbi mövcuddur. Bu müəssisələr tam orta məktəb statusunda qəbul edilir. Digər orta məktəblərdən fərqi isə burada Qurani-Kərim dərslərinin çox olmasıdır. Hafizlik məktəbinə ibtidai sinifdən daxil olan şagird orta təhsilini, yəni IX sinfi bitirincəyədək hafizliyini tamamlayır. Ardından üçillik tam orta təhsil müddətində hafizliyini təkrar edir. İbtidai təhsil müddəti sayılan ilk 6 il Quranın yarısını, orta təhsil müddətində isə digər hissəsini əzbərləyir. Əzbərə Quranın son cüzündən başlanır və sondan əvvələ doğru irəlilənir (Gündoğdu, 2017, 126-127).

Malayziyada tətbiq edilən bir metodda isə hafizlik tələbələr arasında qrup şəklində aparılır. Tələbələr qruplara bölünür və səhifələr onlar tərəfindən birlikdə əzbərlənir. Gündə dörd dəfə məlum aralıqlarla tələbələr bir yerə gəlir və əzbərləyəcəkləri səhifələri bir-birlərinə çoxlu

sayda oxuyurlar. Çoxsaylı təkrardan sonra əzbərlənən səhifə müəllimə oxunur (Özbek, 2015, 192).

Avropadakı müsəlman türklər tərəfindən qurulan İGMG (İslam Birliyi Milli Görüş) təşkilatına bağlı hafizlik kurslarında da hər il çoxlu hafiz yetişir. Hər il Avropa üzrə hafizlik və Quranı gözəl oxuma yarışları təşkil edilir. Təşkilata bağlı hafizlik kurslarında, əsasən, Türkiyədə tətbiq edilən ənənəvi Osmanlı metodu izlənilir. Oradakı kursların Türkiyədəkindən fərqi budur ki, tələbə həmin məkanda gecələmir və hər gün evinə gedib-gəlir. Türkiyədəki hafizlik kurslarında isə tələbələr əksəriyyət say hesabı ilə kursda qalır. Bunun isə hafizlik baxımından mühüm olduğu qəbul edilir. Hafizlik tələbəsi axşam müəllimlərin nəzarəti altında növbəti günün dərsini əzbərləmək üçün vaxt ayırır və başqa məşğuliyyətlərdən uzaq durur. Evdə isə bu işin istənilən səviyyədə yerinə yetirilə bilməyəcəyi qəbul edilir. Fəqət, Avropada izlənilən bu metod, əslində, tələbənin evdən gedib-gələrək də hafizliyi bacara biləcəyini göstərir. Belə ki, bu metodla hər il çoxlu sayda hafiz yetişir. Təbii ki, bu, valideyn-müəllim arasında sıx əməkdaşlıqla mümkün olur. Valideyn axşamlar kursdakı müəllim mövqeyini tutmalı, övladının dərsini hazırlamasına nəzarət etməlidir (Kahraman, 2017, 41).

3. Ölkəmizdə hafizliyin bugünkü vəziyyəti və gələcəyinə dair bəzi təkliflər (Şəki İslam Kollecində hafizlik)

Məqaləmizin bu hissəsində hafizliyin müstəqilliyin bərpasından sonrakı dövrdən günümüzə qədərki vəziyyəti üzərində durulub. Azərbaycanda hafizlik məktəbi kimi tanınan Şəki İslam Kollecinin hafizlik proqramı haqqında məlumat verilib.

Azərbaycanda hafizliyin tarixi İslam dininin ölkəmizdə yayılması qədər qədimdir-desək, yanılmarıq. İkinci xəlifə Həzrət Ömər dövründən etibarən, İslam dini Azərbaycanda yayılmağa başlamış, eyni zamanda, Quran təhsili də təşəkkül tapmışdlır. Digər müsəlman bölgələrində Quran təhsili sahəsində yaşanan proseslərin bənzəri Azərbaycanda da baş vermiş və sonrakı dövrlərdə ölkədə məscidlərin yanında mədrəsələr, darul-qurralar və darul-huffazlar qurulmuşdur (Səmədov, 2006, 18-25). Məqaləmiz müstəqillik sonrası dövrünü əhatə etdiyi üçün, öncəki mərhələ hafizliyin tarixi üzərində durulmamışdır. Fəqət, mözvuya dair qısaca deyə bilərik ki, ümumiyyətlə, sovet dövrünə qədər Azərbaycanda hər mərhələdə çoxlu sayda Quran hafizi yetişmişdir.

Digər İslam ölkələri ilə bənzər tarixi keçmişi paylaşan Azərbaycanın Quran təhsili və hafizlik sahəsində də həmin ölkələrə oxşar bir təcrübəyə malik olduğunu söyləyə bilərik. Bunu təsdiq edən başqa bir fakt isə İslam tarixi boyunca Azərbaycanda çoxlu mədrəsələrin mövcud olması və şagirdlərin təhsillərini, adətən, məscidlərə bağlı məktəblərdə və mədrəsələrdə almasıdır (Tağıyeva, 2019, 66-74). Sovet dövrünə qədər davam edən bu ənənə bu mərhələdə kəsintiyə məruz qalmış, müstəqilliyin bərpasından sonra dini təhsil işi təkrar canlanmağa başlamışdır. Dini təhsil verən müəssisələr yanında hafizlik də Azərbaycanda təkrar bərpa edilmiş, Quran hafizləri yenidən yetişməyə başlamışdır. Azərbaycanda bu işi indiyədək rəsmi qaydada həyata keçirən yeganə müəssisə Şəki İslam Kolleci olmuşdur. Son illərdə qızlar üçün də Şəbnəm İslam Kollecində hafizlik proqramı açılmışdır. Əvvəlki adı Şəki İslam Mədrəsəsi olan müəssisə ilk dəfə XVIII əsrdə inşa edilmiş, "Ağ məscid" kimi tanınmış, mədrəsə və hamamdan ibarət kompleks kimi fəaliyyət göstərmişdir. Sovet dövrünə qədər fəaliyyət göstərən mədrəsə bu dövrdə bağlanmış və məkan fərqli məqsədlər üçün istifadə olunmuşdur (Abbasov, 2019, 111). Müstəqilliyin bərpasından sonra – 1992-ci ildə məscid təmir edilib, təkrar ibadət üçün açılmış və Şəki Şəhər İcra Hakimiyyətinin 188 nömrəli Sərəncamına əsasən, mədrəsə binasında Şəki İslam Mədrəsəsi fəaliyyətə başlamışdır. Mədrəsə 1997-ci ildə Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatından keçmiş, 2002-ci ildə Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin Şəhadətnaməsi ilə yenidən tanınmışdır. Şəki İslam Mədrəsəsi 2017-ci ilə qədər bu adla tanınmışdır. Həmin il cənab Prezidentin İslam Kolleclərinin yaradılması haqqında əmrinə əsasən 15 mart 2017-ci il tarixindən yenidən dövlət qeydiyyatından keçmiş, Şəki İslam Kolleci adını almışdır (Cavadov, 2022, 31).

Qurulduğu illərdən bəri ilahiyyat istiqaməti ilə yanaşı, hafizlik təhsili də verən kollecdə günümüzə qədər 276 hafiz yetişmişdir. Kollecdə tətbiq edilən hafizlik metodu Türkiyədə mövcud olan ənənəvi Osmanlı üsuludur. Bu qayda haqqında yuxarıda məlumat verildiyi üçün təkrar həmin metoddan bəhs etməyə ehtiyac duymuruq. Quruluşundan bugünədək türkiyəli müsəlman xeyriyyə təşkilatlarının dəstəyini alan kollec hələ də böyük ölçüdə həmin yardımlarla fəaliyyətini davam etdirir. Kollecdə ilk illərdə türkiyəli hafizlik müəllimləri fəaliyyət göstərmişlər. Azərbaycanlı kadrların yetişməsi ilə 15 ilə yaxındır, hafizlik fəaliyyəti yerli müəllimlər tərəfindən icra edilir. Şəki İslam

Kollecində hafizlik təhsili, əsasən, 3 il nəzərdə tutulur. İlk il hafizliyə hazırlıq kursu keçilir və ikinci ildən hafizlik başlayır. Hazırlıq sinfində Qurani-Kərimin üzündən sərbəst şəkildə oxunuşu, təlim, məxrəc və təcvid qaydaları yanında əqaid, elmihal və siyər dərsləri də keçilir. Hazırlıq sinfinin sonunda hafizliyə keçid imtahanı təşkil olunur. İmtahanda tələbələrin əzbər qabiliyyətini ölçmək üçün Qurani-Kərimdən səhifələr təyin edilir və həmin səhifələri müəyyən bir vaxtda əzbərləyib, müəllimə oxumaq tələb olunur. Verilən səhifələri vaxtında və səhvsiz şəkildə əzbərləyən tələbələr hafizliyə qəbul edilirlər. Hafizlik kursunun tələbələri hafizliyin yanında orta məktəb təhsillərinə davam edirlər (Cavadov, 2022, 33-33). Hafizliyini bitirənlər üçün mərasimlər tərtib edilir. Azərbaycandan və Türkiyədən ali qonaqların və rəsmilərin iştirak etdiyi mərasimlər Şəki Mərkəzi Cümə Məscidində təşkil edilməkdə və yerli camaat da tədbirə böyük maraq göstərməkdədir. Mərasimdə hafizlərə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən hafizlik diplomları təqdim edilir. Günümüzə qədər 11 hafizlik mərasimi keçirilmişdir.

Şəki İslam Kollecində hafizliyini tamamlayan 276 hafizdən 166 nəfəri ali təhsillidir. Bunlardan 22 nəfəri magistratura təhsilinə davam etmiş, 6-sı doktorantura təhsilini bitirmiş, doktor ünvanı almış və 1 hafiz dosent ünvanını əldə etmişdir (https://shekiislamkolleci.edu.az/). Fərqli sahələrdə iş həyatına davam edən məzun hafizlərdən 60-ı dini sahədə xidmətinə davam edir. Bunlar arasında ilahiyyat fakültələrində müəllimlik edənləri, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsində xidmət göstərənləri, imam və müəzzinlik işində işləyənləri, İslam kolleclərində xidmət edənləri, Türkiyədə təhsil və dini sahədə xidmət göstərənləri saymaq olar. Bu günə qədər 47 hafiz ölkəmizi 78 beynəlxalq hafizlik yarışmasında təmsil etmiş və yarışmalarda yüksək nəticə əldə edən hafizlərimiz olmuşdur. Türk ölkələrində keçirilən yarışmalarda birinci, ikinci, üçüncü yerləri tutan hafizlərimiz dünya üzrə keçirilən beynəlxalq yarışlarda ilk onluğa girməyi bacarmışlar (Qırğızıstan 1999, 1-ci yer; Tatarıstan 2012, 1-ci yer; Qırğızıstan 1999, 2,3 və 4-cü yerlər; Türkiyə, 2000, 4-cü yer; Türkiyə, 2013, 5-ci yer; İran, 1998, 4-cü yer; İran, 1997, 8-ci yer; Malayziya, 2016, 8-ci yer; Liviya, 2009, 7-ci yer; Misir, 2017, 8-ci yer; BƏƏ, 2006, 10-cu yer).

Hafizlərin rayonlar üzrə statistikasına gəlincə, ilk yerdə 42 hafizlə Şəki rayonu gəlməkdə və onu 38 hafizlə Ağdaş rayonu təqib etməkdədir. Bakıdan 28 hafiz çıxmış ikən, Zaqatala və Qəbələdən 27

hafizimiz var. Bunları 15 hafizlə Saatlı və 14 hafizlə Şamaxı izləyir. Digər rayonlardan – Qubadan 8, Balakən və Oğuzdan 7 hafiz yetişmişdir. Mingəçevir, Göyçay və Ağsudan 5, Şabran, Qobustan, İsmayıllı, Sabirabaddan 4, Qax, Bərdə və Yevlaxdan 3, Ağdam, Gəncə, Astara, Zərdab, Kürdəmirdən 2, Salyan, Cəbrayıl, Şəmkir, Ağstafa, Goranboydan 1 hafizimiz var. Türkiyə və Gürcüstandan da 1 hafizimiz vardır.

İllərə görə hafizlik sayları isə aşağıdakı kimidir: 1995 ci il: 2 hafiz, 1996-cı il: 16 hafiz, 1997-ci il: 17 hafiz, 1998-ci il: 20 hafiz, 1999-cu il: 12 hafiz, 2000-ci il: 14 hafiz, 2001-ci il: 9 hafiz, 2002-ci il: 11 hafiz, 2003-cü il: 5 nəfər, 2004-cü il: 11 nəfər, 2005-ci il: 1 nəfər, 2006-ci il: 18 nəfər, 2007-ci il: 5 nəfər, 2008-ci il: 8 nəfər, 2009-cu il: 10 nəfər, 2010-cu il: 7 nəfər, 2011-ci il: 7 nəfər, 2012-ci il: 2012-ci il: 15 nəfər, 2013-cü il: 5 nəfər, 2014-cü il: 8 nəfər, 2015-ci il: 12 nəfər, 2016-cı il: 17 nəfər, 2017-ci il: 10 nəfər, 2018-ci il: 6 nəfər, 2019-cu il: 5 nəfər, 2020-ci il: 2 nəfər, 2021-ci il: 8 nəfər, 2022-ci il: 9 nəfər, 2023-cü il: 2 nəfər, 2024-cü il: 4 nəfər (https://shekiislamkolleci.edu.az/).

Kollecdə milli-mənəvi dəyərlərimizi mənimsəyən, vətənpərvərlik ruhunda yetişən hafizlərimizdən Vətən müharibəsində iştirak edənlər olduğu kimi, şəhidlik zirvəsinə ucalanları da vardır. Şamaxılı hafizlərimizdən Elgün Quliyev Şuşa uğrunda , , qəbələli Ümman Əmiraslanov Suqovuşan uğrunda gedən döyüşlərdə şəhid olmuşlar.

2017-ci ildən mədrəsənin kollecə çevrilməsindən sonra kollec nizamnaməsinə uyğun olaraq 9-cu sinfi bitirənlər hafizliyə müraciət edə bilirlər. Halbuki əvvəlki dövrlərdə 6 və 7-ci sinfi bitirənlər də hafizliyə müraciət edə bilirdilər. Yeni yaş nizamlaması hafizliyin kollecdə zəifləməsinə gətirib çıxarmışdır. Belə ki, IX sinifdən sonra hafizliyə başlamaq tələbələrə çətin gəlir.Bu yaşda tələbənin yaşı nisbətən artmış olur, həm də onun universitetə hazırlıq dövrü gəlib-çatır. Üstəlik, bu yaşda hafizlik məqsədilə kollecə daxil olan tələbə bir il müddətinə hazırlıq mərhələsi keçəcəkdir. Bu da onun XI sinifdə oxuyarkən hafizliyə başlaması mənasına gəlir. Tələbə məktəblə birlikdə hafizlik etdiyinə görə, onun hafizliyini tez bitirə bilməsi də haradasa qeyri-mümkündür. Orta məktəb bitincə, əsgərlik və ya universitet gündəmə gəldiyindən, bir çox tələbənin hafizliyi yarımçıq qalır. Hafizliyi bitirənlərin təkrara vaxtı qalmadığı üçün hafizlik zəif qalmaqda və bir müddət sonra əzbərlənən yerlər yaddan çıxmaqdadır (Cavadov, 2022, 33). Burada təklif olaraq hafizlik üçün daha kiçik yaşlardan tələbə qəbuluna icazə

verilməsinin yerində olacağını demək istərdik. Hazırkı sistemdə hafizlik etmək xeyli çətin olduğundan, hafiz sayı get-gedə azalmaqda və əvvəlki dövrlərdə yetişən güclü hafizlər artıq yetişməməkdədir. Dünya hafizlik yarışmaları statistikasında bildirilir ki, bir çox yarışmada dərəcəyə girən hafizlər yetişdirən kollec, artıq yarışmaya göndərəcək hafiz tapmaqda belə çətinlik çəkir.

Son vaxtlar Azərbaycanda hafizliyin geriləməsinin başqa səbəbi hafizlik proqramının aqibətinin qeyri-müəyyən olmasıdır. Belə ki, keçən il verilən qərara görə, gələn ildən digər İslam kollecləri kimi, Şəki İslam Kolleci də fəaliyyətini dayandıracaqdır. Kollec bağlanacağına görə, hafizlik proqramının aqibətinin necə olacağı hələ də tam bəlli deyildir. Hafizlik tələbələrində bu hal qeyri-müəyyənliyə səbəb olmaqda və ruh düşkünlüyü yaratmaqdadır. Ayrıca bu qərara görə, yeni tələbələrdən hafizliyə müraciətlər də azalmışdır. Təklifimiz qeyri-müəyyənliyin aradan qaldırılması, hafizlik proqramının qorunub-saxlanması üçün tədbirlərin görülməsidir. Dövlətin din təhsilinə qayğısının artdığı və ilahiyyat sahəsində institut və kolleclərin yaradıldığı günümüzdə hafizlik proqramının dövlətin din təhsili konseptinə salınması, qənaətimizcə, məqsədəuyğun olardı. Bununla bağlı təklifimiz Türkiyənin bu sahədəki təcrübəsindən istifadə edilməsi və ölkəmizdə də İmam-Xətib və ya Quran kursu proqramına bənzər hafizlik proqramının tətbiq edilməsidir.

Hafizliklə bağlı digər təklifimiz ölkəmizdə bununla bağlı imtahan keçirilməsi və diplomların hafizlərə sınaq əsasında verilməsidir. Dini təhsil sahəsində işləyən və dini ayinləri icra edən hafizlərə iş həyatında bəzi imtiyazların tanınması, onların hər 5 ildə bir hafizlik imtahanına tabe tutulmaları da məqsədəuyğun olardı. Bu, həm hafizliyə rəğbəti artıracaq, həm də zəhmətlər çəkilərək bitirilən hafizliyin yaddan çıxmaması və qorunub-saxlanmasını təmin edəcəkdir.

Nəticə

Nəticə olaraq deyə bilərik ki, hafizlik ənənəsi İslam tarixi boyunca çox canlı olduğu kimi, bu gün də fəaliyyətdədir. Peyğəmbərimiz və səhabələri hafizliyə çox əhəmiyyət vermiş, bu ənənəni sonrakı nəsillərə miras qoyub getmişlər. Orta əsrlər boyu çox güclü şəkildə qorunan bu ənənə o dövrlərdə zirvə mərhələsini yaşamışdır. Dünya müsəlmanları bu gün də hafizliyə dəyər verir, onu yaşatmaq üçün hər cür fədakarlıq göstərirlər. Müsəlman ölkələri hafizlik tədrisi üçün məktəblər açır,

beynəlxalq hafizlik yarışları təşkil edirlər. Bunun nəticəsində dünyada minlərlə hafizlik məktəbi və milyonlarla hafiz yetişmiş və yetişməkdə davam etməkdədir. İslamın ilk yayıldığı dövlətlərdən olan ölkəmizdə də hafizlik işi qədim və köklü dini ənənələrə söykənir. Digər İslam ölkələrində olduğu kimi, ölkəmizdə də İslam tarixi boyu çoxlu sayda mədrəsə və hafizlik məktəbi fəaliyyət göstərmiş, bu torpaqlarda çoxlu sayda hafiz yetişmişdir. Sovet dövrünə qədər davam edən bu ənənə bu dövrdə kəsintiyə məruz qalsa da, müstəqilliyin bərpasından sonra təkrar canlanmış, Azərbaycanda təkrar Quran hafizləri yetişməyə başlamışdır. Ölkəmizdə bu işi rəsmi qaydada Şəki İslam Kolleci yerinə yetirmiş, kollec bu günə qədər ölkəmizə 276 hafiz qazandırmışdır. Hafizlərimiz ölkəmizi beynəlxalq hafizlik yarışlarında uğurla təmsil etmiş, yarışlarda dəfələrlə yüksək nəticələr əldə etmişlər. Yarıdan çoxu ali təhsilli olan hafizlərimizin bir çoxu dini sahədə xidmət göstərir, digərləri də başqa mühüm sahələrdə fəaliyyətlərinə davam edirlər. Fəqət, son vaxtlarda hafizlik işində zəifləmə və geriləmə müşahidə edilməyə başlaıb. Bunun səbəblərinə məqalədə toxunaraq tərəfimizdən bəzi təkliflər irəli sürülüb..

Ədəbiyyat

Abbasov, M. (2019). *Bağımsızlıktan günümüze Azerbaycanda din eğitiminin durumu*. Rize. Recep Tayyib Erdoğan Universiteti, Sosial Elmlər İnstitutu. (Magistr tezi)

Algur, H. (2021). “Örgün eğitimle birlikte hafızlık ile geleneksel hafızlık eğitimi uygulamalarının Kuran kursu öğreticisi görüşlerine göre karşılaştırması”. *Çeşitli Yönleriyle Hafızlık Eğitimi*. Ed: H. Şahin Aynur. İstanbul: Dem Yayınları. pp. 184-230.

Bozkurt, N. (1997). “Hafiz”. *TDV İslam Ansiklopediyası.* İstanbul. 15/74-78.

Cavadov, P. (2022). *Bağımsızlık Sonrası Azerbaycanda Kuran Eğitimi*. Marmara Universiteti. Sosial Elmlər İnstitutu. (Magistr tezi)

Cebeci, S. “Kuran öğretim geleneği olarak hafızlık eğitimi”. *Diyanet İlmi Dergi*. 46/4. pp. 7-22.

Çakır, M. (2018). “Hafizlığı teşvik eden hadisler üzerine genel bir değerlendirme”. *Kafkas Universitesi İlahiyat Fakültesi Dergisi*. 5/9. pp. 118-140.

Çələbi, Ö. (1971). *Səyahətnamə*. tər: Zuhuri Danışman. İstanbul: Zuhuri Danışman Yayınları.

Çimen, A. (2011). "Hafızlık müessesesi ve Türkiyedeki işlevselliği". *Yecder II. Ulusal Din Görevlileri Sempozyumu Tebliğleri*. pp. 303-334.

Gündoğdu, Y. (2017). "Suudi Arabistanın İHL-si: Hafizlik okulları". *Geleceğin İnşasında İmam-Hatip Okulları*. ed: İlhan Erdem. Malatya: İnönü Üniversitesi Yayınevı. c.2.

Xadimi, Ə. (2007). *Kurani-Kerimi okuma ve adabı ve faziletleri*. Kayseri.

Kahraman, C. (2017). *Avrupada hafızlık eğitimi ve Kuran tilaveti yarışmaları*. Marmara Universiteti. Sosial Elmlər İnstitutu. (Magistr tezi).

Kurt, Y. (2012). "Kuranın korunmasında hafızlık müessesesi". *Hitit Üniversitesi İlahiyat Fakültesi Dergisi*. 2/22. pp. 229-251.

Marega, A. (2020). *Türkiye ve Senegalde takip edilen hafızlık programının karşılaştırılması*. Marmara Universiteti. Sosial Elmlər İnstitutu. (Magistr tezi)

Mertoğlu, S. (2012). "Vahiy katibi". *TDV İslam Ansiklopediyası*. İstanbul. 42/447-449.

Özbek, Ö. (2015). "Dünyada hafızlık yöntem örnekleri". *Bilimname*. 29/2. pp. 183-209.

Öztürk, H (2005). "Hz. Peygamber döneminde Kuran ayetlerinin ve surelerinin tesbit ve tertibi hakkında bir değerlendirme". *Ondokuz Mayıs Üniversitesi İlahiyat Fakültesi Dergisi*. 20/213-235.

Səmədov, E. (2006). *Azerbaycanda din eğitimi*. Marmara Universiteti. Sosial Elmlər İnstitutu. (Doktorantura tezi)

Şahin, H. (2016). "İslam ülkeleri ve Trabzonda uygulanan geleneksel hafızlık sistemlerinin karşılaştırılması". *I. Uluslararası Geçmişten Günümüze Trabzonda Dini Hayat Sempozyumu*. ed: Şenol Saylan. İstanbul: Değişim Yayınları. pp. 593-614.

Tağıyeva, İ. (2019). *Azerbaycanda din eğitimi (1850-1917).* Marmara Universiteti. Sosial Elmlər İnstitutu. (Doktorantura tezi).

Vahapoğlu, V. (2016). *Türk milli eğitim sisteminde meydana gelen değişikliklerin hafızlık eğitimine etkileri*. Rize. Recep Tayyib Erdoğan Universiteti, Sosial Elmlər İnstitutu. (Magistr tezi).

Zərkəşi, B. (1391 h). *əl-Burhan fi ulumil-Quran*. Beyrut: Daru Marifə. c.1.

Şəki İslam Kolleci Hafizlərinin statistikası mövcuddur:

https://shekiislamkolleci.edu.az/hafizler/ (giriş:15/10/2024)

Türkiyədəki hafizlərin sayı mövcuddur: (https://diyanet.gov.tr/tr-TR/Kurumsal/Detay/35953/2023te-13-bin-334-kisi-hafizlik-icazetnamesi-aldi) (giriş: 15/10/2024)

Hədislərin ailə tərbiyəsində rolu

f.f.d. Səfa Muradov,
Zaqatala İslam Kollecinin müəllimi
Zaqatala, Azərbaycan
sefamuradov@gmail.com
https://orcid.org/0009-0003-3696-4987

Xülasə

Məqalədə hədislərin ailə tərbiyəsindəki əhəmiyyəti araşdırılmışdır. Hədislər Həzrət Peyğəmbərin (s.ə.s.) söz və əməlləri kimi, müsəlmanların əxlaqi-mənəvi inkişafında əsas mənbə hesab olunur. Hədislər vasitəsilə müsəlmanlar ailə və cəmiyyət daxilində sevgi, hörmət, mərhəmət, məsuliyyət və sosial ədalət prinsiplərini öyrənir, tətbiq edirlər. Yazıda ailədə uşaqların tərbiyəsində valideynlərin üzərinə düşən vəzifələr, ailə daxilində qarşılıqlı münasibətlərin düzgün tənzimlənməsi və bu prinsiplərin hədislər vasitəsilə necə təbliğ olunduğu təhlil edilmişdir. Həmçinin ailədə sevgi və hörmət dəyərlərinin təşviqi, valideyn-övlad münasibətlərinin möhkəmləndirilməsi, cəmiyyətin mənəvi sağlamlığına dair hədislərin rolundan bəhs edilir.

Bundan əlavə, hədislər sosial ədalətin təmin olunması və cəmiyyətdə yardımlaşma, həmrəylik və qarşılıqlı anlayışın formalaşmasında mühüm rol oynayır. Araşdırmada hədislərin sosial problemlərin həlli üçün necə tətbiq oluna biləcəyi, müasir dövrdə ailə və cəmiyyət münasibətlərindəki əhəmiyyəti də təhlil edilir. Nəticədə, məqalə ailə daxilində əxlaqi-dini dəyərlərin inkişafını, sosial fəaliyyətdə və ədalətin təmin olunmasında hədislərin oynadığı rolu izah edir. Yazıda, həmçinin ailə və sosial tərbiyədə hədislərin təbliğ etdiyi dəyərlərin müasir dövr üçün vacibliyi vurğulanır.

Açar sözlər*: ailə, cəmiyyət, əxlaq, dəyərlər, valideyn-övlad münasibətləri.*

The Role of Hadith in Family Upbringing

PhD Safa Muradov
Teacher of Zaqatala Islamic College
Zaqatala, Azerbaijan
sefamuradov@gmail.com
https://orcid.org/0009-0003-3696-4987

Abstract

This article discusses the significance of hadiths in family education. As the sayings and actions of the Prophet Muhammad hadiths are considered a primary source for the moral and spiritual development of Muslims. Through hadiths, Muslims learn and apply principles of love, respect, compassion, responsibility, and social justice within both family and society. The article analyzes the responsibilities of parents in raising children, the proper regulation of mutual relations within the family, and how these principles are preached through hadiths. It also addresses the role of hadiths in promoting values of love and respect in the family, strengthening parent-child relationships, and contributing to the moral well-being of society.

Furthermore, hadiths play an important role in ensuring social justice and fostering cooperation, solidarity, and mutual understanding in society. The article explores how hadiths can be applied to solve social problems and their relevance to family and social relations in modern times. Ultimately, the article explains the role hadiths play in the development of moral and religious values within the family and in ensuring social cohesion and justice. The importance of the values taught by hadiths in both family and social education for contemporary times is emphasized.

Keywords*: Family, society, ethics, values, parent-child relationships*

Роль хадисов в семейном воспитании

д.ф.ф. Сафа Мурадов
Преподаватель Закатальского
исламского колледжа
Закатала, Азербайджан
sefamuradov@gmail.com
https://orcid.org/0009-0003-3696-4987

Резюме

В данной статье рассматривается значимость хадисов в семейном воспитании. Хадисы, являясь словами и действиями Пророка Мухаммеда, считаются основным источником морального и духовного развития мусульман. С помощью хадисов мусульмане усваивают и применяют принципы любви, уважения, сострадания, ответственности и социальной справедливости как в семье, так и в обществе. В статье анализируются обязанности родителей в воспитании детей, правильное регулирование взаимных отношений в семье и то, как эти принципы проповедуетсячерез хадисы. Также рассматривается роль хадисов в продвижении ценностей любви и уважения в семье, укреплении отношений между родителями и детьми и их влияние на моральное благополучие общества.

Кроме того, хадисы играют важную роль в обеспечении социальной справедливости, содействии взаимопомощи, солидарности и взаимопонимания в обществе. В статье также рассматривается, как хадисы могут применяться для решения социальных проблем и их значение в семейных и общественных отношениях в современном мире. В заключение объясняется роль хадисов в развитии моральных и религиозных ценностей в семье, а также в обеспечении социальной гармонии и справедливости. Подчеркивается важность ценностей, преподаваемых хадисами, для современного семейного и социального воспитания.

Ключевые слова: *Семья, общество, этика, ценности, отношения между родителями и детьми.*

Giriş

İslam dini cəmiyyətin və ailənin mənəvi-əxlaqi dəyərlər əsasında inkişaf etməsinə böyük əhəmiyyət verir. Həzrət Peyğəmbərin (s.ə.s.) sözləri və əməlləri olan hədislər bu dəyərlərin öyrədilməsində və tətbiqində mühüm rol oynayır. Ailə İslamda ən önəmli mühit hesab olunur. Burada uşaqlara əxlaqi dəyərlərin öyrədilməsi, onların sosial münasibətlərinin formalaşması əsasdır. Ailə tərbiyəsi bir çox maddi-mənəvi və sosial məsuliyyətləri əhatə edir ki, bu məsuliyyətlər hədislər vasitəsilə izah olunur. Hədislər yalnız dini təlimatlar verməklə kifayətlənmir, eyni zamanda, ailə və sosial münasibətlərdə sevgi, hörmət, ədalət və mərhəmət kimi əxlaqi dəyərləri formalaşdırır. Bu dəyərlər müasir dövrdə cəmiyyətin və ailənin sağlam inkişafı üçün vacibdir. Sosial əlaqələrdə həmrəyliyin təmin edilməsi, ailəiçi qarşılıqlı hörmət və anlaşmanın qurulması hədislər vasitəsilə daha da gücləndirilir.

Bu məqalədə hədislərin ailə və sosial tərbiyədəki rolunu, onların İslamda hansı əsaslara söykəndiyini və müasir dövrdə tətbiq imkanlarını araşdıracağıq. Eyni zamanda, hədislərin müasir ailə və sosial problemlərin həllində necə effektiv bir vasitə ola biləcəyinə diqqət çəkəcəyik.

I. Evliliyin əhəmiyyəti

Evlilik ailənin qurulmasının təməl daşı olmaqla yanaşı, cəmiyyətin sağlam və davamlı inkişafında mühüm rol oynayır. İslam dinində evlilik yalnız birgə həyat deyil, həm də əxlaqi və mənəvi dəyərlərin qorunub-saxlanıldığı müqəddəs bir bağdır. Həzrət Peyğəmbər (s.ə.s.) evliliyi dinin yarısı kimi qiymətləndirərək (Hakim, 2018, III/552), onun fərdlərin və ailənin tərbiyəsindəki əhəmiyyətini xüsusi vurğulamışdır. Hədislərdə evliliyin fərdi inkişafa, nəfsin tərbiyəsinə və ictimai münasibətlərin formalaşmasına müsbət təsir etdiyi qeyd olunur. Bu mənada, ailə həyatının təməli olan evlilik, həm ailə, həm də sosial tərbiyənin başlanğıc nöqtəsidir.

Hədislərdə evliliyin əhəmiyyəti ilə bağlı vurğulanan dəyərlər arasında sadiqlik, etimad və fədakarlıq xüsusi yer tutur. Hədislərdə, eyni zamanda, evliliyin iffətli, xoşbəxt və sağlam bir həyatın təməl ünsürünü təşkil etdiyinə də diqqət çəkilir. Nəslin təhlükəsizliyi, təmiz və sağlam bir cəmiyyət, ancaq evlilik sayəsində təmin oluna bilər. Həzrət Peyğəmbər (s.ə.s.) bir gün ətrafındakı gənclərə belə demişdir: "*Ey gənclər!*

Evlənməyə imkanı olanınız evlənsin. Evlənmək, gözü haramdan qorumaq və iffəti mühafizə etmək üçün ən gözəl yoldur. Evlənmə imkanı olmayan da oruc tutsun. Orucun insanın şəhvətini kəsmək xüsusiyyəti vardır" (Buxari, Nikah, 3). Subayların evləndirilməsi haqqındakı məsuliyyəti bütün möminlərə yükləyən Uca Allah belə buyurur: "**İçinizdəki subayları, həmçinin kölələrinizdən və cariyələrinizdən münasib olanları evləndirin! Əgər onlar yoxsuldurlarsa, Allah Öz lütfü ilə onları zəngin edər. Allahın lütfü genişdir, O, hər şeyi biləndir**" ("ən-Nur", 24/32). Həzrət Peyğəmbər (s.ə.s.) də "*Əməlisaleh kişilərlə əməlisaleh qadınları (bir-birləri ilə) evləndirin*", – buyuraraq ilahi əmri bir daha təsdiq etmişdir (Darimi, 1987, II/184).

Ailənin qurulması üçün evlilik fərdlərin mənəvi-psixoloji ehtiyaclarını qarşılamaqla yanaşı, uşaqların tərbiyə edilməsi və gələcək nəsillərə ailə dəyərlərinin ötürülməsini təmin edir. Evlilikdə qarşılıqlı vəzifələrin düzgün icra edilməsi ailə bağlarının möhkəmlənməsinə səbəb olur. Bu, uşaqların mənəvi-əxlaqi dəyərlərlə böyüməsini təmin etməklə cəmiyyətin inkişafına mühüm töhfə verir. Bu baxımdan, müasir dövrdə evliliyin mənəvi, sosial baxımdan qorunması ailə dəyərlərinin davamlılığı üçün vacibdir.

II. Ailə tərbiyəsində hədislərin rolu

Ailə – İslam dinində cəmiyyətin təməli kimi qəbul edilir və ailə tərbiyəsi dinimizin mənəvi dəyərlərinin əsasını təşkil edir. İnsanın təbii və mənəvi inkişafı baxımından, heç şübhəsiz, ən uyğun yer ailə mühitidir. Ailə sevgi və yardımlaşmanın yaşandığı, əxlaqi və insani dəyərlərin öyrədildiyi məktəbdir. Uşaqların yetişdirilməsində sağlam bir ailəni əvəz edəcək başqa heç bir mühit yoxdur (Ünal, 2011, 9). Ailə quruluşunu qorumağı bacarmayan cəmiyyətlər gec-tez çökməyə və dağılmağa məhkumdurlar. Hər hansı bir cəmiyyətdə geriləmə və çöküş əlamətləri, ilk olaraq, ailədə özünü göstərir. Ailədə başlayan çatlamalar və nizamsızlıqlar yavaş-yavaş bütün cəmiyyətə sirayət edir, həm cəmiyyəti, həm də dövləti məhv edir. Ailə quruluşu zəifləmiş və ya pozulmuş cəmiyyətləri ayaqda saxlamaq və yenidən bir-birinə bağlı etmək isə çox əmək və uzun müddət tələb edir (Algül. Yılmaz, 2020, 150).

Həzrət Peyğəmbər (s.ə.s.) *"Uşaqlarınıza yaxşılıq edin və onlara gözəl tərbiyə verin*" (İbn Məcə, Ədəb, 3), – buyuraraq ailənin öhdəliklərinə diqqət çəkmişdir. Bu çağırışda uşaqların yalnız maddi ehtiyaclarının qarşılanması ilə kifayətlənməyib, eyni zamanda, mənəvi tələbatlarının da təmin edilməsinin vacibliyi vurğulanır. Buna görə də

uşaq istər bilik və ədəb, istərsə də vərdiş baxımından nə əldə edirsə, ilk növbədə, ailəsindən və onun dəyərlərindən qaynaqlanır. Bu nöqteyi-nəzərdən yanaşsaq, ailənin məsuliyyətinin təkcə dünyəvi deyil, həm də axirətə yönəlik olduğunu söyləyə bilərik (Gümrükçüoğlu, 2017, 41).

Valideynlərin övladlarına qarşı davranışları, ümumiyyətlə, demokratik, avtoritar, həddindən artıq qoruyucu və laqeyd olmaq üzrə dörd kateqoriyada incələnir. Şübhəsiz, sadalanan bu davranışlar xaricində, başqa fəaliyyətdən də bəhs edilə bilər. Valideynin müxtəlif davranışları uşağın şəxsiyyətinin inkişafına fərqli şəkildə təsir göstərir (Kaya, 1997, 197).

A. Valideyn–övlad münasibətləri

Ailə İslam dinində cəmiyyətin ən vacib və ən əsas təməli kimi qəbul edilir. Valideynlər və övladlar arasındakı münasibətlər mənəvi-əxlaqi baxımdan güclü olmalıdır. Hədislər valideyn–övlad münasibətlərinin düzgün şəkildə qurulmasında və möhkəmləndirilməsində mühüm rol oynayır. Həzrət Peyğəmbərin (s.ə.s.) "*Cənnət anaların ayaqları altındadır*" (Qudai 1986, I, 106) hədisi ananın ailədə və cəmiyyətdəki rolunun nə qədər əhəmiyyətli olduğunu vurğulayan ən məşhur hədislərindən biridir. Həzrət Peyğəmbər (s.ə.s.) hədislərində hər zaman valideynlərin övladlarına, övladların da valideynlərinə qarşı şəfqətli, qayğıkeş və sevgidolu olmalarının vacibliyinə diqqət çəkmişdir.

Valideynlərin övladlarına olan sevgisi və diqqəti onların tərbiyəsinə müsbət təsir göstərir. Bu məsələ başqa bir hədisdə belə açıqlanır: "*Heç bir valideyn övladına gözəl tərbiyədən daha yaxşı bir hədiyyə verməmişdir*" (Tirmizi, Birr, 33). Bu hədis valideynlərin övladlarına yalnız maddi ehtiyaclarını ödəməkdən əlavə, onların mənəvi inkişafını da təmin etmələrinin vacibliyinə diqqət çəkir. Hədisdə qeyd olunan gözəl tərbiyə – övladın düzgün, əxlaqlı və dini dəyərlərlə yetişdirilməsi, onlara sevgi, mərhəmət və hörmət kimi mənəvi dəyərlərin aşılanmasıdır.

Övladlar üçün də valideynlərinə hörmət və sevgi göstərmək İslamın əsas əxlaq prinsiplərindən biridir. Valideyn–övlad münasibətlərində hər iki tərəfin üzərinə böyük məsuliyyət düşür. Hədislərdə valideynlərin övladlarına qarşı olan davranışları və övladların valideynlərinə olan münasibətləri ilə bağlı geniş məlumatlar verilir. Məsələn, Həzrət Peyğəmbər (s.ə.s.) əməllərin ən üstünü olaraq ata-anaya yaxşılıq etməyə diqqət çəkmiş (Buxari, Tövhid, 48), "*Allahdan qorxun, övladlarınız arasında ədalətli olun!*" – buyuraraq (Müslim, Hibə, 13) valideyn–

övlad münasibətlərinin əhəmiyyətini vurğulamışdır. Bu hədislərdən alınan ibrət, ailə daxilində sevgi və qarşılıqlı hörmətin formalaşdırılmasına xidmət edir.

Nəslin davamı üçün evlilik necə vacib şərtdirsə, xeyirli nəsillər üçün də uşaqların gözəl şəkildə tərbiyə olunması o qədər əhəmiyyətlidir. Övladların valideynlərinə, ətrafına, Vətəninə və millətinə qarşı məsuliyyətlərini dərk edərək, onlara bacardıqları qədər gözəl xidmətlər etmə şüuru ilə böyüdülmələri böyük əhəmiyyət daşıyır. İş həyatını bəhanə etmədən ana və ata mütləq övladlarına vaxt ayırmalı, yeri gələndə onlarla birlikdə oyun da oynamalıdır. Ana Uca Allahın ona bəxş etdiyi analıq şəfqətini, uşağına göstərəcəyi sevgini, şəfqət və diqqəti heç bir baxıcı və ya məktəbəqədər təhsil müəssisəsinin göstərə bilməyəcəyini, bunların ana şəfqəti və qayğısının yerini tuta bilməyəcəyini unutmamalıdır. Ana uşağının mənəvi inkişafında böyük əhəmiyyət kəsb edən bu şəfqət və qayğını, onun həyatı ilə bağlı məsələlərdə laqeydlik etmədən göstərməlidir. Ailə istiliyi və dini bir mühitdə böyüyən uşağın şəxsiyyəti daha möhkəm və əxlaqı daha gözəl olacaqdır (Kutluay, 2020. 208).

Ailədaxili münasibətlərdə sevgi və hörmətin əsas olduğu anlayış müasir dövrdə də öz əhəmiyyətini qoruyur. Hədislər vasitəsilə öyrənilən bu dəyərlər ailədə sağlam münasibətlərin qurulmasına və mənəvi tərbiyənin inkişafına zəmin yaradır.

B. Ailədə əxlaqi dəyərlərin öyrədilməsi

Ailə uşaqlara əxlaqi dəyərlərin öyrədildiyi ən mühüm müəssisədir. Hədislər bu dəyərlərin formalaşmasında əsas rol oynayır. Onlar İslamın əxlaqi prinsiplərini praktiki şəkildə tətbiq etməyə köməklik göstərir. Həzrət Peyğəmbər (s.ə.s.) ailə üzvləri arasında qarşılıqlı sevgi, hörmət və ədalətin vacibliyini daim vurğulamışdır. Bir hədisində "*Sizin ən xeyirliniz ailəsinə qarşı ən mərhəmətli olanınızdır. Mən də ailəmə qarşı ən xeyirli olanınızam*", – buyurmuşdur (Tirmizi, Mənaqib, 63). Bu hədis ailə daxilində əxlaqi davranışların əhəmiyyətini aydın şəkildə ortaya qoyur, eyni zamanda, valideynlərin öz davranışları ilə nümunə olmalarının vacibliyinə də işarə edir.

Həzrət Peyğəmbər (s.ə.s.) ailəsinə qarşı göstərdiyi davranışları ilə əxlaqi dəyərləri təbliğ edirdi. Onun şəfqəti, mərhəməti və ədaləti ailə üzvləri arasında dərin bağın yaranmasına səbəb olurdu. Hədislərdə qeyd olunan bu əxlaqi dəyərlər uşaqların psixoloji inkişafına müsbət təsir edir. Ailədəki sevgi və hörmət mühiti uşaqlara özünəinam və sosial bacarıqların inkişafı üçün zəmin yaradır.

Uşaqların ailədəki davranışları onların cəmiyyətdəki münasibətlərinə də birbaşa təsir edir. Ailədə öyrənilən dəyərlər uşaqların dostları, müəllimləri və daha geniş cəmiyyətlə olan münasibətlərində əks olunur. Bu səbəbdən, valideynlərin öz davranışlarına diqqət yetirmələri və övladlarına əxlaqi dəyərləri aşılamaları mütləqdir (Özyürek, 2019, 95). Hədislərin tələblərinə uyğun olaraq, ailədəki ədalət, sevgi və mərhəmət kimi dəyərlərin öyrədilməsi yalnız uşaqların deyil, həm də ailənin bütün üzvlərinin sağlam və müsbət münasibətlər qurmasına yardım edir.

Beləliklə, ailə daxilində əxlaqi dəyərlərin öyrədilməsi hədislərin öyrətdiyi təlimatlar əsasında həyata keçirilir. Bu, yalnız uşaqların deyil, eyni zamanda, ailənin hər bir üzvünün mənəvi və sosial inkişafı üçün vacib amildir. Uşaqların ailədən aldıqları bu dəyərlər onların gələcəkdəki davranışlarını formalaşdırır, cəmiyyətin sağlam parçası olmalarına imkan yaradır.

C. Məsuliyyət şüuru

Hədislər ailə içində məsuliyyətin və şəfqətin vacibliyini də vurğulayır. İslam dini ailə üzvləri arasında qarşılıqlı məsuliyyət və şəfqət anlayışına önəm verir. Valideynlər övladlarına qarşı məsuliyyətlərini dərk etməli, onlara şəfqət və qayğı göstərməlidirlər. Həzrət Peyğəmbərin (s.ə.s.) "*Allahdan qorxun, övladlarınız arasında ədalətli olun!*" (Müslim, Hibə, 13) və "*Hamınız idarəçisiniz və hamınız himayəniz altında olanlara görə məsulsunuz*" (Müslim, İmarə, 5) hədisləri ailədəki məsuliyyətin nə qədər mühüm olduğunu göstərir. Bu hədislər valideynlərin övladlarına qarşı olan davranışlarının, onların tərbiyəsindəki əhəmiyyətini vurğulayır.

Valideynlərin məsuliyyətli olması uşaqların inkişafında mühüm rol oynayır. Valideynlərin uşaqlarına qarşı olan şəfqəti onların emosional vəziyyətlərinə müsbət təsir göstərir və özünəinamlarını artırır. Uşaqlar valideynlərinin qayğısını hiss etdikdə, ailə mühitində özlərini daha rahat və güvənli hiss edirlər. Bu, onların gələcəkdə cəmiyyətə sağlam fərdlər kimi qoşulmaları üçün vacibdir (Kaya, 1997. 198). Valideynlərin ünsiyyətdə uşağa qarşı dürüst olmaları, uşaqların özlərinə və başqalarına qarşı düzgün və müsbət münasibət formalaşdırmalarına kömək edir. Uşaqlar valideynlərinə qarşı daha güclü güvən hissi duyur və özlərini daha inamlı hiss edirlər. Dürüstlük üzərində qurulan valideyn–uşaq əlaqələri uşaqların gələcək münasibətlərində də eyni dəyərləri qoru-

yub-saxlamağa və onları sosial həyatda tətbiq etməyə təşviq edir (Şahin, Aral, 2012, 63). Bu dürüstlük mühiti uşaqların mənəvi inkişafına və sosial uyğunlaşmasına müsbət təsir göstərir.

Ailədəki məsuliyyət və şəfqət anlayışları yalnız fərdi münasibətlərdə deyil, cəmiyyətin inkişafında da müsbət rol oynayır. Ailə daxilində yaradılan bu müsbət mühit uşaqların cəmiyyətdə sağlam münasibətlər qurmalarına və sosial ədalət prinsiplərinə riayət etmələrinə kömək edir. Nəticə etibarilə, ailədəki məsuliyyət və şəfqət anlayışları hədislərin öyrətdiyi əxlaqi dəyərlərlə birləşərək, cəmiyyətin sağlam inkişafına zəmin yaradır.

III. Sosial tərbiyədə hədislərin rolu

Din – sosiallaşma prosesinin ən mühüm qollarından biridir. Cəmiyyətin dəyərlərinin formalaşması, şəkillənməsi, mənimsənilməsi, qəbul olunması və davranış səviyyəsində ortaya çıxmasında din son dərəcə həlledici təsirə malikdir. Tarixboyu dinsiz cəmiyyətlərin mövcud olmadığı gerçəkliyindən istiqamətlənərək, dinin içində olmadığı bir sosiallaşmanın heç vaxt mümkün olmayacağını söyləyə bilərik (Demirkol, 2020, 123). Bu baxımdan, cəmiyyətin inkişafında, əxlaqi dəyərlərin və sosial davranışların formalaşmasında hədislərin böyük rolu vardır. Hədislər yalnız dini təlimatların bir hissəsi deyil, eyni zamanda, sosial tərbiyənin əsasını təşkil edən əxlaqi prinsipləri də özündə əks etdirir. Bu bölmədə hədislərin sosial tərbiyədəki rolu haqqında bəhs edəcəyik.

A. İctimai əxlaq

İslam cəmiyyətdə insanların qarşılıqlı münasibətlərində əxlaqın əhəmiyyətini qeyd edir. Hədislər sosial davranış qaydalarını tənzimləyərək, insanların bir-birlərinə olan münasibətlərini müəyyən edir. Məsələn, Həzrət Peyğəmbərin (s.ə.s.) "*Müsəlman, əlindən və dilindən başqalarının zərər görmədiyi kəsdir*" (Buxari, İman, 3) hədisi müsəlmanların cəmiyyətdəki davranışlarını tənzimləyən əhəmiyyətli prinsipdir. Bu hədis insanları başqalarına qarşı mərhəmətli və ədalətli davranmağa təşviq edir. Hədislər sosial münasibətlərin formalaşmasında əhəmiyyətli rol oynayır. Müsəlmanların bir-birlərinə qarşı hörmət, sevgi və anlayışla yanaşması cəmiyyətin sağlam inkişafı üçün zəruridir. Müsəlmanlığın hökm sürdüyü bir cəmiyyətdə ictimai əxlaqın təməl prinsipləri İslamın təməl dəyərlərindən irəli gəlir. Bu da insanların bir-birlərinə qarşı məsuliyyətlərini daha aydın şəkildə ifadə edir.

İnsanları bir araya gətirən və onlar arasında birliyi-bərabərliyi təmin edən ən önəmli bağlardan biri mənəvi dəyərlər hesab olunur. Mənəvi dəyərlər ictimai birliyin və həmrəyliyin təmin edilməsində mühüm rol oynayır. Əxlaqi dəyərlər insanlarda, eyni zamanda, vicdanlı bir məsuliyyət hissi yaradır. Vicdanlı məsuliyyət, insanın həyata və dünyagörüşünə digər amillərdən daha çox təsir edir. Eyni zamanda, insanın həyata baxışında və yaşantısında digər amillərdən daha təsirli olur (Akdoğan, 2009, 184).

Müasir dövrdə cəmiyyətdəki əxlaqi dəyərlərin azalması və sosial münasibətlərin gərginləşməsi hədislərin öyrətdiyi əxlaqi prinsiplərin aktuallığını daha da artırır. İnsanların bir-birlərinə qarşı ədalətli və şəfqətli olmaları cəmiyyətdə sosial qaynaşmanın qorunmasında mühüm rol oynayır. Bu səbəbdən, hədislərdəki əxlaqi təlimlərin öyrənilməsi və tətbiqi cəmiyyətdəki münasibətlərin inkişafı üçün vacibdir. İctimai əxlaq yalnız fərdi münasibətlər deyil, həm də cəmiyyətin tamlığı üçün əhəmiyyətlidir. Cəmiyyətin bütün üzvləri bir-birlərinə qarşı hörmət və sevgi ilə yanaşmalıdır, bu da birlik və bərabərlik mühitinin yaranmasına kömək edir. Hədislər bu prinsipləri təsdiq edir, insanları bir-birinə dəstək olmağa, qarşılıqlı anlayış yaratmağa və cəmiyyətdəki sosial ədaləti təmin etməyə yönləndirir.

Nəticə etibarilə, sosial tərbiyədə hədislərin rolu insanları əxlaqi davranışlara yönləndirərək, cəmiyyətin inkişafına müsbət təsir edir. Bu da cəmiyyətdəki fərdlərin bir-birinə qarşı daha anlayışlı, mərhəmətli və ədalətli olmalarını təmin edir.

B. Qohumluq və qonşuluq münasibətləri

İslam dini qohumluq və qonşuluq münasibətlərinə böyük əhəmiyyət verir və bu əlaqələrin düzgün qurulmasını təşviq edir. Hədislərdə qohumlarla əlaqələrin möhkəmləndirilməsi, onlara qarşı məsuliyyətli və qayğıkeş olmaq, qonşularla hörmət və yardımlaşma kimi əxlaqi davranışlar şəklində hərəkət etmək geniş şəkildə təbliğ edilir. Həzrət Peyğəmbərin (s.ə.s.) hədisləri bu münasibətlərin əxlaqi təməlini formalaşdırır, insanların bir-birinə qarşı mərhəmətli, səbirli və yardımsevər olmalarını tələb edir.

İslamda qohumluq münasibətlərini davam etdirmək və onları möhkəmləndirmək vacib sayılan əməllərdəndir. Hədislərdə qohumlarla əlaqənin kəsilməsinin mənfi təsirləri və bu münasibətlərin möhkəmləndirilməsinin fəzilətləri barədə geniş məlumat verilir. Bir hədisdə Həzrət Peyğəmbər (s.ə.s.) belə buyurur: "*Qohumlarla əlaqəsini kəsən*

cənnətə girə bilməz" (Buxari, Ədəb, 11). Bu hədis qohumluq münasibətlərinin İslamda nə qədər əhəmiyyətli olduğunu açıq şəkildə göstərir. Qohumlarla əlaqəni qorumaq, onlara dəstək olmaq və kömək göstərmək həm dini, həm də əxlaqi vəzifədir.

İslam dinində qohumlarla münasibət o qədər əhəmiyyətlidir ki, bu mövzuda din fərqi də nəzərə alınmır. Şirk və küfr kimi mövzularda ana-ataya itaət qadağan olunsa da, onlarla dünyada birlikdə olmaq və bəşəri münasibətlərin davam etdirilməsi istənilir (Loğman, 31/14-15). Belə ki, müsəlman olmamasına baxmayaraq, Həzrət Peyğəmbərin (s.ə.s.) vəfat edənədək əmisi Əbu Talibə isti münasibət bəslədiyini bilirik. Bütün bunlar qohumlara qarşı qayğı göstərməyin həm dünyada, həm də axirətdə insana fayda gətirəcəyini bildirir. Həmçinin qohumlara qarşı məsuliyyət – ailə münasibətlərində əxlaqi prinsiplərin təməl daşlarından birini təşkil edir.

İslamda qonşularla yaxşı münasibət qurmaq böyük əhəmiyyət kəsb edir. Hədislərdə qonşularla münasibətlərin düzgün qurulması, onlara qarşı hörmət və mərhəmət göstərilməsi vurğulanır. Həzrət Peyğəmbər (s.ə.s.) qonşuluq əlaqələrini çox yüksək dəyərləndirərək belə buyurur: "*Cəbrayıl mənə qonşu haqqında o qədər çox danışdı ki, qonşunu qonşuya varis edəcəyini düşündüm*" (Tirmizi, Birr, 28). Bu hədis qonşularla münasibətlərin İslamda nə qədər əhəmiyyətli olduğunu göstərir. Qonşular arasında qarşılıqlı yardımlaşma, dəstək və anlayış cəmiyyətin sosial bərabərliyini təmin edən mühüm amillərdəndir. Başqa bir hədisdə Həzrət Peyğəmbər (s.ə.s.) belə buyurur: "*Allaha və Axirət gününə iman gətirən qonşusuna əziyyət verməsin!*" (Buxari, Riqaq, 23). Bu hədis müsəlmanların imanlarının bir göstəricisi kimi qonşularına qarşı yaxşı davranmalı olduqlarını ifadə edir.

Qonşularla münasibətlərdə İslamın qoyduğu qaydalar cəmiyyətin sülh və əmin-amanlıq içində yaşamasını təmin edir. Müsəlmanlar qonşularına zərər verməməli, əksinə, onlara yaxşılıq etməli və ehtiyaclarını qarşılamağa çalışmalıdırlar. Həzrət Peyğəmbərin (s.ə.s.) başqa bir hədisində bu barədə deyilir: "*Qonşusunun ac olduğunu bilə-bilə özü tox yatan kimsə mənə (gətirdiklərimə) iman etmiş olmaz*" (Təbərani 1433, I, 259). Bu hədis qonşulara qarşı məsuliyyət hissinin güclü olmasını və insanlara qarşı mərhəmətliliyin əhəmiyyətini vurğulayır.

Hədislərdə qohumlara və qonşulara qarşı münasibətlərin düzgün qurulması yalnız fərdi əxlaqa deyil, həm də cəmiyyətin ümumi rifahına müsbət təsir edir. Qohum və qonşularla əlaqələrin güclü olması cəmiyyətin sosial bağlarının möhkəmlənməsinə və qarşılıqlı etimadın artmasına şərait yaradır. Qohumlarla əlaqələrin qorunması ailə

daxilindəki məsuliyyət hissinin genişlənməsinə və birliyin möhkəmlənməsinə xidmət edir.

Nəticədə, hədislərdə qohumlara və qonşulara qarşı münasibətlərin təşviq edilməsi, ailə və cəmiyyət daxilində əxlaqi dəyərlərin inkişafına yardım edir. Bu, həm ailə tərbiyəsində, həm də sosial tərbiyədə hədislərin önəmini bir daha vurğulayır.

C. Sosial ədalətin hədislərdəki yeri

Sosial ədalətin təmin edilməsi İslam dininin əsas prinsiplərindən biridir. Bunun haqqında hədislərdə geniş məlumat verilmişdir. Həzrət Peyğəmbərin (s.ə.s.) həyatı, zəiflərə, yoxsullara və cəmiyyətin ən çox yardıma ehtiyacı olan təbəqələrinə qayğı və şəfqət göstərməyə yönəlmişdi. O, yetimlərə və yoxsullara yardım etməyi, onların hüquqlarını müdafiə etməyi bütün müsəlmanlar üçün bir vəzifə kimi göstərmişdir. Bu xüsusda bir hədisdə belə deyilir: "*Müsəlmanlar arasında kim yemək-içməyini öz üzərinə götürəcək şəkildə bir yetimi sahiblənərsə, bağışlanmayacaq bir günah etməmişsə, Allah onu mütləq cənnətə qoyar*" (Tirmizi, Birr, 14). Bu hədis yetimlərə və zəiflərə qarşı məsuliyyətin nə qədər böyük və vacib olduğunu vurğulayır.

Hədislərin sosial ədalətin və bərabərliyin təbliğində böyük rolu vardır. Həzrət Peyğəmbər (s.ə.s.) hər zaman zəifləri, kimsəsizləri və hüquqları tapdalanmış insanları müdafiə etmişdir. O, hər zaman cəmiyyətdə ədalətin təmin edilməsinə, insanları bir-birinə qarşı məsuliyyətli olmağa və zəiflərə xüsusi diqqət göstərməyə çağırırdı. Bir hədisdə belə buyurmuşdur: "*Hamınız idarəçisiniz və hamınız himayəniz altında olanlara görə məsulsunuz. Dövlət başçısı da idarəçidir. Kişi ailəsinin idarəçisidir. Qadın da ərinin, evinin və uşaqlarının idarəçisidir*" (Müslim, İmarə, 5). Bu hədis sosial məsuliyyətin cəmiyyətin bütün üzvləri arasında bölüşdürüldüyünə diqqət çəkir.

Sosial ədalətin İslam cəmiyyətindəki rolu yalnız hüquqi və iqtisadi sahələrlə məhdudlaşmır. Əksinə, hədislərdəki sosial ədalət anlayışı hər kəsin ləyaqətli bir həyat sürməsi, zəiflərin və yoxsulların hüquqlarının qorunması, eyni zamanda, onların maddi və mənəvi ehtiyaclarının təmin edilməsi ilə əlaqədardır. Həzrət Peyğəmbərin (s.ə.s.) hədislərində yetimlərə, yoxsullara və zəiflərə göstərilən diqqət və onlara yardım etmək bütün müsəlmanların məsuliyyəti kimi təqdim edilir. Zəiflərə və yoxsullara qayğı göstərmək insanın kamil bir mömin olmasının göstəricisi hesab edilir.

Hədislərdə zəiflərə kömək etməyin savabının yüksək olduğu qeyd olunur və müsəlmanlar bu işə təşviq edilir. Həzrət Peyğəmbər (s.ə.s.) bir hədisdə belə buyurur: "*Zəifləri qoruyun. Çünki siz aranızdakı zəiflər sayəsində Allahdan yardım görüb riziqləndirilirsiniz*" (Əbu Davud, Cihad, 75). Bu hədis zəiflərin hüquqlarının qorunmasının və onlara kömək etməyin cəmiyyətin rifahına və uğuruna necə müsbət təsir göstərdiyini vurğulayır.

Zəiflərə və cəmiyyətin imkansız təbəqələrinə yardım etməklə, İslam cəmiyyəti arasında birlik və bərabərlik təmin edilir. Həzrət Peyğəmbər (s.ə.s.) yetimlərə və yoxsullara xüsusi diqqət göstərir, onları himayə etməyi Allahın rizasına aparan ən fəzilətli əməllərdən biri kimi göstərirdi. Bir hədisdə "*Mən və yetimə qol-qanad açan kimsə cənnətdə belə (yan-yana) olacağıq*" (Buxari, Talaq, 25), – deyən Həzrət Peyğəmbər (s.ə.s.) iki barmağını bir-birinə yaxınlaşdıraraq, bu əməlin fəzilətli bir davranış olduğuna diqqət çəkmişdir.

Hədislərdə sosial məsuliyyətin yalnız fərdi səviyyədə qalmaması, əksinə, bütün cəmiyyətə yayılması vurğulanır. Həzrət Peyğəmbər (s.ə.s.) müsəlmanları zəiflərə qarşı mərhəmətli olmağa çağırarkən, eyni zamanda, cəmiyyətdə sosial birlik və bərabərlik yaratmağın əhəmiyyətini də xüsusi olaraq qeyd edirdi. İslamda zəiflərə və yoxsullara yardım etmək yalnız fərdi yardım deyil, həm də cəmiyyətin bütövlükdə yaxşılaşdırılması və sosial ədalətin təmin edilməsinə yönəlmişdir (Çalgan, 2015, 40). Bu baxımdan, hədislər yalnız ailə daxilində deyil, eyni zamanda, sosial tərbiyədə də mühüm rol oynayır. Hədislər insanların bir-birinə qarşı məsuliyyət hiss etməsini, zəiflərə və yoxsullara dəstək olmağı və ədalətin bərqərar olmasını cəmiyyətin ən əsas vəzifələrindən biri kimi təqdim edir.

IV. Müasir dövrdə hədislərin tətbiqi

Müasir cəmiyyətin üzləşdiyi sosial, ailəvi və əxlaqi problemlər fonunda hədislərin tərbiyəvi və istiqamətləndirici rolu xüsusi əhəmiyyət daşıyır. Hədislər Həzrət Peyğəmbərin (s.ə.s.) nümunəvi davranışlarını və sözlərini əks etdirərək, ailə daxilində, cəmiyyətdə müsbət dəyərlərin qorunub-saxlanılması üçün bələdçi rolunu oynayır. Müasir dövrdə hədislər aktual məsələlərə uyğun tətbiq olunarsa, bu, əxlaqi tənəzzülün qarşısını alar və sosial münasibətləri sağlamlaşdırmaqda mühüm nəticələr ortaya çıxarar.

A. Ailə problemlərinin həllində hədislərin rolu

Müasir dünyada ailə quruluşunda müxtəlif dəyişikliklərin baş verdiyi danılmaz bir həqiqətdir. Bunun ailə həyatına və qadın-kişi münasibətlərinə təsir etməməsi mümkün deyildir. Ortaya çıxan bu problemlərin qarşısını almaqda cəmiyyətin ailə və nikah anlayışında Quran dəyərləri və sünnə nümunələrinin mövcud hüquq qaydalarını, insan hüquqları və azadlıq anlayışını gözardı etmədən, fərdlər üçün bir dəyər ifadə edəcək şəkildə təsirli bir amil olaraq qəbul edilməsi vacibdir. Belə bir anlayışın davamlılığının təmin edilməsində cəmiyyətin hər bir təbəqəsinə düşən vəzifələr var (Başar, 2012, 111). Bu vəzifələr yerinə yetirilmədikdə bir çox ailələrin boşanması, valideyn–övlad münasibətlərində nöqsanlar kimi bir çox problem ortaya çıxır. Hədislərdə yer alan ailə tərbiyəsi ilə bağlı tövsiyələr ailə üzvləri arasında münasibətlərin güclənməsi üçün daha çox önəm kəsb edir. Həzrət Peyğəmbərin (s.ə.s.) bir səhabənin "Ya Rəsulullah! Ən çox yaxşılıq etməyə layiq olan kimdir?" sualına üç dəfə "*Anandır!*" və dördüncüdə "*Atandır!*" (Buxari, Ədəb, 2) cavabını verməsi müasir ailələrdə valideynlərə və xüsusilə qadınlara qarşı olan hörmət və diqqəti yenidən ön plana çıxarır.

Valideynlərin övladlarına tərbiyə vermək kimi bir məsuliyyətlərinin olduğunu xatırladan hədislər valideyn–övlad münasibətlərinin tənzimlənməsində əsas rol oynayır. Həzrət Peyğəmbər (s.ə.s.) belə demişdir: "*Heç bir ana-ata övladına gözəl tərbiyədən daha qiymətli bir hədiyyə verməmişdir*" (İbn Hənbəl, 2005, IV/77). Bu hədis valideynlərin övladlarına həm maddi, həm də mənəvi qayğı göstərməsinin vacibliyini vurğulayır. Müasir cəmiyyətdə ailədaxili münasibətlərdə qarşılıqlı hörmət və sevginin bərqərar olunmasında bu prinsiplər əsas qəbul edilərsə, şübhəsiz ki, bir çox problem öz həllini tapar.

B. Müasir dövrdə hədislərin rolu

Dünyada artan iqtisadi bərabərsizlik, yoxsulluq və sosial təcrid sosial ədalətin təmin olunması ilə bağlı məsələləri ön plana çıxarır. Hədislərdə yetimlərə, yoxsullara və zəiflərə yardım etməyin əhəmiyyəti vurğulanır və bu prinsiplər müasir cəmiyyətlər üçün də mühüm əxlaqi təməl təşkil edir. Həzrət Peyğəmbərin (s.ə.s.) yetimlərə, yoxsullara, yolda qalmışlara, dullara və digərlərinə yardım göstərməklə bağlı hədisləri sosial məsuliyyətin tərbiyəvi rolunu müasir dövrdə də əks etdirir. Hədislərdəki sosial ədalət prinsipləri qloballaşma ilə birlikdə güclənən iqtisadi və sosial bərabərsizliklərə cavab verməkdə istifadə edilə

bilər. İslamda zəiflərin müdafiəsi və onlara yardım etmək vacib vəzifə kimi təqdim olunur. Bu, müasir cəmiyyətlərdə daha insani və ədalətli sistemlərin qurulmasına töhfə verə bilər.

Elmin, texnologiyanın və əlaqə vasitələrinin inkişafı ilə sürət qazanan qloballaşma fərdi və ictimai həyat üçün müəyyən asanlıqlar təmin etməklə yanaşı, mənfi hallara da səbəb olur. Belə ki, mənəvi-əxlaqi dəyərlərin süzgəcindən keçirilmədən mənimsənən bu prosesin gətirdiyi dünyəvi (sekulyar) həyat tərzi ailədə, daha geniş miqyasda, sosial münasibətlərdə birgəyaşamı təmin edən əsas əxlaqi dəyərlərin varlığı üçün ciddi təhlükə yaradır (Gafarov, 2018. 291). Həmçinin texnologiyanın və sosial medianın geniş yayılması ilə insanların sosial davranışları və ünsiyyət üsulları əhəmiyyətli dərəcədə dəyişib. Sosial media vasitəsilə yayımın sürətli olması və insanlar arasında əlaqələrin zəifləməsi empatiyanın azalmasına və şəxsi münasibətlərin pozulmasına gətirib çıxarmışdır.

Bu mənada, hədislərdə qeyd olunan sosial əxlaq və davranış qaydaları internet mədəniyyəti və sosial mediada davranışın tənzimlənməsi üçün də əhəmiyyətli ola bilər. Məsələn, Həzrət Peyğəmbər (s.ə.s.) belə buyurmuşdur: "*Müsəlman, əlindən və dilindən (digər) müsəlmanların zərər görmədiyi kimsədir. Mömin insanların canları və malları mövzusunda əmin olduqları kimsədir*" (Nəsai, İman, 8). Bu hədis virtual aləmdə də başqalarına zərər vermədən hörmət və ədalət prinsipləri əsasında ünsiyyət qurmağın vacibliyini ortaya qoyur.

Müasir təhsil sistemlərində, yalnız akademik məlumatlar deyil, əxlaqi və mənəvi tərbiyənin də vacibliyi getdikcə daha çox önəm kəsb edir. Hədislərdə elmə, biliyə və təfəkkürə verilən dəyər müasir təhsil prosesində əxlaqi təlimlərin əhəmiyyətini artırır. Həzrət Peyğəmbərin (s.ə.s.) "*Elm öyrənmək hər bir müsəlmana vacibdir*" (İbn Macə, Sünnə, 17) hədisi yalnız dini biliklərin deyil, ümumi təhsilin də müsəlmanlar üçün vacib olduğunu göstərir.

Hədislər tərbiyənin yalnız ailədə və cəmiyyətdə deyil, məktəblərdə və universitetlərdə də əxlaqi tədrisin bir hissəsi olmasının vacibliyini təbliğ edir. Müasir təhsil sistemlərində hədislərə istinad etməklə, gənc nəsillərə milli və mənəvi bir həyat tərzi aşılanaraq onların həm intellektual, həm də əxlaqi inkişafı təmin edilə bilər.

Nəticə

Hədislər ailə, sosial münasibətlərin tənzimlənməsində mühüm rol oynayır. İslamın təməl əxlaqi prinsiplərini formalaşdıran hədislər ailə daxilində sevgi, hörmət və mərhəmətin gücləndirilməsi üçün vacib bir mənbədir. Hədislər valideyn-övlad münasibətlərində qarşılıqlı hörmətin və ailə üzvləri arasında məsuliyyətin əhəmiyyətini vurğulayaraq, ailə yuvasının möhkəmləndirilməsinə kömək edir. Eyni zamanda, sosial məsuliyyətin təşviqi, qohumlar və qonşular arasında yaxşı münasibətlərin qurulması da hədislərin əsas mövzularındandır.

Sosial ədalətin təmin olunması və zəif təbəqələrə yardım göstərilməsi də hədislərdə mühüm yer tutur. Həzrət Peyğəmbərin (s.ə.s.) yetimlərə və yoxsullara qarşı şəfqət və qayğı göstərməsi cəmiyyətin zəif üzvlərinin müdafiəsi üçün əhəmiyyətli nümunədir. Bu prinsiplər müasir cəmiyyətlərin sosial məsələlərində ədalətin və qarşılıqlı dəstəyin vacibliyini vurğulamaqla yanaşı, birgəyaşayışın təməl qaydalarını da təyin edir.

Bundan əlavə, texnologiya və sosial medianın təsirinin genişləndiyi indiki zamanda hədislər etik qaydaların formalaşmasında və mənəvi dəyərlərin qorunmasında güclü bir vasitə ola bilər. Müasir dövrdə insanlar sosial media vasitəsilə daim yeni təsirlərə məruz qalırlar. Bu da bəzən mənəvi dəyərlərin unudulmasına səbəb olur. Bu şəraitdə hədislər ailə və cəmiyyət içində sağlam sosial münasibətlərin və düzgün davranış qaydalarının qorunmasına böyük töhfə verə bilər.

Elmi və texnoloji inkişaf müasir cəmiyyətlərdə yeni nəslin sosiallaşması üçün mövcud təhsil fəaliyyətlərinin daha sistematik şəkildə həyata keçirilməsini tələb edir. Fərdlərin sosial həyatda mövcud ola bilmələri məsələsində, xüsusilə ibtidai və orta təhsil müəssisələri mühüm rol oynayır. Tədris proqramındakı digər fənlərlə yanaşı, Quran ayələri və hədislərlə zənginləşdirilmiş əxlaq dərsi də tədris olunmalıdır. Eyni zamanda, fərqli dinlərin mənsubları üçün də həmin dərslikdə xüsusi mövzulara yer verilməlidir. Bu, cəmiyyətdəki fərqli dini anlayışların tanınması, fərqli anlayışlar arasında qarşılıqlı dözümlülüyün inkişaf etdirilməsi, cəmiyyətdə birlik və həmrəylik ruhunun gücləndirilməsi və qorunmasında çox ciddi bir funksiyanı yerinə yetirər.

Beləliklə, hədislərin ailə və sosial tərbiyədəki rolu həm tarixən, həm də müasir dövrdə öz əhəmiyyətini qoruyur. Hədislər İslamın təməl əxlaqi dəyərlərinin daşıyıcısı kimi ailə münasibətlərinin sağlam olmasına, sosial ədalətin təmin olunmasına və cəmiyyətin ümumi inkişafına mühüm töhfə verir. Bu, İslamın əxlaqi prinsiplərinin zamanın tələblərinə uyğun olaraq yenidən izah edilməsinin və tətbiq edilməsinin vacibliyini göstərir.

Ədəbiyyat

Akdoğan, A. (2009). Toplumsal Ahlak Sorunları Karşısında İslam Ahlakının Rolüne Sosyolojik Bir Bakış. Akademik Araştırmalar Dergisi. (42). (s. 181-199).

Algül, A. Kaya, Y. E. (2020). Kur`an`ı Kerim`de ve sünnette aile hayatı. Journal of Social and Humanities Sciences Research. 7(49).

Başar, S. (2012). Değer Açısından Kuranda ve Hadislerde Ailenin Birliği ve Devamlılığı. Kuranda Aile Sempozyumu. Tibyan yayıncılık. (s. 90-114).

Buxari, Əbu Abdullah Muhəmməd ibn İsmayıl. (1993). Səhihi-Buxari. (thq. Mustafa Dib əl-Buğa). Dəməşq. Daru İbn Kəsir.

Çalgan, M. A. (2015). İslamda Toplumsal Sorumluluk Şuuru Ve Günümüzde Toplum İçin Önemi. Pamukkale Üniversitesi İlahiyat Fakültesi Dergisi. (s. 26-43).

Darimi. Abdullah ibn Əbdurrəhman əs-Səmərqəndi. (1987). Sünənüd-Darimi. Darul-kitabil-ərəbi.

Demirkol, N. (2020). Sosyal Hayata Katkısı Açısından Din Eğitimi. (Yüksek Lisans Tezi). Diyarbakır. (125 s.).

Əbu Davud. Süleyman ibn Əşəs əs-Sicistani. (2009). Sünəni Əbi Davud. (thq. Şüeyb əl-Arnavut). Daru risalətil-aləmi.

Gafarov, A. (2018). Ahlakın Toplumsal Boyutu. İslam Ahlak Esasları ve Felsefesi. Ankara. (352 s.).

Gümrükçüoğlu, S. (2017). Çocuğun Din Eğitiminde Ailenin Rolü. KADEM Kadın Araştırmaları Dergisi. (s. 39-60).

Hakim. Əbu Abdullah Muhəmməd ibn Abdullah ən-Neysaburi. (2018). əl-Müstədrək ələs-Səhiheyn. (thq. Muhəmməd Kamil Qürrə), Darul-risalətil-aləmiyyə.

İbn Hənbəl. Əbu Abdullah Əhməd ibn Muhəmməd. (2005). əl-Müsnəd. İordaniya. Beytul-əfkarid-düvəliyyə.

İbn Macə. Əbu Abdullah Muhəmməd ibn Yezid. (2009). Sünəni İbn Macə. (thq. Şüeyb əl-Arnavut). Daru risalətil-aləmi.

İmaduddin Ömər Mustafa Amir. (2004). əl-Əhadisul-varidə fi himayətil-üsrəti minət-təfəkkük. (Magistratura tezisi). Camiətul-Urduniyyə.

Kaya, M. (1997). *Ailede Anne-Baba Tutumlarının* Çocuğun Kişilik ve Benlik Gelişimindeki Rolü. Ondokuz Mayıs Üniversitesi İlahiyat Fakültesi Dergisi 9 (9). (s. 193-204).

Kutluay, İ. (2019). Hz. Peygamber`in Hadislerinde ve Sünnet`te Ailenin Korunması ve Neslin Devamı Bağlamında Alınan Tedbirler.

Uluslararası İnsan Hakları Sempozyumu Ailenin Korunması Hakkı. Ankara. (s. 191-218).

Qudai. Əbu Abdullah Muhəmməd ibn Səlamə. (1986). Müsnədüş-Şihab. (thq. Həmdi ibn Əbdülməcid). Beyrut. Müəssəsətür-risalə.

Meriç, A. (2019). Çocukların Ahlaki ve Kural Bilgisiyle Anne-Baba-Çocuk İletişimi Arasındaki İlişkinin İncelenmesi. The Journal of Academic Social Science Studies. (75). (s. 93-101).

Müslim. Əbul-Hüseyin Müslim ibn Həccac. (1374). Səhihi-Müslim. (thq. Muhəmməd Fuad Əbdülbaqi). Qahirə. Daru ihyait-turasil-ərəbi.

Nəsai. Əbu Əbdürrəhman Əhməd ibn Şüeyb. (2000). Sünəni-Nəsai. Ərəbistan. Darüs-Səlam.

Şahin. S, Aral. N. (2012). Aile İçi İletişim. Ankara Sağlık Bilimleri Dergisi. 1(3). (s. 55-66).

Təbərani. Əbul-Qasim Süleyman ibn Əhməd əl-Ləxmi. (1433). əl-Möcəmül-kəbir. (thq. Həmdi Əbdülməcid əs-Sələfi). Qahirə. Məktəbətu İbn Teymiyə.

Tirmizi. Əbu İsa Muhəmməd ibn İsa. (1996). əl-Camiul-kəbir. (thq. Bəşşar Əvvad Məruf). Beyrut. Darul-qərbil-İslami.

Ünal, İ.H. (2011). Kuran ve Sünnet verileri ışığında aile. Ankara. TDV Yay. Matbaası. (s. 6-9).

Hacı Bektaş Vəli və bəktaşi düşüncə sistemində təlim-tərbiyə

Emin Orucov,
Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Sosiologiya
İnstitutunun dissertantı
Bakı, Azərbaycan
eminorucov@ait.edu.az
https://orcid.org/0000-0002-0583-5053

Xülasə

Məqalədə Hacı Bektaş Vəlinin təlim-tərbiyə ilə bağlı görüşləri tədqiq edilmiş, təlim-tərbiyənin insan şəxsiyyətinin formalaşmasında və cəmiyyətdə faydalı fərd kimi yetişməsində əhəmiyyəti vurğulanmışdır. Eyni zamanda, Hacı Bektaş Vəlinin həyatı və İslam dininin təlim-tərbiyəyə bəxş etdiyi töhfəsi haqqında məlumat verilmişdir. Məqalədə, həmçinin Hacı Bektaş Vəlinin təlim-tərbiyəyə yanaşması izah olunmuş, onun əxlaqi dəyərlərin inkişafına, cəmiyyətin rifahına və insanın mənəvi yetkinliyinə əhəmiyyəti qeyd edilmişdir.

Hacı Bektaş Vəli təlim və tərbiyəni bilik qazanmaqla yanaşı, mənəvi, əxlaqi və sosial inkişaf prosesləri ilə də əlaqələndirir. Onun mövzu ilə bağlı fikirləri İslamın və sufi düşüncənin prinsipləri ilə formalaşmışdır. Ümumilikdə, Hacı Bektaş Vəlinin düşüncə sistemində təlim-tərbiyənin insanın və cəmiyyətin inkişafındakı roluna xüsusi diqqət çəkilir.

Məqalədə Hacı Bektaş Vəlinin Həzrət Əlini təlim və tərbiyədə nümunə göstərməsindən bəhs olunur. Həzrət Əli bəktaşi təriqətində ədalət, elm, mənəviyyat və kamil insan kimi qəbul edilir. Hacı Bektaş Vəli Həzrət Əlinin ədalət və hikmət prinsiplərini əsas götürüb, müridlərinə əxlaqi və mənəvi kamilliyə çatmağı öyrədir. Həmçinin əhli-beytə olan sevgi və bağlılıq bəktaşi təliminin mərkəzində yer alır, bu nəsil təmizliyin və mənəvi dəyərlərin rəmzi kimi qəbul edilir.

Məqalədə Hacı Bektaş Vəli, Virani Baba və Pir Sultan Abdalın şeirlərində tərbiyənin, mənəvi dəyərlərin və Allaha yaxınlaşmanın əhəmiyyəti də vurğulanmışdır. Hacı Bektaş Vəli insanın qəlbini Allahın evi olaraq təqdim edir. Virani Baba dünya malına məftun olmağın

mənəvi boşluğa gətirdiyini vurğulayır, Qul Nəsimi isə daxili mənəviyyatın saflaşmasının vacibliyini nəzərə çatdırır. Pir Sultan Abdalın şeirləri isə iradə və sadiqlik mövzusuna toxunur. Ümumilikdə, məqalədə bəktaşi ədəbiyyatında mənəvi-əxlaqi dəyərlərin tərbiyə prosesindəki yeri izah olunur.

Açar sözlər: *Hacı Bektaş Vəli, bəktaşilik, təlim, tərbiyə, sufi, təriqət.*

Hacı Bektash Veli and the Educational System in Bektashi Thought

Emin Orujov
Azerbaijan National Academy of Sciences
Institute of Philosophy and Sociology
PhD student
Baku, Azerbaijan
eminorucov@ait.edu.az
https://orcid.org/0000-0002-0583-5053

Abstract

This article explores the views of Hacı Bektaş Veli on education and upbringing. It emphasizes the importance of education in shaping human personality and preparing individuals as beneficial members of society. Additionally, the article provides insights into Hacı Bektaş Veli's life and the significance Islam places on education and upbringing. The approach of Hacı Bektaş Veli toward education is examined, highlighting his emphasis on the development of moral values, societal welfare, and spiritual maturity.

Hacı Bektaş Veli associates education not only with acquiring knowledge but also with the processes of moral, spiritual, and social development. His perspectives on the topic are rooted in the principles of Islam and Sufi thought. Overall, the article underlines the significant role education plays in personal and societal development within Hacı Bektaş Veli's system of thought.

The article also discusses how Hacı Bektaş Veli takes Hazrat Ali as an example in education and upbringing. Hazrat Ali is regarded in the Bektashi order as a symbol of justice, knowledge, spirituality, and the ideal human being. Drawing upon Hazrat Ali's principles of justice and wisdom, Hacı Bektaş Veli teaches his disciples to attain moral and spiritual perfection. Furthermore, love and devotion to the Ahl al-Bayt lie at the heart of Bektashi teachings, with the Ahl al-Bayt being perceived as a symbol of purity and moral values.

The article highlights the importance of education, moral values, and closeness to God as reflected in the poetry of Hacı Bektaş Veli, Virani Baba, and Pir Sultan Abdal. Hacı Bektaş Veli portrays the human heart as the house of God; Virani Baba warns against excessive attachment to material possessions, which he sees as a source of spiritual emptiness; Kul Nesimi emphasizes the necessity of internal spiritual purification. Pir Sultan Abdal's poetry, on the other hand, addresses themes of determination and loyalty. Overall, the article explains the role of spiritual and moral values in the educational process within Bektashi literature.

***Keywords**: Hacı Bektaş Veli, Bektashism, education, upbringing, Sufism, order.*

Образование и воспитание в системе мыслей Хаджи Бекташа Вели и бекташизма

Эмин Оруджев
Национальная академия наук Азербайджана,
Институт философии и социологии, диссертант
Баку, Азербайджан
eminorucov@ait.edu.az
https://orcid.org/0000-0002-0583-5053

Резюме

В статье исследуются взгляды Хаджи Бекташа Вели на вопросы воспитания и образования. Подчеркивается значимость воспитания и образования в формировании личности человека и

подготовке его как полезного члена общества. В статье также разъясняется подход Хаджи Бекташа Вели к вопросам воспитания и образования, подчеркивается его внимание к развитию моральных ценностей, благополучию общества и духовной зрелости человека.

Хаджи Бекташ Вели связывает обучение не только с приобретением знаний, но и с процессами духовного, морального и социального развития. Его идеи на эту тему формировались на основе принципов ислама и суфийской мысли. В целом в статье подчеркивается роль воспитания и образования в развитии человека и общества в системе взглядов Хаджи Бекташа Вели.

В статье рассказывается о том, что Хаджи Бекташ Вели берет пример с Хазрата Али в обучении и воспитании. Хазрат Али в бекташском ордене считается символом справедливости, знаний, духовности и идеального человека. Основываясь на принципах справедливости и мудрости Хазрата Али, Хаджи Бекташ Вели учил своих последователей достигать морального и духовного совершенства. Любовь и привязанность к Ахль аль-Бейту занимают центральное место в бекташском учении, где эта семья воспринимается как символ чистоты и духовных ценностей.

В статье подчеркивается значение воспитания, духовных ценностей и приближения к Аллаху, отраженное в стихах Хаджи Бекташа Вели, Вирани Баба и Пир Султана Абдаля. Хаджи Бекташ Вели изображает человеческое сердце как дом Аллаха; Вирани Баба предупреждает об опасности чрезмерной привязанности к материальным благам, ведущей к духовной пустоте; Кул Несими подчеркивает необходимость очищения внутреннего духовного мира. Стихи Пир Султана Абдаля затрагивают темы решимости и преданности. В целом статья объясняет роль духовных и моральных ценностей в процессе воспитания в бекташской литературе.

***Ключевые слова**: Хаджи Бекташ Вели, бекташизм, воспитание, обучение, суфизм, орден.*

Giriş

Təlim-tərbiyə insanın şəxsiyyət kimi formalaşmasında və cəmiyyətdə faydalı fərd kimi yetişməsində əsas vasitələrdən biridir. İnsanların maddi-mənəvi tərəqqisi, elmi-mənəvi inkişafı təlim-tərbiyə ilə birbaşa əlaqədardır. Bu baxımdan, tarixin müxtəlif dövrlərində yaşamış böyük mütəfəkkirlər təlim-tərbiyənin mahiyyəti və əhəmiyyəti barədə özlərinəməxsus düşüncələr irəli sürmüşlər. Türk xalqlarının mənəvi irsində bu istiqamətdə dəyərli töhfələr vermiş şəxslərdən biri Hacı Bektaş Vəlinin təlim-tərbiyə ilə bağlı görüşləri hazırda da aktual olub, cəmiyyətin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Hacı Bektaş Vəlinin təlim-tərbiyəyə verdiyi önəm, əsasən, insanın əxlaqi dəyərlərinin inkişaf etdirilməsi və cəmiyyətin rifahı üçün düzgün yönəldilməsi üzərində qurulmuşdur. O, maarifləndirməni yalnız elmi biliklərlə məhdudlaşdırmamış, əxlaq və mənəviyyatın onun ayrılmaz tərkib hissəsi olduğunu vurğulamışdır. Bu baxımdan, Hacı Bektaş Vəlinin təlim-tərbiyə ilə bağlı görüşləri müasir təhsil sistemində əxlaq və mənəviyyatın önəmi haqqında dərin müzakirələr üçün zəmin yaradır.

Hacı Bektaş Vəlinin təlim-tərbiyə ilə bağlı görüşləri onun sufi düşüncəsi və mənəvi irsinin əsasını təşkil edir. O, insan tərbiyəsinə xüsusi önəm verir, şəxsiyyətin inkişafını təlim və tərbiyənin ayrılmaz prosesi kimi qəbul edirdi. Hacı Bektaş Vəli təlim-tərbiyəni yalnız bilik əldə etməklə məhdudlaşdırmamış, eyni zamanda, insanın mənəvi-əxlaqi və sosial yetkinliyini ön plana çıxarmışdır. Onun görüşlərinə əsasən, təlim və tərbiyə insanın fərdi, ictimai həyatında da davamlı şəkildə tətbiq edilməlidir.

Hacı Bektaş Vəlinin təlim və tərbiyə ilə bağlı görüşləri sufi ənənəsinin əsas prinsiplərinə söykənir və insanın mənəvi inkişafına yönəlir. Onun təlimində sevgi, ədalət, elm və əxlaq kimi dəyərlər tərbiyənin məhək daşları hesab edilir və cəmiyyətin harmoniyası üçün bu prinsiplərin hər bir fərd tərəfindən mənimsənilməsinin zəruriliyi vurğulanır.

Hacı Bektaş Vəlinin təlimləri müasir cəmiyyətin qarşılaşdığı mənəvi böhranlara cavab olaraq, əxlaqi dəyərlərin yenidən canlandırılması və təhsildə əhəmiyyətinin artırılması mövzusunda yeniliklər təqdim edir. Hacı Bektaş Vəli insanın əxlaqi-mənəvi və intellektual inkişafını mərkəzə alan təlim sistemi təklif edir. Bu yanaşma müasir təhsildə insan şəxsiyyətinin inkişafını vurğulayan metodların tədqiqinə əsas verir.

Hacı Bektaş Vəlinin təlim-tərbiyə ilə bağlı görüşləri müasir dövrün tələblərinə cavab verən, cəmiyyətin inkişafını dəstəkləyən və insan

şəxsiyyətinin formalaşmasında dəyərli bir mənbədir. Bu fikir və yanaşmalar təhsil sisteminin yenilənməsi və müasir problemlərə innovativ həllərin tapılması istiqamətində yeni perspektivlər açır.

"Təlim və tərbiyə" anlayışları bir-biri ilə sıx bağlı olub, insanın şəxsiyyət və cəmiyyət üzərində inkişafında mühüm rol oynayan iki əsas sahəni əhatə edir. Təlim, ümumiyyətlə, bilik, bacarıq və vərdişlərin qazanılması məqsədilə müəyyən edilmiş tədris planına uyğun şəkildə öyrədilmə prosesidir. Tərbiyə isə şəxsin mənəvi-əxlaqi, sosial, emosional və davranış baxımından formalaşdırılması və inkişaf etdirilməsi prosesini əhatə edir. "Təlim" anlayışı bir çox fərqli sahələri özündə əks etdirir, insanın intellektual inkişafını təmin etmək üçün sistemli şəkildə tətbiq olunur. Təlimin əsas məqsədi insana nəzəri biliklər və praktik bacarıqlar öyrətməkdir. "Tərbiyə" anlayışı isə insanın mənəvi-əxlaqi dəyərlər, davranış qaydaları, sosial bacarıqlar və əxlaqi keyfiyyətlər baxımından formalaşdırılması və inkişaf etdirilməsi prosesini nəzərdə tutur. Tərbiyə insan şəxsiyyətinin inkişafına yönəldilmiş prosesdir.

Hacı Bektaş Vəlinin və bəktaşilərin təlim-tərbiyə ilə bağlı görüşləri

İslam təlim və tərbiyəyə böyük əhəmiyyət verən, insanın mənəvi-əxlaqi və sosial inkişafını dəstəkləyən dindir. İslamda təlim və tərbiyə insanın fərdi inkişafı, cəmiyyətin rifahı üçün vacib sayılan iki əsas dəyər olmaqla, elm və bilik qazanmaq, ibadət kimi qiymətləndirilir. Qurani-Kərimdə və hədislərdə elmin əldə edilməsinə xüsusi önəm verilir. İslam ənənəsində Məhəmməd peyğəmbərə belə bir hədis aid edilir: "Elm öyrənmək hər bir müsəlmana fərzdir" (Kılıç, 2023, 14). İslam təlimi elm və biliyi şəxsin mənəvi-əxlaqi yüksəlişi, eyni zamanda, cəmiyyətin tərəqqisi üçün zəruri vasitə hesab edir. İnsan dünyəvi və dini biliklər qazanır, həyatını və bütövlükdə cəmiyyəti daha yaxşı inkişaf etdirə bilir. İslam prinsiplərini özü üçün nümunə götürən Hacı Bektaş Vəli təlim-tərbiyəyə böyük əhəmiyyət verən şəxsiyyətlərdən olmuşdur.

Hacı Bektaş Vəli (1209 – 1271) XIII əsrdə yaşamış sufi öndərlərdən biri və bəktaşilik təriqətinin qurucusudur. O, türk dünyasında, İslam aləmində böyük təsirə malik sufi liderlərdən biridir. Xorasan bölgəsinin Nişapur şəhərində doğulan Hacı Bektaş Vəli gənc yaşlarında din və sufi təlimləri ilə maraqlanmış, Xorasanın məşhur alimlərindən dərs almışdır. O, Əhməd Yəsəvinin təsiri altında qalaraq sufi ənənələrini mənimsəmişdir. Hacı Bektaş Vəli Anadolunun islamlaşması və türkləşməsi prosesində də mühüm rol oynamışdır. Onun təlimləri sevgi, mərhəmət, ədalət və təvazökarlıq üzərində qurulmuşdur. Hacı Bektaş Vəlinin təlimləri, xüsusilə, kəndli və yoxsul təbəqələr arasında böyük təsirə malik olmuşdur (Bilmez, Bozkurt, 2022, 221). Bəktaşilikdə təlim və tərbiyə

davamlı proses kimi qəbul edilir. İnsan həyatı boyunca öyrənməyə və inkişaf etməyə davam etməlidir. Elm və bilik daim artırılmalı, insanın mənəvi-əxlaqi keyfiyyətləri təkmilləşdirilməlidir. Təlim-tərbiyə həyatda daim irəliləyən və inkişaf edən prosesdir.

Hacı Bektaş Vəliyə görə, təlim və tərbiyə, ilk növbədə, ailədən başlayır. Valideynlərə övladlarına doğru təlim və əxlaqi tərbiyə vermələri vacib buyurulmuşdur. Quranda Allah uşaqları dini, əxlaqi və dünyəvi biliklərlə böyütməyə çağırır. Məhəmməd peyğəmbər demişdir: "Valideynin övladına verdiyi ən yaxşı şey gözəl tərbiyədir". Valideynlər övladlarına doğru və yanlış arasındakı fərqi öyrətməli, onları düzgün yolla istiqamətləndirməlidir (Çelik, 2014, 97).

Bəktaşilərə görə, təlim və tərbiyənin məqsədi yalnız fərdi inkişaf deyil, eyni zamanda, cəmiyyətin rifahına xidmət etməkdir. Hər bir fərd öz biliyi və əxlaqi keyfiyyətləri ilə cəmiyyətə müsbət təsir göstərməli, başqalarına kömək etməli və cəmiyyətin inkişafına töhfə verməlidir. Fərd və cəmiyyət arasında qarşılıqlı məsuliyyət və yardımlaşma prinsipi İslamın təməl dəyərlərindən biridir.

Hacı Bektaş Vəlinin əsərlərində tərbiyə, əxlaq və mənəvi inkişafla bağlı fikirlər mühüm yer tutur. O, xüsusən İslamın əxlaqi və mənəvi dəyərlərini vurğulayan bir çox əsərlərində insanın tərbiyəsi, mənəvi yetkinliyi və özünü inkişaf etdirməsi mövzularını əhatə etmişdir. Hacı Bektaş Vəlinin bu mövzuda əsas fikirlərinə onun özünün "Məqalat" əsərində rast gəlmək mümkündür.

"Məqalat" Hacı Bektaş Vəlinin ən tanınmış əsərlərindən biridir. Bu əsərdə tərbiyə və mənəvi inkişafla bağlı əsas fikirlərini dörd mərhələdə təqdim edir (Özbay, 1990, 10).

Şəriət (şəriət qapısı) – bu mərhələ dinin zahiri qayda-qanunlarına əməl etmək və ibadətlərlə bağlı təlimatları əhatə edir.

Təriqət (təriqət qapısı) – mənəvi həyatın dərinləşdirilməsi, nəfsin təmizlənməsi və əxlaqi kamilliyə çatmaq üçün göstərişlərin verildiyi mərhələdir.

Mütəfəkkirin başlıca əsəri "Məqalatdır"; o, bu əsərində insanın təlim-tərbiyə baxımından kamilləşməsi üçün aşağıdakı mənəvi mərhələləri qət etməli olduğunu qeyd edir:

Mərifət (mərifət qapısı) – bu mərhələ özünü tanımaq, Allahı dərindən dərk etmək və ilahi biliklərə yiyələnməklə bağlıdır.

Həqiqət (həqiqət qapısı) – insanın Allah ilə birbaşa əlaqəsini və həqiqi mənəvi yetkinliyini əldə etdiyi mərhələdir.

Hər bir mərhələdə tərbiyə, nəfsin tərbiyəsi, əxlaq və mənəvi yüksəliş haqqında müxtəlif fikirlər irəli sürülür.

“Məqalati-qeybiyyə və kəlimati-eyniyyə” əsərində Hacı Bektaş Vəli insanın mənəvi inkişaf yolu ilə getməsi, nəfsi ilə mübarizə aparması və doğru yola çatması üçün bəzi prinsipləri və təlimləri açıqlayır. Əsərdə tərbiyə və əxlaqi inkişafın insanı necə kamilliyə aparacağı vurğulanır. Əsərdə qeyd olunan prinsip və təlimləri aşağıdakı şəkildə ümumiləşdirmək olar (Aytaş, 2000, 331).

İnsana hörmət və dəyər - Hacı Bektaş Vəli insanın Allahın ən ali məxluqu olduğuna inanır və hər bir insanın dəyərini qorumağı təlim edirdi. O, “Yetmiş iki millətə bir gözlə bax” ifadəsi ilə insanlar arasında heç bir fərq qoyulmamasını vurğulayırdı.

Təvazökarlıq və sadəlik – Hacı Bektaş Vəli təvazökar və sadə həyat tərzini məsləhət görürdü. O, dünyəvi mənsəb və mal-mülk arzularını tərk etməyi, mənəvi zənginliyi isə üstün tutmağı öyrədirdi. İnsanların eqo və təmənna hisslərindən uzaq durmasını, insanlara qarşı sadə və təmiz münasibət bəsləmələrini təlim edirdi.

Sevgi və qardaşlıq – onun təlimində sevgi əsas yer tutur. Hacı Bektaş Vəli Allah sevgisi ilə dolu olan bir insanın, həm də bütün canlıları sevməli olduğunu qeyd edir. “İnsan sevildikcə, kamala çatır” fikrini irəli sürən Hacı Bektaş Vəli sevgi ilə dolu olan cəmiyyətlərin daha ədalətli və birləşdirici olacağını vurğulayır.

Ədalət və ədalətli idarəçilik – o, ədalətin hər kəs üçün zəruri olduğunu bildirir və idarəçiləri ədalətliliyə çağırırdı. Ona görə, əsl rəhbər və ya idarəçi xalqına xidmət göstərməli, ədaləti bərqərar etməli və insanların ehtiyaclarına diqqətlə yanaşmalıdır.

Elm və bilik axtarışı – Hacı Bektaş Vəli mənəvi inkişafın və tərbiyənin əsas şərti kimi elmi və biliyi yüksək dəyərləndirirdi. “Elm təriqətdən üstündür” ifadəsi ilə insanların öyrənmə və özlərini təkmilləşdirmə zərurətini vurğulayırdı. O, insanları dini, dünyəvi elmlərdə bilik sahibi olmağa səsləyirdi. Hacı Bektaş Vəliyə görə, bilik hər şeydən üstündür. Onun təlimində elm və bilik insanın inkişafı və kamilliyə çatması üçün vacib bir vasitə kimi təqdim olunur. Hacı Bektaş Vəlinin elmə verdiyi dəyər haqqında əsas fikirləri aşağıda göstərdiyimiz mövzuda izah oluna bilər:

Hacı Bektaş Vəli cahilliyi insan tərəqqisinə və cəmiyyətin rifahına zərər verən əsas maneələrdən biri kimi görürdü. Ona görə, cahil insan özünü və ətrafını anlaya bilməz, həm də yanlış fikirlərə qapıla bilər. Elm və bilik isə insana gerçəklikləri anlamaqda kömək edir, qaranlıqdan işığa çıxmağın yolunu göstərir. Onun fikrincə, insan mənəvi, maddi dünyada uğur qazanmaq üçün geniş və hərtərəfli biliklərə sahib olmalıdır. Bu məqsədlə dünyəvi elmlərə yiyələnmək və tərbiyə prosesinə bu

istiqamətləri cəlb etmək zəruridir. Hacı Bektaş Vəli biliyin, sadəcə, hazır şəkildə qəbul edilməyəcəyini, onu axtarmağın və dərin düşüncə ilə qavramağın vacibliyini vurğulayırdı. O, elmin bir ömürboyu axtarılmalı və hər bir fərdin öz fərdi inkişafı üçün bilik yollarında addımlamalı olduğunu təlim edirdi. Hacı Bektaş Vəli üçün elm və əxlaq bir-birini tamamlayan iki vacib sahədir. Elm əxlaqla birləşdikdə, insanın mənəvi, ictimai cəhətdən daha yetkin bir şəxsiyyət olmasına kömək edir. Ona görə, biliyi əxlaqla birləşdirmək vacibdir, çünki bilik əxlaqsız istifadə edildikdə zərərli ola bilər. Hacı Bektaş Vəlinin elmə verdiyi bu yüksək dəyər onun təlimindəki əsas dəyərlərdən biri kimi, bəktaşilik təriqətinin də təməl prinsipləri arasında yer alır.

Bəktaşilikdə təlim və tərbiyə mənəvi inkişafın əsasını təşkil edir və bu təriqətdə tərbiyə prosesi insanın mənəvi, əxlaqi kamilliyə çatmasına yönəldilmişdir. Bəktaşilik təriqətində təlim və tərbiyə məsələləri dərin sufi düşüncəsinə əsaslanır, fərdlərin özlərini və ətraflarını dərk etməsi, əxlaq və mənəviyyatla zənginləşməsi məqsədi daşıyır. Bəktaşiliyin təlim və tərbiyə ilə bağlı əsas prinsipləri aşağıda göstərilmişdir:

İnsan sevgisi və əxlaq

Bəktaşilik təliminin mərkəzində insan sevgisi dayanır. Hacı Bektaş Vəlinin "Yetmiş iki millətə bir gözlə bax" sözləri bəktaşilikdə ayrı-seçkiliyin və insanlara qarşı mənfi münasibətin yolverilməz olduğunu göstərir. Bütün insanlar Allahın yaradılışıdır və hər bir şəxsin dəyəri vardır. Buna görə də təlim və tərbiyədə sevgi, hörmət, anlayış və empati əsas istiqamətlərdən biridir.

Əxlaqi və mənəvi tərbiyə

Bəktaşilikdə əxlaq çox yüksək dəyərləndirilir. Fərdlərdən dürüstlük, ədalət, təvazökarlıq və səmimilik kimi əxlaqi keyfiyyətlər tələb olunur. Tərbiyə prosesi insanların öz mənəvi keyfiyyətlərini təkmilləşdirməsi, eqoizmdən, paxıllıqdan və kin-küdurətdən uzaq durması, qəlbinin təmizlənməsi üzərində qurulmuşdur. Bu təriqətdə insanın öz nəfsini idarə etməsi və eqosunu aşması böyük əhəmiyyət daşıyır.

Mürşid-mürid münasibətləri

Bəktaşilikdə təlim və tərbiyə prosesinin ən mühüm tərəflərindən biri mürşid (rəhbər) və mürid (şagird) arasında olan münasibətdir. Mürşid müridlərin mənəvi inkişafına rəhbərlik edir, onları doğru yola yönəldir və mənəvi səyahətlərində bələdçilik edir. Mürid mürşidə etibar

etməli, onun verdiyi təlimatlara əsaslanmalı, göstərdiyi yolla mənəvi kamilliyə doğru irəliləməlidir.

Zəhmət və təvazökarlıq

Bəktaşilik təlimində zəhmətkeşlik və təvazökarlıq mühüm yer tutur. Hacı Bektaş Vəli zəhmətin insan həyatında oynadığı rolu önəmli hesab edir və işgüzar olmağa, dürüst əmək sərf etməyə səsləyir. Bununla yanaşı, təvazökarlıq da ön plandadır. Yaxşı tərbiyə almış fərd özünü başqalarından üstün görməməli, əksinə, təvazökarlıqla hər kəsə hörmətlə yanaşmalıdır.

Birlik və bərabərlik

Bəktaşilikdə təlim və tərbiyə fərdlər arasında bərabərliyi və birliyi gücləndirməyi hədəfləyir. Hacı Bektaş Vəli insanları ayrılığa, ixtilafa deyil, birliyə və vəhdətə çağırırdı. Onun təlimində insanlara qarşı qardaşlıq və dostluq münasibəti əsas yer tutur. Fərdlər arasında sosial status, var-dövlət və ya etnik mənsubiyyət fərqi nəzərə alınmamalıdır.

Daxili tərbiyə və nəfsin cilalanması

Bəktaşilik təlimi insanın daxili aləminin tərbiyəsinə də xüsusi diqqət ayırır. Nəfsin cilalanması, yəni insanın öz daxili istəklərinə və mənfi duyğularına qarşı mübarizə aparması, nəfsin nəzarət altına alınması bu təlimin mühüm tərkib hissəsidir. Nəfsini cilalayaraq mənəvi yolda irəliləyən fərd kamil insan ola bilər.

Qardaşlıq və yardımlaşma

Bəktaşilik təlimində qardaşlıq və yardımlaşma önəmli yer tutur. Müridlər bir-birlərinə dəstək olmalı, ehtiyacı olanlara yardım göstərməli və cəmiyyətdə ədalətin bərqərar olunmasına çalışmalıdırlar. Bu təlimə görə, fərd öz fərdi mənfəətini deyil, ümumi xeyri düşünməli, başqalarının rifahını öz məqsədləri arasına daxil etməlidir.

Bəktaşi təlimində dörd vacib mərhələ təriqətin əsas prinsipləri və mənəvi inkişaf yolunu müəyyən edən dərin mənəvi təlimləri əks etdirir. Bu mərhələlər Allaha sevgi, formadan aralanıb mənaya nüfuz etmək, insanlar arasında sevgi və fərdin daxilində olan cövhəri kəşf etməklə bağlıdır. Bu prinsiplər bəktaşilikdə fərdin ilahi həqiqətə çatmaq yolunda keçdiyi mərhələləri izah edir (Taşdemir, 2009, 304).

Allaha sevgi

Bəktaşi təlimində birinci və ən vacib prinsip Allaha olan saf və səmimi sevgidir. Bəktaşilər üçün Allah sevgisi – bütün varlığın mərkəzi olan ilahi məhəbbətə yönələn bağlılıqdır. Onların inancına görə, insan yalnız Allaha aşiq olmaqla həqiqi mənada varlıq qazanıb, Onunla vəhdətə qovuşur. Allah sevgisi fərdi eqo və maddi dünyadan uzaqlaşdırır, insanı ali mənəvi səviyyəyə çatdırır. Bu sevgi ilahi hikmətə açılan qapıdır və bəktaşiliyin mənəvi yolu bu sevgi ilə başlayır.

Mənaya nüfuz etmək

Bəktaşi təlimində ikinci vacib mərhələ zahiri formadan aralanıb, dərin mənaya yönəlməkdir. Bu təlim fərdləri zahiri ibadət və ənənələrdən uzaqlaşdırır, ruhun həqiqətə və mənaya çatması yoluna yönəldir. Bəktaşilər üçün əhəmiyyətli olan formadan çox onun arxasındakı mənadır. Zahiri ibadətlər, rituallar və dini qaydalar yalnız vasitədir. Əsas olan insanın iç dünyası və mənəvi inkişafıdır. Bu mərhələdə bəktaşi müridləri zahiri dini formaları aradan qaldırıb, dərin həqiqəti dərk etməyə çalışırlar.

İnsanlar arasında sevgi

Bəktaşi təliminin üçüncü mərhələsi insanlar arasında sevgi və qardaşlıqdır. Bəktaşilər üçün bütün insanlar ilahi yaradılışın təcəssümüdür. Bu kontekstdən hər kəsə sevgi və hörmət göstərilməlidir. İnsanlar arasında sevgi, ədalət, sülh və qardaşlıq bəktaşiliyin əsas təməlləridir. Təriqətin fəlsəfəsi insanlara sevgi ilə yanaşmağı, hər kəsə dəyər verməyi və sosial ədaləti müdafiə etməyi vurğulayır. Bəktaşilikdə insanlar arasında bərabərlik və sosial harmoniyanın yaradılması ilahi sevginin təzahürü kimi qəbul edilir.

İnsanın daxilindəki cövhər

Bəktaşiliyin dördüncü mərhələsi insanın daxilində mövcud olan ilahi cövhərin aşkarlanmasıdır. Təlimə görə, hər bir insanın daxilində ilahi nur və cövhər mövcuddur və bu, fərdin həqiqi mahiyyətini təşkil edir. Təriqətin məqsədi insanın bu daxili cövhəri kəşf etməsi və onun vasitəsilə Allaha daha yaxın olmasıdır. İnsan yalnız öz daxilindəki ilahi potensialı tanımaqla və onu inkişaf etdirməklə mənəvi kamilliyə yetişə bilər. Bəktaşilər bu cövhərin aşkarlanmasını insanın mənəvi təkamülünün ən yüksək zirvəsi kimi qəbul edirlər.

Hacı Bektaş Vəli təhsil alan fərdləri iki qismə bölür – yetişmiş və xam insan. Əgər insan dünyəvi təhsil sistemində olduğu kimi, yalnız

orta məktəb, ali təhsil və digər pillələri keçirsə, o, xam, kamil insan olmaq üçün ölməzdən əvvəl ölməyi bacarırsa, yetişmiş insan hesab edilir. “Ölməzdən əvvəl ölmək” ifadəsi insanın nəfsani arzularından və eqosundan qurtulması, yəni öz eqosunu öldürməsi anlamına gəlir (Eğri, 2006,179). Bəktaşilikdə bu, mənəvi inkişafın və kamilliyin ən vacib mərhələlərindən biri kimi qəbul olunur. İnsanın kamilləşməsi nəfsin təsirindən azad olmaq və daha yüksək mənəvi səviyyəyə çatmaqla mümkündür. “Ölmək”, həm də mənəvi baxımdan yenidən doğulmağı simvollaşdırır. Bu ifadə köhnə mənlikdən imtina edib, kamil insana çevrilmə prosesini ifadə edir. Bu mənada, insanın mənəvi ölümündən sonra daha yüksək şüur səviyyəsinə çatması kamil insan olmaq yolunda mühüm addımdır. “Ölmək”, eyni zamanda, zahiri həyatın tələblərindən yan keçib, daxili dünyaya və ruhi inkişafa yönəlməyi simvollaşdırır. Bəktaşilikdə insanın öz iç dünyasına diqqət yetirməsi, daxili sülhə və harmoniyaya çatması böyük əhəmiyyət daşıyır. Bu, fərdin daxilindəki ilahi nurla əlaqəyə girməsi və mənəvi oyanış yaşamasıdır.

Hacı Bektaş Vəlinin öz təlim və tərbiyə mövzusunda Həzrət Əlini nümunə kimi götürməsi bəktaşi təriqətinin inanc sistemində və mənəvi dəyərlərində böyük əhəmiyyət kəsb edir. Həzrət Əli İslam tarixində yalnız Məhəmməd Peyğəmbərin yaxın qohumu və ilk müsəlmanlardan deyil, o, eyni zamanda, elm, ədalət, cəsarət və mənəviyyat rəmzi kimi də qəbul edilir. Bəktaşi təlimində Həzrət Əli yalnız tarixi fiqur deyil, o, eyni zamanda, ideal kamil insan obrazıdır və onun həyatı, davranışları bəktaşilər üçün təlim və tərbiyədə ali nümunədir. Həzrət Əli ədalətin və əxlaqi dəyərlərin təcəssümü olaraq tanınır. O, daim haqqa və ədalətə xidmət etmiş, başqalarına qarşı mərhəmətli və vicdanlı davranmışdır. Hacı Bektaş Vəli Həzrət Əlini təlim və tərbiyə modelinə çevirmiş, bəktaşi müridlərinin əxlaqi inkişafında və kamilliyə çatmasında onun ədalət prinsipini əsas qayə kimi götürmüşdür. Bu, bəktaşi müridlərinin hər zaman ədalətli, dürüst və əxlaqlı davranmalarına istiqamət verir.

Həzrət Əli İslam tarixində elm və hikmətin simvolu kimi də qəbul edilir. Onun söylədiyi hikmətli sözlər və dini biliklər İslam düşüncəsində dərin izlər buraxmışdır. Hacı Bektaş Vəlinin Həzrət Əlini təlimdə nümunə olaraq götürməsi onun elmə və dini elmlərə yüksək dəyər verməsi ilə də bağlıdır. Bəktaşilik təlimində elmə maraq, biliyə hörmət insanın kamilliyə gedən yolunda əsas prinsiplərdən biridir. Həzrət Əli elmi bilikləri Allahı tanımaq və mənəvi inkişafa nail olmaq vasitəsi kimi qəbul edirdi və bu da bəktaşi təlimində əsas mövzulardan biridir.

Bəktaşilikdə əhli-beyt mənəvi yolun və təlimin mərkəzindədir. Hacı Bektaş Vəli Həzrət Əlinin əhli-beytə bağlılığına xüsusi vurğu etmiş, bu

nəsli mənəvi rəhbər kimi görmüşdür. Bəktaşilər üçün Həzrət Əlinin həyatı və onun əhli-beytlə bağlılığı təmizliyin, fədakarlığın və mənəvi dəyərlərin rəmzidir. Bu səbəbdən də Hacı Bektaş Vəlinin təlimində əhli-beytə sevgi və onların yolunu izləmək cərəyanın inanc sisteminin əsas hissələrindən biridir.

Hacı Bektaş Vəli təlim və tərbiyədə elmə və hikmətə böyük dəyər vermişdir. O, biliyin, xüsusən də mənəvi biliklərin insanın Allahı tanıması və kainatın sirlərini dərk etməsi üçün əsas olduğunu vurğulayırdı. Elm bəktaşi tərbiyəsində mənəvi təkamülün bir yolu kimi qəbul edilirdi və bu, Hacı Bəktaş Vəlinin müridlərinə elm axtarışına yönəlməyi öyrətməsinin əsas sütunudur.

Hacı Bektaş Vəlinin əxlaq anlayışında nəfsin tərbiyəsi və özünü idarə etmək mühüm yer tutur. O, insan nəfsinin arzularını nəzarətdə saxlamağı və daxili sükunətə çatmağı əsas məqsəd hesab edir. Nəfsin tərbiyəsi insanın mənəvi yüksəlişi üçün zəruri bir mərhələdir. Bu düşüncə bəktaşi tərbiyəsinin əsasını təşkil edən səbir, təmkin və nəfsə hakim olma anlayışları ilə bağlıdır.

Hacı Bektaş Vəli tərbiyəni insanın daxili mənəvi inkişafının vasitəsi kimi görür. O, tərbiyəni, sadəcə, zahiri qaydalar və məhdudiyyətlər çərçivəsində deyil, eyni zamanda, insanın daxili dünyasının və nəfsinin saflaşması kimi başa düşürdü. Tərbiyə Hacı Bektaş Vəli üçün insanın kamilliyə gedən yolunda ən mühüm amildir. Onun fəlsəfəsinə görə, kamil insan olmaq üçün nəfsə qalib gəlmək, mənəvi təmizliyə yetişmək vacibdir. Bu, "ölməzdən əvvəl ölmək" sufi anlayışına uyğun olaraq, nəfsin ölməsini və mənəvi diriliyi simvollaşdırır.

Bəktaşi ədəbiyyatında təlim-tərbiyə

Bəktaşi şeirlərində tərbiyə nəfsin cilovlanması və mənəvi təmizlənməsi prosesinə yönəldilir. Dünyəvi arzular və ehtiraslar mənəvi inkişafın qarşısında duran əsas maneə kimi təqdim olunur. Nəfsin yolverilməz arzularından azad olmaq təlimin mühüm tərkib hissəsidir. Bəktaşi ədəbiyyatında təlim-tərbiyə mövzusu dərin mənəvi-əxlaqi məzmunlarla doludur. Bu təriqətin böyük hörmət bəslədiyi şairləri, xüsusilə də Yunus Əmrə, Pir Sultan Abdal, Virani Baba, Qul Nəsimi və başqaları mənəvi kamilliyə yetişmə, əxlaq, sevgi, qardaşlıq, insanın daxili tərbiyəsi ilə bağlı fikirlərini poetik formada ifadə etmişlər. Bəktaşi şeirləri, sufi fəlsəfəsinə uyğun olaraq, insanın nəfsinə hakim olması, mənəvi yüksəlişi və Allah sevgisinə yönəlməsini tərənnüm edir.

Hacı Bektaş Vəli şeirlərinin birində belə buyurulur:

Ara-sıra bir bax könlünə,
Könüldür Haqqın taxtı.
Kim könül yıxarsa,
O, Haqq evini yıxmışdır

(Eröz,1990, 211).

Hacı Bektaş Vəli bu şeirində insan qəlbinin Allahın evi olduğunu vurğulayır, qəlbə zərər verməməyin, insanları incitməməyin mənəvi tərbiyənin əsas şərti olduğunu bildirir. Bu fikir bəktaşi təlimində sevgi və insanlara hörmətin əsas götürülməsi ilə əlaqədardır.

Virani Baba da bəktaşi poeziyasının önəmli nümayəndələrindəndir və onun şeirlərində mənəvi tərbiyə, sevgi və özünütərbiyə mövzusu geniş yer tutur:

Aşiq olsan, gəl bu meydana,
Durma, seyran et cananı,
Dünya malına məftun olan-
Çəkər bu dünyanın xəzanını

(Uğur, 2020, 65)

Bu misralar tərbiyə və mənəvi kamilliyə çağırışdır. Şair dünyəvi mal və mülkün nəfsani arzulardan qaynaqlandığını vurğulayır. Virani Baba insanlara mənəvi dəyərlərə üstünlük verməyi öyrədir. Dünya malına məftun olmaq əsl tərbiyədən uzaq qalmaq deməkdir və bu, mənəvi boşluğa səbəb olur.

Qul Nəsimi hürufi fəlsəfəsi ilə əlaqəli olan bəktaşi şairlərindən biri kimi tanınır. Onun şeirlərində insanın mənəvi təkamülü və kamil insan olma yolunda tərbiyəsi əks olunur:

Mənəm haqqı söylərəm,
Batinim pünhan deyil.
Ərənlərə sirr verdim,
Aşiqəm bu cismimdə

(Temizkan, 1998, 311)

Şeirdə insanın daxilində olan mənəvi dəyərlərin və Həqqin aşkarlanması mövzusu tərənnüm olunur. Qul Nəsimi şeirlərində tərbiyə insanın daxili mənəviyyatının saflaşması və batini həqiqətlərin aşkarlanması kimi təqdim edilir.

Pir Sultan Abdalın şeirlərində də tərbiyə mövzusu dərin batini və mənəvi mənalarla ifadə olunur. Onun şeirləri bəktaşi tərbiyəsinin mənəvi dərinliyini və insanın Allaha doğru səfərini əks etdirir. Pir Sultan Abdal və digər bəktaşi şairləri tərbiyəni ilahi həqiqətə sadiqlik və verilən anddan dönməməklə əlaqələndirirlər. Bu, tərbiyənin, bir növ, təcrübə və sınaq yolu olaraq qəbul edildiyini göstərir:

Bir ikrar verdim şol uca divana,
Dönsəm, dönə bilməm yolumdan mənim.
Haqqa talib oldum, and içdim cana,
Dönsəm dönə bilməm yolumdan mənim
(Atalay, 1991,140).

Bu misralarda Pir Sultan Abdal tərbiyə və iradə mövzusunu vurğulayır. Burada tərbiyə Allah yoluna sadiq qalmaq, verilən anddan dönməmək kimi təsvir edilir. İkrah vermək sufi təriqətlərində, bir növ, özünü tərbiyə etməyə, nəfsə hakim olmağa və Allah yolunda sadiqliyə işarədir.

Ümumilikdə, Bəktaşi poeziyasında təlim-tərbiyə insana yalnız əxlaqi qaydaları öyrətməklə qalmır, onu mənəvi kamilliyə, özünü tanımağa və ilahi sevgi ilə birləşməyə doğru yönəldir. Bu baxımdan, tərbiyə fərdi, həmçinin kollektiv şəkildə həyata keçən mənəvi səfər kimi təsvir olunur.

Bəktaşi ədəbiyyatında təlim-tərbiyə mövzusu dərin mənəvi-əxlaqi və batini anlamlarla işlənmişdir. Bu şeirlər vasitəsilə bəktaşi şairləri insanlara mənəvi kamilliyə çatmağı, nəfsani arzulardan uzaqlaşmağı və Allah yolunda sadiq qalmağı öyrədirlər. Şairin şeirlərində təlim-tərbiyə, sevgi, qardaşlıq və əxlaq əsas mövzular kimi öz əksini tapmışdır.

Nəticə

Hacı Bektaş Vəlinin təlim-tərbiyə ilə bağlı düşüncələri fərdi, eləcə də cəmiyyəti mənəvi-əxlaqi dəyərlər üzərində formalaşdırmağa yönəlmişdir. O, insanın daxili aləminin tərbiyəsini və mənəvi inkişafını ön plana çıxarmış, kamil insan olmağın nəfsin təmizlənməsi ilə mümkün olduğunu vurğulamışdır. Hacı Bektaş Vəlinin təlimində tərbiyə, insanın daxilən saflaşması, nəfsə hakim olması, Allahın yaratdığı hər şeyə sevgi və mərhəmətlə yanaşmaqdan ibarətdir. Əxlaq onun təliminin əsasını təşkil edir. O, insana “əlinə, dilinə, belinə sahib ol” prinsipi ilə, yəni əxlaqi-mənəvi tərbiyənin hər sahəsinə diqqət yetirməyi öyrədir. Hacı

Bektaş Vəli ədalətin, dürüstlüyün, doğru yolda olmağın və başqalarını incitməməyin əhəmiyyətini vurğulayır, “İncitmə ki, incitməsinlər" kəlamı ilə insanların bir-birlərinə qarşı mərhəmətli və sevgidolu olmasını tərbiyənin mərkəzi şərti kimi göstərir. O, həmçinin sevgi və qardaşlıq əsasında bir cəmiyyətin formalaşmasını tərbiyənin nəticəsi kimi görür. Tərbiyə insanı nəfsani arzulardan uzaqlaşdırır, eləcə də mənəvi prinsiplərə sadiq qalmağa, elm və hikmət axtarışında olmağa, başqalarına xidmət etməyə yönəldir. Hacı Bektaş Vəlinin fikirlərində tərbiyə yalnız fərdi inkişaf vasitəsi deyil, eyni zamanda, insanları və cəmiyyəti mənəvi yüksəlişə aparan yol kimi qəbul edilir.

Bəktaşi şairlərinin şeirlərinə nəzər salsaq, bu təriqətdə tərbiyə və təlimin çox mühüm mövqeyə malik olduğunu görə bilərik. Bu şeirlər vasitəsilə insan nəfsini cilovlamağa, dünyəvi arzular və ehtiraslardan uzaqlaşmağa, Allah sevgisinə çatmağa və mənəvi təmizliyə nail olmağa çağırılır. Bəktaşi şairləri, o cümlədən Hacı Bektaş Vəli, Pir Sultan Abdal, Qul Nəsimi, Virani Baba və digərləri insanın daxili kamilliyi, qardaşlıq, sevgi və əxlaq mövzularını şeirlərində ön plana çıxarırlar. Tərbiyə yalnız əxlaqi öyrətməni deyil, həmçinin mənəvi səfəri və ilahi həqiqətə sadiqliyi əks etdirir. Bu poeziyada mənəvi inkişaf, nəfsə hakim olmaq və Allahın yolunda sadiqlik ən mühüm məqsədlər kimi təqdim edilir.

Beləliklə, Hacı Bektaş Vəlinin təlim-tərbiyə ilə bağlı fikirləri insanın mənəvi kamilliyinə, əxlaqi dəyərlərə və cəmiyyətə xidmətə yönəlmiş dərin fəlsəfəyə söykənir. Bu düşüncələr insanların daha mərhəmətli, ədalətli və sevgidolu bir cəmiyyət qurması üçün vacib amil kimi təqdim edilir. Şairin təsəvvüründə tərbiyə istər fərdin, istərsə də cəmiyyətin harmonik və kamil hala gəlməsi üçün əsas şərtdir.

Ədəbiyyat

Kılıç Hicran,G. (2023). Hitap konulu vaaz dergisi, Eğitim, öğretim. Hadislerde İlim.İstanbul: Ordu İl müftülüğü. (41 s.).

Bilmez, B. Bozurt, S. (2022). Hacı Bektaş Veli hayatı ve dönemi üzerine metinler. İstanbul: İBB Kütüphane ve Müzeler Müdürlüğü yayınları. (344 s.)

Çelik, H. (2014). Alevilik ve bektaşilikte gönül eğitimi.İstanbul: Hünkar Alevilik Bektaşilik Akademik Araştırmalar Dergisi, haziran, yıl 1, say 1. (100 s.).

Özbay, H. (1990). Makalat Hacı Bektaş Veli. Ankara: Kültür bakanlığı yayınları, (57 s.).

Aytaş,G. (2000). Makalatı Gaybiyye ve kelimatı Ayniyye. İstanbul, (469 s.).

Taşdemir, M. (2009). İlköğretimde değerler eğitimi ve değerlerin Alevi-bektaşi değerleri ile ilişkiliği. İstanbul: Türk kültürü ve Hacı Bektaş Veli araştırma dergisi say 51, (303-326 s.).

Eğri, O. (2001). Bektaşilikte tasavvufi eğitim.İstanbul:Horasan yayınları:(202s.).

Eröz, M. (1990). Türkiyede Alevilik Bektaşilik. Ankara: Başbakanlık yayınevi (438 s.).

Uğur, A. (2020). Klasik türk şiirinde bektaşilik. İstanbul: Paradigma Akademi yayınevi (324 s.).

Temizkan, M. (1998). I türk kültürü ve Hacı Bektaş Veli sempozyumu bildirileri. Akara: (311-316 s.).

Atalay, B. (1991). Bektaşilik ve edebiyatı. İstanbul: Anadolu matbaacılık. (191 s.).

Prezident İlham Əliyev və Azərbaycanda dini təhsil modeli

Zeynəb Həcəmova,
Azərbaycan Milli Elmlər Akademiyası
Rəyasət Heyəti aparatının baş mütəxəssisi,
Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı
Bakı, Azərbaycan
zeynebhecemova1990@gmail.com
https://orcid.org/0000-0001-5886-0984

"İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir.
Biz öz dinimizə bağlıyıq, dünyada İslam mədəniyyətini təbliğ edirik"

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Xülasə

Tədqiqatın əsas məqsədi Prezident İlham Əliyevin Azərbaycanda dini etiqad məsələlərinə nümunəvi və tolerant münasibətini əks etdirən faktları işıqlandırmaq, ölkədə dünyəvi və dini təhsil arasında mövcud olan oxşar cəhətlərin təhlilini aparmaq, əsaslandırılmış xüsusatlar əsnasında iki istiqamət üzrə milli-mənəvi inkişaf prioritetlərini ortaya çıxarmaqdır. Yazıda, həmçinin sadaladığımız amillərin tətbiq yollarının aşkarlanması mövzusuna da toxunulmuşdur. Araşdırmada qeyd olunur ki, qarşıya qoyulan məqsəd və vəzifələr yerinə yetirilmiş, İslam dininin dünvəyi elmlərlə əlaqəsi müəyyənləşdirilmiş və müvafiq nəticələr əldə edilmişdir. Tədqiqatda ilk dəfə Prezident İlham Əliyevin Azərbaycanda sosial-dini strukturun ölkənin gələcək milli özünüdərk perspektivinə çevrilməsi istiqamətindəki fəaliyyəti, dini və dünyəvi təhsillə yanaşı, inkişaf yolları elmi cəhətdən geniş təhlil olunmuş, əsaslandırılmış və müvafiq tövsiyələr verilmişdir. Elmi məqalədə dini və dünyəvi təhsilin birgəyaşayış elementlərinə, dövlətin dinə və insanların etiqadına qarşı olan ehtiram məsələlərinə geniş aydınlıq gətirilmişdir. Azərbaycanda dini təhsilin formaları haqqında lakonik məlumat verilmiş, müvafiq

əlaqələndirmələr aparılmış, ölkədə din siyasətinin maarifçiliklə paralel inkişafının üsulları təhlil olunmuşdur.

Tədqiqatın metodoloji əsasını dövri müşahidə təşkil edir. Azərbaycanda etiqad və dini təhsil məsələlərində yeni sosial tənzimləmə qaydalarının müəyyənləşdirilməsi ölkədə milli-dini ideologiyanın formalaşması istiqamətində əldə olunan əsas elmi nəticələr bunlardır: *dinin mənəvi-psixoloji tərəflərinin erkən yaşdan etibarən uşaqlara təbliği; dini etiqadın sivilizasiyalararası əməkdaşlığa inteqrasiyası və milli özünüdərk motivinin gücləndirilməsi.*

Açar sözlər: *dövlət dəstəyi, dini etiqad azadlığı, İslam birliyi, dini təhsil; maarrifçilik, dini təhlükəsizlik, mənəvi inkişaf.*

President Ilham Aliyev and the Model of Religious Educatıon in Azerbaijan

Zeynab Hajamova
Senior specialist, Presidium of ANAS;
PhD Candidate,
ANAS Institute of Philosophy and Sociology
Baku, Azerbaijan
zeynebhecemova1990@gmail.com
https://orcid.org/0000-0001-5886-0984

Abstract

The main purpose of the study was to illuminate the facts that reflect the exemplary and tolerant attitude of President Ilham Aliyev to the issues of religious belief in Azerbaijan, to analyze the existing similarities between secular education and religious education in the country, to reveal the national-spiritual development priorities between the two directions based on justified features, and to reveal ways of applying them. By fulfilling the set goals and tasks, the relationship between Islamic religion and worldly sciences was determined and relevant results were obtained. During the conducted research, for the first time, the activities of President Ilham Aliyev in the direction of transforming the socio-religious structure into the perspective of the country's future national self-awareness and ways of developing

religious education together with secular education were scientifically extensively analyzed, substantiated and appropriate recommendations were given. In the scientific article, the elements of coexistence of religious and secular education, respect issues of the state towards religion and people's religious belief have been clarified. Laconic information about the forms of religious education in Azerbaijan was given, relevant connections were made, and methods of parallel development of religious policy and education in the country were analyzed.

The methodological basis of the research is periodical observation and historicity. The following are the main scientific results obtained during the research conducted in the direction of the determination of new social regulation rules in the issues of religious belief and religious education in Azerbaijan and the formation of a new national-religious ideology in the country: *preaching spiritual and psychological aspects of religion to children from an early age; integration of religious faith into intercivilizational cooperation and strengthening of the motive of national self-awareness.*

Keywords: *state support; freedom of religion; Islamic unity, religious education; education; religious security; spiritual development*

Президент Ильхам Алиев и модель религиозного образования в Азербайджане

Зейнаб Гаджамова
Аппарат Президиума НАНА,
Старший специалист
Диссертант Института философии и социологии НАНА
Баку, Азербайджан
zeynebhecemova1990@gmail.com
https://orcid.org/0000-0001-5886-0984

Резюме

Основная цель исследования заключалась в том, чтобы осветить факты, отражающие образцовое и толерантное отношение Президента Ильхама Алиева к вопросам религиозных убеждений

в Азербайджане, проанализировать существующие сходства между светским образованием и религиозным образованием в стране, выявить национальную определить приоритеты духовного развития между двумя направлениями на основе обоснованных особенностей и выявить пути их применения. Путем реализации поставленных целей и задач была определена связь исламской религии с мировыми науками и получены соответствующие результаты. В ходе проведенного исследования впервые научно широко была научно обоснована деятельность Президента Ильхама Алиева в направлении преобразования общественно-религиозной структуры с учетом перспективы будущего национального самосознания страны и путей развития религиозного образования совместно со светским образованием. проанализированы, обоснованы и даны соответствующие рекомендации. В научной статье разъяснены элементы сосуществования религиозного и светского образования, вопросы уважения государства к религии и религиозных убеждений людей. Была дана лаконичная информация о формах религиозного образования в Азербайджане, установлены соответствующие связи, проанализированы методы параллельного развития религиозной политики и образования в стране.

Методологической основой исследования являются периодическое наблюдение и историчность. Ниже приведены основные научные результаты, полученные в ходе исследований, проводимых в направлении определения новых правил социального регулирования в вопросах религиозного убеждения и религиозного образования в Азербайджане и формирования новой национально-религиозной идеологии в стране: *проповедь духовно-психологических аспектов религии детям с раннего возраста; интеграция религиозной веры в межцивилизационное сотрудничество и усиление мотива национального самосознания.*

Ключевые слова: *государственная поддержка; свобода религии; Исламское единство, религиозное образование; образование; религиозная безопасность; духовное развитие*

Giriş

Azərbaycan Respublikasının Konstitusiya qanunlarına görə, din dövlətdən ayrıdır və Azərbaycan dünyəvi dövlətdir. Azərbaycanda ölkə əhalisinin 93,4 faizi İslam dininə etiqad edir. Qeyd edək ki, dini etiqadı səmərəli istiqamətə yönəltmək üçün dünyəvi təhsilin dini təhsilə transferi zəruri hal kimi qəbul edilə bilər. Din – vahid bir düşüncə çərçivəsi və sistemidir. Din – daha çox həyat tərzidir. Dünyada, təxminən, 124-dən çox din və ya etiqadın mövcud olduğu söylənilir. Onlardan ən məşhuru İslam dinidir. Rəsmi rəqəmlərə görə, müsəlmanlar ölkə əhalisinin 93-96 faizini təşkil edirlər (https://az.wikipedia.org/wiki/Azərbaycanda_din). Uca Allah Quranı nazil edərək ayələrini başa düşməyi və əməl etməyi buyurmuşdur. Məhz İslam dininin müqəddəs və yeganə kitabı olan Qurani-Kərimdə Uca Allahın kəlamları qeyd edilir və bu elmi öyrənməkdə əsas məqsədin Allahın ayələrinin mənasını açıqlamaq və bəyan etmək məsələlərinə toxunulur (Şəkərov, 2020, 49). İslam dininin əsas məzmununu fərd və cəmiyyət arasında tarazlığın qorunması, haqq və ədalətin öz yerini tutması prinsipi təşkil edir. İslam dini təkcə ibadət ediləcək inanclar sistemi deyil, həm də Azərbaycan xalqının mədəniyyətinin mühüm tərkib hissəsidir. Ölkəmiz yenidən müstəqillik qazandıqdan sonra, ölkədə İslam haqqında məlumat çoxalmış, yeni məscidlər tikilmiş, mədrəsələr və universitetlər qurulmuş, gənclər xarici ölkələrdə ilahiyyat elmləri üzrə təhsil almağa getmişlər. Müsəlmanların dini təhsil ocaqlarına gəldikdə isə onların fəaliyyətinə yalnız müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının verdiyi lisenziya əsasında icazə mümkündür (https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanda_din).

Azərbaycanda dini təhsil

Azərbaycan dünyəvi dövlət olduğundan və dini tədris dünyəvi mahiyyət kəsb etdiyindən, elmi cəhətdən əsaslandırılır və dünya təcrübəsinə inteqrasiya edilərək tətbiq olunur (https://scara.gov.az/az/xeberler/print/ilham-eliyevden-islam-maarifciliyinin-azerbaycan-modeline-deyerli-tohfe).

Məlumdur ki, Azərbaycanda dini təhsil müstəqillik dövründən etibarən mürəkkəb mərhələlərdən keçmişdir. Hazırda ölkəmizdə bir neçə pillədə dini təhsil həyata keçirilir. İbtidai şəkildə dini biliklər orta ümumtəhsil müəssisələrində verilir. Həmçinin vətəndaşlar istədikləri dildə fərdi qaydada və ya başqaları ilə birlikdə dini təhsil ala bilirlər. Respublikamızda ali dini təhsil verən ilk mərkəzlər – Bakı İslam

Universiteti və Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi olmuşdur. SSRİ Nazirlər Soveti yanında Dini İşlər Şurasının 17.01.1989-cu il tarixli 2№-li protokoluna əsasən, Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Bakı İslam Mədrəsəsi təsis olunmuşdur. Mədrəsə 1991-ci ilin yanvarında Bakı İslam İnstitutuna çevrilmiş, 1997-ci ildən isə rəsmi dövlət qeydiyyatına alınmışdır. Prezident İlham Əliyevin 2018-ci il fevralın 9-da imzaladığı Sərəncamda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə öz tabeliyində dövlət ali dini təhsil mərkəzi olan Azərbaycan İlahiyyat İnstitutu yaratmaq tapşırılmışdır. Bundan sonra Bakı İslam Universitetinə qəbul dayandırılmışdır. Qeyd edək ki, İlahiyyat İnstitutunda Azərbaycan tarixi, Xarici dil (ingilis dili), Azərbaycan dili və nitq mədəniyyəti, Məntiq, Fəlsəfə, Azərbaycan Respublikası Konstitutiyası, Ərəb dili, Qurani-Kərim (əlifba, təcvid), İnformatika və kompüter texnologiyası, İslam tarixi, İslam hüququ, Müqəddəs mətnlərin hermenevtikası, Müqayisəli teologiya, Mistisizm, Multikulturalizmə giriş, Azərbaycanda dini cərəyanlar, Din psixologiyası, Din fəlsəfəsi, Din Sosiologiyası, Əxlaq fəlsəfəsi, Yəhudilik və Xristianlıq və digər fənlər tədris olunur (https://www.google.az/books/edition/T%C3%BCrk_Devletlerinde_Din_Devlet_%C4%B0li%C5%9Fkil/GH95EAAAQBAJ?hl=ru&gbpv=1).

Azərbaycanda bu günədək 992 dini qurum dövlət qeydiyyatına alınmışdır. Hazırda respublikamızda Azərbaycan İlahiyyat İnstitutu və 5 dini təhsil müəssisəsi (İslam Kolleci) fəaliyyət göstərir. Ölkə ərazisində 2 253 məscid mövcuddur. Respublikada, habelə 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Ölkədə, ümumilikdə, 748 pir və ziyarətgah müəyyən edilib. İşğaldan azad olunmuş ərazilərimizdə indiyədək təsbit edilən tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgahdır. Bu ərazilərdə 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. İşğaldan azad edilmiş ərazilərdə erməni vandalizminin qurbanına çevrilmiş dini abidələrin bərpası da dövlətin prioritetləri sırasındadır. Təsadüfi deyil ki, İlham Əliyev və Mehriban Əliyeva Ağdam, Şuşa məscidlərini ziyarət ediblər və ora Quran gətiriblər. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir. Zəngilan şəhər məscidi də bərpa edilən tikililər sırasındadır. Daşaltıda, Hadrutda yeni məscidlərin tikintisi məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir.

Azərbaycanda dini etiqada dövlətin münasibəti “Dini etiqad azadlığı” haqqında qanunla tənzimlənir. Ölkəmiz multikultural və tolerant dövlət olduğundan, Konstitusiya ilə təsbit edilən vicdan azadlığına

önəm verir. Buna görə də heç kim dini əqidəsinə görə təzyiqlə üzləşmir və Azərbaycan bu sahədə dünyada presedent yarada bilib. Heydər Əliyev Fondunun Azərbaycandakı tolerantlıq və multikultural dəyərlərin qorunaraq təbliğ edilməsi sahəsində fəaliyyəti də xüsusi vurğulanmalıdır. Fondun maliyyə dəstəyi ilə Daşkəsəndəki Cümə məscidində, Xəzər rayonunun Binə qəsəbəsindəki Möhsün Səlim və İmam Rza məscidlərində, Mərdəkan qəsəbəsindəki Pirhəsən ziyarətgahı və Heydər məscidində, Buzovna qəsəbəsindəki Cümə məscidində, Gəncə şəhərindəki Şah Abbas və Həzrət Zeynəb məscidlərində yenidənqurma və əsaslı təmir-bərpa işləri görülüb. Azərbaycanda dini inancın milli tələblər səviyyəsində inkişaf etdirilməsi üçün milli kadrların hazırlanması da prioritetdir (https://scara.gov.az/az/xeberler/print/ilham-eliyevden-islam-maarifciliyinin-azerbaycan-modeline-deyerli-tohfe).

Azərbaycan – tolerantlıq və multikulturalizm məkanı

Ölkəmiz ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə multikultural istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlər boyu bütün dinlərin, etnik qrupların nümayəndələri ərazilərimizdə bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı və çoxmillətli bir ölkədir. Dini və etnik müxtəlifliyimiz isə bizim böyük sərvətimizdir. Ölkəmizdə uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır. Respublikamız multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir. Multikulturalizm Azərbaycanda həyat tərzidir, həmçinin dövlət siyasətidir. Təsadüfi deyil ki, ölkəmizdə bu istiqamətdə bir çox önəmli addımlar atılmış və bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir (https://president.az/az/articles/view/34790) Əhalisinin böyük əksəriyyətinin İ*slam* dininə mənsub olmasına baxmayaraq, Azərbaycan həmin ölkələrdəndir ki, burada digər dinlərə münasibət hörmətə əsaslanır, insanların tolerantlıq və multikulturalizm şəraitində yaşamasına hər cür şərait yaradılır. Ölkəmiz müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, hər bir vətəndaşının dini etiqadına hörmətlə yanaşır (https://scara.gov.az/az/xeberler/print/ilham-eliyevden-islam-maarifciliyinin-azerbaycan-modeline-deyerli-tohfe).

Dinin xurafatdan təmizlənməsi və maarifyönümlü təbliği Azərbaycanda insanların zərərli dini-ideoloji təsirlərdən, radikal və ekstremist təriqətlərdən, xurafatdan və mövhumat elementlərindən uzaq

birgə mədəniyyətlərin qarşılıqlı anlaşma şəraitində etiqadına xidmət edir. Məscidlərin savadlı din xadimləri ilə təmin edilməsi, yüksək dini və dünyəvi biliklərə, intellektual səviyyəyə malik, ölıkəni sevən, dövlətinin mövqeyində duran vətəndaşların və mütəxəssislərin yetişdirilməsi məsələsi Azərbaycanın din və etiqad siyasətinin əsas prinsiplərini təşkil edir (https://scara.gov.az/az/xeberler/print/ilham-eliyevden-islam-maarifciliyinin-azerbaycan-modeline-deyerli-tohfe).

Dinin maarifçilik və humanizm təzahürünə dövlət dəstəyi

Cəmiyyətin dini baxımdan maarifləndirilməsi və din təhsilinin metodologiyası baxımından tədrisinin həyata keçirilməsi Azərbaycanda dövlət-din münasibətlərində razılığın tənzimlənməsi istiqamətində faydalı olmasına xidmət edir (https://ait.edu.az/az/news/all/az-rbaycanda-dini-t-hsil-movcud-durum-v-v-zif-l-r-movzusu-muzakir-olunub).Müasir dövrdə dini təhsil sahəsində əsas vəzifələrdən biri də gənclərin bütün dinlər haqqında ətraflı məlumatlara malik olmasıdır. Dindən istifadə edən radikal və ekstremist qrupların təsiri altına düşməmələri üçün gənclərə dini biliklər düzgün öyrədilməli, dini ali və orta təhsil yüksək səviyyədə tədris olunmalıdır (https://ait.edu.az/az/news/all/az-rbaycanda-dini-t-hsil-movcud-durum-v-v-zif-l-r-movzusu-muzakir-olunub/).

Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Dövlət-din münasibətlərinin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur (https://president.az/az/articles/view/34790). Məlumdur ki, Azərbaycanda Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dinə, dini-tarixi abidələrin qorunub-saxlanılmasına xüsusi diqqət və qayğısı var (https://modern.az/aktual/386456/prezident-ilham-eliyevin-dini-siyaseti/). Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Şuşa şəhərinin 2024-cü il üçün *"İslam dünyasının mədəniyyət paytaxtı"* elan edilməsi ilə bağlı Sərəncamı da ölkədə dini etiqad və təfəkkür məsələlərinə bəslənilən yüksək qayğı və əhəmiyyətin bariz nümunəsidir (https://president.az/az/articles/view/62277). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda, Heydər Əliyev Mərkəzində *"2017 – İslam Həmrəyliyi İli: dinlər və mədəniyyətlərarası dialoq"* mövzusunda 150-dək nümayəndə, o cümlədən tanınmış dövlət, din və elm xadimləri, 8 beynəlxalq təşkilatın rəhbəri və təmsilçiləri, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələri, dini konfessiya rəhbərləri, hökumət və parlament üzvləri, diplomatik korpusun və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə keçirilən beynəlxalq konfransın açılış mərasimindəki nitqində qeyd

etmişdir: *"Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir"* (https://president.az/az/articles/view/26474).

Tarix boyu Azərbaycanda bir çox xalqların, etnik qrupların, dinlərin nümayəndələri məskunlaşmış, onlar arasında möhkəm dözümlülük əlaqələri olmuş, öz milli xüsusiyyətlərini, dinlərini və adət-ənənələrini qoruyub-saxlamış, milli, irqi və dini zəmində ayrı-seçkilik baş verməmişdir. Ölkəmizdə bütün dinlərin tarixi, mədəni abidələri və zəngin mənəvi irsi dövlət tərəfindən qorunur. Respublikada fəaliyyət göstərən bütün dini icmalar sərbəst, heç bir maneə olmadan fəaliyyət göstərir və dövlət qayğısı ilə əhatə olunur. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu siyasəti müasir dövrdə Prezident İlham Əliyev böyük uzaqgörənlik və uğurla davam etdirir. Ölkəmizdə yaşayan müxtəlif dinlərin nümayəndələrinə diqqət və qayğı göstərilməsi Azərbaycan hökumətinin din siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Məhz bu siyasət sayəsində dövlət dini icmalara diqqət və qayğı ilə yanaşır, hər il dövlət büdcəsindən dini icmalara yardımlar ayrılır, onların bayram və mərasimləri dövlət səviyyəsində qeyd edilir. Azərbaycan məhz bu siyasət nəticəsində bir sıra dövlətlərə nümunə göstərilir.

Prezident İlham Əliyev ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsinə, tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə, dini abidələrin təmir və bərpasına xüsusi önəm verir, davamlı olaraq dini icma liderləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır. Cənab İlham Əliyevin bilavasitə diqqət və qayğısı ilə 2014-cü ilin may ayında Azərbaycanda dini dözümlülük ənənələrinin daha da möhkəmləndirilməsi, milli və dini azlıqlara dövlət qayğısının artırılması məqsədilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Dövlət başçısının yüksək diqqət və qayğısı sayəsində son illərdə yüzlərlə məscid, tarixi mədəniyyət abidəsi, o cümlədən Təzəpir, Əjdərbəy və Şamaxı məscidləri, Bibiheybət, Gəncə və Bərdə İmamzadə ziyarətgahları yüksək memarlıq üslubunda təmir və bərpa olunmuşdur. Eyni zamanda, Bakıda öz möhtəşəmliyi və əvəzsiz memarlıq üslubu ilə seçilən Heydər məscidi inşa olunmuşdur (https://modern.az/aktual/386456/prezident-ilham-eliyevin-dini-siyaseti/).

Bəşəriyyət əsaslandırılmış şəkildə tədqiq və təfsir etdikdən sonra, İslam dinini tolerantlıq və mədəni inkişaf nümunəsi kimi tanımış və

etiqad etmişdir. Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi, elmi potensial cəhətdən islamşünaslıq sahəsində elmi-tədqiqat işlərinin genişləndirilməsi üçün imkan yaradılmışdır (Hüseynov, 2023, 31). Bu baxımdan, İslam dininin ictimai fikrin və sosial-siyasi təfəkkürün inkişafında mühüm rol oynaması və ölkə üçün xüsusi mədəniyyət obrazına çevrilməsi üçün çalışmaq lazımdır (Hazretali, 2020, 173). Bu proses necə həyata keçirilə bilər? Müdriklər demişlər: "Ağac yaş ikən, uşaq beşikdə ikən" (Hüseynzadə, 2021, 65). Fərd və cəmiyyət üçün yüksək mənəvi dəyərlər həyatı, əşyaları və hadisələri qiymətləndirməklə başlayır. İnsan elmə yiyələndikcə özünü güclü hiss edir. Bu baxımdan, uşaqlara onların dəyərli olması və cəmiyyətin inkişafı naminə əhəmiyyətli rolu izah olunmalıdır. İnsan həyatda bəşəriyyət üçün nəyin dəyərli, nəyin dəyərsiz olduğunu öyrənərək böyüməlidir. Mənəvi inkişaf və milli özünüdərk motivinin əsası da elə bundan ibarətdir. Dəyərlər insana və cəmiyyətə hər cəhətdən yüksək inam bəxş edir. Mənəvi inkişaf cəmiyyətin azadlığının mənbəyi olduğuna görə, sivilizasiyanın azadlığı da dəyərlər sisteminin gücündən asılıdır.

Dünyəvi və dini təhsilin transfer və birgəinkişaf məsələləri

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycanın hərb, dünya diplomatiya tarixində müdrik siyasəti ilə silinməz iz qoymuş, işğal edilmiş torpaqlarımızı azad edərək əbədi zəfər tarixini yazmış, xalqımıza qələbə sevincini yaşatmış Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsil sektoru sahəsində apardığı uğurlu siyasət qələbələrimizin rəhni və təminatçısı olmuşdur. Bu həm də ölkə təhsilinin, Azərbaycan məktəbinin, Azərbaycan müəlliminin qələbəsi olmuşdur. Təhsil sahəsində aparılan islahatlar, verilən fərman və sərəncamlar təhsildə böyük uğurların, nailiyyətlərin əldə edilməsinə səbəb olmuşdur. Təhsil siyasətinin təməlində məhz insan amili, hərtərəfli inkişaf etmiş şəxsiyyət, dərin elmi biliklərə yiyələnmək, texnika və texnologiyaya sahib olmaq, vətənpərvərlik, həmrəylik, humanizm, mənəviyyat tərbiyəsi vacib yer tutmuşdur (Hüseynzadə, 2021, 3). Buradan məlum olur ki, insanın fiziki və mənəvi gücü vəhdət təşkil edərsə, insan ucala və qələbə əldə edə bilər. İnsanda sağlam mənəviyyat olmasa, əxlaqi-ictimai münasibətləri cəmiyyətlə faydalılıq səviyyəsində qurmaq olmaz. Sağlam mənəviyyat düzlük, həqiqətpərəstlik, vətənsevərlik, milli təəssübkeşlik, halallıq və digər mənəvi keyfiyyətlər zəminində formalaşır. Bu barədə əsrlərboyu söhbət açılmış, mütəfəkkirlər həmin mövzuda kitablar yazmışlar. Ulu öndər Heydər Əliyevin

konseptual baxışlarında da qeyd edilir ki, Azərbaycan dili və İslam dini-mənəvi dəyərlərindən lazımınca faydalanmaq milli mənəviyat, milli vətənpərvərlik tərbiyəsi, azərbaycançılıq hissiyatının formalaşdırılması və mənəvi inkişafın tamamlanmasında geniş yer tutur (Hüseynzadə, 2021, 27-30). İrəli sürülən fikirləri rəhbər tutub qeyd edə bilərik ki, din başlıca olaraq vicdan məsələsidir. Vicdan təhsillə tamamlanmalıdır. Bu sahədə humanitar və ictimai elmlərin üzərinə ciddi vəzifələr düşür. Azərbaycan İslam dünyasının bir parçası olduğuna görə, qeyd edilən sahədə müvafiq araşdırmalar elmimizin nadir incisi olan Azərbaycan Milli Elmlər Akademiyasında da aparılır. Eyni zamanda, respublika və beynəlxalq miqyaslı konfranslar keçirilir. Azərbaycan Şərqlə Qərbin qovşuğında yerləşən dövlət olduğuna görə, belə tədbirlərdən biri 9-11 dekabr 1998-ci tarixində paytaxt Bakıda, Azərbaycan Milli Elmlər Akademiyasında keçirilmişdir. *"İslam sivilizasiyası Qafqazada"* mövzusunda beynəlxalq simpoziumun keçirilməsinə dair Sərəncam 1998-ci ilin fevralında ulu öndər Heydər Əliyev tərəfindən imzalanmışdır. Simpoziumda Türkiyə, Rusiya, ABŞ, Misir, Almaniya, Küveyt və digər ölkələrdən qonaqlar iştirak etmişlər (Hüseynov, 2023, 27-28). Tədbirdə Heydər Əliyevin söylədiyi böyük nitqin bir hissəsini Sizə təqdim edirik: ***"Sizi – Azərbaycanda, Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusuna həsr olunmuş beynəlxalq simpoziumun iştirakçılarını ürəkdən salamlayıram və sizə bu mötəbər işinizdə uğurlar arzulayıram.*** *Qafqaz dünyanın nadir xarakter daşıyan bir bölgəsidir. Qafqaz öz təbiətinə, coğrafi quruluşuna görə və Qafqazda qədim zamanlardan məskunlaşmış, min illər boyu yaşamış insanların xüsusiyyətinə, onların xarakterinə görə çox nadir bir bölgədir. Eyni zamanda, hesab edirəm ki, Qafqaz dünya xalqları üçün dünyanın çox maraqlı bir hissəsidir.* ***Məlumdur ki, Qafqazda islamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır. İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik gətiribdir, inkişaf, islami dəyərlər gətiribdir. Bu dəyərlər – müqəddəs kitabımız Qurani-Kərimdən gələn islami dəyərlər Qafqaz xalqlarının milli-mənəvi dəyərlərinin əsasını təşkil edibdir. Məlumdur ki, Qafqazda yaşayan xalqlar islam dinini qəbul***

edənə qədər də böyük mədəniyyətə, tarixə və özlərinə məxsus adət-ənənələrə malik olmuşlar. İslamın dini-mənəvi dəyərləri Qafqaz xalqlarının qədimdən yaranmış və inkişaf etmiş mənəvi dəyərləri ilə birlikdə xalqların yüksək milli-mənəvi dəyərlərini təşkil ediblər. Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik. Simpoziumun işinə uğurlar arzulayıram" (https://lib.aliyev-heritage.org/ AZ/9045952.html).

Elmi inkişafın yeni mərhələsində də AMEA-nın akademik Ziyad Bünyadov adına Şərqşünaslıq, Fəlsəfə və Sosiologiya institutlarında Azərbaycanda mövcud dini-etnik dözümlülük, dini tolerantlıq və mədəniyyətlərarası sivil münasibətlərin inkişafı istiqamətində tədqiqatlar aparılır. Müasir dövrdə Azərbaycan rəhbərliyi və xalqı qarşısında duran əsas vəzifələrdən biri malik olduğumuz zəngin dini və dünyəvi irsi daha dərindən öyrənmək, qoruyub-saxlamaq, gələcək nəsillərə ötürmək, tolerantlıq qaydalarına əməl etməkdən ibarətdir. Bu, hər bir Azərbaycan vətəndaşının üzərinə düşən tarixi məsuliyyətdir. Qeyd olunanlara istinad edərək söyləyə bilərik ki, tolerantlıq Azərbaycanın əvəzsiz, dünya xalqlarına nümunə göstəriləcək milli-mənəvi sərvətidir. Qeyd edək ki, son 200 ildə ilk dəfə olaraq Azərbaycan xalqı itirilmiş torpaqlarını geri qaytardı. Bu Zəfərin əsas qəhrəmanı və memarı Prezident İlham Əliyevdir. Onu da qeyd edək ki, düşmən işğal etdiyi bütün ərazilərdə dini ibadət ocaqlarımızı dağıdıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, azad edilən bütün torpaqlarda qısa müddətdə bütün ibadət ocaqlarının təmiri və bərpası sahəsində müvafiq işlər görülüb və vətəndaşlarımızın orada ibadətlərini sərbəst yerinə yetirə bilmələri təmin edilib (https://stm.az/az/news/447/azerbaycanda-dini-tehsil-movcud-veziyyet-ve-tecrube).

Məlum olduğu kimi, dini etiqad azadlığının təmin olunmasında və dini dözümlülük ənənələrinin möhkəmləndirilməsində mədəniyyətlərarası dialoq və dinlərarası əməkdaşlıq xüsusi rol oynayır. Bu reallığı nəzərə alan Azərbaycan dövləti Prezident İlham Əliyevin diqqət və qayğısı ilə bütün dinlərin dəyərlərinə hörmətlə yanaşır, ölkəmizdə tolerantlıq ənənələrini möhkəmləndirir, dini ədavət və düşmənçilik çağırışlarının qarşısını alır, xalqlar, dinlər və sivilizasiyalararası dialoqun və əməkdaşlığın gücləndirilməsinə çalışır (https://stm.az/az/news/447/azerbaycanda-dini-tehsil-movcud-veziyyet-ve-tecrube).

Dinlərarası dialoqun ölkəmizdə qədim tarixi vardır və müasir Azərbaycan bu ənənələrə sadiqdir. Respublikamızda bütün dinlərin nümayəndələri sərbəst yaşayır, fəaliyyət göstərir, öz dini ayinlərini icra edirlər. Beləliklə, ölkəmizdə çox gözəl ictimai ab-hava vardır. Beynəlxalq təşkilatlar, eyni zamanda, dünya dini liderləri Azərbaycanın bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirirlər (https://president.az/az/articles/view/34790). Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə görülən işlər və həyata keçirilən tədbirlər ölkəmizdə hər kəsin əqidə seçiminə hörmətlə yanaşıldığını isbat edir. Qəbul olunan qanun və normativ aktlar beynəlxalq hüquq və qaydalara uyğunlaşdırılaraq müvafiq sahədə görülən işlərin bütövlükdə əqidə azadlığının təmin edilməsinə, dövlətlə dini qurumlar arasında münasibətlərin qanun çərçivəsində hüquqi əsaslarla tənzimlənməsinə, ölkəmizdə bütün dinlərin bərabərhüquqlu olmasına, tolerantlığın ən yüksək səviyyədə təzahürünə, hökumətin bütün xalqların və etnik azlıqların hüquqlarına hörmətlə yanaşmasına, onların tarixi və mədəni irsinin öyrənilməsinə, qorunub saxlanılmasına xüsusi önəm verməsinə nümunəvi göstəricidir (https://scara.gov.az/az/xeberler/print/ilham-eliyevden-islam-maarifciliyinin-azerbaycan-modeline-deyerli-tohfe).

Nəticə

Tədqiqat zamanı əldə edilən əsas elmi nəticələr aşağıdakı kimi qruplaşdırılmış və elmi cəhətdən əsaslandırılmışdır:

- **dinin mənəvi-psixoloji tərəflərinin erkən yaşdan etibarən uşaqlara təbliği** – *məktəbyaşlı uşaqlarla müvafiq sahədə söhbətlərin aparılması və ya dini təhsilin tədris* prosesinə daxil edilməsi cəmiyyətdə dini təhlükəsizliyin təminatçısı ola bilər;

- **dini etiqadın sivilizasiyalararası əməkdaşlığa inteqrasiyası və milli özünüdərk motivinin gücləndirilməsi** – dini etiqadın mənəvi aqressivliyə, din və məzhəb ayrı-seçkiliyinə, terrorçuluğa, ekstremizmə, eləcə də milli, dini və etnik münaqişələrə yol açmaması üçün, əsasən də yeniyetmələk dövründə olan uşaqlarla ciddi söhbətlər aparılması İslam dininin, əslində, humanistlik və tolerantlıq çağırışı olması faktının diqqət mərkəzinə çatdırılmasını, o cümlədən, cəmiyyətin din adı altında yanlış istiqamətə yönəlməməsini təmin edə bilər. Bəşəriyyətin gələcək taleyi naminə Prezident İlham Əliyevin tətbiq etdiyi mənəvi-siyasi, məntiqi yanaşmanı tamamlayar.

Yekun olaraq qeyd etmək istərdim ki, sadə vətəndaş və xalqın nümayəndəsi olaraq cəmiyyətin inkişafı naminə passionar olmağı, təkliflər irəli sürməyi və xalqın rifahı naminə çalışmağı başlıca vəzifə olaraq qəbul etmək, Azərbaycan Respublikasının Prezidenti, cənab Ali Baş Komandan İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ətra fında sıx birləşmək Vətənini sevən hər bir azərbaycanlının milli-mənəvi borcudur.

Ədəbiyyat

https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanda_din

https://scara.gov.az/az/xeberler/print/ilham-eliyevden-islam-maarifciliyinin-azerbaycan-modeline-deyerli-tohfe

https://president.az/az/articles/view/34790.

https://ait.edu.az/az/news/all/az-rbaycanda-dini-t-hsil-movcud-durum-v-v-zif-l-r-movzusu-muzakir-olunub/.

https://president.az/az/articles/view/26474

https://president.az/az/articles/view/62277

https://islamevi.az/ezemetli-quranin-tefsiri-ibn-kesir-ii-cild.

https://lib.aliyev-heritage.org/AZ/9045952.html

Hüseynzadə, R.L., Əzizova Z.M., Əliyev S.H. (2021). Pedaqogika. Dərslik. Bakı: Mütərcim (488 s.).

Hüseynov, S. (2023). Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu. Bakı: “Tuna” QSC mətbəəsi (277 s.).

https://oxu.az/siyaset/ilham-eliyev-ve-mehriban-eliyevanin-dine-dini-abidelere-xususi-diqqet-ve-qaygisi-serh

https://stm.az/az/news/447/azerbaycanda-dini-tehsil-movcud-veziyyet-ve-tecrube

https://modern.az/aktual/386456/prezident-ilham-eliyevin-dini-siyaseti/.

https://www.google.az/books/edition/T%C3%BCrk_Devletlerinde_Din_Devlet_%C4%B0li%C5%9Fkil/GH95EAAAQBAJ?hl=ru&gbpv=1

Kağız formatı: 70x100 1/16
Fiziki çap vərəqi: 22. Sifariş: 103
Tiraj: 200

NƏŞRİYYAT - POLİQRAFİYA

"Təhsil Nəşriyyat-Poliqrafiya" müəssisəsinin mətbəəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
Bakı, AZ 1052, F.Xoyski küç., 149
Tel.: (+994 12) 567-81-28/29